
بسم الله الرحمن الرحيم

# ARİFLƏRİN HAQQA QUVUŞMA MƏQAMI

*Şəriət*
*Təriqət*
*Mərifət*
*Həqiqət*

BAKI - 2016

**Müəllif:**
***Həsən Hüseyni***

**Kitabın adı:**
***"Ariflərin Haqqa Qovuşma Məqamı"***
***Şəriət, Təriqət, Mərifət, Həqiqət***

**Ön söz:**
***Dilbər Ağayeva***

**Redaktor:**
***Rövşən Fətişoğlu***

***Bakı - 2016, 600 səh.***

***ISBN: 978-9952-29-085-1***
© Həsən Hüseyni

***BU KİTABI***
***HÜNKAR HACI BEKTAŞ VƏLİNİN***
***VƏ***
***YEDDİ ULU OZANIN***
***PAK VƏ MÜQƏDDƏSRUHLARINA***
***İTHAF EDİRƏM***

***Pir Sultanım gerçek veli,***
***Erenlerdençekmemeli.***
***Onikiimamınyolu,***
***HünkarHacıBektaşVeli.***

## ÖN SÖZ

**Bismilləhir-Rahmənir-Rahim!**

Nə zamansa, kimsə mənə desəydi ki, mən yazıma "Bismillah" kəlməsi ilə başlayacağam inanmazdım. Ən azı bu mənə təəccüblü gələrdi. İndi nəinki, yazımı, bəlkə də hər işimi bu kəlmə ilə başlayıram. Bu da Hacı Həsənin xidmətidir. O Hacı Həsənin ki, artıq öz oxucularının hər birinin hafizəsində ondan nəsə var – Mənim kimi.

«Ariflərin haqqa qovuşma məqamı» - Həsən Hüseyninin oxucuları ilə yeni və say etibarilə səkkizinci görüşüdür. Açığı mən onun 2014-cü il «Bismilləh ayəsinin incə görüntüləri və «Bə» hərfinin altında olan nöqtənin sirri» kitabından sonra bu tezliklə yeni nəşrə start veriləcəyini düşünmürdüm.

Oxucularhələdəsonkitabıntəsirialtındadır. Bukitabhəqiqətəndəgenişoxucukütləsininhəmböyükmarağınasəbə bolmuşdu, həmdədinidünyagörüşünəciddités irетmişdi. HacıHəsənoxucularınıheyrətləndirməkdədavamedir. Əminəmki, onunyenikitabı – yenibiraddımvəyenibirsözdür.

QədimyunanfilosofuSokratınçoxtutarlıbirifadəsivar: «Danış, sənigörüm». Həqiqətəndəinsanözanlayışındamövcuddurvəanladığınıdilnəqədə rsərrastifadəedəbilirsəinsanoqədərdəyərəldəedir. OxuculardüzgünolaraqHəsənHüseyniniislamədəbiyyatıvətarixinin dərinbilicisihesabedirlər. Çünki, o, ilahiyyatçıdır, publisistvətədqiqatçıdır. Hərüçistiqamətdədəuğurludur. İnsanidrakınəqədəraydındırsafikiroqədərdüzgünifadəolunabilir. HacıHəsənindilidolaşmır, nitqivəyazısısərrastdır, hədəfiaydındır. Odurki, buonaböyükşöhrətgətirir. Fikirdumanlıolduqdadildolaşır, dildolaşdıqcadinləyənsıxılır, qiymətləndirilmədikcəisəinsannüfuzunuitirir.

BunlarıHacıHəsənçoxyaxşıbilir. Dilindəkivədüşüncəsindəkiitilikvəsərrastlıqyaşınagörəçoxirəligetmişdir. Danışığıbəlağətlidir. Natiqcəsinədanışmaq, fikrinitutarlısitatlarlabədiiifadəedəbilməkbacarığıondaelədəqiqvə məntiqibirharmoniyatəşkiledirki, insanbəzənayırdedəbilmirki, HacıHəsəndahaçoxşairvəyazardır, yoxsailahiyyatçı.

Həsənhəqiqətənilahiyyatçıdır. İslamədəbiyyatıvətarixinibirilahiyyatçınəqədərbilməlidirsəbilir. «Ariflərinhaqqaqovuşmaməqamı» kitabınıoxuyandavəümumiyyətləH.Hüseynininəsərlərinioxuyanda insandabunaşübhəqalmır, hətta, bəzənbueləbirsarkazmsəviyyəsinəçatabilirki, istər-istəməzdüşünürsənki, bu, sadəbirilahiyyatçısəviyyəsideyildir.

Bugünbizimətrafımızdadindaradamçoxdur, məscidlərimizdəkifayətqədərtəhsillivətəhsilsizilahiyyatçılarımızvar. Onlarınarasındabiliyi, bəsirətiiləseçilənlərdəazdeyil. Aralarındayazanlardavar. Bəzənmərsiyələrin, ilahilərin, diniədəbiyyatınçoxsəhihnümunələriilərastlaşırıq. Bunlargözəldir. H.Həsəninyaradıcılığıisətamamfərqlidir. Buadidiniədəbiyyatnümunəsideyildir. Onudiqqətləoxuyaninsanlarhərkəlmədəbirsətiraltıməna, elmibilik, birfəlsəfianlayıştapabilər.

İnsanhansıbirsənətləməşğulolmasındanasılıolmayaraqbununla o, özünüifadəedir. Çalışqanlıqvəzəhmətxoşbəxtliyinaçarıdır. İstedadisəAllahvergisidir. Bunlarınhərüçününbirinsandabirləşməsinadirhadisələrdəndir.

HacıHəsənbuinsanlardandır. Hərdənmənəeləgəlirki, Həsənacqalabilər, geyimsizdədözər, evsiz, məişətsizdəyaşayar-baxmayaraqki, o, birinciqrupəlil, Vətənqazisidir, ammakitabsız, elmsizyaşayabilməz.

Yuxarıdatəsadüfəndemədimki, HacıHəsənsadəcəilahiyyatçıdeyil.

Onunbiliyielmvəfəlsəfəiləyoğrulub. Busəbəbdənonuadiilahiyyatçıhesabetməksadəlövhlükolardı.

H.Hüseyninineləbelə, sözxatirinəyazılmışbirsətrinibeləgörəbilməzsən. Fikirləri, diqqətlədüşünülərəkbiçilmiş, əsas-landırılmışvəçoxmötəbərnöqtələrəistinadənifadəedilmişolur.

Zahirəneləgörünürki, o, məhz, dindardırvəilahiyyatçıdır. Olsa-olsabirqədərdahasavadlıbirilahiyyatçıdır. Yaradıcılığınıizlədikcəməlumolurki, busadəlövhyanaşmadır. Sadəbirilahiyyatçıüçün «HəzrətƏli(ə) müxtəlifbaxışlarda» əsəriniyazmaqkifayətidi. Busanballıbirkitabdırki, yetərincəmüəllifindinidünyagörüşünüvəilahimövzularıəhatəetsin. Sonra «SığınHaqqDərgahına» adlıkitabıişıqüzügördü. Hətta, bukitabözüdədinibaxışlarıifadəetməkbaxımındanyetərlidir. «Bismilləhayəsininincəgörüntülərivə «bə» hərfininaltındaolannöqtəninsirri» əsəriartıqfunda-mentalaraşdırmadır. Elmivədinibiliklərinbirləşməsindəndoğanbirbilikmənbəyidir. Yalnızcadinidünyabaxışlarınıifadəetməküçünbuqədərsözə, cild-cildkitablaraehtiyacyoxdur. Amma, mənimHacınınbəziplanlarındanxəbərimolduğuüçünbilirəmki, təkcə «SığınHaqqDərgahına» kitabıbeşcilddə – Xəmsənəzərdətutulub. Onunəsashissələrivəsxem-planıdamövcuddur. Hətta, budaHəsənHüseynininuzaqplandanəzərdətutduğuarzularınınham ısıdeyil.

«AriflərinHaqqaQovuşmaMəqamı» kitabınınhəmhəcmli, həmdəqısabiraradansonranəşrətəqdimedilməsibusəbəbdəndir. Bukitabonunmənəviaclığınınüstünəbirqədərsusəpəbilər, amma, aclığınıəsladoyuzdurabilməyəcək.

HacıHəsənətrafınıişıqlıgörməkistəyən, lakin, arzusununəksiolanbircəmiyyətdəyazıb-

yaratmaqməcburiyyətindəolanbirmütəfəkkirdir. İşıqlıfikirləri, dəqiqölçüləriiləinsanlığa, yaşadığıcəmiyyətəbirsaflıqvəmərhəmətaşılamağaçalışanmüəllifgüc ünübuistiqamətəcəmləyibvəinanırki, bununnəticəsimütləqolacaq. Çünki, o, özünüŞahİsmayılınmənəvidavamçısıhesabedirvəHaqqyoldaolduğ unaəmindir. Heçnəyəbaxmadanirəliləyir, inanırki, o, doğulduğumissiyanısonaçatdırmalıdır.

BöyükAzərbaycanfilosoflarındanbiriolanMəhəmmədAğaŞaht axtınskideyirdiki, əgərmilli, dinimənsubiyyətinəşübhənvarsa, dünyagəzintisinəçıx, hansıdini, hansıdili, hansımillətiqeyd-şərtsizqəbuletsən –omillətdənolduğunaəminolabilərsən. Bəzəndəbizəeləgəlirki, biznəzamansabudünyayagəlmişik. Hürufilərdəbeləbirdüşüncəvarki, insanınfizikibədəniadibirqabdır, onunvarlığıruhundaehtivaedir. Ruhhərdəfədünyayayenibədəndətəcəllaedir. Onlardahamıkimidünyayadoğulur. Böyüyübözünüdərketdikdəo, daxilimənินikəşfedir. Bu, doğrudandabelədir. Məsələn, ŞahİsmayılXətainihamıSəfəvidövlətininbanisi – birincihökmdarıkimitanıyır. Ammao, özünüHəzrətƏlinin(ə) özühesabedirdi. Məlumolurki, odaözündəƏlininruhuolduğunainanırdı. HacıHəsənisəözündəŞahİsmayılınruhunuhissedir. HacıŞahİsmayılınruhundaHəzrətƏlinin(ə) ruhuiləqovuşur. HəzrətƏlinin(ə) ruhuvasitəsiləisəbirbaşayaradanaqovuşur. Beləcə, görünürki, irsiyyətqanunutəkcəgeniləndeyil, ruhəndəmövcuddur.

Əgərarifsən, bəsirətinaçıqdır,Haqqaqovuşabilərsən. Çünki, səniOyaratdı, Onadönüşündəgüclüsən. BudurHacıHəsəninhəqiqəti. Buyoldaonayoldaşsansa, istəyinədahayaxınsandemək.

ÇoxillərəvvəlAzərbaycantarixinindərinbiliciləriндənolanSeyi dağaOnullahiİranşairiQəhrəmanTəbrizidənetdiyibirtərcüməsinibiz

əoxudu:

***Qəbristəmirəmmən, qəbriminyerin,***
***Verin, evtikdirsinyoxsulevsizə.***
***Verinkəfənimdənköynəktikdirsin,***
***Hansıki, möhtacdırüçmetrəbezə.***

***Demirəm, xəlqüçünpisqaydadırbu,***
***Əzrayılgələcək, canımıala.***
***Bəlkədəxəlqüçünpisqaydabudur:***
***Ölülibasgeyə, dirilütqala.***

Buşeirionagörəxatırladımki, Hacınınxarakterinibusözlərləçoxdəqiqifadəetməkolar. Aldığıhərnəfəs, atdığıhəraddıminsanlıqüçünhesablanmışdır. İnsanlığınfaydasıüçünAllahınnəzərdətutduğu, lakin, bəndəninnadanığıüzündəngörəbilmədiyişeyləriHacıHəsəngörür. Onubufaydayaistiqamətləndirməküçünvargücüiləçalışırvəonanail olacağınainanır.

HacıHəsənHüseyniyaşadığıcəmiyyətinkişisiniqeyrətli, qadınınıiffətli, gəncinişücaətli, yeniyetməsiniləyaqətli, dövlətiniqüdrətligörməkistəyənhumanistlərdəndir. HərkəsHacıHəsənqədərözmövqeyindədönməzolsaydıbucəmiyyət onunarzuladığıkimiolardı. Əqidəsiuğrundadərisininsoyulmasındanbeləçəkinməyənböyükfilo sofşairS.İ.Nəsimiislamdinianindördmüqəddəsqapısını (Şəriət,Təriqət, Mərifət, Həqiqət) insanınəqli-mənəviyüksəlişmərhələlrihesabedirvədeyirdi:

***Dinelminibilsən, Şəriətolar,***
***Bilibəməletsən, Təriqətolar.***
***Elmləəməlindüzolsaəgər,***
***HəqqinköməyiləHəqiqətolar.***

AzərbaycanSəfəvilərDövlətinininbanisiŞ.İ.Xətaiisədeyirdi:

***Şəriətdir, Təriqətdir, Həqiqət,***
***Mərifətbirgözüdür, caniçində.***

Qəzəl gülüstanının bülbülü, «Leyli - Məcnun» əsəri ilə bütün dünyaya nur saçan M.Füzuli «Ənisül-qəlb»(Qəlbin hekayəti) qəsidəsində həqiqəti belə vəsf edir:

***Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən,***
***Ki, açsın hikmət əhli əql üzündən bu müəmmanı.***

Hacı Həsən dəöz sələfləri kimi Şəriəti, Təriqəti, Mərifəti, Həqiqəti özünəşüar etdi, insanlığı bu yola dəvət etdi. Necə ki, ariflərin əzəm ustadı hesab olunan böyük türk dünyasının dahisi Yunis İmrə deyirdi:

***Şəriət, Təriqət yoldur gedənə,***
***Həqiqət, Mərifət ondan içəri.***

Yunis İmrə bu beytdəŞəriəti və Təriqəti gəmiyə, Həqiqət və Mərifəti isə dəryaya bənzədir. Bildirir ki, dəryaya baş vurmaq üçün qəvvas olmaq lazımdır.

Mən dəfələrlə müəllifdən soruşmuşam ki, Həqiqət nədir? Hacı mənə cavab verib ki, bu sualı Kumeyl ibn Ziyad mömünlər ağası Həzrət Əlidən(ə) sual etdi. Həzrət Əli(ə) Kumeylə buyurdu: «Sən hara, həqiqət hara?» Həzrətin bu sözündən narahat olan Kumeyl bir ləhzə fikrə getdi, sonra Mövla Əli(ə) onun əlindən tutub bir səhraya apardı və həmin səhradakı quyunu ona göstərib buyurdu:

«Ey Kumeyl!, Mən həqiqəti quyuya deyirəm, quyu tab gətirə bilmir». Göründüyü kimi həqiqət o qədər gizlin bir

məqamdır ki,  hər insan o məqama yetişə bilmir. Mən yenidən Hacıya sual etdim ki, bu Həzrət Əlinin(ə) yaxın səhabəsi Kumeylə cavabıdır, Sizin bu suala cavabınız nədir? Hacı Aşıq Ələsgərdən bu bənd sitat gətirdi:

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qənbər ilə Salmanı,***
***Musaya öyrədən turda kəlməni,***
***Cəbrailə ustad olan, Ya Əli!*** –

– sonra bu bəndin birinci misrasında verilən almanın sirrini açdı və dedi: Alma dörd qatdan ibarətdir, üz qabığıŞəriətdir, hamı onu görə bilir. Əti Təriqətdir- çox az adam ondan istifadə edir. İçərisindəki özək Yunisin dilində desək, gəmiyə bənzəyir- Özəkdə gizlənmiş qara tum –Mərifət, onun içindəki ağ tum isə Həqiqətdir deyib, mərhum  «Əhli-Həqq» kəlamçılarından olan Miskin Rüstəm Nəvazidən bir beyt kəlamla fikrini tamamladı:

***Əzəldən sirri-pünhandır Həqiqət,***
***Dərin dəryayi – ümmandır Həqiqət.***

Bu deyilən fəlsəfi fikirləri özünə həyat devizi edən yorulmaz tədqiqatçı bütün yaradıcılığını insanları bu yola çıxaran cığırlarıöyrətməyə sərf etdi və edir….

***Şəriətdən, Təriqətdən bezaram,***
***Həqiqət istərəm, yalnız həqiqət!***

**–** deyən  XX əsr Azərbaycan fəlsəfi fikrinin nəhəng nümayəndələrindən olan, repressiya qurbanı Hüseyn Cavid fəlsəfəsi bütün bu dini-fəlsəfi fikirləri elə tamamladı ki, H.Hüseyninin düşüncələri tamamilə ona yönəldi. Hüseyn Cavid «Şeyx Sənan» dram

əsərindəöz qəhrəmanı Sənanın arxasında gizlənərək onun dililə Həqiqət barədə fikirlərini belə izhar edir.

Sənanı həqiqət arxasınca müsəlman üçün yolverilməz olan işlərin dalınca qürbət ölkəyə göndərir. Burada ölümü qəbul edən Sənan-yəni Cavid əfəndi deyə bilmədiyini Molla Nurun dililə belə deyir:

«Şeyx Sənanın kafirliyi sizin mömünlüyünüzdən daha üstün idi»- yəni Sənan (Cavid) Həqiqət yolunda seyri-süluk etdi vəşəriət əhlinin görə bilmədiyi sirrləri Təriqət bataqlıqlarından keçərək Haqqa qovuşmaqda tapdı. Bu da Əhli-Həqqlərin, aşiqlərin, ariflərin və sufilərin canları və qanları bahasına əldə etdikləri mərhələdir.

Cavid Əfəndi «Peyğəmbər» və «Şeyx Sənan» dramlarının müəllifidir. Lirik-romantik və fəlsəfi baxışları Hacı Həsənin ruhu və düşüncələri iləüst-üstə düşür. Hacı Həsən Cavid Əfəndinin dilindəöz arzularını ifadə edə bilir.

Qəribədir ki, şeirə sonsuz sevgisinə, hətta, çox həcmli şeirləri yaddaşında saxlamasına baxmayaraq H.Hüseyninin şeir yazdığını görməmişəm. Bəlkə də, sandıq ədəbiyyatının içində gizli şeir nümunələri vardır. Bəzən də mənə elə gəlir ki, Cavid dühası qarşısında fəlsəfi fikirlərini şeirlə ifadə etməyə cəsarət etmədiyi üçün bu addımı atmamışdır. Bəlkə də nə zamansa onun şeirlərini də görəcəyik. Çünki, Hacı Həsənin olduqca incə, lirik romantik bir ruhu var. Onun daxili aləmi, dili başdan-ayağa şeirdir. Qəlbi sevgi və mərhəmətlə dolu olduğundan dili sözlü-nəğməlidir.

***DilbərAğayeva***
***Jurnalist-publisist***

## REDAKTORDAN

Bismillahir-Rahmənir-Rahim
Əl-həmdu lillahir rabbil-aləmin
Va-s-salətu va-s-salamu alə əşrəfi-l-ənbiyəi va-l-mursəlin-
Muhammədin va alihi-l-məxsusin bi-t-taharati va-t-tənzih
Əmmə bə'd

Hacı Həsən Hüseyninin geniş Azərbaycan auditoriyasının ixtiyarına verdiyi növbəti kitab sonuncu ən mükəmməl səmavi din olan islamın dəyər və prinsiplərinin irfan təbliği baxımından geniş və hərtərəfli salnaməsidir.

"**Ariflərin Haqqa Quvuşma Məqamı (Şəriət, Təriqət, Mərifət, Həqiqət)**" adlanan bu əsərdə islam özünün bütün cəhətləri, qayə və məqsədləri ilə klassik irfan ədəbiyyatı nümunələri kontekstində ətraflı təhlil olunur, oxucuya təqdim olunan istiqamətdə zəruri məlumatlar çatdırılır.

Əsər səkkiz fəsil, ön söz və müəllifin qeydlərindən ibarətdir.

Əvvəla, onu demək lazımdır ki, kitabdakı bütün fəsillərin ana xəttini, əsas qayəsini zahirən kiçik bir aləm, gerçəkdə aləmlərə sığmayan böyük bir aləm olan insan və onun özündəki irfani təkamülün mərhələlərinə uyğun inkişaf yolları, ariflərin, övliyaların, ülmaların timsalında müəllifin özünəməxsus üslubuna xas şərh edilir.

Digər tərəfdən Azərbaycan klassik aşıq və irfan ədəbiyyatının, Əhli-haqlara məxsus informasiya mənbələrinin fəsil-fəsil açıqlanıb oxucuların nəzər-diqqətinə çatdırılması məqsədi güdülür.

**Şəriət, təriqət, mərifət və həqiqət** əqli – rasional və mənəvi yüksəliş mərhələləridir. Bu mərhələləri keçmədən insanın kamillık zirvəsinə yetməsi çətin məsələlərdən biridir. Tarixdəndə məlum olduğu kimi, insanın öz nəfsini tərbiyə edib kamilləşməsində

müxtəlif fəlsəfi təlimlərin böyük rolu olmuşdur. Fəlsəfi təlim və istiqamətlərin yayılması ilə paralel irfani və təsəvüfi (mistik) müəllimlər də islamda mühüm sahə kimi hələ miladi 8-ci əsrin əvvələrində meydana gəlib, inkişaf etməyə başlamışdır. Alimlərin bir qismi mistik dünyagörüşü olan təsəvvüfə və irfana o qədər meyl etmişdilər ki, şəri dəlil və əsalandırmalar yerinə, dinimizin ehtiva etdiyi mənəvi yön, mənəvi mücadilə və zöhd, bəzən də riyazətlər yolu ilə dini həqiqət və bilikləri əldə etməyə çalışırdılar.

Min ildən də çox bir zaman axarında irfan öz təlimi və dəyərlər sistemi ilə insanı Allaha qovuşduran mənəvi yolçuluq üsulu təriqəti təblis etməyə başlanır. Təriqətlər müxtəlifdir, lakin söhbət üsul baxımından insanı Allaha qovuşmağa aparıb çıxaran insanı eşq, cəzbə, nəcd, şövq, zikr, fikir vasitə və imkanlarından gedir. Nəfsi təmizləmək və qəlbi saflaşdırmaq çətin əməliyyatdır. Bu əməliyyat "üsuli-əşərə" deyilən on üsulla mümkündür ki, onlar tövbə, zöhd, təvəkkül, qənaət, üzlət, Allaha təvəccöh, səbr, riza, zikr və müraqəbə adlanır.

"**Ariflərin Haqqa Quvuşma Məqamı"** əsərində adları zikr olunan ədəb və ərkan sahibləri elm və ürf mənsublarının əsas cəhətlərindən (xüşdən) biri də islami əsaslara, dinin hökmlərinə uyğun şəkildə yaşamalıdır. Bu o deməkdir ki, irfanda şəriətsiz təriqət, mərifət və həqiqət mümkün deyil.

Fəxri Razi Şeyx Əbdül ibn Sinanın "İşarat və Tənbihat" əsrinə verdiyi şərhdə (2-ci cild, səh.104) yazır: "Səadətli insanların üç xüsusiyyəti vardır. Birinci, Allahdan qeyrilərindən üz döndərməkdir. Bu, zöhddür. İkincisi, Allaha tərəf hərəkət etməkdir. Bu, ibadətdir. Sonuncusu isə Allaha yetişməkdir. Bu, mərifətdir." Ürfdə zahid – dünya nemətlərindən və halallarından üz döndərən kəsdir. Abid – namaz və oruc kimi ibadətləri yerinə yetirən insana deyirlər. Arif isə Allahın məhəbbət və mərifətində qərq olan kəsdir."

Əsərin adındakı "**Haqqa Quvuşma Məqamı"** ürfdə ariflərin

Allahın məhəbbət və mərifətində qərq olmaq, kamillik zirvəsində qərarlaşmaq istəyidir. Bütün bu nəzəri mülahizələrdə məqsədimiz oxuculara irfan haqqında məlumat vermək yox, onları daha çox hörmətli Hacı Həsən Hüseyninin kitabı ilə tanış etmək həm də əsəri oxumağa hazırlamaqdır. İrfan və ona həsr olunmuş müxtəlif mövzular istər şərq, istərsə də qərb təsəvvüf ədəbiyyatında istənilən qədərdir. Lakin cəsarətlə demək olar ki, müəllifin müvəffəqiyyətlə ərsəyə gətirdiyi bu kitab həqiqətə çatmaq yolunda mücadilə edən arifləri yaradıcılığı ilə əlaqədar yazılmış qiymətli əsərlərdən biridir. Hacı Həsən Hüseyni səkkiz fəsildən ibarət əsərində irfanı təsəvvüfün mahiyyətini açıqlamış, irfanla bağlı bir çox məsələləri peşəkarcasına izah etmiş, onları Qurani-Kərimin ayələri, Peyğəmbərimizin (s), Əhli-Beyt İmamlarının (ə) hədisləri, övliya və üləmaların, görkəmli islam şəxsiyyətlərinin həyat və yaradıcılığından, əməli fəaliyyətlərindən gətirdiyi nümunələrlə inandırıcı şəkildə tədqiq etmişdir.

İnanırıq ki, Hacı Həsən Hüseyninin bu dəyərli kitabı işıq üzü gördükdən sonra islamsevərlərin, irfani biliklərlə maraqlananların sevimli kitablarından birinə çevriləcəkdir.

Kitabın tezliklə nəşr edilməsini arzu edir, müəllifə yeni-yeni yaradıcılıq uğurları diləyirik.

***Rövşən Fətişoğlu,***
***pedaqoq, "Qızıl Qələm" mükafatı laureatı***

# MÜƏLLİFDƏN

**Bismilləhir-rahmənir-rahim**

***Muhəmməd Əli eşqinə,***
***Həsən Hüseyn eşqinə,***
***Pir eşqinə, Şah eşqinə,***
***Ayırma bu yoldan Allah.***[1]

Hədsiz həmd və saysız-hesabsız tərif izzət və cəlal sahibi olan Allah-təalaya olsun ki, əzəl bağında (Allah-təala bütün yaranmışları xəlq etdiyi zaman) can natiqəsinin şirindilli tutisinə (insana) "... Mənə şükr edin və Məni danmayın" (Bəqərə, 2/152) şükrünün şəkkərini onun İsa (ə) kimi olan nitqinə verdi. Ürəyin oxuyan qumrusu "Məni xatırlayın ki, Mən də sizi yada salım" (Bəqərə, 2/152) gülşənində də Musa (ə) kəlamı kimi dil açdı.

Allah-təalanın salat və salamı kainatın ağası, mövcudatın əsası qərar verdiyi Həzrət Muhəmmədə (s) və onun Əhli-beytinə (ə) olsun!

İslam dini geniş və hərtərəfli bir dindir. Bu dinin 4 qapısı, 40 məkanı və 72 qatı var. Allah-Təala yaratdığı 18.000 aləmdə yaradılmışlardan Ona ibadət və itaət göstərməyi tələb edir:

**وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ**

Allah-Təala buyurub: «***Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım***»[2].

Həzrət Davud (ə) Allah-Təaladan sual etdi: "Nə üçün insanları yaratdın?" Allah-Təala buyurdu: "Ey Davud, Mən bir

[1]Pir Sultan Abdal
[2]«Zariyat» surəsi, 56-cı ayə

gizli xəzinə idim, istədim tanınam, insanı və aləmləri yaratdım". Həm ayədən, həm də hədisdən məlum olur ki, insan faili-muxtar olmasına baxmayaraq, özündə məsuliyyət hiss edib gecə-gündüz Yaradanına ibadət etməli və ehtiram göstərməlidir. Necə ki, Haqq aşiqi Dədə Ələsgər bir ustadnaməsində deyib:

***İbtida ustaddan dərsim almışam,***
***"Ələst" aləmində demişəm bəli.***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Muhəmməd, birisi Əli.***

***Əlidən dərs aldım, eylədim əzbər,***
***Ərşin sütunudu, yerlərələngər,***
***Fatimeyi-Zəhra şafeyi-məşhər,***
***Onu seçdim gözəllərin gözəli.***

İndi bütün bəşər bu fikirdədir ki, dünyanı gözəllik xilas edəcək. Bəli, düz fikirdir. Lakin hansı gözəlliyin xilas etdiyini düzgün bilmirlər. Həmin gözəlliyi əsasən zahirdə axtarırlar. Həqiqi gözəllik isə zahirdə deyil, batində olan gözəllikdir. Batini gözəlliklər Həzrət Yusifdə (ə) təcəlla edən gözəlliklərdir və bunlardan ibarətdir: hikmət, iffət, şücaət və ədalət. Yusif peyğəmbərin zahiri gözəlliyi Züleyxanı valeh etsə də, bütün Misir əhli tərəfindən batini gözəlliyinə görə tanındı və sevildi. Zəmanə İmamı Həzrət Mehdi də (əc.f) batini gözəlliklə (hikmət, iffət, şücaət və ədalət) dünyanı düşdüyü çirkinliklərdən xilas edəcək. O zaman həqiqi gözəlliyin əsl mahiyyəti məlum olacaq. Deyilən fikirlər Dədə Ələsgərin,

***Fatimeyi-Zəhra şafeyi-məşhər,***
***Onu seçdim gözəllərin gözəli -***

- misralarının şərhi idi. Xanım Fatimeyi-Zəhra (s.ə) buyurub: "Qadının yeganə gözəlliyi hicablı olmasındadır". Hədisin şərhi budur ki, gözəllik nə qədər gizli olsa, bir o qədər dəyərləndirilər. Nə qədər aşkarda qalsa, bir o qədər eybəcərləşər. Nümunə kimi açıq məktubu və zərfin içindəkiməktubu misal göstərmək olar.

Bu kitabda əsas məqsədimiz təriqət, mərifət və həqiqət əhlinin layiq olduğu məqamları çatdırmaqdır. İmam Xomeyni (r.ə) oğlu Əhmədə etdiyi vəsiyyətnamədə ilk olaraq buyurur: "Oğlum ilk növbədə, sənə edəcəyim vəsiyyət budur ki, mərifət əhlinin məqamlarını inkar etmə, bu cahillərin işidir. Övliyaların məqamlarını inkar edənlərlə oturub-durmaqdan uzaq ol, çünki onlarla əlaqə yaratmaq nəhayətdə insanı haqq yoldan saxlayır."

Necə ki, Seyid İmadəddin Nəsimi deyib:

***Din elmini bilsən şəriət olar,***
***Bilib əməl etsən təriqət olar,***
***Elmlə əməlin düz olsa əgər,***
***Həqqin köməyilə mərifət olar.***

İslam dinində 4 qapı olsa belə, bu 4 qapının hamısında "üsuliddin" beşdir. Tovhid, Ədl, Nübuvvət, İmamət, Məad. Əməl bölümündə isə hər qapının 10 şərti var. Şəriətin şərtləri Peyğəmbərin (s) vasitəsi ilə, təriqətin şərtləri Həzrət Əlinin (ə) ustadlığı ilə xas insanlara çatdırıldı. Həqiqətə gəldikdə isə nə Peyğəmbər (s), nə də Əli (ə) bu sirrləri açmadı. Həzrət Əlinin (ə) xas tələbələrindən olan Kumeyl ibn Ziyad həqiqətin nə olduğunu sual edərkən Mövla Əli (ə)buyurmuşdur: "Ey Kumeyl, sən hara, həqiqət hara. Mən həqiqəti quyuya deyirəm, quyu tab gətirə bilmir."

Həzrət Əlinin (ə) əqidə və məslək davamçısı olan Ş.İ.Xətai bu qapılara öz yaradıcılığında geniş yer verir və şeirlərinin birində belə deyir:

***Şəriət yolunu Muhəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi,***
***Bu dünyadan neçə yüz min ər keçdi,***
***Onlar ittifaqda, Mehdi yoldadır.***

Şəriətürfanşəhərininhasarıdır.Qapısıisə təriqətdir. Qapıdan dostlar girər, hasardan düşmənlər... Necə ki, S.M.Şəhriyar deyir:

***Allahın şəhri Nəbidir, qapısı Şahi-Vəli,***
***Deşik axtarma, bu şəhrin belə dərvazəsi var.***

Haramlardan qaçmaq təqvanın əsasıdır. Təqva isə ibadətinbelsütunudur.İbadətsə dinindiriliyidir.İbadətsizinsanındini əfsanədir.Yanındaibadətolmayanelmiməşğuliyyətnəticədə dəlilikdir. Əqliyorğunluğuvə durğunluğu isə istirahətdeyil, ibadət dəf edər. Çünki elm insana təfəkkür gətirir, ibadət isə onu yox edir. Hər hansı bir elmin isə yalnız Allaha məxsus olduğunu isə imanlı alimlər bilər.

İmansızalimlərielmxilasetməyəcək,ammaelmsiz möminləri iman xilas edəcək. Möminlər ağası Həzrət Əli (ə) buyurur: **"İnsanın insandan üstünlüyü yalnız təqvadadır"**.

Birtərəfdənibadətinşirinliyi,birtərəfdəndə günahların çoxluğu əksərmöminlərinşəriətlə kifayətlənməsinə səbəb olmuşdur.

Təriqət, Mərifət, Həqiqətdən fərqli olaraq, Şəriət toplumun malıdır. Toplum üçün şəriəti əvəz edə biləcək ikinci bir şey yoxdur. Şəriət din evinin çöl qapısı, digər üçü isə iç qapılarıdır.

Şəriətvarlıqdır,Təriqətyoxluq.Mərifətvarlıqdır,Həqiqət yoxluq. Şəriət dinin, Təriqət isə Şəriətin bəhrəsidir. Şəriətyazfəslidir,insankönlündəkiHaqq gülüstanının güllərəçanməqamıdır.Küfrünyoxluğundanimanınvarlığına açılan qapıdır. Haqqa sarı açılan yolun əvvəli də şəriətdir, ortası da

şəriətdir. Sonu isə,.. Bu yolun sonu yoxdur.

Qalanmərtəbələrinsankönlündə ucaldıqca,onunbinasışəriətüzərində dahadamöhkəmqurulur.Təriqət əhliolmaq şəriətdənqaçmaqdeyil,şəriətiyanındaaparmaqdır. **Dərin zəkadan, tərbilyəli nəfsdən dəm vuranların sadə bir ibadətə gücüyetmirsə,ozamanbuyolunsonundaŞeytandayanıb.** İnsanıtəkcə ibadətdənayırmaq Şeytanabəsedir.Dahaonun başqa mücadilə verməsinə ehtiyacı qalmır.

Qanunlar və ehkamlar Şeytanı dəf edə bilirsə, həmin andan eşqin dövranı başlayır. Eşq olan yerdə Şeytan mövcud deyil.

İbadət bədəndən və ruhdan verilən zəkatdır.

Niyyətsiz ibadət quru hərəkətdir.

İbadətsiz oruc pəhrizdir.

Təqvasız ibadət yoxdur, ibadətsiz din yoxdur, dinsiz heç nə yoxdur.

Şəriət açılmayan sirrlərin tərcümanıdır.

"Allah-TəalaMeracdamənimlə doxsanminkəlməpaylaşdıvə buyurdu:Bunlarınotuzmininixalqaaç söylə.Otuz minini yalnız ariflərlə paylaş. Qalan otuz minini heç kimə açma" (Hədisi-şərif)

Şəriət susmaq üçün danışmağa bənzəyir. Danışan isə Haqqözü olduğu üçün xalqa şəriət də bəs edir.

"Qurani-Kərimin yeddi, gahən də yetmiş qatı vardır"(İmam Cəfəri-Sadiq)

Şəriətin alimləri, şəhidləri insanlığın kamalı üçün yetərlidir.Bəşəriyyət İslamın sadəcə şəriət qatındakı böyüklərini həzm etməyə başlasa,qiyamətsaatınaqədərki vaxt onakifayətetməz.

Aşiqlərinvə ariflərindərki isə Dünyavə axirəttanımayankönüllərinişidir.KönüllərinsultanıaləmlərinRəbbid ir.Həmd olsun o Allaha ki, hər kəsin könlünə bəs edir!

Həzrət Əli (ə) mübarək hədislərinin birində buyurur:**"İrəli getməyin meyvəsi peşmançılıq, ehtiyat etməyin meyvəsi isə**

**salamatlıqdır".**

Düşüncə ağıla sığan şeylər üçündür. Ağıl isə məhduddur vəsərhədləri bəllidir.Eşqisə könülə sığanşeylərüçündür.Könülisə sonsuzvəsərhədsizdir.

Könlünə etimad edənin ağıla və məntiqə ehyiyacı yoxdur.Arifbirtəközünə hökmedə bilməyiböyükqələbə hesabedir.Zahidisə yüzminlərüzərindəkinüfuzunuyetərsizbilir.Çünki öz könlündən xəbərsizdir. Hökm etdiyi milyonlar isə onainanmır.İnamağıldayox,könüldə olur.Zahidisə könlündəndeyil,ağlındançıxışedir.Belə olmasaydı,ürfanlaşəriətarasındakı uçurum bu qədər dərinləşməzdi.

Necə ki, böyük filosof-şair S.İ.Nəsimi demiş: "Şəriət, təriqət, mərifət, həqiqət insanın əqli, mənəvi yüksəliş mərhələləridir. İnsan bu mərhələləri keçməsə kamillik zirvəsinə yetişə bilməz".

***Həm şəriətlə təriqət, həm həqiqət, mərifət,***
***Ayətul – elmulyəqin, elm ilə burhandır- Əli.***

Və yaxud

***Həm şəriət, həm təriqət, həm həqiqət, mərifət,***
***Səndədir müşgül-quşasan ya Hüseyn ibn Əli.***

İmam Əli (ə) "Nəhcül-bəlağə" (Bəlağət yolu) əsərində həqiqi İslam barəsində buyurmuşdur: "İslam Allah və Peyğəmbərin (s) göstərişlərinə təslim olmaqdır. Təslim olmaq onlara inanmaqdır. İnanmaq onları qəbul etməkdir. Qəbul etmək onları etiraf və təsdiq etməkdir. Etiraf və təsdiq etmək onları yerinə yetirməyə hazır olmaqdır. Yerinə yetirmək onlara əməl etməkdir".

Seyri-süluk yoluna qədəm qoyan abidlər, zahidlər, müridlər, mürşidlər, ariflər, aşiqlər, şairlər və s. zaman-zaman İslam dininin qanunlarını Peyğəmbərdən (s) və Məsumlardan (ə) öyrənərək

müqəddəs İslam dinimizin qanunları çərçivəsində yaşamış və gələcək nəsillərə Əhli-beytin (ə) fəzilətlərini və üstünlüklərini çatdırmışlar. Əhli-beytə (ə) mənsub olan altı fəzilət bunlardan ibarətdir: Elm, helm, səxavət, fəsahət, şücaət, qəlblərdə məhəbbət. Əhli-beytə (ə) məxsus olan yeddi üstünlük bunlardan ibarətdir: 1) Allahın sonuncu peyğəmbəri Muhəmməd ibn Abdullah onlardandır. 2) Doğru danışan, möminlər ağası Həzrət Əli (ə) onlardandır. 3) Cənnətdə mələklərlə uçan Cəfəri-Təyyar onlardandır. 4) Allahın şiri, Peyğəmbərin (s) əmisi Seyidüş-şühəda Həmzə (ə) onlardandır. 5 və 6) Bu ümmətin iki böyük rəhbəri, Behişt gənclərinin ağaları İmam Həsən (ə) və İmam Hüseyn (ə) onlardandır. 7) Xeyrün-nisa Həzrət Fatimeyi-Zəhra (s.ə) və zühuru vəd olunan Həzrəti Məhdi (əc.f) onlardandır.

Filosof-şair S.İ.Nəsimininyuxarıda qeyd etdiyimiz beytlərindən də aydın görünür ki, Əhli-beytin (ə) altı fəzilət və yeddi üstünlüyünü şair **şəriət, təriqət, mərifət, həqiqət**çərçivəsində və Həzrət Əlinin (ə) simasında bəşəriyyətə çatdırır.

Ömrünü dini-Mustafa (s) yoluna həsr edən, Həzrət Əlinin (ə) əqidə və məslək davamçısı olan, Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətai “İçəri” rədifli ürfani qoşmasında mürşidinə olan səmimi məhəbbətini incə mətləblərlə ifadə edir:

***Adəm olub, gəldim adəm içinə,***
***Nəsib olmaz dürlü candan içəri.***
***Zənbur olub, kandan-kana keçərkən,***
***Bir kana uğradım, kandan içəri.***

***Qardaş, gəl ərkana, bu ərkan deyil,***
***Oynatma atını, bu meydan deyil,***
***Süleymandan əsən, Süleyman deyil,***
***Süleyman var, Süleymandan içəri.***

***Ürfan məclisindən ürfan almışam,***
***Ləli-bədəxşandan mərcan almışam,***
***Min canı veribən, bir can almışam,***
***Ol canı saxlaram candan içəri.***

***Xətai, gədanın nitqini haqla,***
***Nə diləyin varsa, kəndində yoxla,***
***Mürşidin pəndini eyicə saxla,***
***Damardan, ilikdən, qandan içəri.***

Şair bu qoşmasında həqiqi mürşidi olan Həzrət Əlinin (ə) öyüd-nəsihətlərini gizli saxlamaqla yanaşı, sanki Peyğəmbərimizin (s) Həzrət Əli (ə) barəsində buyurduğu bir hədisə istinad edir: "Ya Əli, sən Kəbə kimisən, xalqın sənə doğru gəlməsi lazımdır, sənin xalqa doğru getməyin yox".

Bildimiz kimi Qurani-Kərimin "Ayətül-Kürsü" adlanan "Bəqərə" surəsinin 256-257 ci ayələrində Allah-təala buyrur: "Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Taqutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir, biləndir! Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Taqutdur (şeytanlardır). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!"

Ariflərin nəzərində "Dində məcburiyyət (zorakılıq) yoxdur" ayəsindən məqsəd o deyil ki, insan ibadətdən uzaq olsun. Bəlkə bu deməkdir ki, insan onu xəlq edən Allaha aşiq olsun. İnsan əgər öz yaradanına aşiq ola bilsə, heç zaman onun qəlbində dinə qarşı ikrah ola bilməz. Bu cəhətdən də ariflər zikrlərin ən üstünü olan "La İlahə İlləllah" zikrini qəlblərinə yazırlar. Necə ki, arif

şairlərdən olan S.İ.Nəsimi demişdir:

***Zahidin dəstində baxma, zikrilə təsbihə sən,***
***Mömini-sadiqlərin qəlbində "La İlahə İllallah" var.***

İslam və iman barədə məzhəbimiz İmam Cəfəri Sadiq (ə) belə buyurur: "İslamiyyət Allahın vahidliyini, Həzrəti Muhəmmədin (s) peuğəmbərliyini iqrar və etiraf etmək, namaz qılmaq, oruc tutmaq, zəkat vermək və həccə getməkdir ki, xalqın əksəriyyəti bunu yerinə yetirir lakin imana gəlincə bunlara əlavə olaraq həm də Həzrət Əlinin (ə) vilayətini və Əhli-beyti (ə) tanımaq, sevmək və onlara inanmaqdır".[3]

Dinimizdə "Vilayət" məsələsi olduqca mühüm əhəmiyyət kəsb edir.Əhli-təsənnü məzhəbindən olan təfsir alimi Fəxrəddin Razi öz təfsirində belə yazır: "Əhli-Beyt (ə) beş şeydə Peyğəmbərlə (s) bir cərgədədir: 1) Salamda, 2) Namazın təşəhhüdündə (salavatda), 3) Paklıqda, 4) Məhəbbətdə, 5) Onlara sədəqə verilməyin haramlığında."[4]

***Əzəldən ta əbəd Heydər gəlibdir,***
***Adəm övladına sərvər gəlibdir.***

***Əli, şiri-Xuda, şahi-Mərdan,***
***Muhəmməd Həqqə peyğəmbər gəlibdir.***[5]

Allah-Təala bizi dünyada Əhli-Beytin (ə) itaət və ziyarətlərindən, Qiyamət günü şəfaətlərindən binəsib və bipay etməsin. Qəbrimizin əvvəl gecəsi bizi nuri-vilayəti Həzrət Əlidən (ə) ayrı salmasın. Amin.

---

[3]Şeyx Kuleyni, "Üsuli-kafi", II cild, səh 24
[4] Fəxrəddin Razi, "Məfatihül-ğeyb", Zəməxşəri "Təfsiri-kəşşaf".
[5]Ş.İ.Xətai, "Qəzəllər".

# I fəsil

***Vücudum şəhrinəgirdim, bu şəhri pur-ziya gördüm,***
***Vilayət elminə irdim, əcəbnuri- Xuda gördüm.***

***Şəriət şərtini bildim, təriqət yoluna vardım,***
***Həqiqət bəhrinə daldım, Əliyyəl-Mürtəza gördüm.***

***Həqiqət elminin sirrin nə bilsin hər təharətsiz,***
***Bu sirrə irmədi munkir, onun qətlin rəva gördüm.***

***Könül şəhrinə ol dilbər mənim Ruhil-əminimdir,***
***Yüzün səbül-məsanidir, yedi xətt üstüva gördüm.***

***Ələstu rəbbukum – sirri dəhanindən əyan oldu,***
***Gözün "vət-tinu vəz-zeytun" yüzün şəmsüz-zühagördüm.***

***Vücudumşəhrinə girdim irişdim gövhəri-kanə,***
***Cəmalın asitanında Xətaini gəda gördüm.***

## ALLAH YEGANƏDİR

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

### Əl-İxlas surəsi Yalnız Allaha məxsus olan sifətlərdən ibarətdir

قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ ﴿١﴾ ٱللَّهُ ٱلصَّمَدُ ﴿٢﴾ لَمۡ يَلِدۡ وَلَمۡ يُولَدۡ ﴿٣﴾
وَلَمۡ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ﴿٤﴾

**Oxunuşu:*****Bismilləhir-Rahmənir-Rahim!*** *Qul huvəllahu əhəd (1). Allahus-səməd (2). Ləm yəlid və ləm yuləd (3). Və ləm yəkunləhu kufuvən əhəd (4).*

**Tərcüməsi:** ***Mərhəmətli və mehriban Allahın adı ilə! De: "O Allah birdir (1). Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (2).O, nə doğmuş, nə də doğulmuşdur! (3). Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"(4).***

**Həzrət Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Hər kəs "İxlas" surəsini bir dəfə oxusa, sanki Quranın üçdə birini, onu iki dəfə oxusa, sanki Quranın üçdə ikisini və onu üç dəfə oxusa, sanki bütün Quranı oxumuşdur."**

**"Tovhid " surəsinin təfsiri.** "*Qul huvəllahu əhəd (1)*"– "De: ey mənim həbibim, (səndən soruşan bütpərəstlərə və bütün başqa soruşanlara) Allah təkdir onun vücudu vacibi zatidir, bütün eyb və nöqsanlardan pakdır, mürəkkəb deyil, əczası yoxdur, gözlə görünməyib, görünməyəcək, nə dünyada, nə axirətdə, ağıllar onu dərk etməkdə acizdirlər. Mən ibadət etdiyim elə bir Allahdır ki, ona çətinlikdə asanlıqda, quruda, suda, hər bir məkan və zamanda müraciət etsəniz sizə kömək edər".

İmam Baqir (ə) buyurur: bütpərəstlər öz bütlərinə işarə

edərək deyirlər: ey Muhəmməd (s)! Bu bizim Allahlarımızdır, səndə öz Allahını bizə göstər tanıyaq. Onların cavabında bu ayə nazil olaraq "Allahı" belə vəsf etdi. Yəni bizim Allahımız sizin bütləriniz kimi, gözə görünən, maddə, mürəkkəb hissələrinə və məkana möhtac olan, kiminsə əli ilə düzəldilən, yonulan və formalaşan deyil. Bizim Allahımız bütün eyiblərdən təmizdir (uzaqdır-müəllif).

*"Huvə"* kəlməsindəki *"vav"* qaiblik zəmiridir. Allah-Təalanın qeybdə olmasına dəlalət edir. Əli (ə) buyurub: Bədr müharibəsinin gecəsində yuxuda Həzrət Xızrı gördüm. Ondan köməklik istədim. O, mənə bu zikri öyrətdi: "Ya hu ya mən lahu illa hu". Bunu Həzrət Peyğəmbər(s)-ə danışdım, buyurdu: Ya Əli, sənə ismi-Əzəm öyrədib. Əmmar Yasir deyir: Süfeyn müharibəsi zamanı Əlini bu zikri dediyini gördüm. Soruşanda "ismi-əzəm"-dir deyə cavab verdi.

*"Allah"* kəlməsi ona məxsus olan bir addır. Bütün Cəlal və Cəmal sifətlərini özündə toplamışdır. Allahdan başqa kimsəyə onu ad qoymaq olmaz. *"Əhəd"* kəlməsinin barəsində çoxlu sözlər vardır. Bəziləri onu *"vahid"* kəlməsi ilə eyni olduğunu, bəziləri isə fərqli olduğunu deyirlər.

Amma Əli(ə) sözü ilə desək: Allah təkdir, oxşarı yoxdur, onun zati təqsim qəbul etmir (mürəkkəb deyil) nə xaricdə, nə ağılda, və nə də fikirdə. *"Allahus-səməd(2)"* – Allah-Təala ehtiyacsızdır. Bütün ehtiyaclılar ona möhtacdır. Onun zamana və məkana ehtiyacı yoxdur. Onun məqamı bütün məqamlardan üstündür. Onun əmirləri bütün əmirlərdən artıqdır. Rəhməti sonsuzdur, elmi isə hər şeyi əhatə edir. Heç nə ondan güclü ola bilməz. Məxfi və aşkar olan heç bir varlıq onun nəzərindən yayına bilməz.

*"Ləm yəlid"* – (doğmayıb) Allahın övladı yoxdur. O, bu cür işlərdən pakdır. Bu ayədə Allah-Təala üç tayfanın batil fikrini rədd edir: Məsihilər deyir: "İsa Allahın oğludur" Yəhudilər deyir:

"Üzeyir Allahın oğludur" Müşrik ərəblər isə mələklərin Allahın qızları olduğunu güman edirlər. Həqiqətən bu ayə neçə illər bu üç millətin əqidəsinə hakim olan batil fikri rədd edərək Allahın övladının olmadığını bəyan edir. *"Və ləm yuləd (3)"* – Allah-Təala heç kimin övladı deyil. Heç nədən vücuda gəlməyibdir. Bu ayə bu günə qədər davam edən "Həzrət İsa (ə) Allahdır" əqidəsinə möhkəm bir cavabdır. İsa(ə) insandır. Doğulubdur, amma Allah-Təala cismiyyətdən uzaqdır. İsa(ə) insan surətindədir, Allah isə surət qəbul edən deyil.

İmam Hüseyn(ə) Bəsrə camaatının məktubunun cavabında yazır: "Ondan bir şey xaric olmayıb, nə maddi şeylər, övlad kimi. Nə də lətif şeylər, nəfəs kimi. Yuxu, xəyal, qəm, təbəssüm, ağlamaq, qorxmaq, aclıq və susuzluq Allah-Təaladan baş verməz. O, bu şeylərdən pakdır."

Nəhayət surənin sonunda uca olan Tanrı öz müqəddəs olan varlığı barədə belə buyurur: *"Və ləm yəkunləhu kufuvən əhəd (4)"* – Heç bir varlıq onun oxşarı deyil" daha doğrusu o heç bir varlığa oxşamır. Heç nə elmdə, qüdrətdə məqam və mənzələtdə ona bənzəmir. Bu ayə Allahı cism bilənlərə (mücəssəmə), habelə Allahı sifət və zat cəhətindən məxluqa bənzədənlərə (müşəbbihə) gözəl bir cavab verir. Batil fikirlərinizdən əl çəkin! Allah siz fikirləşdiyiniz kimi deyil.

### əl-İxlas (Tovhid) surəsinin hədəfi

Bu surə Allahı tanımaq barədə nazil olub. Bu mühüm işdə azanları, həqiqətdən uzaq düşənləri, tənqid edərək, bütpərəstlərə, ulduz və aypərəstlərə, atəşpərəst və üçlüyə (ata, oğul, müqəddəs ruh) qail olanlara, bir sözlə, bu surədə tosif olunan (sifətləri sadalanan-red.) Allahdan başqasına əqidə bağlayanlara və Allaha məxluq sifəti nisbət verənlərə deyir: sizin əqidəniz batildir. Istəyirsizsə düzgün əqidəniz olsun, həqiqi məbuda itaət edəsiniz, o həqiqi məbudun zat və sifəti budur. Bundan başqa əqidə batildir.

**"Tovhid" surəsinin xüsüsiyyətləri**

1. Bu surəni evə daxil olanda oxumaq ruzini çoxaldar, fəqirliyi uzaqlaşdırar. Həzrət Peyğəmbər(s) buyurur: "Mən "Səd ibn Məazın" cənazə namazını qılanda 70 min mələk onun namazına dayanmışdılar. Mən Cəbraildən soruşdum: Sədin hansı əməlinə görə siz onun namazında iştirak etdiniz? Dedi: bütün hallarda "Tohid" surəsini oxuduğuna görə";

2. Bu surənin 20-ə yaxın adı var. Ən məşhuru "Tohid"-dir . İkinci "İxlas"-dır. Ona görə ki, kim bu surəni oxuya başa düşə, əqidəsi Allah tanımaq barədə xalis olar;

3. Bu surə Məkkədə nazil olub. Ona görə "Məkki" deyilir;

4. Bu surə Allahın sifəti barədə sual edənlərin cavabında nazil olubdur.

## ŞƏHİDALLAH AYƏSİ

Şəhidallah ayəsi Ali-İmran surəsinin 18-ci ayəsidir. Bu ayədə Allah-Təala, mələklər və elm sahibləri Allahın təkliyinə şəhadət verirlər.

شَهِدَ ٱللَّهُ أَنَّهُ لاَ إِلَٰهَ إِلاَّ هُوَ وَٱلْمَلاَئِكَةُ وَأُوْلُواْ ٱلْعِلْمِ قَآئِمَاً بِٱلْقِسْطِ لاَ إِلَٰهَ إِلاَّ هُوَ ٱلْعَزِيزُ ٱلْحَكِيمُ

**Tərcüməsi:** *"Daim ədalətə istinad edən Allah şəhadət verib ki, Ondan başqa məbud yoxdur. Mələklər və elm sahibləri (də Onun yeganəliyinə şəhadət vermişlər). İqtidar və hikmət sahibi olan Allahdan başqa məbud yoxdur."*

1. Allah varlıq aləmində vahid nizam yaratmaqla Öz zatının yeganəliyinə şəhadət verir. Yəni varlıq aləmindəki həmahənglik və nizam bütünlüklə Onun yeganə qüdrətinin hakimiyyətinə şəhadət

verir.

***Əgər günəş üçün dəlil istəsən,***
***Ayın çöhrəsinə nəzər yetir sən.***

2. İmam Baqir (ə) buyurmuşdur: "Ayədəki "ulul-ilm" təbiri peyğəmbər və peyğəmbər canişinlərinə aiddir."

3. Məhdudiyyət say, çoxluq olan yerdədir. Saysız-hesabsız ev birdən çox ola bilməz. Əgər "filan çırağın işığı nəhayətsizdir" desək, ikinci çıraq üçün yer qalmır. Allah nəhayətsizdir. Əgər nəhayəti olsa, yoxluqla üzləşər. Heç bir nəhayətsizlik saya gəlmir. Ona görə nəhayətsiz Allah vahiddir.

- Əməli şəhadət ən üstün şəhadətdir. Bütün yaranmışlar arasındakı həmahənglik və nizam Allahın birliyinə şəhadətin ən üstün nümunəsidir.
- Allaha iman yolu elmdir. Həqiqi elm insanı varlıq aləminin həqiqi qaynağı ilə tanış edir.
- Alimlər mələklərlə yanaşı durur.
- İlahi ədalət tövhidlə yanaşı bəyan olunur. Özünü rəqibsiz gördükdə zorakılıq edən başqa qüdrətlilərdən fərqli olaraq, bir olan Allah ədaləti bərpa edir.[6]

Klassik Şərq ədəbiyyatının bir çox nümayəndələri, o cümlədən M.Füzuli Allaha həsr etdiyi münacatların birində Allahın təkliyinə və bənzərsizliyinə şəhadət verməklə yanaşı Allah-Təaladan daim ona yol göstərməyi və Peyğəmbərin (s) şəriətində sabitqədəm olmağı iltimas edir:

***Ya Rəbb, həmişə lütfünü et rəhnüma mana,***
***Göstərmə ol təriqi ki, getməz sana, mana.***

Yəni, İlahi, yaxşılığını, rəhmini həmişə mənə yol göstərən et.

---

[6] Ayətullah Möhsün Qəraəti. "Nur təfsiri, II cild, Bakı-2006. Səh. 17-18. Tərc.: H.Arzu"

Mənə, sənə gəlməyən yolu yox, sənə gedən yolu göstər.

Rəhnüma sözü yol göstərən deməkdir. Yol göstərmək irəlidə getməklə də, işarə etməklə də, nəsihətlə də olur. Təriqətin isə mənası yol olmasına baxmayaraq, burada məslək, əqidə mənasındadır. Füzuli heç bir maddi səhrada azmamışdı və Allahdan bu səhranı keçmək üçün bələdçi istəmirdi. O, məkansızlıqda məkan tutmaq istəyən bir mömin idi. Məkansızlığa isə Allahın lütfü olmasa, heç kəs yol tapa bilməz. Bu yolda bələdçi, yalnız Onun mərhəməti ola bilər. Ora gedilən yol isə, cismani ayaqlarla gedilməsi mümkün olan yol deyil, o təriqdir, yəni əqidədir, məsləkdir. Beytdə deyilir ki, İlahi, mənə o əqidəni, o məsləki göstər ki, o təriq məni məkansızlığa aparsın.

***Qət eylə aşinalığım ondan ki, qeyrdir,***
***Ancaq öz aşinalərin et aşina mana.***

Dostluğumu başqalarından kəs, ancaq öz dostlarını mənə dost elə.

Əvvəla, Füzuli bu beytdə İslamın budaqları sayılan «Füruiddin»in doqquzuncu və onuncu maddələrinə əməl etdiyini göstərməklə, bir daha hansı əqidənin sahibi oldu» ğunu bildirir. O maddələrdə deyilir ki, Allahın dostu ilə dost, düşməni ilə düşmən olmaq lazımdır. Ona görə də şair özünə, Ondan qeyrilərindən dostluğu kəsmək və yalnız Onunla dostluq etmək səadəti arzulayır. Digər tərəfdən Füzuli bu bəytdə, ümumiyyətlə dostluq məsələsinə də toxunub. Hikmət sahibləri dostluğu izah edərkən onu üç yerə bölüblər: Öz dostum, dostumun dostu, düşmənimin düşməni.

***Bir yolda sabit et qədəmi-etibarımı***
***Kim, rəhbəri-şəriət ola müqtəda mana.***

Şəriətdə insanların cəm halda qıldıqları namaz, təklikdə qılınan namazdan daha şərafətli hesab edilir. Buna camaat namazı deyilir. Bu namaza toplananlar bir nəfərin arxasında ona iqtida etməklə ibadət edirlər. Qabaqda dayanan müqtəda, yəni; imam, (rəhbər) təqlid olunan, onun arxasında dayanıb namaz qılanlar isə iqtida edənlərdir, müqəllidlərdir. Beytdə deyilir ki, Ilahi, etibarımın qədəmini elə bir yolda sabit et ki, şəriət rəhbəri, yəni, Muhəmməd (s) özü mənə müqtəda olsun.

***Yox məndə bir əməl sənə şayəstə, ah, əgər***
***Əmalıma görə verə ədlin cəza mana.***

Allahın böyüklüyü qarşısında öz kiçikliyini dərk edib, ehtiram göstərən, imanlı kişilərdən belə bir söz eşitmişik: «Pərvərdigara, bizi qiyamət günü ədalətinlə yox, mərhəmətinlə mühakimə et». Çünki, Allahın ədalət məhkəməsi qurularsa, əgər rəhm etməsə heç kəs o məhkəmədən bəraət ala bilməz. Ona görə ki, heç kəsdə Onun böyüklüyünə yaraşan nə ibadət, nə də verdiyi saysız-hesabsız nemətlər müqabilində şükraniyyət ola bilməz. Füzuli demək istəyir ki, məndə Sənə yaraşan, Sənə layiq bir əməl yoxdur. Vay o gündən ki, məni əməllərimə görə mühakimə edəsən:

***Xovfi-xətərdə müztəribəm, var ümid kim,***
***Lütfün verə bəşarəti-əfvü əta mana.***

Xəta qorxusundan; yəni səhv, günah qorxusundan rahatsızam, nigaranam, Amma yenə də ümidim var ki, mərhəmətin mənə bağışlanma muştulugu, gözaydınlığı verər.

***Mən bilməzəm mənə gərəyin, sən həkımsən,***
***Mən eylə, vermə hər nə gərəkməz sana, mana.***

Mənə lazım olanı məndən yaxşı sən bilirsən. Sənın istəmədiyindən məni özün qoru, bəyənmədiyini mənə vermə.

***Oldur mənə murad kim, oldur sənə murad.***
***Haşa ki, səndən özgə ola müddəa mana.***

Mənim istədiyim sənin istədiyindir, Allah eləməsin ki, mənim iddiam səndən başqası olsun.

***Həbsi-həvadə qoyma, Füzulisifət əsir,***
***Ya Rəb, hidayət eylə təriqi-fəna mana.***

Ehtiras, şəhvət məhbəsində Füzuli kimi məni də əsir etmə, Ilahı, fəna yoluna özün məni hidayət elə. Fəna dədıkdə, şübhəsız, «fəna-l'ıllah» ideyası nəzərdə tutulur.[7]

## SEYİD BƏHRUL-ULUM[8]

Seyid Mehdi Bəhrul-Ulum. Vəhid Behbehaninin üstün dərəcəli şagirdi və böyük fəqihlərdən olmuşdur. Fiqh elminə dair yazdığı mənzum əsəri məşhurdur. Onun rəy və nəzəriyyələri fəqihlərin diqqət mərkəzindədir.

Bəhrul-Ulum mənəvi məqamlarına və seyri-suluku başa vurduğuna görə şiə alimlərinin böyük hörmətini qazanmışdır. Məsumluq dərəcəsinə yaxın məqam sahibi hesab edilir. Ondan çoxsaylı kəramətlər nəql edilmişdir.

Böyük alimlərdən biri olan Kaşifulqita öz əmmaməsinin ucu ilə onun nəleyninin (başmağa oxşar ayaqqabı) tozunu silmişdir.

Bəhrul-Ulum 1741 və ya 1742-ci ildə anadan olmuş, 1797-ci

[7] Hacı Ələmdar Mahir. "Mənim tanıdığım Füzuli". Bakı, Nurlan-2009. Səh. 56-58.
[8] Bəhrul-Ulum - Elmlərin dəryası

ildə vəfat etmişdir.[9]

**Bəhrul-Ulumun rəyinə əsasən Allah-Təalaya tərəf gedilən yolun qaydaları (seyri-suluk)**

Allah-Təalaya yaxınlaşmaq istəyən şəxs, usulidini tam anlayıb, dinin hökmləri ilə kamil surətdə tanış olduqdan sonra, səfər yükünü hazırlayıb yola düşməli və aşağıda olan iyirmi beş qaydaları yerinə yetirməklə, İnşaallah məqsədinə çatar.

**1.** Tövbə etmək – insanı yol getməkdən saxlayan və çirkablıqda batıran işləri, adətləri və ənənələri tərgitmək.

**2.** Əhd-peyman – Bu mərhələdə insan Allahla, Peyğəmbərlə(s), imamlarla (ə) bir növ əhdpeyman bağlamalıdır. Yəni söz verməlidir ki, mən sizin vasitənizlə Allah tərəfə gəlməyə istiqamət götürürəm. Eyni zamanda onlardan da bu yolu getməyə kömək istəməlidir. Yolu getmək istəyən, bu yolda tam qətiyyətli olmalı, heç bir şeydən qorxmamalı və Allah-Təalanın lütfündən kömək istəməkdə qəlbində heç bir tərəddüdə yol verməməlidir.

**3.** Mehribançılıq və səmimiyyət – yəni eyni zamanda çoxlu işləri öhdəsinə götürməməlidir ki, yorularaq laqeyd olub yolu getməkdən qalmasın.

**4.** Vəfa – yəni tövbə etdiyi şeydə vəfalı olub bir daha onu etməməli və bu yolda ona yol göstərən ustada qarşı vəfalı olmalı.

**5.** Dözümlülük və davamiyyət – yəni bu mənada ki, seçdiyi proqramları daimi və adət halında etmək və onları heç vaxt tərk etməmək.

**6.** Nəzarətetmə (müraqibət) – yəni itaətsizlik yaranmaması üçün bütün hallarda özünə diqqət etməli, bağladığı əhdini qorumalıdır. Çünki, əhdini qorumasa onu itirər. Əhdini itirən elə

[9] Mürtəza Mütəhhəri. "İslam elmləri ilə tanışlıq" (Fiqh bölümü, səh. 320). Bakı-2011.

özünü itirmişdir. Bu mənada ki, o Allaha, Peyğəmbərə (s) və İmamlara (ə) söz vermişdi, onlarla əhd bağlamışdı. Verdiyi sözü, bağladığı əhdi tərk etmək onları itirmək deməkdir.Bu isə o deməkdir ki, insan özünü unudaraq itirmişdir. Özünü unutmaq isə qəflətdə olmaqdır. İmam Sadiq (ə) bir hədisdə buyurur ki, "Kim qəlbini qorusa, qəflətə düşməz. Nəfsini şəhvətdən, əqlini cəhalətdən qoruyan insan oyaq və ya oyanmış insan sayılır. Bu insanlar sözlərini, əməllərini və həm də mallarını haramdan qoruyarlar. Çünki onlar həmişə hər işə diqqətlidirlər. Diqqət etməsələr şeytan onların niyyətlərini qarışdırıb əməllərini məhv edər."

Diqqətli insan bir işi görməmişdən əvvəl, qiyamət günü o əmələ cavab verə biləcəksə, o əməli yerinə yetirir.

**7.** Mühasibə (hesablaşma) – hədisdə də "Hər gün özü ilə hesablaşmayan bizdən deyil" buyurulmuşdur. İnsan necə ki, bədəninin və işlərinin hesabını aparır, gərək ruhunun da hesabını aparsın. Elə insan var ki, sözü-söhbəti və danışığı onu cəhənnəmə aparar, elə insan var ki, onun sözü Qurana düşüb. Allah-Təala Qurani-Kərimdə onun dili, onun sözləri ilə danışır. Məsələn Həzrəti Loğman (ə).

İmam Sadiq buyurur: "Kim bizi tanıyırsa, bu isə bizim haqqımızdır, özünə hesabat verər. Pis əməllərdən tövbə edər, yaxşı əməllərinə görə Allaha şükr edər. Bunları etməyən bizdən deyil."İmam Sadiqdən (ə) sual etdilər ki, özümüzlə necə hesabat aparaq. İmam (ə) buyurmuşdur ki, - Gecələr özündən sual et. Ey nəfs, bu gün nə etdin? Nə işlə məşğul oldun? Qəlbin Allahla olub, yoxsa başqası ilə? Mömin qardaşının abrını, heysiyyətini, qeybət olunmamasını qorudunmu? Aya, kişi kimi özün-özünə de görək heç olmasa bir yaxşı iş görmüsənmi və işi kimə görə etmisən? Əgər yaxşı iş görmüsənsə, Allaha həmd et, Onunla bir daha əhd bağla, Ona şükr et ki, Allah səni pis işlərdən qorudu və Muhəmməd (s) və onun Əhli-beytinə (ə) salavat göndər. Əgər günah etmisənsə

tövbə et, Allahdan bağışlanmaq istə və bir daha özünə söz ver ki, daha bəsdir, qayıt Allaha tərəf, Allah ərhəmər-rahimindir. O, hər zaman səni qəbul edər.

**8.** Cəzalandırma – yəni azacıq bir səhv sedərsə, özünü çətinliyə salıb bu yolla da cəzalandırsın.

Mərhum Ayətullah Burucerdi (r) özünə söz vermişdi ki, əgər təsadüfən tələbələrindən birinə qarşı nəsə bir səbrsizlik etsəydi, tövbə edib, oruc tutsun və həmin tələbədən üzr istəsin.

**9.** Tələsmək – yəni işin yerinə yetməyi üçün, Qurani-Kərimdə buyurulduğu kimi "şeytan sizə vəsvəsə etməzdən öncə haqq yolunda tələsin."

**10.** Xalislik – yəni, heç bir pozğunçuluqlar olmayacaq qədər daxilini, qəlbini təmizləmək, şəriət sahibinə və Məsum imamlara qarşı tam eşqli olmaq.

İnsan hər bir işində və həyatının hər bir anında xalis olmalıdır. Bunun üçün o bilməlidir ki, bütün niyyət və əməlləri yalnız və yalnız Allaha xatir olmalıdır. Bu o zaman baş verə bilər ki, insan zahirçilikdən mütləq əl çəkməlidir.

**11.** Ədəb – yəni, Allah-Təalanın müqəddəs dərgahına qarşı, Rəsulullaha (s) və onun məsum canişinlərinə İmamlara (ə) qarşı tam ədəbli olmalı, azacıq da olsa etiraz nişanəsi olan sözləri dilinə gətirməməli və onları çox uca saymalıdır. Hətta hacətlərini istədikdə də əmr və qadağaya aid olan sözlərdən çəkinməlidir (Dua edən əmrlə yox, yalvarışla dua etməlidir).

**12.** Niyyət – yəni, bu yolda, bu gedişdə və bütün əməllərində qəsdini və niyyətini yalnız Allah-Təala üçün etməlidir. Əxlaq alimləri "niyyət" barədə buyururlar ki, "niyyət" həm ciddi olmalı, həm də xalis olmalıdır. Bu baxımdan insan bu yolda da "niyyətini" mütləq gərək ciddi və xalis etsin.İmam Sadiq (ə) belə buyurur: " Allah, niyyəti möhkəm olana kömək edər." Yəni insanın getdiyi bu yolda hər nə qədər çətinliklər olsa da, əgər "niyyəti" möhkəm olarsa, bədən niyyətə məğlub olar. Yox əgər "niyyət" zəif və süst

olarsa, onda "niyyət" bədənə məğlub olar. "Niyyəti" süst və zəif insan, yolda büdrəyər və yolu gedə bilməz.

**13.** Susma – yəni, dilini artıq sözlərdən qoruyub çəkindirmə və lazım olacaq qədərlə kifayətlənmə.

**14.** Aclıq və ya az yemək – bu iş, yolu getməyin mühüm şərtlərindən sayılır. Amma zəifliyə və xəstəliyə səbəb olmamalıdır.

**15.** Kənarlaşma – yəni, günahlardan, dünya tələb edən insanlardan və ağılsız şəxslərdən kənar olmaq. İbadət və zikrlə məşğul olduqda insanların toplandığı səs-küylü yerlərdən uzaq olmalıdır.

**16.** Səhər və gecə oyaqlığı – xüsusən gecənin sonundakı oyaqlıq, ayələrdə və hədislərdə çoxlu tapşırılmışdır.

**17.** Daima təharətli olmaq – yəni həmişə dəstəmazlı olmaq, bu insanın batininə xüsusi bir nuraniyyət verir.

**18.** Munacat – Uca Allah-Təalanın dərgahına yalvarışda olmaq və bacardığı qədər Allah-Təalanın dərgahında xuzuda (səmimi qəlb) olmasını izhar etməlidir.

**19.** Nəfsi istəklərdən bacarılası qədər çəkinmək – mübah da olsa.

**20.** Sirr saxlama – ən mühüm şərtlərdən sayılır, bu sahənin ustadları bunu çox israr edib tapşırmışlar, bu mənada ki, bu yolda olan əməl və proqramlarını gizli saxlamalı (azacıqda olsa özünü göstərmə və riya olmaması üçün), əgər qeyb aləmindən görüntülər görərsə, onu da gizli saxlamalı və heç kimə deməməlidir (özünügörmə və özünüsevməyə qapılmamaq üçün).

**21.** Yol göstərən və ustadın olması – həm bu yolu getməyə aid olan işlərdə hidayətedici ümumi ustadın, həm də xüsusi ustadın – Rəsulullahın (s) və Məsum imamların (ə).

Əlbəttə, bu yolu gedən şəxs bu mərhələni dəqiq və incə olmasına diqqət etməlidir. Heç kimi sınamamış, onun elmi və dini səlahiyyətlərindən xəbərdar olmamış hidayətdə və düz yol getmədə ona söykənməməlidir. Çünki bəzən şeytanlar ustad

paltarı geyib, canavarlar çoban görkəminə düşürlər və bu yolda gedən şəxsləri yollarından azdırırlar.

Mərhum Əllamə Təbatəbai bu barədə belə buyurur: "Hətta qeyri-adi işlər görən şəxsləri, gizli elmlərdən xəbər verən və insanların sirlərindən xəbərdar olanları, su üzərində yeriyib, oddan keçənləri, gələcəyə aid olan məsələləri bilən şəxsləri və s. Bu məqama çatdıqlarına görə haqq yolunda irəli getmələrinə tam arxayın olmaq olmaz. Çünki bunların hamısı ruhu görüntü dərəcəsində hasil olur, bu dərəcədən isə görüş və kamal sərhəddinə çoxlu yol var".

**22.** Mədhetmə (vird) – yəni, dilə aid olan zikrlər. Bu iş, yolu gedən şəxsin üzünə açar və onu Allah-Təalaya tərəf gedilən yolda çətin keçidlərdə olan aşırımları keçməyə kömək edər.

**23.** Xatirələri kənarlaşdırma – yəni, qəlbi ələ alıb ona hakimlik etmək. Şəxsin icazəsi olmadan heç bir xatirə və təsəvvürlərin ona yaxınlaşmayacaq qədər fikrini cəmləmək, başqa sözlə ixtiyarsız halda dağınıq fikirlərin onu məşğul etməməsi. Bu çətin işlərdən biri sayılır.

**24.** Fikir – yəni, Allah-Təalaya tərəf gedən şəxs agahlıq və mərifətdə dərin və doğru fikirləşməyə çalışmalıdır. Onun bütün fikri İlahi adlara və sifətlərə, onun hikmət və işlərinə aid olmalıdır.

**25.** Zikr – yəni, dil ilə yox qəlblə. Allah-Təalanın zatına qəlblə diqqət etmək, başqa sözlə, bütün diqqətini Allah-Təalanın camalına yönəltməli, ondan başqa hər şeyə göz yummalıdır.

## İSLAMDA ÜÇLÜK

**Üçlər:** Allah-Təala (c.c), Həzrət Muhəmməd (s) və Həzrət Əli (ə).

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ

*"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə (ə) və özünüzdən olan əmr sahiblərinə (12 imama) itaət edin!"*[10]

Peyğəmbər (s) buyurmuşdur: "Ey camaat! Həqiqətən məndən sonra heç bir Peyğəmbər, sizdən sonra heç bir ümmət olmayacaq. Agah olun və öz Allahınıza ibadət edin, beş vaxtda namaz qılıb, Ramazan ayının orucunu tutun, Rəbbinizin beytinin həccinə gedin, mal-dövlətinizin zəkatını səmimi qəlbdən verin və öz vəliyyi-əmrlərinizə (imamlarınıza) itaət edin ki, Pərvərdigarınızın cənnətinə daxil olasınız."

"Əlinin (ə) vilayəti Allahın vilayətidir, onu sevmək ibadətdir."

Allah-Təala Əhli-beyti (ə) şəfaətci, hidayət yolunun çırağı, ürvətil-vüsqa, ərkani-qiblə, insanlıq üçün höccət və düzgün yol təyin edərək "Nicat gəmisi" kimi tanıtdırmışdır.

Hədislərin birində o Həzrət (s) ümmətinə xitabən buyurur: "Hamınız çobansınız və sürünüzdən ötrü məsuliyyət daşıyırsınız".

Əbu Bəsir İmam Cəfəri Sadiqdən (ə) sual etdi: "Yəbnə Rəsulullah (s) camaat bizə deyir ki, nə üçün Allah-təala Qurani-kərimdə Həzrət Əlinin (ə) və Əhli-beytin (ə) adlarını çəkməmişdir?"

İmam Cəfəri Sadiq (ə) buyurdu: "Onlara belə cavab verin ki, Rəsuli-əkrəmə namaz hökmü nazil oldu, ammaAllah-təala onun üç və ya dörd rəkət olmasını bəyan etmədi. Həzrət Peyğəmbər (s) özü camaat üçün rəkətlərin sayını müəyyənləşdirdi. Həmçinin, zəkatın hökmü ümumi şəkildə nazil oldu, amma onun incəlikləri və hansı halda vacib olması bəyan olunmadı və Peyğəmbər (s) özü şəxsən onları aydınlaşdırdı. Həmçinin,Allah-təala həccin vacib olmasını əmr etdi, amma neçə dəfə təvaf etməyin vacib olmasını bəyan etmədi və Peyğəmbər (s) bunu da özü camaata bəyan etdi. Həmçinin,Allah-təala "Allaha, onun Rəsuluna və əmr sahiblərinə itaət edin" ayəsini nazil etdi. Amma əmr sahiblərinin kimlər

[10] "Nisa" surəsi, ayə 59

olduğunu bəyan etmədi və bunun aydınlaşdırılmasını Peyğəmbərin öhdəsinə qoydu. Peyğəmbər (s) müxtəlif hadisələrlə əlaqədar əmr sahiblərinin kimlərdən ibarət olduğunu dəfələrlə açıqlamış və islam ümmətinə çatdırmışdır".[11]

Peyğəmbər (s) buyurub: "Məndən sonra xəlifələr on iki nəfərdir. Hamısı da Qureyşdəndir."

Həzrət Peyğəmbər (s) hər bir münasibətdə Həzrət Əlinin (ə) fəzilətlərini xalqa çatdıraraq buyurardı: "Əli (ə) mənim qardaşım və məndən sonra varisim və xəlifəmdir, onu eşidin və ona tabe olun"[12].

Həzrət Əlinin (ə) əqidə və məslək davamçısı, görkəmli dövlət və din xadimi, Əhli-beyt (ə) aşiqi Ş.İ.Xətai "Bu gün" rədifli qəzəlinin bir beytində deyir:

***Əlini haqq bilməyənlər kafiri-mütləq olur,***
***Dini yox, imanı yox, çün namüsəlmandır bu gün.***

Ayətullah Muhəmməd Fazil Təbrizi Mərəndli Həzrət Əlinin (ə) fəzilətləri barəsində deyir: "Əli (ə) haqqında danışmaq o qədər də asan deyil. O, sonsuz bir dənizdir. İnsan fəhmi, ağlı, düşüncəsi o qədər kiçikdir ki, nə Əlini (ə) dərk edə, nə də tərifə çəkə bilər. Əli (ə) elə bir dəryadır ki, bəşərin o dəryanın sahillərinə iz qoyub Əlinin(ə) kimliyinə nəzər yetirmək qüdrət və qüvvəsi yoxdur."

Bu sözlərdən sonra türk şairi Ziya Paşanın Allah-təala barəsində dediyi bu beytləri xatırlatmaq yerinə düşərdi.

***İdraki-məali bu kiçik əqlə gərəkməz,***
***Zira bu tərazu o qədər siqləti çəkməz.***

Beytin mənası budur ki, Allahı dərk etmək üçün bizim əql və şüurumuz kafi dərəcədə deyil.

---

[11] "Üsulu-kafi", kitabul-höccət səh.40, hədis 1.

[12] "Tarixi-Təbəri", c.2, səh. 319. "Tarixi-ibn-Əsir", c.2, səh. 65.

Həzrət Əlinin (ə) məqamını və fəzilətlərini dərk etmək üçün bizim əql və şüurumuz kifayət deyil. Necə ki, Qumri Dərbəndi deyib:

***Elə mey ver ki, ola hər nəfəsim mədhi-Əli,***
***O Əliyibni əmi Əhmədi-Muxtar olsun.***

***Hanı Qumridə o qüdrət ola məddahi-Əli,***
***Mülhəmi-ğeybi məgərin ki, mədədkar olsun.***

Həfs ibni Ğiyas Harunun dövründə Bağdadda qazilik etmişdir.Onun bir kitabı vardır ki,həmin kitabda İmam Sadiqdən (ə) yüz yetmiş hədis nəql etmişdir. Həfs ibni Ğiyas əhli-sünnə məzhəbində olmuşdur. O insanlar arasında tanınmağı, məhşur olmağı çox istəyirdi. Bir gün İmam Sadiq (ə) Həfs ibni Ğiyasa buyurdu: "Əgər qüdrətin varsa ki, evindən çıxmayasan, evindən çıxma. Əgər çıxmağa məcbur olsan - qeybət etmə, yalan danışma və həsəd aparma. Riyakarlıq etmə, hiylə yolu ilə özünü camaata yaxşı göstərməyə çalışma, nə də ikiüzlülük etmə. Artıq çalış ki, özün yaxşı insan olasan." Sonra İmam (ə) sözünə davam edərək buyurdu: "Müsəlmanın toplandığı yer öz evidir. Müsəlman öz evində olmaqla, gözü, dili və digər bədən üzvləri pis işlərdən qorunar. Ya Həfs, üç dəstədən - zalım sultanın dostu, nəfsinin dostu və aşkara günah edənlərdən başqa, bu ümmətdən hər kim ki, bizim haqqımıza inansa, nicat tapacaqdır. Ya Həfs, həqiqət yolu ilə Allahı sevmək yalandan Allahdan qorxmaqdan yaxşıdır. Vallahi, hər kəs Allahı sevsə dünyanı sevməz və bizdən başqasını özü üçün imam və rəhbər seçməz. Çünki hər kəs bizi tanısa zalımlara deyil, bizə məhəbbət edər. Əgər bizə məhəbbət etsə, elə bil ki, Allaha məhəbbət edir. Ya Həfs, Rəsulullah (s) buyurmuşdur ki, kim Allahdan qorxsa, az danışar. Sonra Peyğəmbər (s) sözünə davam edərək buyurdu: "Musa (ə) öz səhabələrinə moizə edərkən bir kişi ayağa qalxıb köynəyini cırdı. Allah Musaya buyurdu: "Ya

Musa o kişiyə de ki, köynəyini cırma, əksinə, qəlbini bizə aç." Başqa bir vaxt Musa (ə) öz sahəbələrindən olan bir kişinin yanından keçirdi. Həmin kişi səcdə halında idi. Musa (ə) öz işlərinin ardınca getdi və qayıtdıqda həmin kişini yenə də səcdə halında gördü. Musa (ə) ona dedi: "Əgər sənin istəyin mənim əlimdə olsaydı mütləq onu yerinə yetirərdim!" Allah Musaya (ə) vəhy etdi: "Ya Musa, bu kişi mənim bəyənmədiyim işlərdən əl çəkməsə, boynu qırılana qədər səcdə etsə də, onun istəyini vermyəcəyəm." Bu hədisi Ustad Əli Hicrani İmam Əlinin (ə) rəftarı adlı kitabın 24-25 ci səhifələrində qeyd edir və deyir: "Görəsən, Həfs ibni Ğiyas İmam Sadiqin (ə) gözəl sözləri və nəsihətlərindən sonra bəyənilməyən işlərindən (Harunun sarayında qazilik edəcək zalıma kömək etməkdən, həmçinin Əhli-beytə (ə) müxaliflik etməkdən) əl çəkdi, ya yox?!".

## "PƏNCİ-TƏNİ-ALİ-ƏBA" MƏCLİSİ – BEŞLƏR CƏMİ

## "TƏTHİR"AYƏSİ

**بسم الله الرحمن الرحيم**

**إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا**

"Siz, ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz pak etmək istər!"[13]

Təfsir və hədis kitablarına görə, "Əhli-beyt" sözündən məqsəd Peyğəmbərin (s) xanədanıdır və onlar "Əli, Fatimə, Həsən və Hüseyn" əleyhumussəlamdan ibarətdirlər.

Peyğəmbər (s) bu ayənin barəsində buyurmuşdur: "Təthir"

[13]"Əhzab" surəsi, ayə 33

ayəsi beş nəfərin haqqında nazil olmuşdur: Mən, Əli, Fatimə, Həsən və Hüseyn (əleyhimussəlatu vəs-səlam)."

Aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Dədə Ələsgər Peyğəmbərin (s) buyurduğu bu hədisi "Divani"sində belə çatdırır:

***"Ələst"idən bəli dedim, nə xoş iqbaldı yüküm,***
***Beş gözəlin aşiqiyəm, vəsfi kamaldı yüküm.***
***Mətahım mətah olunca bazarım bazar olsun,***
***Nə alınmır, nə satılmır, xeyli zavaldı yüküm.***

Peyğəmbərin (s) Əhli-beytinin kimlərdən ibarət olması barədə ixtilafları nəzərə alıb, mötəbər sünnü kitablarından "Təthir" ayəsinin kimlərə şamil olduğunu izah edəcəyik.

"Təthir" ayəsinin əvvəlində Allah-Təala Peyğəmbərin zövcələrinə (həyat yoldaşlarına) nəsihət verir, onları yaxşı işlərə dəvət edir, hamısında qadınlara məxsus olan كُنَّ"kunnə" əvəzliyi gətirilir. Amma ayənin sonunda, söz Əhli-beytə çatanda, əvəzlik dəyişilir, kişilərə xitab olunaraq كم (kum) kəlməsindən istifadə edilir. Lakin ayədə açıq-aydın göstərilən əvəzliyi nəzərə almayan Əhli-sünnət qardaşlarımız bu ayəni Peyğəmbərin (s) xanımlarına aid edirlər.

Gəlin, sünnü rəvayətlərinə nəzər yetirək. Əhli-sünnə məzhəbinə malik olan Həkim ibni-Səid deyir: "Ümmü Sələmənin yanında Əli (rəziyəllahu ənhu) haqqında söhbət gedirdi. Ümmü Sələmə bu münasibətlə "Təthir" ayəsini oxudu, sonra dedi: "Bu ayə mənim evimdə nazil oldu. Bir gün Peyğəmbərə (s) xidmət etmək iftixarı mənə qismət olmuşdu. Həzrət (s) bu gün istəyirdi ki, evdə tək olsun və başqası bizim evimizə gəlməsin. Buna görə də mənə tapşırdı ki, bu gün heç kəsə evə gəlməyə icazə verməyim. Amma Fatimə (rəziyəllahu-ənha) gəldi. Mən onu geri qaytarmağa utandım. O, evə varid oldu. Bir azdan sonra Həsən, sonra Hüseyn, daha sonra isə Əli (rəziyəllahu-ənh) bu minvalla bizim evimizə

gəldilər və Peyğəmbərin (s) ətrafında oturdular. Elə bu vaxt ayə (Təthir ayəsi) nazil oldu. Peyğəmbər (s) bu 4 nəfəri bir yerə yığıb öz əbasını onların başına çəkdi, belə dua etdi: "Pərvərdigara! Mənim Əhli-beytim bu dörd nəfərdən başqa heç kəs deyildir. İlahi, onları çirkinliklərdən uzaq et!"

Peyğəmbər (s) onlara dua edəndən sonra, mən dedim: "Ey Allahın Rəsulu, bəs, mən?!"

Peyğəmbər (s) buyurdu: "Bu dua və ayə sənə şamil deyil. Lakin bil ki, sənin gələcəyin parlaqdır."

Ümmü Sələmə bu söhbətin axırında dedi: "Onların yığıncağı çox bərəkətli idi."

Əbu Səid Xudri nəql edir ki, Ümmü Sələmə dedi: "Təthir" ayəsi mənim evimdə nazil oldu. Bu ayə nazil olan günü Əli, Fatimə, Həsən və Hüseyn (rəziyəllahu-ənhum) Peyğəmbərin (s) dövrəsində toplaşmışdılar. Mən də qapının astanasında oturmuşdum: "Ayə nazil olandan sonra Peyğəmbərdən soruşdum: "Ey Allahın Rəsulu! Məgər mən Əhli-beytdən hesab olunmuram?" Peyğəmbər (s) buyurdu: "Sənin aqibətin xeyirlidir. Sən Peyğəmbərin zövcələrindənsən, ləyaqətli qadınsan. Amma Əhli-beytdən hesab olunmursan."

Digər bir rəvayətdə Əbu Səid deyir, Peyğəmbər (s) buyurdu: "Təthir" ayəsi beş nəfərin – Mən, Əli, Fatimə və iki övladı Həsənlə Hüseynin haqqında nazil olmuşdur."

Şeybənin qızı Səfiyyə nəql edirdi ki, Aişə dedi: "Bir gün sübh tezdən, Peyğəmbər (s) naxışlı yun paltarını geyib, evdən çıxdı. Həsən, Hüseyn, Fatimə və Əli də ona qoşuldular. Peyğəmbər (s) onları bir-bir əbasının altına salandan sonra "Təthir" ayəsini oxudu."

İbnHəvəşin əmisi oğlu deyir: "Mən və atam birlikdə Aişədən (rəziyəllahu ənha) Əli (ə) haqqında sual etdik. Aişə (rəziyəllahu ənha) dedi: "Sən elə bir şəxs haqqında soruşursan ki, Peyğəmbərə (s) hamıdan sevimli idi. Peyğəmbərin (s) qızı da onun ixtiyarında

idi. Hansı ki, Peyğəmbərin (s) ən çox istədiyi şəxs idi. Bir gün gördüm ki, Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseyni (Allah onlardan razı olsun) öz yanına çağırdı, öz əbasını onların başının üstünə çəkib buyurdu: "Pərvərdigara! Bunları çirkinliklərdən, günahlardan qoru!"

Aişə xanım deyir: "Mən onlar tərəfə yaxınlaşdım və Allahın Rəsuluna dedim: "Mən də sənin Əhli-beytindənəm?"

Peyğəmbər (s) buyurdu: "Xeyr! Buradan uzaqlaş! Sən mənim Əhli-beytimdən deyilsən. Amma yaxşı adamsan!"

İmam Sələbi, İmam Əhməd ibn Hənbəl, ibn Əsir "Camiul-usul", Müslim və Tirmizi öz əsərlərində ummul-mömінin Umm-Sələmədən nəql edirlər ki, o xanım buyurur: "Bir gün Peyğəmbər (s) mənim mənzilimdə idi. Fatimə (ə) əlində bir qab hərirə (un və süd və ya un və yağla bişirilən yemək) daxil oldu. Peyğəmbər "səfvə" də (həzrətin yataq yeri) oturmuşdu. Ayağının altına xeybər əbası salmışdı. Mən öz hücrəmdə namaz qılırdım. Peyğəmbər (s) Fatiməyə(ə) buyurdu: "Get ərini və oğlanlarını gətir". Çox çəkmədi ki, onlar gəldilər və hərirəni bir yerdə yedilər. O halda Cəbrail mələk nazil olub "əl-Əhzab" surəsinin 33-cü ayəsini gətirdi. Bu zaman Allahın Rəsulu (s) əbanı onların üstünə salıb buyurdu: "İlahi, bunlar mənim əhli beytimdir, bunlardan bütün çirkin və rəzillikləri götür və bunları pak-pakizə et".

İslamın əziz Peyğəmbəri Həzrət Muhəmməd (s) dəfələrlə bu hədisi (hədisi – Səqəleyin) ümmətinə çatdırmış və buyurmuşdur: "Sizin aranızda iki əmanət qoyub gedirəm; Allahın kitabını və itrətimi (nəslimdən olan məsum imamları) Bunlar qiyamətdə Kövsər hovuzu kənarında mənim hüzuruma varid olana qədər bir-birindən ayrılmazlar."[14]

Bu hədisdə Peyğəmbər (s) Quranla Əhli-beytin(ə) qiyamətə-dək davam edəcək qırılmaz rabitəsini müsəlmanlara çatdırır. Həz-

---

[14]Əllamə Tehrani, "İmamşünasi", cild 6, səh.145

rət Əli (ə) isə Əhli-beytin (ə) ilk şəxsiyyəti, İmamların sərvəridir.

Həzrət Əlinin (ə) şəninə nazil olmuş bir çox ayələrin barəsində İmam Muhəmməd Baqirdən(ə) nəql olunur ki, O, Həzrət buyurub:

**نحن جنب الله و نحن حبل الله و نحن رحمة الله على خلقه و بنا يفتح الله و بنا يختم الله و نحن العلم المرفوع لأهل الدنّيا و نحن السّبقون و نحن الأخرون من تمسّك بنا لحق و من تخلّف عنّا غرق. نحن قادة المحجّلين و نحن حرم الله و نحن الطريق و الصراط المستقيم إلى الله عزّوجلّ و نحن من نعم الله على خلقه و نحن المنهاج و نحن معدن النّبوّة و نحن مواضع الرسالة و نحن أصول الدين و إلينا يختلف الملائكة و نحن السّراج لمن استضاء بنا و نحن السّبيل لمن اقتدى بنا و نحن الهداة الى الجنّة و نحن عروة الاسلام و نحن الجسور و نحن القناطر من مضى علينا اشبق و من تخلّف عنّا محق و نحن السّنام الأعظم و بنا يصرف الله عنكم العذاب من أبصر بنا و عرفنا و عرف حقّنا و أخذ بأمرنا فهو منّا.**

İmam (ə) bu xütbədə Quran ayələrini və Peyğəmbərdən (s) nəql olunmuş rəvayətləri izah edərək buyurub: “Biz Allahın ən yaxın bəndələriyik.”

Əhli-beyt (ə) Allahın ən yaxın və sevimli bəndələri olduğu üçün onları Cənbullah (yəni, Allahın yaxın bəndələri) adlandırır.

İmam Baqirin (ə) bu cümləsi “Zumər” surəsinin 56-cı ayəsinə işarədir:

**أَن تَقُولَ نَفْسٌ يَا حَسْرَتَى علَى مَا فَرَّطتُ فِي جَنبِ اللَّهِ وَإِن كُنتُ لَمِنَ السَّاخِرِينَ**

“Nəfs deyər: Ey vay, Mən Allah haqqında məsuliyyətsiz oldum.” Ayənin təfsiri belə olacaq: “Vay olsun mənə ki, Əhli-beytdən(ə) uzaq düşdüm!”

“Həblullah (Allahın qırılmaz ipi) bizik!” Bu cümlə aşağıdakı Quran ayəsinə işarə edir:

**وَاعْتَصِمُواْ بِحَبْلِ اللّهِ جَمِيعًا وَلاَ تَفَرَّقُواْ**

"Allahın möhkəm ipindən yapışın və ayrılmayın"[15]

"Biz Allahın bəndələrinə olan geniş rəhmətindənik, " – cümləsi Qurani-Kərimin "Əraf" surəsinin 156-cı ayəsinə işarədir:

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ

"Mənim rəhmətim hər şeyi əhatə etmişdir".

Rəvayətlərdə nəql olunur ki, Allahın geniş rəhməti Əhli-beytədir(ə).

"Allah əvvəldən axıra qədər olan xilqəti bizə görə yaradıb."

Bu cümlə, ziyarət kitablarında da nəql olunduğu kimi, aşağıdakı ayəyə işarədir:

وَكَذَلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطًا لِّتَكُونُواْ شُهَدَاء عَلَى النَّاسِ وَيَكُونَ الرَّسُولُ عَلَيْكُمْ شَهِيدًا

"Həqiqətən, Biz sizi (Əhli-beyti) kamil yaratdıq ki, insanlara şahid olasınız?"[16]

Rəvayətlərdə nəql olunur ki, "şəhadət" (şahid olmaq) feyz mənasındadır.

"Biz yol göstərən və parlaq imamlarıq, insanlar üçün elm mənbəyiyik. Əvvəlkilər və axırkılar bizik. Hər kəs bizə pənah gətirsə, doğru yolu tapar. Hər kəs bizdən uzaq düşsə, qərq olar."

Bu cümlələr Peyğəmbərmizdən (s) dəfələrlə nəql olunan "Gəmi" hədisinə işarədir; "Mənim əhli-beytimin məsəli Həzrət Nuhun (ə) gəmisinin məsəli kimidir. Hər kəs onlara pənah gətirsə, nicat tapar, hər kəs onlardan uzaqlaşsa, qərq olar."[17]

"Qiyamət günündə yol göstərən bizik. Biz Allahın hərəmiyik ki, insanlar arasında hörmətimiz qorunur." Xütbədə qeyd olunan

[15]"Ali-İmran" surəsi, ayə 103

[16]" Əl-Bəqərə" surəsi, ayə 143

[17]"Müstədrəküs – səhiheyin", cild 2, səh. 343

“Biz düz yoluq”, – cümləsi “Fatihə” surəsinin 6-cı ayəsinin təfsiridir.

اهدِنَا الصِّرَاطَ المُستَقِيمَ

“Bizi düz yola hidayət elə.”

“Allahın bəndələrinə olan neməti bizik, ” – cümləsi “Nəhl” surəsinin 112-ci ayəsinə işarədir:

وَضَرَبَ اللّهُ مَثَلاً قَرْيَةً كَانَتْ آمِنَةً مُّطْمَئِنَّةً يَأْتِيهَا رِزْقُهَا رَغَدًا مِّن كُلِّ مَكَانٍ فَكَفَرَتْ بِأَنْعُمِ اللّهِ فَأَذَاقَهَا اللّهُ لِبَاسَ الْجُوعِ وَالْخَوْفِ بِمَا كَانُواْ يَصْنَعُونَ

“Allah-Təala elə bir şəhəri məsəl çəkir ki, əmniyyət və nemət oraya hər tərəfdən nazil olurdu. Onlar Allahın nemətlərinə küfr etdilər. Sonra Allah aclıq və böhranı onlara göndərdi. “Haqq və həqiqət yolu, Peyğəmbərin (s) xəzinəsi bizik. Risalət bizim evimizdə nazil olub.”

“Allah öz risalətini harda qərar verdiyini daha yaxşı bilir”, - ayəsinə işarədir.

Şeyx Muhəmməd ibn Əhməd ibn Cəzzi əl-Kəlbi “Kitabut-təhsil”, 3/137-də yazır: “Qalən-nəbiyyu nəzələt hazihil-ayə fi xəmsətin fi vuldi Əliyyin və Fatiməti, vəl-Həsəni vəl Huseyni”.

**Tərcüməsi:** Peyğəmbər (s) buyurdu: “Bu ayə beş nəfər haqqında nazil olmuşdur. Əli övladları, Fatimə, Həsən və Hüseyn (Allahın salamı onlara olsun)”.

Bunlardan əlavə, əhli-sünnə və imamiyyələrin hədis və tarix kitabları buna şahidlik edirlər ki, “Əhli-beyt” yalnız “əshabi-kisa” və ya “əba əhli” dirlər.

Qurani-kərimin “Təthir” ayəsinə əsasən, Əhli-beyt (ə) pak və məsumdur. Əhli-beyt (ə) Allaha qarşı günah etmir və onun əmrinə xilaf çıxmırlar.

***Dərda ki, əhli-danişü idrak getdilər,***
***Məcruhi dil şikəstəvu qəmnak getdilər,***
***Alayişi-zəxarifə aludə olmayıb,***
***Dünyayə pak gəldilər, pak getdilər.***

**Anlamı:***Dərd budur ki, elm və idrak əhli getdilər. Qəlbi şikəstə və yaralı olan qüssəlilər getdilər. Bəzək-düzəyə bulanmadılar, dünyaya pak gəlib, pak getdilər.*[18]

İbn Abbas nəql edir ki, Həzrət Peyğəmbərimiz (s) bir xütbəsində buyurdu: ***"Ey camaat! Allah-Təala mənə vəhy etdi ki, tezliklə sizin aranızdan gedəcəyəm. Bilin ki, əmioğlum Əli (ə) qardaşım, canişinim və məndən sonra xəlifəmdir, imamdır. Əgər ona itaət etsəniz, Allaha itaət etmiş, itaət etməsəniz Allaha qarşı günah etmiş olursunuz. Allah-Təala Quranı mənə nazil etdi. Həzrət Əli (ə) onun təfsirçisidir. Hər kəs Quranla müxalifətçilik edərsə, yolunu azacaq və hər kəs Həzrət Əlidən (ə) başqasına itaət etsə, xar və zəlil olacaq.***

***Ey camaat! Qiyamət günü mən, Əhli-beytim (ə), nəslim və sizlər hamılıqla toplaşacağıq. Onda mən sizdən iki ağır əmanət haqqında soruşacağam. Məndən sonra bu iki əmanət ilə necə rəftar edəcəyinizə diqqət edin. Hər kəs onlara əziyyət etsə, mənə əziyyət etmiş və hər kəs onlara zülm etsə, mənə zülm etmişdir. Hər kəs onlarla dost olsa, mənimlə dost olmuş, hər kəs onlara hörmət etsə, mənə hörmət etmişdir. Hər kəs onlardan başqa nicat yolu axtarsa, məni inkar etmişdir. Allahdan qorxun və diqqətli olun ki, sabah Qiyamət günü nə cavab verəcəksiniz?! Bilin ki, Quran və Əhli-beytimə (ə) düşmən olan kəsə mən də düşmənəm. Mən hər kəsə düşmən olsam, onun nəsibi cəhənnəm olacaq".***

Peyğəmbərimiz (s) buyurmuşdu ki, Quran və Əhli-beytim (ə) Kövsər hovuzuna gəlib çatana qədər bir-birindən ayrılmayacaq və

[18] M. Füzuli. "Hədiqətüs-sühəda"

sizin nicatınız onların hər ikisindən möhkəm yapışmağınızdadır, amma bəziləri bunu əməldə inkar edərək: “Allahın kitabı bizə kifayətdir”, - dedilər, nəticədə, nə Qurana əməl etdilər və nə də Əhli-beytə (ə) tabe oldular”[19].

Həzrət Əli (ə) Qurani-Kərimə aid olan biliklərini Həzrət Peyğəmbərdən (s) almış və Peyğəmbərə (s) ən yaxın adam olmuşdur. Belə ki, Peyğəmbər (s) aldığı vəhylərin mənasını hamıdan əvvəl Həzrət Əliyə (ə) açıqlamışdır. Elə bu səbəbdən də Həzrət Əli (ə) buyurmuşdur: “Allahın kitabı barəsində məndən soruşun, çünki elə bir ayə yoxdur ki, onun gecə və ya gündüz, aranda və ya dağda nazil olduğunu bilməyim.”

İnsan nə qədər elmli, bilikli olsun ki, belə bir sözü camaat arasında desin. Həzrət Əlinin (ə) belə bir söz deməyə haqqı çatırdı, çünki Peyğəmbər (s) nazil olan ayələri əvvəlcə Həzrət Əliyə (ə) oxuyur və yazdırırdı, sonra həmin ayələrin təvil və təfsirini, nasix və mənsuxunu, möhkəm və mütəşabihini öyrədir və Allah-Təaladan istəyirdi ki, onları başa düşmək üçün Həzrət Əliyə (ə) qüvvət versin. Həzrət Əli də (ə) Peyğəmbərdən (s) öyrəndiklərini yadda saxlayır və bu mübarək ayələrin halal-harama dair hökmlərini, əmr və qadağalarını, olanlara və olacaqlara dair xəbərlərini bilirdi. Həzrət Əli (ə) bir nəfər müsəlmanın “Bəqara” surəsinin 156-cı ayəsini oxuduğunu eşidərkən buyurdu: “Bizim “İnnə lillahu” deməyimiz Allahın padşahlığını etiraf etməyimizdir, “İnnə ileyhi raciun” deməyimiz isə həlak olacağımızı iqrar etməyimizdir.”[20]

Mərsiyə ədəbiyyatının tacı, Əhli-Beyt (ə) şairi Hacı Əbülhəsən Raci Həzrəti Əliyə (ə) sonsuz məhəbbətini bu misralarla bildirərək and içir ki, qələmim əhd edib ki, Əli (ə) və övladi-Əlidən qeyri kimsəni mədh etməsin:

[19] “Biharul-ənvar”, c. 22, səh. 473

[20] “Nəhcül-bəlağə”, hikmətli kəlamlar, 95

***Yazmaz məgər övsafi-Əli xaməm edib əhd,***
***Birdir sözü bu kilkün, əgərçi du zəbandır.***

**Anlamı:***Qələmim əhd edib ki, Həzrət Əlinin (ə) vəsfindən başqa bir şey yazmasın. Qələmimin iki dili olsa da o bu sözündə möhkəmdir.*

Şeyx Mufidin yazdığına görə, "Əmirəl-muminin Həzrət Əli (ə) nazil olan Qurani-Kərimi əvvəlindən axırına kimi cəm etmiş, vacib olduğu şəkildə yazmış, Məkkə ayələrini Mədinə ayələrindən qabağa çəkmiş, nəsx edilmiş ayələri nəsx edən ayələrdən qabağa çəkmiş, oradakı hər şeyi öz yerinə qoymuşdur."

Müasir dövrümüzün Əhli-beyt (ə) şairlərindən olan Seyid Nurəddin Dərafərin də yuxarıda deyilənləri qəlb süzgəcindən keçirərək nəzmə çəkmiş və öz fikrini bu misralarla insanlara çatdırmışdır:

***Rəhbər də Əli, şahi-vilayət də Əlidir,***
***Şanu-şərəfi-şöhrəti, izzət də Əlidir.***
***Zahid, mənə tərif eləmə bağı-behişti,***
***Kövsər də Əlidir, elə cənnət də Əlidir.***

Təriqət mənbələrində Ali-Əbanınadlarıvə kimlikləribarədə bilgilərinxilqətöncəsi,Firdövscənnətində HəzrətiAdəmə (ə) sirrolaraqöylədilməsinə təsəvvüf ərbabı içərisində möhkəm və nəzəribirinam vardır. «Kitabi-Dədə Qorqud»un qələmə alındığı dövrü vəmühiti nəzərə alaraq söyləyə bilərik ki, «beş kəlmə dua» ifadəsisonradan Əhli-Beytkimianılan«beşkimsənə»dənbaşqasıolabilməz. Burada kiçik bir haşiyə çıxmaq istərdik. «Beş kimsənə»məsələsiümumiyyətlə ürfaniqaynaqlardaadıtezteztələffüzolunanbiranlayışdır.Onudaqey detməkistərdikki,buifadəhəmdə «beşlər»olaraq,silsilə şəklində «Üçlər»,«Beşlər»,«Yeddilər»,«Qırxlar»adlıürfaniqafiləyə daxildir.Bizbuməsələ barəsində də əvvəlki fəsillərdə müəyyən qədər məlumat vermişdik.Buanlayışlartarixdəkiməlumfundamentaldinlərlə heçbir

əlaqəsiolmayan,metafizik-ruhanimotivlərdirki,onlarıtamamilə başqaaspektdəntədqiqetməklazımdır.Həminnöqteyi-nəzərdənyanaşaraq,burada Əhli-Həqfəlsəfəsindəki(eynizamandadigərtəriqətqaynaqlarında)«hülul» ,«təbdiliruh»,eynizamanda«donbadon»nəzəriyyəsinə müraciətetməklazımdır.Belə ki,bunəzərisistemə əsasən,həmin«Beşlər»«Lahut» (ruhlar aləmi)dan «Nasut» (insanlıq-maddi aləm)a təbdilolaraq, müxtəlif zamanlarda, müxtəlif vücüdlarda zühur etimşlər.

Ürfani inanca görə isə, bu vücudların ən ehtişamlıları «Ali-Əba»kimiməşhurolanİslamPeyğəmbərinin (s) pakxanədanı – Əhli-beytdir. Əvvəlkiabzaslardadagöstərdiyimizkimi,bu «hülul»məsələsi eyni zamanda dörd mələyə də şamil olunur. Yəni həmin əzəmmələklərdə ürfani(xüsusilə də Əhli-Həqfirqəsiarasındakı) qaynaqlara əsasən, qiyamət gününə qədər hər dövrdə müxtəlif cismlərdə zühur edir.

Bütün bu məsələləri göz önünə aralaq, «Kitabi-DədəQorqud»unmətnindənnümumə gətirdiyimiz **«Ağalnındabeşkəlmə duaqıldıq»** ifadəsitəsəvvüfimətləbləriözündə ehtivaedir.Buradadiqqətimiziçəkənbaşqabirməsələ «ağalnında»ifadəsidir.Heçşübhəsizki,buifadələrtəsadüfənyan-yanaişlənməmişdir. Belə ki, yenə də ürfani rəvayətlərə əsasən, (eynizamanda«Qurani-Kərim»intəsəvvvüfitəfsirinə görə)Firdövscənnətində Haqq-Təalanın əmriylə mələklərinHəzrətiAdəməsəcdə etmələrinin əsasqayəsivə səbəbiAllahınZatınınhülulolaraqinsandagörünməsivə müqəddəs«İsmi-Əzəm»lərinonaöyrədilməsidir. Bu «İsmi-Əzəm»lər arasında Ali-Əbanın – yəni,«Beşlər»ində sirliadlarıolmuşdur.Həmin qaynağındahabaşqavə dərinnöqtələrində yatandigərmətləbtorpaqdanyarananHəzrətiAdəmin

(ə)osirrləriöyrəndikdənsonra,buehtişamqarşısındatorpağasəcdə etməsidir.Butorpaq,yəni,HəzrətiAdəmin (ə) xəlqolunduğu torpaqdır.Həzrəti Adəmin (ə)xəllaqiyyətiözündən əvvəlyaradılmışYerinsanlarındanfərqlidir.Belə ki, Əhli-Həqsistemininnəzəriqaynaqlarına əsasən,HəzrətiAdəmdənöncəxəlqolunanYerinsanlarının(bugörüştə rzidinalimləriiçərisində də mövcüddur. Belə ki, onlar da iddia edirlər ki, əgərHəzrətiAdəmdən əvvəlYerKürəsində insanlarmövcuddeyildisə,ozamanAllah-Təalaonukimlərə Peyğəmbərolaraqgöndərmişdi?) torpağı (yəni, xəlq olunduqları mənbə) qara, Firdövsbehiştində xəlq olunanAdəmintorpağıisə sarırəngdədir.Həmdə butorpağınadı«torpaq»olaraqyox,«gil»,bəzənisə«xəmir» kimi ifadə olunur.

«Kitabi-Dədə Qorqud»dazikrolunanhəminduanın əslməğzinuraboyanmışinsanalnında(Adəmbabadangələn)«beşkim sənə»nin«İsmi-Əzəm»lərinin,yəni, dolayısı ilə həqiqət sirlərinin həkk olunmasıdır.Buradakı«ağ alın» da həmin nura işarədir. Bir daha vurğalayaq ki, bütün bunlarbizimşəxsiqənaətlərimizdir. «Kitabi-Dədə Qorqud» dastanı haqqındakı sufiyanə düşüncələrimizbirqədərsərhədli olsa da hər halda dastan və xalq yaradıcılığının digər janrlarında ürfanivə təsəvvüfielementlərinaraşdırılmasıbaxımından müəyyən əhəmiyyətə malikdir.

Türkdünyasınınbumöhtəşəmincisinin ətrafındakıürfanidüşüncələrimiziyuxarıdatəhliletdiyimizmətninso nhissəsindəki **«Amin!», «Amin!» deyənlər didar görsün!»** kəlamı ilənöqtələmək istərdik. Bu kəlamın ən maraqlı özəlliyi və bizim dəaraşdırmadairəmizə girən«didar»kəlməsidir.«Didar»farsdilindəngələn«göz»,«görmək», «şahidolmaq»mənalarındaişlənir. Bu sözün əsl ürfani mənası isə «görüş»dür. Əvvəla onuqeydedəkki,«Kitabi-Dədə

Qorqud»dafarsdilində ifadələrinişlənməsi zaman və mədəni-etnik baxımdan o qədər də təəccüblübir şey deyil. Böyük ehtimalla fars dili Türk-Oğuz mədəniyyətinəklassikmənzum ədəbiyyatvasitəsilə gəlmişdir.Bu,tarixinöqteyi-nəzərdən bir qədər erkən dövr olsa da fars dilindən əskitürkcəyə transferolansözvə ifadələrinbaşqaizahıolabilməz.Əlbəttə,erkənturk ədəbiyyatınümunələrinə farsdilli ədəbiənənənin təsiri danılmaz faktdır. Lakin nəzərə almaq lazımdır ki,«Kitabi-Dədə Qorqud»məsələn,Xoca ƏhmədYəsəvinin«Divani-Hikmət»inə nisbətən çox daha qədim dövrə aid bir sənətnümunəsidir.Budastan,dastanıngirişində də qeydolunduğukimi,«Rəsul Əleyhissəlamzamanınayaxınbirdövr»ə aiddir.

Digərehtimallaragörə isə «Kitabi-Dədə Qorqud» yazılı ədəbinümunə olaraq, daha sonrakı dövrün məhsuludur. Qeydetdiyimizkimi,təqdimetdiyimizmətndəki«didar»kəlməsisirfü rfanidir.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 300-303)

## ƏHLİ – BEYT (Ə) HAQDAHƏDİSLƏR

Həzrət Muhəmməd(s) buyurmuşdur: "Ulduzlar səma əhli üçün amandır. Ulduzlar olmadıqda səma əhli də olmaz. Mənim Əhli-beytim də yer əhli üçün amandır. Əhli-beytim olmadıqda yer əhli də aradan gedər."[21]

**قال رسول أكرم (ص): أدّبوا أولادكم على ثلاث خصال: حبّ نبيّكم و أهل بيته و قراءة القرآن.**

[21] "Zəxarül-üqba", səh.17

Peyğəmbəri-əkrəm(s) buyurmuşdur: "Övladlarınızı üç şey əsasında tərbiyə edin:

1.Peyğəmbərinizə məhəbbət;

2.Onun Əhli-beytinə(ə) məhəbbət;

3.Quran qiraəti (oxunuşu)[22]

İmam Hüseyn(ə) buyurub: "Bizim Əhli-beyt üçün bir zərrə belə göz yaşı axıdan şəxsə Allah-Təala Cənnəti bağışlayar."[23]

"İslamın kökləri bizik. İnsanlar bizim nurumuzdan bəhrələnirlər. İslamın möhkəm və qırılmaz dəstəyi ( عروة الوثقى) bizik."

Bu cümlədə "Bəqərə" surəsinin 256-cı ayəsinə işarə olunur.

وَيُؤْمِن بِاللّهِ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَىَ لاَ انفِصَامَ لَهَا

"Hər kəs Tağuta kafir olub Allaha iman gətirsə, elə bir dəstəkdən yapışar ki, heç vaxt qırılmaz."

"Hər kəs haqqa çatmaq, zəlalətdən qurtarıb behiştə getmək istəyirsə, gərək bizə tərəf gəlsin, bizi tanısın və bizdən göstəriş alsın. Hər kəs bizdən qabağa keçsə, yaxud bizdən ayrılsa, məhv olub aradan gedər. Biz islamın ən böyük mühafizləriyik. Allah dünya və axirət əzabını bizim vücudumuza xatir öz bəndələrindən götürər. Hər kəs bizi tanıyıb haqqımızda mərifət kəsb etsə və göstərişlərimizə əməl etsə, bizdəndir."

İmam Sadiq(ə) buyurub: "Bütün peyğəmbərlər bizim (Əhli-beytin) üstünlüyümüzü və haqqımızı tanıyaraq məbus olmuşdur.[24]

Ustad M.Füzuli Əhli-beytin şəninə həsr etdiyi yazdığı bir rübaisində yazır:

### *Əhli-beytin sənavü mərsiyəsi*

[22] "Kənzül – ümman", cild16, səh. 456, hədis 45409

[23] "Yanəbiül – məvəddət", səh. 228

[24] "Məsumların nurlu kəlamlarından 500 hədis". Toplayan: Əli Həmədani

***Əhsəni-əfzəli-fəzayildir.***
***Kim ki, bir beyt ol xüsusda deyər,***
***Ol dəxi Əhli-beytə daxildir.***

## HƏDİSİ-KİSANIN TARİXİ SƏNƏDLƏR BAXIMINDAN SÜBUTU

Kisa hadisəsi İslam ümmətinə Əhli-beytin (ə) tanıtdırılması baxımından İslam Peyğəmbərinin (s) işıqlı tarix yolunun ən mühüm hadisələrindən biri hesab olunur. Və bu hədis Əhli-beytin ən parlaq fəzilətlərindən daha üstünü və seçilmişidir.

Bu hadisənin baş verməsi tarixi sənədlər baxımından tam sübuta yetirilib və bu barədə şəkki-şübhəyə düşmək yersizdir. Bir sıra tanınmış və mötəbər hədis alimləri "Kisa hədisi"ni öz mötəbər hədis kitablarında nəql etmişlər və istilah baxımından müstətir (məşhur) hədis hesab edirlər. Əgər bu hədisin barəsində daha geniş tədqiqat aparılsa bu hədisin mütavatir (təkzibedilməz) hədis olduğunu qeyd etmək olar. Sözün tam mənasında deyə bilərik ki, bu hədis barədə kifayət qədər sübut var və hər kəsin İslam tarixindən xəbəri olarsa həmin hadisənin baş verməsində heç bir cəhdlə şəkki-şübhəyə düşməz. İslam cəmiyyətində həmin hadisə o qədər məşhur oldu ki, hadisə baş verən günü "Kisa günü" adlandırdılar və həmin gün Allahın xüsysi lütfünə layiq görülən o pak beş şəxsə isə "Kisa adamları" adını verdilər.

Bu hadisə belə oldu: "Bir gün İslam Peyğəmbəri (s) Həzrət Xədicədən (ə) sonra ən sevimli və hörmətli xanımı Ümmü Sələmənin evinə gəldi. Həmin gün Peyğəmbər (s) ən yaxın adamları barədə Allah-Təaladan mühüm bir vəhy alacağından Ümmü Sələməyə təkidlə tapşırdı ki, heç kəsə içəri keçməyə icazə verməsin. Həmin gün Peyğəmbərin (s) ciyərparəsi olan iki dünya xanımı ləqəbi ilə məşhur olan Xanım Fatimeyi-Zəhra (s.ə) bir qab quymaq bişirərək tabağın içinə qoyub atasının hüzuruna gəldi.

Ümmü Sələmə deyir ki, mən Xanım Fatimənin (s.ə) içəri keçməsinə mane ola bilmədim. Mane ola bilməzdimdə. Çünki, Peyğəmbərlə (s) onun ciyərparəsi arasında necə maneə ola bilərdim? Peyğəmbərin (s) həmin tapşırığı Xanım Fatiməyə (s.ə) şamil deyildi. Xanım Fatimeyi-Zəhra (s.ə) əlində bir qab quymaq atasının hüzuruna gəldi. Peyğəmbər (s) qızının tək gəldiyini gördü və ondan soruşdu ki, Həsən, Hüseyn və Həzrət Əli (ə) hardadır. Fatimeyi-Zəhra (s.ə) cavab verdi ki, hər üçü evdədir. Peyğəmbər (s) buyurdu ki, get onları da çağır gəlsinlər. Fatimeyi-Zəhra (s.ə) dərhal öz evinə qayıtdı və az geçməmiş iki kiçik yaşlı övladları olan Həsən və Hüseynlə, həmçinin həyat yoldaşı Həzrət Əli (ə) ilə birlikdə Rəsulullahın (s) yanına qayıtdı. Ümmü Sələmə Peyğəmbərin (s) göstərişilə onların (Əhli-beytin (ə)) yanından qalxıb namaz qılmağa getdi. **Məclis tamamilə xüsusiləşdi.** Munis və müqəddəs məclis. Allahın Rəsulu (s) "mənim özüm" deyə adlandırdığı Həzrət Əli (ə), ciyərparəsi Fatimeyi-Zəhra (s.ə) və iki reyhanəsi olan Həsən (ə) və Hüseynlə (ə) birlikdə Fatimeyi-Zəhranın (s.ə) açdığı süfrənin kənarında əyləşdilər. Peyğəmbərin (s) adəti bu idi ki, həyat yoldaşı gəlməmiş yeməyə başlamazdı. Amma həmin gün başqa bir vəziyyət, başqa bir süfrə idi. Əgər bu gün Ümmü Sələmə bu süfrənin kənarında əyləşsə sabah Allahın Rəsulunun (s) Əhli-beyt(ə) haqqında dedikləri başqa cür yozulacaq. Məhz bu səbəbdən də Peyğəmbər (s) istisna olaraq həmin gün həyat yoldaşıÜmmü Sələməni süfrə başına dəvət etmir. Məclis qurulduqdan sonra Allahın vəhy mələyi olan Həzrəti Cəbrayıl (ə) nazil olub "Təthir" ayəsini oxudu: "Siz ey Peyğəmbərin ailə üzvləri! Allah sizdən çirkinliyi yox etmək və sizə tərtəmiz pak etmək istər." Allahın Rəsulu (s) özünün Xeybəri əbasını Həzrət Əlinin (ə), Fatimeyi-Zəhranın (s.ə) və iki nəvəri Həsən (ə) və Hüseynin (ə) üzərinə çəkərək sağ əli ilə səmaya işarə edərək ərz etdi: Allahım bunlar mənim ailə üzvlərimdir. Hər növçirkinlikləri onlardan uzaq et və onları tamamilə paklaşdır."

Digər bir hədisdə isə deyilir: "Peyğəmbər (s) belə buyurdu: Allahım! Bunlar mənim ailə üzvlərim və yaxınlarımdır. Bütün növ çirkinlikləri onlardan uzaqlaşdır və onları tamamilə pak et!"

Başqa bir hədisdə də belə nəql olunur ki, Peyğəmbər (s) belə buyurdu: "Pərvərdigara! Bunlar Muhəmmədin xanədanıdır. Elə isə öz rəhmət və bərəkətini Muhəmməd və onun xənadanına şamil et. Çünki sən tərifə layiq və böyüksən."

Həmin ana qədər Ümmü Sələmə otağın bir güncündə qalıb bu nurani və mənəvi hadisənin tamaşaçısıydı. Amma artıq dözə bilmədi və irəli gəlib əbanın bir küncünü qaldırdı ki, o da bu nurani fəzadan feyz alsın. Amma Peyğəmbər (s) əbanı qətiyyətlə Ümmü Sələmənin əlindən çəkdi. Bu hadisədən Ümmü Sələmənin ürəyi sıxıldı və Əhli-beytin (ə) fəzasına daxil ola bilmədiyinin səbəbini Allah Rəsulundan (s) soruşdu: "Ey Allahın Rəsulu (s) bəs mən sənin ailə üzvün deyiləm?" Peyğəmbər cavab verdi: "Sən Behişt xanımlarındansan, xeyirə doğrusan və Allah Rəsulunun (s) xanımlarından birisən. Amma bu məqam sənə aid deyil."[25]

***Ani didarə fəda din etmişəm, tən etməyin,***
***Mən görən rüxsarı Məryəm görsə İsadan keçər.***[26]

## "KİSA" HƏDİSİ

Əziz oxucular! "Kisa hədisi"nin həm ərəbi, həm də azəri türkcəsində sizin diqqətinizə çatdırırıq:

**بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ**
**الحمد لله رب العالمين، والصلاة والسلام على محمد وآله الطاهرين.**
**وبعد: فقد روى والدي (رحمه الله تعالى) حديث الكساء في مجموعة له، بسند صحيح**

[25] Muhəmmədi Reyşəhri. Əhli-beyt (ə) Quranda və hədisdə. Səh 26-28.
[26] Fəxrəddin Cəfakeş

إلى فاطمة الزهراء (سلام الله عليها) كما رواه غيره:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم

عَنْ جَابر بن عَبْدِ اللهِ الأنْصَاري عَنْ فَاطِمَةَ الزَّهراءِ عَلَيهَا السَّلامُ (١) بنتِ رَسُول اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّم) قَالَ سَمِعْتُ فاطِمَةَ أَنَّها قالَت: (٢) دَخَلَ عَلَيَّ أبي رَسُولُ اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّم) (٣) فِي بَعضِ الأيَّام (٤)فَقَالَ: السَّلامُ عَلَيكِ يا فاطِمَةُ، (٥) فَقُلتُ عَلَيكَ السَّلامُ، قالَ: إنّي أجِدُ فِي بَدَني ضُعفاً، (٦) فَقُلتُ لَهُ: أُعِيذُكَ باللهِ يا أبَتاهُ مِنَ الضُّعفِ (٧) فَقَالَ: يا فاطِمَةُ إيتيني بالكساءِ اليَمانيِّ فَغَطّيني بهِ. (٨) فَأَتَيتُهُ بالكِساءِ اليَمانيِّ فَغطّيتُهُ بهِ(٩) وَصِرتُ أنظُرُ إلَيهِ (١٠) وَإذا وَجهُهُ يَتَلألأُ كَأنَّهُ البَدرُ (١١) فِي لَيلَةِ تمامِهِ وكَمالِهِ، (١٢) فَما كانَت إلاّ ساعَةً (١٣) وإذا بوَلَدِي الحَسَنِ قَد أقبَلَ وَقالَ: السَّلامُ عَلَيكِ (١٤) يا أُمّاهُ، (١٥) فَقُلتُ: وَعَلَيكَ السَّلامُ (١٦) يا قُرَّةَ عَيني وَثَمَرَةَ فُؤادِي، (١٧) فَقالَ: يا أُمّاهُ إنّي أشَمُّ عِندَكِ رائِحَةً طَيِّبَةً (١٧) كَأنَّها رائِحَةُ جَدِي رَسُولِ اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّم) (١٩) فَقُلتُ: نَعم إنَّ جَدَّكَ تَحت الكِساء، (٢٠) فَأقبَلَ الحَسَنُ نَحوَ الكِساء (٢١) وَقالَ: السَّلامُ عَلَيكَ يا جَدّاهُ يا رَسُولَ اللهِ (٢٢) أتَأذَنُ لي أن أدخُلَ مَعَكَ (٢٣) تَحتَ الكِساءِ؟ (٢٤) فَقالَ: وَعَلَيكَ السَّلامُ يا وَلَدِي (٢٥) وَيا صاحِبَ حَوضِي (٢٦) قَد أذِنتُ لَكَ، (٢٧) فَدَخَلَ مَعَهُ تَحتَ الكِساءِ. (٢٨) فَما كانَت إلاّ سَاعَةً وَإذا بِوَلَدِيَ الحُسَينِ (عَلَيْهِ السَّلام) قَدْ أَقبَلَ (٢٩) وَقالَ: السَّلامُ عَلَيكِ يا أُمّاهُ، فَقُلتُ: وَعَلَيكَ السَّلامُ يا قُرَّةَ عَيني وَثَمَرَةَ فُؤادِي، (٣٠) فَقالَ لِي: يا أُمّاهُ إنّي أشَمُّ عِندَكِ رائِحَةً طَيِّبَةً كَأنَّها رائِحَةُ جَدِي رَسُولِ اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّم) فَقُلتُ: نَعم إنَّ جَدَّكَ وَأخاكَ تَحتَ الكِساءِ، (٣١) فَدَنَا الحُسَينُ (عَلَيْهِ السَّلام) نحوَ الكِساءِ وَقالَ: السَّلامُ عَلَيكَ يا جَدّاهُ السَّلامُ عَلَيكَ يا مَنِ اختارَهُ اللهُ (٣٢) أتَأذَنُ لي أن أكونَ مَعَكُما تَحتَ الكِساءِ؟ (٣٣) فَقالَ: وَعَلَيكَ السَّلامُ(٣٤) يا وَلَدِي وَيا شافِعَ أُمَّتِي (٣٥) قَد أذِنتُ لَكَ، فَدَخَلَ مَعَهُما تَحتَ الكِساء، فَأقبَلَ عِندَ ذلِكَ أبو الحَسَنِ عَلِيُّ بنُ أبي طالِبٍ (٣٦) وَقال: السَّلامُ عَلَيكِ يا بِنتَ رَسُولِ اللهِ، (٣٧) فَقُلتُ: وَعَلَيكَ السَّلامُ يا أبَا الحَسَنِ وَيا أمِيرَ المُؤمِنينَ. (٣٨) فَقالَ: يا فاطِمَةُ إنّي أشَمُّ عِندَكِ رائِحَةً طَيِّبَةً كَأنَّها رائِحَةُ أخي (٣٩) وَابنِ عَمّي رَسُولِ اللهِ، فَقُلتُ: نَعم ها هُوَ مَعَ وَلَدَيكَ تَحتَ الكِساءِ، فَأقبَلَ عَلِيٌّ نَحوَ الكِساءِ وَقالَ: السَّلامُ عَلَيكَ يا رَسُولَ اللهِ أتَأذَنُ لي أن أكُونَ مَعَكُم تَحتَ الكِساءِ؟ (٤٠) قالَ لَهُ وَعَلَيكَ السَّلامُ يا أخِي وَيا وَصِيّي وَخَلِيفَتي وَصاحِبَ لِوائي (٤١) قَد أذِنتُ لَكَ، فَدَخَلَ عَلِيٌّ تَحتَ الكِساءِ.ثُمَّ أتَيتُ نَحوَ الكِساءِ وَقُلتُ: السَّلامُ عَلَيكَ يا أبَتاهُ يا رَسُولَ الله (٤٢) أتَأذَنُ لِي أن أكونَ مَعَكُم تَحتَ الكِساءِ؟ (٤٣) قالَ: وَعَليكِ السَّلامُ يا بِنتِي وَيا بَضعَتِي قَد أذِنتُ لَكِ، فَدَخَلتُ تَحتَ الكِساءِ، (٤٤) فَلَمَّا اكتَمَلنا جَمِيعاً تَحتَ الكِساءِ أخَذَ أبي رَسُولُ اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّم) بِطَرَفَي الكِساءِ (٤٥) وَأومَأ بِيَدِهِ اليُمنى إلَى السَّماءِ (٤٦) وَقالَ: اللّهُمَّ (٤٧) إنَّ هؤُلاءِ (٤٨) أهلُ بَيتِي (٤٩) وَخاصَّتِي وَحامَّتِي، (٥٠) لَحمُهُم لَحمِي وَدَمُهُم دَمِي، (٥١) يُؤلِمُنَي ما يُؤلِمُهُم وَيَحزُنُني ما يُحزِنُهُم، (٥٢) أنا حَربٌ لِمَن

حارَبَهُم (٥٣) وَسِلمٌ لِمَن سالَمَهُم(٥٤) وَعَدوٌّ لِمَن عاداهُم (٥٥) وَمُحِبٌّ لِمَن أَحَبَّهُم، (٥٦) إنَّهُم مِنّي وَأَنا مِنهُم (٥٧) فَاجعَل (٥٨) صَلَواتِكَ (٥٩) وَبَرَكاتِكَ وَرَحمَتَكَ وغُفرانَكَ وَرِضوانَكَ (٦٠) عَلَيَّ وَعَلَيهِم (٦١) وَأَذهِب
عَنهُمْ (٦٢) الرِّجسَ (٦٣) وَطَهِّرهُم تَطهيراً. (٦٤) فَقالَ اللهُ (٦٥) عَزَّ وَجَلَّ: (٦٦) يا مَلائِكَتي وَيا سُكّانَ سَماواتي (٦٧) إنّي ما خَلَقتُ سَماءً مَبنَيَّةً (٦٨) وَلا أَرضاً مَدحيَّةً (٦٩) وَلا قَمَراً مُنيراًوَلا شَمساً مُضيئَةً (٧٠) وَلا فَلَكاً يَدُورُ (٧١) وَلا بَحراً يَجري (٧٢)وَلا فُلكاً يَسري (٧٣) إلاّ في مَحَبَّةِ هؤُلاءِ (٧٤) الخَمسَةِ (٧٥) الَّذينَ هُم تَحتَ الكِساءِ، فَقالَ الأَمينُ جِبرائِيلُ: (٧٦) يا رَبِّ وَمَنْ تَحتَ الكِساءِ؟ (٧٧) فَقالَ عَزَّ وَجَلَّ: هُم (٧٨) أَهلُ بَيتِ النُّبُوَّةِ (٧٩) وَمَعدِنُ الرِّسالَةِ (٨٠) هُم فاطِمَةُ وَأَبُوها، وَبَعلُها (٨١) وَبَنُوها، (٨٢) فَقالَ جِبرائِيلُ: يا رَبِّ أَتَأذَنُ لي (٨٣) أَن أَهبِطَ إلَى الأَرضِ (٨٤) لأَكُونَ مَعَهُم سادِساً؟ (٨٥) فَقالَ اللهُ: نَعَم قَد أَذِنتُ لَكَ. (٨٦) فَهَبَطَ الأَمِينُ جِبرائِيلُ وَقالَ: السَّلامُ عَلَيكَ يا رَسُولَ اللهِ، العَلِيُّ الأَعلَى (٨٧) يُقرِئُكَ السَّلام، (٨٨) وَيَخُصُّكَ بِالتَّحِيَّةِ وَالإِكرَام (٨٩) وَيَقُولُ لَكَ: وَعِزَّتي وَجَلالي (٩٠) إنّي ما خَلَقتُ سَماءً مَبنِيَّةً وَلا أَرضاً مَدحِيَّةً وَلا قَمَراً مُنيراً وَلا شَمساً مُضيئَةً وَلا فَلَكاً يَدُورُ وَلا بَحراً يَجري وَلا فُلكاً يَسري (٩١) إلاّ لأَجلِكُم وَمَحَبَّتِكُم، (٩٢) وَقَد أَذِنَ لي أَن أَدخُلَ مَعَكُم، فَهَل تَأذَنُ لي يا رَسُول اللهِ؟ (٩٣) فَقالَ رَسُولُ الله (صَلَّى اللهُ عَلَيْهِ وَآلِه وسَلَّم): وَعَلَيكَ السَّلامُ يا أَمِينَ وَحيِ اللهِ، إنَّهُ نَعَم (٩٤) قَد أَذِنتُ لَكَ، فَدَخَلَ جِبرائِيلُ مَعَنا تَحتَ الكِساءِ، (٩٥) فَقالَ لأَبي: إنَّ اللهَ قَد أَوحى إلَيكُم يَقولُ (٩٦) إنَّما يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطهِيرا. (٩٧) فَقالَ: عَلِيٌّ (عَلَيْهِ السَّلَام) لأَبي: يا رَسُولَ اللهِ أَخبِرني (٩٨) ما لِجُلُوسِنا هَذا تَحتَ الكِساءِ مِنَ الفَضلِ عِندَ اللهِ؟ (٩٩) فَقالَ النَّبيُّ (صَلَّى اللهُ عَلَيْهِ وَآلِه وسَلَّم): وَالَّذي بَعَثَني بِالحَقِّ نَبيّاً وَاصطَفاني بِالرِّسالَةِ نَجِيّاً، (١٠٠) ما ذُكِرَ خَبَرُنا هذا (١٠١) في مَحفِلٍ مِن مَحافِلِ أَهلِ الأَرضِ (١٠٢) وَفيهِ جَمعٌ مِن شِيعَتِنا وَمُحِبِّينا (١٠٣) إلاّ وَنَزَلَت عَلَيهِمُ الرَّحمَةُ، (١٠٤) وَحَفَّت بِهِمُ المَلائِكَةُ (١٠٥) وَاستَغفَرَت لَهُم (١٠٦) إلى أَن يَتَفَرَّقُوا. (١٠٧) فَقالَ عَلِيٌّ (عَلَيْهِ السَّلام): إذاً وَاللهِ (١٠٨) فُزنا (١٠٩) وَفازَ شِيعَتُنا (١١٠) وَرَبِّ الكَعبَةِ.(١١١) فَقالَ أَبي رَسُولُ اللهِ (صَلَّى اللهُ عَلَيْهِ وَآلِه وسَلَّم): يا عَلِيُّ (١١٢) وَالَّذي بَعَثَني بِالحَقِّ نَبيّاً وَاصطَفاني بِالرِّسالَةِ نَجِيّاً ما ذُكِرَ خَبَرُنا هذا في مَحفِلٍ مِن مَحافِلِ أَهلِ الأَرضِ وَفيهِ جَمعٌ مِن شِيعَتِنا وَمُحِبِّينا (١١٣) وَفِيهِم مَهمُومٌ إلاّ وَفَرَّجَ اللهُ هَمَّهُ (١١٤) وَلا مَغمُومٌ إلاّ وَكَشَفَ اللهُ غَمَّهُ (١١٥) وَلا طالِبُ حاجَةٍ إلاّ وَقَضى اللهُ حاجَتَهُ، (١١٦) فَقالَ عَلِيٌّ (عَلَيْهِ السَّلام): إذاً وَاللهِ فُزنا وَسُعِدنا، وَكَذلِكَ شِيعَتُنا (١١٧) فازُوا وَسُعِدوا في الدُّنيا وَالآخِرَةِ(١١٨) وَرَبِّ الكَعبَةِ. (١١٩)[27]

---

[27]وإليك نص حديث الكساء سنداً على ما في عوالم العلوم والمعارف والأحوال، تحقيق وطبع مؤسسة الإمام المهدي (عجل الله تعالى فرجه الشريف)، قم: رأيت بخط الشيخ الجليل السيد هاشم، عن شيخه السيد ماجد البحراني، عن الحسن بن زين الدين الشهيد الثاني، عن شيخه المقدس الأردبيلي، عن شيخه علي بن عبد العالي الكركي، عن الشيخ علي بن هلال الجزائري، عن الشيخ أحمد بن فهد الحلي، عن الشيخ علي بن الخازن الحائري، عن الشيخ ضياء الدين علي بن الشهيد الأول، عن أبيه، عن

## "KİSA" HƏDİSİNİN TƏRCÜMƏSİ

Rəsuli-Əkrəmin (s) qızı Xanım Fatimeyi-Zəhradan (s.ə) nəql olunub ki, buyurmuşdur: "Bir gün atam Rəsulullah(s) mənim evimə gəldi, buyurdu: "Salam olsun sənə, ey Fatimə."

Mən dedim: "Əleykəs-səlam!"

Buyurdu: "Mən özümdə yorğunluq hiss edirəm."

Dedim: "Sənin bu yorğunluğunda Allaha pənah verirəm."

Buyurdu: "Ya Fatimə, yəməni əbamı gətir, üstümə sal!"

Mən yəməni əbanı gətirib atamın üstünə saldım, sonra üzünə baxmağa başladım. Üzü 15 günlük ay kimi nur verirdi.

Bir az keçməmişdi ki, oğlum Həsən yanıma gəlib dedi: "Salam olsun sənə, ey anam!"

Dedim: "Əleykəs-salam, ey gözlərimin nuru, qəlbimin meyvəsi!"

Oğlum dedi: "Anacan, mən sənin yanında ətirli bir qoxu hiss edirəm. Elə bil ki, cəddim Rəsulullahın ətridir.

Dedim: "Bəli, baban əbanın altındadır". Həsən əbaya tərəf gedib dedi: "Salam olsun sənə, ey cəddim, ey Rəsulullah! İcazə verirsənmi, səninlə birlikdə əbanın altında olum?"

Buyurdu: "Əleykəs-salam, ey oğlum, ey hovuzumun sahibi,

---

فخر المحققين، عن شيخه العلامة الحلي، عن شيخه المحقق، عن شيخه ابن نما الحلي، عن شيخه محمد بن إدريس الحلي، عن ابن حمزة الطوسي صاحب ثاقب المناقب، عن شيخه الجليل الحسن بن محمد بن الحسن الطوسي، عن الشيخ الجليل محمد بن شهر اشوب، عن الطبرسي ـ صاحب الإحتجاج ـ ، عن أبيه شيخ الطائفة، عن شيخه المفيد، عن شيخه ابن قولويه القمي، عن شيخه الكليني، عن علي ابن إبراهيم، [عن أبيه إبراهيم] بن هاشم، عن احمد بن محمد بن أبي نصر البزنطي، عن قاسم ابن يحيى الجلاء الكوفي، عن أبي بصير، عن أبان بن تغلب البكري، عن جابر بن يزيد الجعفي، عن جابر بن عبد الله الأنصاري، عن فاطمة الزهراء (عليها السلام)بنت رسول الله صلى الله عليه وآله وسلم... وهذا السند في منتهى الجلالة ورجاله من كبار ومشاهير العلماء، أما القاسم بن يحيى فالصحيح عندنا تبعاً لجمع منهم صاحب الجواهر والعديد وغيره، اعتباره إذ هو من شيوخ البزنطي، والبزنطي صح انه لا يروي إلا عن ثقة، وأما جابر ففيه قولان، وقد اعتبره جمع وهو الأصح، وقد نقل متن حديث الكساء أيضا العلامة الثقة فخر الدين الطريحي الأسدي صاحب (مجمع البحرين) في كتاب (المنتخب الكبير)، وكذلك نقل ما يقرب من نصفه الديلمي صاحب (الإرشاد) في (الغرر والدرر) وكذلك نقله كله الحسين العلوي الدمشقي الحنفي وكذلك آخرون، وهو من الإشتهار بحيث يغني عن تتبع السند، وقد سبق في المقدمة وسيأتي في البحث عن سند خطبتها (عليها السلام)في المسجد ما ينفع في المقام جداً، فليراجع.

sənə icazə verdim." Oğlum Həsən əbanın altına girdi, çox keçmədən oğlum Hüseyn gəldi, dedi: "Salam olsun sənə, ey ana!"

Dedim: "Əleykəs-salam, ey oğlum, ey gözlərimin nuru, qəlbimin meyvəsi!"

Oğlum mənə dedi: "Anacan, sənin yanında xoş, ətirli bir qoxu hiss edirəm. Elə bil ki, cəddim Rəsulullahın ətridir."

Dedim: "Bəli, cəddin və qardaşın əbanın altındadır." Hüseyn də əbaya tərəf yaxınlaşıb dedi: "Salam olsun sənə, ey cəddim! Salam olsun sənə, ey Allahın seçdiyi, icazə verirsənmi, sizinlə birlikdə əbanın altında olum?"

Buyurdu: "Əleykəs-salam, ey oğlum, ey ümmətimin şəfaətçisi, sənə icazə verirəm.

Hüseyn də əbanın altına girdi".

Bu zaman Əbul-Həsən Əli ibni-Əbu Talib (ə) mənə tərəf gəlib dedi: "Salam olsun sənə, ey Rəsulullahın qızı!"

Dedim: "Əleykəs-salam, ey Əbəl-Həsən, ey Əmirəl-möminin."

Əli (ə) dedi: "Ey Fatimə, mən sənin yanında ətirli bir iy hiss edirəm. Elə bil, qardaşım və əmioğlum Rəsulullahın ətridir."

Dedim: "Bəli, O, iki oğlunla birlikdə əbanın altındadır. Əli (ə) əbaya tərəf gedib dedi: "Salam olsun sənə, ey Rəsulullah, icazə verirsənmi, sizinlə birlikdə əbanın altında olum?"

Atam buyurdu: "Əleykəs-salam, ey qardaşım və canişinim və ey bayraqdarım. Sənə icazə verirəm."

Əli (ə) da əbanın altına girdi, sonra mən də onlara tərəf gəlib dedim: "Salam olsun sənə, ey atam, ey Rəsulullah, icazə verirsənmi, sizinlə birlikdə əbanın altına gələm?"

Atam buyurdu: "Əleykəs-salam, ey qızım, ey ciyərimin parəsi, icazə verirəm."

Mən əbanın altına daxil oldum.

Elə ki, hamımız birlikdə əbanın altına yığışdıq, atam Rəsulullah (s) əbanın iki tərəfindən tutub, sağ əli ilə asimana işarə

edərək dedi: "Pərvərdigara, bunlar mənim Əhli-beytim, ən yaxın və xas adamlarımdır. Ətləri ətim, qanları qanımdır.

Onlara əziyyət verənlər mənə əziyyət verir, onları qəmgin edənlər məni qəmgin edir.

Mən onlara qarşı müharibə edənlərlə müharibə edər, onlarla barışıq edənlərlə barışaram.

Düşmənləri ilə düşmən, onları sevənlərlə dostam. Onlar məndən, mən də onlardanam.

Öz salavat, bərəkət, rəhmət, məğfirət və razılığını mənə və onlara şamil et. Onlardan zahiri və batini çirkinlikləri aparıb onları pak – pakizə qərar ver."

Allah buyurdu: "Ey mənim mələklərim, ey asimanlarda sakin olanlar!

Mən bina olunmuş asimanları, döşənmiş yerləri, nurlu ayı, nur verən günəşi, dövr edən fələyi, cərəyan edən dəryaları, seyr edən gəmiləri yalnız əbanın altında olan bu beş nəfərin məhəbbəti xatirinə xəlq etmişəm."

Cəbraili-Əmin soruşdu: "Ey Rəbbim, əbanın altında olanlar kimlərdi?"

Allah-Təala buyurdu: "Onlar Fatimə, onun atası, əri və oğlanlarından ibarət nübuvvət Əhli-beyti, risalət mədənidirlər."

Cəbrail ərz etdi: "Ey Rəbbim, icazə verirsənmi, onların altıncısı olam?"

Allah buyurdu: "Bəli, sənə icazə verirəm."

Cəbraili Əmin yer üzünə düşdü və dedi: "Salam olsun, sənə, ey Rəsulullah, Əliyyi-Əla Xudavənd sənə salam göndərir, səni təhiyyətə və ikrama məxsus edir, buyurur: "And olsun izzət və cəlalıma, mən bina olunmuş səmanı, döşənmiş yeri, nurlu ayı, nur verən günəşi, dövr edən fələyi, cərəyan edən dəryanı, seyr edən gəmiləri yalnız sizin xatirinizə və sizin məhəbbətiniz xatirinə xəlq etmişəm."

Allah mənə icazə verdi ki, sizin yanınıza daxil olam!

Ey Rəsulullah, icazə verirsənmi?"

Rəsuli – Əkrəm(s) buyurdu: "Salam olsun sənə, ey Allahın vəhy əmanətdarı, əlbəttə, bəli, sənə icazə verirəm."

Cəbrail də əbanın altına daxil oldu, atama dedi: "Həqiqətən, Allah sizə vəhy edib buyurur: "Allahın iradəsi bu olmuşdur ki, siz Əhli-beytdən hər növ (zahiri və batini) çirkinlikləri aparıb sizi pak – pakizə qərar versin."

Əli (ə) atama dedi: "Ya Rəsulullah, mənə xəbər ver, görüm, bizim əbanın altında oturmağımızın Allah yanında nə kimi fəziləti var?"

Peyğəmbər (s) buyurdu: "And olsun məni haqq olaraq nübuvvətə məbus edib, məni nicat verən kimi risalətə seçənə, bizim bu xəbərimiz yer əhlinin məclislərindən hər hansı birində xatırladılsa və o məclisdə bizi sevənlərdən bir neçəsi olsa, hökmən onlara rəhmət nazil olar, mələikələr onları əhatə edər, onlar bu məclisdən dağılışana kimi onlar üçün Allahdan bağışlanmaq diləyərlər."

Əli (ə) dedi: "Belə isə, and olsun Allaha ki, biz və bizim şiələrimiz nicat tapdı, and olsun Kəbənin Rəbbinə."

Peyğəmbər (s) buyurdu: "Ey Əli, and olsun məni haqq olaraq nübuvvətə məbus edən və məni nicat verən şəxs kimi risalətə seçənə ki, bizim bu xəbər yer əhlinin məclislərinin hər hansı birində zikir olunsa və o məclisdə bizim şiələrdən və bizi sevənlərdən bir neçə nəfər olsa, Allah-Təala hökmən onların qəmlərini dağıdar (sevincə çevirər), qüssələrini aradan qaldırar, hacət istəyənlərin hacətini təmin edər.

Əli (ə) dedi: "Belə isə, and olsun Allaha ki, nicat tapdıq və səadətə yetdik, həmçinin, şiələrimiz də nicat tapıb dünya və axirətdə səadətə yetdilər."

## HƏZRƏT ƏLİNİN (Ə) VİLAYƏTİ

# ALLAHIN VİLAYƏTİDİR

"Əlinin (ə) vilayəti Allahın vilayətidir, onu sevmək ibadətdir."

Allah-Təala Əhli-beyti (ə) şəfaətci, hidayət yolunun çırağı, ürvətil-vüsqa, ərkani-qiblə, insanlıq üçün höccət və düzgün yol təyin edərək "Nicat gəmisi" kimi tanıtdırmışdır.

Sual oluna bilər ki, nə səbəbə, məhz, Əhli-beyt (ə)?

Bir neçə dəlillə bu suala cavab verəcəyik:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

"İnnəmə yuridullahu liyuzhibə ənkumur-riçsə əhləl-beyti və yutəhhirakum təthira" – "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tər-təmiz (pak) etmək istər"[28].

Şeyx Muhəmməd ibn Əhməd ibn Cəzzi əl-Kəlbi "itabut-təhsil", 3/137-də yazır: "Qalən-nəbiyyu nəzələt həzihil-əyə fi xəmsətin fi vuldi Aliyyin və Fatiməti, val-Hasəni, val-Huseyni". **Tərcüməsi:** Peyğəmbər (s) buyurdu: "Bu ayə beş nəfər haqqında nazil olmuşdur: Əli övladları, Fatimə, Həsən və Huseyn (Allahın salamı onlara olsun)".

Bunlardan əlavə, əhli-sünnə və imamiyyələrin hədis və tarix kitabları buna şahidlik edirlər ki, "Əhli-beyt" yalnız "əshabi-kisa" və ya "əba əhli"dirlər.

İmam Sələbi, İmam Əhməd ibn Həhbəl, ibn Əsir "Camiul-usul", Muslim və Tirmizi öz əsərlərində ummul-mominin Umm-Sələmədən nəql edirlər ki, O, xanım buyurur: "Bir gün Peyğəmbər (s) mənim mənzilimdə idi. Fatimə (ə) əlində bir qab hərirə (un və süd və ya un və yağla bişirilən yemək) daxil oldu. Peyğəmbər (s) səfvədə (həzrətin yataq yeri) oturmuşdu. Ayağının altına xeybər

[28] "Əhzab" surəsi, 33

əbası salmışdı. Mən öz hücrəmdə namaz qılırdım. Peyğəmbər (s) Fatiməyə (ə) buyurdu: "Get ərini və oğlanlarını gətir". Çox çəkmədi ki, onlar gəldilər və həriranı bir yerdə yedilər. O halda Cəbrail mələk (ə) nazil olub "əl-Əhzab" surəsinin 33-cü ayəsinin gətirdi. Bu zaman Allahın Rəsulu (s) əbanı onların üstünə salıb buyurdu: "İlahi, bunlar mənim əhli-beytimdir, bunlardan bütün çirkin və rəzillikləri götür və bunları pak-pakizə et"". Umm Sələmə deyir: "Mən başımı əbanın içinə salıb dedim ki, mən də sizinləyəm?". Rəsulullah (s) buyurdu: "Sən çox xeyirli və gözəl insansan, amma bizdən deyilsən".

Əhli-beyt (ə) şairi Hacı Zülfüqar Həbibi də bu deyilənləri bir qəzəlindəbelə əks etdirib:

***Baxanda nuri Müstəfayə, Mürtəzanı göstərir***
***Nəzər salanda Mürtəzayə, Rəhnümanı göstərir***

***O Xatəmin əbasına, cəm oldu beş nəfər düha***
***Bəsirətünlə seyr edəndə, məhliqanı göstərir***

***O bir əba ki söyləyim,məqamı ali,çox böyük***
***Bütün rəsuli ənbiya, həmən əbanı göstərir***

***Həsən,Hüseyni bilməyən,nə bilsin ali məqsədi***
***Vəfa,sədaqətin özü, o Müctəbanı göstərir***

***Mərami-ənbiyanı dərk edən,bilər bu mətləbi***
***Nəhayətində Kibriya da, Kərbəlanı göstərir***

***Həbibi, xəlq edən bilər, bu masivanın hikmətin***
***Şühud edən bu xilqətə, o beş dühanı göstərir***

Həmçinin şair Nəbi Borçalı yaradıcılığında da şairin "Beşlər" cəmi barədə olan fikirlərinin şahidi oluruq. Misal olaraq onun

"Beşa-beş" rədifli qıfılbəndinə nəzər yetirək:

***Əzəli binadan kamalı qədim***
***Nə üstündə qədəmvurdu, beşa-beş?***
***Xilqəti aləmdən bu yana qədər,***
***Fani dünya başa vardı beşa-beş.***

***18 min aləmin hikməti vardı,***
***Əhli dil vəsfini hesaba vurdu,***
***"Kün" dedi, kalamın dünyanı qurdu,***
***İbtida ərbain nurudu, beşa-beş.***
***Dolandı gərdişi, keçdi zamana,***
***Qəhri qəzəbindən gəldi amana,***
***Şair Nəbi, əlin yetir dumana,***
***Qismət olsun, əxrət dərsin beşa-beş.***

**Anlamı:"Əzəli binadan kamalı qədim" –** Bu misrada şair kainatın yaranışından əvvəl tək xaliqin olduğundan söhbət açır və Allahın əbədi və əzəli olduğunu bəyan edir. Eyni zamanda Allahın "Ya" və "Cəlili - Cabbar" adlarından söhbət açır. Məşhur bir hədisdə deyilir ki, Həzrəti Davud (ə) Allah – Təaladan sual etdi: "Nə üçün aləmi yaratdın?" Allah – Təala buyurdu: "Ey Davud! Mən bir gizli xəzinə idim. İstədim tanınam. Onun üçün də aləmləri xəlq etdim". Hikmət sahibi şeyx Nizami "Sirlər xəzinəsi"nin əvvəlində deyir:

***Gəlib hamıdan əvvəl hər bir varlıqdan qabaq,***
***Əbədilər içində əbədi odur ancaq,***
***Odur fikrin əvvəli, odur kalamın sonu,***
***Nə iş görsən Tanrının adıyla qurtar onu.***

Allah – Təala Pərvərdigar (Yaradan) adına görə aləmləri xəlq

etdi, ilk olaraq vəhy mələyi cənabi Cəbrayil (ə) xəlq etdi. Sonra bəşərin atası Həzrəti Adəmi (ə) xəlq etdi və Adəmin qalan torpağından Həvvanı xəlq etdi.

**"Nə üstündə qədəmvurdu, beşa-beş?".** Bu misradan da göründüyü kimi, **5** rəqəmi müqəddəs rəqəmdir.

Allah – Təala hər nə yaradıb beşlik üstdə yaradıb. İlk olaraq Qurani – Kərimə nəzər salsaq, görərik ki, 19 ayədən ibarət olan "Ələq" surəsinin (Laxtalanmış qan) ilk 5 ayəsini Hera dağında Həzrət Muhəmmədə (s) nazil etdi. Məşhur rəvayətə görə, Adəmin (ə) xilqətindən əvvəl Allah – Təala "Pənci-təni-ali-əba"nın – ("Əba altında beş kimsənə") nurun yaratdı. Bu 5 kimsənə ibarətdir: Muhəmməd (s), Əli (ə), Fatimə (s.ə.), Həsən (ə) və Hüseyn (ə).

Həzrəti Adəmi (ə) Allah – Təala xəlq edib behiştə qərar verdi və buyurdu:

"Ey Adəm! Hər nə istəsən, Behişt nemətlərindən bəhrələn, amma bu ağaca (buğda) toxunma". Lakin şeytanın hiyləsi ilə Adəm (ə) Allahın bəyənmədiyi bir əmələ əncam verdi "tərki övla" (bəyənilməyən iş) etdi və Behiştdən xaric oldu. Sonra Adəm (ə) Cənabi Cəbrayılın (ə) göstərişi ilə göyə baxdı və bir qübbə gördü və soruşdu:

"Ey Cəbrayıl! Bu qübbə nədir?" Cəbrayıl (ə) buyurdu: O qübbə Fatimeyi – Zəhradır (s.ə.) başındakı tac atası Muhəmməddir (s), belindəki kəmər həyat yoldaşı Həzrət Əlidir (ə), sağ qolundakı bazubənd oğlu Həsən (ə) və sol qolundakı bazubənd Hüseyndir (ə). Ey Adəm! Allah aləmləri onların hörmətinə yaradıb. İstəyirsən tövbən qəbul olsun Allahı həmin 5 kimsənəyə and ver. Adəm də (ə) Allaha üz tutaraq, dedi: "Ey Pərvərdigar! Səni and verirəm 5 kimsələrin hörmətinə mənim tövbəmi qəbul et". Qurani – Kərimin "Bəqərə" surəsinin 37-ci ayəsində buyurur: **"Adəm (ə) Rəbbindən bir neçə kəlmə öyrəndi və o kəlmələrlə Allaha and verdi. Allah onun tövbəsini qəbul etdi. Həqiqətən Allah tövbələri qəbul edəndi".**

Klassik və aşıq ədəbiyyatına nəzər saldıqda bunun bir daha şahidi oluruq. Məsələn Füzuli "Nət"lərindən birində deyir:

***Ey vücudun əsəri xilqəti əşya səbəbi,***
***Nəbi ol vəqti ki bil feli gərəkməzdi Nəbi.***

(Ey vücudu aləmlərin yaranmağına səbəb olan Həzrət Muhəmməd (s) səni Allah o vaxt xəlq etdi ki, nə insan, nə də cin var idi).

S.Ə.Şirvani də bu deyilənləri təsdiq edib və yazıb:

***Bir vücudu kamilin olmuş tüfeyli kainat,***
***Xəlqi aləmnən nə Musavu, nə İsadır qərəz.***

***Pənci-tənlər adını zikr et ki, SEYİD bilmişəm,***
***Adəmə təlim əsmadan məna budur qərəz.***

Aşıq ədəbiyyatında da biz bu deyilənlərə rast gəlirik. Ustad aşıqlardan Aşıq Ələsgər və Aşıq Əhməd Rüstəmovun yaradıcılığında bir daha bunun şahidi oluruq. Aşıq Ələsgər "Divani"lərindən birində deyib:

***Ələstudan[29] bəli dedim nə xoş iqbaldı yüküm,***
***Beş gözəlin aşiqiyəm vəsfi kamaldı yüküm,***
***Mətahım mətah olunca, bazarım bazar olsun,***
***Nə alınmır nə satılmır xeyli zavaldır yüküm.***

Aşıq Əhməd isə deyir:

***Beş kimsənin üzünə qərar tapıb, durub dünya,***

[29] Ruhlar aləmi "Əraf" surəsi ayə 172

***Muhəmməd, Əli, Fatimə, Həsən, Hüseyni – Kərbəla,***
***Əhməd deyər: Bari-Xuda "Pənci-təni-ali-əba"***
***Yet ümmətin harayına ruzi-qiyamət, ya Əli.***

Şair Nəbi Borçalı da birinci və ikinci misralarda insanın kamalından və beşliklərdən söz açır.

***Xilqəti aləmdən bu yana qədər,***
***Fani dünya başa vardı beşa-beş.***

Bu misralarda şair sələfi Nizami kimi aləmin xəlq olmasını və bu fani dünyada ancaq 5 kimsənəyə bel bağlamağı məsləhət bilir.

Eyni zamanda Nizami "Xəmsə" (Beşlik) yaratdığı kimi şair Nəbi də bu "Qıfılbənd"ində hər şeyin "beşa-beş"üstündə qərar tutduğunu bildirir. Necə ki Şeyx Nizami "Xəmsə"ni beşkimsənənin adına bağlayıb, "Sirlər xəzinəsi"ni Həzrət Muhəmmədə (s) ithaf edib, "Xosrov və Şirin"i Həzrəti Əliyə (ə), "Leyli - Məcnunu" Fatimeyi -Zəhraya (s.ə.), "Yeddi Gözəli" İmam Həsənə (ə) və "İskəndərnaməni" İmam Hüseynə (ə) ithaf etmişdir.

Bu böyük şəxsiyyətin böyüklüyü ondadır ki, Qurani – Kərim kimi mənəviyyat xəzinəsindən bəhrələnib və İmam Hüseynin (ə) Mədinə və Kərbəla dövranlarını qəlb süzgcindən keçirib, "İsgəndərnamə"ni 2 hissəyə bölüb. "Şərəfnamə" İmam Hüseynin (ə) Mədinə dövrünə, "İqbalnamə" isə Kərbəla dövrünə aiddir.

***18 min aləmin hikməti vardı,***
***Əhli-dil vəsfini hesaba vurdu.***

Bu iki misrada aləmlərin 18 min olmağından söhbət açılır. Necə ki, aşıq Ələsgər bir ustadnaməsində deyir:

***18 min aləm, yetmiş iki dil,***

***Ülfət qılır bir bazarın içində.***
***Kimi atlas geyir, tirmə[30] qurşayır,***
***Kimi üryan[31] gəzir qarın içində.***

**"Əhli dil vəsfini hesaba vurdu".** Şair, qəlb sahiblərinin vüsala çatdığını bildirir. Çünki, ürək sahibləri bu dünyaya nə üçün gəldiklərini bilir və kamal mərhələlərini ləyaqətlə başa vurur.

**""Kün" dedi, kalamın dünyanı qurdu".** "Kun" kəlməsi ərəb sözü olub, mənası "ol" deməkdir.

Qurani-Kərimdə təxminən 6 surədə bu kəlmə işlənib. "Bəqərə"117, "Ali - İmran"47-59, "Ənam"73, "Nəhl"40, "Məryəm", "Yasin" 82

Biz yalnız "Yasin" surəsindəki "Kun" kəlməsi olan ayədən söhbət açacaq və ayənin mənasını verəcəyik. "İnnəmə əmruhu izə əradə şeyin ən yəqulə "kun fəyəkun", yəni "Bizim əmrimiz bir şeyə sabit olanda ona deyərik ol, o da olar".

Şair Nəbi də bu misrada Allahın kainatı "kun" kəlməsi ilə yaratdığını bildirir. Başqa bir beytində də şair deyir:

***Qadir Mövlam "kun" deyəndə kəlamı***
***Vurdu yerlə göyün dirəyin altı[32].***
***Birdi qərarı var artmaz, əksiltməz,***
***On dördü[33] sakindir, qırağı altı.***

**"İbtida ərbain nurdu, beşa-beş".** "Ərbəin" sözü ərəb sözü olub, "qırxlar" deməkdir. Bu misrada şair sufi fəlsəfəsində olan "qırxlar məclisi"ndən söhbət açır. Biz bu qırxlar məclisinə bir çox şairlərin də yaradıcılığında rast gəlirik. Aşıq Qurbani bir

[30] Şal
[31] Libassız (Lüt, paltarsız)
[32] Altı gündə aləmin xəlq olunmasından söz gedir
[33]On dörd məsum

"Ustadnamə"sində deyib:

***Qurbani der: arayıbam tapmışam,***
***Qırxlar məclisindən bir pay qapmışam,***
***Kəbədisə, mən də birin yapmışam,***
***Min könüldən bir yol gedə o bürcə.***

Miskin Abdal, Yunus İmrə, Dərviş İbrahim, Ş.İ.Xətai, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım və s. ustadların yaradıcılığında da qırxlar ifadəsinə rast gəlirik.

***Üç kimsə[34] tanıram fani dünyada,***
***Yeddilər[35] çatdırıb məni murada,***
***Qırxların[36] əlindən içmişəm badə,***
***Qırx min dostun qanı axan günüdür.***
***Şahım himmət eylə aman günüdür[37].***

Şair Nəbi də "qırxlar məclisi"ndə olduğundan və həmin məclisdə "beş kimsənəni" ziyarət etdiyindən söhbət açır.

***Dolandı gərdişi, keçdi zamana,***
***Qəhri qəzəbindən gəldi amana,***
***Şair Nəbi, əlin yetir damana,***
***Qismət olsun, əxrət dərsin beşa-beş.***

Son bənddə də şair axirət aləmindən söhbət açır və insanları xəbərdar edir ki, axirətdə insanlar etdiyi pis əməllərə görə Allahın

[34]Allah, Muhəmməd, Əli
[35] Yeddi kimsənə
[36] Qırx nəfərdən ibarət övliya (23 kişi, 17 qadın) deyilənə görə "Qırxlar piri" Dağıstan ərazisindədir.
[37] Dərviş İbrahim

qəhri qəzəbinə düçar olacaqlar. Ey Nəbi! Sən o gündə öz əlini "beş-kimsənənin" ətəyindən üzmə. Allahdan arzu et ki, qiyamətdə də səni "beş-kimsənəylə" məşhur etsin.

Aşıq Ələsgər də "Yüküm" rədifli divanisinin birinci bəndində "Ələst" (Ruhlar) aləmindən və "Beş gözəlin" (Pənci-təni-Ali-Əba) vəsfindən söhbət açır:

***Ələstdən "bəli" dedim, nə xoş kamaldı yüküm.***
***Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm..***

"Nə xoşkamaldı yüküm"ifadəsi dəryakamalınvə ruhanitəkamülün izharıdır. "Xoşkamal"olmaqməqama yetişmək,imtiyaz sahibi olmaq, daxili hüzur və səadətə nail olmaqdır. Buifadənin özü də termindir. "Yük" isə elmdir, qazanılmış kamaldır.Məqamınyükolaraqdəyərləndirilməsi çəkilən zəhmətlərin,mürşidə qulluğun, nəfs riyazətinin gətirdiyi əziyyət və nişanədir.Aşıq Ələsgərin "yük" kəlməsini işlətməsi təsadüfi deyil. O,başqaifadə də işlədə bilərdi. Məhzelmə, əqidəyə, qazanılmışməqama "yük"deyilməsiustadaşığın orijinalifadə tərzidir.Ümumiyyətlə, bu divani çoxmükəmməlpoetikbirnümunədir.

"Divani"anlayışının özüdə ürfanidir. "Divan"birnöv Haqqdivanı, Haqq dərgahındakıhesabat, məşhər,sorğu-sualməna-larınauyğundur. Budatəsadüfideyilki,saz-sözməclislərinininənəvi olaraq, "Divani" ilə açılması vacib amil sayılır. Həm dədivani şeirləri adətən, hikmət, ürfan və dini-mistik keyfiyyətlərə malikolur. Ondördhecalıolan bumənzumə forması sazdaçalınan "Divani" havası üstündə oxunaraq, bu musiqi forması iləmöcüzəlibirşəkildə biri digərinitamamlayır,ruhanibirassosiasiya və ab-hava yaradır.

Aşıq Ələsgərin yuxarıdakı "Divani"sindəki "beşgözəlinaşiqiyəm" ifadəsi də dərin mənəvi qatlardan xəbər

verir. Ənənəviolaraq tədqiqatçılar tərəfindəndə "beşgözəl""pənctəni Ali-Əba". "beş kimsənə" – Muhəmməd, Əli, Həsən, Hüseyn, Fatiməkimi izaholunur. Budoğrudur. Ənazındanonagörə ki, ilkmisralardakıruhani fəlsəfəyə uyğunolaraq, ("Ələstdən"bəli"dedim,nə xoşkamaldıyüküm"), zahiri,məsələn,qadıngözəlliyindən, həmin gözəlliklərə vurğunluqdan söhbət gedə bilməzdi.

Burada heçrəmzvə məcazlığadaoqədərehtiyac yoxdur."Divani"məzmunununkeyfiyyətləridə nəzərə alınmaqla, "beşgözəl" anlayışının məhz Əhli-Beytə (Peyğəmbərin pak və məsumailəsi) şamil edilməsi danılmazdır. Bu o qədər açıq və aydındır ki,hətta əskiSovetdövründənqalma alimlərtərəfindənbelə, bumisra məhz ruhaniyyətlə bağlı izah olunmuşdur.Lakin burada da məsələ təkcə dini deyil. Yəni Aşıq ƏləsgərƏhli-Beytsevgisindənbəhsedərkən, hərkəsinanlayıb, qəbuletdiyi məfhumlardan daha dərinlərə gedib çıxır. Söhbət Əhli-Beytdəngetsə də, buradayalnız ürfan əhlinə və təsəvvüfərbabına xasolan metoddanistifadə olunmuşdur. Bunun isbatıüçün ilk misraya nəzər salmaq məqsədəuyğundur. Çünkibumisralar birbiri ilə əlaqəlidir və biri digərinin məntiqi davamıdır.

Aşıq Ələsgər Ələst aləmini xatırlayır və bu məqamda Əhli-Beytaşiqliyini ortaya qoyur. Bu iki məfhumun, yəni Ələst bəzmi ilə"beş gözəl"in rabitəsini qurmaq üçün məşhur bir ürfani rəvayətə istinad etmək istəyirik. Rəvayətdə deyilir ki, Firdövs cənnətində(hələ Yerkürəsinə gəlməmişdənöncə) HəzrətiAdəmcənabiCəbrayılın rəhbərliyiilə behiştin sirrdolu mərtəbə vəməkanlarını səyahətedir. Elə buradada AdəmpeyğəmbərəHəzrəti Cəbrayılın dili ilə "ismi-əzəm"lər öyrədilir. Behiştin məna dolu məkanlarını seyr edən cənabCəbrayıl və Həzrəti Adəmqırx otaqlı bir sarayın önünə gəlirlər. Cəbrayılın müşayəti ilə 39otağı gəzən Həzrəti Adəm 40-cı otağa daxil ola bilmir. Çox duavə niyazdansonra, Allahınrizasıyla HəzrətiAdəm

40-cıotağadaxilolur. Burada,taxtüzərində üzüniqablıbirxanımınoturduğunugörür. Buxanımınbaşındabirtac, boynundabirboyunbağı, qulaqlarında isə bir cüt sırğa vardı. Sırğanın biri göydaşlı, digəri qırmızı daşlı idi. Həzrəti Adəm bu xanımın kimliynivə üzərindəkilərinhansı əlamətlər daşıdığınıxəbəralır. HəzrətiCəbrayılbelə cavabverir: **"Buxanımbirzaman dünyayagələcək axirəzzaman Peyğəmbərin qızı Həzrəti Fatimeyi-Zəhradır. OnunbaşındakıtacatasıHəzrət Muhəmmədir.Sinəsindəki boyunbağı əriHəzrət Əlidir. Qulağındakı göydaşlısırğa oğluİmamHəsəndir ki, onuzəhərləyiböldürəcəklər. Qırmızı daşlı sırğa isə digər oğlu İmam Hüseyndirki, onu da qılıncla şəhid edəcəklər".**

Qeyd edək ki, bu rəvayət bir çox mütəsəvvüflər tərəfindən nəqledilməklə bərabər, həmdə xalqdilində dolaşmaqdadır. Əvvəlkiabzaslarda izahınıverdiyimiz "mey"sözünün əbcəd hesabıilə 14 rəqəminigöstərməsi və bunun ondördməsumla bağlıolması daburəvayətlə əlaqədardır. Qeydetdiyimizkimi, HəzrətiAdəm məhzcənnətdə ikən ondördməsum haqqındakı bilikləri alaraq "məst olur". Bu məstlik 14 rəqəmi ilə şifrələnən "mey"lə izah olunur.

***Arif olan insafından keçməsin,***
***Mən fağırı qəm atəşi yandırır.***
***Heç kimsəni eşq oduna düşməsin,***
***Ahəni əridir, daşı yandırır... (10, 146).***

Ustadaşığınbuqoşması həministilahların məhz"təriqət"və "mərifət"qatlarındakıtəzahürtərzidir. Buradakı "eşqatəşi",şeirin ruhundan da göründüyü kimi, batini ilahi eşqin keyfiyyətidir. Birincimisradakı "arif"kəlməsi də bufikriqüvvətləndirir.Ustad demək istəyir ki, bu atəşi, bu eşq yanğısını yalnız ariflərgörə bilər. Ənənəvi olaraq, başqalarının da bu atəşə düşməməsini arzulamaq

da ürfan ədəbiyyatı nümunələrinə xasdır.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 138-143; 150-151; 154-166; 196-197; 235-259).

Qeydedəkki, Aşıq Ələsgəryaradıcılığında sufiliklə-aşiqliklə möminlik ayrı-ayrılıqda, kifayət qədər aydın bir tərzdəşərh olunmuşdur. Bu ayrıntı çox mühümdür və təsəvvüf elmindənəzəriproblemolaraqmövcuddur. Böyükmütəsəvvüf MuhəmmədFüzulinin "Rindü Zahid" əsərində buməsələyə belə rastgəlirik:"...İlahi, ibadətsövməəsinin pakməzhəbzahidlərihörmətinə günahvə üsyanmeyxanəsinin rindlərini"Allahadoğruqayıdın"(Quranın66-cı("Təhrim") surəsinin8-ciayəsindən birparçadır. Cilddə Quranayələrindən gətirilənparçaların tərcüməsimütərcimlərə məxsusdur) qədəhininnəşəsindən məhrum etmə, üzlət xərabatının saf təbiətli rindləri izzətinə, xudbinlik xanəgahının zahidlərini, "imtina etdi və təkəbbür göstərdi" (Quranın 2-ci ("Bəqərə") surəsinin 34-cüayəsindən birparçadır) azğınlığıvə zəlalətindən uzaq saxla!...Xoşozahidin halınaki, səadət əldə etmək itaətxanəsində ibadəttəsbihinin sərriştəsini sonPeyğəmbərin səlavatı silsiləsinə yetirə. Xoş o rindin halına ki, iradət qədəhinihüsn və fərasət meyxanəsində şəriət sahibinin razılığı əlindənala, həmişə təriqətxanəgahlarının etikafında onunyolunututub gedə və bu təriqətin zövqünə tabe ola, necə ki, deyiblər:

***Zahidlərin pak ürəyindəki işıq səndədir,***
***Şəriətin binası həmişə səninlə abaddır.***
***Qırxlar məclisində həriflər birbir***
***Rindlikdə üzüm suyunu alıblar...***

Böyükmütəsəvvüf şəriətvə təriqətkeyfiyyətlərini buqısadua şəkilli mətndə çox incə və yuxarıda da qeyd etdiyimiz kimi,birbiri ilə bağlantılışəkildə təqdimetmişdir. Buradasankibiruzlaşmavə

barışıq mövcuddur. Aşiqləri "rind", möminləriisə"zahid"adlandıran Füzuli binasındaşəriət, təqvadayananeşqyolunun rindlik olmadan gedilə bilməyəcəyini təsvir edir. Zahidliyin kökündə elmin, rindliyin kökündə eşqin dayandığını Füzuli açıq şəkildə bəyan edir.

S.Ə.Şirvani də bir qəzəlində Həzrət Əlinin (ə) ətəyindən tutmağı məsləhət bilir və Peyğəmbərin (s) behiştlə müjdələdiyi Səlman və Abazərdən ibrət götürməyi lazım bilir.

***Tut, könül, ali- Əli damənini, eyləmə qəm,***
***Get bu yoldan ki, bu yol Buzəri, Səlman yoludur.***

Ömrünü Əhli-beytin (ə) və Kərbəla şəhidlərinin fəzilətlərinin vəsfinə həsr edən Mövlanə Muhəmmədbaqir Füzuli Bağdadi (r) istisna olmaqla bütün şairlərə ustadlıq etmək qabiliyyətinə malik olan Seyid Əzim Şirvani bütün insanları Həzrət Əlinin (ə) ətəyindən yapışmağa (yəni İmam Əlinin (ə) vilayətini qəbul etmək) və Peyğəmbərin (s) sadiq səhabələrindən olan Salman və Əbuzərin yolunu davam etdirməyi tövsiyyə edir.

## PEYĞƏMBƏRİN (S) SADİQ SƏHABƏSİ HƏZRƏTİ SALMAN (Ə)

Salman kimdir? – Salman əslən İranlı olub, doğulduğu yer haqqında müxtəlif fikirlər var.

Salman-farsi Şirazı tərk edib yola düşür və sonda Məkkəyə yetişir. Salmanın əvvəl adı Mahbeh ibn Buzəhşan idi. İslamiyyəti qəbul etdiyi üçün Peyğəmbər (s) ona Salman – yəni təslim olmuş, itaət etmiş adını vermişdir. Salman sözünün kökü islam sözündəndir, dini-islam da bu sözdən götürülmüşdür ki, mənası tək olan Allah və onun göndərmiş olduğu peyğəmbərlərə təslim

olub, itaət etmək deməkdir. O,özünü «Mən Adəm(ə) övladından İslam oğlu Salmanam»- deyə təqdim etmişdir. Nəslinin Həzrət İsanın(s)vəsilərinəçatdığı rəvayət olunur. Zərdüşt dinidə olduğu zamanlarda da səcdə etmədiyi, axirəzzaman peyğəmbərin(Muhəmmədin(s))zühur etməüzrə olduğunu eşidib onun dinini qəbul etmək və ona yetişmək üçün çalışdığı, nəhayət, bir hadisədəəsir düşüb Mədinəlibiryolçuya satıldığı, azad edildikdən sonra Həzrət Peyğəmbərə(s) rast gəlib İslamı qəbul etdiyi rəvayət edilir.Həzrət Peyğəmbər(ə)ona«Əbu Əbdullah» künyəsi vermiş, «Səlmanül-xeyr» ləqəbini ehsan etmişdir.

Peyğəmbər(s) bu əzəmətli səhabənin barəsində belə buyurub: «Salman bizdəndir və Salman fars elinin islamda ən birincisidir».

Hicrətin beşinci ili İslamın böyük döyüşlərindən olan «Xəndək» döyüşündə məhz, Salmanın təklifi ilə Həzrət Peyğəmbər(s) xəndək qazdırmışdır.

On iki imamçışiələrin etiqadına görə Salman «Ərkani – ərbəə»dəndir. (Dörd sütundan biridir). (Vərağa Almasov «Həzrət Əli aşiqi Füzuli» I kitab. Bakı 2010. Səh.238-239)

Nəql olunur ki, Həzrət Muhəmməd(s) «Allah mənə dörd şəxsi sevməyi tapşırdı. Çünki, o dörd şəxsi Allah da sevir» buyurduğu zaman məclisdəkilər həyəcanla onların kim olduqlarını soruşmuş, Rəsulullah(s) da üç dəfə «Əli onlardandır» dedikdən sonra «Salman onlardan ikincisi, Əbuzər üçüncüsü, Miqdad isə dördüncüdür» deyəəlavə etmişdir. (Təbəri.Tarix.cild III, səh.162; Nuri Ünlü, İslam tarihi III cilddə, I cild.səh 155.İstanbul 1997).

Bu böyük şəxsiyyətin həyatı müxtəlif kitablardan bəyan olunub. Onun necə məqama sahib olduğunu bilmək üçün bunu bilmək kifayətdir ki, Həzrət Əli(ə) onu qüsl verərək kəfənlədi və ona namaz qılıb dəfn etdi.

Ona Salman ibn İslam, Səlmani-pak və Salmani-Muhəmmədi ləqəbləri veriblər.

Vəhy mələyi Cəbrail(ə)Peyğəmbərə(s) buyurdu: «Behiştin

Səlmana olan istəyi, onun behiştə olan istəyindən daha çoxdur».

Əmirəl-Möminin Əli(ə) buyurub: «Səlman o kəslərdəndir ki, Həzrət Zəhraya(ə) namaz qıldı».

Həzrət Əlinin(ə) əqidə və məslək davamçısı olan, bir çox müridlər yetişdirən, qəbri Türkiyədə, məhəbbəti sevənlərinin qəlbində olan pir sahiblərindən olan Hacı Bektaş Vəli Salmanın hansı məqamda olduğunu müridlərinəçatdırırkən belə deyirdi: «Həzrət Əliyə(ə) Salman ol ki, Yezidə kölə olmayasan».

«Salam olsun sənə, ey imanınıƏhli-beytə(ə) bağlayan kəs!»

***Saçları ağarıb keçibdi sinni,***
***Gəlibdir haqqında ayeyi mini,***
***Heyrətəsalıbdırinsiləcinni,***
***İslamınhasarıHəzrətiSalman!***

HəmçininİmamSadiq(ə) buyurub: «Salmanəvvəlvəaxırınelminidərketdi. O, eləbirdəryadırki, hərkəsondanbəhrələnəbilmir. O, bizƏhli-beytdəndir».

Böyükariflərdənolan, «Mifatül – Cinan» kitabınınmüəllifiŞeyxAbbasQummi«Rəsulullah» kitabındaPeyğəmbərə(s) vəƏhli-beytə(ə) sadiqqalanimanlısəhabələrdənbirneçəsibarədədəqiqməlumatveribdir. OnlardanbiridəhaqqındasöhbətaçdığımızsəhabəHəzrətSalmandır(ə).

SalmanMuhəmmədPeyğəmbərə(s)ilkimangətirən 40 nəfərinəvvəlincisidir. Həzrət Muhəmməd (s) buyurub:«SəlmanuminnaƏhləl- beyt - SəlmanbizƏhli-beytdəndir». O, peyğəmbərinməsumƏhli-beytinin(ə) cəprgəsinədaxilolmaqazinəttapmışdır.OnunfəzilətlərihaqqındaPeyğəmbərimiz(s) buyurub: Səlman «sonuolmayanbirdənizvətükənməzbirxəzinədir. O, bizƏhli-beytdəndir. Onunsözlərihikmətlivədəlilöyrədəndir».

***Hüsndəüstündür hər bir gözəldən,***
***Dərəcat alıbdır, o Ləm yazəldən.***
***Əlini sevibdir ruzi əzəldən,***
***Vilayət baharı Həzrəti Salman.***

Həzrət Əli(ə) SalmanıLoğmani-həkim kimi, Həzrət İmam Sadiq(ə)onu Loğmandan da yaxşı, Həzrəti İmamBaqir(ə) onu mütəvəssimlərdən (çox fərasətli şəxslərdən) hesab etmişdir. Rəvayətlərdən məlum olur ki, İsmi-əzəm bilirdi vəmühəddəsindən (mələklərlə danışan olub) sayılırdı, imanın on dərəcəsi vardır ki, Salman imanın onuncu dərəcəsində olubdur. O, astral vəbatini elmlər alimi olub dünyada ikən behişt hədiyyələrindən yemişdir. Behiştonaaşiqdir. AllahvəonunRəsulu(s) Onusevir. AllahtəalaPeyğəmbərə(ə) 4 nəfərisevməyiəmretmişdiki, Salmanonlardanbiridir.

BəlkədəeləbusəbəbdənƏhli-beytşairiS.Ə.ŞirvaniözünüPeyğəmbərinetiqadlısəhabəsiSalmanabənzədirvəİmamZamanıPeyğəmbərinyerindəqərarverərəkdeyira:

***Səlmanınam, eyƏhmədi- Məhmudizəmanə,***
***SəlmaneləməzƏhmədi-Muxtarəədavət.***

VəhymələyiHəzrətiCəbrail(ə) hərvaxtHəzrətiRəsulu-Əkrəmə (s) nazilolurdusa, AllahtərəfindənPeyğəmbərə(s) əmredirdiki, Salmanasalamyetirsinvəonumənaya, bəlalarvəənsabelmlərindənagahetsin. GecələronunüçünPeyğəmbərinxidmətindəxəlvətbirməclisolurduki, Rəsulullah(s) vəHəzrətiƏli(ə) onaİlahielmlərxəzinəsindənbəzişeyləriöyrədirdilərki,çoxlarınınoelmləridərketməyəqabiliyyətiolmamışdır. O, eləbirdərəcəyəçatıbki, İmamCəfərSadiq (ə) buyurub:

Salmanbirincivəaxırıncıelmləridərketdi. O, birdənizidiki, ondannəqədərgötürülsəydidətükənməzdivəo, bizƏhli-beytdəndir(ə).

Şairlərinəzəmustadı, sözədiriliklibasınıgeyindirənƏhli-beyt(ə) aşiqiMövlanaMuhəmmədBaqirFüzuli (Bağdadai) «Olur» rədifliqəsidəsindəHəzrətSalmanı(ə) qəlbitəmizinsankimivəsfedirvədeyir:

***Sayiri-məxluqdənbirkimsəolsapakidil ,***
***Əhli-beytinfirqəsindənsayılır, Səlmanolur.***

**Anlamı:***Sıraviadamlardanhərhansıbirisafolub, özünüмənəvicəhətdənyetişdirəbildiyizamanƏhli-beytin(ə) sırasınaqoşulur, HəzrətiMühəmmədin(s) ənsadiqvəsəmimisəhabələrindənolanSalmansəviyyəsinəyüksələbilər.*

Qazi Nurullah deyir:Salman Farsi uşaqlığından haqq din axtarmaqda səy göstərirdi və yəhudi, xristian və sair dinlərin alimlərinin yanına gedib-gəlirdi. Bu yolda ona üz verən əzablara da dözürdü. Hətta, bu yolu gedərkən 10 nəfərdən artıq sahibi onu bir-birinə satırdılar. Sonda növbə Kainat ağası olan Həzrəti Peyğəmbərə(s) çatdı və onu yəhudilərdən müəyyən məbləğə aldı. Onun Peyğəmbərə(s) qarşı ixlas və məhəbbəti elə bir yerəçatdı ki, o sərvərin mübarək dilindən məşhur «Salmanu minna Əhləl beyt-Səlman biz Əhli-beytdəndir» dərəcəsinə nail olmuşdur.

Şeyx Tusi «Əmali» kitabında Mənsur ibn Bəzrəcdən belə rəvayət edir: «İmam Cəfəri Sadiqdən (ə) soruşdum ki, EyRəsulallahın(s) övladı, Sizdən Salman Farsinin barəsindəçox təriflər eşidirəm, bunun səbəbi nədir? Həzrət(s) buyurdu: «Salman Farsi»demə «Salman Muhəmmədi de». Bil ki, onu çox yada salmağım üç böyükfəzilətə görədir ki, o, bunlarla zinətlənmişdir. «Salmanın Həzrət Əlinin(ə) istəklərini öz istəklərindən irəli bilməsi; Onun yoxsulları sevib, varlılardan üstün tutmasını; Elmə

və alimlərə məhəbbəti».

Həmçinin Südeyr Seyrəfi Həzrət Muhəmməd Baqirdən(ə) rəvayət edir ki, bir dəstə adam oturmuşdular vəöz əsl-nəsəblərini tərifləyir və onunla fəxr edirdilər. Salman da onların arasında idi. Ömər ibn Xəttab üzünü ona tutub dedi: «Ey Səlman sənin əsl-nəsəbin nədir?«Salman dedi: Mən Allah bəndəsinin oğlu Salmaman. Yolumu azmış idim, Allah məni Mühəmmədin(s) vasitəsilə doğru yola hidayət etdi. Yoxsul idim, Allah məni Mühəmmədin vasitəsilə ehtiyacsız etdi. Qul idim, Allah o Həzrətin(s) vasitəsilə məni azad etdi. Mənim əsl-nəsəbim elə budur, ey Ömər!

Başqa hədislər də gəlmişdir ki, bir gün Abuzər Salmanın evinə gedib görür ki, odun üstünə bir qazan qoymuşdur. Onlar yerdə oturub söhbət edirdilər. Birdən qazan sacayağın üstündən aşıb yerə düşdü. Lakin, qazanın içindəkilərdən bir damcı belə yerə düşmədi. Salman qazanı götürüb yerinə qoydu.İkinci dəfə də qazan aşdı. Yenə də bir damcı olsa da yerə tökülmədi. Dördüncüdəfə də bu hadisə təkrar olundu.

Abuzər dəhşətə gəlmiş halda ayağa qalxıb Salmanın yanından getdi vəçox fikirli halda Həzrət Əli(ə) ilə görüşdü və gördüyü hadisəni o həzrətə danışdı. Həzrət Əli(ə) buyurdu: Ey Əbuzər, əgər Salmanın bildiklərini sənə xəbərversəm,hökmən deyəcəksənAllah Salmanıöldürənə rəhmət eləsin! Ey Əbuzər, Salman yer üzündə babullahdır (Allahın qapısıdır), hər kəs onutanıya bilsə mömündür, hər kəs onu tanıya bilməsə, kafirdir. Salman biz- Əhli-beytdəndir(ə)».

***Tut könül, Ali-Əli damənini, eyləmə qəm,***
***Getbuyoldanki, buyolBuzəri-Salmanyoludur.***

BirgünMiqdadSalmanınevinəgəlibgördüki, sacayağınüstünəbirqazanqoymuşdurvəqazanodsuzqaynayır. O,

Salmanadedi: EyəbuƏbdillah, qazanodsuzqaynayarmı? Salmanikidaşgötürübqazanınaltınaqoydu.Dərhalodtutubyanmağa başladı. Salmanbuyurdu: Qazanınqaynamasınıazalt. Miqdaddedi: Əlimdəbirşeyyoxdurki, onunlaqazanınqaynamasınıazaldam. Salmanözəlinikəfkirkimiqazanasaldıvəqaynarqazanıqarışdırmağab aşladı. Qazanqaynamadandüşdü. SalmanözəliləqazandakıxörəkdənbirmiqdargötürübMiqdadiləbirli kdəyedi. MiqdadbuhadisədənçoxtəəccüblənibhadisəniPeyğəmbərə(s)danışd ı. Peyğəmbər(s) buyurdu: «İmanınondərəcəsivar, Salman 9-cudərəcədədir».

Peyğəmbəri-Əkrəmin(s) əzəmətli səhabələrindən olan SəlmanFarsi bir kəlamında haqlı olaraq buyurub: «Çoxşeybilməkinsanıqurtarmaz, şeytandaalimidi, ammaixlasıyoxidi».

Göründüyü kimi Salaman elmdən çox ixlas və əmələ diqqət yetirmiş və nəticədə Peyğəmbər (s) buyurduğu kimi imanın doqquzuncu dərəcəsinə çatmışdır.

Salman 36-cıildəMədainşəhərindəvəfatetdivəHəzrətƏli(ə) həmingecə «Teyyül-ərz» (Allahınsehri) elmiiləMədinədənMədainəgəlibSalmanıncənazəsinəqüslverdi, kəfənəbükdüvəcənazənamazıqılıb , eləoradacadəfnetdi.

İslammüqəddəslərininKərbəladakıvaqiəsindənbəhsedən «Kənzülməsaib» əsərininmüəllifiŞirin-zəbanləqəbiilətanınanAzərbaycanklassikədəbiyyatınıngörkəmlinümayəndəsiHacıMuhəmmədTəqiQumriDərbəndi «ÖvliyalarSultanıƏliyəl –Mürtəzanın(ə) tərifihaqqında 12-ciböyükqəsidəsində» buhadisənibelənəzməçəkib:

***GahTeyyülərzilənSalmanıdəfnetməkligə,***
***Hazıroldunşiəvə, qılduninayət, yaƏli.***
***Qüslverdinözəlinlə, nəşinətutdunkəfən,***

*Qəbrəqoydunözəlinlə, oldurahət, yaƏli.*( **Səh.81)**

Digər bir rəvayətdə gəlib ki, Həzrət Əli(ə) onun cənazəsi üstə gəldikdəüstündəki əbanı götürdü. Salman o həzrətin(s) üzünə təbəssüm etdi. Həzrət Əli(ə) ona buyurdu: «Mərhəba sənə, ey Əba Əbdillah. Peyğəmbərin(s) hüzuruna çatdıqda mənə edilən zülmləri o Həzrətə(s) xəbər ver».Sonra Həzrət Əli(ə) onun dəfni üçün hazırlıq işləri gördü, qüsl verib kəfənə tutdu və meyit namazı qıldı.Cəfər Təyyar və Xızr Peyğəmbər(s) onun cənazə namazında iştirak etdilər. Onların hər biri ilə yetmiş cərgədə mələklər dayanmışdı ki, hər cərgədə bir milyon mələk var idi. Həzrət Əli(ə) elə həmin gecə Mədinəyə qayıtdı.

Hicrətin 36-cı ilində Həzrət Salman 250 yaşında (bir rəvayətəəsasən 350 yaşında) Mədaində dünyadan köçdü və orada dəfn olundu. Həzrət Salmanın(ə) şərif qəbri Mədaindədir. Hal-hazırda Salmanın(ə) şərəfli qəbri üzərində möhtəşəm ziyarətgah vardır.Şeyx Abbas Quminin«Hədiyyətüz-zairin» və «Məfatihül-cinan» kitablarında o cənabın ziyarətnaməsi nəql olunmuşdur.

Şairlərin əzəm ustadı, sözə dirilik və mənəviyyat libası geyindirməyi bacaran Əhli-beyt (ə) şairi M.Füzuli "Bəngü badə" əsərində Salmanın və Həzrət Əlinin (ə) sadiq xidmətçisi Qənbərin barəsində söylədiyi fikirlərə nəzər yetirək.

"Tiryək və Şərab" anlamına gələn "Bəngü badə" başlıqlı məsnəvi kiçik həcmli poema olub. Füzuli yaradıcılığının ilk dövrünün məhsuludur. Füzulişünaslığın müəyyənləşdirdiyinə görə, şair bu əsərini Sultan Səlimlə Şah İsmayıl Xətai arasındakı çəkişmə və münaqişəni ifşa etmək üçün yazmışdır. Çünki əsərdə "badə"nin "bəng"ə göndərdiyi məktublarla Sultan Səlimin Şah İsmayıla olan tarixi məktubları arasında yaxın səsləşmə var (Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958, səh 171 - 178).

***Əgər təriqi - mürüvvət sənə həm olmasa rəsm,***
***Həqiqətində vəfadən tapılmaya asar,***
***Əcəb yox, eyləsəm ikrah əhli - imandan,***
***Cəmü - zümreyi - islamdən olub bizar,***
***Nəcəfdə bağlamayam Alxidmətinə kəmər,***
***Gedib Firəng diyarinə bağlayam zünnar!***[38]

**Anlamı:***Hərgah insaflı rəftar sənin də idarə - üsulundan uzaq olsa və sənin əməllərində də vəfalılıqdan bir nişanə qalmasa, onda mənim müsəlman dairələrindən küsərək, iman əhlindən üz çevirməyimdə heç bir qəribəlik olmaz. Çünki belə olduğu təqdirdə onda gərək mən Nəcəf şəhərindəki Həzrəti Əli türbəsində belimə bağladığım "peyğəmbər nəslinə xidmət kəməri"ni açıb Firəng ölkəsinə gedərək "keşiş qurşağı" bağlayım.*

Belə açıq örnəklər Füzulinin "vəsf" sözünü dövrünün hökmdarlarına Həzrəti - Əlinin (ə) ədalətli idarə - üsuluna işarə kimi dərs olaraq başlığa çıxarmasını söyləməyə bir xeyli əsas verir.

"Bəngü badə"nin "şəmmeyi - vəsfi – Heydəri - Kərrar" (qoç - tək döyüşən şirin döyüşməsindən bir hissə) başlıqlı bölümü belə başlanır:

***Yari - Səlmanü xaceyi - Qənbər,***
***Valiyi – rövzə, saqiyi - kövsər !***[39]

**Anlamı:***Həzrət Əli Səlmanın dostu, Qənbərin isə ağasıdır (bunlar onun dünya dostlarıdır). Ancaq onun daha böyük nemətləri axirətdə cənnət və cənnətdəki Kövsər bulağıdır. Belə ki, bu cənnətin idarəedicisi, Kövsər bulağının isə suyunu paylayandır.*

"Qönçə bağrı..." qəsidəsinin müvafiq beyti araşdırılarkən Səlmani - Farsi haqqında geniş bilgi vermiş, onun Həzrəti - Əlinin (ə) "yarı" adlandırılması istər - istəməz maraq doğurur. Çünki bu

[38]Füzuli. Əsərləri, IV cild, Bakı, 1961, səh., 54.
[39]Füzuli. Əsərləri, II cild, Bakı, 1958, səh. 238.

ilk baxışda Səlmani - Farsinin bilərəkdən önə keçirilməsi kimi də başa düşülə bilər. Lakin misra bütöv bir ədəbi vahid olaraq götürüldükdə belə yanlış qavranışa yer qalmır. Çünki bu zaman istər "Səlman - Qənbər", istərsə də "yarxacə" qoşalıqları ifadə etdikləri əksliklərlə özlüyündə məsələyə aydınlıq gətirir. Belə ki, Qənbər kölə olduğu halda Səlmani - Farsi azad şəxs idi. Odur ki, misrada Həzərt Əli (ə) Qənbərin ağası, Səlmani - Farsinin isə dostu kimi göstərilir.

Bununla belə, Həzrət Əlinin (ə) istər Səlmana "yar"lığı, istərsə də Qənbərə "xacə"liyi haqqında ayrıca mühakimə yürütməyə ehtiyac duyulur. Ona görə ki, birincisi, qaynaqlar belə örnəklərlə doludur; ikincisi, bəzilərinin ciddi mübahisə doğurmasına baxmayaraq, bu bilgilər Həzrət Əlinin (ə) bir çox keyfiyyətlərinin tərənnümü üçün şairə geniş həyati xam material verir.

Hər şeydən öncə, belə bir cəhətin üzərindən sükutla keçmək olmaz ki, Həzrət Əlinin (ə) Səlmanla "yar"lığı onun Səlman Farsiyə yaşlı bir peyğəmbər səhabəsi olmaqdan çox gələcək nəsillər üçün nəzərdə tutulan fədakar və cəfakeş bir xas yetirməsi kimi yanaşması üzərində qurulmuşdur. Başqa sözlə, bu o deməkdir ki, Həzrət Əli (ə) Səlman Farsinin qayğısına qalmaqla ona dərin islami hikmətləri öyrətmiş, təmkinli bir müəllim qayğıkeşliyi ilə onun nazını çəkmiş, onu bütövlükdə bəşəriyyət üçün bəsləyib yetişdirmişdir.

Bu bilgilər eynən "xaceyi - Qənbər"ifadəsi üçün də səciyyəvidir. Belə ki, Səlman Farsidən fərqli olaraq, Həzrət Əli (ə) ilə Qənbər arasında bir tabe - mətbu münasibəti də olmuşdur. Ancaq bu münasibəti qətiyyən tərəflərin heç biri istismar etməmişdir. Əksinə, aşağıda verəcəyimiz hədislərdən də bəlli olacağı kimi, bu ulu din böyüyü Qənbər üzərində heç də yalnız ağalıq etməmiş, yeri gəldikdə ona sərbəst davranmaq imkanı vermişdir. Belə ki, bəzən Qənbər Həzrət Əlinin (ə) fikrinə zidd fikir

belə söyləməyə cəsarət etmişdir ki, bütün bunlar bu ulu din böyüyünün əslində Qənbərlə də "yar" olduğunu sübuta yetirir.

"Qənbər" sözü ərəb dilinə yabançı olan leksik vahid təsiri bağışlayır. Belə ki, türkoloqlar, o sıradan da professor Firudin Cəlilov göstərir ki, əski türklər ilxı yiyəsi (hamisi) saydıqları ruhu "Qənbər" adlandırmış, olduqca böyük önəm verdikləri atçılıqla bağlı duyğu və düşüncələrində, inam və inanclarında bu ruhdan yardım istəmişlər. Odur ki, bu sözü daha çox türk dili mühitinin faktları əsasında açıqlamaq lazım gəlir.

Belə olan surətdə, belə bir hipotez də diqqət mərkəzinə keçir ki, Həzrət Əlinin (ə) bu adda olan qulamı milliyyətcə türk olmuş, uzaq türk ellərindən gəlib bu ulu din böyüyünün xidmətində durmağı özü üçün böyük şərəf bilmişdir. Yuxarıda toxunduğumuz üzrə, Qənbərin sərbəstfikirliliyi və hissediləcək dərəcədə cəsarətliliyi böyük ehtimalla onun milliyyətindən irəli gəlirdi. Odur ki, bəzi mövhumat və xurafat kitablarında Qənbərin əsl adının Fəttah olması, bir hökmdar qızına vurulması, qızın verilməsindən ötrü onun Həzrət Əlinin (ə) başını kəsib gətirməsinin şərt qoyulması, bu məqsədlə yola çıxdığı zaman Qənbərin bağda yer belləyən Həzrət Əli (ə) ilə qarşılaşması, Həzrət Əlinin (ə) ona mehribanlıq edib istəyini soruşması, onun da sirrini açıb söyləməsi barəsindəki təfərrüat və təfsilat əslində reallıqdan uzaq əfsanəvi və uydurma məlumat səciyyəsi daçıyır. Əksinə, mötəbər dini - tarixi qaynaqlar Qənbəri Həzrət Əlinin (ə) həm xidmətçisi, həm də əqidəli sadiq ardıcılı kimi təqdim edir. Məsələn: İmam Cəfəri Sadiq (ə) buyurur: "Qənbər Həzrət Əlinin (ə) qulamı idi və onu çox sevən şəxslərdəndi. Həzrət Əli (ə) bir yerə getdikdə o, qılıncla onu müşayiət edərdi.

Bir gecə Həzrəti - Əli (ə) Qənbəri "yanında hazır" görüb buyurdu:

Ey Qənbər, sənə nə olub ? (Yəni sən niyə indi buradasan ?)

Qənbər belə cavab verdi:

- Ya Əli, mən sənin ardınca gəlirəm.

O həzrət buyurdu:

- Vay olsun sənə, sən məni göy əhlindən qoruyursan, yainki yer əhlindən ? Yaxud sən mənə görə göy əhlindən qorxu hissi keçirirsən, ya yer əhlindən ?

Qənbər dedi:

- Göy əhlindən deyil, yerdəkilərdən narahatam.

O həzərət buyurdu:

- Göydən Allahın izni gəlmədikcə, yerdəkilər mənimlə bağlı bir gücə malik ola bilməzlər. Odur ki, ey Qənbər, qayıt geri !

O, (ağasının sözünü yerinə yetirərək) geri qayıtdı"( Üsuli - Kafi, II cild, səh.57)

Göründüyü kimi, bu bilgilər bir neçə mətləbə aydınlıq gətirir. Məsələn bu bilgilərdən öyrənmək olur ki, artıq hicri tarixilə ikinci əsrdə (İmam Cəfəri - Sadiq (ə) h.83 - 148 - ci illər arasında yaşamışdır) Həzrəti - Əlinin (ə) həyat və fəaliyyəti ilə bağlı incəliklər geniş miqyasda bəhs mövzusuna çevrilmişdi. Əks təqdirdə bu ulu din böyüyü öz əcdadı haqqında belə ətraflı bilgi verməzdi."

Və ya hədisdən bəlli olur ki, Qənbər heç də həmişə qul, kölə kimi hərəkət etməmiş, daha çox sərbəst davranmış, bəzən icazə almadan da Həzrəti - Əlinin (ə) müşayiət etmişdir. Bu onun tükənməz Əli sevgisindən qaynaqlanan bir hal idi.

Digər tərəfdən, indiki halda bəhsimizdən qıraqda qalan, ancaq kəlam elmində birinci dərəcəli predmetlərdən birini təşkil edən qəzavü - qədər məsələsinə bu ulu din böyüyünün orjinal baxışı da öz bariz əksini tapmışdır.

Başqa bir misal: İmam Muhəmməd Baqir (ə) buyurur: "Bir gün Hz Əli (ə) Qənbərə bir günahkara hədd vurmağı tapşırır. O, əsəbləşdiyindən üç hədd artıq vurur. Bu zaman Həzrəti Əli (ə) Qənbəri yanına çağırır və həmin üç əlavə həddi onun özünə vurur."( Üsuli - Kafi, VII cild, səh. 260 )

Göründüyü kimi, bu hədis də bir xeyli tutumlu olub, bir çox tarixi məlumatları özündə toplamışdır. Hədis həm də rəhbər - rəiyyət, sahibkar - xidmətçi, amir - məmur münasibətlərinin islami məzmununa dair bir xeyli anlayış verir. Bu anlayışdan öyrənmək olur ki, Həzrət Əli (ə) xidmətçilərini qətiyyən təzyiq və yersiz nəzarət altında saxlamamış, məqamına görə onlara sərbəst, ancaq məsuliyyətli hərəkət etməyə imkan vermişdir. Əgər belə olmasaydı, nə Qənbər əsəbləşib cinayətkarı həddindən artıq cəzalandırardı, nə də Həzrət Əli (ə) cəzanın həddi aşmış hissəsini Qənbərin öz üzərində tətbiq edərdi. Burada həm də dillərdə əzbər olan misilsiz Əli ədaləti haqqında birmənalı bir təsəvvür var.

Daha bir örnək: "İmam Cəfəri Sadiq (ə) buyurdu: mən və atam gəlib qəbir və minbər arasına çatdıqda bir dəstə şiə ilə rastlaşdıq. Onlarla salamlaşıb söhbət etməyə başaladıq".

İmam söhbət əsnasında sözünü belə davam etdirdi: (vaxtı ilə Həzrət Əli (ə) də Qənbərə demişdi: "Ya Qənbər, özün də sevin və özündən sonra gələnləri də sevindir! And olsun Allaha ki, Rəsulullah vəfat etdiyi zaman Əli(ə) tərəfdarlarından başqa ümmətinin bütün təbəqələrindən böyük narazılıq içərisində idi. Agah ol, hər şeyin bir izzəti var. İslamın da izzəti Əli tərəfdarlarıdır!... Hər şeyin bir sütunu var, islamın da sütunu Əli tərəfdarlarıdır! Allaha and olsun ki, yer üzündə sizlərdən Əli tərəfdarlarından biri olmasaydı, sən əsla ot bitən yer - həyat nişanəsi görməzdin! And olsun Allaha ki, sizin biriniz yer üzündə olmasa idi, heç bir günahkar (dəstə, cəmiyyət) ilahi nemətə yol tapa bilməzdi. Onlar onsuz da dünyadakı və axirətdəki halal ruzi qismətlərini əldə etməyəcəklər. Onlar hər nə qədər bəndəlik edib, çalışsalar belə, yenə də bu ayə onlara aid olaraq qalacaqdır: "(Boyunlarındakı zəncirləri, ayaqlarındakı qandalları daşımaqla cəhənnəmin pillələrini çıxıb düşməklə boş yerə ) zəhmət çəkib yorulacaq; Yanar oda girəcəkdir" (Ğaşiyə, 3 - 4). Yəni Əli məfkurəsinə tabe olmayan hər kəsin səyi, əməli boşdur !" (Üsuli -

Kafi, VIII cild, 209 - 216).

Qaynaqlarda "Siha hədisi" adı ilə bəlli olan bu tarixi bilgilər çoxqatlı və çoxşaxəli bir məna - məzmun şəbəkəsinə malik olduğundan istər dini - tarixi, istərsə də ədəbi baxımdan ayrıca araşdırma tələb edə biləcək qədər dərin və genişdir. Biz isə indiki halda diqqətimizi daha çox Qənbərin və onunla bağlı Əli soraqlı bilgilərin üzərində cəmləşdirdiyimizdən təkcə bunu önə çəkməklə kifayətlənirik ki, bu ulu din böyüyü son dərəcə önəmli mətləbləri məhz Qənbərə demiş, yalnız onu gələcək tərəfdarlarının müjdələyicisi kimi görmüşdür. Başqa sözlə, buradan belə anlaşılır ki, Həzrət Əli (ə) öz xidmətçisinə təkcə qul - kölə kimi yox, öz əqidə silahdaşı kimi baxmışdır. Beləliklə, aydın olur ki, Qənbərə və onun xidmətçilik işinə asossiativ duyumlarla bəsit bir vurğunluq kimi yanaşılmamalıdır. (Mirzə Vərağa Almaslı "Həzrət Əli(ə) aşiqi Füzuli")

"Bəngü badə"nin Əli soraqlı bölümü "valiyi - rövzə" izafəti ilə davam edir. Hərfən "cənnət valisi" demək olan bu izafət "vali" sözünün çoxmənalılığından hal olaraq, müxtəlif cür başa düşülə bilər.

Ərəb dilində "valiyə" köklü sözlər həyatın bir çox sahələrinə aid mətləbləri ifadə edir. Belə ki, bu köklü sözlər bir yandan "bir şeyə yaxınlaşmaq", "idarə etmək, nizamlamaq, (başqasının) işini öhdəsinə götürmək", "yardım göstərmək", "sevmək", "bir şəxsə hər hansı bir işi idarə etməyi tapşırmaq", "iki şeyi ardıcıl etmək", "kiminləsə dostluq etmək", "nəyə isə sadiq qalıb, onu davam etdirmək", "yardım, məhəbbət" anlamlarını bildirirsə, o biri yandan "geri dönmək, üz çevirib tərk etmək", "əsil nəsəblilərə bənzəmək", "işin axırına çıxmaq, üstün gəlmək, istila etmək", "vəqf işinə baxan şəxs", "rəbb, ağa, SEYİD", "qonşu", "qul", "kölə azad edən adam", "azad olan kölə", "yaxın qohum", "ehsan edən, ehsan edilmiş kimsə", "təbii", "ata tərəfdən qohum", "saziş bağladığı şəxs", "qonaq üçün ayrılan azuqə" kimi bir - birindən

əsaslı surətdə fərqlənən çeşidli sahələrlə bağlı bilgilərin daşıyıcısı yerində çıxış edir. Əgər sözün bəzən xüsusi idiomatik ifadə və frazeoloji vahid yaratmaqda da iştirak etdiyini nəzərə alsaq, onda leksemin və ərəb dilindəki işləkliyinə və çevikliliyinə dair daha aydın anlayışa malik olarıq. Məs: "aulə ləkə" - öz başına bəla elə, sən cəzaya layiqsən; qoy gedəcəyin yer cəhənnəm özü olsun ! (bunlar qorxutma zamanı istifadə edilən təbirlərdir). Yaxud: "əl - mütəvalli" - vəqf xidmətçisi və ya: "əl - məvaliyə" - cahil ərəblər arasında yayılmış şeir növlərindən biri. Və yaxud da: "əl - mauləviyyətəu" – Cəlaləddin Rumiyyə mənsub olan sufi təriqəti və mövləvilərin qoyduğu papaq və yaxud da ki, "vəliyullah" - saleh əməllər edən təmiz bəndə və tanrı dostu.

Bəs bu ətraflı linqvistik izahat "valiyi - rövzə" ifadəsi ilə Füzulinin nəyi göz önündə tutduğunu müəyyənləşdirməyə imkan verirmi?

Sözün islami tutumunu və dini müqəddəsatla bağlılığını nəzərə aldıqda bu suala müsbət cavab verilə bilər. Belə ki, yuxarıdakı bilgilər Füzulinin bu ifadə ilə Həzrəti - Əlinin (ə) cənnətin rəhbəri, vəlineməti - Allahın oradakı ən səlahiyyətli nümayəndəsi yerində gördüyünü və bunu elə bu cür də əsərə gətirdiyini göstərir. Əgər Qurani - kərimdəki bəlli ilahi bəyanatların ( Bəqərə, 207; Maidə, 3, 55, 67; Dəhr, 8 - 10 və s. bu kimi ) mövzu, məzmun və məfkurə cizgilərinə diqqət yetirsək, onda şairə haqq qazandırarıq. Bunun üçün bu ilahi bəyanatlardan biri ilə bağlı hamının məqbul hesab etdiyi bir təfsirə göz gəzdirək: "Sizin hamınız Allah, onun peyğəmbəri və iman gətirənləridir. O kəslər ki, (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər" (Maidə, 55).

Əbuzər - Ğəffari deyir: "Bir gün Peyğəmbər ilə "zöhr" namazını qılırdım. Bir dilənçi məscidə daxil olub (yardım) istədi. Lakin kimsə ona heç nə vermədi. Belə olan halda dilənçi əlini göyə qaldırıb dedi: "Allahım, sən şahid ol ki, mən Rəsulullahın

məscidində (yardım) istədim, amma kimsə mənə bir şey vermədi. Bu zaman Hz Əli (ə) rüku halında idi və dilənçiyə sağ əlinin çeçələ barmağındakı üzüyü işarə etdi. Dilənçi yaxınlaşaraq üzüyü onun barmağından çıxarıb götürdü və bunu Peyğəmbər də gördü. Peyğəmbər namazını tamamladıqdan sonra üzünü göyə çevirərək belə dedi: "Allahım, qardaşım Musa, Səndən belə istədi: "Ey Rəbbim! Köksümü açıb genişləndir. İşimi yüngülləşdir. Dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar! Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver - Qardaşım Harunu! onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et". Sən ona belə vəhy etdin: "Sənin arxanı qardaşınla möhkəmləndirəcək, ikinizə də dəlil (möcüzə və qüdrət) verəcəyik. Onlar ayələrimiz sayəsində sizə heç bir pislik edə bilməyəcəklər. Allahım, mən Muhəmməd Sənin peyğəmbərin və seçdiyinəm. Allahım, köksümü açıb genişləndir. İşimi yüngülləşdir. Dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver - qardaşım Əlini. Onunla arxamı möhkəmləndir". Əbuzər deyir: "And olsun Allaha ki, Peyğəmbər sözünü bitirməmiş Cəbrail Allah tərəfindən ona nazil olub dedi: "Ey Muhəmməd, oxu!" Peyğəmbər soruşdu: "Nə oxuyum?" Cəbrail dedi: Sizin hamınız ancaq Allah, Onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər".

Bu hədisi eyni sənədlə Əbu İshaq Sələbi təfsir kitabında və Əbu-bəkr Razi "Əhkamu-l-Quran" kitabında qeyd etmişlər. Eyni zamanda Məğribi, Rummani, Təbəri, Mücahid və Sədiy bu ayənin İmam Əlinin (ə) üzüyünü rüku halında sədəqə verdiyi zaman nazil olduğunu söyləmişlər". (Məcməül-bəyan, cild 3, səh. 324 - 325).

"Maidə" surəsinin 55 - ci ayəsinin bütünlüklə Həzrəti Əli (ə) barəsində nazil olmasını demək olar ki, məşhur təfsirçilərin hamısı təsdiqləyir; məs.: Fəxrur - Razi, Ət - təfsirul - Kəbir, cild 12 səh. 26; 2. Zəməxşəri. Əl - Kəşşaf, cild 1, səh. 347; 3. Suyuti. Əddurrul - Mənsur, cild 3, səh. 104 – 106; 4. Heysəmi. Məcməuz - zəvaid, cild

7, səh. 19 - 20; 5. Əl - Cəssas. Əhkamul – Quran, cild 2, səh. 446; 6. Sədiy. Təfsirul - Quran, səh. 231: 7. İbn - Kəsir. Təfsirul - Quran, cild 2, səh. 74; 8. Kənci - əş - Şafei. Kifaət - talib, səh. 200; 9. Nəsəfi. Təfsirul - Quran, cild 1, səh. 420; 10. Təbəri. Camiul – bəyan, cild 13, səh. 108.

Bu deyilənlər bu və ya başqa ölçüdə "Saqiyi - Kövsər" ifadəsinə də aiddir. Bəs "kövsər" nədir və müsəlman mədəniyyəti bu məfhumu hansı başlıca yönlərdə işlədir ?

"Kövsər" lüğəvi baxımdan "çoxluq" deməkdir. Razi və Əbu Həyanın dediklərinə görə, "çoxluğu ifrat dərəcədə olan şey" mənasına gəlir.

Bundan başqa, "Kövsər" sözü "islam, nübuvvət, Taif şəhərində bir məktəbin adı, çox xeyirli və əliaçıq şəxs" anlamına gəldiyi kimi, "çay" mənasında da olub, xüsusən cənnətdə ayrıca bir çayın adını bildirir, cənnətin bütün bulaqları ondan qaynaqlanır.

"Təhrir" başlıqlı bir kitabda sözün iyirmi altıyadək məna verməsi göstərilir.

"Kövsər" cənnət çaylarından birinin adıdır. Bu, Həzrət Muhəmmədin (s) dilindən söylənilən səhih hədisə əsaslanır: "Kövsər Rəbbimin mənə cənnətdə verdiyi bir çaydır (və ya bir hovuz), onda bolluca xeyir var. Ümmətim qiyamət günü gəlib ondan su içəcək. Onun qablarının sayı ulduzlar qədərdir. Ondan su içənlərdən biri tələm - tələsik oradan uzaqlaşdırılır. Mən bunu gördükdə "ya Rəbb, axı o mənim ümmətimdəndir" deyəcəyəm. Mənə belə cavab veriləcək: "Onun səndən sonra nələr etdiyini sən bilməzsən".

Buxari, Müslim, Nisai və başqaları bu çayın aşağıdakı xüsusiyyətlərini göstərirlər: Onun qıraqlarında dəyirmi inci qübbələr var, onun içindən ləl - cavahirat çıxar. Süddən daha ağ, baldan daha şirin, sahəsi Şərqdən Qərbədək, dərinliyi yetmiş min illik yol qədərdir. Ondan içən heç vaxt susuzluq hiss etməz, onun

suyu ilə dəstəmaz alan isə əbədi olaraq peşmançılıq keçirməz. Həzrət Muhəmməd (s) onun barəsində belə buyurduğu bildirilir: "Mənim əhdimi pozan, mənin Əhli - beytimiöldürən ondan içməz!" Ənəs, Aişə, İbn Ömər və İbn Abbasdan).

Hədislərin bəzisində isə bu hadisə ayrıca bəhs mövzusuna çevrilir. Bəlli görüşə görə, hadisə məşhər də baş verəcək. Bəzilərinin fikrincə, bu hovuzdan ilahi mühakimə və siratdan qabaq, bəzilərinin fikrincə, cənnətin qapısına yaxın bir yerdə yerləşən və Həzrət Muhəmməd (s) ümmətindən olan cənnətdəkilərin öz aralarında hüquqi baxımdan halallaşmaları üçün, tutulub saxlanılan yerdə istifadə ediləcək. Bunu nəzərə alan Alusi iddia edir ki, bu hadisə başqa bir şəkilə düşəcək. Yer kürəsində olacaqdır.

İqliminin nəql etdiyi hadisə əsasən "kövsər" peyğəmbərlik şərəfidir. Çünki peyğəmbərlik hər iki dünyanın xeyirli cəhətlərini özündə birləşdirən ümumi rəhbərliyi əhatə edir. Razinin açıqladığına görə nübuvvət rububiyyətdən sonra ikinci dərəcəni təşkil edir.

Bu deyilənlər "kövsər"i deyib Həzrət Muhəmmədin (s) üstünlükləri, böyük əxlaqi, bütün xeyirli cəhətləri özündə birləşdirən Quran, tövhid, islam, elm və hikmət kimi də başa düşməyə imkan verir" (Elmalılı Həmdi Yazır. Haqq dini Quran dili, IX cild, Ankara, 1995, səh. 187 – 190).

Düzdür, ümumi və zahiri şərtlər"kövsər" anlayışının üxrəvi mahiyyət daşıdığını göstərir. Ancaq surənin Xanım Fatimeyi - Zəhra (s.ə) haqqında gəldiyinə dair fikirlərin çoxluğunu nəzərə aldıqda, istər istəməz həmin məfhumu xüsusiləşdirməli və batiniləşdirməli olursan. Çünki dərindən düşündükdə, əslində həqiqi kövsərin dünyada da, axirətdə də elə Xanım Fatimeyi – Zəhradan (s.ə) ibarət olması ortaya çıxır. "Qönçə bağrı..." qəsidəsinin müvafiq hissəsində göstərdiyimiz Əli - Zəhra münasibətlərinin Füzuli qələmindəkiparlaq və dolğun təsvir və

tərənnümü bundan soraq verir.

"Bəngü – badə"nin Həzrət Əli (ə) soraqlı bölümü belə davam edir:

***Oldur ayinədari – sürəti – Həqq,***
***Nə vəsi, varisi-nəbi mütləq.***

**Anlamı:***Allahın camalının güzgütutanı odur. Odur ki, o, Həzrət Muhamməd*in (s) təkcə vəsisi yox, həm də yeganə varisidir.*

"Oldur ayinədari – surəti – Həqq" misrası olduqca qəti mənalandırmadır. Yuxarıda qısaca "Allah camalının güzgütutanı odur" biçimində sadələşdirdiyimiz bu cümlə əslində bir yandan ənənəvi islami bilgilər baxımından bir yandan da müxtəlif təsəvvüfi – irfani yozumlar yönündə geniş açıqlana bilər. Hətta bəzi ifratçılar burada hürufizm görüşləri də axtarmağa cəsarət edərdilər. Ancaq unutmaq olmaz ki, misra Cəlaləddin Ruminin, Qasim Ənvarın, Fəzlullah Nəiminin yox, Muhəmməd Füzulinin qələmindən çıxmışdır.

Misranı ənənəvi islami bilgilər işığında gözdən keçirməkdən ötrü öncə "Həqq" sözü, sonra "Sürəti - Həqq" tərkibi, daha sonra isə" ayinədari – sürəti – Həqq" ifadəsi ayrıca araşdırılmalıdır.

Klassik ədəbiyyatda ən müxtəlif mövzu, məzmun və məfkurə keyfiyyətləri qazanmış "haqq" sözü orta əsrlər müsəlman mədəniyyətinin ən tutumlu deyimləri sırasındadır. Sözün Qurani-Kərimdəki işlənmə məqamlarına göz gəzdirsək, bu barədə aydın anlayış əldə etmiş olarıq.

"Haqq" sözü lüğəvi baxımından "inkarı məsləhət görünməyən, aksioma", "doğru, doğruluq", "ədalət", "hikmət, hikmətə müvafiq surətdə verilmiş hökm", "vacib" (vəzifə), "lazım", "ahəng, uyğunluq", "pay, hiss\", "xislət", "qismət", "mövcudluq" deməkdir. Söz Qurani – Kərimin 221 – ci ayəsində müxtəlif anlamlarda işlənmişdir; məs.: Quran (Yunus, 32),

peyğəmbərlik (Qəsas, 48), İslam (Bəqərə, 109), ədalət (Nisa, 170), tövhid (Əraf, 89), doğru, gerçək (Qəsas, 75), lazımlılıq (Yunus, 4), ehtiyac (Əhqaf, 18), mal (Hud, 79), nəsib (Bəqərə, 282), bəyan (Əraf, 24 – 25), zəkat (Bəqərə, 71), sədəqə (Ənam, 141), lazım olduğu kimi (İsra, 26), vəhy (Bəqərə, 121), əzab (Ənfal, 5), günah (Hicr, 64), batilin ziddi (İsra, 81), doğru xəbər (Ali – İmran, 60), Kəbənin qiblə elan edilməsi (Bəqərə, 247) (bax: Daməğani. Qamusu – l – Quran, Beyrut, 1976, səh. 139 – 141. İsmail Qaragöz. Qurana görə insana verilən dəyər və görəv, İstanbul, 1996, səh. 257 – 258).

Doğrudur, bu anlamların çoxu bu və ya başqa ölçüdə Əli (ə) ilə bağlanıla bilər. Ancaq özlüyündə bəllidir ki, bu anlamların hər birinin başlanğıc yeri olan "Allah" mənası daha önəmlidir. Odur ki, Füzuli də misrada "Həqq" sözünü bu mənada işlətmişdir.

"Surət" sözünün "Surəti - Həqq" izafətindəki çəkisinə gəldikdə isə ilk növbədə diqqəti bu çəkir ki, həmin söz burada Qurani - Kərimdə yalnız Allah haqqında işlədilən "vəch" sözünün ekvivalenti kimi başa düşülür. "Vəch" isə "üz" deməkdir. Ancaq özlüyündə aydındır ki, Allah hər cür utilitar xüsusiyyətdən uzaq olduğundan el arasında deyildiyi kimi, "İsim və cisim, gövhər və cövhər" olmadığından müqəddəs mətnlərdə "vəch" heç vəchlə "üz" kimi işlənib qavranıla bilməz. Aşağıdakı ayələr bu baxımdan ən tutarlı dəlillər sırasında yer alır: "Və o kəslər ki, Rəbbinin razılığını (mətndə "vəch") qazanmaq üçün (bu yolda bütün əziyyətlərə) səbr edir, (vaxtlı - vaxtında, lazımınca) namaz qılır, onlara verdiyimiz ruzidən (yoxsullara, ehtiyacı olanlara) gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıq etməklə alırlar (pisliyin əvəzində yaxşılıq edirlər) - onları axirət yurdunun gözəl aqibəti - Özlərinin, həmçinin əməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn cənnətləri gözləyir..." (Rəd, 22 - 23).

Bu qeydlər "surət" sözünü misranın ümumin məzmunu içərisində "vəchullah" (ilahi razılıq, Allah rizası) şəklində başa düşməyə kifayət qədər əsas verməkdədir. Belədə, Füzulinin,

Həzrəti Əlini (ə) "ayinədari - surəti - Həqq" adlandırması nəinki ənənəvi islami müstəvidə, hətta təsəvvüfi - irfani yöndə belə,o yerinə düşür. Çünki bu zaman bu ulu din böyüyü ilahi qüdrət və hikmətin ən parlaq təzahürü və təcəllisi kimi cilvələnir. Həzrətin "Allahın məndən də böyük qüdrət və hikmət nişanəsi yoxdur" (Üsuli – Kafi, I cild, səh. 207) sözləri buna ən tutarlı dəlildir.

Digər tərəfdən, burada kamil insan məsələsi də bir xeyli qabarır. Çünki ilahiyyatşünaslıq elmi sübuta yetirir ki, "Nəhcül - bəlağə" də 104 yerdə ümumi anlayışlı kamil insandan (rəsul, nəbi, vəsi, vəli) danışılır (bax: Ustad Əllamə Həsənzadə Amuli. İnsane - Kamel əz dideqahe - Nəhcol – Bəlağə, səh. 48).

Alimə görə, bunlar beş yerə ayrıla bilər:

1. Kamil insan, süfəra (Tanrı elçiləri), hüccəc (Allahın dəlilləri).
2. Həzrət Muhəmmədin (s) səciyyələri.
3. Əhli beytinin özünəməxsusluqları.
4. Həzrəti Əlinin (ə) öz xüsusi mövqeyi
5. Bəzi ibarə və işarələrdən isə mənaların çıxarılması.

Alim birinci qismə aid olan müqəddəsatın bir neçə səciyyəsini göstərir; məs.: Əbdullah (Allah bəndəsi) və İndəllah (Tanrı qatına yüksəlmə), vəliyullah (vəhy gəlməyə və peyğəmbər vəlisi olmağa layiq qəlb), qotbe-aləme-emkan (mümkün varlıqların istinadgahı), "rasex dər elm" (ilahi mənşəli elmlərin dərkində yetkinlik), yünbiu-l-hekəm (ilahi və nəbəvi hikmət bulaqları), "suranəndeye-defaine-uqul" (ilahi mənşəli idrak dəfinələrinin tənzimləyicisi), "motəsərref dər kainat" (bütün dünyada mövcud olan əşyalara hakimkəsilmə bacarığı). Yer üzü, bu cür insanlardan heç vaxt boş qalmır.

Sonra alim Xacənin "İşarat"ın şərhindəki belə bir mülahizəsinə yer verir: "Aqil kəmali - Mütləqin abi - həyatını istisqa edəndir" (yüksək dərrakə sahibi qaçılmaz, labüd yetkinlik və bitkinliyin - Allahın bəxş etdiyi dirilik suyunu – Vəhyi var gücü

ilə və son damlasınadək içib qanına - canına hopdurandır). "Arif isə cəmale - Həqqin mütaliəsində məhvdir" (dünyanın get - gəlindən baş çıxaran – ictimai - siyasi, iqtisadi, mədəni, əxlaqi - fəlsəfi, ruhi - mənəvi, təbii - fiziki proseslərin hamısını istər ayrılıqda, istərsə də küll halında bütün aydınlığı və genişliyi ilə qavrayan kamil insan isə Allahın camal sifətlərinin dərkində hər şeydən keçəndir).

Daha sonra alim İshaqinin insanın uca məqamına dair mülahizəsini verib, ondan belə bir nəticə çıxarır: "Arif təkcə varlığın zahiri əlamətlərinə və batini mahiyyətinə bələd olmayıb, həm də varlıq üzərində tam qüvvə sahibi olmalıdır" (yenə orada, səh.76)

Alim bir qədər də irəli gedərək yazır ki, əgər arif öz yaratdığından qafil olsa, alan, yəni onu qoruyub saxlaya və inkişaf etdirib artıra bilməsə, məxluqun illəti (varlıqların yaranma səbəbi) aradan qalxdığından və arifin araya - ərsəyə gətirdiyi məhsul səbəbin məhvinə aparıb çıxarar, yəni, bütövlükdə insanlıq zərər çəkmiş olar. Bu o zaman olmaz ki, arif bütün "həzərat"a (üzdə olan təzahür amillərinə) hakim kəsilmiş nəzarət etmiş olsun. (yenə orada, səh. 77).

Alim "həzərat" dedikdə, ilk növbədə kamil insana məxsus beş halın göz önündə tutulduğunu göstərir:

1.Aləme - məane və əyane - sabitə (mənalar aləmi və sübuta yetirilmiş görümlü dəlillər).

2.Aləme - ərvah (bərzəxdəki ruhlar aləmi).

3.Aləme - mesal (hal - hazırda bizimlə birlikdə mövcud olmalarınabaxmayaraq, duyğu və hisslərimizlə dərk edə bilmədiyimiz varlıqlar).

4.Aləme - şəhadət (hal - hazırda duyub qavradığımız maddi aləm).

5.Bu amillərin hamısını özündə birləşdirən kamil insan. Bununla belə, alim "həzarat" ifadəsi altında başqa bir irfani dərkin

də başa düşülə biləcəyini göstərərək yazır ki, bu, ələviyyeyi - səmaviyyə (uca göylər) və sibliyyeyi - ərziyyədir (aşağı yerlər).

O belə davam edir: "Arif heç vaxt bu amillərin hamısından mütləq surətdə və eyni zamanda xəbərsiz qala bilməz.

O, nəyin bahasına olursa - olsun, bunların biri ilə gizli rabitədə, üzvi əlaqədə olacaq. Belə ki, arif "sifliyyə hüzurları"nın (aşağı yer faktorlarının) birinə çatdığı təqdirdə "ələviyyə"dəki (yuxarı göylərdəki faktorları) da qavramış olur, yaxud əksinə..." (yenə orada, səh.78). Bu, həmişə səbəbin nəticəni, nəticənin də səbəbi tələb etməsindən irəli gəlir.

Alimin zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyi bu yüksək kamillik keyfiyyətləri istər orta əsrlərdə, istərsə də müasir dövrdə mütəfəkkirləri həmişə dərindən düşündürmüş, onları bu və ya başqa mətləblər çevrəsində dəruni duyğu və düşüncələrini dilə gətirməyə sövq etmişdir. Məsələn, İbn Ərəbi bu yöndəki düşüncələrini belə dilə gətirir: "İnsan nəfsində Allahın və aləmin formaları birləşir. İlahi mahiyyət özünün bütün adları və sifətləri ilə yalnız insanda öz əksini tapır... Biz Allahı təsəvvür etmək imkanı yaradan sifətlərik. Bizim varlığımız onun varlığının təsdiqi deməkdir. Bizim varlığımız üçün Allah vacibdirsə, Onun mövcudluğu üçün də bizim bağlılığımız gərəkdir" (İslam ensiklopediyası, cüz 51, İstanbul, 1951, səh. 1003).

Çox xoşdur ki, buyüksək islami dəyərlər çevrəsindəki duyğu və düşüncə mübadiləsi bu gün də davam etməkdə, çağdaşlarımızın da ruhi - mənəvi tələbatını ödəməkdədir. Məs.: "Kamil insan İlahi, sifətlərin aynası, Haqqın kamil surətidir. İlahi - təcəlli, ilk növbədə kamil insanda öz təzahürünü tapır. Kamil insan – "mən"ini yox etmiş, içində yalnız Allahın yaşadığı, Allahın sözlərilə danışan, Allahın lazım bildiyi əməli icra edən bir Tanrı rəhmətidir. Kamil insanın kəlamı Allah kəlamıdır ki, biz eşidirik" (doktor Təqi Pürnandar. Dastani – peyğəmbəran, Tehran, h. ş. 1369, səh. 294).

Bəs kamillik nədir? "Kamalə" kökündən gələn sözlərin başlıca məna - məzmun dairəsini belə ifadə etmək olar: "tamlıq", hər işi yerli – yerində görmək, bir kimsənin bütün cəhətlərinin yerində olması,tamamlamaq (Maidə, 3), bir şeyin yetkinləşib kamillik həddinə çatması, "əlavə, tamamlayıcı", "mütləq", "kamil şəxsiyyət", "bədən üzvləri mükəmməl olan şəxs", "bütün".

Quranı Kərimə görə, hər bir kimsə duyğu və düşüncələrindən tutmuş danışıq və dolanışığadək ömrünün hər bir anını ilahi sınaq bilməlidir. Aşağıdakı ayələr bunun ən tutarlı dəlillərindəndir: "Ərşi su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağını sınayıb bilmək üçün göyləri və yeri altı gündə yaradan Odur. (Ya Peyğəmbərim!) Əgər desən ki: "Siz öləndən sonra, həqiqətən diriləcəksiniz!" -kafir olanlar: "Bu açıq - aşkar sehrdən (yalandan) başqa bir şey deyildir! - deyə cavab verərlər" (Hud, 7), "Biz yer üzündə olanları onun (sakinləri) üçün bər - bəzək yaratdıq ki, onlardan hansının daha gözəl əməl sahibi olduğunu yoxlayıb ayırd edək" (Kəhf, 7), "Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, çox bağışlayandır" (Mülk, 2). Yenə də Qurani - Kərimə görə, hər bir kimsə Allahın xəlifəsi nümayəndəsi olaraq yaradıldığını bir an belə unutmamalıdır. Aşağıdakı ayələr bu gerçəkliyin parlaq əksidir: "(Ey insanlar!) Verdiyi nemətlərlə sınamaq üçün sizi yer üzünün varisləri təyin edən, dərəcələrə görə birinizi digərinizdən üstün edən Odur. (Ya Rəsulum!) Həqiqətən, Sənin Rəbbin (kafirlərə, müşriklərə, Onun birliyini inkar edənlərə) tezliklə cəza verən və şübhəsiz ki, (möminləri) bağışlayan və rəhm edəndir!" (Ənam, 165), "Sizdən əvvəl neçə - neçə nəsilləri (ümmətləri) peyğəmbərləri aşkar möcüzələrlə gəldikləri halda, onlara zülm etdikləri və iman gətirmədikləri zaman məhv etdik. Biz günahkarları belə cəzalandırırıq. Onların ardınca yer üzünün varisləri sizi təyin etdik ki, görək özünüzü necə aparacaqsınız" (Yunus 13 – 14).

Nəsrəddin Tusi "Əxlaqi - nasiri" də kamil insan nümunəsinin orta əsr daşıyıcısında görmək istədiyi keyfiyyətləri belə sadalayır: "...Xeyirxah insanlarda on cür müsbət əxlaqi sifət olmalıdır: əvvəla, yalançı olmamalıdır; ikincisi, insaflı olmalıdır; üçüncüsü, eyib axtarmamalıdır; dördüncüsü xalqın (başqalarının) günahından keçməyi bacarmalıdır; beşincisi üzrxahlığı bacarmalıdır; altıncısı, əziyyətə dözməyi bacarmalıdır; yeddincisi özünü tənbeh etməyi bacarmalıdır; səkkizincisi, öz eybini başqasının eybindən tez görməlidir; doqquzuncusu, özünü çox təriflməməlidir özü haqqında yüksək fikirdə olmamalıdır" (Ağayar Şükürov. Şərq fəlsəfəsi və filosofları, Bakı, 2005, səh.461 ).

Beytin ikinci misrasında Füzuli Həzrət Əlinin(ə) yalnız vəsi olmaqla qalmayıb, Həzrət Muhəmmədin (s) yeganə varisi olduğunu tərənnüm edir. Beytin fikri axarını və bədii tutumunu müəyyənləşdirməkdən ötrü şairin öyülənə aid etdiyi hər iki keyfiyyətin üzərində ayrıca dayanmaq qaçılmazdır.

"Vasiyə" köklü sözlər, əsasən, aşağıdakı anlamlara gəlir: "ağa", "ağa ikən düşkün vəziyyətə düşmək ", "yüngülkən ağırlaşmaq", "sıx bitkili yer", "vəsi təyin etmək, əmanət etmək öhdəsinə götürmək, vəsiyyət etmək", "vəsiyyəti qəbul etmək", "Başqa bir çölə bitişən çöl", "sifariş", "boxça və s. ilə bağlanılan xurma budaqları".

Bu lüğəvi anlamlardan çıxış etməklə "vəsi" sözünün istilahi məna – məzmun tutumuna bir açıqlama vermək olar. Məsələn, sözün "vəsi təyin etmək, əmanət etmək, öhdəsinə götürmək" anlamları bilavasitə Həzrət Əlini (ə) Həzrət Muhəmmədin (s) yeganə səlahiyyətli nümayəndəsi olaraq qəbul etməyə imkan verir. Həzrət Muhəmmədin (ə) dilindən söylənilən hədislərdə sözün bu yöndə işlənməsi isə Həzrəti Əli (ə) ilə bağlı vəsilik məfhumuna bir qədər də aydınlıq gətirir: "Bu mənim qardaşım, sizin aranızda vəsim vəxəlifəmdir, odur ki, Ona qulaq asın və itaət edin!" (Tarixi – Təbəri, cild II, səh. 319. Təfsiri – Təbəri, cild XIX, səh.74).

Yaxud: “Bütün peyğəmbərlərin vəsisi və varisi var, Əli də mənim vəsim və varisimdir” (Tarixi – ibn Əsakir, cild III, səh.5).

Göründüyü kimi, hər iki hədisdə “vəsi” sözü sırf istilahi mənada və bilavasitə Həzrət Əli (ə)haqqında işlənmişdir, hədislərin yer aldığı qaynaqların bütün məzhəblərdə məqbul sayılması isə onların mötəbərliyini bir az da artırmış olur.

Ancaq bunların hamısı zahiri əlamətlərdir. Dini mətnlərin dərin qatlarına vardıqda vəsilik məfhumununsonuncu Peyğəmbərlə ilk İmamın münasibətləri zəminində daha köklü və daha dəqiq keyfiyyətlər aldığı ortaya çıxır. Məsələn, Rəsulullah başqa bir inci sözündə Həzrət Əli (ə) ilə bağlıvəsiləyə dair daha qəti hökm verərək buyurur: “Əli məndəndir və mən Əlidənəm. Odur ki, mənim adımdan özümdən və Əlidən başqası danışa bilməz!” (Səhihi – Buxari, cild V, səh. 43. Səhihi Tirmizi, cild II, səh. 298).

Hər şeydən öncə diqqəti bu çəkir ki, mətndə Həzrət Əlinin (ə) adı üç dəfə çəkilir: “Aliyyun minni va ənnə min Aliyyin. Va lə yuəddi anni illə ənə au Aliyy”.

Nisbətən zahiri cəhət olmasına baxmayaraq, bunun özü çox söz deyir. Məsələn, bu fakta söykənərək düşünmək olar ki, Rəsulullah Həzrət Əlinin (ə) adını dəfələrlə dilə gətirməklə gələcəkdə baş verəcəyini qabaqcadan bildiyi təhlükələrin miqyas genişliyinə və ictimai eybəcərliyinə işarə etmişdir. Cəmisi dörd il doqquz ay çəkmiş xilafəti zamanı daxili irticanın üç müharibə törətməsi əslində olduqca böyük təhlükə idi. Özü də bu təhlükəni törədib fitnə - fəsada rəvac verənlərin arasında, çox – çox təəssüflər olsun ki, bir zamanlar Həzrəti – Muhəmmədin (s) sevimlisi olmuş şəxslər də az deyildi. Bu barədə aydın anlayış əldə etməkdən ötrü Abdullah ibn Abbasın xəvaricilərlə ( var gücü ilə Həzrət Əliyə (ə) qarşı çıxan irticaçı dəstə ilə) apardığı kəskin və kəsərli bəhsə diqqət yetirmək kifayətdir:

“...Abdullah ibn Abbas belə nəql edir: “Həruriyyə (Siffeyn

döyüşündə Əliyə qarşı) çıxdıqdan sonra ayrılıb evlərinə getdilər. Onlar altı min nəfər idilər. (Döyüş günü yetişdikdə) mən Əliyə - Allah ondan razı olsun! – dedim: "Ey, Əmirəlmömininin! Günortaya kimi gözlə. Bəlkə mən o camaatın yanına gedib onlar (başçıları) ilə söhbət edim". (Əli) dedi: "Mən sənin üçün onların sənə bir xətər yetirmələrindən qorxuram". Mən dedim: "Heç narahat olma". Nəhayət, mən yola düşdüm. Günorta vaxtı onların yanına çatdım. Onlar istirahət edirdilər. Mən onlara salam verdim. Onlar dedilər: "Xoş gördük, ey ibin Abbas! Gəlişinin səbəbi nədir?" Mən onlara dedim: "Sizin yanınıza peyğəmbərin səhabələri və kürəkəninin (Əlinin) yanından gəlmişəm. (Hamınıza yaxşı məlumdur ki,) Quran yalnız onlara (Peyğəmbər və onun Əhli – beytinə) nazil olmuşdur və onlar Quranın izahını sizdən daha yaxşı bilirlər. Odur ki, içərinizdə heç kəs onlarla bərabər tutula bilməz. Mən sizə onların söylədiklərini çatdırım, siz də mənə (onlar barədə) nə demək istədiyinizi söyləyin. Deyin görüm, Allahın peyğəmbərinin səhabələrini və onun əmisi oğlunu (Əlini) nədə ittiham edirsiniz?" Onlar dedilər: "üç şeydə". Mən dedim: "O (üç şey) nədir?" Onlar dedilər: "Birincisi odur ki, Allahın hökmü qarşısında insanların hökm etməsi küfrdür. Allah – Təala buyurmuşdur: "Hökm (əmr vermək) ancaq Allaha aiddir". (Elə isə) insanlar hansı səlahiyyətlə hökm edirlər?" Mən dedim: "Bu biri". Onlar dedilər: İkincisinə gəlincə, o, (Əli Cəməl döyüşündə) Aişə və onun silahdaşları ilə vuruşdu, (onları məğlub etdi), lakin onlardan nə əsir götürdü, nə də qənimət. Əgər onlar kafir idilərsə, onda hər şeylərini əllərindən almalı, əgər mömin idilərsə, onda onlarla vuruşmağı halal etməməli idi. Mən dedim: "Bu – ikincisi. Bəs üçüncüsü nədir?" Onlar dedilər: "O, (Siffeyn müharibəsində imzalanan müqavilədə) öz adından Əmirəlmöminin sözünü sildi. Deməli, o, kafirlərin əmiridir". Mən dedim: "Sizin bundan başqa, (söyləmək istədiyiniz) bir şey var?" Onlar dedilər: "(Xeyr), bu bizə kifayət edər". Mən dedim: "Bir, deyin görüm, əgər sizə Allahın

kitabı və Peyğəmbərin sünnəsindən (ittihamlarınızın) əsassız olduğunu isbat edən (dəlillər) gətirsəm, onda razı qalacaqsınız?" Onlar dedilər: "Bəli". Mən dedim: "Allahın hökmü qarşısında insanların hökm etməsi (doğru deyil)", - itdihamınıza gəlincə, sizə Allahın kitabından bir dirhəmin dörddə bir hissəsinin səkkizdə biri (dəyərində olan kiçik kəffarə) barəsində Allahın öz hökmünü insanlara həvalə edib özlərinin hökm çıxarmaları barədə əmr etməsini dəlil gətirirəm. (Belə ki,) Allah – Təala buyurmuşdur: "Ey iman gətirənlər! Ehramda olarkən ovu (bəziləri istisna olmaqla, əti yeyilən və yeyilməyən heyvanları) öldürməyin. Sizdən ovu öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür. Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə öldürdüyü (heyvana) bənzər (onun qiymətinə bənzər (onun qiymətinə bərabər) bir heyvan qurban etmək, kəffarəsi isə, gördüyü işin zərərini, acısını dadsın deyə (öldürdüyü heyvanın dəyəri müqabilində) yoxsulları yedirtmək, yaxud oruc tutmaqdır". Sizi and verirəm Allaha! (deyin görüm) insanların dovşan və ya buna bənzər hər hansı bir heyvanın ovu barədə hökm etmələri daha əhəmiyyətlidir, yoxsa qanları (canları) və aralarındakı münasibətləri düzəltmək barədə hökm etmələri? Hərçənd bilirsiniz ki, əgər Allah istəsəydi, insanlara həvalə etməyib özü hökm edərdi". Onlar dedilər: "Şübhəsiz ki, bu (insanlar barədə) hökm etmək heyvanlar barədə hökm etməkdən) daha əhəmiyyətlidir".

(Yaxud) bir qadın və əri barədə (sizə misal gətirim). Uca və qüdrətli Allah buyurmuşdur: "Əgərər -arvad arasında ixtilaf olmasından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər, qadının da adamlarından bir nəfər (münsif) vasitəçi təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu ikivasitəçi ər- arvadı) barışdırmaq istəsə, Allah da onların köməyi olar...!"

Sizi and verirəm Allaha! (Deyin görüm, məgər) insanların öz aralarındakı münasibətləri düzəltmək, qanlarını qorumaq barədə

hökm etmələri bir qadın, (ər - arvad) barədə hökm etmələrindən daha əhəmiyyətli deyil? Bu məsələni həll etdim? Onlar: "bəli", - dedilər.

Mən dedim: "(Əli) döyüşdü, ancaq nə (bir) əsir götürdü, nə qənimət" ittihamınıza gəldikdə isə, ananız Aişəni tanıyacaq, sonra onu başqası (özgə qadın) kimi özünüzə halal biləcəksiniz? Əgər başqası kimi onu özümüzə halal bilirik desəniz, onda küfr etmiş olarsınız. Yox, əgər o bizim də anamız deyil desəniz, onda yenə küfr etmiş olarsınız. Çünki Allah Təala belə buyurmuşdur: "Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Onun övrətləri möminlərin analarıdır". Bilin ki, siz iki zəlalət arasında vurnuxursunuz. Ona görə də (düşünün və) bundan özünüzə bir çıxış yolu tapın. Bu məsələni də həll etdim?" Onlar "bəli" dedilər.

"O (Əli) öz adından "Əmirəlmöminin" sözünü sildi" ittihamınıza gəldikdə isə mən sizə məmnun qaldığınız bir şəxsi (nümunə) gətirəcəyəm (ki, müsəlmanların mənafeyi naminə o da eynilə belə addım atmışdır). Şübhəsiz ki, siz peyğəmbərin Hüdeybiyyə günü müşriklərlə (sülh) imzalayıb Əliyə - Allah ondan razı olsun! – (belə) dediyini eşitmisiniz: "(Ey Əli) yaz! Bu, Allahın, peyğəmbərinin imzaladığı sülh müqaviləsidir". Müşriklər dedilər: Xeyr, and olsun Allaha ki, biz sənin Allahın peyğəmbəri olduğunu qəbul etsəydik, əlbəttə, sənə itaət edərdik. Odur ki, (Allahın peyğəmbəri deyil), Abdullahın oğlu Muhəmməd yaz!" Belə olduqda Allahın peyğəmbəri (sözünü) poz. Ey Allahım! Həqiqətən, Sən mənim Sənin peyğəmbərin olduğumu bilirsən. Ey Əli! Poz və (əvəzində) yaz ki, (bu), Abdullahın oğlu Muhəmmədin imzaladığı sülh müqaviləsidir". And olsun Allaha ki, Allahın peyğəmbəri Əlidən daha xeyirlidir (üstündür). Lakin buna baxmayaraq, o öz adını pozdu. Sözsüz ki, onun bunu (adını) pozması heç də onu Peyğəmbərlikdən kənarlaşdırmadı. Bu məsələni də həll etdim?" Onlar: "bəli" dedilər.

Bundan sonra iki min nəfər geri qayıtdı. O biriləri isə qiyam

etdilər və öz zəlalətləri içində qətlə yetirildilər. Onları Mühacir və Ənsarlar öldürdülər. (İmam Nisai. İmam Əli, Əmirəlmöminin Əli ibn Əbu Talib fəzilətlərinə dair hədislər, ərəb dilindən tərcümə edəni: Adil Hüseynov, Bakı, 2009, səh. 141 - 144 ).

İlk təfsirçilərindən sayılan İbn Abbasın Qurani - Kərimdən gətirdiyi tutarlı dəlillər, uzaq başı, iki min nəfərin vicdanını oyadıb, onların döyüşdən uzaqlaşmasına yol açır, minlərcə korazehin qaragüruhçu isə nəinki qılıncı yerə qoymur, hətta Həzrəti - Muhəmməddən (ə) sonra bəşəriyyətin ən kamil insanı olan Həzrəti - Əliyə (ə) qarşı döyüşə girişir. Həzrəti Əli (ə) isə ilk növbədə Qurani dəyərlərin qorunub saxlanılması və bütövlükdə bəşəriyyətə çatdırılması uğrunda mübarizə aparırdı. Aşağıdakı hədisdən aydın görünür ki, bu cəhət də Rəsulullahı dərindən narahat etmişdir.

Əbu Səid Xidri belə nəql edir: “Əyləşib Allahın Peyğəmbərini gözləyirdik. O, yanımıza gəldi, nəleyninin bağı qırılmışdı. Onu Əlinin - Allah ondan razı olsun - üstünə atıb dedi: “Sizin içərinizdə elə adam var ki, Quran nazil olduqda mən onun müdafiəsi uğrunda vuruşduğum kimi, o da Quranın (hər cür təhrifdən qorunub səhih) izah edilməsi uğrunda vuruşacaqdır”. Əbu Bəkr dedi: “(Həmin adam) mənəm? (Peyğəmbər:) :Xeyr: - deyə cavab verdi. (Sonra) Ömər dedi: “(Onda həmin adam) mənəm?” (Peyğəmbər ona da) “Xeyr” – deyə cavab verib dedi: “O, çarığı təmir edən kəsdir” (yenə orada, səh.115).

Bütün varlığını dərin və tükənməz Əli məhəbbəti çulğalamış Füzuli də yəqin elə buna görədir ki, öyülənin vəsilik məhəbbəti ilə kifayətlənməyib, onu “varisi - nəbi mütləq” (Həzrət Muhəmmədin (s) yeganə varisi) kimi səciyyələndirməyə daxili bir tələbat duyur.

Özlüyündə bəllidir ki, hüquq institutu həmişə müstəqilliyini qoruyub saxlamış bir sahə olmuşdur: Doğrudur, zahirən hər bir fəlsəfi məktəb özünəməxsus hüquq ölçülərini gətirdiyini iddia edir. Ancaq dərindən diqqət yetirdikdə aydın olur ki, onlar əslində

hüquqi qaydaları öz məhdud müddəalarına uyğunlaşdırmaqdan o tərəfə keçə bilməmişlər. Odur ki, şairində də sözü irs, miras, varislik bəhsinin üzərinə gətirməsi tamamilə təbii bir bədii gedişdir.

Digər tərəfdən yuxarıda vəsiliklə bağlı gözdən keçirdiyimiz hədislərdə Rəsulullah Əliyyən Vəliyullahı özünün varisi kimi də elan edirdi. Deməli, şair burada bu anlayışı təkcə hüquqi müstəvidə yox, sırf dini yöndə də əsərə gətirir. "Mütləq" sözünü öyülənin peyğəmbərlik missiyasına da təyin olaraq işlətməsi, Fizulinin, bu barədəki qətiyyətini göstərməklə yanaşı, məsələnin sırf dini müstəvidə möhkəmliyindən də soraq verir. Allahın Peyğəmbəri yalnız Həzrəti - Əlinin(ə) əzəli - əbədi,dini dünyəvi rəhbərliyindən danışdığı zaman qeyri - adi surətdə danlaması (Maidə, 67) buna ən tutarlı dəlildir: "Ya peyğəmbər! Rəbbin tərəfindən sənə endirilmiş dini (Quranı) təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!" (Maidə, 67).

Ən nəhayət, parçanın ən son beytini gözdən keçirək:

***Nazimi – şərü saqiyi – kövsər!***
***Babi – Şübbeyrü validi – Şəbbər!***

**Anlamı:** *O, şəriətin nizamlayıcısı - Peyğəmbərin qoyub getdiyi şəri hökmlərin tarazlayıcısı (və bu yüksək keyfiyyətinə görə) cənnətdəki Kövsər bulağının saqisidir. O, bunlardan başqa, imam Həsən qapısı və imam Hüseyn atasıdır.*

Şəriət anlayışı, adətən, Həzrəti – Muhəmmədlə (s) bağlı bəhs mövzusu sayılır. Bəs görəsən, hansı amil Füzulini bu anlayışı Həzrət Əli (ə) ilə əlaqələndirməyə sövq etmişdir?

Şəriət anlayışı Qurani - Kərimdə açıq şəkildə iki yerdə

işlənmişdir: "Ailə şəriətin" təbiri ilə "Casiyə"surəsinin 18 - ci ayəsində (sonra səni də dində şəriət sahibi etdik. Sən ona tabe ol və (haqqı) bilməyənlərin nəfslərindən gələn istəklərə uyma!) "Şirəti" təbiri ilə də"Maidə" surəsinin 48-ci ayəsində (...Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik).

Şəriət anlayışının müsəlman mədəniyyəti zəminində kəsb etdiyi əxlaqi – fəlsəfi və ruhi – mənəvi zənginliklərə dair azacıq da olsa təsəvvür oyatmaqdan ötrü kütləvi təvsirlərin birindən məfhumla bağlı xülasəyə göz gəzdirək: "...ərəbcədə şəriət insanların irmaqlardan və buna bənzər yerlərdən su gətirmək üçün getdikləri yerdir. Din şəriəti də bu anlamdadır. Çünki insanlar onun vasitəsilə Allahın əmrlərinə, rəhmətinə və yaxınlığına qovuşurlar.

Raqib isə belə demişdir ki, "şər" əslində məsdərdir, sonra açıq və geniş yolu özündə birləşdirən bu kəlmə "şira" və "şəriət" şəklini alaraq dindəilahi yol üçün istiarə (bənzətmə) kimi işlədilmişdir.

Bəziləri dini qayda - qanunlara "şəriət" deyilməsinin su yolu üzərində qurulan bir bənzətmədən irəli gəldiyini söyləmişlər. Belə ki, bu yolda həqiqət və doğruluq üzrə gedən şəxs həm doyar, həm də təmizlənər. "Doymaq"dan məqsəd bir çox filosofların "içərdim, ancaq doymazdım, Allahı tanıdığım zaman isə içmədən dədoydum" şəklindəki səciyyələndirməsidir. "Təmizlənmək"dən məqsəd isə "evlərinizdə vüqarla oturun (yəni, evlərinizi şəriətin, şəri hökmlərin alınmaz qalasına çevirin). İlkin cahiliyyət dövründəki kimi açıq - saçıq olmayın. Namaz qılın, zəkat verin, Allaha və Rəsuluna itaət edin. Siz ey (peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istər! (Əhzab, 33)ayəsindəki mənadır Elmalılı Həmdi Yazır. Haqq dini Quran dili, 9 cilddə, VI cild, Ankara 1995, səh. 416).

Göründüyü kimi, Füzuli belə tutumlu anlayışa qarşı biganə qalıb, onu çevik və işlək bir motivə çevirməyəbilməzdi. Bu sənətə,

Füzuli baxışına yad olardı.

Digər tərəfdən, tarixi bilgilər danılmaz biçimdə göstərir ki, Həzrəti -Muhəmməddən (s) sonra müsəlman hüququnun tənzimlənməsi işində ən böyük əmək sərf etmiş ikinci şəxs məhz Həzrət Əlidir (ə). İkinci xülafayi – raşidin Ömər ibn Xəttabın “mən Əbu – l – Həsənin (Həzrəti Əlinin) həllində aciz qalacağı bir içdən Allaha sığınıram” sözü bunun rəqib dili ilə etiraf olunmuş ən tutarlı dəlilləri sırasında ön cərgədə durur.

İlk üç xəlifənin dövründəki nisbi sakitlikdən bacardıqca çox faydalanan Həzrəti - Əli (ə) Qurani-Kərimin tərtibi, qiraəti, təfsiri və çoxaldılıb yayılması kimi ən mühüm işlərlə məşğul olmuşdur. Çoxsaylı faktlar“Nazimi - Şər” (şəriət tənzimləyicisi) ifadəsində Füzulinin çox dəqiq olduğunu sübuta yetirir.

“Saqiyi - Kövsər” ifadəsi haqqında danışmışdıq. İndiki halda yalnız belə bir cəhətin üzərində dayanmağın yeri vardır ki, həmin ifadə xırda bir parçada bununlaikinci kərə işlədilir. Əlbəttə, bunu söz kasadlığı ilə bağlamaq olmaz. Zənnimcə, bu ya katib səhvidir, ya da burada şairin indi bilə bilmədiyimiz xüsusi ədəbi məqsədi olmuşdur.

Beytin ikinci misrası istər linqvistik, istər tarixi, istərsə də dini baxımdan ayrıca araşdırma tələb edəcək qədər geniş bilgilərə malikdir.

Hər şeydən öncə bunu deyək ki, misrada Həzrət Əli (ə) ilə bağlı nət və mənqəbətlərdə nadir hallarda rastlaşılan Həsəneyn motivi qabarıq biçimdə öz əksini tapmışdır.

“Həsəneyn” ərəb dilində “təsniyyə” adlanan xüsusi ikilik formasında olub, Həzrət Əlinin (ə) özündən sonra sıra iləimamlıq etmiş və şiələrin ikinci və üçüncü imamları olmuş Həsən və Hüseyn adlı iki oğlunun vahid bir leksem vasitəsi ilə ifadə edilməsi üçün yaradılmış islami və ədəbi bir istilahdır.

İstilahın islami əsasları möhkəmdir. Bu əsaslardan biri imamlar arasında mexaniki fərq qoyulmasının qadağan edil-

məsidir. Doğrudur, on iki imamın tarixi, fəaliyyət və mübarizəsi araşdırılarkən onların fərdi iradi keyfiyyətlərinin üzərindən sükutla keçilmir. Ancaq bu, heç kimə onları bir - birinə qarşı qoymağa, haqq vermir və belə hallar ilahiyyatşünaslıqda məqbul hesab edilmir.

Digər tərəfdən, unutmaq olmaz ki, hər iki imam bilavasitə Həzrət Əlinin (ə) şəxsi nəzarəti altında böyüyüb boya başa çatmış, xilafəti zamanı apardığı hərtərəfli siyasi və hərbi quruculuq işlərində fəal iştirak etmişdir. Aşağıdakı parça Füzulinin bu qoşalığı - Həsəneyn motivinin mahiyyətindən irəli gələn bölünməz bütövlüyü necə ürəklə qələmə almasını göstərir:

***Qandadır böylə bir şərəfli nəsəb,***
***Mədəni - fəzlü izzü elmü ədəb.*** [40]

**Anlamı:***Fəzilət, izzət, elm və ədəbin qaynağı olan belə bir şərəfli nəsli haradan tapmaq olar?.*

***Sifəti - həzrəti - Hüseynü Həsən,***
***Cümleyi – kainatədir rövşən.***

**Anlamı:** *Həsəneynin məziyyətləri bütün kainata bəllidir.*

***Ol biri nəqdi – paki – Mustəfəvi,***
***Bu biri nuri – çeşmi – Murtuzəvi.***

**Anlamı:** *Onların biri seçilmiş sonuncu Peyğəmbərin pak canının nəqdi, o biri isə Allahın razı qaldığı Həzrəti - Əlinin gözünün nurudur.*

***Ol biri bədri – asimani – kəmal,***
***Bu biri sərvi – cuybari – cəmal.***

**Anlamı:** *Onların biri yetkinlik səmasının bədirlənmiş ayı, o biri isə gözəllik arxının qırağında bitmiş sərv ağacıdır.*

---

[40]Füzuli, Hədiqətüs süəda, Bakı, 1993, səh 149.

***Ol biri afitabi – övci – yəqin,***
***Bu biri gülbini – hədiqeyi – din.***

**Anlamı:** *Onların biri dində çatılan yəqinlik zirvəsinin günəşi, o biri isə din bağçasının qızılgül ağacıdır.*

***Hər biridir hümayi – cilvənüma,***
***"Rəfəəllahu iqtidarə huma".***

**Anlamı:** *Onların hər ikisi din göylərində qanad çalan imamət göyərçinləridir, odur ki, Allah hər ikisinə daha artıq qüdrət versin.*

Göründüyü kimi, şair burada hər iki imamı nəinki Həzrəti - Əlinin (ə), hətta HəzrətMuhəmmədin (s) ardıcılı olaraq bədii qavrayışa təqdim edir ki, zənnimizcə, bu bir yandan dedikcə dəqiq olub, tarixi gerçəkliyin obyektiv inikasıdırsa, o biri yandan, Füzulinin bəzi təhrifçilərə verdiyi kəsərli və kəskin cavabdır.

Digər tərəfdən qeyd etmək lazımdır ki, belə çevik yanaşma biçimi Füzuli üslubu üçün səciyyəvidir. Məsələn, şair "Hədiqətüs - süəda" da İmam Hüseynin (ə) dilindən verdiyi rəcəzdə bu cəhəti önə çəkmiş, imamət silsiləsini mahiyyətcə peyğəmbərlikdən ayrılmaz, qopmaz olmasını xüsusi surətdə nəzərə çarpdırmışdır:

***Ol mənəm kim, cəddi – pakimdir çirağı - ənbiya!***
***Afitabi – övci – himmət, sərvi – baği – istifa!***

Həsəneyn (ə) motivinin parçadakı ədəbi mahiyyətinə gəldikdə isə, hər şeydən öncə göstərmək gərəkdir ki, bu islami - tarixi faktın buradakı təqdimi ilk növbədə özünün linqvistik orijinalı ilə seçilir. Ancaq bunun özü də imamət – nübuvvət bağlılığının bədii dərkindən doğmuşdur.

Oradan başlayaq ki, el arasında belə bir ənənəvi mülahizə özünə möhkəm yer etmişdir ki, "şübbeyr" və "şəbbər" imam

Həsənlə (ə) İmam Hüseyinin (ə) Tövratdakı ləqəbləridir. Bu təsəvvürə görə, hər iki söz Harun peyğəmbərin iki oğlunun adıdır. Bu təsəvvürün möhkəmlənməsində yuxarıda haqqında danışdığımız məşhur bir hədisdə Həzrət Muhəmmədin (s) özünü Musaya, Həzrət Əlini (ə) isə Haruna bənzətməsi dayanır.

Misranın məzmunundan aydın görünür ki, Füzuli Həzrət Əlini(ə) imam Həsənin (ə) "qapı"sı, imam Hüseyinin (ə) isə "ata"sı olaraq səciyyələndirir. Füzulinin son dərəcə səliqəli, gördüyü işə qarşı tələbkar bir sənətkar olmasını nəzərə aldıqda "digər asimani kitablarda (Tövratda) onun adı İlya və Sintya yazılıb" (Hacı Soltan Hüseyinqulu oğlu Əlizadə. Həzrəti Əli kimdir? Bakı, 2004, səh. 56) şəklindəki açıqlamaya biganə qalmaq olmaz. Zənnimizcə, o Həzrəti - Əlinin (ə) və övladlarının ləqəblərindəki qoşalıq təsadüfi olmaya da bilər. Elə isə "Şübbeyr"in, "İlya"nın, "Şəbbər"in də "Sintiya"nın qarşılığı olmasına dair hipotez irəli sürülə bilər. Belədə, "bab" (qapı) və "valid" (ata) səciyyələndirmələri də bu yaxud digər dərəcədə konkretləşib, əsatiri və mistik məzmun qazanacaqdır. Şairləri isə bu məzmunun nədən ibarət olmasından çox onun nə kimi ədəbi məqsədlərin və bədii incəliklərin daşıyıcısına çevrilmə imkanları maraqlandırır.

Beləliklə, aydın olur ki, həcmcə kiçik olmasına baxmayaraq, "bəngü - badə"nin Həzrəti - Əli soraqlı bölümü Füzuli irsindəki bu qəbilli başqa örnəklərdə görmədiyimiz motivlərlə (məs.: Qənbər, "babi – Şubbeyr" və s.) zəngin olub, islami - tarixi reallıqların orijinal bədii ifadəsi ilə seçilir. Füzuli bu hissəni hər şeydən öncə, bir - birinə yersiz qılınc qaldırmaqla din düşmənlərini sevindirən Şah İsmayılla Sultan Səlimə müsəlmanların həsrətini çəkdikləri ədalətli Əli hakimiyyətini xatırladıb, onları bu hakimiyyətin insaflı idarə üsulundan ibrət götürməyə, dərs almağa çağırmaq üçün yazmışdır.

Bu fəsli əziz dostum Axund Hacı Soltanın Həzrət Salmana(ə) ithaf etdiyi bir şeirlə bitirirəm:

*Peyğəmbər beytinə sayıldı məhrəm,*
*Mömünlər vüqarı Həzrəti Salman.*
*Rəsuli Əkrəməlayiqli həmdəm,*
*Aşiqlər şüarı Həzrəti Salman.*

*Yetişdi Soltanın sözünün sonu,*
*Təqvadan geyibdir libası, donu,*
*Birneçəmisradayadetdionu,*
*KönlününqərarıHəzrətiSalman.*

## YEDDİ ULU OZAN KİMDİR?
## ƏLƏVİLİKDƏKİ YERİ NƏDİR?

Ən önəmlisi Yeddilərdir. Yeddilər olmazsaQırxlar olmaz. Yeddilər
Dünyaya aid olan dördlük ilə insana aid olan üçlükdən meydana gəlmişdir. Dünyaya aid olan dördlük od, külək, su və torpaqdır. İnsana aid olan üçlük isə can, canan və çobandır. Çoban uşaqdır yəni gələcək deməkdir. Can kişi, canan isə qadındır. Can və canan bir köynəyə girərlər və bir olarlar. Bu birləşmədən çobanyəni uşaq olur. Çoban olmazsa nəsil artmaz soy sürməz və nəticədə gələcək formalaşmaz.

Yeddi Ulu Ozan; müxtəlif tarixi dönəmlərdə yaşamış, Ələvilik daxil olmaqla Ali Əbanı ədəbi olaraq ən yaxşı ifadə edən yeddi kişidən ibarət olan ozanlardır. Bu Ulu ozanlar Ələviliyi anlamaq və Ələviliyi tanıtımaq baxımından Ələviliyin əsas ünvanlarıdır. Ələviliyin yazılı qaynaqlarının tarixi zaman sürəcində önəmli ölçüdə təhrif olunduğu və önəmli ölçüdə şifahi qaynaqlara dayanaraq yaşadığı düşünüldüyünə görə bu durum daha çox önəm kəsb edir.

Yeddi Ulu ozanın adları aşağdakılardır;

**Seyid İmadəddin Nəsimi**
**Şah İsmayıl Xətai**
**Füzuli**
**Yəmini**
**Virani**
**Pir Sultan Abdal**
**Qul Himmət**

## YEDDİ ULU OZANIN HƏYATLARINA QISACA NƏZƏR SALAQ

**SEYİD İMADƏDDİN NƏSİMİ (1369 – 1417):** Bağdadın Nəsim qəsəbəsində doğulub, Diyarbəkir bölgəsində yerləşən Türkmənlərdəndir. Hələbdə Həllaci Mansurun düşüncələrinin xələfi, əqidədaşı olduğu üçün kafir sayılıb dərisi soyularaq öldürülmüşdür.

Həmçinin Nəsimi, Fazlullah Hürufinin görüşlərini mənimsədiyinə görə Hürufi sayılır. Beləki, bu görüşlər sırasında varlıq birliyi görüşünü müdafiə edən, insan ilə tanrı arasında bir özəllik yaradan inancın bağlantı qurmasını görüşünü, Tanrının mənəvi baxımdan yetgin (Kamil) insanda təcəlla etməsi görüşünü mənimsəmişdir.

Seyid Nəsiminin əsərləri əsasən Azərbaycanca və Farsca divanlardır.

Seyid Nəsiminin öldürülməsinə dair rəvayətə görə Seyid Nəsimi dərisi soyulduqdan sonra öldüyü zənn edilsədə amma dərisini əlinə alıb gedərkən, Hələb şəhərinin 12 qapısından eyni anda çıxdığı şahidlər tərəfindən görülmüşdür. Beləki, Hələb şəhərindən çıxdıqdan sonra yolda bir yolçuya əlində soyulmuş dərisini göstərərək “Gerçək Kəbənin yolçusuyuq ehramımız budur” dediyi beyti məşhurdur.

**ŞAH İSMAYIL XƏTAİ (1487 – 1524):** Yeddi Ulu ozanlardan olan Şah İsmayıl Xətai; 1487 ci ildə cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Anadoludakı Ələvi cəmlərində kəlamları ən çox oxunan ulu ozanlardandır. Babası Şeyx Heydər, anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah Həlimə Bəgüm Sultandır.

Osmanlı Padşahı Yavuz Sultan Səlimlə 19 Mart 1514 cü ildə həyata keçən Çaldırandaki döyüşdə məğlub oldu. Bu onun üçün sonun başlanğıcı oldu. Beləki 1524 cü ildə 37 yaşında olarkən Ruhunu Azərbaycanda Haqqa təslim etdi. Cənazəsi Ərdəbilə götürülərək, dədəsi Şeyx Səfiyyəddinin türbəsi yanında torpağa tapşırıldı.

Şah Xətai çox yaxşı bir təhsil və tərbiyyə almışdır. Hz. Əli və Hacı Bektaş Vəli barəsində bir çox gözəl kəlamları yazmışdır.

**MƏHƏMMƏD FÜZULİ (1504 – 1556 ):** Əsl adı Muhəmmədolan Füzuli; 1504 cü ildə Kərkükdə doğulub. Muhəmməd Füzulinin soy kökü Kərkükdə Bayat Türkmən boyunun Qaryağdı soyundandır.

Şeirlərini həm Azərbaycan türkcəsində, həm Ərəbcə, həm də Farsca yazan Füzulinin ən məşhur əsərləri Azərbaycan türkcəsində yazılmış olan əsərləridir. Füzuli yalnız Azərbaycan və Fars ədəbiyyatında deyil, dünya klassikləri arasında da önəmli bir yer almış ozandır.

Gözəl könül sahibi olan Füzuli; ömür yaşamı müddətində Kərbəla ve Bağdadçevrəsindən ayrılmamışdır. Bir müddət Əlinin(ə) türbəsində türbədarlıq (xadimik) etmişdir.

Füzulinin həyatı haqqda olan bir çox mənbələrdə Füzulinin ən böyük istəyinin Kərbəlada ölmək olduğu qeyd olunur. Beləki, Füzuli öz yaxınlarına Hz İmam Hüseynin türbəsinin yanında torpağa dəfn edilməsini ve məzarına daş qoyulmamasını vəsiyyət

etmiştir.Muhəmməd Füzuli vəba xəstəliyi nəticəsində vəfat edərək, canını Haqqa təslim etmiş və bunun üzərə vəsiyyəti yerinə yetirilmişdir.

Muhəmməd Füzulinin Hz İmam Hüseynə və Kərbəla şəhidlərinə olan sevgisi yaşadığı müddətində qələmə aldığı Kərbəla hadisəsini anladan “Hədiqətüs - Süəda” (Xoşbəxtlər Bağçası) əsəridir ki, ən önəmli əsərlərindən sayılır.

**YƏMİNİ (15-ci yüzilliyin sonu16-yüzilliyin əvvəlləri):** Yəmini 15-ci yüzilliyin sonu ilə 16-cı yüzilliyin ilk yarısında Tuna İrmağı bölgələrində yaşamışdır. Müxtəlif mənbələrdə əsl adının Əli olduğu bildirilir. Habelə Ağyazılı İbrahim Dədə olaraq xidmət etdiyi və özünə “Yəmini” təxəllüsünü götürdüyü qeyd olunur. Yəmininin Dəmir Baba Vilayətnaməsində adı “Hafiz Kəlam Yəmini” olaraq qeyd edilir. Bundan da Qurani Kərimi əzbər bildiyi aydın olur.

Əlinin(ə) mitolojik yaşamı müzakirə edilən Fəzilətnamə adlı kitabı isə 7300 beytdən ibarətdir. Qeyd edilən bu kitab bir fəzilət kitabıdır. Bu kitab, Əlinin(ə) yaşamının, Əhli-beyt və Əli sevgisiynən dolu işlənən əsas əsərlərindən biridir. Bu əsəri “Kitabi-Erdem” yəni ən yaxşı əxlaq kitabı olaraq qeyd edənlər, kitabdakı doğruluğu, dürüstlüyü, nəfsi təzkiyyəni, yaşam yolu və inanc yolu halına gətirməsindən dolayı Yəminiyə daha bir təşəkkürlərini vurğulayırlar.

**VİRANİ (16-cı yüzillik):** Doğum və ölüm tarixi bəlli olmayan Viraninin 16-cı yüzillikdə Eğriboz adasında doğulduğu bildirilir. Hürufiliyi mənimsəmiş bir Bektaşi ozanı olan Virani bir müddət Nəcəfdə Hz.Əlinin türbəsində türbədarlıq xidməti etmişdir.

Virani Balkanlarda Dəmir Babadan babalıq icazəsi almış və Əli(ə) sevgisini bildirən çox sayda şeir yazmışdır.

Bəzi tədqiqatçılar, yazılarında Viraninin əruz vəzni ilə 300-ə

yaxın şeir söylədiyini və böyük bir divan yaratdığını bildirirlər. Həmçinin Ozanın az çox dünya görüşü görmüş olduğunu bildirirlər.

Viraniyə görə, Kainatda və bütün mövcud varlıqlarda görünən Əlidir(ə).

**PİR SULTAN ABDAL (16-cı yüzillik)**

***Şimdibizimaramıza,***
***Yolaboyunverengelsin.***
***Şeriati, Tarikatı,***
***Hakikatıbilengelsin.***

Pir Sultan Abdalın 1500-ci illərdə doğulduğu təxmin edilir. Doğulduğu yeri isə öz şeirlərində, "Benim Aslım Horasan'dan Hoy'dandır" deyərək bildirir.

Əsil adı Həydər olan Pir Sultan Abdalın Türkiyyənin Sivas şəhərinin ulduz elinə bağlı Banaz Kəndindən olduğu söylənilir. Pir Sultanın yaşam şəkli Ələvi Bektaşi toplumuna mənsub qaynaqlara dayanır.

Pir Sultan Abdalın şeirlərindən isə Səfəvi Dövləti hökümdarı Şah İsmailin oğlu olan Şah Tahmasib zamanında yaşadığı məlum olur.

Pir Sultan Abdal, öz dönəminin ictimai sullarına cavablarını bildirmiş, bunları müzakirə etmiş, çıxış yolları axtarmış, habelə şeir sənətini də bu uğurla davam etdirmiş bir ozandır. Bu səbəblə xalqla, xalqın istəklərinə və suallarına cavablarını bildirməklə bir mürşid, el ağsaqqalı olmuşdur.

Pir Sultan Abdal, Osmanlı zulmünə qarşı Anadolu xalqının sıxılmış yumruğu hesab olunur. Çünki Pir Sultan Abdal haqsız gedişə "dur" deyən bir carçıdır.

*Pir Sultanım zatlarımız,*
*Gerçəkdir şöhrətlərimiz.*
*Haram yeməz itlərimiz,*
*Bu sözümdə yalan varmı?*

AnadoluBektaşılıyi (və sonradanyaranan Ələvilik) nisbətən yumşaq, barışcıl təriqət kimi öz axıcılığı ilə seçilirdi. Türk xalqtəsəvvüfünün ən nəhəngsimalarındanolan HünkarHacı Bektaş Vəli tərəfindən əsasıqoyulan və sonradan onunadıilə vücuda gələn bu sufi cərəyanı qeyri-aqressiv və tolerant bir təriqət olaraq, sanki öz sələfi olan Hürufiliyin faciəvi sonundan nəticə çıxarırmış kimi, rəvan və şairanə bir tərzdə bu gün də öz varlığını sürdürməkdədir. "Bütünbu ədəbiyyatda ehkamlaraqarşı çıxmağı, şəriətə uymamağı yaxşının və pisin, imanın və inancsızlığın eşqə və sonunda coşqunluq halına, yəni vəcd halına və sevilən varlıqla birliyə yetişmək istəyini görürük" (175). Hacı BektaşVəlinin məşhur"Məqalat"ında oxuyuruq: **"Ohəyatverən əzəli Tanrı müjdələmişdir ki:**

**– Eyqullarım! Arzunuzcənnətdirki, qoruyucusuRizvanadlımələkdir. OcənnətRizvanınqoruyuculuğuilə heç birzamanxarabolmaz, sağlamqalar. Bunun qarşılığında mərifətli könüllərin qoruyucusu mənəm. Şeytanın ona qarşı zəfər qazanması mümkünolarmı? Ziramərifətli könüllər mənim xəzinəm və nəzərgahımdır" (121, 54).**

Butəriqətin odövrdəki əksərnümayəndələri HürufilikdənBektaşiliyə təbdilolmuş insanlarolsada, onlardahaçoxŞah Xətaiyə və Qızılbaşlığameylliidilər. Gülağ Özyazır:"BütünAnadolu ərənlərində olan həm ərmiş, dədə, öndər, həm də kütləvihərəkatlarınliderləriolaraq qarşımıza gəlməkdədir. Anadoluərəni dediyimiz şəxslər demək olar ki, eyni özəllikləri daşımaqdadırlar" (78,267). Məsələn,PirSultanAbdalın şeirləri

dillərəzbəri olaraq, ƏləviBektaşi təkyələrinin bəzəyinə çevrilmişdir:

***Koyun beni Hakk aşkına yanayım,***
***Dönen dönsün ben dönmezem yolumdan,***
***Yolumdan dönüp mahrum mu kalayım,***
***Dönen dönsün ben dönmezem yolumdan.***

Əgər İran (Cənubi Azərbaycan) Əhli-Həqlərində məşhurolan quyəndələr ("quyəndə" fars sözü olub, danışan, bəyan edən,Həqiqətin sirlərini mənzum və bədii estetik şəkildə təqdim edənşair, aşıq mənasınıdaşıyır) AşıqQurbani,Beyrək Quşçuoğluidisə, AnadoluBektaşivə Ələvilərinin məşhur ozanı PirSultanAbdal, Qul Nəsimi və digərləri idi. Ən çox da Pir Sultan Abdalınşeirləri AnadoluCəmevlərində indidə sazla (bağlamailə)oxunur, ilahilər altında "semah" edilir. Ələvilərin "semah"ı ("semah" ərəbcədən eşitmək,duymaq anlamınagələn, binası ŞəmsTəbrizi,MövlanaRumi tərəfindənqoyulan trans,hal,ekstazrəqsidir. Buradakı"eşitmək"felibu rəqsi icraedərkən Haqqın,həqiqətinsəsini duymaq anlamınagəlir)Mövləvilərinkindənfərqlənir. Türkiyəli araşdırmaçı Hüseyn Özcan Mövləvi təkyələrindəki semahlarvə semazənlər haqqındabuqeydləriverir:"Semazənlərhərdönüşlərində Allahadını birdəfə zikredirlər.Seman əslində birzikrdir. Allahınadınızikretmə, yənizikrullahdır. Əslindənvarlığınbaşlanğıcından bəri kainatdaqalaktikalar,dünya,günəş və b. hər şeyiç-içə keçmiş dairələr şəklində dönür, semah edirlər, sanki bu hərəkətləri ilə Yaradanızikr edirlər.Semazənlərin əllərinin duruş şəklinin mənası budur: Sağ əlniyaz (istək) məqamındadır. Haqdan almağı təmsil edir. Sol əl isəxalqavermək mənasındadır, yəniHaqdanalıbxalqaverməyitəmsil edir.

Dörddəfə salamlaşmavar. Bu,eynizamanda,

Allahayüksəlməyin dörd mərhələsidir: Şəriət, Təriqət, Mərifət, Həqiqət.Şəriətdünyayagəlmək,bilik əldə etməkvə özünüqurtarmaqdır. Təriqət: Dürüst olaraq yaşamaq, "etdiyi bəzi xətalara tövbə edərək" Mərifət ağacının meyvəsini dərmək, ətrafına,ölkəsinə və insanlığa faydalıhala gəlməkdir. Həqiqət: Əbədihəyatda doğulmaq, insanlığın könlündə yaşamaqdır".

Ümumiyyətlə, Anadolununbütündünyadaməhşur olanMövləvitəkyələri və ƏləviCəmevləri fəlsəfi-ürfanitəməllərbaxımından bir-birinə bağlı olsalar da, şəkil və zahiri keyfiyyətbaxımından bir-birlərindən çoxfərqlənirlər. "Dəf, ney vəsəmazənlərin hərəkətlərininanlatdıqlarıözəldirvə dərinmənalıdır. Özəlliklə dönmə fikrindən çox təsirlənən Mövlana semahınilhamaltındadönən mənzillərvə kainatlar, dəyirmandaşıvəçarxına bağlı mükəmməlbirsimvolizmortayaqoymaqdadır".

Ələvilərinsemahı isə məhzsazlabaştutur. Türkiyəliaraşdırmaçı alim VahidLütfüSalçı ƏləviCəmevlərindəkisemah ayinini belə təsvir edir:"Semahbaşlamaqzamanını məhəbbətin, yəniocəmin əndini ulusu olan mürşid əmr edər. Semah oyunlarının ağır, orta vəsürətli hərəkətləri vardır. Əvvəldə ağır hərəkətli semah nəfəsləri sazlarla bərabər söylənir. Bunlar nə qədər ağır hərəkətli olsalar,yenə də "oturaq" nəfəslərdən daha oynaqdır".(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 104-105)

**QUL HİMMƏT (16-cı yüzilliyin ikinci yarısı):** Qul Himmət; Türkiyənin Tokat şəhərinə bağlı olan Almus ilçəsinin bu günkü adı Görümlü Qəsəbəsi olan Varsıl kəndindəndir. 16-cı yüzilliyin ikinci yarısında yaşamışdır. Qul Himmət bütün kəlamlarında Hz.Əli, On iki İmamları və Hacı Bektaş Velini böyük bir ürəkle yad edir.

Qul Himmətin kəlamlarıda digər ulu ozanların kəlamları

kimi hər bir Ələvi cəminin kəlamları srasındadır.

Çox yaxşı bir təriqət təlimi görən Qul Himmətin, Pir Sultan Abdala bağlı olduğu, onun çevrəsində yetişdiyi bildirilir. Beləki Pir Sultan Abdal Qul Himmətin müridi olub. Qul Himmətin Pir Sultan Abdalın müridi olması və onun ardıcıllarından olması Qul Himmətin şeirlərindəndə məlum olur.

Xalq ozanlarından Ələvi Bektaşi olmayanlarda belə onun təsirində qalmış və ona yaxınlıqgöstərmişlər.

Qul Himmət öz yaradıcılığını təriqət işiğinda insan sevgisini Hacı Bektaş Vəli üzərində formalaşdıraraq nümunəvi hala gətirmişdir. Beləki, tanrı anlamını varlıq olan insanla özəlləşdirmişdir.

## "YEDDİ" RƏQƏMİNİN SİRRİ

Böyük filosof-şair S.İ.Nəsimi "Fatihə" surəsinin və Əhli-Beytin (ə) fəzilətlərini müəmmalı bir dördlükdə qələmə almış və uzun müddət bu dördlüyün üzərində mərhum cəlilabadlı islamşünas alim Şeyx Muhəmməd Ağa və Füzulişünas şair Hacı Mail çalışmışlar və dolğun şəkildə bu rübai-müəmmaya açıqlama vermişlər. Biz də bəzi əlavələrlə bu bölümdə həmin dördlüyün özünü və açıqlamasını veririk:

1.Yeddidir, dörd yeddidən bir yeddidir,.
2.Yüz iyirmi dörd yenə üç yeddidir.
3.Evi bir, bacası yeddi, babı üç.
4.Əhli-Beyti ilə özü on yeddidir.

1.Yeddidir, yəni "Fatihə" surəsi yeddi ayədən ibarətdir. Bu surənin dörd məşhur adı var:

a) "Fətihə";

b) “Ummul-kitab”;

c) “Həmd”;

ç) “Səbul-Məsani” (“Qoşa yeddilik”).

“Fətihə” surəsi ərəb əlifbasında olan 28 hərfdən 21 hərfin iştirakı ilə yazılıb.

Bu surədəki 7 hərf – **“Sad”, “Cim”, “Xə”, “Zə”, “Şin”, “Za” və “Fə”** cəhənnəmin adlarına işarə olduğuna görə işlənməyib.

2. Yüz iyirmi dörd, yəni üç yeddidir dedikdə, “Fətihə” surəsi iyirmi bir hərfin iştirakı ilə üç dəfə təkrar olunub və yüz iyirmi dörd kəlmədən ibarətdir. “Fətihə” surəsi özü üç yeddilik olduğundan iyirmi biri üçə böldükdə yeddi alınır. Rəvayətlərdə də “Fətihə” surəsinin iyirmi bir adı olduğu qeyd olunub.

3. Evi bir, bacası yeddi, babı üç. – Bu misrada şair bildirir ki, Quran yeganə kitabdır ki, “Fətihə” surəsi bu kitabda nazil olub. Digər üç səmavi kitabda (“Tövrat”, “Zəbur”, “İncil”) yoxdur.

“Fatihə” surəsi namazda oxunduğuna görə ən vacib əməl səcdə olduğundan bacası yeddi deyərkən şair yeddi səcdə üzvünü nəzərdə tutur. Bilirik ki, namazda səcdə edərkən yeddi üzv yerə toxunur (alın, iki əllərin içi, iki diz qapaqları, iki ayağın baş barmaqları).

“Babı (qapı) üç” dedikdə, gün ərzində üç dəfə ərşin qapıları açılır və azan verilir. Şiə məzhəbinə mənsub olanlar da üç azan və beş iqamə ilə gündəlik olan on yeddi rükət vacib namazı beş niyyətlə qılırlar. S.İ.Nəsimi də bir şiə və SEYİD olaraq gün ərzində üç dəfə beş niyyətlə namaz qılmağı tövsiyə edib. Şiə məzhəbində də üç dəfə namaza qapı açılır. 1.Sübh; 2. Zöhr-Əsr; 3.Şam-Xiftən.

4. “Əhli-Beyti ilə özü on yeddidir”. – Yəni Allah tərəfindən Peyğəmbərə (s) on rükət namaz gəlibdir. Peyğəmbər (s) Meracda olarkən Allah-Təala tərəfindən peyğəmbərə əlli bir rükət namaz vacib oldu. Peyğəmbər (s) Meracdan qayıdarkən göyün qatlarından birində Həzrət Musa (ə) ilə görüşdü, Musa (ə) peyğəmbərdən (s) Allahın ona nələri vacib etdiyini soruşdu.

Peyğəmbər (s) əvvəl Həzrət Əlinin (ə) vilayətini, sonraisə ümmətinə gün ərzində 51 rükət namaz vacib buyurulduğunu söylədi. Musa (ə) İslam peyğəmbərinə (s) ərz etdi ki, bu qədər namaz çoxdur. Mənim ümmətimə də (Bəni-İsrail) bu qədər namaz vacib olmuşdur. Lakin mənim ümmətim bunun öhdəsindən gələ bilmədiyinə görə Sənin də ümmətin bu qədər namazın öhdəsindən gələ bilməyəcək. Peyğəmbər (s) bu sözdən sonra Allah dərgahına üz tutdu və Allah-Təaladan bu əməli yüngülləşdirməsini istədi. Allah-Təala 51 rükətdən 17 rükət götürdü və 34 rükəti vacib etdi. Yenə Musa peyğəmbər (ə) təkid etdi ki, 34 rükət də çoxdur. Peyğəmbər (s) yenidən Allah dərgahına üz tutdu və Allah-Təala 17 rükət namazı götürdü, qalan 17 rükəti isə vacib buyurdu. Musa peyğəmbər (ə) yenə də təkid etdi ki, 17 rükət də çoxdur, lakin İslam peyğəmbəri (s) buyurdu ki, Allahdan həya edirəm ki, bu 17 rükətdən də azaltsın. Allah-Təaladan əmr olundu ki, ey Peyğəmbərim, 17 rükət namazın 10 rükəti sənin eşqinə, "Zöhr" namazının iki rükəti Həzrət Əlinin (ə) eşqinə, "Əsr" namazının iki rükəti İmam Həsənin (ə) eşqinə, "Şam" namazının bir rükəti xanım Fatimeyi-Zəhranın (s.ə.) eşqinə və "Xiftən" namazının iki rükəti İmam Hüseynin (ə) eşqinə artırdım.

Haqq aşiqi Aşıq Ələsgər də Həzrəti Musa (ə) ilə İslam Peyğəmbəri (s) arasında olan bu söhbəti bir "Ustadnamə"sində belə qələmə alır:

***Həbibullah mindi "Rəf-rəf" atın,***
***Xaliqi-ləmyəzəl verdi bəratın.***
***Bizə vacib olan sövmü-səlatın,***
***Üç hissəsin qoyub, birisin gətdi.***

**51:3=17**

Rəvayət olunub ki, xanım Fatimeyi-Zəhra (s.ə.) atasına ərz etdi

ki, ya Rəsulullah (s) sən oğlanlarım və həyat yoldaşım üçün namazda iki rükət artırdın. Mənim üçün isə bir rükət artırdın. Peyğəmbər (s) buyurdu: "Ey qızım, oğul atadan iki pay irs aparar. Qız isə bir pay irs aparar. Ya Fatimə, sənin fəzilətin oğlanlarına və yoldaşına bu olacaq ki, onlar səfərə çıxanda iki rükət onların üstündən götürüləcək, (namazı qəsr qılacaqlar) amma sənin üçün artırdığım bir rükətin fəziləti bu olacaq ki, müsəlmanlar dünyanın hər bir yerində olsalar, "Şam" namazını üç rükət qılacaqlar".

Və beləcə namazların sayı 17 rükət olur. 10+7=17. "Əhli-Beyti (ə) ilə özü on yeddidir", yəni bu mənadadır.

Baxmayaraq ki, müsəlmanlar hər gün on yeddi rükət vacib olan namazı yerinə yetirirlər, eyni zamanda, bir sıra insanlar otuz dörd rükət nafilə olan müstəhəb namazları da qılırlar. İmam Muhəmməd Baqir (ə) buyurur ki: "Bizim şiələrimiz o şəxslərdir ki, hər gün əlli bir rükət namaza riayət edirlər."

# II fəsil

*Biz əzəldən ta əbəd meydanə gəlmişlərdəniz,*
*Şahi-Mərdan eşqinə mərdanə gəlmişlərdəniz.*

*Yazmağa həqdən kəlamullahi-natiq şərhini,*
*Kim, bəyani-elm ilən Quranə gəlmişlərdəniz.*

*Kainati surəti-rəhmanə təfsir etməyə,*
*Ruhi-qüdsi-surəti rahmanə gəlmişlərdəniz.*

*Bir müənbər türrənin küfrünə «amənna» deyib,*
*Həqqə təslim olmuşuz, imanə gəlmişlərdəniz.*

*Saqiyi-baqi əlindən məst olub içməkdəyiz,*
*Nərgizi məstin kimi məstanə gəlmişlərdəniz.*

*Ğeybi-mütləqdən təmaşayi-ruxi-ziba üçün*
*Bu şəhadət mülkünə seyranə gəlmişlərdəniz.*

*Ey Xətai, eydi-Əkbərdir cəmali dilbərin,*
*Biz bu eydi-Əkbərə qurbanə gəlmişlərdəniz.*

# PEYĞƏMBƏRLƏRİN (Ə) VƏ İMAMLARIN (Ə) İSMƏTİ BARƏSİNDƏKİ ƏQİDƏMİZ

***Dildəki "Ya-hu" kəlamımdır mənim,***
***Əhli-həqqə bu salamımdır mənim.***
***Cismimə neylər cəhənnəm atəşı,***
***Cəfəri Sadiq imamımdır mənim.***[41]

İslam elm akademiyasının təsisçisi olan 6-cı imamımız İmam Cəfəri Sadiqin (ə) ardıcılı olan Cəfəri məzhəbinə mənsub olanların(şiələrin) əqidəsi budur ki, Peyğəmbərlərin(ə) və İmamların (ə) hamısıməsumdurlar. Bu məsələ barəsində bəzi müsəlman firqələri bizimlə müxalif olub, isməti nəinki İmamlar (ə) barəsində, hətta Peyğəmbərlər (s) barəsindəbelə, vacib bilmirlər.

***İsmət***-kiçik və böyük günahlardan, (Allaha qarşı) üsyankarlıqdan (günahdan), xəta və unutqanlıqdan uzaq olmaq deməkdir.[42]

SEYİD Mürtəza (r.ə.) "Tənzihül-Ənbiya" kitabında buyurur:

"Əshabi-hədis" və "Həşəviyə" firqələri Peyğəmbərlərin (s) nübüvətdən əvvəl kəbirə günaha mürtəkib olmalarını mümkün hesab etmişlər. Bəziləri hətta nübüvət vaxtında belə, şəriətin əda olunmasına aid olan işlərdəki yalandan başqa bütün kəbirə günahlara mürtəkib olmasını caiz hesab etmişlər. Bəziləri də bunları Peyğəmbərlik dövründə, amma gizlində mürtəkib olmalarını, bəziləri isə bütün hallarda caiz bilmişlər. Amma ***Mötəzilə firqəsi*** Peyğəmbərlərin (s) bütün kəbirə və təhqiramiz səğirə günahlara mürtəkib olmalarını həm nübüvvətdən əvvəl, həm də sonra uzaq bilmişlər. Lakin təhqiramiz olmayan səğirə günahları hər iki halda (nübüvvətdən əvvəl və sonra) caiz bilmişlər. Sonra bu firqə ardıcıllarının da öz aralarında ixtilaf

---

[41] Axund Hacı Soltan Hüseynqulu oğlu

[42] Bax: "Şərhül-məqasid", 5-ci cild, səh.50 "Əl-qənyətu fi üsulid-din", səh.161

düşmüşdür. Bəziləri öz Peyğəmbərimizi də (s) bilərəkdən kiçik günaha mürtəkib olmasını caiz bilmişlər. Bəziləri isə demişlər ki, Peyğəmbərlər (ə) günah bildikləri şeyə yaxın düşməzlər, amma təvil əsasında günah edə bilərlər. Cəfər ibni Mübəşşir və onlara tabe olanlar demişlər ki, Peyğəmbərlərin (ə) günahı yalnız səhvən və ya qəflət üzündən baş verə bilər. Buna görə də qiyamətdə, onların ümmətlərindən, məqamlarının uca və mərifətlərinin qüvvəsi olması səbəbi ilə götürülməsinə baxmayaraq, cəzalandırılacaqlar".[43]

## İsmətin mənası

İsmətin lüğətdə mənası: ***"İsmət-bir səciyyədir ki, insan onun səbəbi ilə bir şeydən qorunur, sanki onun vasitəsilə istəmədiyi şeyə düşməkdən imtina edir. Bu fel növü deyildir". Ərəb dilində "itəsəmə fülanün bil-cəbəli"- "filankəs dağa sığındı"deyildikdə həmin şəxsin dağa sığınmaqla nicat tapmasına işarə olunur.***

Məşhur "Lisanül-ərəb" lüğətində deyilir: ***"İsmət"-*** hifz etmək deməkdir. "Allahınköməyi ilə ismətli olmaq"- yəni Onun lütfü ilə günahdan, məsiyətdən uzaq olmaq. [44]

"Allah bir kəsə ismət bəxş etmişdir"- dedikdə insanın Onun səbəbi ilə, itaətdə ikrahlı şeydən amanda qalması kimi bir tovfiq nəzərdə tutulur. Bu, suda qərq olan insana ip vermək kimidir ki, o da bu ipdən tutub xilas olur. Allah-Təala bu mənanı "Ali-İmran" surəsinin 103-cü ayəsində bəyan etmişdir:

***"Hamılıqla Allah ipindən tutun və heç vaxt dağılışmayın!" (Allah ipi-yəni Allah dini)***

İmam Zeynül Abidindən (ə) ***"Məsum"*** sözünün mənası barədə soruşduqda buyurdu:

---

[43] Bax:"Tənzihül-Ənbiya"nın müqəddiməsi.

[44] "Biharül-ənvar", 25-ci cild, səh.194 ; Şeyx Müfid "Məqalat", 4-cü cild, səh.34 ; "Lisanül-ərəb", 12-ci cild, səh.403, "ə-sə-mə"maddəsi".

"Məsum-Allah ipindən yapışan şəxsdir. Allahın ipi də Qurandır ki, bu ikisi (Quran və Məsum) qiyamətə kimi birbirindən ayrılmazlar. Quran İmama, İmam da Qurana doğru hidayət edir. Məhz bu mənanı bu Allah kəlamı yetirir ki:
***"Həqiqətən bu Quran ən möhkəm yola hidayət edir".*** [45]

## İmamların haqq olmasının əhli-sünnə alimi tərəfindən Qurani-Kərimlə isbatı

Şafei məzhəbindən olan doktor Ən Nəcdi Misirdə əl-Əhzər universitetinin xətiblərindəndir. O, Qurani-Kərimdə təhqiqatlar aparmış və bəzi əsrar (sirlər) açıqlamışdır. Doktor Nəcdi deyir: "Qurani-Kərimdə müəyyən rəqəmlər və sirlər var ki, onları bəzi məsələlərlə müqayisə etdikdə açıqlamaq olar. Mənim zehnimə sual gəldi, görəsən bu rəqəmlər hansısa bir rol oynayırmı? Təhqiqat nəticəsində gördüm ki, misal üçün: 1 ilimizdə 365 gün var, təhqiq etdikdən sonra **"əl yovm"** (ərəb dilində "gün" deməkdir) kəlməsinin Qurani-Kərimdə 365 dəfə gəldiyini müşahidə etdim. 1 ildə 12 ay var, Qurani-Kərimdə **"şəhr"** (ay) kəlməsi 12 dəfə gəldiyini gördüm.

Doktor buyurur: Bu minvalla daha dəqiq təhqiqat apararaq İmamiyyə bəhsinə çatdım. Dedim, əcəba şiə məzhəbi ki, İmamət bəhsinə müdaidilər, görüm Qurani-Kərimdə imam kəliməsi neçə dəfə gəlib? Təhqiqat elədim gördüm ki, Qurani-Kərimdə 12 dəfə **"imam"** kəlməsi gəlib (Bəqərə surəsi 124, Tövbə surəsi 12, Hud surəsi 17, İsra surəsi 70, Ənbiya surəsi 72, Qəsas surəsi 5 və 41, Hicr surəsi 79, Səcdə surəsi 24, Yasin surəsi 12, Furqan surəsi 74, Əhqaf surəsi 12-ci ayələr). Qurani-Kərimdə dəqiq 12 dəfə imam kəlməsi gəlmişdir, məhz 12 imamın adının barəsində deyil. Deyək məhz 12 imam barəsindədi, xeyr, amma Qurani-Kərimdə imam

---

[45] "İsra"surəsi, ayə 9

kəlməsi 12 dəfə gəlmişdir, bu nə sirdir? Allahu Əkbər. Deyir, sonra dedim ki, şiələrin iddiası var ki, 14 məsum var (12 imam, Peyğəmbər (s) və xanım Fatimeyi Zəhra (a.s)). Qurani-Kərimdə məsumluq, ismət kəlməsini təhqiq etdim, gördüm dəqiqən Qurani-Kərimdə 14 dəfə **“məsum və ismət”** kəlməsi gəlibdir (Nisa surəsi 146 və 175, Ali İmran surəsi 101 və 103, Maidə surəsi 67, Yusif surəsi 32, Yunis surəsi 27,Hud surəsi 43 (2 dəfə), Əhzəb surəsi 17, Gafir (Mumin) surəsi 33, Mumtəhinə surəsi 10, Həc surəsi 78-ci ayə). Ən Nəcdi deyir ki, bu məni daha da təəccübləndirdi. **“Ali-Əba”** və ya **“Kisa”** hədisi - Muhəmməd peyğəmbərin (s) üstündə əbası olduğu halda əbanın altına Fatiməni, Əlini, Həsəni və Hüseyni (5 nəfər) alması və **“Əhzab”** surəsinin 33-cü ayəsini oxuması barəsindədir. Deyir gördüm ki, Qurani-Kərimdə **“kisa”** kəliməsi məhz 5 dəfə gəlib (Bəqərə surəsi 233 və 259, Maidə surəsi 89, Muminun surəsi 14, Nisa surəsi 5-ci ayə). Nəyə görə Allah məhz 12 nəfəri seçib?, əcəba 12-də nəsə varmı? Deyir gördüm ki, Qurani-Kərimdə Allah Musa (a.s) peyğəmbərə əmr elədi ki: “Musa əsanı vur, ordan 12 çeşmə fışqıracaq”.

**وَإِذِ اسْتَسْقَى مُوسَى لِقَوْمِهِ فَقُلْنَا اضْرِب بِّعَصَاكَ الْحَجَرَ فَانفَجَرَتْ مِنْهُ اثْنَتَا عَشْرَةَ عَيْناً قَدْ عَلِمَ كُلُّ أُنَاسٍ مَّشْرَبَهُمْ كُلُواْ وَاشْرَبُواْ مِن رِّزْقِ اللَّهِ وَلاَ تَعْثَوْاْ فِي الأَرْضِ مُفْسِدِينَ**

**Tərcümə:***“Və Musa öz qövmü üçün su istədiyi zaman ona dedik: Əsanla daşa vur! Əsanı daşa vuran kimi 12 çeşmə fışqırmağa başladı – elə ki, hər dəstə öz çeşməsini tanıdı. Və dedik: Allahın verdiyi ruzisindən yeyin, için və yer üzündə həddi aşıb fəsad törədən olmayın”*** (Bəqərə surəsi 60).

İl ərzində aylar, bürclər də 12-di, yəhudilər 12 qövmdü, həvariyyun da 12-di, kəlmeyi: “Lə ilahə iləllah“da 12 hərfdən ibarətdi”, “nəbiyul Mustafa (s) 12 hərfdir”, maraqlısı budur ki, “imamaların hamısının adı 12 hərfdən ibarətdi”.

Peyğəmbər (s) buyurubdur: “Bunlar mənim itrətimdir” - 12

hərf, "bunlar (Həsən və Hüseyn) cənnət ağalarıdır" - 12 hərf, Onları (Əhli-beyti) sevənlər mömin və təqva əhlidilər - 12 hərf, "Onların düşmənləri kafir, şəqidilər" - 12 hərfdən ibarətdi. Qurani-Kərimdə Allah-Təala Əhli-beytin (ə) barəsində belə buyurur:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

**Tərcümə:***"Ey Əhli-beyt! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tərtəmiz (pak) etmək istər!"* (Əhzab surəsi 33, Təthir ayəsi).

Doktor deyir: Təhqiq elədim, bu ayə 47 hərfdən ibarətdi, sonra imamların adları barəsində təhqiqat apardım ki görüm adlarının hərflərinin cəmi nə qədərdir? (Fatimə 5, Əli 3, Həsən 3, Hüseyn 4, Əli 3, Muhəmməd 4, Cəfər 4, Musa 4, Əli 3, Muhamməd 4, Əli 3, Həsən 3 və Muhəmməd (İmam Zaman (ə.f) 4 hərfdi. Bu adlarının cəmi 47 hərfdir.

## PEYĞƏMBƏRİ-ƏKRƏMİN(S) CANİŞİNİ

يَوْمُ اَلْغَدير أَفْضَلُ الاَعْيَلد وَهُوَالثَّامِنُ عَشرَ مِن ذِي الحَجَهِ

İmam Sadiq (ə) buyurur: **"İslam bayramlarının ən üstünü "Qədr-Xum" bayramıdır və o, Zilhiccə ayının 18-i dir.** [46]

Həzrət Əli (ə) Peyğəmbəri-əkrəmin (s) canişini və vəsisidir. Şiələr **xilafət** məqamının Allah tərəfindən təyin olmasına inanır və deyirlər ki, Peyğəmbəri Əkrəmdən (s) sonra imamət məqamı müəyyən cəhətlərdən eynilə nübuvvət (Peyğəmbərlik) kimidir: Yəni Peyğəmbəri Əkrəm (s) Allah tərəfindən təyin olunduğu kimi, onun canişini də Allah tərəfindən təyin olunmalıdır.

Peyğəmbəri Əkrəmin (s) həyat tarixi bu müddəaya canlı

[46] Biharul-Ənvar, 59 c. Səh 26

şahiddir.Çünki o Həzrət çoxlu münasibətlərlə əlaqədar olaraq Əlini (ə) özünün xəlifəsi ünvanı ilə təyin etmişdir.Biz onlardan üçünü qeyd edirik:

1-Besətin əvvəlində

Allah tərəfindən Peyğəmbərə (s) əmr olunmuşdu ki, "va ənzir əşiratəkəl-aqrabin" (Şüəra surəsi, ayə 214) ayəsinin hökmünə görə öz qohum əqrabasını tövhid ayininə dəvət etsin.Bu yığıncaqda Peyğəmbər (s) onlara xitabən buyurmuşdu:

**فَاَيُّكُمْ يُوَازِرُنى فِى هَذَا الْاَمْرِ عَلَى اَنْ يَكُونَ اَخِى وَوَزِيرِى وَ خَلِيفَتِى وَوَصِيِّى فِيكُمْ**

**"Sizlərdən hansı biriniz bu işdə mənə kömək edər ki, mənim qardaşım, vəzirim, vəsim və sizin aranızda canişinim olsun?"**

Bu asimani çağırışa müsbət cavab verən yeganə şəxs Əliyyibni Əbi Talib (ə) oldu.Bu zaman Peyğəmbər (s) öz qohum əqrəbalarına xitabən buyurdu:

**اِنَّ هذَا اَخِى وَوَصِيِّى وَخَلِيفَتِى فِيكُمْ فَاسْمَعُوالَهُ وَاَطِيعُوهُ**

**"Bu (yəni Əli) mənim qardaşım, vəsim, və sizin aranızdakı canişinimdir.Onun sözlərinə qulaq asın və ona itaət edin. "**

2-**"Təbuk"** qəzvəsi

**"Təbuk"** qəzvəsində Peyğəmbər (s) Əliyə (ə) buyurur:

**اَمَا تَرْضَى اَنْ تَكُونَ مِنِّى بِمَنْزِلَةِ هَرُونَ مِنْ مُوسَى اِلّاَ اَنَّهُ لا نَبِىَّ بَعْدِى**

**"Razı olmazsanmı səninlə mənim münasibətim, Harunla Musanın münasibəti kimi olsun; bu fərqlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur. "**[47](yəni Harun Həzrəti Musadan (ə) sonra onun vəsisi və canişini olduğu kimi, səndə mənim xəlifəm və canişinimsən. )

3- Hicrətin 10-cu ilində

Peyğəmbər (s) vida həccindən qayıdanda **"Qədir-Xum"** adlı

[47] "Tarixi Cəbəri" 2-ci cild. Səh. 62-63. "Tarixi Kamil" 2-ci cild, səh. 40-41. "Musnədi Əhməd" 1-ci cild, səh. 111. "Nəhcul-Bəlagə"nin şərhi (İbni Əbl Hədid), 13-cü cild, səh 210-212. "Sireyi İbni Hişam" 2-ci cild, səh. 520. "Əssavaiqul-muhriqə" (İbni Həcər), Misir çapı, 2-ci cild, 9-cu bab, 2-ci fəsil, səh. 121.

bir diyarda Əlini (ə) böyük bir cəmiyyət arasında müsəlmanların rəhbəri və möminlərin əmiri kimi təqdim edərək buyurdu:

مَنْ كُنْتُ مَوْلَاهُ فَهذَا عَلِىٌّ مَوْلَاهُ

**"Mən (indiyə qədər) hər kəsin rəhbəri və ixtiyar sahibi idimsə, (bundan sonra da) bu Əli onun mövlası və rəhbəridir. "**

Diqqət olunmalı mühüm məsələ budur ki, Peyğəmbər (s) sözünün əvvəlində belə buyurmuşdu:

اَلَسْتُ اَوْلَى بِكُمْ مِنْ اَنْفُسِكُمْ

**"Mən sizə sizin özünüzdən artıq ixtiyar sahibi deyiləmmi?"** Müsəlmanlar hamılıqla bu sözü təsdiq etdilər.Deməli O Həzrət **"mövla"** kəlməsi ilə **"möminlərin tam ixtiyar sahibi və rəhbəri"** mənasını nəzərdə tutmuşdu.Bundan belə nəticə almaq olur ki, Peyğəmbər (s) özünün malik olduğu **"övləviyyət"** məqamını (vilayət və rəhbərliyi) Əli (ə) üçün də isbat etmişdir.Məhz həmin gündə Həssan İbn Sabit tarixi **Qədr** hadisəsini nəzmə çəkmişdir.

يُنَادِيهِمْ يَوْمَ الْغَدِيرِ نَبِيُّهُمْ
فَقَلَ فَمَنْ مَوْلَاكُمْ وَنَبِيُّكُمْ؟
اِلَهُكَ مَوْلَانَا وَاَنْتَ نَبِيُّنَا
فَقَالَ لَهُ: قُمْ يَا عَلِىُّ فَاِنَّنِى
فَمَنْ كُنْتُ مَوْلَاهُ فَهذَا وَلِيُّهُ
هُنَاكَ دَعَا: اَللَّهُمَّ وَالِ وَلِيَّهُ
بِخُمٍّ وَ اَسْمَعْ بِالرَّسُولِ مُنَادِياً
فَقَالُواوَلَمْ يَبْدُوا اَهُنَاكَ التَّعَامِيَا
وَلَمْ تَلْقَ مِنَّا فِى الْوَلَايَةِ عَاصِيَا
رَضِيْتُكَ مِنْ بَعْدِى اِمَاماً وَ هَادِياً
فَكُونُوالَهُ اَتْبَاعَ صِدْقٍ مَوَالِيَا
وَ كُنْ لِلَّذِى عَادَى عَلِيّاً مُعَادِيَا

**Tərcüməsi:**

*Qədr günü peyğəmbərləri onlara nida*
*Xum adlı bir yerdə, Rəsulun carçısı necə də yaxşı eşidəndir!*
*Buyurdu: kimdir sizin mövlanız və nəbiniz?*

*Dedilər: Sənin Allahın bizim mövlamızdır, sən də bizim peyğəmbərimizsən.*
*Bizim içərimizdə vilayətə asi olan bir kəs görməzsən.*
*Peyğəmbər Əliyə buyurdu: Qalx ayağa, həqiqətən mən*
*Sənin özümdən sonra imam və hidayətçi olmağına razı oldum*
*Mən hər kəsin mövlasıyamsa bu Əli də onun valisi, rəhbəridir,*
*Sizdə ona sadiq itaət edənlərdən olun!*
*Orada belə dua etdi: Pərvərdigara onu sevənləri sev*
*Əli ilə düşmənçilik edənlərlə düşmən ol!*

## HƏZRƏT ƏLİNİN (Ə) İMAMƏTİ

Qurani-Kərimdə "şiə" kəlməsi işlənibmi? –Bəli.

Allah Təala Qurani-Kərimin "Saffat" surəsinin, 83-84-cü ayələrində buyurub:

وَإِنَّ مِن شِيعَتِهِ لَإِبْرَاهِيمَ,إِذْ جَاء رَبَّهُ بِقَلْبٍ سَلِيمٍ

***"Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən (Nuhun firqəsindən) idi. O zaman o, öz Rəbbinin hüzuruna tərtəmiz bir qəlblə gəlmişdi".***

İmam Sadiq (ə) buyurub: ***"Ey şiələr! Bizə zinət olun və bizə eyib olmayın."***

XVIII əsrin mütərəqqi şəxsiyyətlərindən biri və ədəbi fəaliyyəti sırf xalqa bağlı, gözəl təbə malik olan şair M.P.Vaqif bir "müstəzad"ında On iki imama (ə) etiqad göstərməyi və sevməyi Peyğəmbərin (s) buyurduğu hədislərə istinad edərək nəzmə çəkmiş və Əhli-beytə (ə) bağlı olan insanların Qiyamət günündə nicat tapanlardan olduğunu vurğulayır və özünü də onlara bağlı sayır:

***İsna əşərə çakəri kəmtər ola Vaqif,***
***Sərdaridi əla,***
***Xaki-dəri-övladi-peyğəmbər ola Vaqif,***

***Neylər dəxi dünya?***
***Ol gündəki, həngameyi məşhər ola Vaqif,***
***Tut daməni mövla!***
***Fəryadrəsin Heydəri – Səfdər ola Vaqif,***
***Xovf eyləmə əsla!***
***Sən qərqsən hərçənd ki, dəryayi vəbalə,***
***Tövhiqi bulansan!***

Alman filosofu Marbin ***"İslam siyasəti"*** kitabında yazır: ***"İmam Hüseynin (ə) öz qadını və uşaqları ilə birgə Məkkədən Kərbəlaya yola düşməsi, ölümü qarşılaması müsəlmanlar üçün bir çağırışdır ki, onun intiqamını Bəni-Üməyyədən alsınlar. Hüseyndən (ə) başqa tarixdə elə bir insan olmamışdırki, oğurlanmış həqiqəti sübuta yetirmək naminə özünü və ən əzizlərini ölümə qurban versin. Hüseyn (ə) – bu nadir şəxsiyyət Bəni-Ümeyyənin əzəmətini və geniş dövlətini necə sarsıtmağı yaxşı bilirdi. Kərbəla hadisəsi İslamın yaşaması və bu müqəddəs dinin parlayaraq öz nurunu uzalara yaymaq üçün səbəbə çevrildi. İmam Hüseyn özü bu barədə deyirdi: "Əgər Muhəmmədin (s.ə.s) dini yalnız mənim qətlimlə yaşayacaqsa, onda ey qılınclar,məni vurun!"***

***Mahi-Məhərrəm oldu, məsərrət haramdır,***
***Matəm bu ayda şəriətə bir ehtiramdır.***

***Mömini-pak olanın çeşmi-təri giryan olur,***
***Çeşmi-giryan olmayan əlbəttə bi iman olur.***[48]

Yaponiyalı fizik-alimdən nə üçün islamı və məhz şiə məzhəbini qəbul etməyini soruşduqda o, belə cavab verir ki,: "Mən bütün dinləri araşdırıb öyrəndim. Nəticədə yalnız İslamı, bu dinin məzhəbləri arasında şiəliyi seçdim. Ona görə ki şiə məzhəbinin, həm keçmişi, həm bu günü, həm də gələcəyi var. Şiəliyin keçmişi

[48]M.Fuzuli

İmam Hüseynin (ə) şəhadəti ilə bağlıdır ki, heç vaxt unudulmur və daim diri saxlanılır. Çünki, Aşura O Həzrətin (ə) həm inqilabı, həm də müsibətidir. Bu şiələrin keçmişi olsa da, onu həmişə yaşadırlar. Amma şiələrin gələcəyi də var. Onların gələcəyi yolunu gözlədikləri 12-ci imam Mehdi Sahib-əz-Zamandır (əc.f.). Deməli şiələrin dünəni, bu günü, sabahı var. Ona görə də həmin məzhəbi (şiə məzhəbini) qəbul etdim".[49]

***Gövhəri-paki-nurbəhadır söz,***
***Töhfeyi-dərgahi-Xudadır söz,***
***Zinəti-bəzmi-Mustəfadır söz,***
***Madehi-şahi- "Həl-əta"dır söz.***

S.Ə.Şirvani bu rübaisində sözə verdiyi tərifin sətri tərcüməsi belədir: "Söz pak, qiymətli bir gövhərdir. Söz-Allah dərgahının töhfəsidir. Söz-Muhəmmədin (s) məclisinin zinətidir. Söz- Şahi "Həl-əta"nın (Həzrət Əlinin (ə))tərifinə vasitə olandır.

***Bu dünyada çoxdur vəli,***
***Hamısına dedik bəli.***
***Ey Tanrı Aslanı Əli,***
***Yardım eylə qiyamətdə.***

**يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُوْلِي الأَمْرِ مِنكُمْ**

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə (ə) və özünüzdən olan əmr sahiblərinə (12 imama) itaət edin!"[50]

Peyğəmbər (s) buyurmuşdur: "Ey camaat! Həqiqətən məndən sonra heç bir Peyğəmbər, sizdən sonra heç bir ümmət olmayacaq. Agah olun və öz Allahınıza ibadət edin, beş vaxtda namaz qılıb, Ramazan ayının orucunu tutun, Rəbbinizin beytinin həccinə gedin,

---

[49] Axund Hacı Soltan Əlizadə "Nəbz" qəzeti.
[50] "Nisa" surəsi, ayə 59

mal-dövlətinizin zəkatını səmimi qəlbdən verin və öz vəliyyi-əmrlərinizə (imamlarınıza) itaət edin ki, Pərvərdigarınızın cənnətinə daxil olasınız."

***Əl çəkmə dünyada sövmü-səlatdan,***
***Təmiz ver qalmasın xümsü-zəkatdan,***
***Ələsgər xofv etmə puli-siratdan,***
***İrəhbərdi Cənab Əli qabaqda.***[51]

"Əlinin (ə) vilayəti Allahın vilayətidir, onu sevmək ibadətdir."

Allah-Təala Əhli-beyti (ə) şəfaətci, hidayət yolunun çırağı, ürvətil-vüsqa, ərkani-qiblə, insanlıq üçün höccət və düzgün yol təyin edərək "Nicat gəmisi" kimi tanıtdırmışdır.

Sual oluna bilər ki, nə səbəbə, məhz, Əhli-beyt (ə)?

Bir neçə dəlillə bu suala cavab verəcəyik:

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

"İnnəmə yuridullahu liyuzhibə ənkumur-riçsə əhləl-beyti və yutəhirakum təthira" – "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi (günahı) yox etmək və sizi tər-təmiz (pak) etmək istər"[52].

Şeyx Muhəmməd ibn Əhməd ibn Cəzzi əl-Kəlbi "itabut-təhsil", 3/137-də yazır: "Qalən-nəbiyyu nəzələt həzihil-əyə fi xəmsətin fi vuldi Aliyyin və Fatiməti, val-Hasəni, val-Huseyni". **Tərcüməsi:** Peyğəmbər (s) buyurdu: "Bu ayə beş nəfər haqqında nazil olmuşdur: Əli övladları, Fatimə, Həsən və Huseyn (Allahın salamı onlara olsun)".

Bunlardan əlavə, əhli-sünnə və imamiyyələrin hədis və tarix kitabları buna şahidlik edirlər ki, "Əhli-beyt" yalnız "əshabi-kisa" və ya "əba əhli"dirlər.

---

[51] Aşıq Ələsgər

[52] "Əhzab" surəsi, 33

İmam Sələbi, İmam Əhməd ibn Həhbəl, ibn Əsir "Camiul-usul", Muslim və Tirmizi öz əsərlərində ummul-mominin Umm-Sələmədən nəql edirlər ki, O, xanım buyurur: "Bir gün Peyğəmbər (s) mənim mənzilimdə idi. Fatimə (ə) əlində bir qab hərirə (un və süd və ya un və yağla bişirilən yemək) daxil oldu. Peyğəmbər (s) səfvədə (həzrətin yataq yeri) oturmuşdu. Ayağının altına xeybər əbası salmışdı. Mən öz hücrəmdə namaz qılırdım. Peyğəmbər (s) Fatiməyə (ə) buyurdu: "Get ərini və oğlanlarını gətir". Çox çəkmədi ki, onlar gəldilər və hərirəni bir yerdə yedilər. O halda Cəbrail mələk (ə) nazil olub "əl-Əhzab" surəsinin 33-cü ayəsinin gətirdi. Bu zaman Allahın Rəsulu (s) əbanı onların üstünə salıb buyurdu: "İlahi, bunlar mənim əhli-beytimdir, bunlardan bütün çirkin və rəzillikləri götür və bunları pak-pakizə et"". Umm Sələmə deyir: "Mən başımı əbanın içinə salıb dedim ki, mən də sizinləyəm?". Rəsulullah (s) buyurdu: "Sən çox xeyirli və gözəl insansan, amma bizdən deyilsən".

1. Qurani-kərimin "Təthir" ayəsinə əsasən, Əhli-beyt (ə) pak və məsumdur. Əhli-beyt (ə) Allaha qarşı günah etmir və onun əmrinə xilaf çıxmırlar.

***Dərda ki, əhli-danişü idrak getdilər,***
***Məcruhi dil şikəstəvu qəmnak getdilər,***
***Alayişi-zəxarifə aludə olmayıb,***
***Dünyayə pak gəldilər, pak getdilər.***

**Anlamı:** *Dərd budur ki, elm və idrak əhli getdilər. Qəlbi şikəstə və yaralı olan qüssəlilər getdilər. Bəzək-düzəyə bulanmadılar, dünyaya pak gəlib, pak getdilər.*[53]

İbn Abbas nəql edir ki, Həzrət Peyğəmbərimiz (s) bir xütbə-

[53] M. Füzuli. "Hədiqətüs-sühəda"

sində buyurdu: "Ey camaat! Allah-Təala mənə vəhy etdi ki, tezliklə sizin aranızdan gedəcəyəm. Bilin ki, əmioğlum Əli (ə) qardaşım, canişinim və məndən sonra xəlifəmdir, imamdır. Əgər ona itaət etsəniz, Allaha itaət etmiş, itaət etməsəniz Allaha qarşı günah etmiş olursunuz. Allah-Təala Quranı mənə nazil etdi. Həzrət Əli (ə) onun təfsirçisidir. Hər kəs Quranla müxalifətçilik edərsə, yolunu azacaq və hər kəs Həzrət Əlidən (ə) başqasına itaət etsə, xar və zəlil olacaq.Ey camaat! Qiyamət günü mən, Əhli-beytim (ə), nəslim və sizlər hamılıqla toplaşacağıq. Onda mən sizdən iki ağır əmanət haqqında soruşacağam. Məndən sonra bu iki əmanət ilə necə rəftar edəcəyinizə diqqət edin. Hər kəs onlara əziyyət etsə, mənə əziyyət etmiş və hər kəs onlara zülm etsə, mənə zülm etmişdir. Hər kəs onlarla dost olsa, mənimlə dost olmuş, hər kəs onlara hörmət etsə, mənə hörmət etmişdir. Hər kəs onlardan başqa nicat yolu axtarsa, məni inkar etmişdir. Allahdan qorxun və diqqətli olun ki, sabah Qiyamət günü nə cavab verəcəksiniz?! Bilin ki, Quran və Əhli-beytimə (ə) düşmən olan kəsə mən də düşmənəm. Mən hər kəsə düşmən olsam, onun nəsibi cəhənnəm olacaq".

Peyğəmbərimiz (s) buyurmuşdu ki, Quran və Əhli-beytim (ə) Kövsər hovuzuna gəlib çatana qədər bir-birindən ayrılmayacaq və sizin nicatınız onların hər ikisindən möhkəm yapışmağınızdadır, amma bəziləri bunu əməldə inkar edərək: "Allahın kitabı bizə kifayətdir", - dedilər, nəticədə, nə Qurana əməl etdilər və nə də Əhli-beytə (ə) tabe oldular"[54].

Həzrət Əli (ə) Qurani-Kərimə aid olan biliklərini Həzrət Peyğəmbərdən (s) almış və Peyğəmbərə (s) ən yaxın adam olmuşdur. Belə ki, Peyğəmbər (s) aldığı vəhylərin mənasını hamıdan əvvəl Həzrət Əliyə (ə) açıqlamışdır. Elə bu səbəbdən də Həzrət Əli (ə) buyurmuşdur: "Allahın kitabı barəsində məndən soruşun, çünki elə bir ayə yoxdur ki, onun gecə və ya gündüz, aranda və ya dağda

[54] "Biharul-ənvar", c. 22, səh. 473

nazil olduğunu bilməyim."

İnsan nə qədər elmli, bilikli olsun ki, belə bir sözü camaat arasında desin. Həzrət Əlinin (ə) belə bir söz deməyə haqqı çatırdı, çünki Peyğəmbər (s) nazil olan ayələri əvvəlcə Həzrət Əliyə (ə) oxuyur və yazdırırdı, sonra həmin ayələrin təvil və təfsirini, nasix və mənsuxunu, möhkəm və mütəşabihini öyrədir və Allah-Təaladan istəyirdi ki, onları başa düşmək üçün Həzrət Əliyə (ə) qüvvət versin. Həzrət Əli də (ə) Peyğəmbərdən (s) öyrəndiklərini yadda saxlayır və bu mübarək ayələrin halal-harama dair hökmlərini, əmr və qadağalarını, olanlara və olacaqlara dair xəbərlərini bilirdi. Həzrət Əli (ə) bir nəfər müsəlmanın "Bəqara" surəsinin 156-cı ayəsini oxuduğunu eşidərkən buyurdu: "Bizim "İnnə lillahu" deməyimiz Allahın padşahlığını etiraf etməyimizdir, "İnnə ileyhi raciun" deməyimiz isə həlak olacağımızı iqrar etməyimizdir."[55]

Mərsiyə ədəbiyyatının tacı, Əhli-Beyt (ə) şairi Hacı Əbülhəsən Raci Həzrəti Əliyə (ə) sonsuz məhəbbətini bu misralarla bildirərək and içir ki, qələmim əhd edib ki, Əli (ə) və övladi-Əlidən qeyri kimsəni mədh etməsin:

***Yazmaz məgər övsafi-Əli xaməm edib əhd,***
***Birdir sözü bu kilkün, əgərçi du zəbandır.***

**Anlamı:***Qələmim əhd edib ki, Həzrət Əlinin (ə) vəsfindən başqa bir şey yazmasın. Qələmimin iki dili olsa da o bu sözündə möhkəmdir.*

Şeyx Mufidin yazdığına görə, "Əmirəl-muminin Həzrət Əli (ə) nazil olan Qurani-Kərimi əvvəlindən axırına kimi cəm etmiş, vacib olduğu şəkildə yazmış, Məkkə ayələrini Mədinə ayələrindən qabağa çəkmiş, nəsx edilmiş ayələri nəsx edən ayələrdən qabağa çəkmiş, oradakı hər şeyi öz yerinə qoymuşdur."

[55] "Nəhcül-bəlağə", hikmətli kəlamlar, 95

Həzrət Əlinin (ə) şənində gələn Quran ayələrini bir çox şairlər zaman-zaman öz yaradıcılıqlarında qeyd etmişlər. Bunlardan biri də müasir dövrümüzün Əhli-Beyt (ə) şairlərindən olan şair Aslan Aşiq Həzrət Əlinin (ə) fəzilətlərini "İmam Əli (ə) beşikdən behiştə" adlı yazdığı qəsidəsində vəsf etmişdir:

***Hərə bir mövzu seçib nəzmə çəkir, mən də dedim,***
***Əli haqqında yazım, "Eşq" adına xidmət edim.***
***Ta əzəldən bu zərif mətləbə diqqət yönəlib,***
***Əli ibni Əbu Talib necə dünyaya gəlib?!***
***Fatimə binti Əsəd şəhri rəcəb, gün də cümə,***
***Təvaf etsin deyə, evdən çölə çıxmışdı demə.***
***Qəflətən ağrı tutur, Kəbəyə doğru yol alır,***
***Edir Allah həmin an möcüzə, divar yarılır.***
***Ana bətnində uşaqla hərəmə daxil olur,***
***O müqəddəs yerə rəhmət, bərəkət nazil olur.***
***Budur, Allahın evi – Kəbədə göz açdı Əli,***
***Gəlişiylə cahana, aləmə nur saçdı Əli.***
***Hələ Beytül-Həramı Fatimə tərk eyləməmiş,***
***Necə övlad doğulub, məğzini dərk eyləməmiş,***
***O mübarək vücuda Kəbədə lütf etdi Xuda,***
***"Uşağın ismin Əli qoy!" – deyə, yüksəldi nida!***
***O Əli ki, sürəcək ömrünü parlaq və təmiz,***
***Olacaq Əhmədə hər mənada qardaş tək əziz.***
***Rəsulallahın həyat yoldaşı Həzrət Xədicə,***
***Necə ilk iman edən kəsdir, Əli də eləcə.***
***O nübuvət qoxusun hiss edən ilk insan olub,***
***Onun imanı da Peyğəmbərə ilk iman olub.***
***Yeni qoymuşdu qədəm on yaşına ismi gözəl,***
***Hətta qılmışdı namaz Məkkədə hər kəsdən əzəl.***
***Bu özəl xislət ona lütf idi, bir ehsan idi,***
***Həm ona tərbiyəçi pak, seçilən insan idi.***

*Beləcə, gəncliyini sürdü ibadətlə Əli,*
*Yetdi qüdrət çağına güc və cəsarətlə Əli.*
*Gecə-gündüz qoruyub dinini mərdanə kimi,*
*Dolanardı Rəsulun başına pərvanə kimi.*
*Bir gecə məkkəlilər gör nə qərar verdi nihan,*
*Allahın elçisini öldürələr yatdığı an.*
*Amma kafirlərin idbar əməlin Allah ona,*
*"Hicrət et!" – əmrini verməklə, edir agah ona.*
*Bizə bu hadisə haqqında yazır ali Kitab,*
*Uca Allah onların hiyləsinə verdi cavab.*
*Bu ki, bir ayədir, Allah kəlamın tutma ucuz!*
*Surətül-Ənfalı aç, eylə nəzər – ayə otuz.*
*NəbiAllah sui-qəsd haqda xəbərdarlıq edir,*
*Əli Peyğəmbər üçün gör nə fədakarlıq edir.*
*Gecə zülmətdə onun tək yatağında uzanır,*
*Evə gircək Qureyiş kafiri şaşqın dayanır.*
*Ki, yatan kəs Əlidir, evdə deyil Xətmi-Rəsul,*
*Belə bir təhlükəyə cürət edər hansı oğul?!*
*Edən əlbəttə Əlidir, belə müdhiş bir işi,*
*Ona yox bənzər olan qeyri cəsarətli kişi.*
*Yox, əgər şəkk eləsən bu, Əli olmaz heç vaxt?!*
*Bəqərə surəsi, ayə 207-yə bax!*
*O zaman baş verən hər qəzvədə olmuşdur Əli,*
*Özü də, hər zaman ön cərgədə olmuşdur Əli.*
*Gəl onun mən sənə bir-bir zəfərindən danışım,*
*Hünərindən, vüqarından, təpərindən danışım.*
*O Bədrdə elə bir ad eləmişdir ki, Xuda,*
*Deyib əhsən, Əliyə verdi ləqəb "Şiri Xuda".*
*Ühüd haqqında deyim, diqqət ilə eylə nəzər!*
*Gör ağam Heydəri Kərrar necə göstərdi hünər?!*
*Endi göydən yerə Cibril tərəfindən bu şüar:*
*Nə Əlinin, nə də ol Zülfüqarın bənzəri var!*

*Dərin iz qoydu o gün tarixə Xəndək döyüşü,*
*Yeniyetmə Əli və pəhləvan Əmrin görüşü.*
*Kafərin şahə qəzəb versə də iyrənc əməli,*
*Siyirib Zülfüqarı vurmadı, səbr etdi Əli.*
*Çün onun davası Pərvərdigara xatir idi,*
*Yoxsa ilk andaca məhv eyləməyə qadir idi.*
*Azacıq var-gəl edib, zərbəsin endirdi ona,*
*O haramzadə kəsin ömrünü çatdırdı sona.*
*Bu dəm Allah Rəsulu nitqi cəmaətdən uca,*
*"Vurulan zərbə dedi, kulli ibadətdən uca!*
*Necə mədh eyləməyim mən Əbu Talib balasın?!*
*Allah ol şəxs ilə fəth eylədi Xeybər qalasın.*
*Həm ona məxluqatın əşrəfi etmişdi dua,*
*Həm əzəldən Özü Xaliq ona güc etmiş əta.*
*Hələ Xeybərdə döyüş başlamağa vardı zaman,*
*Əliyə verdi zəfər bayrağını Fəxri-cahan.*
*Cəngə gircək gətirir lərzəyə meydanı Əli,*
*Zərbə vurmazdı hədər Allahın Aslanı Əli.*
*Öyünən yəhudilər düçar olur dərdi-sərə,*
*Ki, Əli Haris ilə Mərhəbi sərmişdi yerə.*
*O zaman güc Əlidə aşdı öz əndazəsini,*
*Qoparıb Xeybərin atdı yerə dərvazəsini.*
*Beləliklə, Əliyə qarşı tərəf məğlub olur,*
*O alınmaz qalanı fəth eləmək mənsub olur.*
*Əli haqdır deyə, hər bir döyüşün qalibidir,*
*Bilir hər kəs bunu mövlam nə hünər sahibidir?!*
*Belinə dəsti-zireh geyməyi bilməzdi gərək,*
*Çünki düşmənlərə heç vaxtı çevirməzdi kürək.*

*Hələ bu harəsidir, var Əlidə öylə məqam,*
*Nə fəzilətdir o, dərk eyləyə bilməz bir adam.*
*Elə bir kəsdir o kəs, iblisi heyrətdə qoyub,*

*Doğulandan onu öz qəlbinə həsrətdə qoyub.*
*Belə təqvası olan layiq idi öndər ola,*
*Xatəmül-Ənbiyadan sonra gələn rəhbər ola.*
*O Qədir-Xum günüdür ki, buna diqqət yönəlir,*
*Rəsulallaha o gün vəhy olunur – ayə gəlir:*
*"Sənə Rəbbin tərəfindən gələni təbliğ elə!*
*Bunu etməzsən əgər, höccətin əskikdir hələ".*
*Daha ətraflı baxın – Maidə, 67.*
*Üz tutub ümmətə Məhbubi-bəşər ərz etdi:*
*Mənə vacibdi Qədir-Xumda yığıb ümmətimi,*
*Yeni rəhbər seçərək, xətm edim öz höccətimi.*
*Aranızda iki şey: Quran ilə Əhli-Beyt,*
*Sizə məndən bir əmanətdi deyə, etdi qeyd.*
*Dedi, onlar bilin ayrılmayacaq məşhərədək,*
*Bu əmanətdən uzaq düşməyə bir bəndə gərək.*
*Məsələ başqa önəm kəsb eləyirdi bu səfər,*
*Əliyə gör necə Peyğəmbərimiz verdi dəyər?!*
*"Mən kimin rəhbəriyəmsə, ona rəhbərdir Əli!*
*Yəni məndən sonra siz ümmətə sərvərdir Əli.*
*O mənim canişinimdir, mənə qardaşdır Əli,*
*Bizə nisbətdir o Musa ilə Harun məsəli".*
*Yenə də üz tutaraq Haqqın uca dərgahına,*
*Əl açıb Xətmi-Rəsul etdi dua Allahına:*
*"Əlini kim ki, sevər, bəslə məhəbbət Sən ona,*
*Yox, əgər düşmən olarsa, Özün ol düşmən ona".*
*Əhməd öz borcun əda eyləməyə nail olur,*
*Yeni bir ayə gəlir – "Maidə, 3" nazil olur.*
*Allahın lütfünə bax, gör necə vəhy eylədi O,*
*"Sizə öz nemətimi xətm elədim", söylədi O.*
*Hansı gündən Əli rəhbərliyin icra etdi,*
*O xilafətdə ədalət evin inşa etdi.*
*Nə zaman görsə idi xalqı şikayətdə Əli,*

***Olub adil həmişə hökmü-qəzavətdə Əli.***
***De görüm, varmı biri çatsın ədalətdə ona?!***
***Nə də bir bənzər olan yoxdu səxavətdə ona.***
***Rüku halında zəkat vermiş idi Həzrət Əli,***
***Maidə 55-ə bax, bizə gör kimdi vəli?!***
***Əli tövhid kimi bir elmin əzəl mənbəyidir,***
***Əli islamda olan fiqhin əsas mənşəyidir.***
***Ən gözəl təfsir edən, natiqi Qurandır Əli,***
***Sahili olmayan hikmət dolu ümmandır Əli.***

***Nə səadətdi bu, Peyğəmbərə olmaq kürəkən,***
***Nə fəxarətdi bu, Peyğəmbərə olmaq kürəkən.***
***Buna rəğmən yenə də o, hamıdan sadə idi,***
***O Əli ki, hələ xilqətdən əsilzadə idi.***
***Nə qədər istəsə də ömr eləsin sakit həyat,***
***Yenə də xaricilər Həzrəti qoymurdu rahat.***
***Onların vay halına doğru yola gəlmədilər,***
***O imamət nurunun qədrini heç bilmədilər.***
***O günü məzlum ağam Kufədə məsciddə idi,***
***Qapılıb Rəbbinə hər kəsdən əlahiddə idi.***
***Onu rəhmət dənizində elə bil yanğın alar,***
***Fəqət indi pozacaqdır sükutu fırtınalar.***
***İbni Mülcəm deyə, bir nanəcibin fikrinə bax,***
***Lənətullahi əleyhin hələ bir məkrinə bax.***
***Əyilib səcdə edərkən Əlini yaralədi,***
***Üzü dönmüş, necə Zəhra ürəyin parələdi?!***
***Yıxılır ali hidayət sütunu ah, o zaman,***
***Ağamız feyzə çatır mahi-mübarək Ramazan.***
***Hüseynlə Həsənin qəlbinə qəm hakim olur,***
***Dəfn olarkən ona Cəbrail özü xadim olur.***
***Cəm olub izdiham arxa, mələkut ön tərəfə,***
***O yetimlər atasın dəfn eləyirlər Nəcəfə.***

*İndi gəl fikr elə gör haləti Zeynəb necədir?*
*O Xanım Fatimənin qoyduğu məktəb necədir?*
*Necə olsun, ürəyin dərd bürüyüb, qəm bürüyüb,*
*Acı həsrətlə dolan gözlərini nəm bürüyüb.*
*Bu qədər möhnətə Zeynəb necə dözsün anasız?*
*O gecə qaldı bütün əhli müsəlman atasız.*
*Sən bir öz saydığını say, o fələk gör nə sayır?!*
*Bunu Şam əhli duyarkən belə bir şayiə yayır:*
*"Əli qılmazdı namaz, məscid hara, Heydər hara?*
*Əlinin qətli hara, mehrab hara, minbər hara?"*
*Bunu bilmirdimi bəs, Şamdakı bədbəxt camaat?!*
*Əli Haqq ilədir hər an, Əlisiz yoxdu nicat!*
*O ki, öz qatilinə qarşı nəzakətli olur,*
*Qoruyur haqqın onun, hərdəm ədalətli olur.*
*Amma zalimlərə qarşı hər an üsyanda idi,*
*Bir ömür eşq ilə haqq uğruna meydanda idi.*
*Kim ona iman edər cənnəti-rizvan qazanar,*
*Kim onu inkar edər nar-i cəhənnəmdə yanar.*
*Çox şükür Allaha ki, mən də tərəfdar Əliyəm,*
*Adım Aslandır, Əli eşqi ilə yaraliyəm.*
*İnşaAllah edərəm mən onu sevməkdə davam,*
*Dönər olsam, ağamın haqqı mənə olsun haram!!!*

## DR. ALİ YAMAN.
## HƏZRƏT ƏLİ, ƏHLİ-BEYT VƏ
## ON İKİİMAM SEVGİSİ

Bilindiği üzere Alevilikte Hz. Ali, Ehli-Beyt ve On iki İmam sevgisi önemli bir yere sahipdir. Ehli-Beyt sözcük olarak ev halkı demekdir. Ev halkı, yani Ehli-Beyt, Hz. Muhammed, Hz. Ali, Hz.

Fatıma, Hz. Hasan ve Hz. Hüseyinden oluşmaktadır. Ehli-Beyt, Ehli-Beyt-i Resulullah, Ehli-kisa, Ali-Aba kavramları onlar için kullanılmaktadır. Ehli-Beyt, Aleviler arasında Pençei-Ali-Aba olarak da adlandırılırlar. Aleviler gerek Kuranı Kerime (Ahzap Suresi, Ayet 33), gerekse Hz. Muhammedin Veda Hutbesine dayanarak Ehli-Beyte özel bir sevgiyle bağlanırlar. Ehli-Beyt sevgisi, onları ve soylarını da kapsayan iktidar hırsı içinde olmamayı, doğruluk ve dürüstlük simgesi olmayı, haksızlığa boyun eğmemeyi ve eşitlikçiliği de kapsayan değerleri de yapısında barındırmaktadır.

On iki İmamlar ise Alevilerin Hz. Muhammedden sonra önder olarak tanıdıkları Hz. Ali ile Hz. Fatımanın soyundan gelen, Ehl-i Beytin devamı niteliğinde kişilerdir. Aleviliğin oluşum tarihinde büyük rol sahibi kutsal şahsiyetler olaraq anılırlar. On iki İmamların adları sırasıyla şöyledir: İmam Ali, İmam Hasan, İmam Hüseyin, İmam Zeynel Abidin, İmam Muhammed Bakır, İmam Cafer Sadık, İmam Musa Kazım, İmam Ali Rıza, İmam Muhammed Taki, İmam Ali Naki, İmam Hasan Askeri ve İmam Mehdi.

Alevilere göre Müslümanlar Hz. Muhammedden sonra 73 fırkaya ayrılacaklar ve Ehli-Beytin, On iki İmamların yolundan gidenler. Doğru yolda olacaklardır. Ehli-Beytin, On iki İmamların yolundan gidenler Fırkayı Naciye ve ya Güruhu Naci (kurtarılmış insanlar) olarak adlandırılır. Muhammed, Hz. Ali, Ehl-i Beyt, On iki İmamlar ve onları sevenlerin tümü, Güruh-u Naci kavramının kapsamında görülürler. Demek ki, Ehli-Beyt sevgisi Aleviliğin esasını oluşturur. Tevella ve teberra anlayışı da bu sevgiden kaynaklanır. Tevella, Ehli-Beyti, On iki İmamları, On dört Masumları, On yedi Kemerbestleri ve onların yolundan gidenleri ve sevenleri sevmek, teberra ise onları sevmeyenleri sevmemektir. Dede, Seyyit, Pir, Mürşid gibi adlarla anılan Alevi dinsel önderlerinin bir bölümünün soyları da On iki İmamlara dayanmakta olduğundan büyük saygı görmektedirler.

**AZƏRBAYCAN TÜRKCƏSİNDƏ:**Məlum olduğu kimi, Ələvilikdə Həzrət Əli (ə), Əhli-beyt (ə) və on iki imam (ə) sevgisi önəmli bir yerə sahibdir. "Əhli beyt" hərfi mənada, "ev xalqı (əhli) deməkdir. Ev əhli, yəni Əhli-beyt (ə), Həzrət Muhəmməd (ə), Həzrət Əli (ə), Həzrət Fatimə (s.ə.), Həzrət Həsən (ə) və Həzrət Hüseyndən (ə) ibarətdir. Onlar barəsində "Əhli-beyt", "Əhli-beyti-Rəsulullah", "Əhli-kisa", "Ali-Əba" məfhumlarından (ifadələrindən) istifadə edilməkdədir. Əhli-beyt (ə) Ələvilər arasında "Pənci-təni Ali-Əba" olaraq da adlandırılırlar. Ələvilər istər Qurani-Kərimə ("Əhzab" surəsi, ayə: 33), istərsə də Həzrət Muhəmmədin (ə) "Vida" xütbəsinə əsaslanaraq Əhli-beytə (ə) xüsusi bir sevgi ilə bağlanırlar. Əhli-beyt sevgisi, onları və soylarını əhatə edən iqtidar (hakimiyyət) hərisliyi içində olmamağı, doğruluq və dürüstlük rəmzi olmağı, haqsızlığa boyun əyməməyi və bərabərliyi əhatə edən dəyərləri də özündə qoruyub saxlamaqdadır.

On iki imam (ə) isə Ələvilərin Həzrət Muhəmməddən (s) sonra başçı olaraq tanıdıqları Həzrət Əli (ə) ilə Həzrət Fatimənin (s.ə.) soyundan gələn, Əhli-beytin (ə) davamçısı olan insanlardır. Onlar Ələviliyin təşəkkül tarixində böyük rola malik müqəddəs şəxsiyyətlər olaraq xatırlanırlar. On iki imamın (ə) adları sırası ilə belədir: İmam Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə), İmam Zeynəl Abidin (ə), İmam Muhəmməd Baqir (ə), İmam Cəfər Sadiq (ə), İmam Museyi Kazım (ə), İmam Əli-Rıza (ə), İmam Muhəmməd Tağı (ə), İmam Əli Nağı (ə), İmam Həsən Əsgəri (ə) və İmam Mehdi (ə.f).

Ələvilərə görə, Müsəlmanlar Həzrət Muhəmməddən (s) sonra 73 firqəyə ayrılacaq və Əhli-beytin (ə), on iki imamın (ə) yolundan gedənlər doğru yolda olacaqlar. Əhli-beytin (ə), on iki imamın (ə) yolu ilə gedənlər "Firqeyi-Naciyə" və ya "Güruhi-Naci" (qurtarılmış (nicat tapmış) insanlar) adlandırılır. Muhəmməd (s),

Həzrət Əli (ə), Əhli-beyt (ə), On iki imam (ə) və onları sevənlərin hamısına "Güruhi-Nacı" ifadəsi şamil edilir.

Deməli, Əhli-beyt (ə) sevgisi Ələviliyin əsasını təşkil edir. "Təvəlla" və "təbərra" anlayışı da bu sevgidən qaynaqlanır.

1.Təvəlli – Əhli-beyti (ə), on iki imamı (ə), on dörd Məsumu (ə), on yeddi Kəmərbəstləri (kəmər bağlayanları) və onların yolu ilə gedənləri, onları sevənləri sevmək;

2.Təbərri isə onları sevməyənləri sevməməkdir. "Dədə", "Seyid", "Pir", "Mürşid" kimi adlarla tanınan Ələvi din başçılarının bir bölümünün soyları da on iki imamdan(ə) gəldiyindən böyük hörmət görməkdədirlər.

***Ələsgərəm, ismim deyim aşikar,***
***Qədir bilən dosta başü-can nisar!***
***Təvəlli, təbərri şəriətdə var,***
***İstəyən şad olsun, düşmən kor olsun!***[56]

## ON YEDDİ KƏMƏRBƏND

***Rəhbər də Əli, şahi-vilayət də Əlidir,***
***Şanu-şərəfi-şöhrəti, izzət də Əlidir.***
***Zahid, mənə tərif eləmə baği-behişti,***
***Kövsər də Əlidir, elə cənnət də Əlidir.***[57]

***1.ƏbuzərQəffari:***ƏbuzəradıiləməşhurolanCündəbİslamıqəbul edənilkşəxslərdəndir (dördüncü, yaxudbeşincimüsəlmandır). MəkkədəhəzrətPeyğəmbərin(s) hüzurunagəlibİslamıqəbuletmiş, sonraöztayfasınınyanınaqayıtmışdı. O, Ühüd,

[56] Aşıq Ələsgər
[57]Seyid Nurəddin Dərafərin

BədrvəXəndəkmüharibələrindəiştiraketmişvəXəndəkmüharibəsin dənsonraMədinəyəköçmüşdür.

HəzrətPeyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "AllahƏbuzəribağışlasın! O, tək-tənhayaşayar, tək-tənhaölərvəməşhərədətək-tənhagələr." Həmçininbuyurmuşdur: "HərkəsİsaibniMəryəmintəvazökarlığınabaxmaqistəyirsə, Əbuzərəbaxsın."

OsmanonuRəbəzəyəsürgünetmişvəhicrətin 31-ci (yaxud 32-ci) ilindəeləoradavəfatetdi.

***2.Miqdad:***O, həzrət Peyğəmbərin (s) səhabələrindən və İslamı qəbul edən ilk müsəlmanlardandır. Peyğəmbərdən (s) sonra"Əli (ə) şiəsi" adı ilə məşhur olan birinci şəxs idi. Həzrət Peyğəmbəri-Əkrəm (s) onun barəsində belə buyurmuşdur: "Allah-taala mənəəmr etmişdir ki, dörd nəfərə – Əliyə, Miqdada, Salmana və Əbuzərə məhəbbət bəsləyim." İmam Baqir (ə) buyurmuşdur: "Üç nəfər kafir olmadı: Salman, Əbuzər və Miqdad." O, hicrətin 33-cü ilində Mədinənin yaxınlığında vəfat etdi. Qəbri Bəqidə yerləşir.

***3.ŞəhidƏmmarYasir:***O, həzrətPeyğəmbər (s) vəimamƏli (ə)-ınsəhabələrindənidi. AnasıSüməyyəİslamyolundaağırəzab-əziyyətlər, dözülməzişkəncələrəməruzqaldıqdansonraşəhadətəçatmışdı. HəzrətPeyğəmbər (s) hərdəfəonugördükdə, buyurardı: "İlahi, Yasirinailəsini (Əmmarınanasını) bağışla! Əlbəttəki, Allahonubağışlamışdır." ƏmmarPeyğəmbər (s)-dənsonraƏbuBəkrinxilafətkürsüsündəəyləşməsinəetirazedənoniki nəfərdənbiriidivəSiffeynmüharibəsindəşəhadətəçatdı. İmamƏli (ə) onunşəhadətindənsonrabuyurdu: "Əmmarınmatəminəqəmginolmayanşəxsinmüsəlmanlıqdannəsibi yoxdur. Həqiqətən, Əmmarınyeribehişt, qatilininyeriisəcəhənnəmdir!" SonraHəzrətonanamazqılıb,

Siffeyndətorpağatapşırdı.

***4.ŞəhidÜveysQərəni:***O, həmhəzrətPeyğəmbərin (s), həmdəimamƏlinin (ə) səhabəsiolmuşdur. HəzrətPeyğəmbər (s) onuİslamadəvətetdikdə, dərhalimangətirmişdivəİslamıtəbliğedənilkşəxslərdənbiriolmuşdur. AnasıxəstəolduğuüçünPeyğəmbəri (s) heçvaxtgörəbilməmişdi. Əlbəttə, birdəfəMədinəyəgəlibPeyğəmbəri (s) görməkistədi, lakinohəzrətevdəolmadığınagörəPeyğəmbəri (s) ziyarətetmədənYəmənəqayıtdı. Peyğəmbərə (s) oqədərməhəbbətbəsləyirdiki, Ühüdmüharibəsindəohəzrətindişlərininsınmasınıeşitdikdə, onundadişləriağrımağabaşladı. Peyğəmbər (s) ÜveysQərəniyəolanməhəbbətiniaşkaredibbuyurdu: “HərkəsÜveysQərəninigörsə, mənimsalamımıonasöyləsin.” O, bəzigecələrirüku, bəzigecələridəsəcdəhalındakeçirirdi. HəmişəimamƏlinin (ə) hüzurundaİslamındüşmənlərinəqarşıdöyüşürdü. Siffeynmüharibəsindəağırbirdöyüşdəşəhadətməqamınanailoldu.

***5.CabiribniAbdullahƏnsari:***O, Bədrmüharibəsindəiştiraketmişdir. AtasıAbdullahdaÜhüdmüharibəsindəşəhidolmuşdu. Onunvəsfindəçoxlurəvayətlərnəqlolunmuşdur. İmamBaqirin (ə) dövrünəqədəryaşamışvəPeyğəmbərin (s) salamınıohəzrətəçatdırmışdı. CabirPeyğəmbərin (s) apardığıbirçoxmüharibələrdəiştiraketmiş, imamƏlinin (ə)vəfalısəhabəsiolmuşvəSiffeynmüharibəsindəşücaətlədöyüşmüşdü. İmamHüseynin (ə) qırxındaohəzrətinqəbriniziyarətedənilkşəxsidi. Ömrününaxırlarındagözləritutulmuşvədoxsanyaşındaikənvəfatetmişdir.

***6.BilalHəbəşi:***O, həzrətPeyğəmbərin (s) səhabələrindənvəİslamıqəbuledənilkşəxslərdəndir, qaradərilibirqulolmuşvəBəni-Cəmqəbiləsindəyaşamışdır. O, İslamıqəbuletdikdənsonraPeyğəmbərin (s) qatıdüşmənlərindənolanÜməyyəibniXələfgöstərişverdiki, onuMəkkəninyandırıçıqumlarıüstündəuzadıb, sinəsininüstünəağırdaşqoyaraqondanAllahıinkaretməsiniistəsinlər. LakinBilalyeniqəbuletdiyidinindəsabitqədəmolmuşdur. HəzrətPeyğəmbərin (s) göstərişiiləƏbuBəkronualıb, azadetmişdir. BilalPeyğəmbərin (s) apardığımüharibələrdəiştiraketmişvəohəzrətinazançısıvəMədinəd ədəazandeyənilkşəxsolmuşdur. Peyğəmbərin (s) vəfatındansonrabirdəfədənartıqazandeməmişdir, odaxanımFatimeyi-Zəhranın (ə) göstərişiiləolmuşdur. Bəzitarixçilərinnəzərinəgörə, “Həyyəəlaxəyril-əməl” (xeyirliəməllərətələsin) cümləsiazandançıxarıldıqda, artıqo, azandeməyitərketmişdir. O, ƏbuBəkrləbeyətetməmişvəÖmərədemişdir: “Peyğəmbərin (s) canişinvərəhbərtəyinetmədiyişəxsəbeyətetmərəm!” BunagörədəÖmeringöstərişiiləMədinədənDəməşqəsürgünedildivə oradadaaltmış, yaxudyetmişyaşındaikənvəfatetdi.

***7.AbdullahibniAbbas:***O, Peyğəmbər (s)-inəmisioğlu, imamƏlinin (ə) səfiri, nümayəndəsivəİslamordusununsərkərdəsiidi. İmamƏli (ə) uşaqlıqçağlarındanonaİslammaarifiniöyrətməyəbaşladı. O, fiqh, təfsirvətəvilelmlərində, həttaənsabelmindəbaşqalarındantamşəkildəfərqlənirdi. Peyğəmbər (s) onunhaqqındabeləduaetmişdi: “İlahi! OnudinalimietvəQuranıntəvilinionaöyrət.” Cəməl, SiffeynvəNəhrəvanmüharibələrindəimamƏlinin (ə)

ordusundaiştirakedərəkşücaətlədöyüşürdü. O, SiffeynmüharibəsindəimamƏlinin (ə) ordusununsolcinahınınsərkərdəsiidi, imamHəsən (ə) vəimamHüseyn (ə) daonunordusundadöyüşürdülər. İbniAbbasimamƏlinin (ə) tərəfindənBəsrəninvalisitəyinedildi, vəohəzrətinşəhadətindənsonraimamHəsənini (ə) hüzurundaidi. AbdullahibniZübeyronuTaifəsürgünetdi. Ömrününaxırlarındagözləritutuldu, ammayenədəİslammaarifiniyaymaqdanəlçəkmədi, nəhayətyetmişbiryaşındaikənTaifdəvəfatetdi.

***8.ƏbuƏyyubƏnsari:***O, Peyğəmbər (s) vəimamƏlinin (ə) səhabəsiolmuşdur. HəzrətPeyğəmbər (s) onunatasınıngözlərinəşəfavermişvəMədinəyəhicrətedəndə, Mədinəməsciditikilibqurtaranaqədəronunevindəməskunlaşmışdı. ƏbuƏyyubPeyğəmbərin (s) apardığıbütünmüharibələrdəiştiraketmişdi. OhəzrətinvəfatındansonraimamƏlinin (ə) haqqınımüdafiəetmiş, OsmanınqətlindənsonraimamƏli (ə) iləbeyətedənilkşəxsolmuş, Cəməl, SiffeynvəNəhrəvanmüharibələrindədöyüşmüşvəimamƏli (ə) tərəfindənMədinəyəvaliseçilmişdir.

***9.ÜbeyyibniKəb:***O, həzrətPeyğəmbər (s) vəimamƏli (ə)-ınsəhabəsiolmuş, Bədrmüharibəsindəiştiraketmişvəvəhyiyazanlardanolmuşdur. HəzrətPeyğəmbər (s) onunlaSəidibniZeydarasındaqardaşlıqəqdioxumuşdu. O, Qurantəfsirçisivəqabaqcılqarilərdənolmuşdur. İmamSadiq (ə) onunhaqqındabuyurmuşdur: “BizQuranıonunqiraətiiləoxuyuruq. O, ƏbuBəkrinxilafətiniqəbuletməyənonikinəfərdənbiridir.”

***10.ŞəhidKumeylibniZiyadNəxəi:***O, imamƏlinin (ə)

ənyaxındostlarındanolmuşdurvəsəhabələrinarasındaböyükehtiram amalikidi. O, imamƏli (ə) tərəfindənHeyətməntəqəsinəvalitəyinedilmişdivəarifləronuohəzrət insirlərininsahibikimitanıyırdılar. İmamHüseyn (ə)-ındasəhabəsiolmuşdur. Həccacİraqınvalisiolduqdansonraonunqətlinəhökmverdi. Kumeylbuxəbərieşitdikdə, qaçıbgizləndi.HəccaconutapabilmədiyiüçünKumeylinqohum-əqrəbasının (beytül-maldanolan) hüquqlarınıkəsdi. Kumeylbuvəziyyətdənxəbərdarolduqda, qayıdıbözünüHəccacatəslimetdivəonadedi: “Allah-taalaqiyamətgünündəmənimləsəninarandahökmedəcəkdir! Əli (ə) mənəxəbərvermişdirki, mənisənöldürəcəksən.” Həccacəmretdiki, onunbaşınıbədənindənayırsınlar. O, doxsanyaşındaşəhadətəçatdı. QəbriKufəiləNəcəfarasındayerləşənSəviyyədədir.

***11.ŞəhidHüçribniƏdiy:***O, həzrətPeyğəmbərin (s) yaxınsəhabələrindənolmuş, ohəzrətinapardığımüharibələrdəiştiraketmişvətəqvasıdillərəzbərio lmuşdu. Həmişədəstəmazlıolar, gecələriibadətləkeçirərdi. İmamƏlinin (ə)davəfalısəhabələrindənolmuş, Siffeyn, ÇəməlvəNəhrəvanmüharibələrindəşüçaətlədöyüşmüşvəSiffeynmü haribəsindəimamƏlinin (ə) ordusununsərkərdəsiolmuşdur. HücrohəzrətinşəhadətindənsonraKufədəMüaviyəninəleyhinəçoxlu təbliğatapardı, nəhayətonunəleyhinəqiyametdi. Ziyadlaonunqoşunuarasındadöyüşbaşverib, onunözüvədostlarınınşəhadətəçatmasıilənəticələndi.

***12. ŞəhidMalikibniƏştər:***O, imamƏlinin (ə) ordusununsərkərdəsi, ohəzrətinənyaxındostuvəsəhabəsi, güclü, şücaətli, zahid, təvazökar, hörmətlivəşan-şöhrətlibirşəxsidi. Maliközmövlasınınməktəbindəinsaniyyətdərsiniöyrənmişvəözqüd

rətvəgücünüyalnızhaqq-ədalətyolundasərfetmişdir. Siffeynmüharibəsindəxəvaricinhəkəmiyyətməsələsiiləəlaqədarisrarlarıolmasaydı, artıqo, Müaviyəninvəonundostlarınınkökünükəsmişdi.

İmamƏli (ə) 38-cihicri-qəməriilindəonuMisrəhakimtəyinedib, onunüçünhökumətişlərivədünyanınbütünhökmdarlarıiləəlaqədarolannəsihətlivəhikmətlibirəhdnaməyazdı. Müaviyəbircasusgöndərib, onuƏrişməntəqəsindəzəhərlənmişbaliləşəhidetdi. İmamƏli (ə) onunşəhadətindənsonrabuyurdu: “MənPeyğəmbərüçünneçəidimsə, Malikdəmənimüçüneləidi. Kaş, siziniçərinizdəonunkimiikinəfərdostumolaydı!”

***13.ŞəhidMuhəmmədibniƏbuBəkr:***O, imamƏlinin (ə) xüsusisəhabələrindən, şiəaləminin ənböyükvəyüksəkməqamamalikolanşəxsiyyətlərindən biridir. Muhəmmədohəzrətinxüsusisəhabəsiolmaqdanəlavə, həmdəonuövladısayılırdı. OnunanasıƏsma, CəfəribniƏbiTalibinhəyatyoldaşıidi. Cəfərşəhidolduqdansonra, ƏbuBəkrəərəgetdivəMuhəmmədbuizdivacdandünyayagəldi. ƏsmaƏbuBəkrinölümündənsonraimamƏliyə (ə) ərəgetdivəbununladaMuhəmmədohəzrətinevindətərbiyəolundu. İmamƏli (ə) MalikƏştərinşəhadətindənsonraMuhəmmədibniƏbuBəkriMisrəhakimtəyinetdi. MüaviyəƏmrAsınbaşçılığıiləMisrəbirqoşungöndərdivəonlarlaMuhəmmədibniƏbiBəkrinarasındamüharibəbaşverdi. ƏmrAsOsmanıntərəfdarlarıiləəlbirolub, MuhəmmədibniƏbuBəkriməğlubetdivəonunboynunuvuraraqcəsədiniyandırdı. Onun qəbri Misirdədir.

***14.Hani ibni Ürvə:***Hani imam Əlinin (ə) səhabəsi idi, Fəhd

qəbiləsində öz şücaəti ilə məşhur olmuş və Siffeyn müharibəsində iştirak edib, şücaətlə döyüşmüşdü. Bu müharibədə Şam ordusundan Yəmur ibni Üseyd adlı bir nəfər meydana çıxıb, imam Əlinin (ə) ordusundakı döyüşçüləri mübarizəyə dəvət etdikdə, Hani demişdi: “Sübhanəllah! Nə üçün onunla mübarizə aparmaq üçün tələsmirsiniz?!” O, xəstə və yorğun olduğu halda, meydana gedib, ağır mübarizə apardıqdan sonra, onu qətlə yetirmişdi.

***15.Şəhid Meysəm ibni Yəhya Təmmar:***O, imam Əlinin (ə) xüsusi səhabəsi, yaxın tərəfdarı, ardıcılı olmuş və o həzrətin məktəbində təlim-tərbiyə görmüşdü. Həzrət ona gizli sirləri və qeybi xəbərləri öyrətmişdi. Bəzən gələcəkdə baş verəcək işlər haqqında xəbər verirdi. Quran təfsirində və fiqh elmində yüksək məqama çatmışdı. O, Bəni Əsəd qəbiləsindən olan bir qadının qulamı idi ki, imam Əli (ə) onu alıb, adını Meysəm qoymuşdu. Meysəm ismət və ədalət arasında olan bir məqama malik idi. Quran elmlərini o həzrətdən əxz etmiş, o da şəhadətindən öncə İbni Abbasa öyrətmişdi. Nəhayət, Übeydullah ibni Ziyad onu tutub dar ağacından asdı.

***16.ŞəhidHəbibibniMəzahir:***O, imamƏli (ə), imamHəsənvəimamHüseyn (ə)-ınxüsusivəvəfalısəhabələrindən, habeləelmdə, zahidlikdə, təvazökarlıqdaməşhurvəQuranhafiziidi, çoxluQurantilavətedirdi. Kərbəladayaşlıolmasınabaxmayaraq, canla-başladöyüşüb, küfrordusundanaltmışikinəfəriöldürdükdənsonraşəhadətəçatdı.

***17.ŞəhidİbrahimƏştər:***MalikƏştərinoğluİbrahimşiətarixininş ücaətliqəhrəmanlarındanvəimamƏli (ə), imamHəsən (ə) vəimamHüseyn (ə)-ınsəhabələrindənbiridir. O, SiffeynmüharibəsindəatasıiləbirgəMüaviyəninəleyhinəvuruşmuşv əMuxtarlabirlikdəKərbəlaşəhidlərininintiqamınıalmaqüçünqiyame tmişdi. İbrahim 67-

cihicriqəməriilindəMosuldaÜbeydullahibniZiyadvəHəsinibniNüm eyriələkeçirib, hərikisiniqətləyetirdi. MuxtarməğlubiyyətəuğradıqdansonraƏbdül-məlikləbeyətetmədi, ŞamvəMüsəbordularıarasındabaşverənmüharibədəöldürüldü. OnunbaşınıkəsibƏbdül-məlikinyanınaapardılar, bədəniniisəyandırdılar.[58]

## KIRKLAR MECLİSİ
## (Bu vaqiənin türkçə mətnini olduğu kimi veririk)

Peygamber Muhammet Mustafa (s) Mirac'a giderken, yolda önüne birarslan çıktı, arslan yatmış, yolukesmişti, o an, "Amcam-oglu Hz. Ali,şimdi burada olasaydı bu arslanınhakkından gelirdi" diye düşündü. Busırada bir ses duydu: yüzügünü(hatemini) arslana ver, Peygamber yüzügünü çıkardı arslanın ağzına verdi. Orada nişan kaldı, arslan sakinleşti.Peygamber Sidretül münteha'yaerişti. Dost dosta kavuştu. Doksan bin kelam söylendi, otuz bini şeriat, otuz bini tarikat, otuz bini ise hakikatti. Şeriat ve tarikat diğer mezheplere düştü. Hz. Ali'de ve Ehli Beytde 30 bin kelam olan hakikat kaldı. Cenab-I Hak ile 90 bin kelam konuşur. Bunun 30 bini sırrı hakikat olup Hz. Ali'de kalır. Bu sırr bir çok sırra gebedir. Evrenin nasıl ne şekilde yaratılıştan tutun Peygamber'imizden sonra neler olacaklarını bilmesine kadar. "Ben ilmin şehriyim, Ali ise kapısıdır" buna işarettir. 60 Bin kelamı halka anlatır. 30 Bin kelam Hz. Ali ve Ehli Beytde sır olur. Alevilik bu sırrın sadece küçük bir damlasıdır.

Miraç'ta Hz. Muhammet'e; süt, bal ve elma verildigi rivayet edilir. Bal aşka, süt sevgiye elma ise dostluğa işaret eder. Miraçtan döndükten sonra Resul hazretleri, ashab'i Suffa'nın kapısına vardı.

[58] Hüseyn Suri. "Qırx mövzu, qırx həqiqət"

Kırklar orada sohbet ederlerdi. O hazreti Resul, kapıya vurdu. "Kimsin" dediler. "Nedir istedigin?" Resul hazretleri: Peygamberim, açın kapıyı, içeri gireyim, siz erenler ile dem-i didar görelim" dedi. Içerdekiler:" bizim aramıza Peygamber sığmaz. Peygamberligini var ümmetine eyle" dediler. Peygamber hazretleri bunu işitip hemen geri döndü. Hak Teala Hazretinden ol vakit ses geldi ki, "Ya Muhammet, ol kapıya var..." Resul hazretleri o sesi işitip derhal geri döndü. Yine geldi, ol kapının halkasına vurup kapıyı tıklattı, içeriden "kimsin?" dediler. Hz Resul dedi ki?, Ben Resulüm...açın kapıyı, içeri gireyim, mübarek cemalinizi göreyim" dedi. Içerdekiler: "Bizim aramıza Resul sığmaz ve hem bize gerek degildir" dediler. Resul Aleyhisselam bu sözü işitince geri döndü, diledi ki feraget gele, kendi makamına geri sakin ola. Tanrı'dan Peygamberin kulağına aynı ses erişti: "Ya habibim, var yine o kapıya, o meclise dahil ol. Nere gidersin, dön geri." "SEYİD geri döndü. Geldi o kapının halkasına el vurdu. Işaret eyledi." Yine dönüp geldigini bildirdi, dediler ki, "Kimsin?" Resul dedi ki?. "Sirrul kayyum, hadimül fıkarayım.:" (yoksulların hizmetçisi olduğunu söyleyen Peygamberin o esnada "Ene biatihim, ene miskinim, ene fıkarayım" dedigi de rivayet olunur...Bu, "Yoksulum, sizlerden birisi ve sizlere uyanım" demek olur..) Kırklar dediler ki "Merhaba! Ehlem ve Sehlen" dediler. Yani, Hoş geldin, kadem getirdin, gelmekliğin mübarek olsun" dediler. Resul hazretleri bismilləh deyip ol kapıdan içeri girdi. Evveli sağ ayağını bastı baktı gördü ki, otuz dokuz sahabe otururlar. Tam 39 kişi vardır. Üstelik bu meclis kadın ve erkeklerden oluşmuştur. Bunların 22'si erkek 17'si kadındır. Muhammet' yer gösterilir. O'da gösterilen yere oturur. Hz. Ali'de meclistedir. Muhammet tesadüfen Ali'nin yanına oturur. Hz. Muhammet sorar. "Size kimler denir?" der. "Bize Kırklar denir" diye yanıt alır. "Ama burada 39 kişi saydım" der. "Selman-ı Pak Can Parstadır"denir. "Peki sizin ulunuz, büyüğünüz, küçüğünüz kim" diye sorar Hz.

Muhammet. Gelen yanıt şöyle olur: "Bizim küçüğümüz, büyüğümüz yoktur. Küçüğümüz de uludur, büyüğümüz de uludur. Birimiz kırkımız, kırkımız birimizdir" denir. Bunun üstüne Muhammet meclisten bunu kendilerine kanıtlamalarını söyler. O sırada Ali kolunu uzatır ve gömleğini sıyırır. İçlerinden biri "destur" diyerek bıçağın ucu ile kolunu hafif kanatır. Kolundan bir damla kan akar. Onu, her can'ın kolundan birer damla kanın gelmesi izler. 40. canın bir damla kanı da pencereden içeri gelir. Bu ise Selman-ı Pak'ın kanıdır. Sonra Hz. Ali kolunu bağlar, hepsinin kanaması durur. Selman-ı Pak, Parstan dönüşte bir üzüm tanesi getirir. O'nu Hz. Muhammet'e verir ve bölüştürmesini ister. Muhammet erilen kapta üzüm tanesini ezer, çıkan dem meclisteki kadın-erkek canlara dağıtılır. Kırklar üzüm suyunu içerler. Hep birlikte mest olurlar. "Ya Allah" deyip semah dönerler. Hz. Muhammet'te onlara katılır. Büyük bir coşku ile vecd halinde semah dönülürken Hz. Muhammet'in başından sarığı (imamesi) düşer. Kırk parçaya bölünür. Kırklar parçaları bellerine bağlarlar, kemerbest olurlar. Dönüşte Ümmetine anlatırken yaşadıklarını içeriye Hz. Ali girer. Peygamberin önüne ağzından çıkardığı yüzüğü koyar. Bu olaydan sonra Allah'ın aslanı denirmiştir. Bu olayın kaynağı İmam Cafer Sadık'ın buyruğunda yazar. Yeddi Ulu Ozanların deyişlerinde dile gelir.

Yeddi Ulu Ozanlardan biri Şah Xətaidir. Azərbaycan Səfəvilər Dövlətinin banisi, könüllər Sultanı, Əhli-beyt (ə) aşiqi Ş.İ. Xətai qırxlar cəmini öz yaradıcılığında tərənnüm etmiş və qırxlar cəmi barədə türk dilində iki gəraylı yazmışdır. Hər iki gəraylını oxucuların nəzərinə çatdırırıq:

***Ol şerbetten biri içti,***
***Cümleside oldu heyran.***
***Mömin, müslim üryan, büryan,***
***Hep girdiler semaha.***

*Cümleside el çırpıben,*
*Dedilerki Allah-Allah.*
*Muhammed bele girdi,*
*Kırklar ile semaha.*

*Muhammedim cuşa geldi,*
*Tacı başından tüştü.*
*Kemeri kırk pare oldu,*
*Hepsi sardı kırklara.*

*Muhammed evine gitdi,*
*Ali Haqqı tevaf etdi.*
*Hatemi önüne koydu,*
*Dedi saddaqsın ya Ali.*

*Evveli sen, ahiri sen,*
*Zahiri sen, batini sen.*
*Cümle sırlar sana ayan,*
*Dedi şahi-Evliya.*

*Şah Hatayım vakif oldum,*
*Ben bu sırrın ötesine.*
*Hakkı inandırammadım,*
*Özü çürük ervaha.*

***

*Kırklar Meydanına Vardım*
*Gel Beri Ey Can Dediler.*
*İzzet İle Selam Verdiler*
*Gel İşte Meydan Dediler.*

*Kırklar Bir Yerde Durdular*
*Otur Deyü Yer Verdiler.*
*Önüme Sofra Serdiler*
*El Lokmaya Sun Dediler.*

*Kırkların Kalbi Durudur*
*Gelenin Kalbi Arıdır*
*Gelişin Kandan Beridir*
*Söyle, Sen Kimsin? - Dediler.*

*Gir Semaa Bile Oyna*
*Silinsin Açılsın Ayna.*
*Kırk Yıl Kazanda Dur Kayna*
*Dahi Çiğ Bu Ten Dediler.*

*Gördüğünü Gözün İle*
*Söyleme Sen Sözün İle.*
*Andan Sonra Bizim İle*
*Olasın Mihman Dediler.*

*Düşme Dünya Mihnetine*
*Talip Ol Hak Hazretine.*
*Abı-Zemzem Şerbetine*
*Parmağını Ban Dediler.*

*Şah Hatayi'm Nedir Halin*
*Hakk'a Şükr Et Kaldır Elin.*
*Gıybetten Kese Gör Dilin*
*Her Kula Yeksan Dediler.*

**Türk dilini bilməyən həmvətənlərimizə qırxlar cəminin kimliyi daha aydın olsun deyə azərbaycan dilində bəzi əlavələrlə**

**oxucuların diqqətinə çatdırırıq.**

Əziz Peyğəmbərimiz Muhəmməd Mustafa (s) Meraca gedərkən yatıb yolu kəsmiş bir aslanla rastlaşdı. O an "əmim oğlu Həzrət Əli (ə) indi burada olasaydı, bunun öhdəsindən gələrdi"- deyə düşündü. Bu anda səs eşitdi: "Üzüyünü aslana ver".

***Mustafa gördü səni aslansifətli bir mələk,***
***Sahibi-meraci , həm tacı-livasan, ya Əli.***

Peyğəmbər (s) üzüyünü çıxardı və aslanın ixtiyarında qoydu. Artıq nişan qaldı aslan sakitləşdi.

***Aslan olub merac yolunda yatan,***
***Əbu-Cəhlin daşın havaya atan,***
***Xurma lifəsiynən barmağın çatan,***
***Ağ divi zindana salan, ya Əli.***

Peyğəmbər (s) Sidrətül-Müntəhaya çatdı. Dost dosta qovuşdu. Doxsan min kəlam deyildi, otuz mini şəriət, otuz mini təriqət, otuz mini isə həqiqət haqqında.

***Çıxdı meraca Muhəmməd, qıldı doğsan min kəlam,***
***Sirri-Həqq, həm məhrəmi-əsrar sənsən, ya Əli.***

***Bu Xətai xəstənin, sənsən muradı, məqsədi,***
***Xanda baxsam görünən didar sənsən, ya Əli.***

Haqq aşiqi Ustad Dirili Aşıq Qurbani bu deyilənləri aləmi-röyada görmüş və bir ustadnaməsində təsdiq etmişdir.

***Yatmışdım üstümə gəldi ərənlər,***
***Səfil, nə yatmısan, oyan, - dedilər.***
***Oyanıb qəflətdən açdım gözümü,***

***Doxsan min kəlməyə bəyan dedilər.***

Meracdan döndükdən sonra Rəsulullah (s), əshabi-süffənin qapısına gəldi.

"Qırxlar" orada söhbət edirdilər. Rəsulullah (s) qapını döydü. İçəridən: "Kimsən, nədir istəyin? Rəsulullah (s): "Peyğəmbərəm, açın qapını, içəri girim, siz cəm əhlinin cəmalını görüm"-dedi. İçəridəkilər: "Bizim aramıza Peyğəmbər sığmaz. Yaxşı olar, peyğəmbərliyini ümmətinə elan edəsən" dedilər. Allah Elçisi bunu eşidib dərhal geri döndü. Haqq-Təaladan nida gəldi ki,: "Ya Muhəmməd, o qapıya qayıt". Rəsulullah (s) İlahi səsi eşidib dərhal geri döndü və yenidən həmin qapını döydü. Yenə soruşdular ki, kimsən? Rəsulullah (s) dedi: "Sirrul Qəyyum, hadimül fıkarayam:" (Yoxsulların xidmətçisi olduğunu söyləyən Peyğəmbərin o əsnada "ənə biatihim, ənə miskin, ənə füqara" dediyi də rəvayət olunur. Yəni, yoxsulam, sizlərdən biriyəm və sizlərə qoşulanam.

Qırxlar: "Salam! Əhlən və səhlən!" Yəni, xoş gəldin, qədəm gətirdin, gəlişin mübarək olsun," - dedilər. Rəsulullah (s)"Bismilləh" deyib, qapıdan içəri girdi. Baxıb gördü ki, otuz doqquz səhabə oturublar. Onlardan biri bazara çıxıb yemək almağa getmişdi. Yemək dalınca gedən Səlman Farsi idi. Səlman Farsinin Mərdlərin şahı Həzrət Əliyə (ə) məhəbbəti vardı. İçəridəkilər ayağa qalxıb o Həzrətə yer göstərdilər. Seyid keçib Murtəza Əlinin (ə) yanında oturdu. Lakin Əli (ə) olduğunu bilmədi. Rəsulullah (s) baxıb gördü ki, oturanların 22-si kişi, 17-si qadındır. Xanın Fatimə Ana da oradadır. Rəsulullah (s)soruşdu: "Sizlər kimlərsiniz? Cavab verdilər ki, "bizə qırxlar" deyərlər. Muhəmməd Mustafa (s) dedi: "Mənə qaranlıq qaldı, sizin kiçiyiniz və böyüyünüz kimdir? Həm də ki, 40-dan biriniz əskikdir, o hardadır?". "Ya Seyidullah, o biri Səlmandır, yemək ardınca getdi"-deyə buyurdular. Həmçinin dedilər ki, nə üçün soruşdunuz? Səlman da burada hazırdır. Rəsulullah (s)onlardan bunun üçün bir

nişan istədi. Bu vaxt Şahı-Mərdan Əli (ə) mübarək qolunu uzatdı və digəri "destur" deyə, ona neştər və bıçaq vurdu. Bir damla qan rəvan oldu, o vaxt cümləsinin biləyindən də qan axdı. Bir damla qan da pəncərədən gəlib meydana töküldü. Həmin bir damla eşikdə olan Səlman Farsinin qanı idi. Əliyyəl Mürtazanın (ə) qolunu bağladılar, cümləsinin qanı dayandı.

İrfan ədəbiyyatının gözəl simalarından olan Əhli-beyt (ə) məddahı Fəxrəddin Salim bir rübaisində 40-lar cəmini belə nəzmə çəkib:

***Qırxlar cəminə vardı əziz Peyğəmbər,***
***Gördü vurulub qırxına da bir neştər.***
***Pişvaza çıxan cümlə məlaik hazır,***
***Naz ilə gəlir şahım Əliylə, Qəmbər!***

Səlman Farsi gəldi. Bir üzüm dənəsi gətirib Həzrət Seyidin önünə qoydular. Birlikdə "Ey fəqirlərin xadimi, xadimilik edib, bu üzüm dənəsini qırxlarapayla!" - dedilər. Həzrət Seyid (s) bir az düşündükdən sonra: "Bunlar qırx kimsənədir, bir üzüm giləsini kimə verim?" - dedi.

***Bir gilə göndərdi qırxlar cəminə,***
***Hökm olundu ərşi-kürsi-zəminə,***
***İşarə eylədi göydəki günə,***
***Günü günortadan qaytaran Əli.***

Dərhal uca Tanrıdan Cəbrayıla (ə) əmr olundu ki, "Ey Cəbrayıl, Həbibim müşkül işə düşüb, tez yetiş, cənnətdəki nurdan bir qab al, Muhəmmədə (s) çatdır. Bu üzümü həmin qabın içində əzib şərbət etsin. Qırxlar içsinlər" - dedi. Cəbrayıl (ə) cənnətdən nur götürüb Rəsulullahın (s) hüzuruna gəldi. Haqq-Təalanın salamını Peyğəmbərə (s) çatdırdı. Cənnətdən gətirdiyi qabı Onun

önünə qoydu: "Şərbət et, ya Muhəmməd!" - dedi. Qırxlar baxıb gördülər ki, Seyidin qarşısında nurdan bir qab zahir oldu. Qab gün kimi şölə saçırdı. SEYİD o qabın içində üzümü şərbət edib qırxlara payladı. Bu işdə Haqq-Təalanın hikməti var idi. Gərək bu qüdrət zahir olaydı. Qırxlar o şərbətdən içdilər. Cümləsi məsti-ələst oldular, bir dəfə "Ya Allah" deyib dəst verdilər,sidqi-candan meydana girdilər, yəni özlərindən keçdilər. Seyidin mübarək başından yerə düşən əmmaməsi qırx yerə bölündü, qırxlar hərəsi birini götürüb bellərinə bağlayıb, Haqq üçün səma etdilər. Daha sonra Rəsulullahın (s) ətrafına toplanıb Meracı soruşdular. Onlar dedilər:" Ya Rəsulullah, Allah xatirinə, Haqq-Təalanın sizlərə bəyan etdiyi sirlərdən nə isə bəyan et ki, bizlər də bəhrələnək. O sırada Şahi-Mərdan Əli (ə) da yerindən qalxıb Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) gördü ki, Merac yolunda önünə çıxan aslana verdiyi üzük onun barmağındadır. O zaman həqiqəti fəhm etdi. Səhabələrinə dedi ki: "Gəlin həqiqətə talib olun ki, Haqqın sirrinə yaxın olasınız".

Sonra səhabələr soruşdular: "Həqiqət nədir, bəyan eylə, görək!". Peyğəmbər (s) buyurdu: "Həqiqət odur ki, özünüzü Haqqa təslim edəsiniz və Onun əmrlərini yerinə yetirəsiniz". Səhabələr Rəsulullaha (s) dedilər ki, "biz belə bir beyətə razıyıq. İqrar verib talib oldular. Rəsulullah (s) buyurdu ki: "Ey səhabələr, həqiqət Əli (ə) ilədir, Həzrətə iman gətirin". Səhabələr gəlib Əliyə (ə) beyət etdilər, talib olub and içdilər. (Rəsulullah (s) buyurdu) O cəmdə əvvəl iki adamı müsahib eylədilər, ən son Peyğəmbər (s), Əli (ə) ilə müsahib və qardaş oldu. Birlik mənasını göstərdilər. Peyğəmbər (s) öz mübarək əliylə qurşağını açdı, Əlini (ə) bağrına basdı. İkisi bir köynəyə girdilər iki baş, bir gövdə olduğu göründü. Peyğəmbər (s) Əli (ə) haqqında bu hədisi oxudu: "Ləhmukə ləhmi, dəmukə dəmi, ruhukə ruhi, cismukə cismi". Yəni, Əlinin (ə) əti mənim ətim, qanı mənim qanım, ruhu mənim ruhum, cismi də mənim cismimdir. Adəmdən Xatəmul-ənbiyaya gələnə qədər yol,

ərkan yox idi. Muhəmməd Mustafa (s) və Əliyyəl Mürtəza (ə) cümlə-aləmə rəhmət üçün gəldilər, dini zahir etdilər. Ərkan qoydular. Şəriət zahir oldu. Təriqət gizli, həqiqət sirr olaraq qaldı. Şəriət Muhəmmədin (s) gətirdiyi hökmlərdən ibarət idi. Təriqət Həzrət Əlinin (ə) xas insanlara öyrətdiyi elmi-nur idi.Həqiqət isə sirr olaraq qaldı. (Bu rəvayətin mənbəyi İmam Cəfəri Sadiqin (ə) buyurduğu hədisə əsaslanır və yeddi ulu ozanın dilindən qələmə alınıb).

Şah İsmayıl Xətai yaradıcılığında da 40-lar pirindən söhbət açılır və Xətai də Qırxlar pirinin yüksək məqam sahibi olduğunu qeyd edir. Bu qırx nəfərin 23-ü kişi, 17-si isə qadındır. Rəvayətlərə görə onların məzarı Dağıstan ərazisindədir. Şah İsmayıl Xətai 40-lardan danışarkən onların əzəmətini qəlb süzgəcindən keçirərək insanların qırxlara oxşamasını tövsiyə edir və deyir:

***40-lar meydanına vardım,***
***Gəl bəri, ey can, dedilər.***
***İzzət ilə salam verdim,***
***Gəl uş da meydan, dedilər.***

***Qırxlar bir yerdə durdular,***
***Otur, deyə yer verdilər.***
***Önümə surba sərdilər,***
***Əl loxmayasun, dedilər.***

***40-ların qəlbi durudur,***
***Gələnin qəlbin arıdır.***
***Gəlişin hardan bəridir,***
***Söylə, sən kimsən? - dedilər.***

***Gir simayə, belə oyna,***
***Silinsin, açılsın ayna,***

***Qırx il qazanda dur, qayna,***
***Daha çiy bu tən, dedilər.***

***Gördüyünü gözün ilə,***
***Söyləmə sən sözün ilə,***
***Ondan sonra bizim ilə,***
***Olasan mehman, dedilər.***

***Düşmə dünya möhnətinə,***
***Talib ol Haqq Həzrətinə,***
***Abi-Zəm-zəm şərbətinə,***
***Barmağını bən dedilər.***

***Şeyx Xətai, nədir halın?***
***Haqqa şükr et, qaldır əlin,***
***Qeybətdən kəsə gör dilin,***
***Hər qula yeysən, dedilər.***

Ş.İ.Xətai özü də müqəddəs övliyalardan və qırxlar məclisinin üzvlərindən biri olub. Bu övliya da tarix boyu bir çox şair və aşıqlar tərəfindən vəsf olunub:

***Gözlərimə can göründü,***
***Şah Xətai, Şah Xətai.***
***Qırxlara meydan göründü,***
***Şah Xətai, Şah Xətai.***

***Göydən yerə endi Heydər,***
***"Hu, hu!" deyib olduq əsgər,***
***O şah kimdi? Qulu Qəmbər,***
***Şah Xətai, Şah Xətai.***

***Önündədir yeddi mələk,***

***Əlindədir çərxi-fələk,***
***Min bir adın bilmək gərək,***
***Şah Xətai, Şah Xətai.***

Yeddi ulu ozandan biri olan Pir Sultan Abdal da"Qırxlar cəmi"ndə Salmanın içdiyi üzüm suyundan (şərbətdən) içməyi təmənna edir:

***Payımgelirerenlerinpayından,***
***OnikiimamnesliAlisoyundan.***
***Selmanıniçtigiüzümsuyundan,***
***Birseniçsevgilim, birdebanaver.***

Miskin Abdal yaradıcılığında "40-lar piri" sözünə daha çox rast gəlinir:

***"40-lar piri" özü verib dərsimi ümman mənim,***
***Çətin girə ürəyimə ləini-şeytan mənim.***
***Miskin Abdal mənəm, söz mənim, meydan mənim,***
***Qoruyanım, özün qoru xain dostlardan məni.***

Və y*axud:*

***Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,***
***Ha silkinsəm, dəryan dərin, narın üzə bilmərəm.***
***"40-lar piri" özü düzüb ayağıma atəşi,***
***Alışaram Səməndər tək, narın üzə bilmərəm.***

**"40-lar piri"**ndən bir çox insanlar imdad istəyib. Ən çox aşıq ədəbiyyatının nümayəndələri 40-lar pirinə üz tutub. Miskin Abdalla həməsr olan haqq aşiqi Dədə Qurbaninin yaradıcılığına nəzər saldıqda Haqq aşiqinin "**40-lar"** məclisindən bəhrələndiyinin

şahidi oluruq.

***Qurbani der: Arayıban tapmışam,***
***Qırxlar məclisindən bir pay qapmışam,***
***Kəbədisə, mən də birin yapmışam,***
***Min könüldən bir yol gedər o bürcə.***

Aşıq Abbas Tufarqanlı bir ustadnaməsində deyir:

***"40-lar piri" özün yetiş dadıma,***
***Bir də yetir məni yar ayağına.***

Borçalı mahalının azman sənətkarlarından olan Aşıq Xındı Məmməd "Mən" rədifli qoşmasında Həzrət Əlinin (ə) fəzilətlərindən söhbət açaraq Qırxlar məclisini vəsf edir:

***Yeri, göyü qüdrətindən xəlq edən,***
***Qadir Sübhan, bir Allaha qulqm mən.***
***Qırxlar məclisində qulluq eyləyən,***
***İsmi-lamı Yadullaha qulam mən.***

Aşıq Şəmşirin "Nökəriyəm" rədifli gəraylısına nəzər saldıqda görürük ki, Dədə Şəmşir də özünü Həzrət Əlinin (ə) misilsiz xidmətçisi Qənbərlə (ə) müqaisə edir və İbrahim Xəlilullahı (ə) Nəmrudun odundan qurtaran, Həzrət İsanı (ə) çarmıxdan azad edən, bütün çağıranların imdadına yetişən "Qırxlar cəmi"nin piri olan Həzrət Əlidən (ə) imdad diləyir:

***Bu nə qəmdir mən çəkirəm,***
***Mən ki, Əli nökəriyəm.***
***Onda çoxdur rəhmi-kərəm,***
***Onun bəli, nökəriyəm.***

***Xəlili nardan qurtaran,***
***İsanıdardanqurtaran.***
***Çağırandauzaqlardan,***
***Dadagəli, nökəriyəm.***

***Şəmşir, çağırqırxlarcəmin,***
***İmdadeləərşi-zəmin .***
***Bubivəfa, ömrükəmin,***
***Bütünilinökəriyəm.***

Türk ədəbiyyatına nəzər saldıqda qardaşlarımızın əsərlərində də "Üçlər", "Beşlər", "Yeddilər", "On iki İmam" "On dörd məsum", "17 kəmərbənd" və "72 şühəda" ilə bərabər "Qırxlar" haqqında da kifayət qədər məlumatın şahidi oluruq. Misal olaraq İbrahim Muratın "Hacı Bektaş Vəli haqqında" yazdığı məqaləyə nəzər salaq.

Türk ədəbiyyatının ünlü yazarlarından olan İbrahim Murat "Hacı Bektaş Vəli haqqında" yazdığı kitabda Allah dərgahına gedən qulların yollarını bu ardıcıllıqla göstərir və yazır: "Hacı Bektaş Vəliyə görə, Allahın qullarına yardımçı, mürşid, yol göstərən olaraq göndərdiyi xeyirli insanlar vardır. Bunlar insanlığa Tanrının hədiyyəsidir.

Bu insanlar haqqında danışarkən "Üçlər", "Beşlər", "Yeddilər", "On iki İmam", "On dörd məsum", "72 Kərbəla şəhidləri" və"Qırxlar" deyə işarə edilir.

**Üçlər:** Allah-Təala (c.c), Həzrət Muhəmməd (s) və Həzrət Əli (ə).

**Beşlər: Beşlik iki mənada işlənmişdir.**

**I-** Beşlərin dördü Dünya, biri insanla əlaqəlidir. Dünyaya aid edilən Dördlük aşağdakılardır: Od, Külək,Su, Torpaq

Od və külək bir-birlərinə əlaqəsi olduğuna görə bu ikisi

birdir. Həmçinin su və torpaqda bir-birilərinə əlaqəsi olduğuna görə bu ikisi də birdir.Əslində dördü bir köynəyə girdiyinə görə bir hesab olunur. Beşincisi isəCandır. Can Üçlərin toplamıdır. Beləki Vücud, qan və iradənintoplamına Can yəni İnsan deyilir.

**II -** Həzrət Muhəmməd (s), Həzrət Əli (ə), Xanım Fatimə (ə), Həzrət Həsən (ə) və Həzrət Hüseyin (ə).

**Yeddilər: Xə**tai, Nəsimi, Füzuli, Qul Himmət, Virani, Yəmini və Pir Sultan Abdal.

**Oniki İmamlar:** Həzrət Əli Kərramallahu Vəchə, İmami Həsən, İmami Hüseyn, İmami Zeynəlabidin, İmami Muhəmməd Baqir, İmami Cəfər Sadiq, İmami Musa Kazım, İmami Əli Rza, İmami Muhəmməd Təqi, İmami Əliyyul Nəqi, İmami Həsən əl-Əsğəri, İmami Muhəmməd Məhdi.

**On dörd məsum:** Rəsuli-Əkrəm (s), Xanım Fatimei-Zəhra (s.ə), Həzrət Əli Kərramallahu Vəchə, İmami Həsən, İmami Hüseyn, İmami Zeynəlabidin, İmami Muhəmməd Baqir, İmami Cəfər Sadiq, İmami Musa Kazım, İmami Əli Rza, İmami Muhəmməd Təqi, İmami Əliyyul Nəqi, İmami Həsən əl-Əsğəri, İmami Muhəmməd Məhdi.

**On yeddi kəmərbənd:** Peyğəmbər (s) zamanında Həzrət Əliyə (ə) bağlı 17 şəxs.

**Cəfərilikdə Qırxlar:** Əhli-beyt (ə)davamçılarının inancına görə qırxlar - Allahın (c.c) ruhları yaratdığında yaradılan, hər dövr və zamanlarda yer üzündə olduqlarına inanılan kimsələrdir. Bu qırx kimsə dünyanın çeşidli zamanlarında insan surətində yer üzünə gəlişi, ölümlərindən sonra da dəyişik donlarda (başqa-başqa surətlərdə) yaşadıqları və dünya durduqca da yaşayacaqları qəbul edilənlərdir.

Qırxların 23-ü kişi, 17-si qadındır. Qırxların isimləri heç bir qaynaqda görülməmişdir.

# III fəsil

*Əla ya əyyuhəssaqi, gətir cam ilə mey əldə,*
*İşim müşküldədir, rəhm et ki, eşq aldatdı əvvəldə.*

*Səba əsdikcə zülfündən ətirlər saçdı dünyayə,*
*Könüllər bənd olub qaldı əsir tək qara teldə.*

*Boya səccadəni meylə, desə piri-müğan hər gah,*
*Müsafir nabələd olsa, yəqin ki, mat qalar çöldə.*

*Harayla səslənən zənglər deyir: durma, gedir karvan,*
*Necə mən şad olum indi nigarımla bu mənzildə?*

*Gecə zülmət, əsir yellər, gəmim girdaba düşmüşdür,*
*Nə anlar dərdimi bir kəs oturmuş olsa sahildə?*

*Bütün bu gördüyüm işlər məni bədnam edər axir,*
*Məgər gizlin qalar bir söz, gəzirsə nəğmə tək dildə?*

*Nigari görmək istərsən, Onu tərk eyləmə, Hafiz,*
*Ki, məqsəddən kənar olmaz, nəzər heç mərdi-kamildə.*

# İSLAMDA DÖRD QAPI VƏ YA DÖRD MƏRHƏLƏ

İslam dinində dörd qapı vardır. Bu qapılar İrfanvə təsəvvüfdə (sufizmdə) dörd ruhani təkamül mərhələsindən ibarətdir: **"Şəriət","Təriqət","Mərifət","Həqiqət"**. Bumərhələləri özündən əvvəl gələn (həm zaman, həm də səviyyə etibarilə) ariflərin nəzəri sistemləri əsasında böyük təsəvvüf teoloqu Əbu Hə-mid Qəzzali şərti olaraq tərtib etmişdir. Bəli, məhz şərti olaraq. Yəni burada mütləq olan heçnə yoxdur. Klassik Şərq müəlliflərinin əsərlərinin sonunda deyilidiyi kimi, "hərşeyin doğrusunu Allah bilir" kimi tərzdə yanaşsaq, ürfani bir məcraya hansısa sistemi, nəzəri cədvəlçiliyi sığışdırmaq mümkün deyil.

Bu mərhələlərin, göründüyü kimi, sonuncusu "həqiqət"dir. Hər şey ona doğru, onu hədəf alaraq gedir. Burada başqa bir məqam ondan ibarətdir ki, insan təkamülündən bəhs edən bu qatlar sonda, yəni "həqiqət"də "insan"dan xilas olur. Yəni, insan amilinin yerini Haqq, Allah, həqiqət tutur. Bunu böyük Mühyiddin Ərəbi belə təsnifatlandırır:

***1.ŞəriətAllahdaninsanlaraseyrdir(mesajdır,görüntüdür).***

***2. Təqiqətİnsandan Allaha seyrdir.***

***3. Mərifət Allahdan insanlara seyrdir (bu dəfə "mərifət" səviyyəsində, yəni ürfani dünyagörüşlər çərçivəsində)***

***4. HəqiqətAllahdan Allaha seyrdir.***

Bir az diqqət etsək görərik ki, burada "həqiqət" Allahın özünə deyilir. Bir az da incələsək,bu məqamda Allah-insan ayrılığı yoxa çıxıryəni, **"fənafillah" Allahda yox olma** başlayır.

İndi bütün bunlardan sonra insanın həqiqət barədəki düşüncələri necə dolaşmasın? Yunus Emrədən tutmuş, Aşıq Ələsgərə qədər"həqiqət"i məhz bu nöqteyi-nəzərdən təhlil etmiş, bizim doğma ariflərimiz. Məsələn, Yunus deyir:

***Şəriət, Təriqət yoldur varana,***
***Mərifət, Həqiqət ondan içəri.***

***Məni məndə sorma, məndə deyiləm,***
***Bir mən vardır məndə, məndən içəri,..***

Qısa ömür sürən ŞahİsmayılXətainin taxt-tacıoğlu Şah Təhmasibə qaldı. Lakindünyatarixində ənuzun hökmranlıq sürənlərdən biri olan Təhmasib Xətainin mənəvi varisi ola bilmədi. Şah Təhmasib sadəcə siyasi hakimiyyətə gələ bildi. O, atası kimi xalqın “mürşidi-kamili”, “dədəsi”, “piri” olmadı. İndinin özündə dədərvişlər arasında (Təbriz, Maku və Anadolunun bir hissəsindəki Əhli-Həqlərdə) Şah Xətainin “nihan dərvişlər”ə yazıb bağışladığ ı“Divan” mövcuddur. Onu demək lazımdırki, əvvəla, bu divandakı mətləblər ürfanın təriqətvə mərifət mərhələləri üçündə yeni və batini idi. Bu divan yalnız Əhli-Həqlərə, yəni ürfanın“həqiqət” mərhələsində olanlara ünvanlanmışdı. Şah Xətainin zahiri şahlığı, yəni hökmdarlığı, taxt-tacı oğlu Təhmasibə, batini, könül şahlığıisə həmin batini, nihan dərvişlərə, Əhli-Həqlərə verildi. Bu, tarixi zərurətdən çox, İlahi təqdir idi. Xətai könüllər şahıidi. Onun şahlığıda Xətailiyidə əslində təsəvvüf sirlərini özündə ehtiva edirdi. “Şah” kəlməsi, qeyd olunduğu kimi, könüllər şahına isnad edilir. Əksər ürfan dahiləri də “Şah” olaraq çağrılıblar. Məsələn, Şah Fəzlullah Nəimi, Şah Nemətullah Vəli, Şah Qasim Ənvar və s. Bu zatların heç birisi, daşıdıqları “şah” ünvanına rəğmən zahiri taxt-tac sahibi olmayıblar. Şah Xətai də məhz onlar kimi, batini dünyanın şahıidi. Təsəvvüf aləmində maraqlı bir məqam mövcuddur: Muhəmməd(s) “peyğəmbər”, Həzrət Əli (r.ə.) isə “şah” adlandırılır. Bu ideoloj ifikir İslam şəriətində qətiyyən qəbul olunmur. Şah Xətai isə yazırdı:

***Şəriət yolunu Mühəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi...***

Buradakı“Şah”qətiyyən 4-cü xəlifə Əliibn ƏbuTalibdeyil. Bu məhz aşiq və ariflərin vəsf etdiyi Əlidir ki, onu Xətai“şah”adlandırır. Birhaşiyə çıxaraq, Türk yazarı SalihÇiftinmaraqlıfikirlərinə istinadetməkistərdik:“Sufilərin Hz. ƏlivəƏhli-Beytyönümlü fikirlərinin qaynaqlarınıtəsbitetmənin ənəmin yolu təsəvvüfi mətnlərdən hərəkət etməkdir. Bu şəkildə ilkdönəmdənetibarən Hz. Əli ilə əlaqədar axtarılanları ortayaqoymaq və təhliletməksurətiylə onlarıngörüşlərinin təməlləriylə bağlı bəzi ip ucları əldə etmək ehtimalı mövcuddur”.

Bu təsbit Şah İsmayıl Xətainin də məfkurəvi dünyasına şamil oluna bilər. Yəni,onun“Əli”si şəriətin,dininyox,təsəvvüfün,eşqin “Əli”sidir.“Xətai”kəlməsinə gəlincə isə, burada bəzitarixivə digər yanlışlıqlar mövcuddur. Ehtimallaragörə, ŞahXətaiKərbəlaşəhidi Hürrün qəbriniaçaraqxətaetmişvə təxəllüsü, yəni“Xətai”niözünə götürmüşdür. Səhv,günahanlamında işlənən“xəta” sözü ərəb əlifbasında dəstəli “ta” hərfi ilə yazılır. Halbuki,Xətainin adı əksər mənbələrdə nöqtəli “te” hərfi ilə yazılmışdır.Bu formada yazılan “xəta” sözü isə heç bir dildə konkret mənaifadə etmir. Yalnız əbcəd hesabı ilə “Xəta” (nöqtəli “te” hərfi ilə)sözü 1001 edir ki, bu da Allahın min bir adına işarədir.Bütünbudeyilənləronusübut edirki, ŞahXətaiözzamanına sığmayan, şəxsiyyətininömrü qurduğu dövlətinömründənqat-qat uzun olan möhtəşəm birzatdır. Buimperiyanındaha böyük mənəvi təsir arealından bəhs edən A.Mirzə yazır: “Səfəvilərin Nadir şaha kimi Dərbənddə yürüşlərihəmdəmədəniaxınlar,saz,sözaxınları,“mədənideportasiya lar”ladiqqəti cəlb edir. Müşkürün, Bayatın, Ovşarın bu mədəni axınlarzəminində yaranması, sufi görüşlü aşıqların, xüsusən, Şah Xətaitəriqəti daşıyıcılarının Dərbənd ətrafında yerləşdirilməsi əvvəlsiyasi, sonrakımərhələlərdə isə özmilli-mənəvi

əhəmiyyətiiləyaddaqaldı”. Onunqurduğu İmperiyaindimövcuddeyil. Lakin qurduğumənəvi-fəlsəfi “imperiya”mövcudluğunuhələ də sürdürür. Çoxları bunu Xətainin şairliyi iləəlaqələndirirlər. Yəni,Xətaini əbədiyaşadan onunyaratdığıbədiisənətnümunələridir. Bu,doğrudur. LakinŞah Xətaiməfkurəsi,onun özünündə mənsubolduğu ürfaniçevrə,təsəvvüfdünyasıŞeyxoğluİsmayılıyaşadan ənönəmlifaktordur. CənubiAzərbaycanın və Anadolunun böyük bir hissəsini özünə məskən etmişXətaiçi-Şahsevən dərvişlərin sayı bugünmilyonlarladır. OnlarŞahXətaiideyalarını, dolayısı ilə ürfanvə təsəvvüfü sazla,aşıqlıqla geniş tərənnüm edir, yaşadırlar. Təbrizdən Makuya qədər uzanan Şahsevən elləri demək olar ki, əqidə etibarilə, zahiriəlamətlərlə belə Əhli-Həqdirlər. Onlarhəmin nihan dərvişlərdirki, Şah Xətai onlara gizli “Divan” əmanət etmişdir. Bu gün Əhli-Həqq cəmxanalarında həmin gizli divan ritual olaraq, kəlam havalarıkimioxunur. Əhli-Həqq aşıqları xalqıniçində ŞahXətainin ürfani şeirlərini çalıb çağırırlar. N.Xəlilovun qeydlərində oxuyuruq:“Artıq XV əsrinsonu XVI əsrin əvvəllərindənbaşlayaraq saza olan güclü maraq diqqəti daha artıq cəlb eyləyir.Bu da yəqin ki, Şah İsmayıl Xətainin adı ilə bağlı olmuşdur. Şah İsmayıldövründə artıq,din xadimləri sazaqarşı açıqşəkildəhücum edə bilmirdilər. Çünki Xətainin özü də saz çalırdı, sarayında aşıqlar, xanəndələr saxlayırdı”.

Bu gün AnadoludaƏləvi, Bektaşi adı ilə 20 milyona yaxın xətaiçi mövcuddur. Bu,Anadoluda, bəzilərinin yanlışifadə etdiyikimi, şiəliyinmövcudiyyəti deyil. Onlarməhz Oızılbaşsufiləridir. OnlarınCəmevlərində saz – bağlama oqədər mühümyertuturki, onubumətləbləriizah etməkyolundaheçnə ilə əvəzetməkmümkündeyil.

Anadoluşeirigenişmənada təsəvvüfdünyagörüşünəsöykənmədən öz mövcudiyyətini sürdürməmişdi.MəşhurAnadoluşairi Əbdülfəttah Şahininbirşeirindəoxuyuruq:

***Bulanlar Hakkı buldu, buldular can içinde,***
***Kalanlar yolda kaldı, kaldılar zan içinde.***
***Arayan bular mutlak, miskine bulmak ırak,***
***Kuluna O son durak, gönülden han içinde.***[59]

## SEYİD KAZIM PƏRPƏNCİNİN "ŞƏRİƏT", "TƏRİQƏT" VƏ "HƏQİQƏT" MƏRHƏLƏLƏRİ BARƏDƏ DEDİKLƏRİ

İslam peyğəmbəri Həzrət Muhəmməd (s) mübarək hədislərinin birində belə buyurur: «***Əş-şəriətu aqvali, vat-tarıqatu əfali, val-haqıqatu əhvali – Şəriət mənim sözlərim, təriqət əməllərim, həqiqət isə göstərdiyim yerə çatmaqdır***».

Seyid Kazım Pərpənci şəriət alimlərindən biri olub, gözəl dini əsərlər müəllifi olmaqla yanaşı, həm də irfan ədəbiyyatına bələd olan bir qələm sahibidir. İnsanın əqli-mənəvi yüksəliş mərhələləri olan şəriət, təriqət və həqiqət haqqında "Usulid-din" kitabında Quran ayələri və hədislər işığında bu üç mərhələni incə bir şəkildə oxuculara çatdırmışdır. İndi isə müəllifin bu barədə dediklərini olduğu kimi aşağıda təqdim edirik.

Seyid Kazım Pərpənci deyir: "İndi isə bir neçə qədəm irəli gedərək (nübüvvət məqamı ilə), imkan dairəsində azacıq yaxından tanış olmaqla, başa düşə bilərik ki, "Ulul-əzm" peyğəmbərlərin, xüsusilə də sonuncu İslam peyğəmbərinin (s) risalətdən başqa bir sıra aşağıdakı vəzifələri var:

1. Zahiri rəhbərlik, din maarifini yaymaq;

2. Mənəvi rəhbərlik. Belə ki, o Həzrət (s) özü buyurub: «***Əş-şəriətu aqvali, vat-tarıqatu əfali, val-haqıqatu əhvali – Şəriət mənim sözlərim, təriqət əməllərim, həqiqət isə göstərdiyim yerə***

[59] F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 103

***çatmaqdır».***

**1. Şəriət** - Yoldur, amma insanı maarifə çatdıran yoldur. Şəriət - Dini elmi, din səviyyəsində bilgiləri öyrənib alim olmaq deməkdir.

**2. Təriqət** - Dini bilgilərə əməl etmək və mənəvi üstünlükləri çalışıb əldə etməkdir.

**3. Həqiqət** - Hər bir şeyin necə olduğuna çatmaqdır. Həqiqət - Mənəvi baxımdan dinin cövhərinə, şirinliyinə və reallığına doğru yola düşməkdir.

**Şəriət** - Dinin hökmlərini öyrəndikdən sonra ona nisbi şəkildə əməl etməkdir. Belə ki, kənardan baxarkən həmin şəxsin müsəlman olduğu bilinsin. Vacib əməllər: namaz qılmaq, oruc tutmaq, xüms vermək, zəkat vermək və s. bütün xeyir əməlləri yerinə yetirir, habelə əksinə olaraq sələm, rüşvət, zina və qumar kimi pis, yaramaz və əxlaqsız işlərdən özünü qoruyur. Əməldə halal və haram, məhrəm və naməhrəm, murdar və təmizin nə olduğunu göstərir.

Ümumilikdə belə məqama çatılarsa, demək olar ki, zahiri şəkildə dünyaya xeyir verən dinə yetişiblər. Belə bir səviyyədə yaşayanlar maarifə çatmış insanlar hesab olunurlar və doğru yolun aparıcısına çevrilirlər. Bəziləri isə "mürşidlik" məqamına çatırlar. Əgər bir sözlə demək istəsək «peyğəmbərin zahiri rəhbərliyi» baş tutur - demək olar.

**Təriqət** - Bu yola addım atmağın azacıq zəhməti var. Belə ki, dinə inanmaq və "Qurbətən iləllah"ıyerinə yetirib, yalnız Allah-Təalanın razılığını əldə etmək üçün bütün haramlara göz yummaq günü-gündən mənəviyyata doğru istiqamət götürmək lazımdır.

**قُلْ إِنَّ صَلَاتِي وَنُسُكِي وَمَحْيَايَ وَمَمَاتِي لِلهِ رَبِّ الْعَالَمِينَ**

Allah-Təala buyurub: ***«De: Mənim namazım da, ibadətim də,***

***həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür»***[60].

Təriqət yolunda addımlayan daha dini demokratikləşdirmir, namazı idman kimi təmsil etmir, orucu yalnız pəhriz saxlamaq kimi başa düşmür, zəkatı (balalarının başına dolandırıb) yoxsula sədəqə kimi vermir. Əksinə, hamısını Allah-təalanın razılığını əldə etmək üçün yerinə yetirir. Həmişə zikrdə, namazdadır.

وَالَّذِينَ هُمْ عَلَى صَلَوَاتِهِمْ يُحَافِظُونَوَالَّذِينَ هُمْ عَلَى صَلَاتِهِمْ
دَائِمُون

Allah-Təala buyurub: *«O kəslər ki, namazlarını qoruyarlar»*[61]***. Və «O kəslər ki, namazlarında daimi və möhkəm olarlar»***[62]***.***

Namazın həqiqətini anladığı üçün daim namazdadır. Mağazada tərəzi arxasında namazdadır. İdarədə masa arxasında namazdadır. Hambal yük daşıdığı halda namazdadır. Tacir ticarət etdiyi halda namazdadır. Həkim əməliyyat otağında cərrahiyyə etdiyi halda namazdadır. Mühəndis tikintiyə nəzarət etdiyi halda namazdadır. Qazi qəzavət etdiyi halda namazdadır və s. Çünki hər kəs öz səviyyəsində yalnız Allah-təalanın əmrinə itaət etmək üçün öhdəsində olan işdə xəyanət etməsə, ibadət və namaz halındadır. Bir işə başlamaq istədikdə «Bismilləhir-rahmənir-rahim» - deyib Allah-Təalanın adıyla başlayır və yalnız ondan kömək diləyir ki, əlindən, dilindən, qələmindən və qədəmindən xəyanət baş verməsin. Heç ürəyindən də xəyanət etmək fikri keçmir. Etdiyi xəyanətə İslam donu geyindirməyi düşünmür. Çünki bütün işlərin Allah xətrinə görülməli olduğunu bilirvə Allah-Təalaya xatir iş görür. Qurtardıqda da «Əlhəmdu lilləhi rabbil-aləmin» deyir. Bu mənalarda dinin yayılması peyğəmbərin (s) ən mühüm vəzifələrindəndir. Çünki insanları yaradılışın hədəfi olan yola aparır.

---

[60] «Ənam» surəsi, 162-ci ayə
[61] «Muminun» surəsi, 9-cu ayə
[62]«Məaric» surəsi, 23-cü ayə

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنسَ إِلَّا لِيَعْبُدُونِ

Allah-Təala buyurub: *«Mən cinləri və insanları yalnız mənə ibadət etmək üçün yaratdım»*[63].

Aydındır ki, (ibadət etmək) Allah-Təalanı tanımaq mənasındadır, amma öncə hər kəs özünü tanımalıdır. Əgər insan özünü tanısa öz dəyərini bilər. Dəyərini bilsə özünü ucuz satmaz. Ucuz satmadıqda çatışmazlığı azalar. Nəticədə ürək döyüntüsü, baş ağrısı olmaz və rahatlıqla yaşayar.

الَّذِينَ آمَنُواْ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِاللّهِ أَلاَ بِذِكْرِاللّهِ تَطْمَئِنّ الْقُلُوبُ

Allah-Təala buyurub: *«Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar!»*[64]

*Məgər bir pirə sormuşlar: - həqiqət,*
*Nədir, de bizə, ey piri-təriqət?*
*Həqiqət on durur demiş ki, bir xoş,*
*Biri az söyləmək, doqquzu xamuş.*[65]

**Həqiqət**- Dinin nə olduğunu başa düşüb tam öyrənməklə onu hiss etmək. Belə ki, hər halda olursa olsun, imkan edə bildiyi yerə qədər yaşayışını və güzəranını Peyğəmbərlərin (ə) buyurduqları ilə uyğunlaşdırmağa çalışmaq.

قُل إِن كُنتُمْ تُحِبُّونَ اللهَ فَاتَّبِعُو نِي يُحْبِبْكُمُ اللهُ وَيَغْفِرْ لَكُمْ ذُنُو بَكُمْ وَاللهُ غَفُورٌ رَّحِيمٌ

Allah-Təala buyurur: *«De: Əgər Allah-Təalanı sevirsənsə*

63«Zariyat» surəsi, 56-cı ayə
64«Rəd» surəsi, 28-ci ayə
65 Dədə Ömər Rövşəni

***onda mənə tabe olun ki, Allah da sizi sevsin. Və Allah sizin günahlarınızı bağışlayar. Şübhəsiz Allah bağışlayan, mehribandır».***[66]

Bir nəfər İmam Həsən Müctəbanın (ə) hüzuruna gəlib ərz etdi: «Mən sizin şiələrinizdənəm». Həzrət (ə) buyurdu: «De ki, mən Ali-Muhəmmədi (s) sevənlərdənəm». Dedi: «Ey Peyğəmbərin (s) övladı, həqiqətən sizin şiələrinizdənəm». Buyurdu: «Bizim şiələrimiz ayağımızı hara qoysaq, ayaqlarını oraya qoyub ardımızca gələnlərdir. De görüm beləsənmi?» Dedi: «Yox, ey Peyğəmbərin (s) övladı. O çətin məqamdır». Buyurdu: «Ona görə deyirəm ki, deyin: Sizi sevənlərdənəm».

***Əgər ixlas ilə olsa məlazım,***
***Olarsan qumbədi-xəzraya azim.***
***Bizə dünyəvi, həm üqbaya lazim,***
***Çirağİ-şəmi suzandır, həqiqət***[67]***.***

Həqiqətən də insan özünü elə məqama çatdıra bilsə, Allah-Təalanın həqiqi bəndəsi olduğuna arxalana bilər və ürəyində Allah-Təalanın nuru və işığının çırağı yanar. Yaradanına valeh və heyran olub öz Rəbbinə qovuşar. Mənəviyyat dəryalarına çatar.

Həzrət Əli (ə) buyurur: ***«Ey Allahım! Mən Sənə cəhənnəm odunun qorxusundan ibadət etmirəm (ki, bu şəriətçilərin yoludur), nə də cənnət təmənnası üçün ibadət edirəm (ki, bu da təriqətçilərin məqamıdır). Əksinə, Sənə aşiq, Sənə vurğun olduğum üçün ibadət edirəm. Sənə valeh və heyranam və ibadət olunmaq üçün təkcə Səni tanıyıram. (Bu ibadət isə həqiqətçilərin ibadətidir)».***

Belə məqamda mənəviyyat qapıları insanın üzünə açılar insan kamil və nümunəvi insanlara doğru yola düşə bilər[68].

[66]«Ali-İmran» surəsi, 31-ci ayə
[67] Miskin Rüstəm Nəvazi (İranlı azəri şair).
[68]Seyid Kazım Pərpənci - "Usuli-din" kitabı.

Kərbəla şahı Seyidüş-şühəda ağamız İmam Hüseyn (ə) kimi.

*Düşmüşəm, ey dustlər, mən Kərbəla sevdasına,*
*Çırpınır Məcnun könül can verməyə Leylasına.*[69]

*Sığmadım mən süstlər, biganələr ümmanına,*
*Hər kəsin amalı var, girsin döyüş meydanına,*

*Haqqı izhar etsə hər dəm Dahi, öz dövranına,*
*Tanrı dost eylər onu azadələr Mövlasına*[70]*.*

## TƏRİQƏTİN MƏRHƏLƏLƏRİ

Zunnun Misri deyir: "Sufi, danışdığı zaman halına uyğun söz söyləyən kəsdir. O, özündə olmayan bir şeydən bəhs etməz. Dilini tutub danışmayacaq olursa, rəftarı halının tərcümanı olur, halı dünyadan əlaqəsini kəsdiyini anladır" (134, 46).

Təsəvvüfməfkurəsinin əngenişyayılmışnəzəriməsələlərindən biri də təriqət daxilindəki mərhələli inkişafın şərtləndirilməsidir. Bu mərhələlər kağız üzərində, elmi-nəzəri formada yox, məhz əfkarvə nəfsin iştirakıilə verilənfizikivə ruhani mücadilənin təxminidüsturudur. Ənənəvi təkamülmərhələləri aşağıdakılardır:

**1. Tələb**
**2. Eşq**
**3. Mərifət**
**4. İstiğna**
**5. Tovhid**
**6. Heyrət**
**7. Fəna**

[69] Mirzə Dahi "Növhə".
[70] Mirzə Dahi. "Növhə".

Buməqamlar yalnızeşq əhlinə, sufi-saliklərə nəsibolur. Salikinvarlığı süluka, yəniİlahi seyrə bağlıdır. Sondakı "fəna"dan məqsəd"Allahdayoxolma"dırki, şəriətdə buna Allaha qayıdış deyilir. Nəsirəddin Tusi bu məsələni sırf sufiyanə izah etməsə də, cənnətin, axirətin gerçək anlamının ehkamlardakı şəkildə yox, məhzAllahaqovuşmaqdaolduğunuizahedir: "Cənnətdən (bu) dünyaya gəlmək kamillikdən nöqsana üz tutmaq (yönəlmək) və (ilk) yaradılışın (fitrətdən,yaradılışyerindən) düşməkdir. Şübhəsiz, insanların (yaradılmışların) Yaradandan (Xaliqdən) çıxmasıbuüsuldanbaşqabirüsullamümkündeyil. (Bu)dünyadancənnətə getmək isə nöqsandankamilliyə üz tutmaqvə (ilk)yaradılışa çatmaqdır. Şübhəsizinsanların Yaradanaqayıtması buüsuldan başqabirüsullabaştutmaz: "Allah yaradılmışları (varlıqları və insanları) yoxdan yaradır (var edir), sonra onları(yenidən) qaytarır,sonraOnunyanınaqayıdacaqsınız"(ər-Rum,11) (103, 22). TanınmışAzərbaycanbilım adamı Ə.Əhmədovunkitabındaoxuyuruq: "Əql şahini eyn-ül yəqində gördüklərindən vəcdə gəlir, dahaülvialəmlərə pərvaz edir, həqiqətnurununziyasıvə təcəllasışövqüilə özvarlığını unudur, özünü bu nurani aləmə yetirib, onun şəşəələri içində qərq olur. Bu isə həqqül-yəqin mərtəbəsidir. Süluk əhlindən olan bəzi ariflər yəqinüçünbirdə dördüncümərtəbəyə qaildirlər: ona "fənafillah" deyirlər" (30, 56). Alimin izahı leksik baxımdan bir qədərqəlizgörünə bilər. Əlbəttə çağdaş dünyamızdabu mətləbləri daha anlaşılan bir tərzdə ifadə etmək yaxşı olardı. Yuxarıdaadınıçəkdiyimizaraşdırmaçıalim M.Rıhtım isə seyrisülük haqqında bunları yazır: "Seyr lüğətdə "gəzmək" mənasındadır. Təsəvvüfdə isə cəhalətdən elmə, əxlaqi-zəminədən əxlaqihəmidəyə,özvücudundanHaqqınvücudunadoğru seyrvə hərəkətdir. "Süluk" lüğətdə girmək və getmək, təriqət əhlinə görə isə, salikivüsalahazırlayan əxlaqtərbiyəsidir. İfadə etdikləri mənalarbaxımından bir-birinə çoxyaxınolan buikitermin təriqətə

girənşəxsin bütünmənəvidərəcələritamamlayanadək keçirdiyi səfahətə verilənaddır. Seyrin əvvəlisülük,sonu vüsaldır" (80, 129).

Lakin, buyeddimərhələ, dördməqamınikincisiolan "təriqət"ə daxildir. Təriqət məhz sufilikdir, dərvişlikdir. Dərvişliyin təkyədəki məqamı təriqətdir. Sonrakı "mərifət" və "həqiqət" məqamlarıisə təriqətdənfərqliolaraq, insanvə cəmiyyət arealındamövcudiyyətini sürdürür. Qısaifadə etsək, salik təriqətdə əxz edib öyrəndiklərini, ibadət, zikr və başqa əməllərlə qazandığıucalıqvə paklıq keyfiyyətlərini sonrakı"mərifət" məqamında xalqla, insanlarla paylaşaraq, ürfanimərtəbəyə qədəm basır. Məhz "ürfan" və "mərifət" sözlərinin bir bağlantısı da məna olaraq buradan doğur. Türkiyəli araşdırmaçı R.Akdoğan öz məqaləsində bu barədə maraqlı məqamlara toxunur: "Mərifə-tullah dini əqidənin əsasını təşkiledən Allahinancıyla əlaqəli, kəlam əsərlərində elm, nəzər, hüsn və kubh məsələlərində araşdırılmaqda olan epistomolojik bir mövzudur. Kəlam elminə görə, mübahisə mövzularındanbirinə başlıqolan "Mərifətullah" sadə və daranlamda "Allahbilgisi"dir"(164). Bubaxımdan mərifət əhli artıq sufi olmaqdan çox, mübariz bir şəxsiyyətə çevrilərək, cəmiyyət üçün önəmli və mühüm yerlərdən birini tutur.

Görkəmli türk alimi Prof.Dr. Fuad Köprülü yazır:"Əhməd Yəsəvi altmış üç yaşına girdikdən sonra, ənənəyəgörə, təkyəsinin birtərəfinə üçarşındərinliyində birçilləxanətikdirərəkoraya çəkildi. Bununhansıtarixə təsadüfetdiyini dəheyfki,bilmirik. "Divani-Hikmət"dəki birçoxparçalarda buçilləxanəyə girişini, inzivasınınsəbəblərinimütəsəvvüfanə birdildə uzun-uzunnəqledir. Xoca Əhmədvəfatedincəyə qədər"Hikmət" başlığıaltındakı sufiyanə mənzumələrini yazmaqdadavametdi; ətrafındakı müridlərə sufiyanə həqiqətləri, batinisaflaşmavə əxlaqi islahınvacibliyini, dini ənənələrioşəkildəanladır, bunlaradair ərəbcə və farsca bilməyənlərə "Hikmət"ləriylə yol göstərirdi".

Xoca ƏhmədYəsəvinin üçarşın dərinliyində

qazdırdığıçilləxanə çoxdiqqətçəkən birməqamdır. Köprülünün verdiyimətnə diqqətetsəkgörərikki, ƏhmədYəsəvibuçilləxanənimə hz altmış üç yaşında inşa etdirib. Həm də bu çilləxanə yerinüstündə deyil, yerinüçarşındərinliyində tikilib. YəniXocaƏhməd(və yaTürküstanellərində deyildiyikimi, "Qara Əhməd") bununla demək istəyirmiş ki, mən Peyğəmbərimiz Rəsuli-Əkrəmdən(s.ə.v.) artıqyerüzündə yaşamağautanıram. Çünki Muhəmməd (ə.s.) bu dünya üzündə altmış üç il yaşamışdı. Ondanartıqyaşamaqqismətdə varsa,bunudünyaüzündə yox, yeraltındayaşamaqdahaməqbuldur.

Bunaürfanda"Xərabat"dadeyilir. Məşhur Həbibi yazırdı:

*Əla, ey dildarım, yarım, xərabat,*
*Dilü can içrə dildarım xərabat.*

## AŞIQ ƏLƏSGƏR VƏ S.Ə.NƏBATİ YARADICILIĞNDA TƏRİQƏT

***Aşıqlar qövlilə, arifü aqil,***
***Dörd dəfə peyğəmbər meraca getdi.***
***Otuz altıyla cəm olubdu on yeddi,***
***Xəstə dilim bu yollara bələddi.***

***Şiə məzhəbindən süludun beşdi,***
***Üç müqərrər mələk bilmədi keçdi.***
***Fərmani-qüdrətdən nida yetişdi;***
***Həbibim, nəleynin ərşə zinətdi.***

***Hər yandan səs gəldi: "Ya Muhəmməda!"***
***Məscidi-Əqsaya yetişdi səda.***
***Musa ərz eylədi: "Ey bari-Xuda",***

*Nə qurğu mənzilət, nə fəzilətdi!?"...*

Ustadaşığın "PeyğəmbərinMeracı" adınıverdiyi bu mənzumənin təqdimetdiyimiz kiçikbirparçasında ənənəvi klassik "Merac"girişlərindən fərqlənən çoxlusayda detallar mövcuddur. Məsələn, elə birinci bənddəki rəqəmlərin sıralanması ("Otuz altıya cəm olubdu on yeddi") şəriət qəliblərində olmayan, hətta ürfani ədəbiyyatda belə rast gəlinməyən mətləblərdir. Yaxud da üçüncü bənddəki

***Musa ərz eylədi: "Ey bari-Xuda"***
***Nə qurğu mənzilət, nə fəzilətdi!?***

– misraları həqiqətelmindəkigizlinmətləblərdən xəbərverir. Diqqətiçəkən başqabir cəhət isə Quranda və hədislərdəolmayan rəvayətlərin Aşıq Ələsgərdilindəki ifadəsidir. Dahaöncə də qeydetdiyimizkimi, bumətləblərfolklordan,xalqtəfəkküründən gələn ünsürlər deyil. O rəvayətlər (daha öncə dəiddia etdiyimiz kimi) təsəvvüfün dördüncü ruhani təkamül pilləsiolan "həqiqət"in nəzəribazasından süzülübgələnnəsnələrdir.Hər iki mütəfəkkirin təqdim olunan fikirlərində şəriət pərdəsinin,ehkamqabığınıniçində gizlənmişmüdhişbir eşqvə ürfanınmövcudluğunun şahidi oluruq.

Bildiyimizkimi, klassik ədəbinümunələrdə dahaçox"təriqət" və "mərifət" terminləri ilə ifadə olunan gerçəklər üstünlük təşkil edir. Bu da divan ədəbiyyatının üslubu olmaqla bərabər,həmin müəlliflərin ruhani məqam məsələsinin təzahürüdür.Maraqlı olan başqa bir məsələ də vardır ki, o da "həqiqət"mərhələsində mövcudolan mətləbləri vəsf edən şairlərin xalqdilinə,xalq üslubuna getdikcə dahayaxınolmalarıdır. Sanki,"mərifət"iaşdıqca, "həqiqət"ə yaxınlaşdıqca buşairlərindilisadələşir, divanşeiriüslubunda yazmalarınabaxmayaraq, sankidahaartıq aşıqşeirinə yaxınbirtərzdə yazıbyaradırdılar. Beləşairlərin ən ümdələrindən biri "Xançobani" təxəllüsü ilə məşhurolan Seyid ƏbülqasimNəbatidir. Nəbatiklassikşairdir. LakinMolla Pənah

Vaqif və onun gətirdiyi ənənədən fərqli olaraq, Nəbatixalqdilinə,xalq təfəkkürünə yaxınlaşsada, onun ədəbiqəhrəmanıözruhanisəviyyəsiniaşağısalmadı. Əksinə, Nəbatiözünün birmütəsəvvüfşairolduğunu israrla sübutayetirdivə klassik ürfani üslub ilə xalq təsəvvüfü arasında analoqu olmayanbir əlaqə və keçid yaratdı. Onun timsalında biz divan ədəbiyyatınınmüdhişxəlqiliyinigörürük. Nəbatitambirdivanbağlamamışdır. Lakinonunmövzuvə üslubu divanjanrınıtəşkiledir.

Nəbati bir sufi olaraq, Əhli-Həq firqəsinə mənsub idi (Bu, tamamilə dəqiqləşmişbir informasıyadır). Zənnimizcə,onun xəlqiliyinin əsassəbəblərindənbiri məhzelə budur. Əvvəlki abzaslarda da qeyd etdiyimiz kimi, Əhli-Həq kəlamları sadə xalq dilində yazılmış və "həqiqət"firqəsi təsəvvüfcərəyanlarıiçərisində sadə xalqa ən yaxın olan bir zümrədir. Nəbatinin, Əhli-Həq kəlamlarından birinə çevrilmiş, Həzrət Əlinivəsfedən məşhur bir qəsidəsindən bəzi misralara diqqət edək:

***Mənim aləmdə sultanım Əlidir,***
***Mənim miri-cahanbanım Əlidir.***
***Nə Dara tanıram mən, nə Skəndər,***
***Mənim fəxfuru xaqanım Əlidir.***
***Behişti zahidə verdim sərasər,***
***Mənim gülzari-rizvanım Əlidir.***
***Əgər hər kimsənin bir şahı olsa,***
***Mənim də şahi-şahanım Əlidir.***
***Tutub hər mürğ bir gülşəndə məskən***
***Mənim də bağü bostanım Əlidir.***
***Məni bu ismi-əzəm etdi natiq,***
***Mənim məcmui-divanım Əlidir...*** .

Buradakı "ismi-əzəm" ifadəsi Allahın böyük adı, gizlin adı və yaxud da əsl adı anlamındadır. Söylədiyimiz kimi, Allah-Təalanın

Qurani-Kərimə və hədislərə istinadən 99 "Əsmaül-hüsna"sı mövcuddur. "Əsmaül-hüsna", adındandagöründüyükimi, "gözəl adlar" deməkdir. Həqiqətən də 99 "Əsmaül-hüsna" HəqqTəalanın tərifidir."İsmi-əzəm"isə, fundamentalilahiyyatdadaqəbulolunduğukimi, Allahın,hərkəsinbilə bilmədiyi gerçəkadıdır.

"Həqiqət" fəlsəfəsinə və Əhli-Həq nəzəriyyəsinə görə,"ismi-əzəm" "Əli" sözüdür. Yəni, Kəbədə Allah evində doğulanvə adı daha öncə heç kimə qoyulmayan Həzrət Əli əslində, sufilərin təbiri ilə desək, "Sultanın cameəsi", "Allahın zati-qürsü"dür.

Bu mənada Nəbati "ismi-əzəm"in "Əli" olduğunu vurğulamaqla,özünün Əhli-Həq və mütləq bir mütəsəvvüf olduğunu meydanaqoyur.

Aşıq Ələsgər də Peyğəmbər və Həzrət Əliyə münasibətinindinlə, şəriətlə əlaqəli olmadığını nümayiş etdirir. Belə ki, məhz"həqiqət"in bəxş etdiyi Muhəmməd və Əli sirlərinə bələd olduğunu ustad aşıq belə vurğulayır:

***İbtida "əlif"dən dərsim almışam,***
***Ələst aləmindən demişəm "bəli".***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Muhəmməd, birisi Əli*****... .**

Birdaha qeydedirikki, Aşıq Ələsgər "həqiqət"dəkimətləblərdən danışır və bunu israrla, açıq şəkildə bəyan edir.Əbülqasim Nəbati ilə Aşıq Ələsgərin "həqiqət" barəsindəkiilham və izharları çox yerdə üstüstə düşür. Məsələn, Aşıq Ələsgərin heyrətamiz dərəcədə dərin və çoşqulu "Qabaqda" rədifli birqoşması mövcuddur. Qoşmadan bəzi məqamlara diqqət edək:

***Şəhrin şöləsindən buldum bələdi,***
***Xoş gəldi xoşuma halı qabaqda.***

***Pir mana göstərdi şah məqamını,***
***Gördüm cəmdi çox cəlalı qabaqda.***

Üçüncü misradakı "pir" və "şah" kəlmələri, bu kəlmələrinehtivaetdiyi mənalaroqədərbariz, oqədərmükəmməldirki,Aşıq Ələsgərin "həqiqət" məqamı ilə əlaqəsini inkar etmək sadəcə mümkünolmur. Məsələ burasındadırki, adisöyləntilərlə,ağızdan-ağıza yayılan hər hansı bir xalq ənənəsi ilə bu məsələni,yəni "həqiqət"dəki "şah", "pir" və "dəlil" məsələsini bilmək qeyri-mümkündür. Qoşmanın üçüncü bəndinə diqqət edək:

***"Ya hu!", – deyib, birbirinə uydular,***
***"Ya mən hu!" deyəndə təam qoydular,***
***Cümlə məxluq yemədilər, doydular,***
***Qaldı məcməilər dolu qabaqda.***

Burada rəsmi olaraq "Qırxlar məclisi"ndən söhbət gedir. Bu"qırxlar" həm ərşdəki, Haqq dərgahındakı qırxlar, həm də Əhli-Həqq xanədanlarının ənmühümlərindənolan "Çeltən" –"Qırxlar" xanədanıdır. Həqiqətən cəmxanalarda təam, yəni süfrəvaxtı həminsözlərlə ("Yahu","Yamənhu") başlayan dualaroxunur. Əgər nəzərə alsaq ki, Əhli-Həqlərin cəmxanaları, ürf vəadətləri bugündə belə gizlinşəkildə qorunur, ozamanAşıqƏləsgərin bumətləblərikimlərdənsə eşidib qavrayabilməsimümkün görünmür. Bununüçünyalnız,sufilərdemişkən"cəməhli" olmaq lazım idi.Şeirinsonbəndiisə ideyabaxımındandahadamükəmməldir:

***Dünyada əl çəkmə sövmü səlatdan,***
***Təmiz ver, qalmasın xümsü zəkatdan.***
***Ələsgər, xof etmə puli-siratdan,***
***İrəhbərdi cənab Əli qabaqda.***

ƏbülqasimNəbatininbirtərci-bəndində isə bumisralara rast gəlirik:

***Deginən, ya Əli, besövti-cəli,***
***Eyləmə hiç kimsədən pərva.***
***Himmət al pirdən, mədəd həqdən,***
***Dəmbədəm "hu" çəkib yolu başla,***
***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabatə məst-məstanə...***

Eynilə,Aşıq Ələsgərdəkikimi, Nəbatidə də biz "pir"və"şah" mətləblərinin ayrıldığını görürük. Nəbatinin həmin şeirindəki "şah"məfhumu "həqq"olaraq ifadə olunur. Məlumdur ki,təsəvvüfün əksər qollarında "şah" elə "həqq", "Allah" və yaxud"Allahın zatı", "Haqqın təcəllası" anlamındadır. Tərci-bəndin hərdəfə nəqərat kimi təkrar olunan

***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabatə məst-məstanə –***

– misraları həqiqətəndə nəqəratdır. Çünki Əhli-Həqq cəmlərində buşeirkəlam olaraqçoxməşhurdur. Səsiolanbircəmnişin (cəmdə Əhli-Həqqlərin xanəgahındaoturan şəxs) şeiriavazla oxuyur, digər cəmnişinlər isə həmin nəqəratı xor halındatəkrar edirlər.

Həcmetibarilə çoxböyükolanbu tərci-bəndinbaşqabirhissəsinə nəzər salmaq istərdik:

***Ey dili-natəvanü zarü həzin,***
***Kim səni böylə eyləyib məntər?***
***Oxu "nadi-Əlini" şamü səba***
***Eylə bu ismi-əzəmi əzbər;***

*Qoy qədəm rahi-eşqə mərdanə,*
*Gir xərabatə məst-məstanə...*

Göründüyü kimi, Seyid ƏbülqasimNəbati buradada “ismi-əzəm”in adını çəkir. Ümumiyyətlə, Nəbatinin yaradıcılığına sırf təsəvvüf və özəlliklə də “həqiqət” prizmasından baxmaq kifayətdir ki, onun indiyə qədər çoxlarına qaranlıq qalan misra və beytlərindəki mənalar ortaya çıxsın. (F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 221-223; 225-226)

## BATİNİ ZİYARƏT

***“Ələst”idən bəli deyən Sübhanə baş endirir,***
***Muhəmmədə tabe olan Qurana baş endirir.***
***Özü birdi, adı minbir, vəhdəhuəl la şərik,***
***Əhli-mömin görə bilməz, pünhanə baş endirir.*** [71]

Bu divaninin birinci misrasında ustad aşıq “Zərr aləmi”ndən (ələst) söhbət açır.İnsan o aləmdə ki, mövcud idi, o aləmə “zərr” aləmi (“Ələst” aləmi), poetik dillə Vəhdət aləmi deyilir. “Zərr” aləmi ona görə deyilir ki, bu aləmdə insan zərrələrdən ibarət bir məxluq idi. Allah-Təala “Əraf” surəsinin 172-ci ayəsində belə buyurur: ***«Ələstu birrəbikum» – Mən sizin Rəbbiniz deyiləmmi? «Qalu: bələ» – Dedilər, bəli! «Şəhidnə» – Şəhadət veririk.*** Həmin aləmə Lahut, ya Cəbərut aləmi də deyirlər. Ümumiyyətlə, 4 əsas aləm var ki, bunlardır: **Cəbərut; Mələkut; Lahut; Nasut.**

İkinci misrada isə insanları islam Peyğəmbərinə (s) tabe olub Qurana etiqad etməyə səsləyir.

Üçüncü misrada Allahın yeganəliyindən və şəriki

---

[71] Aşıq Ələsgər. “Gözüm bir alagöz xanıma düşdü” Bakı. Yazıçı-1993. Səh 94

olmamağından söz açan aşıq, dördüncü misrada möminlərdən bəhs edir. Ustad aşıq “əhli-mömin görə bilməz” ifadəsilə açıq şəkildə bildirir ki, bu mətləbləri anlamaq dindarların, şəriət əhlinin yox, ürfan əhlinin, təsəvvüf ərbabının keyfiyyətidir. Elə buna görə də misranındavamında Aşıq Ələsgər“pünhanabaşendirir” ifadəsini işlədir. Bu “pünhan”, həmin “təriqət” sirridir ki, şəriət əhlinə zahir deyil. Üstəlik buradakı “pünhan” sözü xüsusi olaraq işlənərək, zikrvə xəlvətlərdə aşiqinbatini gözlə görə bildiyi təcəllaları əksetdirir. Butəcəllalarzikrvə xəlvətzamanlarında özünəməxsus tərzdə “batini ziyarət” adlanır. Ürfan aləmində isə, ikicür“ziyarət”mövcuddur. Bunlardanbiri“zahiriziyarət”,digəri isə “batini ziyarət”dir. Zahiri ziyarət pirin, mürşidin, şahınzahirdə camalını seyr etmək, əlini öpmək, səsinə və nəfəsinə talibolmaqdır. Bu talibliyin, tələbin içində elm, həvalə, şəfa və başqanəsnələr mövcuddur. Yəni, ziyarət anında mürid öz mürşidindənelm,həvalə və şəfaalır. Ümumiyyətlə, təsəvvüfdəkiziyarətinmahiyyətində və hədəfində təmənna və qazanc yox, vəcd və eşqyatır. Buvəcdinvə eşqin bətnində isə idrak,yənipirinvə yaşahın kəramət və ucalığını dərk etmək istəyi durur. Lakin ürfandadigər ziyarət olan “batini ziyarət” zahiri ziyarətdən üstün sayılır.

Buzamantalibtəkdir,qarşısında zahirən, gözlə görünə biləcəkbir vücud yoxdur. Riyazət və zikrlərin bəhrəsi olaraq, o öz pirini, özşahını qeybdənziyarətedir. Yəni,Aşıq Ələsgərdemişkən,“pünhana baş endirir”. Pünhandakı ziyarət, pünhandakı baş əymə,yəni batini ziyarət aşiqə daha artıq şeylər bəxş edir.Həmindivaninin,yəni“Başendirir”rədiflimənzuməninikinci bəndində Aşıq Ələsgər təsəvvüfün mərhələlik prinsiplərinətoxunmuşdur. Bubənddə toxunulanmətləblər Aşıq Əlsəgərintam mənası ilə kamil bir ürfan əhli olduğuna dəlalət edir:

***Ölməyincə bu sevdadan, Çətin dönəm, usanam.***
***Həqiqətdən dərs almışam, Təriqətdən söz qanam.***
***Şahi-Mərdan sayəsində Elm içində ümmanam.***
***Dəryaların qaydasıdı, Ümmana baş endirir. (səh. 94)***

Budivanitamamlanmış təsəvvüfhekayəsidir,desək, yanılmarıq. Ustadaşığın bubənddə adınıçəkdiyi “sevda” məzmunvə mahiyyətbaxımından ünvanı dəqiqgöstərilmiş ürfaniməfhumdur. “Sevda”birtəriqətyolçuluğudur. Ürfani terminologiyada əsasən “sevda” və “qovğa” anlayışları birbirinitamamlayan, biri digərinin içində olan nəsnələrdir.

Aşıq Ələsgərin “həqiqət”lə, Əhli-Həqqlərlə ruhani və əqlitəmasının dahabirməntiqitəsdiqiolan “həqiqətdəndərsalmışam” ifadəsi məhz “həqiqət”ə məqamolaraqyanaşma tərzidir.“Həqiqət” anlayışı əksər və ümumi hallarda haqlı fikir, düzgünlük, haqlı mövqe kimi dəyərləndirilir. “Həqiqət” sözünün ərəbcə“Haqq”,yəni“Allah”sözündənyarandığı məlumməsələdir.Əcəmlərdə, eyni zamanda, əksər türkdilli xalqlarda isə, “Haqq” və “həqiqət” kəlmələri dediyimiz kimi, haqlı olmaq, doğru olmaq,ədalətli olmaq anlamında formalaşmışdır. Bunlar hamısı məntiqəuyğunvə mübahisəyə ehtiyacıolmayan məfhumlardır. Əslindəelə Allah-Təalanın bir adı olan “Haqq” da məhz məna baxımındandoğruluq və nizam anlayışına gəlir.LakinAşıq Ələsgərinbudivanidə işlətdiyi “həqiqət”kəlməsi ümumi, xəlqiməfkurə çərçivəsində deyil, birtermin,ürfani təkamülün 4-cüpilləsi olaraqmənalandırılmalıdır. “Həqiqət”ürfaniməcazlarsistemində aşkarlıqrəmzlərindənqopmavə elə buna görə də kütləvilikdən uzaq bir nəsnə kimi qəbul olunmuşdur. Bu fikri belə izah etmək olar ki, “mərifət” pilləsindəkirəmzlilik, mənavə əməl dünyasındakırindanəlik busəviyyədətəmsilolunan fikirvə məfhumların kütləvihaldayayılmasınaköməketmişdir. Birazdadəqiqifadə etsək,

fikirlərinvənəsnələrin rəmzlərə bürünmüş halda deyilməsi çox zaman batindəki sirrlərin zahiri cazibə şəklinə bürünməsi ürfan şairlərinə özdüşüncə və qənaətlərini şeir, qəsidə, ümumiyyətlə, divan halındanəşr etmək imkanı vermişdir. Yəni bu mətləblər nə qədər örtülüvə müəyyən zaman, məkan içərisində təhlükəli olsalar da, onlarılüğəti ifadələrə bürüyüb təqdim etmək mümkün olmuşdur. Lakin"həqiqət" deyilən anlayış ümumi fəlsəfi mənzərədə ürfan elminədaxil olsa da, ürfan özü ayrıca olaraq "mərifət"ə daxildir (elə busözlərin, yəni "mərifət" və "ürfan"ın eyni tərkibdən olması da bufikri təsdiqləyir).

Aşıq Ələsgərin"həqiqət"kəlməsini məhzterminolaraqişlətməsi şübhəsizdir. Bunun ən məntiqli izahı sonrakı, "təriqətdənsözqanam" ifadəsindədir. Belə ki, açıqşəkildə göründüyüüzrə, burada"həqiqət"və "təriqət" ayrıcaolaraqişlədilir. "Həqiqətdəndərsalmışam,təriqətdənsözqanam"misrası istinadetdiyimiz fikirlər məcmusuna rəğmən, çox dərin və sistemli birməntiqin nəticəsidir.

Həqiqətdəndərsalmaqfikri Aşıq Ələsgərinmüxtəlifşeirlərində təzahür etmişdir:

***... Şahi-Mərdan nökəriyəm,***
***Dərsimi pünhan verir..***

– deməklə, ustad aşıq həmin "həqiqət"ə işarə vurur. Məhz bu"pünhan"lıq elə yuxarıdaqeydetdiyimizkimi, həqiqətinnişanəsidir. Birdahavurğulayaqki, "təriqət"və "mərifət"qəliblərindəki təsəvvüfelementləri dahaaşkarvə kütləvixarakterdaşıyır. "Həqiqət"mərhələsində isə, bəhs olunanmövzular, bumövzulardakı obrazvə hadisələr müəyyənqədər gizlilikprinsipinə əsaslanır. Aşıq Ələsgərin "pünhan dərs" deyə təbir etdiyimətləb də məhz elə "həqiqət"dir.

Başqa bir məqam isə, bu "pünhan dərs"in Şahi-Mərdandan,yəniHəzrət Əlidən alınmasıdır. Bu,çox maraqlıbirnöqtədir.

"Həqiqət" barədəki abzaslarda Həzrət Əlinin Əhli-Həqq fəlsəfinəzəriyyəsindəki yerindən və şəxsiyyətindənbəhsetmişdik.Qeydetmişdikki, Əlisiması, Əlieşqi "təriqət"və "mərifət"qatlarındakı sistemlərdənfərqliolaraq, "həqiqət"də birbaşqamahiyyətə malikdir. Aşıq Ələsgərin "Şahi-Mərdannökəriyəm,dərsimi pünhan verir" deməsi məhz Həzrət Əlinin "həqiqət"dəkiobrazıdır. Çünkiburadaadınıçəkdiyimiz gizlilikprinsipinəsöykənilmişdir. Əgərbu Əli"həqiqət"dəki yox, "təriqət"və"mərifət"dəki Əli olsaydı, o zaman həmin dərs nəyə görə pünhanverilməliydi? Bu,birbaşaustadaşığın "həqiqət"fəlsəfəsi ilətəmasının əlamətləridirki, haqqında yuxarıda bəhsetdiyimiz "Başendirir"rədiflidivanisində elə buxətt əsasprinsipkimigötürülmüşdür.Əlaqəli şəkildə qurulan nəzəri fikirlərin mənzum ifadə tərziAşıq Ələsgəryaradıcılığının çoxmühümnailiyyətidir. Bupoeziya sadəcə şeiriyyət və bədiyyatdan ibarət olmayıb, bəlağətivə fəsahəti vasitə kimi götürərək, gerçəkliyin və qeybidünyagörüşün təzahür formasına çevrilmişdir. Bu baxımdan AşıqƏləsgərmənzumələri çoxdəyərlifəlsəfinümunə kimiAzərbaycantəsəvvüftarixində silinməzizvə danılmazfaktorolaraq mövcuddur.

Buradakıbaşqabirməqam "elmiçində ümmanam"kəlməsidir. "Elmiçində" sözü qarışıqmənalı, bədiiifadə tərzideyil. Yənibusözeləbelə, şeiriyyətxatirinə deyilməmişdir.

"Elm" burada Allahın elmi, Allahın şəhəridir. İslam Peyğəmbərininməşhurbirkəlamıbuməqamdaözyerinialır: **"Allahın şəhəri mənəm, qapısı Əlidir"**. Aşıq Ələsgər bu elmə varidliyini"Şahi-Mərdansayəsində"mümkünolduğunu hesabedir. Yəni,birelmqapısıkimi, bumənadada Ələsgərin mürşidi,rəhbəri,piri Həzrət Əlidir.

Bəsonda "elmiçində ümmanam" kəlməsi bütövlükdə nədeməkdir?"Ümman" kəlməsi çoxmənalı ifadə tərzidir. "Ümman" ərəbdilində böyük dəniz, okean anlamına gəlir. "Elm içində

ümman"olmaqisə, təsəvvüfçərçivələrində konkretizahıolan birməsələdir. Belə ki, "ümman" (xüsusilə də Əhli-Həqq sistemində)Allahın əzəmmələklərindənbiriolan HəzrətiCəbrayıln biradıdır. Əhli-Həqq sistemində əsasən 28mələyinadıkeçir. Bumələklər əsas etibarilə 3 adda, 3 şəkildə göstərilir. Bu adlardan biri həmin mələklərin şəriət (ərəbcə) adı, ikincisi onun təbdil vətəcəlla ilə vücudunda mövcud olduğu şəxsin (bu şəxslər cədvəldəəsasən Rəsulallahın əsri-səadət dövründə yaşamış insanlardır) adı,üçüncüsü isə, o mələyin "həqiqət"dəki adıdır. Məsələn:

| ŞƏRİƏT | TƏRİQƏT | HƏQİQƏT |
|---|---|---|
| Cəbrayıl (ə) | Salman (ə) | Pir Binyamin |
| Əzrayıl (ə) | Nüseyr (ə) | Mustafayi-Davudan |
| Mikayıl (ə) | Qənbər (ə) | Hz. Davud |
| İsrafil (ə) | Muhəmməd (s) | Pir Musu-Qələmzərni |

## MƏLƏKLƏRİN VƏZİFƏSİ

**1 – Cəbrayıl – Allahın kəlamlarını peyğəmbərlərə çatdıran vəhy mələyi.**
**2 – Əzrayıl – İnsanların ruhlarını alan ölüm mələyi.**
**3 – Mikayıl – Təbiət hadisələrini yerinə yetirən mələk.**
**4 – İsrafil – sur mələyi yəni Qiyamətin başlanmasını xəbər verən mələk.**

***İsrafil sur çalar qurular divan,***
***Məşhərin düzündə iş verməz yalan,***
***Bir əldə Zülfüqar, bir əldə Quran,***
***Zati-həqq mövlayi Əlini gördüm.***

Bu mələklərin Əhli-Həqq sistemindəki sayları 28-dir.Əhli-

Həqqlərinbumənbələrə,buadlaraharadanvə necə yiyələndiklərihələlik məlumdeyil. Lakinhülulvə təbdil anlayışları çərçivələrində bəlli bir sistemə əsaslanan bu fəlsəfə öz istinadnöqtələrinə və özününməntiqiaçıqlamalarına malikdir.

Onların məntiqi çox zaman subyektiv qəbul olunsa da, hər haldabufaktözü birreallıqdır və 600ildənartıqbirmüddətdə yüzmilyonlarlainsanın həyatamalınavə əqidəsinə çevrilmişdir.Faktı sadalamaq və izah etmək isə onu müdafiə etmək və ya rəddetmək demək deyil. Eynizamandada, klassikyazılıvə şifahiədəbinümunələrdə təsəvvüfünbumöhtəşəmcərəyanının,"həqiqət" sisteminin varlığını və əhəmiyyətini inkar etmək mümkün deyil.Beləliklə, Həzrəti Cəbrayılın pirliyindən və "elm şəhri"ninmüqabilindəki "ümman"lığından bəhsetdik. Aşıq Ələsgər "elmiçində ümmanam"deməklə, Allahınelmindəki yerindən, yəniözünün Cəbrayıl olduğundan söhbət edir. Ələst aləmində Həzrəti Cəbrayılın "bəli" deməsi və Aşıq Ələsgərin də özünü bu mənadaCəbrayıl adlandırması bubaxımdan indibəhs etdiyimizməsələilə sıx bağlıdır.

***.. Dəryaların qaydasıdır,***
***Ümmana baş endirir,..***

Məlumdurki, dəryaümmandankiçikdir. YənibumənadaAşıq Ələsgər özünü daha üstün məqamda görür və "dəryaların",yəni özündən aşağı elmə və yükə sahib olanların bu "ümman"abaş əyməsininbirqaydaolduğunu ərzedir. Bu"dəryalar"dabizimfikrimizcə,təriqətvə mərifət fəzalarında seyredənlərdir.

"Dərya" sözünün özü də dərin mənalar daşıyıcısı, "dərya kamal"sahibi olanlar barədə birmetaforadır. Aşıq Ələsgər özməqamından, yəni dayandığı "həqiqət" pilləsindən çıxış edərək, hətta ürfanvə təsəvvüf əhlinin belə onabaş əyməsiningərəyini vurğulayır.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf.

Elm və Təhsil. Bakı-2010. Səh. 164-170)

Dördüncü İmam Həzrət Zeynəl-Abidinin (ə) ən qiymətli əsəri **«Səhifeyi-Səccadiyə»** adlanan dualar və münacatlardan ibarət kitabıdır. Bu kitab 54 duadan ibarətdir. Həmin dualar əxlaqi, ictimai, ibadi vəən dəqiq tövhidi məsələləri bəyan edir. ***«Səhifeyi-Səccadiyə»yə «Uxtul-Quran»*** **(**yəni Quranın bacısı) Əhli-beytin(ə) *"**İncil**"*i və Ali-Muhəmmədin «***Zəbur***»u da deyirlər.

Bəni-Uməyyə xəlifələrinin içində öz imanı ilə seçilən Ömər ibn Əbdüləziz (iki il beş ay xilafət dövrü) Zeynəl-Abidini (ə) dünyanın çırağı və islamın gözəlliyi hesab edirdi. Bu kitabdan biz İmamın (ə) *"ərşin hamillərinə və müqərrəb mələklərə rəhmət diləməsi"* adı ilə verilən 3-cü duanı burada qeyd edirik:

*وَ كَانَ مِنْ دُعَائِهِ عَلَيْهِ السَّلَامُ فِي الصَّلَاةِ عَلَى حَمَلَةِ الْعَرْشِ وَ كُلِّ مَلَكٍ مُقَرَّبٍ:*

*Ərşin hamilərinə və müqərrəb mələklərə rəhmət diləməsi*

اللَّهُمَّ وَحَمَلَةُ عَرْشِكَ الَّذِينَ لَا يَفْتُرُونَ مِنْ تَسْبِيحِكَ، وَلَا يَسْأَمُونَ مِنْ تَقْدِيسِكَ، وَلَا يَسْتَحْسِرُونَ مِنْ
عِبَادَتِكَ، وَلَا يُؤْثِرُونَ التَّقْصِيرَ عَلَى الْجِدِّ

*Pərvərdigara! Sənin tə'rifindən süst olmayan, təq'disindən yorulmayan, ibadətindən qalmayanlara, əmrinin icrasında təlaş edənlər,*

فِي أَمْرِكَ، وَلَا يَغْفُلُونَ عَنِ الْوَلَهِ إِلَيْكَ وَإِسْرَافِيلُ صَاحِبُ الصُّورِ، الشَّاخِصُ الَّذِي يَنْتَظِرُ مِنْكَ الْإِذْنَ، وَ
حُلُولَ الْأَمْرِ، فَيُنَبِّهُ بِالنَّفْخَةِ صَرْعَى رَهَائِنِ الْقُبُورِ.

وَمِيكَائِيلُ ذُو الْجَاهِ عِنْدَكَ، وَالْمَكَانِ الرَّفِيعِ مِنْ طَاعَتِكَ.

وَجِبْرِيلُ الْأَمِينُ عَلَى وَحْيِكَ، الْمُطَاعُ فِي أَهْلِ سَمَاوَاتِكَ، الْمَكِينُ لَدَيْكَ، الْمُقَرَّبُ عِنْدَكَ وَالرُّوحُ الَّذِي هُوَ عَ
لَى مَلَائِكَةِ الْحُجُبِ. وَالرُّوحُ الَّذِي هُوَ مِنْ أَمْرِكَ، فَصَلِّ عَلَيْهِمْ، وَعَلَى الْمَلَائِكَةِ الَّذِينَ مِنْ دُونِهِمْ:
مِنْ سُكَّانِ سَمَاوَاتِكَ، وَأَهْلِ الْأَمَانَةِ عَلَى رِسَالَاتِكَ وَالَّذِينَ لَا تَدْخُلُهُمْ سَأْمَةٌ مِنْ دُءُوبٍ، وَلَا إِعْيَاءٌ مِنْ لُ

غُوبٍ وَلا فُتُورٌ، وَلا تَشْغَلُهُمْ عَنْ تَسْبِيحِكَ الشَّهَوَاتُ، وَلا يَقْطَعُهُمْ عَنْ تَعْظِيمِكَ سَهْوُ الْغَفَلاتِ.
الْخُشَّعُ الْأَبْصَارِ فَلا يَرُومُونَ النَّظَرَ إِلَيْكَ، النَّوَاكِسُ الْأَذْقَانِ، الَّذِينَ قَدْ طَالَتْ رَغْبَتُهُمْ فِيمَا لَدَيْكَ،
الْمُسْتَهْتَرُونَ بِذِكْرِ آلائِكَ، وَالْمُتَوَاضِعُونَ دُونَ عَظَمَتِكَ وَجَلالِ كِبْرِيَائِكَ وَالَّذِينَ يَقُولُونَ إِذَا نَظَرُوا إِلَى
جَهَنَّمَ تَزْفِرُ عَلَى أَهْلِ مَعْصِيَتِكَ:

*Sənə diqqətdən xəbərsiz olmayan və Sur sahibi olan üfürməsi üçün gözü sənin əmrində olan İsrafilə, zindan gorunda yatanları ölüm yuxusundan oyatmağa hazır olan o mələyə, itaətə görə yanında uca məqam sahibi olan Mikailə, göy və yer əhli arasında möhtərəm olan, vəhyinin əmini Cəbrailə, Mələklər içrə uca məqamını ruh, əmrindən olan ruha, onların hamısına səlavat göndər, həmçinin məqam baxımından onlardan aşağa yerləşən mələklərə, göylərinin sakinlərinə, əmrlərinin əminlərinə işləməkdən usanma-yan mələklərə, heç bir zəhmətdən süst olmayanlara, istəkləri sənə təsbehdən saxlamayanalara, səhv onları səni böyük saymaqdan uzaqlaşdırmayanlara, gözlərini zəlilliklə bağlayanlara, başları aşağı dikilənlərə, Sənin yanında olan şeylərə eşqlərinin sonu olmayanlara, ne′mətini həmişə yad edənlərə, böyüklüyün qarşısında zəlil olanlara, Cəhənnəmi qucaqlayan görüb: Ey münəzzəh Allah, biz sənə layiqincə ibadət etmədik*

سُبْحَانَكَ مَا عَبَدْنَاكَ حَقَّ عِبَادَتِكَ.

فَصَلِّ عَلَيْهِمْ وَعَلَى الرَّوْحَانِيِّينَ مِنْ مَلائِكَتِكَ، وَأَهْلِ الزُّلْفَةِ عِنْدَكَ، وَحُمَّالِ الْغَيْبِ إِلَى رُسُلِكَ، وَالْمُؤْتَ
مَنِينَ عَلَى وَحْيِكَ وَقَبَائِلِ الْمَلائِكَةِ الَّذِينَ اخْتَصَصْتَهُمْ لِنَفْسِكَ، وَأَغْنَيْتَهُمْ عَنِ الطَّعَامِ وَالشَّرَابِ بِتَقْدِ
يسِكَ، وَأَسْكَنْتَهُمْ بُطُونَ أَطْبَاقِ سَمَاوَاتِكَ.
وَالَّذِينَ عَلَى أَرْجَائِهَا إِذَا نَزَلَ الْأَمْرُ بِتَمَامِ وَعْدِكَ وَخُزَّانِ الْمَطَرِ وَزَوَاجِرِ السَّحَابِ وَالَّذِي بِصَوْتِ زَجْرِهِ يُسْ

مَعُ زَجَلِ الرُّعُودِ، وَإِذَا سَبَحَتْ بِهِ حَفِيفَةُ السَّحَابِ الْتَمَعَتْ صَوَاعِقُ الْبُرُوقِ. وَمُشَيِّعِي الثَّلْجِ وَالْبَرَدِ، وَالْهَابِطِينَ مَعَ قَطْرِ الْمَطَرِ إِذَا نَزَلَ، وَالْقُوَّامِ عَلَى خَزَائِنِ الرِّيَاحِ، وَالْمُوَكَّلِينَ بِالْجِبَالِ فَلَا تَزُولُ وَالَّذِينَ عَرَّفْتَهُمْ مَثَاقِيلَ الْمِيَاهِ، وَكَيْلَ مَا تَحْوِيهِ لَوَاعِجُ الْأَمْطَارِ وَعَوَالِجُهَا وَرُسُلِكَ مِنَ الْمَلَائِكَةِ إِلَى أَهْلِ الْأَرْضِ بِمَكْرُوهِ مَا يَنْزِلُ مِنَ الْبَلَاءِ وَمَحْبُوبِ الرَّخَاءِ وَالسَّفَرَةِ الْكِرَامِ الْبَرَرَةِ، وَالْحَفَظَةِ الْكِرَامِ الْكَاتِبِينَ، وَمَلَكِ الْمَوْتِ وَأَعْوَانِهِ،

*deyən mələklərə, bunların hamısına səlavat göndər, həmçinin mələklərdən olan ruhanilərə, elçilərinə, xəbər aparan hamilərə, vəhyinin əminlərinə özünə aid etdiyin mələklərə, özünə təsdiqlə onları yemək-içməkdən ehtiyacsız etmisən, göylərinin mərtəbələrində onlara məskən vermisən, və'dənin əncamı üçün əmrin sadir olduqda göylərin ətrafına yığışan mələklərə, yağış xəzinədarlarına, buludu hərəkətə gətirənlərə, fəryadından ildırım eşidilən mələyə, qar və dolu dənələrini gəzdirən mələklərə, yağış damcıları ilə birgə enən mələklərə, Külək xəzinələrinin vəkillərinə, yerindən oynamasın deyə dağlara müvəkkil olan mələklərə, suların ölçüsünü sel gətirən yağışların miqdarını öyrətdiyin mələklərə, yer üzünə göndərilib yer əhlinə xoşagəlməz hadisələr və xoşagələn işlər gətirənlərə, yaxşı işlər görən alicənab səfirlərə, insanların əməllərini yazıb onları qoruyanlara, ölüm mələklərinə və onun yardımçılarına,*

وَمُنْكَرٍ وَنَكِيرٍ، وَرُومَانَ فَتَّانِ الْقُبُورِ، وَالطَّائِفِينَ بِالْبَيْتِ الْمَعْمُورِ، وَمَالِكٍ، وَالْخَزَنَةِ، وَرِضْوَانَ، وَسَدَنَةِ الْجِنَانِ. وَالَّذِينَ لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ، وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ وَالَّذِينَ يَقُولُونَ: سَلَامٌ عَلَيْكُمْ بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ وَالزَّبَانِيَةِ الَّذِينَ إِذَا قِيلَ لَهُمْ: خُذُوهُ فَغُلُّوهُ ثُمَّ الْجَحِيمَ صَلُّوهُ ابْتَدَرُوهُ سِرَاعًا، وَلَمْ يُنْظِرُوهُ. وَمَنْ أَوْهَمْنَا ذِكْرَهُ، وَلَمْ نَعْلَمْ مَكَانَهُ مِنْكَ، وَبِأَيِّ أَمْرٍ وَكَّلْتَهُ.

وَسُكَّانِ الْهَوَاءِ وَالْأَرْضِ وَالْمَاءِ وَمَنْ مِنْهُمْ عَلَى الْخَلْقِ فَصَلِّ عَلَيْهِمْ يَوْمَ يَأْتِي كُلُّ نَفْسٍ مَعَهَا سَائِقٌ وَشَهِيدٌ وَ
صَلِّ عَلَيْهِمْ صَلَاةً تَزِيدُهُمْ كَرَامَةً عَلَى كَرَامَتِهِمْ وَطَهَارَةً عَلَى طَهَارَتِهِمْ اللَّهُمَّ وَإِذَا صَلَّيْتَ عَلَى مَلَائِكَتِكَ
وَرُسُلِكَ وَبَلَّغْتَهُمْ صَلَاتَنَا عَلَيْهِمْ فَصَلِّ عَلَيْنَا بِمَا فَتَحْتَ لَنَا مِنْ حُسْنِ الْقَوْلِ فِيهِمْ، إِنَّكَ جَوَادٌ كَرِيمٌ.

*Münkər və Nəkirə, qəbirlərdə ölüləri yoxlayanlara, Beytül mə'muru təvaf edənlərə. Malikə və Cəhənnəm gözətçilərinə, Rizvana və Behişt xidmətçilərinə, əmr edərkən Allaha müxalifət etməyən mələklərə, öz işlərini ən gözəl tərzdə yerinə yetirən mələklərə, Behişt əhlinə: Səbr etdiklərinizə görə sizə salam olsun, axirət yurdu necə də gözəldir-deyən mələklərə, Cəhənnəm gözətçilərinə, onlar ki, onu tutub zəncirləyin, sonra da oda atın deyildikdə o işi dərhal yerinə yetirən mələklərə, Adını yad etmədiyin hər bir mələyə, hansı işə mə'mur olduğunu bilmədiyimiz mələklərə, suyun, havanın və yerin sakinləri olan mələklərə, məxluqati müvvəkkil olan hər bir mələyə, saydıqlarının hamısına sələvat göndər, məqamlarını və təharətlərini daha artıran bir sələvat. Pərvərdigara! Elçilərinə və mələklərinə sələvat göndərib onun bizim tərəfimizdən oduğunu e'lan etdikdə onların bizim dilimizdən axıtdığın gözəl vəsfə xatir, bizə də sələvat və rəhmət göndər ki, həqiqətən də Sən səxavət kəramət sahibisən.*

## "CAMİ-CƏM" MƏSNƏVİSİNDƏ İRFAN VƏ TƏSƏVVÜF

Azərbaycanlı məşhur alim və filosof şairi Şeyx Maleağalı Əvhədədin Şeyx Əvhədi ibn Hüseyn 1274 -cü ildə keçmişdə Azərbaycanın paytaxtı olmuş Maleağa şəhərində anadan olmuşdur.

Bəzi mənbələrə görə ilk zamanlar "Safi" təxəllüsü ilə yazmışdır. Təhsilini o zaman Yaxın Şərqin ən məşhur mədəni

mərkəzlərindən olan Maleağa şəhərində almış, ana dilindən başqa ərəb, fars dillərini, elmi-nücum, məntiq, təbiət elmlərini, fəlsəfəni, ilahiyyatı və s. elimləri dərindən öyrənmişdir.

Müxtəlif mənbələrdə onun titulları barədə deyilmişdir: Əvhədi Maleağayi Allahpərəst, övliya, xoşbatin, xoşsifət, arif, şeyx, mövlana, mehriban, əxlaqlı, təmiz adam, fazil və kamil insan, təsəvvüf təriqəti başçısı, haqq yolun bələdçisi və s. olmuşdur.

Orta Əsrlər müsəlman Şərqinin görkəmli Əvhədi Maleağayi mütəfəkkiri Sufilik fəlsəfəsinə əsaslanan poetik əsərlərin, şeir və poemaların, məxsusən "Cami-Cəm" ("Cəmşid piyaləsi") əsərinin müəllifidir.

Ən dahi şairimiz Həzrəti Seyid İmadəddin Nəsimi Əvhədini çox sevmiş, əsərlərini tərcümə etmiş, yaxud onlara nəzirələr yazmışdır. Xacə Hafiz onu "Piri-Təriqət" adlandırmışdır. Sədi Şirazi onu öz ustadi saymışdir.

Bəziləri Əvhədinin bir müddət İsfahanda yaşamasını və farsca yazmasını əsas tutaraq onu fars şairi kimi qələmə verməyə çalışmışlar, etiraf etmək lazımdırdır ki, deyilən bu fikir səhv və gülüncdür. Birincisi, fars şairlərinin çoxu ərəbcə yazmışlar ki, buna görə onlara ərəb demək olmaz. İkincisi, kecmişdə bir çox şairlər iki, yaxud üç dildə yazmışlar. Ücüncüsü, azəri şairlərinin əsərlərinin fars və ərəb dilində yazması dövrün tələbilə olmuşdur, bəzən isə əsər sifarişlə yazılmışsa, sifarişçinin (əsasən hökmdarların) istəyi ilə olmuşdur. Coxlarının isə Türkcə divanları ogurlanmış, məhv edilmiş və ola bilsin ki, haradasa gizlədilmişdir. Bəzi bizə məlum olmayan səbəblər ola bilsin ki, gələcəkdə məlum olsun. Əsas məsələ dahilərimizin əsərlərindəki fikirlərdir. Mövlana Əvhədinin bizə məlum olan əsərləri: tərcibənd, qəzəl, rübai, qitə və qəsidələrdən ibarət (ən azı 15.000 beytlik) divan, Məlikül Hükəma Xacə Nəsirəddin Tusinin nəvəsi Xacə Ziyadəddin Yusif ibn Xacə Əsilinin (Əsiləddin) xahişi ilə yazdığı, 525 beytdən ibarət aşiqanə bir poema "Dəhnamə" ("Məntiqül-üşşaq"), 1333-34 cü ildə 60

yaşında bir ilə yazdığı şah əsəri "Cami-Cəm" didaktik-fəlsəfi məsnəvisi (9142 misra, Azərbaycan hökmdarı Xacə Qiyasəddin Məhəmməd ibn Rəşidə ithaf olunmuşdur), şer divani 10.000 beytdir.

"Cami-Cəm" məsnəvisi həyatın mənası və insanın özünü dərk etməsi, Rəbbimizin eşqinə çatması üçün ən kamil əsərdir və dünyada tayı-bərabəri yoxdur. "Cami-Cəm"-in 1970-ci il nəşrinin ön sözünda görkəmli alimimiz M.Sultanov yazır: "Yeri gəldikcə Azərbaycan sözləri və məsəlləri ilə bəzənən bu əsərin şair tərəfindən "Cami-Cəm" adlandırılması təsadüfi deyildir. "Cami-Cəm" əfsanəvi İran padşahı Cəmşidin istənilən hər şeyi özündə əks edən camına işarədir. Şair demək istəmişdir ki, onun bu əsərində Cəmişidin camında olduğu kimi, hər məsələyə cavab tapmaq olar. Əvhədi özü əsərinin "Cami-Cəm" adlanmasını belə izah edir.

***Adını "Cəmşidin camı" qoydum mən,***
***Varlığın əksini onda görərsən.***
***Hər kəs istəyirsə dünyanı görmək,***
***Könlü istəyəni burda görəcək.***

....Təsadüfi deyildir ki, bu əsər, istər şairin öz vaxtında, istər sonrakı dövrlərdə geniş yayılmış, Şərq xalqları tərəfindən sevilə-sevilə oxunmuş və bir çox klassik şairlərin yaradıcılığına öz təsirini göstərmişdir." Mövlana Əvhədi "Cami-Cəm"in "Bu kitabın məzmunu haqqında" bölməsində öz əsəri haqqında belə deyir:

***Bu kitab övliya kitabıdır, bax!***
***Yaramaz şöhrətçin onu aparmaq.***
***Bu əlvan naxışlı kitabda olar.***
***Cənnət, cəhənnəmin yolu aşikar,***
***İlk günün, hazırın, son günün sözü,***
***Bir neçə beytilə yazıldı, düzü.***
***Yaxşının sifəti, yamanın üzü,***

*Oğrunun hiyləsi, tacirin sözü,*
*Bir söz artırmadan yazıldı bir–bir,*
*Tutulmaq bilməyən bir ay kimidir.*
*Xəyalın məhsulu deyil o, heyhat.*
*Onu gətirmişdir dünyaya həyat.*
*Nəfs üçün çox xeyir verər bu əsər,*
*Onu kim oxusa məqsədə yetər.*
*Adını "Cəmşidin camı" qoydum mən,*
*Varlığın əksini onda görərsən.*
*Əgər kim istəsə dünyanı görmək,*
*Könlü istəyəni burda görəcək.*
*Ordan bilərsən ki, o şah hardadır.*
*Mənzili, məkanı nə diyardadır.*
*Şahın düşmənləri sınırlar nədən?*
*Sərxoş niyə yatır, onu bilərsən.*
*Bu evə, qapıya kim tapdı açar?*
*Bu evdə olanı kim gördü aşkar?*
*Addan adlanana nə qədər yoldur?*
*Tilsimdən xəznəyə nə qədər olur?*
*Mütləqi nisbidən ayırd edərsən,*
*Dönüb əyri yoldan düzlə gedərsən.*
*Səni azdırmaqçün div tapmaz macal,*
*Həm atmaz quyuya paltarını hal.*
*Gizli hiylələrdən olarsan uzaq,*
*Olmazsan hənəfi qövmündən iraq.*
*Adamlıq nədədir o, deyər, inan,*
*Nədir, nə deməkdir insanlıq, insan.*
*Oyuncaq eləməz səni hər alçaq.*
*Kimsə deməz sənə azqın və axmaq.*
*Malın oğrulardan amanda olar,*
*Elm edər könlündən şübhəni kənar.*
*Açar gözlərini fikir qartalın,*

*Yer, göyü titrədər fikrin, xəyalın,*
*Sağına–soluna keçməz hər axmaq.*
*Sən yaxşı bilərsən yerini ancaq.*
*Sənin ibrət gözün açılar, bişək,*
*Başqa naxışları rədd edər ürək.*
*Sən əldə edərsən belə bir zəfər,*
*Onda Əvhədi da savaba yetər.*
*Görsən ki, yaramır məni əfv elə,*
*Allahdan xacəyə xoşbəxtlik dilə.*

Mövlana Əvhədi 1338-ci ildə martın 8-də 65 yaşında dogma şəhəri Maleağada dünyasını dəyişmişdir. Dahi şairin məqbərəsi (Cənubi Azərbaycannin Maleağa şəhərində) haı-hazırda "Pir Əvhədəddin" adı ilə çox məşhur ziyarətgahdır. Onun məqbərəsini ziyarət etmək hamiya nəsib olmayan böyük xoşbəxtlikdir. Uca Tanrıya çox şükürlər olsun ki, bu günahkar və aciz bəndəyə də 2011-ci ilin payızında Maleağayi Əvhədinin məqbərəsini ziyarət etməyi nəsib etdi. Bu övliyanın qəbri Əhli-Həqlərin müqəddəs ziyarətgahı olan Sərxoş bəy Pirinin arxa divarının yanında yer almışdır. Maleağa camaatının bəzilərinin dediyinə görə Maleağayi Əvhədi batin dərslərini Həzrət Sərxoş bəydən almış və ustadının adını “Cami-Cəm” əsərində qeyd etmişdir: “Şahın düşmənləri sınırlar nədən? Sərxoş niyə yatır, onu bilərsən. Bu evə, qapıya kim tapdı açar? Bu evdə olanı kim gördü aşkar?”.

Son olaraq Maleağayi Əvhədinin “Cami-Cəm” məsnəvisindən müridlərin yoluna işıq saçan bir neçə beyti burada qeyd edirik:

*Bir rəngdə olsa da nurla can əgər,*
*Yenə bədənlə də yaxınlıq edər.*
*O şey ki, xalq onu ziyarət sayır,*
*O, bu nura doğru hey addımlayır.*

*Camaat bu nurdan görməsə əsər,*
*Sümüyün adını haradan çəkər!?*
*Candan ayrılsa da təmiz bir bədən,*
*Gen deyil allahın mərhəmətindən.*

*Niyazla, yəqinlə əgər bir bədən*
*İllərlə din üçün çalışsa qəlbən,*
*O, olar ağılın bəndə fərmanı,*
*Düz çıxar ürəklə, canla peymanı.*
*Əgər o, gözlərdən olsa da pünhan,*
*Torpağı dünyaya qiblədir hər an.*
*Ruhu bilicidir, hazırdır müdam,*
*Hər kəsi kamına yetirər tamam.*
*Ölülər haqqında belə deyirsən,*
*Bəs niyə dirini heç gəzməyirsən,*
*İş gör rəhbər tutub arif sözünü,*
*İqrar et vasilin hər mö`cüzünü.*

## YUNİS İMRƏ VƏ Ş.İ.XƏTAİ YARADICILIĞINDA "HƏQİQƏT" AXTARIŞI

*Yunis ilə yoldaş olsun,*
*Gəlsin Allahına gedən.*

Böyük türk dünyasının dahi şəxsiyyəti olan Yunis İmrə Tanrı ucalığından başqa bir ucalıq tanımır. Yunis İmrə insanları tərki-dünyalığa deyil, dərki-dünyalığa çağırır. Bu səbəbdən də, haqq aşiqi İslam dininin birliyi, bütövlüyü uğrunda diyar-diyar gəzmiş, müxtəlif təriqətlərə, əqidələrə, məzhəblərə bölünmüş insan firqəsini həqiqətə, mərifətə, əsl insanlığa çağmışdır:

***Şəriət, təriqət yoldur gedənə,***
***Həqiqət, mərifət ondan içəri.***

deyən Haqq aşiqi Həqiqəti və Mərifəti dinin mənbəyi, Şəriət və Təriqəti isə yalnız o ulu dinə gedən yol hesab etmişdir.

Təsəvvüf 4 mərhələdə, 40 məqamda məqsədə gedən yoldur:

**1. Şəriət2. Təriqət3. Mərifət4. Həqiqət**

İslam dinində olan bu dörd qapını ləyaqətlə keçməyi bacaran və haqq əqidəsi uğrunda dərisinin soyulmasından belə narahat olmayan eşq günəşi,böyük filosof-şair S.İ.Nəsimi bir rübaisində deyir:

***Din elmini bilsən, şəriət olar,***
***Bilib əməl etsən, təriqət olar,***
***Elmilə əməlin bir olsa əgər,***
***Haqqin köməyi ilə həqiqət olar.***

Ş.İ.Xətai yaradıcılığında da sufi nəzəriyyəsindən olan şəriət, təriqət, həqiqət və mərifət dərəcələri xatırlanır və bildirilir ki, hər bir sufi dərviş və arif bu mərhələləri keçib həqiqət məqamına çata bilər. Təriqət günəşi Ş.İ.Xətai deyir:

***Şəriət öyrəndim min bir ad üçün,***
***Həqiqət öyrəndim eyni zat üçün.***
***Mərifət öyrəndim bu sifat üçün,***
***Təriqətə xidmət etdim əzəldən.***

**1. Şəriət** - bu birinci mərhələdir ki, din tərəfindən qəbul edilmiş qanun və vəzifələr nəzərdə tutulur. Yəni hər bir şəriət əhli "Üsulid-dinə" ehtiqad bəsləməli və "firuiddin"in 10 şərtini yerinə

yetirməlidir. Bunun üçün hər bir şəriət əhli olan və ibadət edən müqəllid (təqlid edən) olub bir diri müctəhidə (ictihad sahibi) təqlid etməlidir.

Mövlanə Cəlaləddin Ruminin fikrincə, şəriət - Allah ehsanına nail olmağı, ya da Allah dərgahından qurtarmağı axtarır. Varlığından təmizlənənlər isə Allaha xas qurbanlardır. Bunlar məhz seyrü-süluk yolunda qədəm götürənlərdir.

**2. Təriqət** - yol deməkdir. Yolun uzunluğu təsəvvüf yolçusunun öz qüdrətindən asılıdır. Təriqət hallar və məqamlar (kamillik mərhələsinə aparan yol) silsiləsində bütövləşir. Bu mərhələ insanın mənəvi cəhətdən artma, inkişaf, böyümə və daxili «mən»liyinə dönüş mərhələsidir. Başqa sözlə, təriqət mərhələsi təmizlənmələr, təblər, vəhylər silsiləsidir. Böyük mütəfəkkir Əl-Qəzali deyirdi: «Şəriətə hamı əməl edə bilər. Əsl çətin yol təriqətdir. İnsan öz nəfsini paklaşdırdıqdan sonra yeni bir məqama qədəm qoyur - sidq-səmimiyyət zirvəsinə yüksəlir».

Təriqət əhli «mürid» (tələb edən) adlanır və hər bir mürid özünə mürşüd (tələb olunan) tapmalı və onun göstərişlərinə tabe olmalıdır:

***Şah Xətai, sənin dərdin deyilməz,***
***Dərdi olmayanlar dərdə tuş olmaz.***
***Mürşüdsiz, Rəhbərsiz yollar açılmaz,***
***Mürşüd ətəyində əlin varmıdır?***

**3.Mərifət** - aşiqlik mərhələsidir. Bu mərhələdə aşiq daxilindəki miskinliklə, zəlilliklə, köləliklə döyüşüb Tanrı quluna, İlahi eşq xəstəsinə çevrilir. Özünü dərk edən sufi aşiq deyir: «Mən dünyaya yeyib-içməyə, nəsil artırmağa, ölməyə gəlməmişəm. Mən dünyanı dərk edib, ali insani kamillik mərhələsinə, sonsuz olmağa, müqəddəsləşməyə gəlmişəm, buna aqibətim deyirəm. Mərifət mərhələsi insana İlahi güc və bilik verir».

Mərifət mərhələsində aşiq gərək məşuqun bütün çətinliklərinə sinə gərə, sonuncu həqiqət mərhələsinə qədəm qoya bilə.

**4.Həqiqət** - bəndəlik mərhələsi sayılır. Bu mərhələdə təsəvvüf yolçusu, ucalar ucası qarşısında zərrəyə döndüyünü və bu ucalığın bir zərrəsi olduğunu dərk edir, sirlər onun qarşısında pünhanlığını itirir, kamilliyə - pirliyə yetişən sufi «mülk sahibinin ətəyinə üz qoyur», işıqlanır, nur saçır, vəhylər, ehtizazlar, vəcdlər içində bəxti-yarlığa və sonsuzluğa qovuşur. İlahi eşqinə münacatlar deyir. İlham bədahətən, fasiləsiz çuğlayır. Bu, həqiqətə qovuşma mərhələsinin möcüzələridir. Bu dörd mərhələnin içində ən çətini "təriqət" mərhələsidir. Bu mərhələ irfan əhlinin nəzərində bir bataqlığa bənzəyir. Hər mürid bu mərhələni keçə bilmir. Şeyx Nizaminin ilk böyük poeması olan "Sirlər xəzinəsi"ndə şair "Mürşidlə müridlərin hekayəsi" qəsidəsində qeyd edir ki, kamil pirlərdən (mürşid) biri öz müridləri ilə bir gün yola çıxır və yolda müridləri imtahandan keçirməyi qərara alır. Minlərlə müridlərdən yalnız biri həmin imtahandan qalib çıxa bilir. Qalan müridlər Şeyxə (pir, mürşid) bu hərəkətinə görə etiraz edir və mürşiddən ayrılırlar. Həmin qəsidəni olduğu kimi bu bölümdə veririk və məsləhət bilirik ki, şəriət əhli islamda mürşidlik və müridliklə zidd olmasınlar:

***Pirlər məmləkətində kamil pirlərdən biri,***
***Yola çıxdı, yanında minlərcə müridləri.***

***«Yeldə, yoldaveribdiruluTanrımız» deyə***
***Mürşidmürüdlərinəbiryeletdihədiyyə.***

***Şeyxəbütünmüridlərbərketirazetdilər,***
***Qaldıyalnızbirnəfər, başgötürübgetdilər.***

***Sualverdipirona, təəccüblə, maraqla:***
***-Hamıgetdi, sənqaldın… nədirməqsədin, bala?***

***Müridcavabverdiki: - Eyyeriqəlbimolan!***
***Ayağınıntozudurbaşımıntacı, inan.***

***Yelləgəlmişəmməgər, burdanyelləgedəmmən?***
***Hansıod, hansıtufanqopararmənisəndən?***

***Rüzgarkimigələnlər, rüzgarkimigedərlər,***
***Dözüm, səbatgöstərərhümmətgözləyənərlər.***

***Tozyüngülolduğundantezqonar, tezdəuçar,***
***Daimyerdəyişənlərbiryerdətutmazqərar.***

***Vüqarlı, ucadağlaryavaş-yavaşdoğulur,***
***Səbrlisabitdiki, əzəmətlidağolur.***
***Pərdəyırtmaqzamanınəzəlivərdişidir.***
***Ağıryükdaşımaqsakişilərinişidir.***

***Sənki, eşşəkdeyilsən, əlçəkbədənyükündən,***
***Zahidlikyükküdaşı, xamdeyilsən, əgərsən.***

***Səninzahidlikxəttinəyilməsə, düzolsa,***
***Yasnədirbilməyəcək, hamıbatsadayasa.***

***Zahidliyingözdiksəzərlişahxələtinə,***
***BənzəyərSüleymanlazənbilhekayətinə.***

***Dərunizahidliyinqəbasıaltındaşam,***
***Hidayətnurusaçar, qızılsaçarhəraxşam.***

***Xoşdur, zahidgörünsəhəttameyxanələrdə,***
***Xəzinələrsaxlanırçünkiviranələrdə.***

*Zəryelənlibayrağınaltındaolduğundan,*
*Nizamizahidliyisəfagətirirmüdam.*[72]

Haqq aşiqi Yunis İmrə həmin 4 mərhələni uğurla keçərək fənafillah məqamına çatmışdır. «Bir sualım var sənə» rədifli şeirində bu 4 mərhələni dərvişlərin ulusundan, böyüyündən sual edir və din xadimlərinin böyükləri sayılan şeyxlərin məsələyə münasibətini öyrənmək istəyir. Və bununla da İslam dininin neçə qapısı olduğunu və bu qapıların hansılardan ibarət olduğunu açıqlayır:

***Bir sualım var sənə,***
***Ey dərvişlər eçəsi!***
***Şeyxlər nə buyurur,***
***Yol xəbəri neçəsi?***

***Ver bu suala cavab,***
***Deyək ki, olsun savab.***
***Kimlərə işıq salır,***
***Eşq evinin bacası?***

***İlk qapısı şəriət;***
***Əmri, nəhyi bildirir.***
***Yuya günahlarını,***
***Hər bir Quran hecası.***

***İkincisi təriqət:***
***Qulluğa bel bağlaya.***
***Yolu doğru gedəni,***
***Bağışlaya Xocası.***

***Üçüncüsü mərifət,***
***Can könül gözün açar.***

---

[72] "Sirlər xəzinəsi". N.Gəncəvi. "Mürşid ilə müridin hekayəti" səh.208-209

*Bax məna sarayına,*
*Ərşə dəyir ucası.*

*Dördüncüsü həqiqət,*
*Ərə üstdən baxmaya.*
*Bayram ola gündüzü,*
*Qədir ola gecəsi.*

*Bu şəriət güc olur,*
*Təriqət yoxuş olur,*
*Mərifət möhkəmlikdir,*
*Həqiqətdir ucası.*

Bu dörd mərhələni keçə bilən sufi dərvişin və ya qrifin üzünə yəqinin mərtəbələri açılır. Yəqinin üç mərtəbəsi var:

**1."Elmül-yəqin"** – bu elə bir inamdır ki, dəlil vasitəsilə əldə edilir. Tüstünü uzaqdan görəndə orada atəşin olduğuna inanmaq kimi. Bu mərtəbə barədə Allah-təala "Təkasur" (Mal çoxluğu) surəsinin 5-ci ayəsində buyurur: *"Belə deyildir. Əgər (işin həqiqətini) elmül-yəqinlə (şəkk – şübhə ehtimalı olmayan bir elmlə) bilsəydiniz".*

**2."Eynül-yəqin"** – əşyanın özünü gözlə görməklə əldə edilən inam. Atəşin özünü görmək və onun varlığına inanmaq kimi. "Təkasur" surəsinin 7-ci ayəsində buyurur: *"Sonra, şübhəsiz, onu (Cəza günü) eynül-yəqinlə (Cəhənnəmə daxil olub, orada yanmaqdan hasil olan tam bir yəqinliklə) görəcəksiniz".*

**3."Həqqül-yəqin"** – görməkdən əlavə onunla təmas tutmaq, ondan təsirlənmək yolu ilə əldə edilən inam.(Hacı Əbdürrəhman Yusifpur. "Qurani-kərimin otuzuncu cüzünün təfsiri", Baki-1999, II cild, səh.316.)

Bu mərtəbələri keçə bilən sufilər, dərvişlər və ariflər imamətin həqiqi mənasını başa düşür və onlardan Qiyamət günündə

sorğu-sual olunacaq hadisələrdən xəbərdar olurlar. Necə ki, "Təkasur" surəsinin 8-ci ayəsində Allah-təala buyurub: "*Sonra isə o gün, şübhəsiz, siz (dünyada Allahın) əta etdiyi nemətlər barəsində sorğu-sual olunacaqsınız*".Əziz İslam Peyğəmbərimiz Həzrət Muhəmməd (s) buyurur: «***Şübhəsiz mənim ümmətimin içərisində elə kişilər var ki, onlar xalqdan seçilirlər. Xalq onlara heyrətlə baxar və onları dəli zənn edərlər. Onlar da xalqı dəli olaraq görürlər. Bunu yəqin bilin ki, onlar abdaldır***» - yəni, arif dərvişlərdir.Bu inci Peyğəmbər (s) sözü hər zaman arif şairləri dərindən düşündürmüş, onların önündə geniş yaradıcılıq üfüqləri açmışdır. Məs.:

***Bizi rüsva görüb, zahirdə bizdən etmə nifrət kim,***
***Gədayi-kuyi-eşqik biz ki, Soltanlar gədamızdır[73].***

***

***Zahir bizi görən çox olar, amma tanımaz,***
***Əsrarimiz hicabidə çox mərhəmanədir[74].***

Könüllər sultanı Şah İsmayıl Xətai həqiqət axtarışında olduğundan İslam dininin dörd qapısının seyrinə çıxır:

***Şəriətdir, təriqətdir, həqiqət,***
***Mərifət bir gözüdür can içində.***

Burada şair "Əhli-həqq"lərin (görənlər) etiqadlarına söykənir. Allah-Təala ilk dəfə xas bəndələrini yaradarkən «Yaumul-ələst» aləmində onlara söz vermişdi ki, bir zaman insan surətində onların arasında olacaq. "Əhli-həqqlər"in zənlərincə iki dəfə Allah bu əhdinə vəfa edərək, Həzrət Əlinin (ə) şəklində yerə nüzul etmişdir. Ondan sonra da dəfələrlə ayrı cildlərdə, o cümlədən «Şah Xoşin» şəklində Laristanda, sonralar Soltan Səhhak (İshaq) və neçə ayrı

[73] S.Ə.Şirvani.
[74] Fəxrəddin Cəfakeş.

donda bəndələrinin arasına gəlmişdir. Fəzlullah Nəimi və Bəhlul Danəndə Mövla donunda yox, Mövlanın çar-cəsədlərinin birinin donunda olmuşlar. "Əhli-həqqlər"in nəzərinə görə, Şah İsmayıl Xətai dəöz zamanında Həzrəti Əlinin (ə) sadiq müridlərindən olmaqla yanaşı həm də Mövlanın çar-cəsədlərindən biri olub. Buna görə də Şah İsmayıl Xətainin müridləri ona bir insan kimi yox, bir mələk kimi baxırmışlar. Hətta onun qoşununda bəziləri «Mürşidi-Kamil», yəni Şah İsmayıl Xətai özü bizi mühafizə edəcək, deyə silahsız olaraq savaşa gedirmişlər.

Ş.İ.Xətai deyir:

***Girdim Adəm cisminə, kimsənə bilməz sirrimi,***
***Mən bu beytullah içində ta əzəldən var idim.***

Şah İsmayıl Xətainin özündə də belə bir etiqad var idi. O da Həzrət Əlini (ə) Allahın məzhəri kimi vahid bilirmiş.

***Bu Xətai xəstədil, birliyinə iqrar edir,***
***Vahidi-yekta imişsən, Ya Əli, səndən mədəd[75].***

Bu bölümü könüllər sultanı Ş.İ.Xətainin "Aldım" rədifli ustadnaməsi ilə yekunlaşdırırıq:

***İqrar verdim, dönmən Ələst bəzmindən,***
***Verdiyim iqrarı imandan aldım.***
***Başqa seyran gördüm kəndi özümdən,***
***Bu məhəbbəti mən Mərdandan aldım.***

***Naru, badu, abü-xakdən xəlq oldum,***
***Kəndi-kəndim ana rəhmində buldum,***
***Müddət tamam oldu dünyaya gəldim,***

[75] Axund Hacı Soltan Hüseynqulu oğlu. «Şah İsmayıl Xətai» kitabı: «Şah İsmayıl Xətai və məzhəb», səh. 331-333

*Bu ibrətnümayi cahandan aldım.*

*Bildiyim unutdum, eylərəm fəryad,*
*Dərdim budur, dil yox istəyəm imdad,*
*Təkrar yenə təlim etdi bir ustad,*
*Dərsimi məktəbi-ürfandan aldım.*

*Can gözü qəflətdən açıla düşdü,*
*İkilik pərdəsi seçilə düşdü,*
*Qüdrət xəzinəsi açıla düşdü,*
*Cəvahiri kani-mərcandan aldım.*

*Bu gizli sirdir, hər can duyamaz,*
*Əhli-eşqin qatarına uyamaz,*
*Dəgmə[76] cövhərfüruş baha qoyamaz,*
*Bu dürri-yektadır, ümmandan aldım…*

*Gəl düşünmə ağla sığmaz bu elim,*
*Qüdrət xəzinəsinin müftahi dilim,*
*Bir ulu dərgaha ulaşdı yolum,*
*Bilməyən sanır ki, dükkandan aldım.*

*Ah edib utandım kəndi özümdən,*
*Məst olub, türabə düşdüm özümdən,*
*Qanlı yaş axıtdım iki gözümdən,*
*Macərayi çeşmi-giryandan aldım.*

*Musaya təcəlli göründü Turdan,*
*Məst olub, ağlını şaşırdı sirdən,*

[76] Hər yetən, təsadüfi

*Ənəlhəq sirrini aldım Mənsurdan,*
*Məhəbbət kəmərin ərkandan aldım…*

*Şəriət sancağı gəldi dikildi,*
*Təriqət yolunda güllər saçıldı,*
*Mərifət dəryası daşdı, töküldü,*
*Həqiqəti pirü-pirandan aldım.*

*Həqiqət yolunda gör savaşımı,*
*Axıtdım gözümdən qanlı yaşımı,*
*Pirlər eşiginə qoydum başımı,*
*İcazət ol dəmdə meydandan aldım.*

*Haq budur sözümə hiylə qatmazam,*
*Hər kəsə bu sirri əyan etməzəm,*
*Qiyməti bilinməz yerdə satmazam,*
*Mən bu nəsihəti bir candan aldım.*

*Çalış bu girdabın çıx yörəsinə,*
*Dərman gizlənibdir dərd arasına,*
*Məlhəm sarılarmı eşq yarasına?*
*Bu elmi-hekməti Loğmandan aldım.*

*Aləm başdan-başa bir seyrəngahdır,*
*Gir könül şəhrinə gör nə dərgahdır,*
*Bir gizlicə sirdir, qüdrətüllahdır,*
*Yazılmış dəftərü divandan aldım.*

*Tərkü təcrid oldum, tökdüm qəbayi,*
*Əynimə geyindim şalü-əbayi,*
*Bana sorun kimdən aldım yasayı?*
*İsmayıla enən Qurbandan aldım.*

***Dünyadan əl çəkdim, ərkandır işim,***
***Çeşm ilə bürhandır, tökülür yaşım,***
***Sizlərə hədiyyə, eldədür başım,***
***Ol yaşıl yarpağı Səlmandan aldım.***

***Gərçi Xətayiyəm, günahım çoxdur,***
***Qəlbimdə bənlikdən bir əsər yoxdur,***
***İncil, Tövrat, Zəbur – dörd kitab haqdır,***
***Ləzzəti ayəti-Fürqandan aldım.***

## ŞAİR NƏBİNİN VƏ KLASSİK ŞAİRLƏRİN YARADICILIĞINDA "HƏQİQƏT" AXTARIŞI

Şair Nəbi Borçalının yaradıcılığına nəzər saldıqda açıq-aşkar görünür ki, şair "Əhli-haqq" məzhəbinə mənsub olan İlahi vergili bir şairdir. Şairin **Of-Of (Ağ heca)** təcnisinə baxdıqda onun ali məqamlara yetişdiyinin şahidi oluruq:

***Əhli-həqiqətdən dərs alan könül,***
***Kəsbi-elimindən eyləməzmi O-F?***
***Zatı dürüst olan Tanrı xalıqın,***
***Xof alıb qəlbində eyləməzmi O-F?***
***Hərdən xəyalında xeyrə çalışıb,***
***Gələndə ziyanı ay eylər Of-Of?***

**Anlamı: "Əhli-həqiqətdən dərs alan könül"**– *deyərkən şair Əhli – həqq olduğundan söhbət açır. Əhli – həqq dedikdə, həqqin gizlin sirlərindən agah olan insanlar nəzərdə tutulur. İslam dinində 4 qapı var:****Şəriət, Təriqət, Mərifət, Həqiqət.***

İslamın nişanəsi olan "Azan" da 4 "Allahu-Əkbər" var bu Allahu-Əkbərlərin hər biri İslamın bir qapısına işarədir. 1-ci Allahu-Əkbər – Şəriətə, 2-ci Allahu-Əkbər – təriqətə, 3-cü Allahu-Əkbər – mərifətə, 4-cü Allahu-Əkbər – həqiqətə əsaslanır. Şəriət mərhələsində insan özünü və dünyadakı bütün yaranmışları xəlq edən bir Xaliqin olduğunu etiraf edir. Təriqət mərhələsində insan öz dediyini dərk etmiş olur. Mərifət mərhələsində insan artıq dünyada olanların hamısını rədd edir, bütün dünya nemətlərindən əl çəkir və öz Yaradanı ilə təkbətək qalır. Həqiqət mərhələsində insan artıq özünü də unudur, təkcə Yaradanını düşünür və Allahın təkliyinə şəhadət verərək deyir:

Əşhədu ən lə iləhə illəllah. Şəhadət verirəm ki Allahdan qeyri ibadətə layqi məbud yoxdur. Gözəlliyi ilə bütün Peyğəmbərlərdən seçilən gözəllik simvolu Həzrəti Yusif (ə) bu mərhələləri keçdiyindən və Əhli-Həqq olduğundan Misirin rəhbəri olarkən, alnını torpağa qoyub, Allah-Təalaya şükr edərək daim camaata deyərmiş. "Mən fəxr etmirəm ki, sizin rəhbərinizəm, fəxr edirəm ki, Allah mənim rəhbərimdir".

S.İ.Nəsimi demiş:"Şəriət, təriqət, mərifət, həqiqət insanın əqli, mənəvi yüksəliş mərhələləridir. İnsan bu mərhələləri keçməsə kamillik zirvəsinə yetişə bilməz".

***Həm şəriətlə təriqət, həm həqiqət, mərifət,***
***Ayətul – elmulyəqin, elm ilə burhandır- Əli.***

Və yaxud

**Həm şəriət, həm təriqət, həm həqiqət, mərifət,**
**Səndədir müşgül-quşasan ya Hüseyn ibn Əli.**

**"Ayətul-elmul"** – Qurani-Kərimin "ə**r-Rədd**" surəsinin 43-cü ayəsinə şamildir ki, bu ayədə də Allah-Təala buyurub**: "Ey**

**Peyğəmbərim! Kafirlər deyirlər ki, sən Peyğəmbər deyilsən. Onlara de ki, mənimlə sizin aranızda Allahın və kitab elmini bilənlərin şahid olamsı kifayətdir".** "**Ayətul-elmul**"dən məqsəd Həzrəti Əlidir (ə).Peyğəmbər (s) belə buyurub: "Həzə Aliyyun məal Qurən vəl Qurənu məal Aliyyun" "Əli Quran ilə, Quran Əliilədir".

**"Kəsbi-elimindən eyləməzmi O-F?"**Şair deyir ki, bir insan ki Əhli – Həqq olaniyə Əhli – Həqqlər məclisində iştirak etməyə və həqiqətin əmrlərinə tabe olmaya, o şəxs həqiqət elmindən bəhrələnmədiyinə görə həmişə əziyyət çəkər. Ş.İ.Xətai deyir:

***Əhli – həqqlər məclisindən qafil olma heç zaman,***
***Əhli – həqqlər məclisində löleyi mərcan bitər.***

Bu beytdə şah babamız özü də Əhli – Həqq olmaqla yanaşı həm də Əhli – Həqqlər məclisinin dürrü olan Löleyi Mərcandan (İmam Həsən və İmam Hüseyn) söhbət açır və bildirir ki, bu məclisin üzvləri Əhli – beyt məhəbbəti ilə yaşayır. S.Ə.Şirvani deyir:

***Kəbəyə Əhli – Həqqin batini dildəndir yolu,***
***Qeyri yol getsən əgər quli-biyaban yoludur.***

Müasir dövrümüzün şairlərindən olan Vüqar Nakam Əhli – Həqqlər barədə belə deyir:

***Əhli – Həqq Kəbəyə qəlbindən açır yol zair,***
***Sən gedən rahidə min quli – biyaban oxuyur.***

Və yaxud

***Əhli – Həqq tutduğu yol Ali – Peyğəmbər yoludur,***
***Zülfiqar sahibi ol Şiri – Dilavər yoludur.***

"**Zatı dürüst olan Tanrı xalıqın" –** deyərkənkökündə xilaf olan kəs heç vaxt Tanrının buyurduqlarına əməl etməz. Fəqət zatı

pak olanlar Xaliqin əmrlərinə tabe olarlar.

"**Xof alıb qəlbində eyləməzmi O-F?"-** qorxu və ümid içində olan insanlar heç zaman peşmançılıq çəkməzlər.

**"Hərdən xəyalında xeyrə çalışıb",** - deyərkən insanları xəyal qüvvəsindən uzaqlaşmağa çağırır, çünki insan xəyalla yaşasa heç yerə yetişə bilməz.

**"Gələndə ziyanı ay eylər Of-Of?"** – xəyal qüvvəsiylə yaşayan insanlar mənfəətindən çox ziyana düşüb of – of çəkirlər.

***Səyyadam tor qurdum dağ damanında,***
***Ahu məskənində, dağ damanında,***
***Ovçu bərəsində, dağ damanında,***
***Duyanda zəhmətin eyləməzmi O-F?***
***Çəkməsə qisməti çıxmaz bərədən,***
***Yetincə Əkbərə ay eylər Of-Of?***

**"Səyyadam tor qurdum dağ damanında"** – *"Səyyad" fars sözü olub, "ovçu" deməkdir. "Daman" fars sözü olub, "ətək" deməkdir. Bu misrada şair deyir ki, mən də ovçu olub dağ ətəyində tor qurdum.*

**"Ahu məskənində, dağ damanında"** – *"Ahu" fars sözü olub, "ceyran" deməkdir. Şair bu misrada özünü ceyrana oxşadaraq, dağ ətəyində məskən tutduğunu deyir.*

**"Ovçu bərəsində, dağ damanında"**- *"Bərə" fars sözü olub, "keçid" deməkdir. Şair bu misrada deyir ki, mən də ovçu olub dağın keçidini özümə məskən etdim.*

**"Duyanda zəhmətin eyləməzmi O-F?"** – *Zəhmətlərim bəhrə verməsə, mən də narahat olaram.*

**"Çəkməsə qisməti çıxmaz bərədən"** – *Allah istəməsə, nə qədər zəhmət çəksəm də ov bərədən çıxmaz.*

**"Yetincə Əkbərə ay eylər Of-Of?"** – *"Əkbər" sözü ərəb sözü olub "böyük" deməkdir. Şair Allahın böyüklüyünə inanır və ümidini Allahdan üzmür.*

*Şair Nəbi, eşqin xaka yetişi,*
*Turaba qarışı, xaka yetişi,*
*Dönür dövranımız xaka yetişi,*
*Görəndə qəbrimi eyləməzmi O-F?*
*Munkir, nəkrayıllar sual edəndə,*
*Ruhun yetişincə, ay eylər Of-f?*

**"Şair Nəbi, eşqin xaka yetişi"** – *"Eşq" əşəqə felindəndir, mənası "sarmaşıq" deməkdir və ariflər deyirlər ki, "eşq" özü bir elmdir. "Xak" fars sözü olub, mənası "torpaq" deməkdir. Bu misrada şair deyir ki, eşq məktəbində oxumaq üçün gərək torpaq kimi sadə olasan.*

**"Turaba qarışı, xaka yetişi" – ""Türab"** *ərəb sözü olub mənası "torpaq" deməkdir. Peyğəmbərimiz (s) Həzrət Əliyə (ə) bu ləqəbi verib. Əbu Turab (torpaq atası). Bu misrada şair çox güman ki, Həzrət Əliyə (ə) yetişməyi Allahdan istəyir.*

**"Dönür dövranımız xaka yetişi" –** *deyərkən insanın ölərkən torpağa çevrilməsini nəzərdə tutur.*

**"Görəndə qəbrimi eyləməzmi O-F?" -** *mənim qəbrimin üstünə gələnlər, mənim mənəviyyatımdanbəhrələnənlər ölümümdən sonraheyfslənməzlərmi?*

**"Munkir, nəkrayıllar sual edəndə"** *– buiki mələk insan qəbrə qoyularkən ondan sorğu – sual edərlər.*

**"Ruhun yetişincə, ay eylər Of-f?" -** *bu misrada şair Quranın "əl-Bəqəra" surəsinin 156 ayəsinə istinad edir. Biz Allahdanıq və Allaha tərəf də qayıdacağıq.*

## TÜRK ƏDƏBİYYATINDA HƏQİQƏT AXTARIŞI

Türk ədəbiyyatının yazarlarından olan İbrahim Murat "Hacı

Bektaş Vəli haqqında" yazdığı kitabda Allah dərgahına gedən qulların yollarını bu ardıcıllıqla göstərir və yazır: "Hacı Bektaş-ı Veliyə göre, Allahın kullarına yardımçı mürşit, yol gösterici olarak göndərdigi hayırlı kullar vardır. Bunlar insanlığa Tanrının hediyyesidir.

Bunları bir arada sayarken «Üçler, Beşler, Yediler, On iki İmamlar ve Kırklar» diye sayarlar.

**Üçler:** Hazret Allah, Hazret Muhammed ve Hazret Alidir.

**Beşler:** Hazret Muhammed, Hazret Ali, Hazret Fatima, Hazret Hasan ve Hazret Hüseyindir.

**Yediler:** Bunlar yedi ulu aşıklardır: Hatayi, Nesimi, Füzuli, Kul Himmet, Virani, Yemini ve Pir Sultan Abdaldır.

**Alevilikte Kırklar:** Alevi inancına göre kırklar, Tanrının ruhları yarattığında yaratılan, her devir ve zamanda yer yüzünde bulunduklarına inanılan ermişlerdir. Bu kırk ermiş dünyanın çeşitli zamanlarında insan suretinde yer yüzüne gelmişler, ölümlerinden sonra da değişik donlarda (başka kimlikte) yaşadıkları ve dünya durdukça da yaşayacakları kabul edilmektedir.

Kırkların 23-ü erkek, 17-si kadındır. Hiç bir kaynakda kırkının isimleri bulunamamaktadır.

## ALEVİLİKTE DÖRD KAPI VE KIRK MAKAM NE DEMEKDİR?

Ələvilik nə bir məzhəb, nə də bir təriqətdir. Ələvilik islamın özü, haqq Muhəmməd –Əli yoludur- belə deyir Hacı Bektaş Vəli.

Digər bir kəlamında Hünkar Hacı Bektaş Vəli deyir: "Həqiqətin üç məqamı torpaq olacağımızın bilinməsidir".

**Alevilikte Dört Kapı, Kırk Makam.**
**Dörd kapı: Şeriat, Tarikat, Marifet** ve **Hakikattır.**

**1.Şeriat:** Bütün kitap ehli olan peyğamberlerin ümmetlerine mahsus bir inanış ve ibadet şeklidir. Bizim peyğamberimiz Hz.Muhammede biad eden ve ona tabi olan bütün inananların uyması gereken birinci ibadet şeklidir.

**2.Tarikat:** Hezret Peyğamber ve Hezret Ali ile Ehli-Beyte gönülden bağlanıp riyasız onlara tabi olanların yoludur.

**Şeriatin Makamları:**

1. Allaha, peyğamberlerine, kitaplarına, ahiret gününe, her türlü güzellik ve iyiligin Allahtan geldigine, kötü fiillerin ise nefsimizin ürünü olduğuna inanmaktır.
2. Allaha ve Hezret Muhammedin Allahın kulu ve elçisi olduğuna tanıklık etmek, namazı dosdoğru kılmak, oruc tutmak, zekat vermek, hacca gitmektir.
3. İlim ögrenmek.
4. İhsan sahibi olmak.
5. Evlenip nikahlı olmak və kendi helali ile yetinmek.
6. Helal yiyip giyinmek.
7. Sünnet ehli olup peyğamberimizin yolundan gitmek, Amentünün şartlarını yerine getirmektir.
8. Şevkatli ve merhametli olmak.
9. Helal kazanmak.
10. İyiligi ve güzelligi emr etmek, kötülügü ise nehy etmektir.

**Tarikatın Makamları:**

1. Yola girip, pirden el tutmak, nefisten, hırstan, tamahdan, bütün kötü arzu ve isteklerinden arınıp, tövbe etmektir.
2. Bir mürşide mürid olmaktır.
3. Giyim kuşamı tarikata uyğun olmak.
4. Allah korkusu ile hareket edip, haksızlık etmemek.
5. Hizmet etmek.
6. Nefsi öldürmek.

7. Allaha dönmek ve ondan qayri hiçbir kimseden dilek dilememektir.

8. Meslek edinmek.

9. Cemaate girmek, nasihat dinlemek, herkese sevgi beslemek.

10. Aşk, şevki, fakirlik ve kanaatkar olmak.

**Marifetin Makamları:**

1. Edepli olmak, kimseyi incitmemek.

2. Allahtan korkmak, emr ettiklerini yapıp men ettiklerinden sakınmak.

3. Nefsin terbiyesi, açlık ve kanaatkarlık.

4. Daima doğru olmak ve hiçbir zaman haksızın tarafında olmamak.

5. Utanmak, yani pirin, mürşidin, anne ve baba ve büyüklerin yanında edepli ve sayğılı olmak.

6. Cömert olmak.

7. İlim tahsil etmek.

8. Sakin olmak ve daima hırs, kin gibi olumsuzlukları kontrol edip yanlış davranışlardan kaçınmak.

9. Gönül kırmamak ve herkesi hoşnut etmek.

10. Kendini bilip tanımaktır.

**Sırr-ı Hakikatin Makamları:**

1. Alçakgönüllü olmak, incitmemek, istekte bulunmamak, dilek ve iradeyi Tanrıya teslim etmektir.

2. Kainata tek bakışla bakıp, hüküm vermeden (kişileri söz konusu etmeden) iyiligin ve kötülügün kendisini görmek.

3. Nimetlerden yararlanmak, fakat fazlasını Allah rizası için dağıtmaktır.

4. Ölmeden önce ölmek, yani nefsi öldürmek.

5. Hiçbir yaratığa zarar vermemek.

6. Hoş sohbet, olğun olmak, mürşide tam istekle uymak.

7. İyi ve olğun kulların girdigi doğru yola girmek.
8. Kendinde görülen kerametleri gizlemek.
9. Sabr etmek, Tanrıya yakarmak ve Ona ulaşmak.
10. İç gözüyle (can gözüyle) gözlemek, ilmü-ledünü ögrenmek.

### Əlevilikdə dörd qapı və qırx məqamın hansı anlamda olduğuna azəri-türkcəsi ilə qeyd edirik

### Ələvilikdə "Dörd qapı" və "Qırx məqam"

4 qapı: **Şəriət, Təriqət, Mərifət** və **Həqiqətdir.**

**1.Şəriət:** Bütün kitab əhli olan peyğəmbərlərin ümmətlərinə məxsus bir inanc və ibadət şəklidir. Həzrət Muhəmmədə (s) beyət edən və ona tabe olan bütün inananların iman gətirməsi birinci ibadət şəklidir.

**2.Təriqət:** Həzrət Peyğəmbər (s), Həzrət Əli (ə) və Əhli-Beytə (ə) könüldən bağlanıb riyasız onlara tabe olanların yoludur.

**Şəriətin məqamları:**

1. Allaha, peyğəmbərlərinə, kitablarına, axirət gününə, hər növ gözəllik və yaxşılıqların Allahdan gəldiyinə, günah və pisliklərin isə nəfsimizin məhsulu olduğuna inanmaqdır.
2. Allaha və Həzrət Muhəmmədin (s) Allahın qulu və elçisi olduğuna qəbul etmək, namaz qılmaq, oruc tutmaq, zəkat vermək, Həccə getməkdir.
3. Elm öyrənmək.
4. Ehsan sahibi olmaq.
5. Evlənib nigahlı olmaq və öz məhrəmi ilə yaşamaq.
6. Halal yeyib-içmək və halaldan geyinmək.
7. Sünnət əhli olub peyğəmbərimizin yolu ilə getmək.
8. Şəfqətli və mərhəmətli olmaq.
9. Halal qazanmaq.
10. Yaxşılığa və gözəlliyə əmr etmək, pisliklərdən nəhy

etməkdir.

**Təriqətin məqamları:**

1. Yolu tutub, pirdən əl tutmaq, nəfsdən, hirsdən, tamahdan, bütün pis arzu və istəklərdən çəkinib tövbə etmək.
2. Bir mürşidə müridlik.
3. Geyim, xarici görünüş sadə və təriqətə uyğun olmalı.
4. Allah qorxusu ilə hərəkət edib, haqsızlıq etməmək.
5. Allaha xatir xidmət etmək.
6. Nəfsi öldürmək.
7. Allaha dönmək və ondan başqa kimsədən dilək diləməmək.
8. Məslək daşıyıcılığı.
9. Camaatla olmaq, nəsihət dinləmək, hər kəsə sevgi bəsləmək.
10. Mehr, səfa, sadə yaşamaq və qənaətli olmaq.

Könüllər sultanı Ş.İ.Xətai də həqiqət sirlərinə bələd olmasına baxmayaraq, təriqət aləmində olduğunu qeyd edib və deyib:

***Şəriət öyrəndim min bir ad üçün,***
***Həqiqət öyrəndim eyni zat üçün,***
***Mərifət öyrəndim bir sifat üçün,***
***Təriqətə qulluq etdim əzəldən.***

**Mərifətin məqamları:**

1. Ədəbli olmaq, kimsəni incitməmək.
2. Allahdan qorxmaq, əmrlərini icra etmək, nəhy etdiklərindən uzaq olmaq.
3. Nəfsin tərbiyəsi, pəhrizkarlıq və qənaətçillik.
4. Daima doğru olmaq və heç bir zaman haqsızın tərəfində durmamaq.
5. Utanmaq, ahıla, mürşidə, ana-ataya ehtiram emək və böyüklərin yanında ədəbli olmaq.

6. Comərdlik.
7. Elm öyrənmək.
8. Sakit olmaq və daima hirs, kin və s. nəzarət edib səhv davranışlardan çəkınmək.
9. Qəlb qırmamaq və hər kəsi xoşnud etmək.
10. Özünü tanımaq.

**Sırri-Həqiqətin məqamları:**

1. Təvazökarlıq, incitməmək, israrçı olmamaq, dilək və iradəni Allaha təslim etməkdir.
2. Kainata öz baxışı ilə baxıb, hökm vermədən (başqalarının eybini axtarmadan) yaxşılığın və pisliyin kökünü özündə axtarmaq.
3. Nemətlərdən yararlanmaq, lakin artığını Allah rızası üçün paylamaq.
4. Ölmədən öncə ölmək, yəni nəfsi öldürmək.
5. Heç bir yaradılmışa səbəbsiz zərər verməmək.
6. Xoş söhbətli, düzgün olmaq, mürşidə tam istəklə bağlanmaq.
7. Saleh və düzgün qulların getdiyi doğru yolla getmək.
8. Özünə nazil olan kəramətləri gizləmək.
9. Səbr etmək, Tanrıya yalvarmaq və Ona qovuşmaq.
10. Bəsirət gözüylə (can gözüylə) görmək, elmü-lədünü öyrənmək.

## MİSKİN RÜSTƏM NƏVAZİ VƏ XƏSTƏ QASIM YARADICILIĞINDA "HƏQİQƏT"

Müasir dövrümüzün şairlərindən olan Miskin Rüstəm Nəvazi "həqiqət"in sirr olduğunu öz yaradıcılığında vurğulayıb və "həqiqət" rədifli kəlamında "həqiqət"in nədən ibarət olduğunu açıqlayıb:

***Əzəldən sirri-pünhandır həqiqət,***
***Dərin dəryayi-ümmandır həqiqət.***

***Qəvidir çün o haqqin təşkilatı,***
***Batindən həll edər hər müşkülatı,***

***Yəqin hasil olar qəlbin bəratı,***
***Dəvasız dərdə dərmandır həqiqət.***

İslam dinində 4 qapı olsa belə, bu 4 qapının hamısında “üsuliddin” beşdir. Tovhid, Ədl, Nübuvvət, İmamət, Məad. Əməl bölümündə isə hər qapının 10 şərti var. Şəriətin şərtləri Peyğəmbərin (s) vasitəsi ilə, təriqətin şərtləri Həzrət Əlinin (ə) ustadlığı ilə xas insanlara çatdırıldı. Həqiqətə gəldikdə isə nə Peyğəmbər (s), nə də Əli (ə) bu sirrləri açmadı. Həzrət Əlinin (ə) xas tələbələrindən olan Kumeyl ibn Ziyad həqiqətin nə olduğunu sual edərkən Mövla Əli (ə)buyurmuşdur: “Ey Kumeyl, sən hara, həqiqət hara. Mən həqiqəti quyuya deyirəm, quyu tab gətirə bilmir.”

Həzrət Əlinin (ə) əqidə və məslək davamçısı olan Xətai bu qapılara öz yaradıcılığında geniş yer verir və şeirlərinin birində belə deyir:

***Şəriət yolunu Muhəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi,***
***Bu dünyadan neçə yüz min ər keçdi,***
***Onlar ittifaqda, Mehdi yoldadır.***

***Adəmin, Xatəmin zatı Fəzlullah,***
***Əşyayi-qərq etmiş bu, bir Sirrullah,***
***Şahən-şahi-qütbü-aləm Zillullah,***
***Qüdrəti-nəzəri mömin quldadır.***

***Şah Xətayi aydır: - Sirrini yayma,***
***Qıla gör namazın, qəzaya qoyma,***
***Bu yalan dünyada heç sağam demə,***
***Tənin tənaşirdə, sirrin saldadır.***

Təsəvvüf birbaşa Allaha ehtiyac və bu ehtiyacı ödəmə hissi, eyni zamanda ali həqiqət axtarışı yoludur. Həqiqətə çatmaq üçün zahiri cəhətdən üz döndərib batinə meyl etmək lazımdır.Yəni həqiqət axtarışında olan insan bu yolu başa vurduqdan sonra nə məqsəd üçün yarandığını dərk edir. Elə şəxslərdən biri də Xəstə Qasım olub. Haqq aşiqlərindən olan Xəstə Qasım təsəvvüf dairəsinə daxil olmuş və təsəvvüfün dörd mərhələsini uğurla başa vurmuşdur. "Üz ha üz" rədifli cığalı təcnisində Xəstə Qasım deyir:

***Həqiqət bəhrində qəvvasam deyən,***
***Qəvvassansa gir dəryaya, üz ha üz.***
***Aşıq deyər üz ha üz,***
***Sonam göldə üz ha üz,***
***Qarı düşmən dost olmaz,***
***Yalvarsan da üz ha üz.***
***Bir mərd ilə ilqarını vur başa,***
***Namərd ilə kəs ülfəti, üz ha üz.***

"Görüncə" rədifli cığalı təcnisində Haqq aşiqi Xəstə Qasım "həqiqətin" və "mərifətin" evindən söhbət açır:

***Kim yetikdi həqiqətin evinə,***
***Həqiqətin, mərifətin evi nə?***
***Aşıq deyər, evinə,***
***Xanəsinə, evinə,***
***Yağıb qəmlər yağışı,***
***Viran könlüm evinə.***
***Dolanmayın heç namərdin evinə,***

***Gözü çıxar bir qonağı görüncə.***

Demək olar ki, Xəstə Qasım "şəriət, təriqət, mərifət və həqiqət" mərhələlərinin sirrinə dərindən bələd olmuş və demişdir:

***Həqiqət, mərifət haqqdır, qanıram,***
***Təriqət, şəriət qoşa yazıldı.***

Xəstə Qasımdan bir neçə əsr qabaq yaşamış Türk dünyasının dahisi Yunis İmrə də bu dörd qapını belə vəsf edir:

***Şəriət, Təriqət yoldur gedənə,***
***Həqiqət, Mərifət ondan içəri.***

Şair bu misrada "Şəriət və Təriqət"i gəmiyə, "Həqiqət və Mərifət"i isə dəryaya bənzədir.

Ustad M.Füzuli də "Ənüsül-qəlb" qəsidəsində "həqiqət"in sirr olduğunu söyləyir və hikmət əhlini ondan bixəbər olduğunu vurğulayır:

***Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən,***
***Ki açsın hikmət əhli əql üzündən bu müəmmanı.***

## EŞQ VƏ RİYAZƏT

Ariflər bu dörd mərhələni keçmək üçün Allahdan tovfiq (yardım) istədilər və onların üzünə Haqq dərgahından bir pəncərə açıldı – "eşq pəncərəsi". Ariflər, övliyalar, aşiqlər,mənsurlar, nəsimilər, xətailər, fizulilər, hafizlər, şəmslər mövlanələr o pəncərədən baxa bildilər. Allah onlarınnurluqəbirlərindənbirçəngə torpağıbizimkorgözlərimizəsürmə eləsin! Amin.

Onlarbiryolaçdılar. **Riyazət** yolu.Ruhanitənbəlliyi,cismani əsarəti, əqlibağlılığıyoxedənmüqəddəs"çilələr"!

Məsələnşəxsənmənimüçünidmandabirriyazətdir.Çünkikamili nsanformulumənəvivə fizikiazadlığınvəhdətindənkeçir. Əgər insan özünü bir əziyyətə yaxud da ibadətə-filana adətelətdirirsə, bu artıq riyazət deyil. Bəs onda necə etmək lazımdırki,insangözəlşeylərə adəteləyib(ŞəmsTəbrizidemişkən)özcövhərini əldən verməsin? Bunun bir tək yolu var. Hər an inkşafvə dəyişiklik. Əgər ibadət öz qaydasında, yeknəsəq, eyni ölçülüdavamedirsə və insanbudavamiyyətdənsıxılmırsa,deməlioinsanriyakardır!Özünüald adır.Gəlinözümüzüdə özümüzdəolan Allahı da aldatmayaq!

***El dolandı o gülün başına pərvanə kimi,***
***Elə bildim gözəlim eşqü-məhəbbət piridir. –***

- deyən Vahid öz gülünün "pir" olduğuna bir az şübhə ilə yanaşır.

"Elə bildim" deyir. Mənim gülüm, mənim gözəlim isə şübhəsizfilansız gerçək pirdir. Diri ocaqdır."Gözəlim","pirim"dediyimzatböyükustadMövlanaCəlaləd din Rumidir!OnunşəhəriaşiqlərinMəkkəsi,məqbərəsiisə eşq əhlininKəbəsidir. Bir zərrə də olsa, mübaliğəyə yol vermirəm, heç nəyiobraz havasında şişirtmirəm.

Dindəki zühur və qiyamət anlayışları ürfanda və təsəvvüfdəbirqədərfərqlidir.Belə ki,sufilərüçünbirümumi,zahiriqiyamət, zahiri zühur var ki, buna **"zühuri-amm"** deyirlər. Birdə xüsusi,batiniqiyamət,batinizühurvarki,onun da adına**"zühuri-xass"** deyirlər.Buradakı"zühur"dan məqsədhəqiqətlərinüzə çıxması,aləmlərinRəbbininmehman,zatitəcəllaolduğu məzhərlərin aşkar olunmasıdır.

Eşq əhlinin,ürfan əhlinin,təsəvvüf ərbabının"xas"ları,"batin"ləri sırasında ibadət və zikrlərin, ziyarət və hacətlərin dəyer aldığı nəsnələr vardır. Bunlardan ən tanınmışı Konyada bulunanMövlanaCəlaləddinRumitürbəsidir.Otürbə adicə

(adındanbəllioldduğukimi)torpaqdeyil,sıradanbirməqbərədeyil.Ora məhz,zikrvə semahməqamı,gerçəkbatiniziyarətməskənidir.Oragələnariflər(təxminən700ildənçoxdurki,)hansısaqəbri,oqəbirdə yatanhansısaölünüziyarətetmirlər.OnlarməhzdiriMövlananıziyarətedirlər.Onunlamülaqata,ruhani alış-verişə girirlər. Bunlar elə mətləblərdir ki, mayasındabatini elmlər dayandığı üçün, onları ümumxalq məntiqi ilə izahetmək,onukimlərəsə zorla,faktqarşısındaqoyaraq,çatdırmaqmümkün deyil. Bizim cəhdimiz, bağlı qapılar arxasında yaşadığıehtimaledilən,hicabüstündənhicababürünənbirgözəlinhaqqındakı əfsanəyə bənzəyir. O əfsanənin gerçək oluşunu yalnızvə yalnız o gözəlin varlığını qəbul edib, ona "ləbbeyk" deyənlərseyr edə bilər. Yəni, bu hərəmə girmək üçün, ona məhrəm olmaqlazımdır.

Bəli,böyükpirinfiruzə rənglitürbəsielə birehtişamvəgözəllikdaşıyıcıdırki,onuzövq əhlindən,ariflərdənözgə heçkimduyabilməz. **Deyirlər, birgün, ƏbuYəzidBistamiMəkkəyə,Kəbə ziyarətinə gedirmiş.Yolüstündə saçlı,saqqallıbirdərvişə rastgəlir.Uzunbirmüddətgöz-gözəgəldikdənsonradərvişsoruşur:"Yolunharadırqardaş?"**

**Bistami "Kəbəyə gedirəm" deyə cavab verir. Dərviş bu dəfəsoruşur" "Üzərində nə qədər pulun var?". Əbu Yəzid ziyarətməsrəfiniçıxararaqgöstərir.DərvişonlarıBistamininəlindənalaraqdeyir:"Mənə bax,ogetdiyinKəbə varha,..**

**Oradahələ heçkimbugünə qədərAllahıgörə bilməyib.HalbukioraAllahevidir.Buradakı,mənimiçimdəkiAllahisə buranıbiranolsunbelə tərketməyib.Səngəlmənimbaşımadolan,çıxget.Birdahadaburalara gəlmə". Əbu Yəzid Bistami eynilə dərvişin dediyini edir. Yeddi dəfə onunbaşına fırlanandan sonra qayıdır gedir və bir daha Məkkəyə ayağını basmır.**

Butəhlükəlihekayəninbətnində duranmətləbondanibarətdir ki,xalqın qibləsiilə ariflərinqibləsifərqlidir. Əlbəttə,eşq əhliibadətedərkənüzünühəminqibləyə çevirir.Çünki,ibadətibadətdir.Fəqət,batiniibadət,batinizikr,batiniziya rətayrışeydir. Əslində bucürxırdalığagetməyinə dəyməzdi.Ancaq, sufilər demişkən, bu şərab çox qatı olduğu üçün, bir az suqatmaq lazım idi ki, ən azından içə bilənlər içsin.

Eşqvə ürfanisə Şərqdə deyildiyikimi, "qal"deyil,"hal"mərtəbəsində qərartutmuşdur. "Qal"sözü ərəbcədəki "qalə"yəni, danışmaq, türrəhat, söz-söhbət, elm anlamındadır. "Hal"kəlməsiisə ruhunməkanına daxildir,ağılüstü,məntiqötəsi,elminxaricində olanbirşeydir. "Hal"haqqında məşhur Türkalimi Ə.Gölpınarlı belə qeydlərverir:"Hal, lüğətdə keçmişzamanın sonu, gələcək zamanın ilkidir; yəni, içində olduğumuzzamandır. Təsəvvüfdə termin olaraq, salikə bir nəşə, bir sıxıntı,yaxud zikr, yaxud da gözəl bir səs, bir nəğmə vasitəsilə meydanagələn mənəvi bir zövq gəlməsi mənasındadır; fəqət bu, istəyərək,diləyərəkolmaz, özlüyündənolurvə buzövq, nəşə, sıxıntı,cazibə halında salikə, sufilərə görə bəzi sirlərəaçılır. Halgəlibkeçər; salikə mal olur, salik o halı özünə mal edərsə, "məqam"adını alır". Bu, özünəməxsus tərifdən göründüyü kimi,hal istəyərək, iradə edərək gəlməz. Halı verən lazımdır. Halın özmənbəyi vardır. Bu mənbə mürşiddir. "Mürşid" sözü ərəbcədən"irşadedən"mənasında, yəni,rüşd verən, xilasedən anlamındadır. Lakin mürşid, müəllim deyil. Çünki hal da qal deyil.Dediyimizkimi,qalelmdir."Müəllim"sözününbirkökündə"elm" ə dayanır. Qal məhz, insani təlimin elm qatına şamil edilir.

Halisə insani təlimin eşq mərtəbəsinə daxildir. Elmimüəllim,eşqimürşid təlimedər. Elmiinsanözü öyrənə bilər, müəllimləriniözü axtarıbtapabilər. Eşqisə insanakənardan gəlməbir keyfiyyətdir. Elmin binası istedad və zəhmətdir. Eşqin təməliisə

yoxluq (bu "yoxluq"dan məqsəd zahiri, görünə bilən istinadların olmamasını ifadə etməkdir), gözlənilməzlik, məntiqüstü lütflərintoplusudur. "Eşqtanımlamalarında bütünmütəsəvvüflərin ittifaqetdikləri xüsuslardanbiri, onun sərhədsizliyidir.

Eşqi"sahilsizbirdəniz, boşluqdabirümman"olaraq dəyərləndirən tanıtmalar, bu sərhədsizliyi çox gözəl ifadə edər".

N.Tusibaşqabir əsərində – "Övsafül-əşraf"da bənzər izahlarıverir: "Vəhdətdə salik ilə süluk, seyr ilə məqsəd, tələb ilə talib vəmətlub yoxdur. "Hər şey məhvə məhkumdur". Bu sözün isbatı vəizahatı da yoxdur, təsbit və isbat isə qarşılıqlıdır. Kəsrət bundanbaşlanır. Buradatəkzibilə isbatyoxdur,təkzibintəkzibivəisbatınisbatıdayoxdur. Onafənadeyərlər. O,yoxluğunbaşlanğıcıdır". Məhz elə bu xüsusiyyətlərinə görə, Şərqfəlsəfəsi, Şərq insanı qərblilərdən əfkar və duyğular baxımındanxeylidərəcədə fərqlənir. "İbn Ərəbidə dahaçoxbilinibtanınanvəhdəti-vücud anlayışı, Allahdan başqa varlıq olmadığının idrakvə şüuruna sahibolmaqdır". Türkiyəlidüşüncə insanıC.Meriçin qeydlərində oxuyuruq:"İrfancoğrafiyasıdaikihissəyə ayrılmışdır.Birincisininmədəniyyətimüqayisəyə,ikincisininisə çalğıya,musiqiyə söykənir. Avropada mədəniyyətinbaşlıca vasitəsi ağıldır, Asiyada coşqunluq" (65, 138). Təsəvvüfəslində tammənasıilə birİslammədəniyyətidir. Onunkeçdiyitarixi proses də bunu deməyə əsas verir. "İslam mədəniyyətininən önəmli mövzularından biri də Təsəvvüf anlayışıdır. Təsəvvüfcərəyanı, Suriyədə H.2-ci əsrdə ilkzaviyəniquran Kufəli ƏbuHaşimdənsonra, Sufyani-Sərvi (öl.875), MisirliZun-Nun (öl.860), XorasanlıBayəzidBistami(öl.87-55), HəllacMənsur(875-922), CüneydBağdadi tərəfindənyayılmış, ƏbülQasimƏbdülKərim Küseyri(öl. 1073) tərəfindəndə əhli-sünnəinancına isbata çalışılmışdır. DahasonraQəzzali(1058-1112), Sührəverdi, ƏbdülqadirGeylani(1076-1166)kimi məşhurisimlərvə daha yüzlərlə mütəsəvvüf, bucərəyanın təşəkkültapmasında

mühüm rol oynamışlar" (131,13).

Kiçik bir haşiyə çıxaraq, onu da qeyd etmək istəyirik ki, bufəlsəfitəliminkökü, bəzi tədqiqatçılarınfikincə, İslamdançox-çox öncələrə gedib çıxır. Məsələn, məşhur şərqşünas A.Nikolsonbelə yazır: "Təsəvvüfbaxışları ilə vedanta sistemiarasındabənzərliklər olduğuaçıqdır. Fəqət təsəvvüfün vedantalardanalınıb-alınmadığını təsbitetmək ancaq tarixi əsasları diqqətəalmaqla mümkündür" (178).

Mövlana Cəlaləddin Rumi yazır: "O sevgilimi, yəni Allahı,gərək o qədər çox axtaram ki, onu tapmaq üçün o dərəcədə bolqeyrət sərf edim ki, ən sonda onu axtarmağın gərəksiz olduğunuanlayım! Bu ilahi sirri görən kimdən anlaya bilərəm?!(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 49-50; 66-67)

## ƏHLİ-HƏQQ VƏ NÜSƏYRİYYƏ

Həzrət Əlinin(ə) haqqında ğuluv edən (həddini aşan) və onu Allahlıq mərtəbəsinə qaldıraraq özləri üçün xüsusi qayda-qanunlar icad etmiş şəxslər və dəstələrə "Əhli-həqq", "Əliyullahi", "Səersepordeqan", "Yarestan" (Haqq yardımçıları), "Ğülat" (həddi aşanlar), "Nüsəriyyə", "Ələvi" və s. bu kimi adlar verilmişdir. Onlardan bəzisi öz rəhbərləri barədə də həddi aşmışdır. Adətən İranda bu kimi şəxslər barədə "Əhli-həqq", "Əliyullahi" terminlərindən istifadə edilir. Baxmayaraq ki, onlar özlərinin "Əhli-həqq" (haqq əhli) adlanmasını üstün sayır, onlara "Əliyullahi" (Əlini Allah olaraq qəbul edənlər) və ya "Ğülat" (həddi aşanlar) deyilməsini xoşlamırlar. Türkiyədə həmin insanlara "Bektaşi" və "Ələvi", Suriyada isə onlara "Nüsəriyyə" və "Ələviyyun" deyilir.

Bu məzhəbin ardıcılları İran, İraq, Türkiyə, Albaniya, Suriya, Əfqanıstan və Orta Asiya ölkələrində yaşayırlar. İranda "Əhli-həqq"

məzhəbindən olan müəyyən tayfalar müxtəlif zonalara səpələnsə də onların çoxu Kirmanşah əyalətində yaşayır.

Əhli-həqqdən sayılan müxtəlif dəstələrin arasında etiqad və dini qayda-qanunlar baxımından bir şox ixtilaflar mövcuddur. Həmin ixtilaflar nəticəsində onları vahid bir məzhəb və təriqət kimi saymaq elə də asan iş sayılmır. Belə ki, onların bəzisi həzrət Əlini (ə) açıq-aydın şəkildə Allah adlandırır, həmçinin onlardan bəzisi özünü haqq əhli, müsəlman və on iki imamçı adlandırır, öz etiqad və baxışlarını İmamiyyə etiqadları ilə uyğunlaşdıraraq özlərini Şəriət göstərişləri və dini ibadətlərə təslim olan insanlar kimi təqdim etməyə çalışırlar.

**"Əhli-həqq" məzhəbinin yaranışı və yayılma tarixi.**"Əhli-həqq" təriqəti və ya təriqətlərinin yaranma tarixi ilə bağlı alimlər arasında fikir ayrılığı mövcuddur. Bu da onların yaranma tarixi barədə tutarlı dəlil və sənədin mövcud olmamasından irəli gəlir. Hicri-qəməri tarixi ilə 5-ci əsrə qədər qələmə alınmış qədim kitablarda Əhli-həqq məzhəbindən heç bir ad gəlməmişdir.

"Əhli-həqq" məzhəbinə mənsub olmağın meyarını yalnız həzrət Əlini (ə) şişirtmək və bu barədə həddi aşmaq kimi qəbul etsək, o zaman onların yaranma tarixi həzrət Əlinin (ə) dövrünə qayıdır. Çünki əldə olan məlumatlara əsasən həzrət Əlinin (ə) zamanında bəzi insanlar onu Allahlıq həddinə qaldırmış, Həzrət Əli (ə) onlara qarşı şıddətlə davranmışdır. Lakin bununla bağlı hal-hazırda mərkəzi İranın qərb bölgəsi sayılan və xüsusi etiqad və baxışlara malik olan "Əhli-həqq" ardıcıllarını meyar götürsək, bu zaman onların yaranma tarixi barədə dəqiq fikir bildirmək mümkün olmayacaq və yalnız bu haqda müxtəlif fikirləri təqdim etmək imkanı olacaqdır.

"Əhli-həqq" məzhəbinin müqəddəs kitabı sayılan "Nameye-sərəncam" (Sonluq məktub) adlı kitabda yazıldığına görə, bu məzhəb Allah-təalanın insanların ruhları ilə danışıb onlardan Öz Allahlığı barədə iqrar (etiraf) alarkən (Zər aləmində)

formalaşmışdır. Onun proqramı hər bir zaman və hər bir əsrdə peyğəmbərlərin sirlərindən olmuş və sinədən-sinəyə ötürülərək qədim insanlardan sonrakılara çatmışdır. Həmçinin bu işin davamında İmam Əli (ə) onu Salman və bəzi xüsusi dostlarına təlim vermiş, daha sonra isə müxtəlif dövrlərdə bu şəxslərin sirləri Bəhlul, Baba Sərhəng, Baba Nauvs və Sultan İshaq kimi müxtəlif şəxslərə çatmış, onlar da həmin sirləri digər insanlara ötürmüşlər.

Əhli-həqqin kitablarından sayılan "Şahnameye həqiqət" adlı kitabda isə həzrət Əlinin (ə) qulamı (və xidmətçisi) Nüseyr adlı şəxs bu təriqətin banisi kimi təqdim edilmişdir.

Bəzi yazarların nəzərinə görə bu təriqət hicri-qəməri tarixi ilə 2-ci əsrdə Bəhlul Mahi (vəfatı 219 h.q) və onun dostları tərəfindən İranın Zərdüşt, Məzdəki və s. bu kimi dinləri, həmçinin İslam, Xristian və Yəhudi dinlərinin mənəvi təlimləri və həddini aşmış bəzi təriqətlərin baxışlarından istifadə edərək təsis edilmişdir. Bu təriqətin hicri-qəməri tarixi ilə 3-cü əsrdə Şah Fəzl Vəli adlı şəxs tərəfindən yaradılması fikiri də irəli sürülmüşdür. Digər nəzərə görə, hicri-qəməri tarixi ilə 4-cü əsrdə həzrəti İsa Məsih (ə) kimi Mama Cəlalə adlı bakirə bir qadından dünyaya gəlmiş və "Şahe Xuşin" ləqəbi ilə tanınan Mübarək Şah adlı bir şəxs Lor millətinə xas olan məntəqədə zühur edərək insanlar arasında həqiqət dinini yaymışdır. Deyilənə görə, həmin şəxs vəfatından sonra ruhunun Sultan İshaq adlı bir şəxsin bədəninə daxil olacağını vəd etmişdir.

VIII əsrdə İranla İraqın kürdlər yaşayan məntəqəsində Sultan İshaq (Səhhak) adlı insan zühur etdi. O, İraqın Hələbçə şəhərinin ətrafında yerləşən Bərzəncə adlı kənddə dünyaya göz açmış, atası Şeyx İsa vəfat etdikdən sonra İranın Uraman məntəqəsinə köçmüşdür. Sultan İshaqı "Əhli-həqq" təriqətinin banisi olaraq qəbul etməsək, ən azından bu təriqətə dirçəliş vermiş ən böyük şəxs kimi qəbul etməliyik. Çünki, Sultan İshaq xüsusi etiqad və əməllərdən ibarət olan müəyyən bir məzhəbi icad etmiş və kürdlərə məxsus olan müxtəlif məkanlarda yaşayan "Əhli-həqq" ardıcıllarını

bir yerə toplayaraq onları xüsusi bir təşkilat çərçivəsində meydana gətirmişdir.

"Əhli-həqq" məzhəbi barədə mühüm mənbələrdən biri də Sultan İshaq və onun dostları tərəfindən qələmə alınmış "Nameye sərəncam" və ya "Kəlame sərəncam" adlanan risalələr məcmuəsidir. Bu məcmuə ümumilikdə altı hissədən ibarətdir. Sultanın dostları tərəfindən digər kitablar da qələmə alınmış, onun özündən isə bir çox şeirlər qalmışdır.

Sultan İshaq öz məzhəbini davam etdirmək üçün dostlarını bir yerə toplamışdır. O, ilk öncə Pir Binyamin adlı dostlarından birini "Pir", Davud adlı digər dostunu isə "Dəlil" vəzifəsinə təyin etmişdir. Daha sonra ardıcıllarından yeddi nəfəri öz təriqətinin rəhbərliyi üçün "Yeddi sülalə" adı altında təyin etdi. Beləliklə də "Yaresan"ın ("Haqqın yardımçıları" mənasını verən "Yarestan" ifadəsinin qısaldılmış formasıdır) yeddi sülaləsi təşkil tapdı. Bu yeddi sülalə Şah İbrahimi, Yadeqari, Xamuşi, Ali Qələndəri, Mit Suri, Mustafai və Hacı Baveysidən ibarətdir.

Hicri-qəməri tarixi ilə 11-ci əsrdən 13-cü əsrə qədər onların arasında daha dörd sülalə yarandı. Onlar Zənuri, Atəşbegi, Şahyasi və Baba Heydəri sülalələri idi. Nəticə etibarı ilə hal-hazırda "Yaresan"ın on bir sülaləsi mövcuddur. Bu sülalənin hər bir övladlarına "Seyid" deyilir və onların hər birinə xüsusi vəzifələr təyin edilmişdir. Qeyd etmək lazımdır ki, Sultan İshaq Əhli-həqq təriqətini təşkilatlandırmaq üçün bu sülalələrdən əlavə digər dəstələr də yaratmış və hər bir dəstə üçün müəyyən vəzifələr təyin etmişdir. (Rza Berenckar. "İslamda məzhəblər və təriqətlər". Bakı. Nurlar-2015. Səh.181-184. Tərc. İlqar İsmayılzadə)

## ƏHLİ-HƏQQLƏR

Qısa ömür sürən Şah İsmayılXətainin taxt-tacıoğlu Şah

Təhmasibə qaldı. Lakindünyatarixində ənuzun hökmranlıqsürənlərdənbiriolanTəhmasib Xətaininmənəvivarisiolabilmədi. ŞahTəhmasibsadəcə siyasihakimiyyətə gələ bildi. O,atasıkimixalqın“mürşidi-kamili”, “dədəsi”,“piri”olmadı. İndininözündə dədərvişlər arasında (Təbriz, Maku və Anadolunun bir hissəsindəkiƏhli-Həqlərdə) Şah Xətainin “nihan dərvişlər”ə yazıb bağışladığı“Divan”mövcuddur. Onudeməklazımdırki, əvvəla,budivandakımətləblər ürfanın təriqətvə mərifətmərhələləriüçündə yeni və batini idi. Bu divan yalnız Əhli-Həqlərə, yəni ürfanın“həqiqət”mərhələsində olanlara ünvanlanmışdı. ŞahXətaininzahiri şahlığı, yəni hökmdarlığı, taxt-tacı oğlu Təhmasibə, batini,könülşahlığıisə həminbatini,nihandərvişlərə, Əhli-Həqlərəverildi. Bu, tarixi zərurətdən çox, İlahi təqdir idi. Xətai könüllərşahıidi. OnunşahlığıdaXətailiyidə əslində təsəvvüfsirləriniözündə ehtivaedirdi. “Şah”kəlməsi, qeydolunduğukimi,könüllər şahına isnad edilir. Əksər ürfan dahiləri də “Şah” olaraqçağrılıblar. Məsələn, Şah Fəzlullah Nəimi, Şah Nemətullah Vəli,Şah Qasim Ənvar və s. Bu zatların heç birisi, daşıdıqları “şah”ünvanına rəğmən zahiri taxt-tac sahibi olmayıblar. Şah Xətai dəməhzonlarkimi, batinidünyanınşahıidi.

Təsəvvüfaləmindəmaraqlıbirməqammövcuddur: Hz. Muhəmməd(s) “peyğəmbər”, Həzrət Əli (r.ə.) isə “şah” adlandırılır. Bu ideolojifikir İslamşəriətində qətiyyənqəbulolunmur. Şah Xətaiisəyazırdı:

***Şəriət yolunu Mühəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi...***

Buradakı“Şah”qətiyyən 4-cü xəlifə Əliibn ƏbuTalibdeyil. Bu məhz aşiq və ariflərin vəsf etdiyi Əlidir ki, onu Xətai“şah”adlandırır. Birhaşiyə çıxaraq, Türk yazarı

SalihÇiftinmaraqlıfikirlərinə istinadetməkistərdik:"Sufilərin Hz. ƏliväƏhli-Beytyönümlü fikirlərinin qaynaqlarınıtəsbitetmənin ənəmin yolu təsəvvüfi mətnlərdən hərəkət etməkdir. Bu şəkildə ilkdönəmdənetibarən Hz. Əli ilə əlaqədar axtarılanları ortayaqoymaq və təhliletməksurətiylə onlarıngörüşlərinin təməlləriylə bağlı bəzi ip ucları əldə etmək ehtimalı mövcuddur" (170).

ButəsbitŞahİsmayıl Xətainində məfkurəvidünyasınaşamilolunabilər. Yəni,onun"Əli"si şəriətin,dininyox,təsəvvüfün,eşqin "Əli"sidir.

***Adil İsmayıldım gəldim cahana,***
***Yerə, göyə dolu mənəm,***
***Bilməyən nə bilsin məni,***
***Mən Əliyəm, Əli mənəm.***

"Xətai"kəlməsinə gəlincə isə, burada bəzitarixivə digəryanlışlıqlarmövcuddur. Ehtimallaragörə, ŞahXətaiKərbəlaşəhidi Hürrün qəbriniaçaraqxətaetmişvə təxəllüsü, yəni"Xətai"niözünə götürmüşdür. Səhv,günahanlamında işlənən"xəta" sözü ərəb əlifbasında dəstəli "ta" hərfi ilə yazılır. Halbuki,Xətainin adı əksər mənbələrdə nöqtəli "te" hərfi ilə yazılmışdır.

Bu formada yazılan "xəta" sözü isə heç bir dildə konkret mənaifadə etmir. Yalnız əbcəd hesabı ilə "Xəta" (nöqtəli "te" hərfi ilə)sözü 1001 edir ki, bu da Allahın min bir adına işarədir.

***Yəqin bilki, Xudayidir Xətai,***
***Muhəmməd-Mustafaidir Xətai.***

***Səfi nəsli, Cüneydi-Heydər oğlu,***

***Əliyyəl-Mürtəzaidir Xətai.***

***Həsən eşqinə meydanə gəlibdir,***
***Hüseyni-Kərbəlaidir Xətai.***

***Əli Zeynulibad, Baqiru, Cəfər,***
***Kazım, Musa Rizayidir Xətai.***

***Muhəmməd Təqidir, Əli Nəqi həm,***
***Həsən Əsgər liqaidir Xətai.***

***Muhəmməd Mehdiyi-Sahib-Zəmanın,***
***Eşigində gədaidir Xətai.***

***Mənim adım vəli Şah İsmayıldır,***
***Təxəllüsü Xətaidir Xətai.***

Bütünbudeyilənləronusübut edirki, ŞahXətaiözzamanına sığmayan, şəxsiyyətininömrü qurduğu dövlətinömründənqat-qat uzun olan möhtəşəm birzatdır. Buimperiyanındaha böyük mənəvitəsirarealındanbəhsedən A.Mirzə yazır:"SəfəvilərinNadirşahakimi Dərbənddə yürüşlərihəmdəmədəniaxınlar,saz,sözaxınları,"mədənideportasiyalar"ladiqqəti cəlb edir. Müşkürün, Bayatın, Ovşarın bu mədəni axınlarzəminində yaranması, sufi görüşlü aşıqların, xüsusən, Şah Xətaitəriqəti daşıyıcılarının Dərbənd ətrafında yerləşdirilməsi əvvəlsiyasi, sonrakımərhələlərdə isə özmilli-mənəvi əhəmiyyətiiləyaddaqaldı"(123, 76). Onunqurduğu İmperiyaindimövcuddeyil. Lakin qurduğumənəvi-fəlsəfi "imperiya"mövcudluğunuhələ də sürdürür. ÇoxlarıbunuXətaininşairliyiilə əlaqələndirirlər. Yəni,Xətaini əbədiyaşadan onunyaratdığıbədiisənətnümunələridir.

Bu,doğrudur. LakinŞah Xətaiməfkurəsi,onun özünündə mənsubolduğu ürfaniçevrə,təsəvvüfdünyasıŞeyxoğluİsmayılıyaşadan ənönəmlifaktordur. CənubiAzərbaycanın və Anadolunun böyük bir hissəsini özünə məskən etmişXətaiçi-Şahsevən dərvişlərin sayı bugünmilyonlarladır. OnlarŞahXətaiideyalarını, dolayısı ilə ürfanvə təsəvvüfü sazla,aşıqlıqla geniş tərənnüm edir, yaşadırlar. Təbrizdən Makuya qədər uzanan Şahsevən elləri demək olar ki, əqidə etibarilə, zahiriəlamətlərlə belə Əhli-Həqdirlər. Onlarhəmin nihan dərvişlərdirki, Şah Xətai onlara gizli "Divan" əmanət etmişdir. Bu gün Əhli-Həqq cəmxanalarında həmin gizli divan ritual olaraq, kəlam havalarıkimioxunur. Əhli-Həqq aşıqları xalqıniçində ŞahXətainin ürfani şeirlərini çalıb çağırırlar. N.Xəlilovun qeydlərində oxuyuruq:"Artıq XV əsrinsonu XVI əsrin əvvəllərindənbaşlayaraq saza olan güclü maraq diqqəti daha artıq cəlb eyləyir.

Bu da yəqin ki, Şah İsmayıl Xətainin adı ilə bağlı olmuşdur. Şah İsmayıldövründə artıq,din xadimləri sazaqarşı açıqşəkildəhücum edə bilmirdilər. Çünki Xətainin özü də saz çalırdı, sarayında aşıqlar, xanəndələr saxlayırdı". Bu gün AnadoludaƏləvi, Bektaşi adı ilə 20 milyona yaxın xətaiçi mövcuddur. Bu,Anadoluda, bəzilərinin yanlışifadə etdiyikimi, şiəliyinmövcudiyyəti deyil. Onlarməhz Oızılbaşsufiləridir. OnlarınCəmevlərində saz – bağlama oqədər mühümyertuturki, onubumətləbləriizah etməkyolundaheçnə ilə əvəzetməkmümkündeyil.Anadoluşeirigenişmənada təsəvvüfdünyagörüşünəsöykənmədən öz mövcudiyyətini sürdürməmişdi.MəşhurAnadoluşairi Əbdülfəttah Şahininbirşeirindəoxuyuruq:

***Bulanlar Hakkı buldu, buldular can içinde,***
***Kalanlar yolda kaldı, kaldılar zan içinde.***

***Arayan bular mutlak, miskine bulmak ırak,***
***Kuluna O son durak, gönülden han içinde (108, 45).***

## ƏHLİ-HƏQQ TƏRİQƏTİNİN AZƏRBAYCAN AŞIQ YARADICILIĞINA BƏZİ TƏSİRLƏRİ

Aşıq yaradıcılığına güclü təsir edən təsəvvüf ənənələrindənbiri də müasir İran ərazisində daha geniş intişartapmış məşhurƏhli-Həqq zümrəsidir. Adını"Haqq əhli", "həqiqət insanları" mənalarından götürən bu möhtəşəm cərəyan təqribən XIV əsrinsonu XV əsrin əvvəllərində yaranmışdır. Buməktəbinyaranışıyarıməfsanəviolaylarlatarixə düşmüşdür. BununsəbəbiisəƏhli-Həqlərinbugünə qədər çoxhissəsinigizlisaxladıqlarıəqidə və inancları, yalnız Əhli-Həqlərinüzünə açıqolanxanəgahları və bugünə qədər Əhli-Həqq olmayanheçkimindoğru-dürüst oxuyub başa çıxa bilmədikləri kitablarıdır.Əfsanəyə görə,İranın CənubŞərqində,Uramanatdeyiləndağlarda SultanSahak(əsldeyimlə "Sultanİshaq") adlıbirzatzühuretmişdir. Özünü "Xudanın məzhəri" elanedərək, HəzrətƏlinin (ə) gizlin müridlərinə, o cümlədən, Həsənül-Bəsri və şagirdlərinə təlimetdiyitəriqətbilgiləriiçərisində özünə yeralanvədinixatırlatmışdır. Buvədə əsasənHəzrət Əli (ə) təyin olunmuşzamanda və müəyyən olunmuş məkanda həmin şəxsin bədənindəzühur edəcəkdir. Həmin şəxs isə Sultan İshaqdır (Sultan Sahak).

Bundan sonra onun yeddi "mələyi" müxtəlif məkanlardan onunyanınagələcək. "Ələstbəzmi"ndə qurulan ilkcəmxanə təkrarolaraq, Yer üzündə ilk dəfə Sultan Sahakın ətrafında qurularaq,"Əhli-Həq"liyin binası qoyulacaq. Bu qısa rəvayətlə,

sayları bu günonmilyonu ötübkeçən Əhli-Həqq firqəsinin əsasıqoyulur.

Sonrakıhadisələrisə,gerçəkliyə tamuyğunolaraq bizə gəlibçatmışdır. Sultan Sahakın 11 oğlu olur. On bir övladdan isə onbirxanədantörəyir. Buxanədanlarınsaycavə nüfuzca ənböyükləri Çeltən (Oırxlar), Həftən (Yeddilər) və Atəşbəylidir. Buxanədanlardan törəyən Əhli-Həqlərə "Tayfa" deyilir. Əhli-Həqq,onlarınöztəbiriilə desək,"yadlarla"evlənə bilməz. (Əhli-həqqlər şəriət əhlinə qız verməzlər, lakin onlardan qız ala bilərlər. Çünki, Əhli-həqq əhlinin sirri zəmanə İmamının (ə) zühuruna qədər gizlin qalmalıdır. Bu sirri ancaq millətə İmam (ə) aşkar edəcək və Əhli-həqqlərin kimliyini xalqa tanıtdıracaq. H.H) Beləliklə,Əhli-Həqq xanədanı böyüyür və hər doğulan körpə artıq "tayfa"hesab olunur. Əgərbir Əhli-Həq"yad"laailə qurarsa, ozaman həmin"yad"öncə xanədana "başverməlidir". Buayinin,yəni"baş vermə"nin adı fars dilində "sər sopordeqan"dır (yəni başınıtapşıranlar). Simvolik olaraq, baş verərkən, yerində qırmızı qanqaldığı üçün, Qızılbaş sufilərinin adının bir ehtimalı da buradangötürülmüşdür (digər bir ehtimala görə, qızılbaşlar on iki imamıneşqinə papaqlarına on iki qırmızı çalma bağladıqları üçün onlara"qızılbaş" deyilmişdir. Lakin bu fikir şiə şəriətinə məxsus olduğuüçün sufilərə bunu aid etmək bir qədər mübahisəlidir).

Ənənəvi olaraq,ikicür Əhli-Həqqmövcuddur. Bunlardan birinə "çəkidə", digərinə "çəspidə" deyilir. Çəkidə farsca "dam-maq","damızmaq"mənasındadır. Butayfalaratadan-babadan, yəni nəsildən damaraq gəlmişlər. "Çəspidə" isə, "yapışma", sonradangəlmə,sonradanqoşulma anlamındadırki, bu Əhli-Həqlərin sayı həddindən artıq azdır.

AzərbaycanSəfəvilərDövlətininbanisiŞahİsmayıl Xətainin Əhli-Həqlərlə bağlılığı barədə müxtəlif gizli məqamlar möv-cuddur. Xətainin fikirləri, başqa sufi təriqətlərindən məzmun və formaetibarilə xeylifərqlənən dünyagörüşü, sazlabağlılığı

ŞahXətaininsadəcə təriqətsufisiolduğunaşübhə yaradır. Bu fikrə uyğunolaraq, S.Xavərinin "Xətaipoeziyasındatəsəvvüf ideyası" adlıməqaləsində oxuyuruq:"Əgər ƏhmədYəsəvi poeziyasında müridə verilən əxlaq dərsləri içərisində ilahi dərgaha qovuşmağın yeganə vasitəsi kimi eşqə sadiqlik təbliğ olunursa, Yunusİmrədə ilahidərgaha qovuşmuşsalikinvüsalnəğmələri əsas yer tutursa, Şah İsmayıl Xətai poeziyasında mürşidə sadiqlik təriqətin əsasprinsipikimi qabardılır. Çünkiqızılbaşlıqyəsəvilikdənfərqliolaraq, həmdə siyasiideologiyaidi" (48,209-210). Xətaininbabalarıtəriqətsufiləriidilər. Bufaktdır. Lakin, xüsusiolaraqqeydetməklazımdırki, Əhli-Həqlərtəriqət əhli sayılmır. Bu mənada onlara "sufi" demək də bir qədər yanlışdır. OnlarTəriqətsufiliyiniaşaraq, Mərifətqatındankeçərək, Həqiqətməqamınayetişən, həmtarixi,həmdə fəlsəfibaxımdan zəruri olan bir zümrədir. Xətainin fikirləri, məlum olduğu üzrə, fəlsəfi-ürfanibaxımdansələflərininvə müasirlərinin təsəvvüf dünyagörüşündən xeyli şəkildə fərqlənir. Onun çox məşhur olan iki beytinə diqqət edək:

***Həqin nüsxələrində bir bəyan var,***
***Müqərrər biliniz kim, qanə qan var...***
***Sana derəm, əya, ey mürşidi-Həq,***
***Günəşdən Əhli-Həq qatına əyan var...***

Birincibeytdəki"Həq nüsxələri"ifadəsi birbaşaiçindəQuranın,İncilin,Tövratın,Zəburun, gəlmiş-keçmişvə gələcəkbütün həqiqətlərin mövcud olduğu "Lövhi-Məhfuz"a işarədir. Buhəmin"Lövhi-Məhfuz"dur ki, Əhli-Həqləriniddialarına əsasən,bu"kitab"onların əlindədir(bukitabın Əhli-Həqq cərəyanındakı adı da bu günə qədər gizli tutulur).

İkincibeytdəki"Günəşdən Əhli-Həqqatına

əyanvar"misrasıisə, birçoxbaşqamətləblərdənxəbərverir. Buradaməşhur Buddist və Atəşpərəst (və yaxud da Günəşə sitayiş edənŞəmsilər) əqidələrinin izlərigörünür. Üstəlik"Əhli-Həqq"ifadəsininburada ayrıca, terminolaraq,xüsusiisimkimi işlənməsi mətləbibirazda dərinləşdirir. Ümumiyyətlə, Ələviyili,Qızılbaşlığı əskidinigörüşlərlə,məsələn, şamanizmlə əlaqədəolduğunu görənlər də var. Yusif Yörükanın kitabında bunlara rastgəldik: "Şamanlığınxüsusiyyətlərini və onunalıbyürüdüyüistiqamətin hədəflərini izah etmək üçün içinə girmək və oradan tarixin səsini dinləmək gərəkdir; görünəcəkdir ki, orada bir Türkməzhəbiolaraq,ümumiyyətlə Ələvilikadınıverdiyimiz təşəkkülü görəcəyik".

Bəs, ŞahXətai Əhli-Həqliyə harada,kimlərin vasitəsiləvaridolmuşdu? Birazöncə adınıçəkdiyimiz Əhli-Həqq xanədanlarından biriolanÇeltənin(Qırxların) adıdaŞahXətaininşeirlərində yad edilir:

***Qırxlar meydanına vardım,***
***Gəl bəri ey can, dedilər,***
***Salam verdim izzət ilə,***
***Gir, iştə meydan dedilər...***

Çoxmaraqlıdırki,ŞahXətaibirtəriqətşeyxi, həttaməmləkətşahıola-ola, adınıüstüörtülüçəkdiyi Qırxlar cəminəmürid kimi, talib kimi gedirmiş. Zənnimizcə, bunlar həmin Əhli-Həqlərdirki, Şəriətdən,Təriqətdən,Mərifətdən "keçən" Xətai "Həqiqət" məqamına varmaq üçün onların qapısına gedirdi.

Əhli-Həqlər, əldə olunan şifahi və yazılı mənbələrə əsasən,əvvəllər tamolaraqşeirlərini, zikrlərini,kəlamlarını "goran"dilində yazarmışlar. Budil fars, kürd,lor,birazda türksözlərinin qarışığından ibarət bir ləhcədir və indi də mövcuddur.

Əhli-Həqlərçoxzamanelə "goran"adlanır. Bəziehtimallaragörə,"goran"sözü türkcədəki"görən"(bilən,anlayan, qeybi,həqiqəti görən) mənasında olan sözün təhrif olunmuş formasıdır.İlkdəfə türkdilində (Azərbaycantürkcəsində) Əhli-Həqqkəlamları XV əsrin sonu, XVI əsrin əvvəllərində yaşamış təbrizliməşhur şair və quyəndə Beyrək Quşçuoğluna məxsusdur. Əlbəttə ki,ŞahXətainin şeirləri Əhli-Həqq kəlamları sayılabilməz.

Çünkikəlamdeyilənanlayış Əhli-Həqlərüçün sırf cəmxanadaoxunan və yalnız onların bələd olduğu sirli mətləbləri ifadə edənşeirlərdir. Xətainin əşarıisə özzamanındadakütləvişəkildəyayılmışdı.

BeyrəkQuşçuoğlu sırfcəmxana üçünkəlamyazırdı(Şəriətdə məscid, Təriqətdə xanəgah, təkyə, Həqiqətdə isəcəmxana kimi ünvanlanan məkanlar forma və məzmun etibariləbir-birindən ayrılır).

Quşçuoğlunun bir kəlamı çox diqqətəlayiqdir:

***Padşahım o donda ikən,***
***Saf goranı söylərdi..***
***Şükr, bu dona gələli***
***Türkü göftara çəkdilər...***

(bukəlam Əhli-Həqlərindilindənsöylənilmişdirvə onayazılı mənbələrdə hələ ki, rast gələ bilməmişik)

Budördmisradaoqədər mətləbyatırki, onlarıizahvətəhliletmək ayrıca birmövzudur. Lakin, qısa şəkildə onu qeydetmək olar ki, burada "donbadon"dan, yəni ruhlarin keçidindən,təbdilindəndanışılır. Quşçuoğlu deməkistəyirki, əvvəlkibədəndə hülul etmiş Əhli-Həq şahı goran dilində danışırdı. Sonraisə şükr edir ki, bu bədəndə o, türk dilində danışır. Yəni, BeyrəkQuşçuoğlu türk dilinin Əhli-Həq dünyasındakı varlığına

sevinir.

Bu, çox möhtəşəmbirhadisədir. Quşçuoğludansonra Əhli-Həqlərin ənənəvi24quyəndəsi (şairi, kəlamxanı) əksəriyyətləməhz türkcə (Azərbaycantürkcəsində) yazıbyaratmağabaşladılar.

Beləliklə, Azərbaycan təsəvvüf tarixində daha bir əzəmətlicərəyan – Əhli-Həqlikyaranır. Miskin Abdalvə ŞahXətaiformulunun birbaşanüfuzuvə kəramətinəticəsində Əhli-Həqq dünyasının da özünüifadə vasitələrindən birisazoldu. Təsadüfideyil ki, indi Kirmanşah, Gərrəban və digər Əhli-Həqq cəmlərindətənburçalınır, CənubiAzərbaycan, ocümlədən, Təbriz,İlxıçı,Maku və digər ərazilərdəki "tayfalar"isə məhzAzərbaycansazından ilham alaraq, ilahi sirləri bəyana gətirirlər. Elə bu məqamda sazhaqqındaməşhurbir Əhli-Həqinancınırəvayəthalında nəzərə çatdırmaqistərdik.GüneyAzərbaycanın Gorancəmxanalarından toplanan materiallar arasında bu əfsanə xüsusiyerə sahibdir.Nəqlolunurki,Allah-TəalaHəzrətiAdəmin (ə) bədənini xəlqetdikdənsonra müqəddəsruh(əksərtəsəvvüftəriqətlərinə görə, Allahözruhunu Adəmin (ə)bədəninə üfürmüşdur) çirkinliklərlə – qanla, tərlə, nəfslə dolu o bədənə daxilolabilmirdi.BuzamanmələklərdənCəbrayıl(ə) sazolubAdəmin (ə) qucağınadüşdü.Digərmələk Mikayıl (ə)osazın simlərinə döndü,İsrafil (ə) səsinə, Əzrayıl (ə) isəmizrabına çevrildi. Elə ilkmizrabdan Allahınruhuməstolaraq,Həzrəti Adəmin (ə) bədəninə daxil oldu. O zamandan bəri saz əzəlimüqəddəsliyin simvolu hesab edilir. Bu maraqlı əfsanəni hardasatəsdiq edən bir şeir parçası məşhur Molla Cümənin

***Aşıqlıq Adəmdən icad olubdur,***
***Ol Adəm atanın nəvəsiyəm mən.*–**

– qoşmasıdır. Yəqin ki, əlavə şərhə ehtiyac yoxdur.

Türkiyəli folklorçu Yaşar Kalafat Əhli-Həqlər barədə yazır:"Əhli-Həqq Qaraqoyunlu Türkmən şəhəri İlxıçıda "təkiyə"–"təkyə bağı" vardır. Bu bağda Əhli-Həqq dərvişlər toplanırlar...

Əhli-Həqq inanclarına görə, özlərindənolmayanmüsəlmanlara Əhli-Şəriət deyilməkdədir. Hər vasitə ilə özlərinin Qaraqoyunluolduqlarını bildirirlər. Qaraqoyunluluqla qürur duyarlar. Bunlardan bir qismi İlxıçıdan köçüb Xorasanın Dərəkəndinə getmişlər.

Dərəkənd Əhli-Həqləri də türkcə danışırlar, aralarındakı əlaqənidavametdirməklə, onlardaQaraqoyunlu türküolduqlarınıunutmurlar" (122, 91). Bu izah bəsit görünsə də, özündə maraqlıməqamlar da daşıyır. Belə ki, Cənubi Azərbaycan ərazilərindənXorasantərəfə köçübgedən Əhli-Həqlərin öztürklüklərinisaxlaması çox mühüm nöqtədir. Bu ənənənin kökü əlbəttə ki, ŞahXətai zamanından gəlir. Milli ruhun saxlanılması, bir Türk olaraqƏhli-Həq olmaq, sufi olmaq məhz Şah Xətai, Miskin Abdal, PirSultan, Aşıq Qurbani, Beyrək Quşçuoğlu kimi ürfan böyüklərininmilliyyətçi duyğularınınçağdaştəzahürüdür. Butəzahürnümunələrinin ən güclüsü heç şübhəsiz ki, sazdır, aşıq sənətidir.Aşıqlıq, yuxarıda da qeyd etdiyimiz kimi, Türk xalq sufizminin,milli təsəvvüf ənənələrinin ən bariz daşıyıcısı sayıla bilər.Bizbuməqamdayenə də Əhli-Həqq nəzəriyyəsinə başvurmaq məcburiyyətindəyik. Çünki həmin misraları başqa yollaizah etmək mümkün deyil. "Həqiqət" elmində Əhli-Həqlərə farsdilində "sefidexan" deyilir. Bu ad onlar üçün bir növ künyə vətərifdir. "Sefidexan" farsca "ağları, ağ yazıları oxuyan" deməkdir.Yəni,buradançıxanmənabudurki, başqalarıQurani-Kəriminqarayazılarını(görünənxəttini),onlar isə ağyazıları(görünməyənivə qaraxətlərinarasındaolanları) oxuyurlar. Bumənada "sefidexan" ifadəsi çox diqqətçəkəndir.

***Qəddim əyib, qəm xirqəsin geyirəm,***
***Məhəbbət odundan təam yeyirəm,***
***Leylü nəhar "yahu", "yahu" deyirəm,***
***Çıxıbdı qəlbimdən ibadət eylə.***

Buradakiçikbirhaşiyə çıxmaqistərdik. Aşıq Ələsgərinşeirlərinin 1999cu ildə dərc olunan toplunəşrində buşeirdəki"ibadəteylə"ifadəsi dırnaqiçərisində göstərilmişdir. Buradanbelə mənaçıxırki, onunözqəlbiona "ibadəteylə"deyə xitab edir. Bizcə bu, yənihəmin sözlərin xitabolaraqdırnaqiçinə alınması yanlışdır. Burada ustad aşıq əksinə, gecə-gündüz ("leylü nahar" ifadəsidə həminnəşrdə yanlışyazılmışdır. "Leyl"ilə "nahar" sözləri arasına izafət defisi qoyulmuşdur. Halbuki, onlar izafətdeyil, ayrı-ayrısözlərdir. "Leyl" gecə, "nahar"gündüz deməkdir. Onların arasında isə defs yox, "u" bağlayıcısı olmalıdır ki, bu da "və" bağlayıcısını əvəz edir) "ya hu", "ya hu" deyərək, ibadətdənuzaqdüşür. Buradakı"ibadət" şəriəttermini olaraq işlədilmişdir. Yəni, təriqətə, eşq havasına, ruhani məstliyə girən aşiq ibadətdən, zahidlikdən, dolayısı ilə riya və göstərişdən uzaq düşür. Nəticədə onun qəlbindən ibadət çıxır, yerinə hal, şur, vəcd girir:

***...Xəstə könül, sürün dost irahına,***
***İslam sərdarına, din pənahına.***
***Ələsgər, yön çevir şahlar şahına***
***Yapış ətyindən, şikayət eylə.***

Artıq bəllidir ki, "şahlar şahı" dedikdə söhbət Həzrət Əlidən (ə)gedir. Hər fürsətdə Şahi-Mərdana, Vilayət sahibinə sığınan AşıqƏləsgər əslində bir dərviş olaraq, Həzrət Əli (ə) aşiqi idi. Onun eşqilə dərvişlik,abdallıq,sufilikedirdi. Bueşqin özü ilə gətirdiyiməcazlar və rindanəlik Aşıq Ələsgəryaradıcılığının əsasməzmun və qayəsini təşkil edir:

***Bir gün Mansır qalxar, gələr toxmaq, yay,***
***Dağlara atmağa eylər haqq-say.***
***Seçilməz məşhərdə nə şah, nə gəday***
***Xaliqi-ləmyəzəl haqq divan eylər.***

Buradaustad aşıq həmməşhərgünündən,həmhaqqdivanından, həm də zühurdan danışır. Birinci misradakı "Mansır",yəni, "Mənsur" ifadəsinin kimə xitabən deyildiyi bu günə qədərheç kimə məlum deyil. Şeirin məzmunundan görünür ki, söhbətgələcək dövrandan,zühurvə məşhərgünündən gedir. Elə bunagörə də həminşəxs(Mənsur) kimdirsə, Aşıq Ələsgərinmüasirivə tanıdığı biri ola bilməzdi. Burada ən çox ehtimal verdiyimizməsələ Əhli-Həqlərin gizlin kitablarında və cəm quyəndələrinin(kəlamxanşairlərin) Aşıq Ələsgərdəndə neçə əsröncə irəlidənxəbərverdikləri mətləblərdir. Onlardahəminşəxsinadınıçəkmişlər(həttabizbuadaHafizinməşhirdi vanındadarastgəlirik!). Bəzi məsələlər bu gün də gizli qaldığı üçün biz həmintəhlili bu yerdə dayandırmaq istərdik. Bircə onu deyə bilərik ki,həmin bənddə təsadüfi, qeyri-müəyyən, ünvansız heç nə yoxdur.

***Məzəmmət eyləmə mən binəvanı,***
***Sahibi-səltənət, ey gövhər kanı.***
***Mənim sözüm yoldan çıxan mollanı,***
***İnşallah, qaytarar, müsəlman eylər.***

Təhliletdiyimizmövzubaxımından buradakı ənvacibməqam "yoldan çıxan molla" ifadəsidir. Belə ki, biz klassik ürfanədəbiyyatyında tez-tez"zahidi-gümrah"ifadəsinə rastgəlirik."güm" ("qom") fars dilində "azmış", "çıxmış", "rah" isə "yol","ərkan" deməkdir. Aşıq Ələsgərin "yoldan çıxan molla" ifadəsi"zahidi-gümrah"ifadəsiilə eynimənayamalikdir. Əslində

bu,təsəvvüfqaynaqlarındabir ənənədir. Bu"zahid",bu"molla"yuxarıda Muhəmməd Füzulidən misal gətirdiyimiz "zahid"dir ki,Aşıq Ələsgər ona eşq və ürfan pəncərəsindən baxaraq, onu naqis,yoldan azmış olaraq görür. Muhəmməd Füzulinin divanında beləbir beytə rast gəlirik:

***Ey əsiri-dami-qəm, bir guşeyi-meyxanə tut,***
***Tutma zöhhadın müxalif pəndini, peymanə tut.***[77]

## ƏHLİ-HƏQQ TƏRİQƏTİNİN QAYDA-QANUNLARI

Əhli-həqq təriqətinin Sultan İshaq tərəfindən rəvac tapan qayda-qanunlarından biri ardıcılların tam mənada təslim olmasından ibarətdir. Əhli-həqq təriqətinin ardıcılları on bir sülalədən birini seçərək ona tam mənada təslim olmalıdır. Bunun üçün xüsusi bir mərasim təşkil olunur və həmin mərasim "Pir" və "Dəlil" sülaləsindən olan şəxslərin iştirakı ilə keçirilir.Həmin mərasimin kəsb etdiyi əhəmiyyətə görə Sultan İshaq Pir Binyameni "Pir", Duvudu isə "Dəlil" vəzifəsinə təyin etdi və bu mərasimdə şəxsən özü iştirak etmişdir.

Sultan İshaqın rəvac verdiyi verdiyi qaydalardan biri də üç gün oruc tutmaq olmuşdur. Belə ki, Əhli-həqq təriqətindən sayılan hər bir kəs qış fəslinin 12-ci böyük çilə günündən 14-cü gününədək üç gün müddətində oruc tutmalı, 15-ci gündə isə Sultan bayramı və həqiqət şənliyini qeyd etməlidir. Əlbəttə, Yarestan 15-ci gündən sonra da üç gün müddətində oruc tuturlar. (Əhli-Həqq təriqətinə mənsub olan insanlar 6 gecə məxsus bayram şənliyi keçirirlər. Əvvəl gecə bayramın harada keçiriləcək yer müəyyən olunur, sonra 5 gecə bayram keçirilir ki, bu da Pənci-Təni-Ali-

[77] F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 102-103; 109-110; 210; 247-249

Əbaeşqinədir. Hər gecə bu beş kimsənədən birinin adına qeyd olunur. Bu da qışın böyük çilləsində, qəməri ayları ilə ayın 15-indən 20-sinə qədər qeyd olunur. H.H)

Sultan İshaqın icad etdiyi qaydalardan daha biri də Cəmxana mərasimidir. Həmin mərasimə görə, Yarestan dəstəsi hər həftə ərzində Cəmxana adlanan müəyyən bir yerdə toplaşmalı xüsusi bir mərasim çərçivəsində ibadət və zikrlə məşğul olmalıdır. Həmin mərasimdə iştirak edənlərə "Cəm", onların toplaşdığı məkana isə "Cəmxana" deyilir. Qeyd etmək lazımdır ki, Cəmxanaya daxil olmağın özünəməxsus mərasimi vardır.

Əhli-həqq təriqəti baxımından cəmxanaya getmək, orada qurban kəsmək və niyaz (hədiyyə) vermək xüsusi əhəmiyyətə malik olan ibadətlərdən sayılır. Onlar Ramazan ayının orucunu vacib saymır, onların əksəriyyəti isə namaz qılmağı zəruri saymırlar. (Əhli-Həqqlərin SEYİDlərindən olan Mirməhəmməd Həsən ağa Nəsrəddin şahın zamanında bu sözləri əhli-şəriətin Əhli-həqqlərə atdığı böhtan kimi dəyərləndirib və buyurub ki, "Şəriətdə cəddim Peyğəmbərə (s) nələr vacib olubsa, onlar bizə də vacibdir və nələr onlara haram olubsa bizə də haramdır" H.H) Bir çox hallarda namaz qılmaq əvəzinə niyaz verir və Cəmxanada əyləşməklə namazın insanın üzərindən götürüldüyünə inanırlar. Niyaz. Əhli-həqq ardıcıllarının öz rəhbəri və ya Cəmxanada toplaşmış insanlara təqdim edildikdə hədiyyəyə deyilir. Əhli-həqq təriqətinin ardıcıllarından biri öz əsərində özünü müsəlman və on iki imamçı şiə saymaqla yanaşı Əhli-həqq məzhəbində namaz və orucun olmaması barədə belə yazır: "Nə üçün namaz qılmalıyıq? (Əlbəttə ki,) Allahı yad edib və Ona təşəkkür etmək lazımdır. Əhli-həqq ardıcılları hələ Xanqah dövründə həmişə Allahla olmaq, daim Ona yalvarıb söhbət etmək və Ona təşəkkür etməyi ardıcıllıqla həyata keçirmişlər. Buna görə də namaz qılmağa heç bir ehtiyac yoxdur." (Yaxşı olardı ki, Əhli-Həqq məzhəbinə məxsus olan müəllifin və kitabın adını yazaydız. Əhli-Həqqlərə 17 rükət

namazla bərabər Ramazan ayının orucu da vacibdir. H.H)

Lakin bu onların qəflətdə olmalarının göstəricisidir ki, Allaha bəndəçilik etməkdən, Onun dininə təslim olmaqdan və Ona itaət etməkdən uzaqdırlar, necə ki, Allah-təalanın Öz bəndələrindən namaz kimi ibadətlərlə yad edilməsini istədiyini unudurlar. Görəsən Allah-təalanın vacib buyurduğu Şəriət ibadətlərini tərk edib özbaşına icad edilmiş zikrlərə üz gətiribvə sonra da Allaha bəndəçilikdən necə danışmaq olar? (Yuxarıda qeyd etdim ki, Əhli-Həqqlərin nümayəndələri də şəriət əhli kimi Həzrət Peyğəmbərimizin (s) gətirdiyi şəriət qanunlarına tabedirlər. Bu tayfanın mürşidi daim onlara buyurur: "Şəriətsiz təriqət, təriqətsiz həqiqət yoxdur". H.H)

Əhli-həqq təriqəti ilə Sufilər arasında oxşarlıq çoxdur. Bu oxşarlıqlardan biri də Cəmxana mərasimidir. Çünki Cəmxana heç də (sufilərə məxsus olan) Xanqaha bənzərsiz deyil. Həmçinin Əhli-həqq təriqətinin ardıcılları Sufilər kimi çoxlu və qarışıq tük saxlayır və uzun ölçüdə bığ qoyurlar. Bu qiyafə həmin dəstəyə xas olan nişanələrdən sayılır. Deyilənlərə görə Əhli-həqq təriqətinin ardıcıllarından bəzisi bığlarına müəyyən bir ziyan yetirməmək üçün siqaret çəkməkdən imtina edirlər. (Bu düzgün söz deyil. Şəriət əhlindən fərqli olaraq Əhli-Həqqlərə üç şey haramdır: Bığ vurmaq, siqaret çəkmək və içki içmək. H.H)

Sultan İshaq Əhli-həqq təriqətinin prinsip və qayda-qanunlarını tənzim etdikdən sonra İranla İraq sərhəddinin yaxınlığında Guran zonasının şimal şərqində yerləşən Sirvan kəndindən axan çayın körpüsü kənarında bu qayda-qanunların icra edilməsi ilə bağlı fərman verdi. Həmin məkan "Pərdivər" (Kürd dilində çayın bir tərəfi) adlanır və Əhli-həqq təriqətinin müqəddəs və hörmətli bir məkandır. Həmçinin bu məkan Kirind və Guranda yaşayan Əhli-həqq ardıcılları üçün qiblə sayılır.[78]

[78] Rza Berenckar. "İslamda məzhəblər və təriqətlər". Bakı. Nurlar-2015. Səh.185-186. Tərc. İlqar İsmayılzadə

**Əhli-həqq təriqətinin etiqadları.** Öncə qeyd edildiyi kimi Əhli-həqq təriqətinin ardıcılları Həzrət Əlini (ə) ilahiləşdirərək Allah həddinə çatdırırlar.

Əhli-həqq təriqətinin kitablarından sayılan "Şahnameye həqiqət" adlı kitabda təqdim edilən bir şeirdə Həzrət Əli (ə) Peyğəmbərin (s) canişini olmaqla yanaşı Allah-təalanın zatı və varlıq aləminin rəhbəri kimi təqdim edilmişdir.

Bu təriqətdən sayılan insanları öz böyük öndərləri barədə də belə fikirləşir və Allah-təalanın müxtəlif libaslarda insanlar arasına gəldiyinə etiqad bəsləyirlər. Onların etiqadına görə Allah-təala ilk mərhələdə Allahlıq, ikinci mərhələdə həzrət Əli (ə), üçüncü mərhələdə Şah Xuşin, dördüncü mərhələdə Sultan Səhhak, beşinci mərhələdə qırmızı libasda Şah Veys Qulu, altıncı mərhələdəMuhəmməd Bəy, yeddinci mərhələdə Xan Atəşin libasında insan üçün zahir olmuşdur.

Əhli-həqq təriqətində mövcud olan etiqadlardan biri də bir şeyin digər şeyə daxil olması mənasını verən "hülul" məsələsidir. Elmi terminologiyada "hülul" dedikdə, Allah zatının müxtəlif əşya və ya insanlara daxil olması nəzərdə tutulur. Bu etiqad onların həzrət Əli (ə) və bəzi böyük rəhbərlərinin Allahlıq həddinə çatdırılması ilə bağlı baxışlarının əsas dayağı sayılır. Onların iddiasına görə, Allah-təala həzrət Əli (ə), Şah Xuşin və Sultan Səhhakın vücuduna daxil olmuşdur.

"Tənasüx" məsələsidə bu təriqətin etiqadlarından sayılır. Bu isə insanın vəfatından sonra ruhunun digər bir insanın bədəninə keçməsi mənasını verir. Bu etiqada əsasən, hər bir insanın ruhu vəfat etdikdən sonra dünya həyatında gördüyü işlərə uyğun olaraq yeni libas olaraq xüsusi bir bədənə daxil olur. Belə ki, yaxşı əməl sahibi olan insanların ruhu varlı, pis əməl sahibi olan insanların ruhu isə yoxsul insanların libası və bədəninə daxil olur. Bu da onların gördüyü işlərin əvəzi sayılır. Əhli-həqq təriqətinə

görə, hər bir insan min libas dəyişdikdən sonra əbədiyyətdən ibarət olan min birinci libasını geyinəcəkdir. Onlar həm də ilahi peyğəmbərlərin ruhunun öz böyük başçılarının bədəninə daxil olduğuna inanırlar. Öncə qeyd edildiyi kimi "Tənasüx" və "Təqəmmüs" məsələsinə inam Dəruzi təriqətində də mövcuddur. Belə bir etiqad bütün hindu dinləri, həmçinin bəzi qədim fəlsəfi baxışlarda da mövcud olmuşdur. Odur ki, onun hindu dinlərindən bu təriqətlərə keçməsi ehtimalını sürmək olar. Qeyd etmək lazımdır ki, ilahi və səmavi dinlər "tənasüx" məsələsi ilə ciddi tərzdə müxalifətçilik etmiş, onu əsassız və batil bir etiqad adlandırmışlar.[79]

**Nüsəyriyyə və Ələviyyun (Ələvilər).** Nüsəriyyə təriqəti barədə müxtəlif və bəzən bir-birilə zidd olan fikirlər bəyan edilmişdir. Şəhristani öz kitabında Nüsəriyyə təriqətini Məsum İmamları (ə) Allah sayan bir təriqət kimi təqdim etmişdir.

Nobəxti öz əsərində on İmama (ə) etiqad bəsləyən, on birinci İmam Həsən Əskəri (ə) barədə isə həddi aşaraq onu Allah həddinə çatdırmış, həm də özünü İmamın (ə) peyğəmbəri kimi təqdim edən Muhəmməd ibn Nüsəyr Nüməyri adlı bir şəxsdən ad gətirir. Nüməyri "tənasüx" məsələsinə inanır və Allah-təalanın haram buyurduqlarını halal sayırdı. Onun ardıcıllarına "Nüməyriyyə" deyilir. Əşəri və Bağdadi isə öz əsərlərində Allah-təalanın Nüməyrinin cisminə daxil olduğuna etiqad bəsləyən müəyyən bir təriqətdən danışmışlar.

Bu Suriyada Nüsəyriyyə və Ələviyyun (Ələvilər) adı altında yaşayanlar özlərinin Ələviyyun adlanmasını üstün tutaraq tarixi baxımdan "Nüsəriyyə" ifadəsinin hicri-qəməri tarixi ilə VI əsrdə rəvac tapmasına inanırlar. Halbuki Muhəmməd ibn Nüsəyr hicri-qəməri tarixi ilə təxminən 359-cu ildə, yəni iki əsr daha öncə vəfat etmişdir. Buna görədə Nüsəyriyyə təriqətini Muhəmməd ibn

[79] Rza Berenckar. "İslamda məzhəblər və təriqətlər". Bakı. Nurlar-2015. Səh.187-188. Tərc. İlqar İsmayılzadə

Nüsəyrə aid etmək olmaz. Bundan əlavə, onlar Muhəmməd ibn Nüsəyr Nüməyridən nəql edilmiş etiqad və baxışları qəbul etmir, onun əslində Nüməyriyyə təriqətinin banisi olduğuna inanırlar. Qeyd etmək lazımdır ki, Nobəxti də öz əsərində Muhəmməd ibn Nüsəyr Nüməyrini "Nüməyriyyə" təriqətinin banisi adlandırmışdır.

Ələviyyun təriqətinin nəzərinə görə, onların "Nüsəyriyyə" adlanmasının səbəbi onların hicri-qəməri tarixi ilə 488 və 690-cı illərdə Xaç yürüşü zamanı Suriyanın Nüsəyrə dağlarına sığınması və Əməvi sülaləsinin də həqarə qəsdi ilə onları "Nüsəyriyyə" adlandırılmasından irəli gəlmişdir. Bu dağın "Nüsəyriyyə" adlanmasının dəlili isə əslən Mədinə şəhərindən olan Nüsrət adlı bir dəstənin bu dağları fəth etməsi və orada məskunlaşmasından ibarətdir. Bəzi tədqiqatçılar isə "Nüsəyriyyə"nin bu adla adlanmasının səbəbini onların əslində Ənsarın (Peyğəmbər və mühacir müsəlmanlara yer verən və yardım göstərmiş Mədinə əhalisinin) nəslində olması və həzrət Əlinin (ə) şiəsi olduqlarına görə Osmanlı hakimiyyətinin zülmündən amanda qalmaq üçün bu zonalara sığındığını bildirirlər.

Bu gün Ələviyyun təriqəti özünü İmamiyyə və on iki İmamçı şiə sayır, İmamiyyə məzhəbinin etiqad əsaslarını qəbul edir və Əhli-beytin (ə) məsum insanlar olduğuna inanırlar. Onların nəzərinə görə, İmamlar (ə) haqqında həddi aşmaq və alimlərdən uzaq düşənlər yalnız Ələviyyun təriqəti ardıcıllarının müəyyən bir dəstəsinə aid olmuşdur. Onlar həm də "hülul" və "tənasüx" əqidələrini rədd edirlər. Onların arasında digər təriqətlərin sufiləri kimi yalnız sufiliklə məşğul olan insanlar "təcəlli" (zahir olmaq, timsal) prinsipinə inanırlar.

**Xülasə**

Təqdim edilən araşdırmaların xülasəsi belədir:

1. Həzrət Əlinin (ə) haqqında həddini aşan və onu Allahlıq

mərtəbəsinə qaldıraraq özləri üçün xüsusi qayda-qanunlar icad etmiş şəxslər və dəstələrə "Əhli-həqq", "Əliyullahi", "Sərsepordeqan", "Yaresan"(Haqq yardımçıları), "Ğülat" (həddi aşanlar), "Nüsəyyriyyə","Ələvi" və s. bu kimi adlar verilmişdir.

2. Əhli-həqqdən sayılan müxtəlif dəstələrin arasında etiqad və dini qayda-qanunlar baxımından bir çox ixtilaflar mövcuddur. Belə ki, onlardan bəzisi həzrət Əlini (ə) açıq-aydın şəkildə Allah adlandırır, həmçinin onlardan bəzisi öz etiqad və baxışlarını İmamiyyə etiqadları ilə uyğunlaşdırırlar.

3. Əhli-həqq təriqəti yaranma tarixi ilə bağlı alimlər arasında fikir ayrılığı mövcuddur. Lakin buna baxmayaraq Sultan İshaqın bu təriqətin etiqad və qayda-qanunlarının təşəkkül tapmasında ifa etdiyi rolu inkaredilməzdir. Bu təriqətin ən mühüm kitabı Sultan İshaqın sözləri və etiqadlarını özündə ehtiva etmiş "Nameyi sərəncam" adlı əsəridir.

4. Əhli-həqq təriqətinin Sultan İshaqın göstərişi ilə rəvac verilmiş qaydalarından biri də bu təriqətə daxil olan hər bir insanın öncə təyin edilmiş on bir sülalədən birinə xüsusi mərasimdə iştirak etməklə tam mənada təslim olmasından ibarətdir. Onların qayda-qanunlarından biri isə üç gün oruc tutmaqdır. Həmçinin cəmxanaya gəlmək, niyaz vermək və qurban kəsmək bu təriqətin digər qayda-qanunlarından sayılır. Onların nəzərinə görə, İslam dininin namaz və digər bu kimi göstərişlərinihəyata keçirməyə ehtiyac yoxdur.

5. Əhli-həqq təriqətindən sayılan bəzi insanlar həzrət Əli (ə) kimi öz böyük rəhbərlərindən bəzisini də Allah həddinə çatdırmışdır. Onların etiqadına görə, Allah-təala müxtəlif libaslarla insanların arasına gəlir. Həzrət Əli (ə), Şah Xuşin, Sultan Səhhak və s. o libaslardandır. Onlar həm də Allah-təalanın müxtəlif şeylərə və insanların bədəninə daxil olmasına və "tənasüx" məsələsinə inanırlar. Həmin inanca görə, insan vəfat etdikdən sonra onun ruhu digər insanların bədəninə daxil olur.

6. Nüsəyriyyə təriqəti barədə müxtəlif fikirlər irəli sürülmüşdür. Şəhristani onları məsum İmamları (ə) Allah sayan bir təriqət kimi təqdim etmiş, Nobəxti isə on İmama (ə) etiqad bəsləyən, on birinci İmam Həsən Əskəri (ə) barədə isə həddi aşaraq onu Allah həddinə çatdırmış Muhəmməd ibn Nüsəyr Nüməyri adlı bir şəxsdən ad gətirir. Lakin Suriyada yaşayan Ələviyyun təriqəti "Nüsəyriyyə" ifadəsinin hicri-qəməri tarixi ilə VI əsrdə rəvac tapması və Nüməyriyyə ardıcılları ilə fərqli olduğuna inanırlar. Ələviyyun təriqəti özünü on iki imamçı şiə sayır və İmamiyyə məzhəbinin etiqad əsaslarını qəbul edirlər. Onların nəzərinə görə, həmin təriqətdən sayılan müəyyən bir dəstənin İmamlar (ə) haqqında həddi aşması onların nadanlığı və alimlərdən uzaq düşmələrinə görə olmuşdur.(Rza Berenckar. "İslamda məzhəblər və təriqətlər". Bakı. Nurlar-2015. Səh.188-190. Tərc. İlqar İsmayılzadə)

## HACI BEKTAŞ VƏLİ

AnadoluBektaşılıyi (və sonradanyaranan Ələvilik) nisbətən yumşaq, barışcıl təriqət kimi öz axıcılığı ilə seçilirdi. Türk xalqtəsəvvüfünün ən nəhəngsimalarındanolan HünkarHacı Bektaş Vəli tərəfindən əsasıqoyulan və sonradan onunadıilə vücuda gələn bu sufi cərəyanı qeyri-aqressiv və tolerant bir təriqət olaraq, sanki öz sələfi olan Hürufiliyin faciəvi sonundan nəticə çıxarırmış kimi, rəvan və şairanə bir tərzdə bu gün də öz varlığını sürdürməkdədir. "Bütünbu ədəbiyyatda ehkamlaraqarşı çıxmağı, şəriətə uymamağı yaxşının və pisin, imanın və inancsızlığın eşqə və sonunda coşqunluq halına, yəni vəcd halına və sevilən varlıqla birliyə yetişmək istəyini görürük" (175). Hacı BektaşVəlinin məşhur"Məqalat"ında oxuyuruq: **"Ohəyatverən əzəli Tanrı müjdələmişdir ki:**

**– Eyqullarım! Arzunuzcənnətdirki, qoruyucusuRizvanadlımələkdir. OcənnətRizvanınqoruyuculuğuilə heç birzamanxarabolmaz, sağlamqalar. Bunun qarşılığında mərifətli könüllərin qoruyucusu mənəm. Şeytanın ona qarşı zəfər qazanması mümkünolarmı? Ziramərifətli könüllər mənim xəzinəm və nəzərgahımdır" (121, 54).**

Butəriqətin odövrdəki əksərnümayəndələri HürufilikdənBektaşiliyə təbdilolmuş insanlarolsada, onlardahaçoxŞah Xətaiyə və Qızılbaşlığameylliidilər. Gülağ Özyazır:"BütünAnadolu ərənlərində olan həm ərmiş, dədə, öndər, həm də kütləvihərəkatlarınliderləriolaraq qarşımıza gəlməkdədir. Anadoluərəni dediyimiz şəxslər demək olar ki, eyni özəllikləri daşımaqdadırlar" (78,267). Məsələn,PirSultanAbdalın şeirləri dillərəzbəri olaraq, ƏləviBektaşi təkyələrinin bəzəyinə çevrilmişdir:

***Koyun beni Hakk aşkına yanayım,***
***Dönen dönsün ben dönmezem yolumdan,***
***Yolumdan dönüp mahrum mu kalayım,***
***Dönen dönsün ben dönmezem yolumdan.***

Əgər İran (Cənubi Azərbaycan) Əhli-Həqlərində məşhurolan quyəndələr ("quyəndə" fars sözü olub, danışan, bəyan edən,Həqiqətin sirlərini mənzum və bədii estetik şəkildə təqdim edənşair, aşıq mənasınıdaşıyır) AşıqQurbani,Beyrək Quşçuoğluidisə, AnadoluBektaşivə Ələvilərinin məşhur ozanı PirSultanAbdal, Qul Nəsimi və digərləri idi. Ən çox da Pir Sultan Abdalınşeirləri AnadoluCəmevlərində indidə sazla (bağlamailə)oxunur, ilahilər altında "semah" edilir. Ələvilərin "semah"ı ("semah" ərəbcədən eşitmək,duymaq anlamınagələn, binası ŞəmsTəbrizi,MövlanaRumi tərəfindənqoyulan

trans,hal,ekstazrəqsidir. Buradakı"eşitmək"felibu rəqsi icraedərkən Haqqın,həqiqətinsəsini duymaq anlamınagəlir)Mövləvilərinkindənfərqlənir. Türkiyəli araşdırmaçı Hüseyn Özcan Mövləvi təkyələrindəki semahlarvə semazənlər haqqındabuqeydləriverir:

"Semazənlərhərdönüşlərində Allahadını birdəfə zikredirlər.Seman əslində birzikrdir. Allahınadınızikretmə, yənizikrullahdır. Əslindənvarlığınbaşlanğıcından bəri kainatdaqalaktikalar,dünya,günəş və b. hər şeyiçiçə keçmiş dairələr şəklində dönür, semah edirlər, sanki bu hərəkətləri ilə Yaradanızikr edirlər.

Semazənlərin əllərinin duruş şəklinin mənası budur: Sağ əlniyaz (istək) məqamındadır. Haqdan almağı təmsil edir. Sol əl isəxalqavermək mənasındadır, yəniHaqdanalıbxalqaverməyitəmsil edir.

Dörddəfə salamlaşmavar. Bu,eynizamanda, Allahayüksəlməyin dörd mərhələsidir: Şəriət, Təriqət, Mərifət, Həqiqət.Şəriətdünyayagəlmək,bilik əldə etməkvə özünüqurtarmaqdır. Təriqət: Dürüst olaraq yaşamaq, "etdiyi bəzi xətalara tövbə edərək" Mərifət ağacının meyvəsini dərmək, ətrafına,ölkəsinə və insanlığa faydalıhala gəlməkdir. Həqiqət: Əbədihəyatda doğulmaq, insanlığın könlündə yaşamaqdaır" (79, 16).

Ümumiyyətlə, Anadolununbütündünyadaməhşur olanMövləvitəkyələri və ƏləviCəmevləri fəlsəfi-ürfanitəməllərbaxımından bir-birinə bağlı olsalar da, şəkil və zahiri keyfiyyətbaxımından bir-birlərindən çoxfərqlənirlər. "Dəf, ney vəsəmazənlərin hərəkətlərininanlatdıqlarıözəldirvə dərinmənalıdır. Özəlliklə dönmə fikrindən çox təsirlənən Mövlana semahınilhamaltındadönən mənzillərvə kainatlar, dəyirmandaşıvəçarxına bağlı mükəmməlbirsimvolizmortayaqoymaqdadır".

Ələvilərinsemahı isə məhzsazlabaştutur. Türkiyəliaraşdırmaçı alim VahidLütfüSalçı ƏləviCəmevlərindəkisemah ayinini belə təsvir edir:"Semahbaşlamaqzamanını məhəbbətin, yəniocəmin əndini ulusu olan mürşid əmr edər. Semah oyunlarının ağır, orta vəsürətli hərəkətləri vardır. Əvvəldə ağır hərəkətli semah nəfəsləri sazlarla bərabər söylənir. Bunlar nə qədər ağır hərəkətli olsalar,yenə də "oturaq" nəfəslərdən daha oynaqdır".(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 104-107)

Bəktaşilik təriqətinin ideoloqu - orden başçısı Hacı Bəktaşi Vəli qulun Tanrıya yetişdiyi qırx məqamı bu cür sistemləşdirmişdi.

*"Çün ayinəyi tutdum üzümə,*
*Əli göründü gözümə.[80]"*

Bu şeir parçasında ifadə olunmuş fikrin açıqlanmasına yardım edən rəsm Bəktaşilikdən bəhs edən bir sıra əsərlərdə verilmişdir. Hurufilər insanın gözünü "ayn", burnunun əyri xəttini "ləm" hərfinə və aşağıya doğru gedən buğları "yə" kimi qəbul edərək, insanın üzündə Əli (ə) sözünü oxuyurlar.

Bu bölümü Bektaşi yolunun davamçılarımürşidlərindən öyrəndikləri bu süfrə duasını yeməkdən sonra oxuyub, süfrəni yığdıqları dua ilə yekunlaşdırırıq:

***Bismi şah Allah, Allah,***

***Neməti –Cəlil, Bərəkəti-Xəlil, Şəfaəti-Rəsul, İnayəti-Əli, Hümməti-Vəli ola.***

***Artsın, əskilməsin, daşsın –tökülməsin, haqq Muhəmməd Əli bərəkətinə verə. Yeyib-yedirənlərə, bişirib –düşürənlərənuri-iman, eşq nəsib ola, dərdlərə dərman, xəstələrə şəfa ola. Getdikləri yerdə***

[80] Hacı Vəli Bəktaşi

***qan və kədər görməyə. Loğmalarınız qəbul ola. Üçlərin, beşlərin, yeddilərin, on iki imamların, on dörd məsumu-pakların, on yeddikəmərbəslərin, qırxların, rücalül qeyb ərənlərin və pir dərgahına yazıla. Yeyənə halal, yedirənə dəlil ola.Haqq saxlaya, Xızır gözləyə, gerçəyə Hu deyəlim, Hu.***

# IV fəsil

*Kim fikir edər cahanda görə bilsin Xudanı,*
*Axı heç kəs axtarmır insanda bu nişanı.*

*Bizik iki aləmdə ilahiyyat sərçeşmə,*
*Bu sirrə vaqif etdik rindani baxətanı.*

*Ey mənindən xəbərsiz, bir özünə nəzər qıl,*
*Gəl bu dünya üzündə kəşf eylə sən Bəqanı.*

*Canı-cahannümani soruşma bundan, ondan,*
*Axtar öz varlığında sən ol cahannümanı.*

*Yalan sözdür, deyərlər, Tanrı ölməz-dirilməz,*
*Bu ölmək, bu dirilmək faş etdi o yalanı.*

*Yoxsulluq ilə dinclik ən ali bir məqamdır,*
*Qul eyləməz təkəbbür, bu məqamda olanı.*

*Nəimi, sən özündən keçsən məqam yolunda,*
*Məni gözünlə hər dəm görəcəksən Xudanı.*

## TƏSƏVVÜF NƏDİR?

Təsəvvüf ədəbiyyatında ariflərin nəzərinə görə, zöhdün **4 yolu** var. Əgər bir insan zahid olmaq istəyirsə, gərək bu dörd yolu keçməyi bacarsın:

1. *Seyrun-minəl xəlqi iləl-həqq* – Xalq və təbiətdən Allaha doğru yönəlmək.

2. *Seyrun-bil həqqi fil-həqq* – Allahda seyr eləmək, yəni İlahi mərifət qazanmaq.

3. *Seyrun-minəl həqqi iləl-xəlq* – Allahdan bəndələrə doğru seyr etmək, yəni insanları tərbiyələndirmək üçün gəlmək.

4. *Seyrun-bil həqqi fil-xəlq* – Həqiqətdə xalq arasında seyr etmək.

Bu dörd qapını keçən zahid yəni, özü tövbə edən şəxs əmr-be-məruf və nəhy-əz-münkər etməyə layiqdir. Şəhidlər sərvəri Həzrəti İmam Hüseynin (ə) qiyamı öz yüksək qiymətini məhz əmr-be-məruf və nəhy-əz-münkərdən almışdır. Bəs təsəvvüf nədir?

***Təsəvvüf atəşi-eşq ilə suzan olmağa derlər,***
***Təsəvvüf könül təxtində sultan olmağa derlər.***

Əbu Mühəmməd Cəriri təsəvvüf haqqında belə deyir: «Təsəvvüf-sufilik hər bir yüksək xasiyyətə yiyələnmək, hər bir naqislikdən uzaqlıqdır».

Təsəvvüf sürəkli şəkildə Allaha ehtiyac və bu ehtiyacı ödəmək hissi və yoludur. Təsəvvüf yolunda üç mərhələ var:

a) Elm; b) Əmək; c) İlahi vergi.

a)Elm müradı aşkar edir;
b)Əmək tələbi müəyyənləşdirir;
c)İlahi vergi isə insanı ümid qayəsinə çatdırır.

Dünya ilahi vücudu əks etdirən güzgüdür, dünya zahiri

cəhətdir. Həqiqətə çatmaq üçün zahiri cəhətdən üz döndərib, şəxsi mövcudluqdan xilas olmaq lazımdır. Sufilərə xas olan vəcdə gəlmək meyllərinin məntiqi inkişafı məhz belədir.

Sufi yolu - ali həqiqət axtarışı yoludur. O, bu yolu başa çatanda özü olur, müstəqil olur. Yəni onun məqsədi, əslində, özünə çatmaq, özünə qovuşmaqdır.

Həzrəti Əli (ə) özünü dərk etmə haqqında belə buyurur: ***"Mən ərəfə nəfsəhu, fəqət ərəfə rəbbəhu - Hər kim özünü tanıdı, Rəbbini də tanıdı".***Seyid İmadəddin Nəsimi bir müxəmməsində Həzrət Əlinin (ə) söylədiyi hədisi nəzmə çəkərək yazır:

***«Arifi-nəfs olmayan bulmaz həqqi» - dedi Əli,***
***Cümleyi-əşyani gör miratı-dildə müncəli.***
***Bas ayaq vəhdət yolunda, çək bu kəsrətdən Əli,***
***Qəhri lütfün mənşəyi-mənada vahiddir, vəli.***
***Bilmədi şeytan bu Tövhidi, Əhəddən düşdü dur.***

Birinci misrada İmam Əlinin (ə) bir hədisindən söhbət açılır. İmam Əli (ə) ***buyurub: «Mən ərəfə nəfsəhu, fəqəd ərəfə rəbbəhu» - Hər kim öz nəfsini tanısa, Allahını da tanıyar.*** Sonra deyilir ki, bütün gözə görünən əşyaların əksinin könül güzgüsündə parıldadığını gör və birlik yoluna ayaq bas. Bu kəsrətdən, yəni çoxluqdan əlini çək, çünki Allah təkdir, vahiddir, lakin şeytan bunu bilmədiyi üçün tövhiddən - yəni əhəddən - tək olan Allah-dan və onun dərgahından qovuldu.

Ey insan! Bil və agah ol ki, əgər sən də nəfsinə qul olsan heç vaxt "Tohid" qibləsinə üz tuta bilmərsən. Necə ki, şair Həkim Sənayi bir beytində deyir:

***Tovhid yolunda iki qibləyə üz çevirmək olmaz,***
***Ya öz nəfsini istəməlisən, ya da dostun rizasını.***

Yəni, dostdan məqsəd Allah-təaladır.

Sufilər də S.İ.Nəsimi kimi Həzrəti Əlinin (ə) bu hədisini özlərinə meyar tutub, üç mərhələdə vəhdəti-vücuda qovuşmağa səy edirlər. Sufilər əvvəlinci mərhələdə zöhd əhli olur, ikinci mərhələdə nəfsin təzkiyəsi ilə məşğul olur (nəfsi təmizləmə), üçüncü mərhələdə eşq yolu ilə istədikləri məqama çatırlar. M.Füzuli də "Leyli - Məcnun" poemasında Məcnunun dilindən belə deyir:

***Fəzayi-eşqi ta gördüm, səlahi-əqldən durəm,***
***Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm.***

**Anlamı:***Eşqin fəzasını gördüm, əqlin səlahiyyətindən uzaqlaşdım. Məni rüsva görüb ey nəsihət verən, mənə nəsihət vermə, çünki mənim üzrüm var.*

Materializmcə, dünya göründüyündən artıq deyil. Dünya dünyayla məhduddur,bəsitdir.

İdealizmcə, dünya dərk olunduqca böyüyür, ülviləşir, müqəddəsləşir. Dünya dünyadan kənara çıxır. Sufi təfəkkürü materialist dünyasından doğan idealist dünya mənasını, yəni ağıllıa ruhun qovuşduğunu təsdiqləyir. Əslində dünyanın mahiyyətini dərk etməyincə, idrakın sonuncu - Haqqa yetişmək mərhələsinə çatmaq olmaz. Bu məqamda dərk olunmuş dünyanın mənasının özündən böyüklüyü görünür və Haqqa yetişdikdə ali vəcd, ali ehtizaz, İlahi Vəhy iqtidarına sahib olunur.

Sufi fəlsəfəsi insan aqibətini şərh, təhlil edən müdriklikdir. Bu fəlsəfi cərəyan təkcə araşdırılmalı deyil, inkişaf etdirilməlidir. Bu təfəkkür insanı fasiləsiz olaraq İdeala-Haqqa yaxınlaşdırır. Ruh dünyaya sığmır, dünyadan yüksəkdə dayanıb onun mənasından danışır. Bu fəlsəfədə Haqq arzu olunanın, istənilənin ali təzahürüdür.

Təsəvvüf 4 mərhələdə, 40 məqamda məqsədə gedən yoldur.

**1. Şəriət2. Təriqət3. Mərifət4. Həqiqət**

Seyid Əsəd Hüseyni bu dörd mərhələni bir beytdə belə qələmə alıb:

***Gələn hökmü bilsən, şəriətdəsən,***
***Bilib əməl etsən, təriqətdəsən.***
***Elminən əməlin düz olsa əgər,***
***Həqiqət əhlisən, mərifət də sən.***

İslam dininin dörd qapısı var:

1.İlk qapısı Şəriətdir. Bu mərhələdə din tərəfindən qəbul edilmiş qanun və vəzifələr yerinə yetirilir. İnsan bu mərhələ ilə özünü nizamsızlıqdan qurtarır. Əslində Şəriətin müəyyən dərəcədə gətirdiyi xof-əqlin xılafınadır. O hər şeyin səthini duydurur. Şəriət özü insanı zahiri davranış vasitəsi ilə Allaha sevdirən bir yol kimi - mistik xəyalpərvərlik, ekstaz və vəcd vasitəsi ilə Allaha yaxınlaşdıran digər yolun - Təriqətin on mərhələsi deyil, əksidir, qarşıduranıdır. Şəriətin şərtləri - iman, elm, namaz, zəkat, oruc, həcc, cahad, sünnət, heyz və cinsi əlaqələrin haramlığı, naqislikdən xeyir əmələ yetməkdir və s.

2-ci Təsəvvüf mərhələsi Təriqət adlanır.

Bu mərhələ sufizmin əsas mənəvi cəhətdən artma, daxili özüylə döyüş mərhələsidir. Təriqət yol deməkdir. Yolun uzunluğu təsəvvüf yolçusunun öz qüdrətindən asılıdır. Təriqət hallar və məqamlar silsiləsində bütövləşir. Məqam - kamillik mərtəbəsidir.

Hal - hər bir məqamı, mərtəbəni tamamlayan, yolçunu yeni məqamlara hazırlayan və nəhayət, Haqqa qovuşduran ilahi vergidir. Hal qəfil gəlir, ani olur. Məqam sabitdi, tam psixoloji vəziyyətdi.

Özünəhesabat, özünənəzarət və daxili müşahidə - hal və məqamlardı. Sührəverdiyə görə, hər hansı bir halın məqama çevrilmək imkanı var. İlahi vergilər tükənməzdir, məhdudluq yalnız onun bəndə tərəfindən qavranılmasıdır. Sufi o qədər

kamilləşməlidir ki, sağkən təlqin və hallarla öz ruhunu öz cismindən çıxarmağı bacarsın!

Təriqət - təmizlənmələr, təblər, vəhylər silsiləsidir. Sufi mütəfəkkir Əl-Qəzali deyir: «Şəriətə hamı əməl edə bilər. Əsil çətin yol təriqətdi. İnsan öz nəfsini paklaşdırdıqdan sonra yeni bir məqama qədəm qoyur - sidq və səmimiyyət zirvəsinə yüksəlir».

***Sığmadım mən süstlər, biganələr ümmanına,***
***Hər kəsin amalı var, girsin döyüş meydanına,***
***Haqqı izhar etsə hər dəm Dahi, öz dövranına,***
***Tanrı dost eylər onu azadələr Mövlasına*[81]*.***

Təriqətin şərtləri - bəd əməllərə tövbə, mürid olmaq, təraş və sufilərə xas birçək, geyim-xirqə, nəfssizlik, məqam sahibi, məhəbbət sahibi olmaq, eşq, şövq, səfa, fəqirlik yiyəsi olmaq, dərviş geyimləri - səccadə, təsbeh, iynə, əsa və s. özündə gəzdirmək, ümid etmək, paklanmaq və s.-dir.

Bu mistik yolda sufilərin özünü təhsili - hücrə mehrab üsulu əvəzsizdir. Özünütəhsil fərdi proses olmalıdı. Zahiri təhsil ixtisasçılığa xidmət edir. Heç bir məktəb inam, idrak, mənəviyyat, iradə vermir. Özünütəhsil, özüylə döyüş əsil kamil insan yaradır. Sufizm təriqətində İnsan şəraitdən güclüdür. Ən pis şəraitdə ən yaxşı insan olmaq olar. Özüylə döyüşün (yəni nəfslə mübarizənin) son nəticəsi saflıq gətirir. Əsl sufinin mahiyyəti təzahürünə bərabər olmalı, mənəviyyatı əməllərində təcəssüm etməlidir. Sufilər yaradıcılığı mövcudluğa bərabər olanlardı. Şah Xətai kimi! Şeyx Şamil və Misgin Abdal kimi!

Təriqət yolçusu şəhvətin cismani nəşəsevərliyindən xilas olmalıdır. Eşqi ülviləşdirib cismanilikdən çıxarmalıdır. Eşqin ilahi mahiyyəti onu sarsıtmalıdır. Gözəlliyi ilahiliyin cismani təzahürü

[81] Mirzə Dahi

kimi müqəddəs saymalıdır (Nəsimi və Xətai aşiqliyi. Çünki Nəsimi sufi-hürufidir! Xətai isə mürşidi-kamildir). Gözəlin köynəyinə Kəbə örtüyü kimi səcdəyə duran Aşıq Ələsgər bu eşqin abdalı, qu-ludur. Təriqət yolçusu gözün gördüyü zahiri gözəllikdə, idrakın sevdiyi daxili gözəlliyin vəhdətini axtarmalıdır.

3. Təsəvvüf üçüncü mərhələsi mərifət adlanır. Bəzi şərhçilər sufilərin hadisəyə passiv, hərəkətsiz münasibətindən, bütün ümidləri taleyə, təvəkkülə bağladıqlarından söz açaraq sufiləri fatalist, mütləq zərurəti Allaha bağlayan, «bəlaya aşiq olan» fanatiklər, dəlilər adlandırırlar. Dayazlar, mahiyyətsizlər kamil sevgini, kamil təfəkkürü olanları, bir sözlə «mərifət elmindən dolu» olanları dəli - Məcnun adlandırırlar. M.Füzuli "Leyli -Məcnun" poemasında Məcnunun dilindən deyir:

***Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir,***
***Mən kiməm, saqi olan kimdir, meyü səhba nədir.***
***Gərçi canandan dili-şeyda üçün kam istərəm,***
***Sorsa canan, bilməzəm kami-dili-şeyda nədir.***
***Vəsldən çün aşiqi müstəğni eyler bir vüsal,***
***Aşiqa mə'şuqdən hərdəm bu istiğna nədir?***
***Hikməti-dünyavü mafiha bilən arif degil,***
***Arif oldur, bilməyə dünyavü mafiha nədir.***
***Ahü fəryadın, Füzuli, incidibdir aləmi,***
***Gər bəlayi-eşq ilə xoşnud isən, qovğa nədir?***

M.Füzuli öz məcnunluğuyla (Məcnun aşiqlərin ümumiləşmiş obrazıdır) dayazlıqları rədd eləyir. İnsanda fikri qüvvə yoxsa, təhlil, tədqiq haradan olsun? Müdrikliyi, müdrik kəlamı pisləyən adam üzürlüdür, neyləsin, anlamır, ona qaranlıq görünən hər şeyi pisləyir. Mahiyyəti tam təzahürə çevirmək istəyən sufi mühitə - həyatlaşmağa mane olan mühitə qarşı durmalı, mühitdən imtina etməlidir. Mərifətin məqamları daxili təkan və bu mübarizədə

qüdrət və iradə tərbiyə edir.

Mərifət məqamlarında Sufi daxilindəki miskinliklə, zəlilliklə, köləliklə döyüşüb Tanrı miskininə, Tanrı quluna, İlahi Eşq xəstəsinə çevrilir.

Özünü dərk edən sufi deyir: «Mən dünyaya yeyib-içməyə, nəsil artırmağa, ölməyə gəlməmişəm. Mən mənim dünyamı dərk edib, ali insani kamilliyə çatıb, sonsuz olmağa, müqəddəsləşməyə - aqibətim deyirəm. Mərifət mərhələsi ilahi güc və bilik verir.

Sonuncu - 4-cü mərhələ olan həqiqətdə təsəvvüf yolçusu Ucalar ucası qarşısında zərrəyə döndüyünü və bu ucalığın bir zərrəsi olduğunu dərk edir, sirlər onun qarşısında pünhanlığını itirir, kamilliyə - pirliyə yetişən sufi «mülk sahibinin ətəyinə üz qoyur, işıqlanır, nur saçır, vəhylər, ehtizazlar, vəcdlər içində bəxtiyarlığa və sonsuzluğa qovuşur. O İlahi eşqinə münacatlar deyir. İlham bədahətən, fasiləsiz çuğlayır onu. Bu Həqiqətə qovuşma mərhələsinin möcüzələridi.

***"Əhli-həqq"in tacidarı, höccəti-dövran mənəm,***
***Əmri-məruf, nəhyi-münkər dərdinə dərman mənəm.***
***Həq mənəm, iman mənəm, islam mənəm, Quran mənəm,***
***Qoymaram əsla yetişsin zalim öz xülyasına[82].***

Xirqə geyinmiş, adi insani tələblərdən, rifahından, dünyəvi həzzlərdən belə imtina edən təriqətçinin özündən keçməsi - özündən yüksəkdə zühur etməsinə gətirib çıxarır. O özündən kənardakına can ataraq, özünü cismani əzablara salır və bu əzablar - «bəlayi-eşq» ona həzz verir. Haqq Aşiqinin istedadı, fədakarlıq, əzab və işgəncəyə tab gətirməkdir. Göysevər aşiqin həqiqəti - o göylər Sahibinə qovuşmaqdır.

Təsəvvüf dünyagörüşündə Allah düşüncələri fərqli, dərin

[82] Mirzə Dahi. "Növhə".

vəşəriət qəliblərinin kifayət qədər eşiyində olan bir anlayışdır. Bunamisal olaraq, övliyalar sultanı adını almış böyük arif ƏbdülqadirGeylaninin “Fütuhul-qeyb” əsərindəki bu fikirlərdən istifadə etmək olar: “Allah hardadır” desən, onu məkanla tələb etmiş olarsan. “Allah necədir və nə cürdür” desən, Onu necəlik və şəkillətələb etmiş olarsan. Onun haqqında “nə zaman?” deyərsən, Onuzaman qavramı ilə qəbul etmiş olarsan...”.

Lakin, vəhdəti-vücudun nə demək olduğunu anlamaq üçünaşağıdakı mərhələlisxemə nəzərsalmaq mümkündür. Vəhdətanlayışı iki cürdür. Bunlardan biri, insan vücudunun, ruh, bədən,nəfs, zəka, idrak, ağıl, şüur da daxil olmaqla, çoxlu sayda komponentin seyri-süluk məqamına doğru vəhdət halında birləşməsi,digəri isə, Haqqla, Allahla insan ayrılığının yox olduğu, ariflərin dilində deyildiyi kimi, “fənafillah”, “Allahda yox olma” dərəcəsidir. Vəhdətin təsəvvüfdəki təsnifatı belədir:**1. Kəsrəti-vücud,2. Kəsrəti-mövcud, 3. Vəhdəti-vücud, 4. Vəhdəti-mövcud,5. Şuhud.**

Kəsrət çoxluqdur,biranlamda ikilikdir. Buayrılıq, yənikəsrət həm vücudun, həm də mövcudun içindədir. Vücudundakıvəhdətə yetişməyən, mövcudiyyətdəki vəhdəti də anlaya bilməz.Qısa ifadə etsək, vücudun vəhdəti əslində mövcudiyyətin vəhdətideməkdir. Bununbaşlıcasəbəbi insanamilidir. İnsan, kainatınəşrəfi, yaradılmışların ənüstünüdür. Qurani-Kərimdən gələn“Əhsənüt-təqvim” ifadəsi də məhz insana şamil edilmişdir. Yəni,uca Tanrı buyurur ki, “biz insanı ən gözəl biçimdə yaratdıq”. Buyaradılışınqayəsi əlbəttə ki, fərqlimərtəbələrdə fərqli anlamlardaşıyır. Məsələn, şəriət mərhələsində, yəni, İlahi mövcudiyyətinehkam, qanun, insanın isə yalnız ibadətə qadir ola bildiyi (insanAllah münasibətləri müstəvisində) bir dönəmdə əlbəttə ki, kəsrət,yəni,ikilik,çoxluqmövcuddur. Bunarəğmənimanvə ibadətürfan əhli tərəfindənhərzamanqüdsaltutulmuşdur.

TanınmışTürkilahiyyatçıalimi SeyfəddinYazıçı"Temeldinibilgiler"adlı əsərində yazır: "İmanaçıqdayanan birlampayabənzər.Lampanınsönməməsiüçün şüşəni fənərlə qorumaq gərəkdir.Əgər bu şəkildə qorunmaz, açıqda yanmağa davam edərsə, xəfifbirküləyintəsiriilə sönə bilər. İmanda qəlbimizdə yananbirişıqdır. Onunqoruyucusuibadətdir. Ürfaniqatlardaisə insanın yaradılışı Allahın "özünü ifadə", hətta özünü tanıtma, göstərmə qayəsinivə məqsədini daşıyır. Məşhur "Ənəlhəq","MənAllaham"formuluda elə buradan meydana çıxmışdır.Klassik ədəbiyyatın demək olar ki, bütün nümayəndələrində bizbufikrə rastgəlirik. "Ənəlhəq"inyayğınolduğu hürufilikcərəyanıhaqqında K.Bünyadzadənin məqaləsində oxuyuruq:"Hürufulik fəlsəfəsində birneçə vacibana diqqətyetirək.Əvvəla, TanrıbirYaradanolsada, özYaratdığıilə ayrıdeyil,hətta eynidir və onlarla eyni mahiyyətə malikdir və bu mahiyyətmistikxarakterli olsada,maddidir. İkincitərəfdən,MütləqHəqiqətin dərki üçün insanın təfəkkürü təbiətin fövqünə qalxmır,əksinə, maddənin özünə nüfuz etməli olur, çünki bu həqiqət onun4 ünsüründəndir. Nəhayət, insan hər şeyi – 4 ünsürü və bununlada, Tanrının özünü də ehtiva etdiyindən hər şey insandır nəticəsinə gəlmək mümkündür".Hətta ən aztanınan şairlərbelə "Ənəlhəq" düsturunuoqədər israrlı və cazib bir şəkildə bəyan etmişlər ki, insan heyrətəgəlir. BuxaralıŞeyx Əhmədİlahi Əfəndinin mənzuməsindəoxuyuruq:

***Ey könül, mərdanə gir dərdü bəla meydanına,***
***Yol əriysən girməgil nəfsü həva meydanına.***

***Olmadan Mənsur "Ənəlhəq" demə kim, təqliddir,***
***Əhli-təhqiq olmadan girmə Xuda meydanına.***

Yuxarıdakımərhələlərdəngöründüyü kimi, sonolaraq"şuhud"

mərtəbəsi gəlir. Şuhud görmək, şahid olmaqdır. Nəyə?Əlbəttə ki, həqiqətlərin ənüstünü və üstünlərin əngözəli olanAllahıncamalına! Türkiyəlitanınmış tədqiqatçı Dr. SəlcuqƏraydın "Təsəvvüfvə təriqətlər" adlıkitabında yazır: "Cüneyd Bağdadidən təsəvvüfün nə olduğu soruşulduğuzaman o:"Təsəvvüf bir haldır ki, hər zaman qul ilə bərabərdir" demişdir.Buna; təsəvvüf hər zaman qul ilə bərabər olan bir haldır da deyəbilərik. "BuhalHaqqın sifətinin təcəllasıdır, yoxsa,xalqınvəsflərindənmidir?" sualınada Cüneyd:"SifətolaraqHaqqın,şəkil olaraq da xalqındır" cavabını vermişdir".(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 67-72)

## TƏSƏVVÜFÜN İLK ŞƏHİDİ
## HÜSEYN İBN MƏNSUR HƏLLAC

Böyükarif, ürfanvə təsəvvüfün ilkşəhidlərindənsayılan Hüseyn ibn Mənsur Həllacın məşhur "Kitab ət-Təvasin" əsərinin "Mərifət bağçası" bölümündə oxuyuruq:

1.Alim, qəribə ustad ƏbuUmarə Hüseynb. MənsurHəllac (Allah onu ruhunu müqəddəs etsin) deyir:Məchuluniçindəkimərifət gizlidir,mərifətiniçindəkiməchuldagizlidir. Məchulluqarifin sifətidir (və zinətidir,cəhalətonunsurətidir. Mərifətinsurəti idrakdanuzaqdır,gizlidir və geri dönəndir. Onu necə tanıyar ki, necəsi yoxdur),onuharadatanıyarki, "hara"yoxdur,ona necə çatarki,(vasitə yoxdur), necə ayrılsın ki, (ara yoxdur). Mərifət heç birməhdud üçün tam deyil, o hesablanmır, tükənmir, bitmir.

2. Mərifət üstün fövqündədir, müddətin fövqündədir,məqsədinfövqündədir, sirlərin fövqündədir, xəbərlərin fövqündədir, idrakınfövqündədir.Bunlarhamısı əvvəlyox idilər, sonra var oldular. Yalnız məkanda meydana

gəldilər. O,cəhətlərdən(səbəbvə vasitələrdən) qabaqolub,hələ də var. Onu cəhətlər necə ehtivaedə bilər,sonralaronu necə əhatə edə bilər?

3. Kimdesə ki, "özümüitirməklə Onutanıdım", itmiş var olanı necə tanıya bilər?

4. Kimdesə ki, "öz varlığımlaOnutanıdım", iki əzəli var ola bilməz.

5. Kimdesə ki, "Onucahilolmaqlatanıdım", cəhalətpərdədir, mərifətpərdəninarxasındadır,(deyilənlərdə) birhəqiqət yoxdur.

6. Kimdesə ki, "Onuadlatanıdım", adadlanandanfərqli deyil, O isə məxluq deyil.

7. Kimdesə ki,"OnuOnunlatanıdım", ikitanınanaişarə edir.

8. Kimdesə ki,"Onu sənətiilə tanıdım",sənətkarsızsənətlə kifayətlənir.

9. Kimdesə ki, "Onutanımağınacizliyiilə tanıdım",aciz (yerində) dayanandır.Dayanan tanınanınecə dərkedə bilər?

10. Kim desə ki, "mənə özünü tanıtması ilə tanıdım", o,elmə işarə edir, məlum olana qayıdır, məlum olan isə Zatdanuzaqdır. Zatdan fərqli olan Zatı necə dərk edə bilər?

11. Kimdesə ki, "Onu özünütanıdığıkimitanıdım",əsər olmadan (yalnız) xəbərlə kifayətlənir.

12. Kimdesə ki, "Onuikihədlə tanıdım", Tanınanvahiddir, uzaqlaşmır, hissələrə ayrılmır.

13. Kim desə ki, "Tanınan özünü tanıyır", israr edir ki,arif arada (olan məsafədə) Onunla yüklənir,çünki Tanınanözünü tanımaqda hələ də davam edir.

14. Qəribədir! Bədənində birtükün necə qaravə ağolduğunu bilməyən əşyaları yaradanı necə tanıyar? Konkretivə müfəssəli, əvvəlivə sonu, dəyişikliklərivə səbəbləri,həqiqətlərivə yolları tanımayanşəxsə əzəliolanın (Allahın)mərifətindən pay düşməz".

Təsadüfideyilki, HəllacMənsur ondördüncübənddəeyham vurur və deyir ki, "bədənində bir tükün necə qara və ya

ağolduğunu bilməyən əşyaları yaradanı necə tanıyar?" Dolayısı iləAllahı tanımağın yolu insanı tanımaqdan keçir. Şəriət və ehkam,yəni fundamental din isə bunun ziddinə gedir.Fəqətbiz "zöhd","ehkam" kimisözləri şəriəthalları,ehkam sifətləri olaraq istifadə edirik. Halbuki gerçək zahidlik elətəsəvvüfün binasını təşkil eidr. Həmin zahidlik bəndələrin nəzə-rinə və Allahın mükafatına talib deyildir. Yəni, bir sufi zahidlikedərkən, nə insanların onun zahidliyini görməsini, nə də Allahınbu zahidliyin əvəzində ona bol-bol nemətlər verəcəyini arzulamır.Təsəvvüf aləminin əsasən huşyar, yəni ayıq (digər təsəvvüfərbabı, məsələn, Mənsur Həllac, Şibli, Şəms və başqaları "məst","sərxoş" zümrə adlandırılır) mütəfəkkirlərindən olan Sərrac Tusizahidlikhaqqındaözünün məşhur "Əl-Lümə" adlı əsərinin"Zahidlik məqamı" ("Zöhd") bölümündə geniş təfsilat verir:

**"Şeyx deyir: Zahidlik şərəfli məqamdır. O, ali hallarınvə uca mərtəbələrin əsasıdır. Bu, Allaha üz tutanların, Allahüçünhərşeydənaralananların,Allahdanrazıların,Allahatəvə kkül edənlərin ilk addımıdır. (İmanın) əsasını zahidlikdəsabitləşdirməyəni sonralar heç nə saflaşdırmır, çünki dünyasevgisi hər bir səhvin başıdır, dünyadan zahidlik isə hər birxeyir və itaətin başıdır.**

**Deyirlər: "Bu dünyada zahidlik adı ilə adlanan şəxs minşərəfliadlaadlanar, budünyadaistəkadıilə adlananisəgünahın min adı ilə çağrılar". Bu (zahidlik) Allahın öz elçisiüçün seçdiyi və onun da bu seçimi üstün bildiyidir.**

**Zahidlik halalda olmalıdır, haram və şübhəlini onsuz datərk etmək vacibdir.Zahidliyin üç təbəqəsivar: birincisibaşlayanlardırki,onlar əllərinimallarından,ürəklərinidə əlləriniçəkdiklərindən çəkirlər.**

**Cüneyd zahidlik barədə deyir: "(Bu), əllərini çəkdiklərinin dadından da qəlbini uzaqlaşdırmaqdır".**

**SəriSəqatidə hesabedirki, "Zahidlik – əliniçəkdiyindən qəlbini də çəkməkdir".**

**Digərtəbəqə zahidliklə haqqaçatanlardır. Rüveyn b.Əhmədbildirir: (Zahidlik) nəfsinhəzzini dünyadaolanhərşeydən kəsməkdir". Bu, haqq əhlinin zühdüdür. Rahatlıqdan,tərifdən,mədholunmaqdanadamlararasındakı hörmətdənzahid olmağın özündə də, bu dünyadan zahidlikdə də nəfsinhəzzivar. Buhəzzlərdənqəlbiilə zahidolanözzahidliyinigerçəkləşdirmiş olur".**

**Üçüncü təbəqə bilib və yəqin etsə də ki, dünya tamamiləonun halal mülküdür, axirətdə onunlabununhaqq-hesabıçəkilməyəcəkvə bu,onunAllahyanındakıməqamınabirnaqislik gətirməyəcək, yenə Allah naminə ondan üz döndəribzahid olur. Çünki onun hər bir şeydə zahidliyi Allahın həminşeyi yaratdığı və ona dəyər vermədiyi vaxtdan başlayır. Əgər dünyanınAllahyanında ağcaqanadındəyəriqədər dəyəri olsaydı, kafirə birudumsuverməzdi. Bunagörədirki, o, zahidliyindən də zahid olub tövbə edir" (99, 108109)**

İstər Hüseyn ibn Mənsur Həllacdan, istərsə də SərracTusidən gətirdiyimiz bu nümunələrlə biz təsəvvüfün və təsəvvüfərbabının gerçək mahiyyət ibarədə yenə də müəyyən təsəvvür yaratmaq istədik. Göründüyü kimi, mahiyyətində Allahınrizasıvə eşqi dayanmasına baxmayaraq, şəriətvə ürfan arasındakı köklü, təməlli fərqlər və ziddiyyətlər mövcuddur. Təsəvvüfün vəürfanın nə olduğubarədə kifayətqədərbilgiyə və azdaolsahəyati təcrübəyə malik olmayanlar yanlış təsəvvürlərə qapılaraq, onları İslam ümmətinin arasına təfriqə salancərəyanlar kimiqələmə vermişlər. Halbuki, təsəvvüf və ürfan tam əksinə, İslamınbətnini parçalayan məzhəb ayrılıqlarının fövqündə dayanaraq, butəfriqənin – sünniliyin, şiəliyin və digər buna bənzər məzhəblərinyaratdığı mənəvi, fiziki və məfkurəvi fəlakətlərə son

qoymuşdur.Həqiqətəndə ürfan əhlininməzhəbiolmaz, çünkiməzhəbçilikşəriətmərhələsinə xasolan birkeyfiyyətdir. Eşq əhliözağlını,qəlbimi elə nəsnələrlə məşğul etmişdir ki, şəriət, məzhəb, ehkamhaqqında düşünməyə onun imkanı olmamışdır. UstadAşıqƏləsgərdən oxuyuruq:

***Ələstü birəbbiküm qalu bəladan,***
***Mərdin mövlasına nökər olmuşam.***
***Sürtmüşəm üzümü xakipayına***
***Elm tapıb sinədəftər olmuşam...***

Bu misralar o qədər inandırıcıdır və təbiidir ki, insan onları yaşanmış bir hekayə kimi qəbul edir. Təsəvvüfdə ki ariflikdə məhz budur. Arif, zamanı qabaqlayan, gələcəyi yaşayan, hər anölən, dirilən şəxsdir.

Nəzəri təsəvvüfün böyüknümayəndələrindən olan ƏbuHamid əl-Qəzzalinin "Əməllərin mizanı" əsərində oxuyuruq:

**"Diqqətlə nəzərdən keçirdikdə məlumolurki, müqəddəslərinmöcüzələri peyğəmbərliyinbirincitəzahürüdür.AllahınRəsulunun budünyanınözündənuzaqlaşaraqHiradağına tərəf gəlməsi və öz Allahı ilə tək qalması zamanındakıvəziyyəti məhzbelə (sufiyanə – F.S.) hallardandır və həminvaxt o, ərəblərin qarşısında möminliyi elə izhar etmişdir ki,ərəblər bir səslə: "Doğrudan da, Muhəmməd öz Allahına olanqızğın məhəbbətindən alışırdı", – söylədilər.Bilavasitə hissetməklə həminhalı yalnızsufilərin yoluilə gedənlər öyrənə bilərlər. Lakinbunuözüzərində hissetməyənlər yalnızsufilərlə tez-tez ünsiyyətdə olaraq onlarınsöhbətləri və təcrübələri əsasında səhih bilik əldə edə bilərlər.Onların vəziyyətləri ilə müfəssəl tanış olduqdan sonra yalnızozaman mötəbərməlumatqazanabilərlər. İnsanınonlarlaazmüddət oturmasıkifayətedirki, onlarınınamını**

**qəbuletsin. Sufilərsə elə insanlardır ki, onların müsahibləri heç biryamanlıqbilmirlər. Əgəronlarla ünsiyyətdə olmaq kiməsəmüyəssər olmayıbsa, onda qoy həmin şəxs məntiqi arqumentlərin göstəricilərinə əsaslanaraq "Dinielmlərindirçəlişi" kitablarından birində, daha dəqiq desək, "Ürəyin möcüzələ-ri" kitabındagöstərdiyimiz şəkildə bununmümkünlüyünəinansın".**

Buməsələlərə, əsərlərindənnümunələr gətirdiyimiz digərmütəsəvvüflərdənfərqliolaraq dahaanlaşılan birtərzdə izahlarverən ƏbuHamid əl-Qəzzali də təsdiqedirki, təsəvvüfdinin,inancındahadərinvə daha əsil qatıdır. BubaxımdanbizAşıq Ələsgərin də ürfanişeirlərindəki mübahisəli,çoxzamanda anlaşılmayanmətləblərə həmin aspektdənyanaşmalıyıq. Bizə lazım olan isə qaranlıq qalan mətəblərə təxəyyül, xürafat, şairanəlik donu geydirmək deyil, ürfanın və təsəvvüfün gerçək mahiyyətinə azdaolsa varidolmaqdır. BunuAşıq Ələsgər özüdə deyir:

***Şairin sinəsi haqq bazarıdı,***
***Satdığı kəlmələr ləl-mirvaridi.***
***Alimin elmiylə helmi yarıdı,***
***Həcvü hədyan demək nahaq söhbətdi...***

Bizcə mətləb aydındır. Aşıq Ələsgərin "elm" dediyi alimlik,"helm"dediyiisə ariflikdir. Alimlikoxumaqla, arifl ıikisəyaşamaqla, təcrübə etməklə mümkün olur. Butəcrübə, ƏbuHamidin dediyi kimi, məhz sufi dünyasına bələd olmaqdır.

Aşıq Ələsgər yaradıcılığındakı təsəvvüfi meyllərin ən güclüpalellərindən birinidə böyükarif Seyid Əzim Şirvaninindivanındakı incilərdəntapmaqla müvəffəqolduq. Buparalellərəsas etibarilə məna və hədəflər baxımından diqqətəlayiqdir.Aşıq Ələsgər şeiriyyətindəki Əli obrazı

Muhəmməd Füzulidən, İmadəddin Nəsimidən daha artıq Əbülqasim Nəbati və Seyid ƏzimŞirvani yaradıcılığında özünə ürfaniməqamqazanan Həzrət Əli fəlsəfəsi ilə səsləşir:

***Xəstə könül, sürün dost irahına,***
***İslam sərdarına, din pənahına.***
***Ələsgər yön çevir şahlar şahına,***
***Yapış ətəyindən şikayət eylə.***

İstər Aşıq Ələsgər, istərsə də Seyid Əzim Şirvani məhzAzərbaycan təsəvvüfünün layiqli daşıyıcıları idilər.Klassikürfandakı sirli mətləbləriAşıq Ələsgəraçıq şəkildə, "həqiqət" əhlinə məxsus bir tərzdə ifadə edir:

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qənbərini, Səlmanı,***
***Musaya öyrədən Turda kəlm əni,***
***Cəbrəyilə ustad olan ya Əli!***

Bu paralellər Azərbaycan təsəvvüf ədəbiyyatının ən ümdə məsələlərindən biridir. Bir daha xüsusi olaraq vurğulamaq istərdik ki, təsəvvüf nümunələrindəki Həzrət Əli obrazı nə dinidir, nədə mifioloji. Bu obraz ona görə dini ola biməz ki, həmin mətləbvə uzlaşmalar heç bir dini stereotiplərə sığmırvə hətta şəriət ehkamına görə küfrdür. Bu obraz eyni zamanda mifoloji də olabilməz.Onagörə ki, mifsəmavi-monoteistdinlərə qədər ki dünya görüş sistemini təşkil edən bəşəri məfkurədir. Bu barədə f.e.n. S. Rzasoyun kitabında maraqlı qeydlərə rast gəlirik:

"Mifoloji şüurun parçalanması ilə miflər öz əski funksiyalarını itirir, bir növ, mif kimi ölür. Demifləşmiş (mifsizləşmiş) bu mətnlər yaşamaqda davam edir. Bu prosesdə (demifləşmə) öz sakrallığını, rituallığını, kultluq funksiyasını,

etioloji-idraki və sanksiyalaşdırıcı-hüquqi funksiyalarını itirən mətnlərin əvvəllər arxa planda qalan bədii-estetik funksiyası indi ön plana keçir”.

Bəhs etdiyimiz qaynaqlar isə, nə qədər qəribə də olsa,səmavi kitablara istinad edir və monoteizmin əsaslarına qətiyyəntoxunmur. Deməli, əgərbuqaynaqlar mifolojideyilsə və əgərdini doktrinalar tərəfindən də qəbul olunmursa, o zaman ortadatək bir yol qalır: onlar mütləq şəkildə təsəvvüfidir. Buna ən barizmisallardan biri elə Həzrət Əli ilə Həzrəti Xızr obrazlarıdır ki, buobrazları bizyuxarıdamüqayisəlişəkildə təhliletməyəçalışmışdıq.

Təəssüfki,bumövzularınhərtərəfliaraşdırılmasında hələki, konkretvə tammüsbət nəticələrə gəlinməmişdir. Lakinbubarədə biz müəyyən elmi cəhdlərin şahidi oluruq. Məsələn, gəncalim N.Qurbanovunməqaləsində oxuyuruq: "Onuqeydetməkistəyirikki, dərvişlərtarixənsufitəriqətləriniyaymaqla məşğulolanhaqq, Tanrıaşiqləriolmuşlar. Xızırisə uzaq keçmişdəyaşaması güman edilən yüz iyirmi dörd min Tanrı peyğəmbərindənbiriolmuş, dahaçox darda qalanlara yolgöstərən, onlarıhimayə edən Tanrı elçisi olduğu söylənilir. Həzrəti Əli (ə) isə islamdünyasının müqəddəsşəxslərindənbiri, möminlərin əmiri(əmirəl-möminin), bütünşiə müsəlmanlarının dinilideri olmuşdur”. Hər iki şəxsiyyətin yanaşı təhlil olunması həm dəmifolojiaraşdırmaların içərisində də həminürfanielementlərintədqiqinə olan meylin göstəricisidir. Lakin bu kiçik misaldan hissolunduğu kimi, mövcud mətləbə münasibətdə elm adamlarımızınfikir və informasiyaları bir qədər bəsit və diletantdır.

Aşıq Ələsgəryaradıcılığınıniçərisindənqırmızıxətt kimikeçən Həzrət Əli obrazı barədəkisufiyanə dünyagörüş əksərklassiklər tərəfindən də ehtiyatla təhlil olunmuş və xalq sufizmiilə müqayisədə birqədər qəlizvə qeyri-cürətkar fikirlərlə nöqtələnmişdir. Bukeyfiyyətdahaçox islamiyyətdə küfrvə bidəthesab olunan tənasüx və hülul məsələlərinə şamil edilmişdir.

# MÖVLANƏ CƏLALƏDDİN RUMİ VƏ MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA "NEY" VƏ ONUN ŞƏRHİ

Bildiyimiz kimi, Mövlanə Cəlaləddin Rumi "Mənəviye-məsnəvini" fars dilində qələmə alıb. Biz də "ney"in haqqında bəzi məlumatları Mövlanənin və bir sıra digər irfan şairlərinin yaradıcılığından bəhrələnərək oxucuların diqqətinə çatdırmağa çalışdıq. Lakin etiraf edək ki, sırf Qurani-Kərimə və Peyğəmbər (s) sünnətinə bağlı olan Mövlanə "ney hekayəti"n zərif bir şəkildə "Mənəviye-məsnəvi"nin birinci dəftərində "Ayrılıq" adı altında vermişdir. Qurani-Kərim "bə" hərfi ilə başladığı kimi, Mövlanə də "Mənəviye-məsnəvi"ni "bə" hərfi ilə başlayır və deyir:

***Beşno əz ney çün hekayət mikonəd,***
***Əz cüdayiha şekayət mikonəd.***

**Anlamı:***Dinlə neyi, gör necə hekayətlər söyləyir,*
*Ayrılıq həsrətindən şikayətlər eyləyir.*

Şərqdə təsəvvüf elminin, daha dəqiq desək, vəhdəti-vücud fəlsəfəsinin ən görkəmli nümayəndəsi olan Cəlaləddin Ruminin "məsnəvi"sinin əvvəlində "ney"dən bəhs etdiyi parçanı misal gətirməklə, "ney"in ifadə etdiyi istər lüğəvi, istərsə də batini mənanı, onda olan hikmətamiz incəlikləri şərh etməyə çalışaq:

***Beşno,əz ney çon hekayət mikonəd,***
***Əz cüdayiha şekayət mikonəd.***
***Danke, əvvəl səmi bayəd netqra,***
***Suye-mənteq əz rəhi-səmən dəra.***
***Netq qu moqufi, rahi-səm nist,***
***Coz ke, niqte xali, bitəməm nist.***

**Anlamı:** *Ey insan eşit, bu "ney" elə ki, hekayət eylədi, öz ayrılığından şikayət etdi. Bunu bilki, əvvəl nitqi eşitmək gəldi, məntiq tərəfi eşitmək yolundan hasil olur. Nitqi söylə, onu eşitmək yoluna mümkün yoxdur, nitqdən uzaq olmaqdan qeyri ki, natamamdır, demək o yoxdur.*

"Ney" kəlməsini izah etməyə gəlincə, onu demək lazımdır ki, bu bir neçə məna ifadə edir: Əvvəla, saf sufilər və həqiqi olan əsl vəfalı aşiqlər demişlər ki, "ney" istiarə-metafora yolu ilə içərisi masəvadan, yəni Allahdan başqa yaranmış olan bütün maddi aləmlərin varlıqlarından boş, lakin həqqin üfürdüyü mərifət ruhu ilə, elm və hikmətlə dolu olan uca bir mürşiddən, yəni batini elmlə-elmüllədünni - Allah yanından bəxş olunan elm vasitəsilə əsl həqiqəti təlim edən doğru və düzgün təriqət göstəricisindən ibarətdir; çünki "ney"in saf, təmiz və kamil olan insana surətən, ləfzən, yəni söz ifadəsi etibarı ilə və həmçinin zatən tam münasibəti və xüsusi bir bənzəri vardır. Surətən bənzəri əlamət, sima və şəri qaydalara görədir. Necə ki, "ney" ruhani olaraq, maddi aləmdən ayrılıb, Allahın izni ilə üfürülərək nalə edib, öz əslinə doğru qayıtmaq arzusu ilə peşiman olub bu fani aləmdən, yəni məcazi vətəndən (kəsrət aləmindən) şikayət edib, özünün əsl vətəni olan vəhdət aləminə dönmək istəyir, eləcə də həmçinin insan özünü cismani aləmdən tamamilə üzərək, tam sərbəstlik yolu ilə ruhən fənafillah, yəni ilahi varlığa qarışaraq, onda həll olub, fənalıq mərtəbəsinə yetişərək, əsl həqiqi vətəninə qayıtmaq arzusundadır. Söz ifadəsi ilə bənzəri odur ki, bəzilər əksər mənada "ney" kəlməsini üfürmək kimi işlətmişlər; necə ki, içərisi hər şeydən boş olan "ney"ə üfürməklə, o nalə edir, eləcə də bütün maddi varlıqlardan əlaqəsini və tamahını kəsən insanın batininə Allah-təala mərifət ruhunu üfürməklə, o, hicrandan şikayət edir və öz əslinə doğru qayıtmaq istəyir; necə ki, şairin bu beytdə "mən neyəm" dediyi kimi:

***Kəsbe-ney an kəs ke, quyəd dəmbədəm***
***Mən neyəm, coz mövci-dəryaye ədəm.***

**Anlamı:***"Ney"i kəsb edən, "ney"ə nail olan o kəsdir ki, hər anda deyər: "Mən ədəm dəryasının ləpələnməsindən cüzvi bir neyəm".*

Bu mərifət ruhu azğınların vücudlarına, onların haqq yoluna gəlmələri üçün Allah-təala tərəfindən üfürülüb, sonra öz əslləri olan ədəm, yəni yoxluq aləminə getmişlər. Və yaxud,

***"Əz vücudi-xiştən kəştəm tühi,***
***Nist əzqeyri-xudayən agəhi".***

**Anlamı:** *Mən öz cismani varlığımdan gedib, yoxluq və boşuq aləmini seyr etdim, ona görə də mənim üçün öz Allahımdan qeyri bir agahlığım yoxdur.*

Burada yoxluq və boşluq aləmi dedikdə, cismən yox olub, ruhən var olan İlahiyyət aləmi nəzərdə tutulur, deyib yoxluq məqamında qərar tutmuşlar və eyni zamanda bütün bu dediklərimiz "ney"in zatən insana bənzərliyinə də tam şəkildə aiddir.

2. "Ney"in ikinci mənası qamış deməkdir və yazı qamışla yazıldığına görə surətən zahiri aləmdə olan qələm mənasını anladır. Necə ki, Qurani-Kərimin "Ələq" surəsinin ("Laxtalanmış qan") ilk beş ayəsində Allah-təala buyurur:

1. ***"İqrə bismi rabbikəl-ləzi xaləq".*** – "Oxu, səni xəlq edən Rəbbinin adı ilə".
2. ***"Xaləqəl insanə min ələq"*** – "O, (Allah) insanı laxtalanmış qandan xəlq etdi".
3. ***"İqra və rabbukəl Əkrəm"*** – "Oxu, sənin Rəbbin ən böyük kərəm sahibidir".
4. ***"Əlləzi əlləmə bil-qələm"*** – "O Allah ki, bəşərə qələmlə yaz-

maq elmini öyrətdi".

5. ***"Əlləməl-insanə maləm yələm"*** – "O Allah ki, insana bilmədiklərini öz ilhamı ilə təlim etdi".

Qələmin yazmış olduğu şeylərdən və Allahın insana bilmədiyi şeyləri öyrətməsindən əsl məqsəd özünün sirr, elm və hikmətindən ibarətdir. Elə olduqda "ney" haqqında Rumidən misal gətirdiyimiz beytin mənasını şərh edərək belə deyə bilərik ki, ey həqqi tələb edən, yəni ey həqqə yaxından bələd olub, onun vəhdaniyyətinə qovuşmaq istəyən insan, qələmin təsvir edib, yazdığı söhbəti eşit və onun dilindən çıxan sirləri eşit, gör ki, "hal əhli"nə məxsus bir dillə nələr söyləyir və məna dili ilə nəyi qərarlaşdırır – "hal əhli" və "qal əhli" ifadələri irəlidə şərh olunacaqdır. Onun üçündə hikmət əhli "Qələm insanın bir dilidir" demişlər; necə ki, ***"Əlqələm əhədə lisanil-insan yucibi-hal ma fiül cinan və yubəliğəl bənd kəma yubəliğəl qərib billisan", – "Yəni qələm insanın bir dilidir və o şeydir ki, hal əhlinə cənnətlərdən gəlmişdir uzağa və yaxına hər şey bu dillə çatır"***.

Buna görə də qələmin dili bu xatırlanan mənanı əla söylər, lazım gələrsə, qələm özünün qüdrət gücü ilə hər fikri sözlə deyər. Əgər hal dili ilə söyləməsi tələb olunarsa, huş və əql qulağı ilə eşit ki, o qələm sənə hal dili ilə nə söylədiyini dərk edəsən, əgər "qal əhli"nin dili ilə söyləməsi lazım gələrsə, zahiri olan hissiyyat qulağı ilə eşit ki, qələm sənə nə danışdığını və nə də yazdığını biləsən.

Qələmin bir mənası, əgər istiarə yolu ilə desək, kamil olan vəli və müşridlərin varlıqlarından ibarətdir.

4-cü məna odur ki, qələmdən ən mühüm və əsas məqsəd "əla qələm", yəni "uca qələm" olan Muhəmməd əl Mustafa (s) həqiqətidir ki, Allah-təala onun haqqında Qurani-Kərimin "Qələm" surəsinin birinci ayəsində buyurur: ***"Nun" vəl qələmi və mayəsturun"*** – yəni ***"And olsun nunə (Nuna anddır ki, bəlkə haqqın Nur və Nasir adına və ya Allahın nur lövhünədir) Və and olsun qələmə və onun yazdıqlarına"*** deyib and içmişdir.

Peyğəmbər (s) də bu həqiqətin şənində "Əvvəl ma xələqə Allahu əlqələm", "Yəni əvvəl o şey ki, xəlq etdi, qələm idi" deyə buyurmuşdur. Bu surə "Əlqələm" adlandığı halda birinci ayətin əvvəlindəki "nun" hərfi və Allahın and içməsinin mənası nədən ibarətdir? Bir çox Quran təfsirçiləri, o cümlədən Təbəri, Zəməxşəri, Tirmizi, Beyzavi, Fəxrəddin Ərrazi və sairələri "nun" hərfinin bu surənin əvvəlində olması və Allah-təalanın and içməsi xüsusunda bir neçə dəyərli fikirlər söyləmişlər;

Birinci odur ki, "nun" mürəkkəb və yaxud mürəkkəb qabı deməkdir, yəni Allah-təala buyurub: ***"And olsun mürəkkəbə və qələmə", və yaxud "And olsun mürəkkəb qabına və qələmə"***, çünki qələmin mürəkkəbsiz yazması və mürəkkəbin də mürəkkəb qabısız olması mümkün deyildir. Və həmçinin bəzi müfəssirlər qeyd edirlər ki, qələm, mürəkkəb və mürəkkəb qabı ifadələri bu surədə İlahi bir təşbih kimi işlədilmişdir: Belə ki, burada qələmin yazması hər hansı bir işin və yaxud əməlin icrasına və yaxud icraya səbəb olan Muhəmmədə (s), mürəkkəbdən məqsəd Allahın kəlamlarını yazmaqla gizli olan sirr və mənaların aşkar olmasına, mürəkkəb qabıdan məqsəd isə o kəlam, sirr və mənaların yaranmış olduğu İlahi mənbəyə, yəni ədəm aləminə bənzədilməsidir. "Nun" hərfinin 2-ci mənası nurani bir lövhədir ki, Allah-təala qələmə onun üzərində yazmağı əmr etmişdir və nəhayət 3-cü mənası "nur" və "əql"dir ki, bunların da hər ikisində məqsəd Həzrət Muhəmməddir (s).

Həzrət Muhəmməd (s) bu xüsusda iki hədis buyurmuşdur: "Əvvəl ma xələqə Allahu ənnur", – "Yəni əvvəl o şeyi ki, xəlq etdi - nur idi" və "Əvvəl ma xələqə Allahu əl-əql", – "Yəni Allah o şey ki, xəlq etdi - əql idi. O Həzrətin (s) həqiqəti – kainatın nəqşlərinə və bütün varlıqların yaranmalarına səbəb olduğu etibarı ilə ona Muhəmmədin (s) ruhu deyilmişdir: Necə ki, "Əvvəl ma xələqə Allahu ərruh", "Əvvəl Allah o şey ki, xəlq etdi, ruh idi" və "Əvvəl ma xələqə Allahu əql", "əvvəl Allah o şey ki, xəlq etdi, əql idi"

hədislərinin hər ikisi həqiqətdə eyni bir mənaya işarət edilmişdir və sözün ifadə yolu ilə dəxi "ney"dən Həzrəti Mustafa (s) və "Əla qələm" alınır; Çünki "ney" sözü əbcəd hesabı üzrə 60 rəqəmini ifadə edir və eyni zamanda "Sin" sözü də 60-dır. "Sin" Həzrət Muhəmmədin (s) bir adıdır ki, Quranın 36-cı surəsi "Ya-sin" adlanır və bir çox hədislərdə buyurulmuşdur ki, yeddi qat olan göyün hər bir qatında Muhəmməd əl-Mustafanın (s) bir adı yazılmışdır; 1.Məhəmməd; 2.Əhməd; 3.Əlmüddəsir; 4.Əlmüzəmmil; 5.Ta-ha; 6.Ya-sin; 7.Əbdüllah. Məhz bu əsasa görə "Beşno əz ney" ifadəsinin əsl mənası "Həzrət Muhəmməddən eşit" demək olur, lakin burada "Əz cüdayiha şekayət mikonəd" deyilən 2-ci misrada bir sual lazım gəlir; indiki "ney"dən məqsəd Allahın vəliləri və yaxud Həzrət Muhəmməd əl Mustafa (s) olur, bunlar özləri eyni vəslətdə, yəni Allahın birliyinə qovuşmaq mərtəbəsindədirlər, elə olduqda onlar ayrıldıqdan necə şikayət edirlər? Bu suala bir neçə cürə cavab vermək olur.

1. Nəbilərin və Vəlilərin şikayəti, ilahi varlığın vəhdətinə yetişməzdən qabaq özlərinin keçmiş hallarına, yəni cismani aləmdəki vəziyyətlərinə nisbətlə olur və bunların keçmiş əhvallarını nəql etmələrindən məqsəd bu dünyaya uyub axirəti unudan qəflət sahiblərinə xəbərdarlıq – tənbih üçündür – İlahiyyət və axirəti tələb edən əhlə isə əsl saflıq və təmizlik səbəbidir.

2-cisi odur ki, bu dünyəvi ləzzətdə əsl kamillik tapıb, ilahiyyata qovuşmaq mümkün olmaz. Baxmayaraq ki, onlar vəhdət dəryasına qərq olmuşlar, yenə də yəqin hökmünü cismən dünyəvi əlaqəyə görə əldən qoymazlar. Pəs onlar bu kamilliklə vüsalə mane olan surətən ayrılıqları yad edib ondan şikayət edərlər.

3-cü odur ki, Allah vəlilərinin daxilində cəm mərtəbəsində qərq olmaqdan başqa bir ləzzət yoxdur. Cəm mərtəbəsi insanın əsl və tam şəkildə kamilliyə yetişmiş olduğu mərtəbədir ki, bundan sonra insan yalnız vəhdaniyyət mərtəbəsinə yetişərək, dəyişiklik

və ikilikdə təmiz, həmçinin müxtəlif cürə əzab və əziyyətin çoxluğundan uzaq olurlar, o vəqtdəki bunları cəm mərtəbəsindən ki, insanlığın əsl təmiz məqamıdır, fərq və təmiz mərtəbəsinə göndərərlər və "ol, pəs oldu" deyib yaradarlar və həmin insanlar bu dünyada yaxşılıq və pislikdən qəm, kədər və zəhmət görərlər. Eləcə də müxtəlif sifətlərə əlamət tapırlar. Əgər onlar vəhdəti, yəni həqiqi bir olan Allahın varlığını çoxluqda, yəni bütün əşyanın varlığında görsələr də, bu mərtəbənin müvəqqəti və fanilikdə bilib, ondan şikayət edərlər. Elə məhz bu xüsusiyyətə görə də Rumi "Məsnəvi"sində bu mərtəbəni "ney"stanə bənzədərək deyir:

*Gər meyistan ta məra bebruedəm*
*Əz nəfiri-mərdo zən nalideəm.*

Bu beytdə "ney"standan məqsəd Əhədiyyət mərtəbəsi, yəni bir olan Allahın mərtəbəsi olsa da, - layiqdir və əyan mərtəbəsi olmağa da aiddir, birlik mərtəbəsi, o cəhətsiz, yəni yeri və məkanı olmayan bir zatə deyirlər ki, həqiqi olan ilahinin zatı Həzrətin müqəddəs zatından və dəxi bəzisindən ayrılmayan və fərqli olmayan bir mərtəbədir. Məhz buna görə də Rumi bu beytində həmin mənanı ifadə edərək deyir ki, məni "ney"standan uzaqlaşdırdıqlarına görə mən kişi və qadından mənim haqqımda söz yaydıqları üçün nalə edirəm. Allahın zat aləminə kişi və sifət aləminə isə qadın adı verilmişdir və bunlar zahiri aləmdə olan bütün maddi varlıqların yaranmasında ata-ana vasitəçiliyini təşkil etmişlər. Bunlar əlbəttə yalnız ruhani aləmdə öz əhəmiyyətini bildirir, lakin cismani aləmdə isə göydə 7 planet – əflak, yəni fələklər-abaüssəbə və yaxud abayi-ülvi, yəni 7 atalar və yaxud uca, yüksək atalar, yerdə olan və maddi varlıqları əmələ gətirən 4 ünsürə - su, od, torpaq və havaya isə "ümməhitnə tissüfli", yəni "aşağı analar" deyilir. Bu atalar və anaların birləşərək əmələ gətirdikləri cəmadat, nəbatat və heyvanat, yəni cansız əşyalar,

bitkilər və canlılar aləminə isə "məvalidi-səlasə", yəni "üç doğulmuşlar" deyilir. Amma Mövlanə Cəlaləddin Rumi yuxarıda qeyd etdiyimiz əhədiyyət mərtəbəsini "ney"stan adlandırıb əşya və ruhları "ney"ə bənzətmişdir. Bu mənanın şərhi belədir ki, bu aləmdən ayrılıb ta insaniyyət aləminə gəlincəyədək hər bir aləmdə onların söz yaymalarından etdiyi nifrət və naləni söyləyib bəyan edər:

***Ney kə ağaze-hekayət mikonəd,***
***Zin cüdayiha şekayət mikonəd.***

**Anlamı:***Ney ki, hekayət etməyə başladı, özünün bu ayrılığından, yəni əhədiyyət aləminin ayrılığından şikayət etdi.*

***Ta betiqi-firqətəm bebrudəyəm,***
***Əz nəfire-mərdo zən nalideəm.***

**Anlamı:***Elə ki, mən ayrılığın qılıncı ilə öz əsl aləmimdən uzaqlaşdım, həmin aləmdə olan kişi və qadının söz yaymağından nalə etdim.*

***Kist mərd, əsmayi-xəlluqu vədud,***
***Kan bovəd fail dər ətvari-vücud.***

**Anlamı:***Kişi kimdir; daima yoxdan hər şeyi yaradan və yaratdıqlarına dost olan Allahın adlarıdır ki, o varlıqların yaranmasında fəallıq göstərir.*

***Ki zəne əyan cəme mümkunət***
***Mun fəil kəşt zə əsmanə sifat.***

**Anlamı:** *Əyan olan bütün imkanı varlıqlar onların qadınlarıdırlar və onlar yuxarıda qeyd etdiyimiz kişilər aləminin adlarından və sifətlərindən xəcalətli olurlar.*

***Çön həme əsmavo əyan-biqusur,***
***Darəd əndər rütbeyi-insan zühur.***

**Anlamı:***O qadınlar ona görə xəcalətli olurlar ki, onlar nöqsanlı və qüsurludur, lakin kişilər aləmi adlanan bütün adlar və sifətlər aləmi ki,*

*əyandır həmin aləm nöqsansız və qüsursuzdur və insanlıq dərəcəsi içərisində zahir olmuşdur, bu da Allahın insanı öz surətində yaratması və daha dəqiq desək, ilahi sifətlərin insanla və yaxud onun batinində aşılanmasıdır.*

***Comlera dərzəmmi-insan nalehaso,***
***Ki, çera budi ze əsla-xod codast.***

**Anlamı:***Bütün bu yaranmışlara insan zəminində nalə etməklik var ki, nə üçün onlar öz əsillərindən ayrı düşmüşlər.*

***Şod cəra bakə banke-neşan hubbul vətən***
***İn bovəd sirri-nəfire mərdə zən.***

**Anlamı:** *Vətəni sevmək nişanının sədası aşkar oldu və bilindi ki, bu həmin kişi və qadının söz yaymasından etdiyim nalənin sirri olur.*

"Hübbül-vətən" hədisinin və vətənin iki növdən ibarət olması Muhəmməd Füzulinin bir qəzəlində dediyi kimi dörd vətəndən ibarətdir. Beyt belədir:

***Edəməm tərki Füzuli, səri-kuyi-yarın,***
***Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim.***

Sonra hər bir ruh bu əhədiyyət aləmində "Ələstü birəbbikum", yəni "Allahın onlara, yəni ruhlara mən sizin Allahınız deyiləmmi?" xitabını eşidib öz Allahını tanıdıqdan sonra hər ruh öz istedadı qədərincə: "Bələ, şəhidnə", yəni bəli, şəhadət veririk ki, Sən bizim Allahımızsan" - deyib hər ruh öz növü ilə Allahını tərif etdi, tanıdı. Məhz bu təsdiqdən sonra bu ruhlara həmin aləmdə kamal və əlaqə hasil oldu, sonra həmin ruhlar bu aləmdən ayrılıb, misal aləmin keçib dövr edən göylər aləminə, yəni fələklərə gətirilirlər. Sonra kişilər mərtəbəsində olan ağıllar və qadınlar mərtəbəsində olan nəfslər onun söz yaymasından ruhani dillə

naləyə gəlir və mənəvi olaraq ah və fəryad edirlər. Sonra həmin ruhlar misal aləmində də, dövr edən göylər aləmində də bir neçə əcayib və qəribələr görüb, bu aləmlərdə də onlara ünsiyyət hasil olduqdan sonra onlar bu aləmdən ayrılıb, ünsürlər aləminə və onun üç doğulmuş mərtəbəsinə gəldilər ki, bu ifadələr yuxarıda şərh olundu. Sonra həmin ruhların bu ucalıq və yüksəklik mərtəbəsindən irəli gəlib aşağılardan aşağılara qaytarılmasına kişi və qadın kimi olan göy və yer nalə edib ağlamalı oldular. Bu göy və yeri eyni zamanda fəsihlər və Quran təfsir edənlər də kişi və qadına bənzətmişlər. Bu insanın tərbiyəçi ruhu göydən yerin içərisinə gəlib, sonra ondan doğulub bitkilər aləminə, ondan heyvanlar aləminə və ondan da insan mərtəbəsinə gəlmişdir: Mövlanə Cəlaləddin Rumi cansızlıq aləmindən insan mərtəbəsinə gəlincəyədək bu beytlərli söylər:

***Aməde əvvəl beiqlimi-camad,***
***Vəz camadi bərnabati ofttar.***

**Anlamı:** *Mənim ruhum əvvəl cansız əşya aləminə gəldi, sonra bitki aləminə düşdü, sonra bitki aləmindən heyvanat aləminə düşdü. Onun bitki aləmindəki vəziyyəti heç cürə adlanıb yada düşmürdü.*

***Baz əz heyvan suyi-insaniəş***
***Mikəşəd an xaliq inki, daniəş.***

**Anlamı:***O Xaliq ki, onu yaradıb və onu necə yaratdığını özü yaxşı biləndir, əksinə olaraq, onu geriyə, yəni heyvanlıq mərtəbəsindən insanlıq tərəfinə çəkibdir.*

Məsələn, göyün fəal olan qüvvəti və ondan enən su ilə – yağışla – yerin qabil olan qüvvəsi birləşib, bu ikisinin birləşməsindən bitki doğulub, həmin bitkini Allahın istəyi ilə heyvan yeyir, surət və cism bağlayır, sonra insan həmin bitkidən və həm də heyvandan yeyib həzm edərək, özündə nütfə hasil edir, cinsi əlaqə

zamanı həmin nütfə atanın belindən və ananın sinəsindən çıxıb ananın bətnində qarışır, sonra o özünün həqiqi neystandan irəli olduğunu bilib, bu şikayətdən "ney" kimi, söz yayımı və nalə etdikdə, onun kişiyə bənzər əqli və qadına bənzər nəfsi də onun söz yayımından nalə edərlər. Ruhun ayrılığı onlara da təsir edib, onun istək və məqsədi tərəfinə gedərlər. Bu əql və nəfsin kişi və qadına bənzədilməsinə Rumi işarə edib buyurmuşdur:

***Macarayi-mərdo zən oftad əql,***
***Annisale-nəfse-xod midanəd əql.***
***İnzəne mərdi ke nəfsəstiye-xəd,***
***Dər tənəb bəstənd dəhri-nike bəd.***

**Anlamı:**_Əql kişi və qadının macərasına düşdü, əql onu öz nəfsinin misalı bilir, bu kişilik və qadınlıq ki, onun öz nəfsindədir, ona görə də zamanın yaxşı və pisi onun bədənində bağlanmışlar._

3-cü misranın sonunda olan xud sözü 4-cü misranın sonundakı bəd sözünə qafiyə olmaq üçün xəd şəklində yazılmışdır. Sonra ruh bu mərtəbələrdən yüksələrək, bir mələkin doğru, təmiz və düzgün yola hidayət etməsi ilə özünün ibtidada haradan gəldiyini və nahəytdə, haraya gedəcəyini vasil edib, yenidən, təkrarən həmin hidayət yolu ilə bu ayrılıq aləminə enib, kişi və qadına həqiqi olan neystandan ayrılıb, bu qürbət, yəni əslindən uzaqlaşmaq aləminə düşdüyünü onlara hidayət üçün hərarət və ağırlıq, ah və nifrətlə söyləsə, bunlar da onun nifrətli danışığından nalə və fəqan edərlər. Beləcə, bu beytlərin ifadə etdiyi məzmunu tərənnüm edib deyərlər:

***Həpeza ruzi ke piş əz ruzo şəb,***
***Fariqo azad budim əz tələb.***

***Mottəhid budim ba şahe vücud,***
***Hokme-qeyri ət be kulle məhv bud.***

***Nahakan bər conboş aməd bəhri-cud,***
***Comlera dərxud, ze xod, baxob necmud.***

***Vacibə mumken ze həm momtaz şod,***
***Rəsme ayini-duyi-ağaz şod.***

Yəni bu bizim cismani aləmdə olduğumuz zaman olan gündüz və gecədən qabaqkı günümüz var idi, biz o gündə hər şeyi tələb etməkdən azad və sərbəst idik və varlığın şahı olan Allahla biz birləşmiş idik və o küll olan Allahın hökmü ilə hər şey məhv olurdu, nakahan Allahın kərəm və səxavət dəryası hərəkətə gəldi və bütün varlığı özündə, özündən və özü ilə göstərib əks etdirdi.

Bu beytdə ruhun ilahi məqamları seyr etməsindən bəhs olunur. Vacib və imkanı varlıq ki, Allah varlığı ilə cismani olan varlıq hesab olunur, bir-birindən açıq və aydın bir şəkildə seçilib fərqlənirdi. İki aləmin güzgüsü olan insan yaranmağa başladı.

M.Füzuli də C.Rumi kimi "ney"dən söhbət açır və eşqin ilahiliyini və xüsusən də "ney"in əhatə etdiyi təsəvvüfi mənanı şərh edir:

***"Eşqdir ol nəşeyi-kamil kim, ondadır müdam,***
***Meydə təşviri-hərarət, neydə təsiri-səda" .***

Yəni əsl həqiqətdə bütün insanlar üçün birlik çölü eşq məqamıdır, ona görə ki, bu birlik çölündə sultanla gəda, dövlətli ilə kasıb, padşahla rəiyyət, ağa ilə qul bir-birindən fərqlənməz.

Allah-təala "Ələst" aləmində onu "bəli" deyib təsdiq edənlərə özünün vəhdət camının şərabından içirmiş və bununla da onların qəlblərini tamamilə dünya tamahından təmizləmiş, özlərini isə maddi aləmdən təcrid edərək, öz vəhdaniyyətinə qovuşdurmuşdur, necə ki, Rumi deyir:

*Ruhi-an kəs ku dər həmqame-ələst,*
*Did rəbbi xişo şod bixişo məst.*

"Ələst" ifadəsi yuxarıda izah olunmuşdur – yəni o kəsin ruhu ki, Allah-təala ona "Mən sizin Allahınız deyiləmmi?" dediyi vəqtdə öz Allahını gördü, özünü unudub, vəhdət şərabı ilə məst oldu, yəni o kəsin ruhu ki, Allahını gördü və onunla aşina oldu, bu o kəsin ruhudur ki, bu günü, yəni ilahi eşqə daxil olub, tam azad olaraq özünün cismani varlığını tamamilə unudub, dünyəvi aləmdən əlaqəsini kəsdiyi günü gördü və özümsüzlüyü tapıb, vəhdət şərabı ilə məst oldu. Rumi yenə deyir:

*Quş dar əknun ke, aşiq mirəsəd,*
*Bəst eşq ura be "həblül-minməsəd".*

Yəni ey eşqi dərk edib, onu eşidən insan, indi sən aşiqin əhvalatına qulaq ver ki, eşq onu xurma sapından toxunmuş bir kəndirə bağladığı halda aşiq Allahın vəhdaniyyətinə yetişir, yəni eşq onu möhkəm buxov bəndinə bağlayaraq eşq qeydində əsl məşuqə olan Allah tərəfinə cəzb etdiyi halda o aşiq vüsal mərtəbəsinə qovuşub və bununla da o dünya qəmindən tamamilə azad olur və Mirzə Dahi demiş:

*Eşq camın xalis al, nuş eylə "Bismillah" ilə,*
*Vadiyi-vəhdətdə bir məclis düzəlt Allah ilə.*

"Həblül-minməsəd" Quranın 3-cü "Məsəd" surəsinin axırıncı ayəsidir. Orada deyilir ki, Əbi-ləhəbin arvadı Ümmi-Cəmilə peyğəmbəri (s) yandırmaq üçün odun gətirərkən xurma sapından toxunmuş bir kəndir onun boğazına keçib onu boğaraq öldürmüşdür. Burada ilahi bir hikmət var ki, nə üçün məhz xurma sapından toxunmuş kəndir qeyd olunur və Ruminin indicə misal

gətirdiyimiz beytində də eşq aşiqi xurma kəndiri ilə bənd edərək Allaha yaxınlaşdırmışdır. Bir çox təfsirçilərin yazdıqlarına görə, xurma ağacı Quranda ağacların ən müqəddəslərindən biri olmaqla, "Şəcərətəl-iman, yəni iman ağacı" adlandırılmışdır, çünki o ağacın yuxarısında elə bir bir budaq vardır ki, onu insan kəssə, o ağac ya boy atmaz və yaxud da tez quruyar, həmin budaq ancaq Allah-təalanın izni ilə özü vaxtında quruduqdan sonra onu kəsmək olar və xurma ağacı əsla paksızlığa dözməyib tez məhv olan ağacdır. Elə buna görə də əsl insanın imanı da pak və doğru olmalı, xurmanın şah budağı kəsilmədiyi kimi, əsl insanın imanında da bir nöqsan olmamalıdır. Ruminin bu beyti ilə əlaqədar olaraq Füzuli deyir:

***Eşqə ta düşdün, Füzuli, çəkmədin dünya qəmin,***
***Bil ki, qeydi-eşq imiş dami-təəllüqdən nicat.***

Yəni ey Füzuli, sən ki, eşqə düşüb dünya qəmin çəkmədin, bunu yəqin bil ki, əsl həqiqətdə eşqə bağlanmaq ancaq insana dünyanın əlaqəlik torundan xilas olmaqda kömək verər.

***Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,***
***Nalə tərkin qılmazam, ney tək kəsilsəm bənd-bənd.***

**Anlamı:***Eşqimin avazı ney kimi nalədən ucalır; Ney tək bənd-bənd kəsilsəm də, naləni tərk etmərəm.*

Aşiq fəryad etdiyini, öz iniltili səsinin getdikcə artdığını, ucaldığını bildirir. O özünü neylə, avazını isə ney səsi ilə müqayisə edir. Klassik şeirdə ney özü də bir həqiqi aşiq kimi vəsf və təqdim olunur. Sufilik inamına, "vəhdəti-vücud" fəlsəfəsinə görə, qamışdan düzəldilmiş ney, guya ona görə yanıqlı fəryad səsini ucaldır ki, öz əvvəlki yerinə – kəsildiyi bətnə qayıtmaq (qovuşmaq)

istəyir,o bu həsrətlə inləyir.

Neyin bir sıra səciyyəvi əlamətləri var. Ney havanın kiçik bir təmasından dilə gəlir və sanki öz hekayətini danışmağa başlayır. Qamışın oduncaq hissəsindən hazırlanan ney öz bədənində bəndlərə malikdir. Ümumiyyətlə, (üzüm tənəyi kimi) qamış öz fəqərələri üzərində bənd-bənd boy atır, ney düzəltmək məqsədilə qamış həmin bənd yerindən kəsilir. (Fəqərələr arası qığırdaq olduğu kimi, bəndlərin birləşdiyi yerdə pambıq kimi yumşaq olur).

Kəsilmiş qamış parçasını neyə çevirmək prosesində közərmiş şişlə dəlik-deşik edir, quru qəfəsə dönənədək qudurdurlar. Həqiqi aşiqin halı da eynilə belədir. Onun da cismindən quru bir qəfəs, bir də nəfəs qalmışdır. Necə deyərlər, bənd-bənd qabırğaları görünür. Lakin o, eşq yolunda dönməz olduğunu söyləyir: Nəfəs alarkən içindən gələn iniltili səs ona xoşdur.

***Neyi-bəzmi-qəməm, ey ah, nə bulsan yelə ver,***
***Oda yanmış quru cismimdə həvadan qeyri.***

**Anlamı:** *Ey ah, mən qəm məclisinin neyiyəm, oda yanmış quru bədənimdə havadan qeyri nə tapsan, yelə ver.*

***Ney kimi cismim oldu oxundan dəlik-dəlik,***
***Dəm urduqumca yerli-yerindən səda verər.***

**Anlamı:** *Bədənim (sənin) oxundan ney kimi dəlik-dəlik oldu (Mən) nəfəs aldıqca yer-yerdən səda verir.*

***Hər dərdsizdən umma, Füzuli, dəvayi-dərd,***
***Səbr eylə, kim ki, dərd veribdir, dəva verər.***

**Anlamı:***Füzuli, hər dərdsizdən (öz) dərdinə dərman umma; Səbr eylə, kim dərd veribdir, dərman (da) verər.*

Füzuli yaradıcılığında da "ney" mövzusuna Mövlana Cəlaləd-din Rumidə olduğu kimi, çox təsadüf olunduğundan şairin "ney"

barədə yazdığı bir qəzəli qısa şərhi ilə oxucuların diqqətinə çatdırırıq.

***Ney kimi, hər dəm ki, bəzmi-vəslini yad eylərəm,***
***Ta nəfəs vardır quru cismimdə fəryad eylərəm.***

**Anlamı:***Sənin görüş məclisini hər an yada saldıqca (xatırladıqca), bir ney kimi bu quru cismimdə nəfəs aldıqca, nalə edərəm.*

***Ruzi hicrandır, sevin, ey mürqi-ruhim ki, bu gün,***
***Bu qəfəsdən mən səni, əlbəttə, azad eylərəm.***

**Anlamı:***Sən, ey mənim ruhumun quşu, səninlə mənim aramda ayrılıq günü artıq gəlib çatmışdır. Odur ki, sən gərək sevinib, şadlanasan, çünki mən istər-istəməz bu gün səni bədən qəfəsindən azadlığa buraxacağam.*

***Vəhm edib ta salmaya sən mahə mehrin hiç kim,***
***Kimə yetsəm zülmü cövründən ona dad eylərəm.***

**Anlamı:***Qorxub, sən ay üzlüyə heç kim mehrin salmasın deyə, kimə yetsəm, sənin zülm və cəfandan şikayət eyləyəcəyəm.*

***Qan yaşım qılmaz vəfa, giryan gözüm israfına,***
***Bunca kim, hər dəm cigər qanından imdad eylərəm.***

**Anlamı:** *Cigər qanımdan hər nə qədər təkidlə, israrla yardım istəməyinə baxmayaraq, ağlar gözümün israf olaraq axıtdığı göz yaşlarına qan yaşımdan, əsla ruhumdan, mənəviyyatımdan heç bir kömək gəlməz.*

***İncimən hər necə kim əğyar bidad eyləsə,***
***Yar cövriçün, könül, bidadə möqad eylərəm.***

**Anlamı:***Rəqib hər nə qədər zülm etsə də, əsla incimərəm. Çünki, ey könül, yarın cəfası üçün əzab-əziyyətə qatlaşaram.*

***Bilmişəm bulman vüsalın, leyk bu ümmid ilə,***
***Gah-gah öz xatiri-naşadımı siad eylərəm.***

**Anlamı:** *Sənə qovuşa bilməyəcəyimi bilirəm. Bununla belə, hərdənbir bu ümid ilə qəmgin olan könlümü şad etməyə çalışıram.*

***Lövhi-aləmdən yudum əşk ilə Məcnun adını,***
***Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm.***

**Anlamı:** *O qədər çox ağladım ki, Məcnunun adını yer üzündən sildim, Ey Füzuli, sən bununla dünyada yalnız öz adının qalmağını istəyirsən?!..*

M.Füzulinin yazdığı bu qəzələ müasir dövrümüzün şairlərindən olan Natiq Əbdülmanaf oğlu bir "Təxmis" yazmışdır. "Təxmis" çox diqqətəlayiq olduğundan bu bölümdə həmin "Təxmis"i qeyd edirik.

***Ya Əli, zikrinlə gəh dil mülkün abad eylərəm,***
***Gəh xədəngi-vəhşəti-hicr ilə bərbad eylərəm.***
***Öz tənimdən bu təriq ilə ney icad eylərəm.***
***"Ney kimi, hər dəm ki, bəzmi-vəslini yad eylərəm,***
***Ta nəfəs vardır quru cismimdə, fəryad eylərəm".***

***Nameyi-əmal üzündən gərçi var bakım bu gün,***
***Bir şərrari-ümmid olmuş könlümə hakim bu gün.***
***Barilaha, rahət olsun qəlbi-qəmnakım bu gün,***
***"Ruzi hicrandır, sevin, ey mürqi-ruhim ki, bu gün,***
***Bu qəfəsdən mən səni, əlbəttə, azad eylərəm".***

***Tövbəkaram, uymuşam dünyapərəstlər lafına,***
***İndi yetməkçün, Əli, qan ağlıram əllafına,***
***Öylə zarəm qisseyi – Ali-Əli övsafına,***
***"Qan yaşım qılmaz vəfa, giryan gözüm israfına,***
***Bunca kim, hər dəm cigər qanından imdad eylərəm".***

***Vəslə aşiq tez yetər dil cövrə münqad eyləsə,***
***Dönmərəm səndən, tələb gər necə cəllad eyləsə,***
***Sabitəm, biganə tənin tiği-fulad eyləsə,***
***"İncimən hər necə kim əğyar bidad eyləsə,***
***Yar cövriçün, könül, bidadə möqad eylərəm".***

***Öylə ki, aram tapar dil kəlmeyi-Tövhid ilə,***
***Xovfdən azad olar göz mətləi-xurşid ilə.***
***Şad olar könlüm Əlidən paybusü did ilə,***
***"Bilmişəm bulman vüsalın, leyk bu ümmid ilə,***
***Gah-gah öz xatiri-naşadımı siad eylərəm".***

***Sabiqan qoydu əgər mədhi – Əli bünyadını,***
***Pişə qıldım, Natiqa, mən bu rəhin irşadını.***
***Kimdi Leyla? Qeys vəsf etsin Əli övladını!***
***"Lövhi-aləmdən yudum əkş ilə Məcnun adını,***
***Ey Füzuli, mən dəxi aləmdə bir ad eylərəm".***

Əvvəlki qəzəlindən də göründüyü kimi "Ney" ifadəsinə Füzuli də Mövlana kimi öz yaradıcılığında geniş yer vermişdir:

***Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,***
***Nalə tərkin qılmazam, ney tək kəsilsəm bənd-bənd.***

**Anlamı:***Eşqimin avazı ney kimi nalədən ucalır; Ney tək bənd-bənd kəsilsəm də, naləni tərk etmərəm.*

Aşiq fəryad etdiyini, öz iniltili səsinin getdikcə artdığını, ucaldığını bildirir. O özünü neylə, avazını isə ney səsi ilə müqayisə edir. Klassik şeirdə ney özü də bir həqiqi aşiq kimi vəsf və təqdim olunur. Sufilik inamına, "vəhdəti-vücud" fəlsəfəsinə görə qamışdan düzəldilmiş ney guya ona görə yanıqlı fəryad səsini

ucaldır ki, öz əvvəlki yerinə – kəsildiyi bətnə qayıtmaq (qovuşmaq) istəyir.O səbəbdən də, o bu həsrətlə inləyir.

Neyin bir sıra səciyyəvi əlamətləri var. Ney havanın kiçik bir təmasından dilə gəlir və sanki öz hekayətini danışmağa başlayır. Qamışın oduncaq hissəsindən hazırlanan ney öz bədənində bəndlərə malikdir. Ümumiyyətlə, (üzüm tənəyi kimi) qamış öz fəqərələri üzərində bənd-bənd boy atır və ney düzəltmək məqsədilə qamış həmin bənd yerindən kəsilir. (Fəqərələrarası qığırdaq olduğu kimi, bəndlərin birləşdiyi yerdə pambıq kimi yumşaq olur).

Kəsilmiş qamış parçasını neyə çevirmək prosesində onuqızdırılmış şişlə dəlik-deşik edir, quru qəfəsə dönənədək qudurdurlar. Həqiqi aşiqin halı da eynilə belədir. Onun da cismindən quru bir qəfəs, bir də nəfəs qalmışdır. Necə deyərlər, bənd-bənd qabırğaları görünür. Lakin o, eşq yolunda dönməz olduğunu söyləyir; Nəfəs alarkən içindən gələn iniltili səs ona xoşdur.

***Neyi-bəzmi-qəməm, ey ah, nə bulsan yelə ver,***
***Oda yanmış quru cismimdə həvadan qeyri.***

**Anlamı:***Ey ah, mən qəm məclisinin neyiyəm, oda yanmış quru bədənimdə havadan qeyri nə tapsan yelə ver.*

***Ney kimi cismim oldu oxundan dəlik-dəlik,***
***Dəm urduqumca yerli-yerindən səda verər.***

**Anlamı:***Bədənim (sənin) oxundan ney kimi dəlik-dəlik oldi; (Mən) nəfəs aldıqca yer-yerdən səda verir.*

***Hər dərdsizdən umma, Füzuli, dəvayi-dərd,***
***Səbr eylə, kim ki, dərd veribdir, dəva verər.***

**Anlamı:***Füzuli, hər dərdsizdən (öz) dərdinə dərman umma; Səbr eylə, kim dərd veribdir, dərman (da) verər.*[83]

Mövlana Cəlaləddin Ruminin "Mənəviyyat-məsnəviləri"nin birinci və ikinci dəftərləri Azərbaycan dilinə tərcümə olunub. Birinci dəftər "Ney" hekayəti – "Ayrılıq" başlığı ilə başlayır.Həmin tərcümədənbir neçə sətri oxucuların diqqətinə çatdırırıq:

***Dinlə neyi, gör necə hekayətlər söyləyir,***
***Ayrılıq həsrətindən şikayətlər eyləyir.***
***Öz yurdum, qamışlıqdan salmışlar ayrı məni,***
***Səsim nalan eyləmiş, naləmi eşidəni.***
***Ayrılıq fəraqından sinəmdir parə-parə,***
***Dərd söyləməkdən qeyri, yoxumdur başqa çarə.***
***Öz soyundan kim kənar düşmüş olarsa əgər,***
***Nə qədər ömr edərsə, vüsalla həsrət çəkər...***

***... Bilirsənmi, güzgüyə baxmır, qanmazlar neçün?***
***Çünki baxsa güzgüyə, surətin görər çirkin.***
***Güzgü təmizlənərsə, çirki üstdən pak olar,***
***Tanrının günəşi tək, nurlu olub, parlayar.***
***Sən də get sil, təmizlə bir tozun, pasın onun,***
***Dərk eylə təmizliyi, gör təcəllasın onun.***
***Qəlbinin duyğusuyla, bu həqiqəti eşit,***
***Çamırlıqdan çıxaraq, düz yolu mərdanə get.***
***Əgər varsa ağlınız, təyin edin düz yolu,***
***Ondan sonra şövq ilə, gediniz dümdüz yolu.***

---

[83]M.Füzuli "Seçilmiş əsərləri". Samət Əlizadə "Şah Beytlər" ADN. – B. 1995.

## SEYİD NİGARİ YARADICILIĞINDA "HU" ZİKRİ

Əhli-təsənnü məzhəbininnəzəritəliminə söykənənNəqşbəndiliyinböyük nümayəndələrindən biri də Mir Həmzə Seyid Nigari olmuşdur. Bu şəxs Amasya təkyəsindən bu zikrə görə qovulmuşdu.

***Şiri-Xuda Ya Əli,***
***Dadıma yet ya Vəli!***
***Həm Əlisən, həm Vəli,***
***Yerin-göyün ləngəri!***

Mir Həmzə bu zikri qaynar təndirin içində ayaqyalın haldasöyləyirdi. Yəni semah edirdi. Şiə qardaşlarımız həvəslənməsin.Bu zikrdə sizin qandığınız Əlidən söhbət getmir. Elə bilərsiz, odaşiə idi,yox.MirHəmzə əfəndiheçsünnidə deyildi. O, birazərbaycanlı olaraq, məhz sufi, ürfan ərbabı idi.Bəli, məhzAzərbaycanİslamı!Mənimgörə bildiyimvəxəbər verdiyim budur! Türkiyəli qardaşlarımız öz dinlərini Mövlananın, Yunus Emrənin hesabına formalaşdırdılar. Buna görə dəonların aqressiv İslam (terror-merror) dininə ehtiyacları yoxdur.

Təkliflər paketinə bənzəməsin, amma demək istədiyimizodur ki,Azərbaycanınözİslammodeliniyaratmaqistəyiriksə,xaricikəşfiyyatvə terrortəhlükələrindənhəmişəlikqurtulmaq istəyiriksə,millətimizinkönlünə ilahieşqitəbliğedənürfanidəyərləri sövq etmək lazımdır.

NatoParlamentAssambleyasındaTürkiyənitəmsiledənkeçmiş bir millət vəkili var idi. Zülfü Livanəli. Həm də şair vəbəstəkar olan Zülfü bəy 80-90cı illərdə Böyük Millət Məclisindəbir məsələ qaldırmışdı: **Siyasətdə Mövlanaçılıq.**

Amma pis təklif deyil,..(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 43-45)

Düşüncə ağıla sığan şeylər üçündür. Ağıl isə məhduddur vəsərhədləri bəllidir.Eşq isə könülə sığanşeylərüçündür.Könülisə sonsuzvəsərhədsizdir.Könlünə etimad edənin ağıla və məntiqə ehyiyacı yoxdur.Arifbirtəközünə hökmedə bilməyiböyükqələbə hesabedir.Zahidisə yüzminlərüzərindəkinüfuzunuyetərsiz bilir.Çünki öz könlündən xəbərsizdir. Hökm etdiyi milyonlar isə onainanmır.İnamağıldayox,könüldə olur.Zahidisə könlündəndeyil,ağlındançıxışedir.Belə olmasaydı,ürfanlaşəriətarasındakı uçurum bu qədər dərinləşməzdi.

Misal olaraq irfan şairi Seyid Nigarinin "Hu" rədifli qəzəlinə diqqət yetirək:

***Hu Saqiyə, Minasinə, meyxanəsinə hu,***
***Hu badəsinə, caminə, peymanəsinə hu.***

**Anlamı:***Dünyada olan hər bir şey özünün əlamətləri ilə Allahı nişan verir. Onun qüdrət və hikmətinə dəlalət edir. Belə ki, Haqq yolu göstərən saqi də "Allah" deyir. Saqinin süzüb təqdim etdiyi həqiqət şərabıda ilahi məhəbbət bəxş edir. Ulu Yaradanın Camal və Cəlal təcəllisi olan və irfanda adına "Meyxanə" deyilən kainatda bütün varlığı ilə o əlçatmaz, ünyetməz qüvvədən soraq verir.*

Lakin bütün bunlar küll halında və birdən-birə deyil, tədricən və mərhələ-mərhələ – "Badə"nin "cama", "camı"n isə "peymanə"yə çevrilməsi ilə baş verir.

***Rəqqasinə, dəvarinə, qəvvalinə, cümlə,***
***Huy hayunəhu, məclisi-şahanəsinə hu.***

**Anlamı:***Kainat özünün daima hərəkətdə olan göy cisimləri ilə sanki bir sufi kimi rəqs edir. Mürid mürşidinə çatmaq üçün can atdığı kimi, planetlərdə, kainatın hökmdarı və sahibi olan böyük Allahın*

*dərgahında qurulmuş şahanə məclisdə iştirak edə bilmək üçün vurnuxur.*

***Sazəndəsinə, cənginə, ahənginə hu, həm,***
***Hu zümzüməyi-sazinə, suzanəsinə hu.***

**Anlamı:***Kainatda əzəli-əbədi bir harmoniya, bir uyarlıq mövcuddur. Bu, səlis bir musiqini xatırladır, yada salır. Ötəri deyildir ki, şair beyti səs, avaz,nəfəs istilahları üzərində qurmuşdur. Sazəndə, cəng, ahəng, zümzümə, saz sözləri buna parlaq bir misaldır.*

***Sərməstinə, bihədd şərabxarinəbi pa,***
***Məczubinə, məcnuninə, tərzanəsinə hu.***

**Anlamı:***Bir tərəfdə dayanan və ilahi qüdrət nişanələrindən məst olan mürşid də, başqa bir cərgədə dayanan və hələ ilkin şəriət hökmləri ilə kifayətlənən mürid də o bir olan Allahı səsləyir.*

Cəzbetmə, ilahi fəlsəfə və tək tövhidə qail arif, bunların hər hər biri "O Allah dərgahında hər şey müəyyən ölçüdədir" ("Ər-rəd"–8) və "Allah hər şey üçün müəyyən bir müddət təyin etmişdir" ("Təlaq"–3) ayələrinə uyğun olaraq, dərəcə baxımından bir-birindən fərqlənirlər.

***Ol məcməi-nuraniyi, ol məclisi-xasin,***
***Hu şəmi-cigərsuzinə, pərvanəsinə hu.***

**Anlamı:***İnsan bəndəlik məqamına yüksələ bilsə, kainat onun üçün bir nur məclisinə çevrilər. Bu isə yalnız niyyəti xalisləşdirməklə baş tutar.*

Xalisləşmə isə pərvanənin şama bəslədiyi dərin məhəbbət üzərində qurulmalıdır. Yəni pərvanə şəmin başına fırlandığı kimi, əsl (həqiqi) bəndədə ilahi qüdrət və hikmətin əlamətləri ətrafında dövr etməlidir. ("Fəcr"–29,30).

***Şirini-şəkərxasinə, leylasinə hərdəm,***
***Fərhadinə, şeydasinə, divanəsinə hu.***

**Anlamı:***Bu deyimlər məhəbbətə dünyəvi eşq ilə daşlayanlara da aiddir. Yəni Şirin, Leyli, Fərhad, Məcnun yalnız mərhələ-mərhələ inkişaf edərək ilahi mərifət zirvəsinə ucalmışdır.*

***Səhpakeşinə, rindeyi-biarinə rəhmət,***
***Meyxarinə, huşyarinə, məstanəsinə hu.***

**Anlamı:***İlahi məhəbbət elə güclüdür ki, o, əsl aşiqə, hətta dinin zahiri cəhətlərini belə unutdurur. Yəni yəqinlik əldə etməklə haqqa qovuşan, həqiqətə çatan kimsəyə şəriətin zahiri hökmləri bir elə də gərək olmur.*

Odur ki, şair bu beytdə cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinə işarə edir.

***Çün oldu halal, əhli-həqqə badeyi-məna,***
***Məna sözünü anla nədir, eyləmə dəva.***

**Anlamı:***Beləliklə aydın olur ki, bütün bunlar məna şərabından bəhs edir. Odur ki, "məna" sözünün batini qatına enə bilən arif kimsə əsla (heç vaxt) yuxarıda adı çəkilən obrazlarda qeyri-islami cəhət axtarmaz.*

Şəriət əhliüçünAllahınyaratdıqlarıvə Onuntəcəllası yoxdur.Onlartəcəllanıbəzənnamümkün,həttaküfrhesab edirlər. Həqiqi və cürətli təcəlla isə, yalnız eşqin kitabındadır.

Şəriət əhli Allahın 99 Əsmaül-Hüsnasını az hesab edirlər və bu məsələdə yerdən göyə qədər haqlıdırlar.

Eşq əhlinə isə bir kəlmə **"HU"** bəs edir. Elm qal mənbəyidir, eşq hal. Qal idrakda, hal könüldədir. Ağılkəsrətolduğuüçünhəqiqəthaqqındakıbiliklərparçalanır. Həqiqət vəhdətdədir, vəhdət könüldə.

Həzrət Əli (ə) mübarək hədislərinin birində buyurur: **"Allahın zatı haqqında düşünən zindiq olar"**.

Bu din (və bütün dinlər) məhəbbət dinidir. Qanun və ehkamyığıntısı deyil. Biz ərəblərin, bizə "əcəm" deyərək ixrac etdikləridinadlanandəbilqəninaltındacanverməküzrəyik!(bunadey ərlərhəyəcansiqnalıyoxsa"din əldəngetdi,qoymayın,millət kafir oldu" bunlar hamısı boşboş şeylərdir). Din bizimdir...Amma ərəbdövlətçiliyitarxi bizimdeyil.**Dinbizimdir...Ammaİranşiəliyibizimdeyil.MənİmadəddinNəsiminintəqdimetdiyiHəzrətiMühəmmədisevirəm!O.Hərramağarasında"Hu!"deyərək,özündəngedənaşiqdir.MənXətaininvəsf etdiyi Əlini sevirəm! O Əli ki, mənə 4-cü xəlifəolaraq lazım deyil!**

Bu millət nə qədər əlləşsə də, özünü nə qədər məcbur etsədə şəriət dindarı ola bilməyəcək. Başa düşün, ərəbin Mövlanası,Xətaisi yoxdur. Buna görə də onun yeganə sərmayəsi ehkam vəqanundur. Ərəbin 1400 ildən bəri təbliğ etdiyi İslam deyil, ərəb dövlətçiliyi, Əbu Süfyan əşirətçiliyidir! Bunlar bizə lazımdırmı?!

Biz niyə xəlifələrin çarpışmasını özümüzə məşğuliyyət eləmişik?

Bəli, Nəsiminin "gördüyü" (sözü dırnaq içinə aldım ki, birazdüşündürsünbizi)Peyğəmbərmənimdir.Ammaözünü"xələfi" (ya da "sələfi") adlandıran vəhhabinin dediyi kimi, xristiana verdiyi (guya səhv olaraq) salamı geri istəyən Mühəmməd(adı könlümün tacı olsun!) mənim deyil! Çünki mənim övliyam,Mövlanam, Nəsimim, Aşıq Ələsgərim özünə nə sünni, nə də şiədedi.Onlar Həqqaşiqləriidilər!

Bu fəsli M.P.Vaqifin ustadnamələrindən bir beytlə tamamlayırıq:

*Mətlubum istərəm Şahi-Heydərdən,*<br>
*Sahibi-Zülfüqar, Şahi-Qəmbərdən,*<br>
*Biçarə Vaqifi salma nəzərdən,*<br>
*Qul xətasız olmaz, ağa kərəmsiz!*

# V fəsil

*Ey nuri-səmavatü zəmin, gərçi nihansan,*
*Amma nəzərü-arifü danadə əyansan.*

*Batin gözünün yox səni görməkdə qusuri,*
*Zahir gözü görməz səni, əlbəttə nihansan.*

*Zatın eləyib cümleyi-əşyadə təcəlla,*
*Musa gözünə Turi-həqiqətdə əyansan.*

*Bir Adamü İsadə deyil nəfxeyi-ruhun,*
*Aləm hamı qalibdi, sən ol qalibə cansan.*

*Kəssən nəzəri-feyzini bir ləhzə cahandan,*
*Nabud olur aləm, sən ona ruhi rəvansan.*

*Gəh badi-səba tək verisən gülşənə rövnəq,*
*Gəh soldurusan gülləri, sən badi-xəzansan.*

*Sən qaimi-bizzatsən, aləm hamı bilqeyr,*
*Xəllasi-səmavatü zəmin, kövnü məkansan.*

*Min bir adının hər biri bir aşiqə munis,*
*Tapmaz səni bir kəs, yenə binamü nişansan.*

*Ey Seyidi-pir, eylə meyi-vəhdətə rəğbət,*
*İstərsən əgər olmağa həmvarə cavan, sən.*

## QURANİ-KƏRİMDƏ VƏ HƏDİSLƏRDƏ ŞAİRLƏRƏ MÜNASİBƏT

*"Şüəra" surəsini bil, sonra şairlik elə,*
*Ey qələm sahibi, nəzmindəki mənzur nədir?*[84]

Qurani-Kərimin 114 surəsindən biri də "Şüəra" ("Şairlər") surəsidir. 227 ayədən ibarət olan "Şüəra" surəsinin son 4 ayəsi məxsusən şairlər haqqındadır. Cahiliyyət dövründə kafirlər Qurani-Kərimi Peyğəmbər (s) düşüncəsinin məhsulu, Peyğəmbəri (s) isə şair adlandırırdılar. Bu zaman "Şüəra" surəsinin bu ayələri nazil oldu: "(İslam Peyğəmbəri şair deyil, çünki) şairlərə azğınlar tabe olur. Görmürsənmi, onlar hər vadidə avara dolanır, danışdıqları sözə əməl etmirlər"[85].

Bu ayələrdən aydın olur ki, şairlər məqsədsiz dolanır və öz dediklərinə əməl etmirlər. Amma Peyğəmbər (s) belə deyil, onun sözü ilə əməli arasında olan uyğunluq şair olmamağının göstəricisidir.

"Ya-Sin" surəsinin 69-cu ayəsində də Allah-Təala buyurur: ***"Və biz ona (Yəni Muhəmmədə) şeir öyrətmədik və şairlik onun məqamına heç yaraşmazdı. Lakin bu kitab öyüd nəsihət və açıq-aşkar bəyan edən Qurandır".***

Məşhur təfsir alimi Beyzavinin təfsirindən belə aydın olur ki, bu ayələrin ("Şüəra", 224-226) nazil olmasının səbəbi cahiliyyət dövründə şairlərin öz şeirlərində daha çox təxəyyüllərə, gözəl qadınların vəsfinə, eşq macəralarına, yersiz iftixarlara, söyüşə və başqalarının abır-həyasına təcavüzə yer verilməsi olmuşdur. Rəvayətdə oxuyuruq ki, cahiliyyət dövrünün ən düzgün şeiri bu idi:

---

[84] Vüqar Nakam.
[85] "Şüəra" surəsi, 224-226-cı ayələr.

***Haqdan savay hər nə batildir bil sən,***
***Gec-tez çıxasıdır hər nemət əldən.***

"Şüəra" surəsinin 227-ci ayəsində Allah-Təala ***buyurur: "Yalnız iman gətirib saleh işlər görən, Allahı çox yada salan, zülmə düçar olduqdan sonra (müdafiə üçün) yardım istəyənlər istisnadırlar (Zülm edənlər tezliklə biləcəklər ki, qayıdış yerləri haradır)".***

Nəql olunur ki, bu ayələr nazil olduğu vaxt şairlərdən bir dəstəsi nigaran olub, narahat halda Peyğəmbərin (s) hüzuruna getdilər. Peyğəmbər (s) buyurdu: ***"Mömin qılıncı və dili ilə cihad edər".***

Bu ayədən və Peyğəmbərin (s) hədisindən məlum olur ki, iman gətirib saleh işlər görən, haqqa riayət edən şairlər təriflənir. Hədisdən də aydın oldu ki, haqqın müdafiəsinə həsr olunmuş yaxşı şeir (rəvayətlərdə) nizə və cihaddan üstün sayılmış və mədh olunmuşdur.Həzrət Peyğəmbər (s) buyurub: ***"Şeirlərin bəzisi sehr kimidir, bəzisi hikmətdir".***

Digər bir rəvayətdə oxuyuruq: "Həzrət Peyğəmbər (s) səfərlərinin birində mübariz şair Həssan ibn Sabiti çağırıb ondan şeir oxumasını istədi. Həssan oxudu və Peyğəmbər (s) dinlədi. Sonra Peyğəmbər (s) göstəriş verdi ki, məsciddə Həssana xüsusi yer ayrılsın".

Məşhur "Qədir-Xum"günündə Peyğəmbərin (s) vilayət barədə buyurduğu xütbəni Həssan ibn Sabit nəzmə çəkdi və Həzrət Əlinin (ə) canişinlik məqamını şeir dili ilə Qədir-Xumda olan insanlara çatdırdı. Həssanın Qədir-Xumda dediyi şeir Peyğəmbəri (s) valeh etdi. Peyğəmbər (s) buyurdu: ***"Ey Həssan, nə qədər ki, dilinlə haqqın müdafiəsində dayanıbsan, Ruhul-Qüdus (Həzrət Cəbrayıl (ə)) tərəfindən qorunacaqsan".***

İmam Sadiq (ə) da öz yaxınlarına buyurmuşdur: ***"Uşaqlarınıza Əbdinin şeirlərini öyrədin, o yaxşı şair və bizim məzhəbimizdəndir" (tərəfdarlarımızdandır).***

Bu hədislərdən aydın olur ki, Peyğəmbər (s) və İmam Sadiq (ə) yaxşı şeiri hikmət adlandıraraq onlardan istifadə etməyi tövsiyyə

edir. Lakin Peyğəmbər (s) dərəcə etibarilə şairdən üstün olduğu üçün Ona vəhy (gizli səs, pıçıltı) nazil olur, şairə isə ilham gəlir. Çünki Peyğəmbər (s) ən yüksək məqam olan nübüvvət (Peyğəmbərlik) dərəcəsinə yüksəlmişdir. Ustad Nizami Gəncəvi də bir beytində demişdir: "Tanrı insanları yaradanda Peyğəmbərləri ilk cərgədə, şairləri ikinci cərgədə qərar verdi".Dahi M.Füzuli buna işarə edərək yazır:

***Ol düri-dürci, "ənə-əfsəh" ki, hikmət dayəsi,***
***Şer şəhdilə ləbi-canpərvərin tər qılmamış.***
***Şer bir zirvədir, amma biz kimi naqislərə,***
***Ol ki, kamildir, onu möhtaci-zivər qılmamış.***

M.Füzuli deyir ki, Peyğəmbər (s) kamil insan olduğu üçün Allah şeir deməyi onun şəninə yaraşdırmır. Amma Peyğəmbər (s) dinin, əxlaqın, paklığın və yüksək amalların təbliğində şeirin gücünü çox gözəl bilmiş, şeirə və şairə yüksək dəyər vermişdir. Peyğəmbər (s) xalqı bütpərəstliyə və əxlaqsızlığa dəvət edən Hübeyrə ibn Vəhəb, Üməyyə ibn Əbis-səlt kimi şairləri pisləmiş, haqqın keşiyində dayanan, əməli-saleh olan Həssan ibn Sabit, Kəb ibn Malik, Abdullah ibn Rəvahə kimi şairləri tərifləmiş və onlara ehtiram göstərməyi tövsiyə etmişdir.

***Şair odur ki, onun qəlbində Həssan kimi,***
***Nəfxeyi-Ruhüləmin eyləyə ilqayi-süxən!***

Peyğəmbərin (s) səhabələri arasında da şeir deyənlər olub. Peyğəmbərin (s) elm qapısı adlandırdığı, möminlər ağası Həzrət Əli (ə) gözəl təbə malik bir şair idi. Həzrət Əlinin (ə) "Divani-Əmir"i ərəb aləmində, bir sözlə Şərq dünyasında parlaq ulduz tək bu günə qədər nur saçır.

***Görmədim bir varlıq Allahdan gözəl,***
***Nəhayətsiz axır, əvvəlsiz əzəl.***

*Sən əgər verməsən ilham, təfəkkür,*
*Nə bir şair olar, nə mütəfəkkir[86].*

## BABA TAHİR ÜRYAN:
## ONU BƏYƏNDİM Kİ, ALLAH BƏYƏNDİ

*Yeki dərdo, yeki dərman pəsəndəd,*
*Yeki vəslo, yeki hicran pəsəndəd.*
*Mən ze dərmano, dərdo, vəslo, hicran,*
*Pəsəndəm an çera canan pəsəndəd.*

*(Birisi dərd, biri dərman bəyəndi,*
*Biri vüsal, biri hicran bəyəndi,*
*Mən dərman, dərd, vüsal, hicran arası,*
*Onu bəyəndim ki, canan bəyəndi.)*

Əfsanələrə görə Baba Tahir adamlardan uzaq qaçmış, Əlvənd dağının başı qarlı zirvələrində tənha yaşamışdır. Əlvənd – Həmədan şəhərinin cənubunda yerləşən bir dağın adıdır. Yazılanlara görə bu dağın ətəyində on iki min çeşmə vardır. Bəzi qaynaqlarda, o sıradan elə Baba Tahirin dübeytlərində də bəzən adı Əlvənd dağı kimi işlənib. Bu dağın hündürlüyü 3746 metrdir. Baba Tahir bu dağın barəsində bir dübeytisində belə deyir:

*Çağırsan, ya qovsan özün bilərsən,*
*Qəminlə yandırsan neyləyərəm mən?!*
*Başıma aşırtsan Əlvənd dağını,*
*Dinməm, Tanrın bilər, bir də, gülüm, sən.*

[86] La Ədri (yəni naməlum)

Başqa bir əfsanəyə görə isə savadsız odunçu olan Tahir bir dəfə mədrəsəyə gəlir, şagirdlərdən oxuduqlarını necə yadda saxladıqlarını soruşur. Onu məsxərəyə qoymaq məqsədi ilə səthi buz bağlamış hovuzu göstərib deyirlər ki, hər gün burada çimirik və ona görə də bütün biliklər beynimizə həkk olur.

Tahir bütün deyilənlərə inanır və bir gecə mədrəsənin həyətinə gəlib hovuzun üzünü tutmuş buzu sındırır, başını suya salıb-çıxartmağa başlayır. Guya bu zaman səmadan qopan bir parça nur onun ağzına girir. Sabahı gün mədrəsəyə gələn Tahir hamını öz elmi, savadı ilə valeh edir. Dünənki yazı-pozu bilməyən odunçunun bu gün belə yüksək kamala necə yetdiyini Tahirdən soruşanda deyir: «Əmseytu kordiyyən və əsbəhtu ərəbiyyən». «Kürd gecələdim, ərəb oyandım». Bu məşhur bir məsəldir. Orta əsrlərdə «kürd» kütlüyün, «ərəb» isə bilikliyin rəmzi sayılırdı. Baba Tahirin əvvəllər savadsız odunçu, sərgərdan dərviş olması haqda fikirlərlə barışmayan Y.E.Bertels yazır ki: «Görünür Baba Tahir gəncliyində hələ təsəvvüfdən uzaq imiş və elmi fəaliyyətlə məşğul olurmuş. Sərgərdanlığa isə sonralar başlamışdır».

Bu hal Baba Tahirin sələfi, müasiri və xələfi olmuş bir çox şairlərin həyat və yaradıcılığı üçün də xasdır. Məsələn, Əbu Həmid Muhəmməd İbn Muhəmməd Qəzali (1058-1142), Abdulla Ünsüri və s. əvvəl müxtəlif elmlər sahəsində tanınmış, dərvişliyə, sufiliyin təbliğinə isə sonralar başlamışdır.

İranda xalq içində Baba Tahirin savadsız olması haqda əfsanələr indi də yaşamaqdadır. Anadangəlmə kor, savadsız olan 130.000 beyt şeir yazan məşhur tacik şairi Əbu Əbdullah Cəfər ibn Muhəmməd Rudəkinin (860-941) və Aşıq Ələsgərin yazı-pozudan xəbərsizliyi haqda söylənilən rəvayətlərlə, Baba Tahir yaradıcılığı arasında yaxınlıq görünməkdədir.

Əlbəttə, belə əfsanələrin yaranması təsadüfi deyil. Xalq, şairliyi həmişə vergi kimi qiymətləndirib. Lakin aydındır ki, müəyyən nəzəri hazırlıq keçmədən məşhur söz ustadı kimi tanınmaq

mümkün deyildir.

Baba Tahirin şeirlərindən əlavə «Kəlimətu-qisar» («Qısa hikmətlər») adlı fəlsəfi traktatı da bugünümüzə qədər gəlib çatmışdır. Elm, mərifət, ilham və fərasət, əql və nəfs, dünya və üqba və s. kimi 23 fəsildən, 368 aforizmdən ibarət olan bu traktat ərəb dilində yazılmışdır.

Şübhəsiz ki, belə bir əsərin müəllifi təsəvvüfün nəzəri əsaslarına dərindən yiyələnmiş bir şəxs ola bilərdi. Baba Tahirin « Kəlimətu-qisar»ına ilk şərhi Eynəlqüzzat Miyanəci yazıb. Belə bir böyük filosofun « Kəlimətu-qisar»a diqqəti, Baba Tahirin o dövrün elmaləmindəki nüfuzu və əsərinin dəyərliliyindən xəbər verir. Sonralar Baba Tahirin risaləsinə daha beş şərh yazılmışdır. Hacı Molla Soltanəli Qunabadi (fars və ərəbcə), İmad ül-füqəraHacı Mirzə Möhsün Müdərris (farsca), Mir Seyid Həmədani (ərəbcə), xətub Vəziri Maliki (ərəbcə) Baba Tahirin hikmət və ürfan dolu kəlmələrinə müfəssəl izah, təfsir və şərhlər yazmışlar. Lakin Eynəlqüzzatın şərhi elmi sanbalı ilə, təbii ki, o biri şərhlərin hamısını üstələyir. Bu şərh bir azərbaycanlı klassikin yadigarı kimi də bizim üçün əhəmiyyətlidir.

Bir para qaynaqlarda Eynəlqüzzat Miyanəci Həmədani Baba Tahirin şagirdi kimi qələmə verilir. Bu, doğru deyildir. Eynəlqüzzat Abdulla ibn Muhəmməd 492-ci hicri (1099-cu miladi) ilində Azərbaycanın Miyanə şəhərində doğulmuş, 525-ci ildə (1131) dərs dediyi mədrəsədəcə edam edilmişdir. Göründüyü kimi, Eynəlqüzzat Baba Tahirdən sonra yaşamışdır.

Paris milli kitabxanasında «Sərəncam» adlı bir əlyazması saxlanılır. «Əhli-həqq» təriqətinin müəyyən baxışlarını, müxtəlif rəvayətləri əhatə edən bu kitabı vaxtilə V.Minorski rus dilinə çevirmişdir.

«Sərəncam»ın bir neçə səhifəsi Baba Tahirə həsr edilmişdir. Başqa fəsillərlə məzmunca az bağlanan bu hissədə Baba Tahirin dünya şahı ilə görüşü təsvir edilir. Şahla Baba Tahirin dialoqu

şeirlər üstündə qurulmuşdur.

Dünya şahı ilə Baba Tahirin görüşü haqqnıdakı rəvayət şairin Sultan Toğrulla qarşılaşması barədə Ravəndi hekayətini xatırladır. Ola bilsin ki, elə «Sərəncam»dakı rəvayət real hadisənin «Əhli-həqq»çilər tərəfindən bir qədər mifikləşdirilmiş şəklidir.

Baba Tahir haqda dediklərimizə bunu da əlavə edək ki, əfsanələr onun Güllü adlı sevgilisi, Bibi Fatimə, ya Fatimə Ları adlı bacısı olduğundan xəbər verir. Vaxtilə A.Qobino «Üç gün Asiyada» adlı əsərində də Baba Tahirin Bibi Fatimə çağırılan bacısından söz açmışdır. «Əhli-həqq»çilər barədə dəyərli məlumat verən «Sərəncam» əlyazmasında da Bibi Fatimədən bəhs edən maraqlı epizodlar var. Xalq içərisində dolaşan əfsanələr və dübeytilərdən aldığımız biliklər Baba Tahirin yaxşı səsi olmasından və musiqi alətlərində çala bilməsindən soraq verir. Dördlüklərdə tez-tez çəng, tənbur, rübab, ney kimi musiqi alətlərinin adı çəkilir. Bəlkə də Baba Tahir sadəcə şair deyil, həm də xalq nəğməkarı olmuş və dübeytilərinin xeyli hissəsi elə təğənni məqamında, avazla oxunma zamanı yaranmışdır. Maraqlıdır ki, İran və Azərbaycan muğamında – «Şur» dəstgahında «Baba Tahir» adlanan bir şöbə vardır. Tarixən muğam şöbələrində adlar ya onların yarandıqları yerə görə, ya da xarakterik xüsusiyyətlərinə əsasən verilib. Yalnız nadir hallarda şöbələr məşhur yaradıcılarının adı ilə ünvanlanıb. Bu baxımdan «Şur»dakı «Baba Tahir» şöbəsi böyük maraq doğurur. Baba Tahirin müraciət etdiyi bəhr-həzəc «Şur»a uyğun ölçülərdəndir. Bundan başqa «Şur» muğamının həzinliyi ilə Baba Tahir dübeytlərinin kövrək ruhu yaxşı səsləşir. Sanki dübeytlərin əksəri məhz «Şur»da təğənni üçün yaradılıb. Sonsuz lirizmi, qəmli ahəngi ilə seçilən «Bayatı kürd» muğamında da «Baba Tahir» şöbəsi var. Bu muğamda «Baba Tahir» şöbəsi «Bayatı-kürd»dən «Azərbaycan» şöbəsinə keçilərkən çalınıb oxunur. Baba Tahirin hələləik elmə bəlli olan poetik irsi dörd yüzdən artıq dübeyti və bir neçə qəzəldən ibarətdir:

***Hansı bağda xurma olsa sərbədər,***
***Bağbanın könlünü kədər, qəm dərər.***
***Biryolluq kökündən çıxartmaq gərək,***
***Meyvəsi olsa da lap ləli-gövhər.***

**Anlamı:***Xurma ağacı Baba Tahir şeirində tez-tez görünən obrazlardandı. Xurma haqqında Nəsrəddin Tusi "Əxlaqi-Nasir" əsərində yazır: "Xurma ağacında heyvanlara xas bir neçə xüsusiyyət vardır. Onun tənəsində (gövdəsində) elə bir yer tapıblar ki, heyvanların ürəiyndə olduğu kimi, burada da həyat istiliyi çoxdur. Ürəkdən qan damarları çıxıb bədənə yayıldığı kimi, buradan da şaxələr çıxıb ətrafa yayılır. Sanki mayalanma, barlanma burada baş verir. Barlanma vaxtı onun qoxusu döllənmə zamanı heyvan nütfəsinin verdiyi qorxuya oxşayır. Başqa canlılıar başı kəsiləndə, ürəkdən yaralananda, suda batanda necə olursa, xurma ağacı da bəzi cəhətlərdən elə olur".*

Kənd təsərrüffatı mütəxəssisləri xurma ağacında başqa xüsusiyyətlərin də olduğunu demişlər. Bunların ən maraqlısı onun yalnız bir ağaca meyl göstərməsi, başqa ağacdan mayalanmamasıdır. Bu, başqa heyvanlar, xüsusilə də,arasında olan eşq və məhəbbət hissinə oxşayır. Xurma ağacının buna oxşar başqa xüsusiyyətləri də çoxdur. Xurmanın heyvana çatması üçün yalnız bircə şey qalmışdır. Yerindən qalxıb yemək ardınca düşməsi. Buna görə Peğəmbərdən (s) nəql edirlər ki, Peyğəmbər (s) buyurub: ***«Xurma insanın bibisidir. Öz bibiniz xurma ağacının qədrini bilin».*** Behişt meyvələrindən sayılan və seçilən xurma ağacının canlı xüsusiyyətləri Baba Tahirin bir sıra dübeytlərində əks olunmuşdur.

Son olaraq Baba Tahir Üryanın bir neçə rübaisini oxuculara təqdim edirik:

***Tanrım yet dadıma eylərəm imdad,***
***Mən təki kimsəsiz bir Sənsən fəqət.***

*Hamı deyir, Tahir kimsənəsizdir,*
*Tanrım var özgəyə daha nə hacət.*

***

*Qaşları Bismillah, üstündə məddi,*
*Gözlər "sad", dişlər "sin", "əlif"dir qəddi.*
*Qamətin andıqca "əlif" söylərəm,*
*Oxuduğum gündən dərsi-əbcədi.*

***

*Başına tac qoysan ən saf qızıldan,*
*Padişahlıq edib keçirsən dövran,*
*Süleyman mülkünə sahib də olsan,*
*Sonu bir heçlikdir, ölümdür inan.*

***

*Saçında gizlənib Leylətül-Qədr,*
*Üzündə canlanır çöhreyi-bədr.*
*Gözəl camalından niqabı çəkcək,*
*Zahir oldu bizə mətləül-fəcr.*

***

*Gəl bir dəm sızlayaq, alışıb-yanaq,*
*Sən də mən dərddəsən birgə odlanaq.*
*Toya getməlisən mənim yanımda,*
*Ey bülbül! Dərd-qəmdir mənə yaşamaq.*

***

*Dilbərin torunda ürək mübtəla,*
*Hicranı da bəla, vəsli də bəla.*
*Qisməti bu imiş demə qəlbimin,*
*Kərbəla düzü tək daim qan ola.*

***

*Həqiqət yolunu azmaqdan usan!*
*Bəsdir əsir etdi nəfsini şeytan.*
*Qədrin hurilərdən artıqdır mənə,*
*Heyf, sən özünə qiymət qoymursan.*

***

*Dünya bir süfrədir, adamlar mehman,*
*Bir üzü bahardır, bir üzü xəzan.*
*Qara çixir qazıb məzar dedilər,*
*Bizə o dar yataq oldu xaniman.*

***

*Məni layiq bilib oxumayırsan,*
*Aşiqlər kitabı içrə, ey canan.*
*Min yol oxusan da, yenə az olar,*
*Sonsuz bir ümmandır eşqindən bu can.*

***

*Könlümə yetişən kədərdi, qəmdir,*
*Bağımda açılan gülü-matəmdir.*
*Qəlbimin hasilsiz biyabanında,*
*Bir tikan da bitmir, əcəb aləmdir.*

***

*Nərgizdir səndəki o şəhla gözlər,*
*O ləl dodaqların qönçəyə bənzər.*
*Şümşada, ya sərvə baxarsam, onlar*
*Qəddini yadıma salar, ey dilbər!*

***

*Bülbültəkolmuşam gülün heyranı,*
*Gəlin, seyr eyləyin bu yazıq canı.*
*Göz yaşım al rəngli ərğəvan sayaq,*
*Mən bir ağacam ki, barım qəlb qanı.*

***

***Yaş olub gözümə, dolan da sənsən,***
***Ağlımı başımdan alan da sənsən.***
***Gözəl Leyli təki Məcnun eyləyib,***
***Məni səhralara salan da sənsən.***

***

***Qəlbim qırıqqanad bir quşa bənzər,***
***Gəmitək sahildə atıbdır lövbər.***
***Tarı dilə gətir, deyirlər, Tahir,***
***Necə səs çıxartsın qırılmış simlər.***

## ÖMƏR XƏYYAM YARADICILIĞINDA"MEY"

***Şərab bizdən məst oldu, biz ondan deyil,***
***Varlıq bizdən var oldu, biz ondan deyil.***
Mövlana Cəlaləddin Rumi

Şərqin ən böyük dühalarından biri olan Ömər Xəyyam orta əsr Müsəlman İntibahının görkəmli nümayəndələrindən biri, mükəmməl rübailərmüəllifi olub. Xəyyam adıçəkiləndəhər kəsdəilk növbədə qəribə bir sirli təbəssüm yaranır. Qəribədir ki, insanlar onun haqqında nə qədər az bilsələr də bu adı hamı bilir. Hətta, ən bilikli adamlar beləÖmər Xəyyam adını təbəssümlə xatırlayır. Nədir bu adın sirri?

***Meyxanəyə girəndə mən,***
***Alqışlannam yerbəyerdən.***
***Ayıqlarçün mən sərsəməm,***
***Sərsəmlərçün peyğəmbərəm.***

Bu məşhur rübaini bilməyən yoxdur. ÇoxlarıÖmər Xəyyamı gecə-gündüz sərxoş olan və bunu təbliğ edən şair hesab edir. Ömər Xəyyamı elm əhlifilosof, hal əhli – şair, əyyaşlar sərxoş,mövhumatçılar – kafir, sovet elmi isə ateist hesab edir.

Əslində kimdir Öməribn İbrahim Xəyyam Nişapuri?

XI əsr fars-tacik ədəbiyyatının tanınmış simalarından olmuşÖmər Xəyyamı dövrünün ensklopedik biliyə sahib filosoflarından hesab edirdilər.Onun Əbu Əli ibn Sinanın şagirdi olduğunu söyləyənlər iddia edirlər ki, Xəyyam digər elm sahələrindən daha çox tibbi bilik və bacarıqlara sahib imiş. Zamanında şeir yazmasa da onu şair hesab edirdilər. Fəlsəfəni, riyaziyyatı, astronomiya və nücumu,tibbi olduqca yaxşı bilməsiona dövrünün ən qabaqcıl ziyalıları cərgəsində dayanmaq imkanı verirdi. Müasirləri bildirirlər ki, Xəyyam şeir yazmazmış. Onun bütün yaradıcılığı elmi ədəbiyyatdır. Dövrünün mükəmməl filosoflarından olan Nizamülmülkün tələbəsi olması Xəyyama siyasətdən yaxşı başçıxarmağa imkan verirdi.

Beləliklə, Xəyyamın hər hansı bir sahədə mahir olduğunu söyləyirlər və mən bunda heç bir qəribəlik görmürəm. Çünki, insanlar iki cür doğulur. İstedadla və istedadsız. Dünyaya istedadla gəlmiş insan nə ilə məşğul olsa da orada müvəffəqiyyəti olur. Bu o demək deyil ki, o, xoşbəxtdir. Bacarıqlı və istedadlı insanlarkütlənin yükünüçiyinlərində daşımaq məcburiyyəti ilə yaşayırlar. Allah insanı istedadlı yaratmışsa onu bu dünyaya missiya ilə göndərmişdir. Tanrının onun çiyninə yüklədiyi yükdən imtina edə bilməz insan. Xəyyam bu insanlardan idi. Bəzən bu yükün altında dizləri əsən Xəyyammühitinin bütün çirkinliklərindən yorulub bezər, ruhunu qayğı vəəzabdan azad buraxmağa çalışardı.

Xəyyam şeir və nəzmlə məşğul olmamışdır. Ruhunu mənən qidalandırmaq, onu adi məişət qayğılarından kənarda tutmaq

istədiyi vaxtlarda rübailər yazmışdır. Bu rübailər də sandıq ədəbiyyatı idi. Onun dövründəşairlik vəşeir yazmaq ciddi iş hesabedilmirdi. Buna görə də Xəyyamın rübailəri sağlığında o qədər də yayılmamış, yalnız dildən-diləötürülərək əzbərlənənlər məşhur idi. Bu səbəbdən Xəyyamın hesab edilən çoxlu rübailəri mövcuddur. Onun rübailərinin sayı dəqiq deyil. Bəzən onun rübaisini başqasının adına çıxarırdılar və ya əksinə.

Yuxarıda deyildi ki, Xəyyamışair bilənlər və bilməyənlər belə onun meyə meylini rübailərindən gətirdiyi sitatlarla sübut etməyəçalışırlar. Buna cəhd edən adamlar Xəyyam qədər ciddi bir dövlət xadiminin meyə xitabını və onu silah etməsini izah edə bilməmişlər. Onun heç vaxt üzüm şərabına və sərxoşluğa marağı olmayıb.«Mey» onun üçün etiraz aləti idi. Mühitin həqiranə bərabərsizliyinə, çirkinlik vəədalətsizliklərinəüsyan vasitəsi idi «mey».

Biz Mirzə Cəlilin Ömər Xəyyamını Kefli İskəndərdə bir qədər fərqli formada görmüşük. Ondan fərqli olaraq Xəyyam islamı və fəlsəfəni yaxşı bildiyindən fikirlərini olduqca ustalıqla nəzməçəkərək rübai üslubunda cəmi dörd sətirdə olduqca həcmli fikri mükəmməl ifadə edə bilmişdir. Əslində Xəyyamın dahiliyi bundadır.

***Bu zamanda ağıl keçməyir işə,***
***Bilməz ağılsızlar kədər əndişə.***
***Ağlımıaparanmeyigətirki,***
***Fələkgülümsəsinmənəhəmişə.***

Fikirtamaydındır. Buradakafirliyi, asketizmi, materialistbaxışları, yaxudiçkidüşkünününbəraətiniaxtarmaqabsurddur. Ətrafımızdanbezibyorulduqdabusözühamımızdilimizəgətirmişik.

Dünyadakamilinsanüçünənböyükbəlanadanlığavənadanların qınağınadözməkdir.

Bunlarınçoxolduğumühitdəyaşayanəməlpərvərnəinkimeyiçmək, ölməkbeləistəsətəəccüblənmərəm.

*Eybiyox, bilməsəndinyaibadət,*
*Ancaqxəbisolubeyləməqiybət.*
*Heçkəsiincitməmənəşərabver!*
*Günahınboynuma, olsaqiyamət.*

Ömər Xəyyamın rübailərini oxuduqca onun bu rübailəri zamanında nəüçün gizlətdiyini anlamaq olur. Xəyyamın dili kəskin, sözü qəzəblidir. O, bu rübailərə görə cəzasız qalmayacağını bilirdi. Odur ki, onu anlamayacaq nadan ünsürlərin dilində hallanmaq istəmədi şair. Elm və biliyi onun ömrünün sonuna qədər nəcib bir insan kimi yaşamasını təmin etmişdir.

Bütün dahi adamlar kimi Ömər Xəyyam da ətrafı tərəfindən, xüsusilə cahillər tərəfindən başa düşülməmişdir. Hətta, bu gün Ömər Xəyyamı tədqiq edən tədqiqatçılar bəzən onun sətiraltı fəlsəfi fikirlərini başa düşməyərək rübailərdəki dərin mənanı aça bilməmişdir. Üstəik onu bəzən çox kobud təfsir etmişlər.

Ömər Xəyyamın və eləcə də digər arifvə aşiqlərin vəsf etdikləri ilahi meydəki rəmzlərivə gizli mətləbləri anlamaq üçün mərifət elmindən xəbərdar olmaq gərəkdir. Bu deyilənlərə sübut olaraq Həqqin övliyalarından olan Həkim Sənainin «Həqiqətül-həqiqət» (Həqiqət bağçası) əsərində məlumat verdiyi üzüm şərabı barədə bir neçə beytə diqqət yetirmək lazımdır:

*Dinə sadiq olan kəs şərabı neyləyir?*
*Çün bütü sərabı neyləyir?*
*Gecə yuxu, gündüz şərab içmək niyyəti*
*Sənin dinini, mülk və malını xarab edər.*
*Sənonadiniinivəəqliniverirsən,*

*O, sənəeybəcərlikvəyırtıcılıqverir.*
*Ölümünüfikirləşmirsənvəqəbrəzabındanqorxmursan.*
*Mənsəninkimibirqafilənədeyim?*

Üzüm şərabı barəsində Həkim Sənainin dediklərinin bir daha şahidi olduq. Əgər doğrudan da Ömər Xəyyam bu cür gün keçirmiş olsaydı irfan sahibi olan Həkim Sənai ona mənfi münasibət bəsləmiş olardı. Lakin Həkim Sənainin Ömər Xəyyama yazdığı bir məktuba diqqət yetirək: «Mən sənin sükut və səlabətindən (mətanətindən)heyrətdəyəm ki, məmləkətdə bu qədər hiyləgərlər, fırıldaqçılar olduğu halda sənin Zülfüqarın qınındadır. Ətrafında bu qədər fitnə-fəsad ola-ola sənin qəzəb taziyanən onlara dəymir. Bu sadiq aşiqin xahişi odur ki, bu məktub həkimlərin başçısına (yəni Ömər Xəyyama) çatdıqda, dərhal Heydər (Həzrət Əli(ə)kimi qalxıb, Zülfüqar dili və səlabət (qəzəb) taziyanəsi ilə onların niyyətini puç etsin. Qoy öz hiylələrinin rüsvalığından və fırıldaqlarının cəngindən xilas olsunlar…»

Aşiq və arif şəxs olan Həkim Sənai bir içki düşkününü, «həkimlərin başçısı» adlandırıb dilini Zülfüqara təşbih edərmi? Həqiqətül-həqiqət məsnəvisini yazan bir kəs badəpərəst bir kafirə «Heydər kimi qalx, məni və təhlükə altında olan heysiyytimi müdafiə et» - deyərmi? Deməli Xəyyamın rübailərində tərənnüm olunan «badə», «mey» və «şərab» tamam başqa bir şeydir. İlahi meyi üzüm şərabı kimi təfsir edənlər isə mərifət meyindən məhrum insanlardır. Xəyyamın rübailərindən birinə diqqət yetirək:

*Mən badə xurəm və leyk məsti nəkonəm,*
*Ellabeqədəhderaz-dəstinəkonəm.*
*Daniğərəzəmzemeypərəstiçebovət,*
*Tahəmçotoxiştənpərəstinəkonəm!*

**Anlamı:** *Mənbadəiçirəmamma, sərxoşluqetmirəm,*
*Qədəhdənbaşqabirşeyəəlatmıram.*
*Bilirsənmi, meyiçməkdənməqsədimnədir?*
*Səninkimixudpəsəndliketməməkdir.*

Digər bir rübaisindəÖmər Xəyyam meyə işarə edərək deyir:

***Mey xur ke, ze del kəsrəto qellət bebərəd,***
***V-əndişeye –həftadodomellətbebərəd.***
***Pəhrizməkon, zekimyayike, əzu***
***Yekcorexuri, həzarellətbebərəd.***

**Anlamı:** ***Meyiçki, ürəkdənçoxluqvəazlıqfikriniaparar,***
***Vəyetmişikimillətinqayğısınısəndənuzaqedər.***
***Eləbirkimyadançəkinməki, ondan***
***Birudumiçsən, minilləti (nöqsanı) səndənuzaqlaşdırar***

Başqa bir rübaisində İslam Peyğəmbərinə (s) sonsuz məhəbbətini bildirərək dostlardan ona salam yetirməyi rica edir və İlahi "mey"in halal olduğunu vurğulayır. Təəssüf ki, şəriət əhli İlahi "mey"i həmişə əqli aradan aparan şərab kimi başa düşüblər. Ömər Xəyyam bu rübaisində bu meyin insana zövqi-səfa verməsini vurğulayır:

***Məndən Muhəmmədə yetirin salam,***
***Hörmətlə baş əyin, söyləyin:- Xəyyam,***
***Soruşur: Nədəndir, şəriətində,***
***Turş ayran halaldır, şirin mey haram.***

Rübailərindən göründüyü kimi Ömər Xəyyamın içdiyi mey ilahi meyidir ki, qəlbəzövq və səfa verir. Bu meydən içən haqq aşiqidir ki, yetmiş iki millətin dava-dalaşına baş qoşmaz. Bu mey insanın qəlbindən xudbinliyi, riyanı və təkəbbürü aparar. Ömər

Xəyyamın rübailərində rast gəldiyimiz mey məvhumuna Sənai, Əttar,Nizami, Nəsimi, Sədi, Hafiz,Xətai, Füzuli, Seyid Əzim, Vahid və s. şairlərin yaradıcılığında da rast gəlirik. Bunlardan nümunə olaraq Nizami Gəncəvinin məsnəvisindən iki beytə diqqət yetirək:

***Mənim meyxanəmdən içərlər şərab,***
***Mənim sözlərimdən bağlarlar kitab.***
***Qızışıb coşduqca beynim şərabdan,***
***Gəldi səxavətə söz də bu zaman.***

Böyük filosof şair Nəsimi yaradıcılığına nəzər saldıqda görürük ki, şair dəvəhdət meyindən təmənna edir:

***Şöylə məstəm, ta qiyamət dəxi huşyar olmazam,***
***Çün məni vəhdət meyindən eylədi ol yar məst.***
***Rindü qəllaşəm, məqamım guşeyi- meyxanədir,***
***Gəlmişəm «Qalü bəla»dən aşiqi xummari məst.*** (Əraf surəsi. ayə172)
***Qəzəl ceyranının ovçusu Füzuli də bir qəzəlində***
***Kimihuşyargörsənsən, onavercami-mey, saqi,***
***Bihəmdillah, Füzuli, məstidirvəhdətşərabindən*** – deyir.

BöyükFüzuliyadigarıSeyidƏzimdə:
***Şərabi- «Əlbəlaülilvila»dənməstolanaşiq,***
***KeçərMənsurtəkcandan, bəlayi- dardankeçməz*** – «Allahınbəlasıonundostlarıüçündür» hədisininşərabındanməstolanaşiqHəllacMənsurkimicanındankeçər, ammadaraçəkilməkbəlasındankeçməzkimiifadəedir.

***İçmişikxumxaneyi «Əhbəbtü» camindənşərab,***
***Seyida, sərməstikən, aləmdəhuşyarolmuşuq*** – şairbubeytdədeməkistəyirki, bizinsanlarAllah –taalanın

«mənistədimki, tanınım, bilinim»küpündəkişərabcamındaniçmişik.

SeyidƏzimyadigarıƏlağaVahiddəözsələflərikimiyaradıcılığındailahimeydənsöhbətaçırvəözünündəbuşərabdanməstolmasıiləfəxredir:

***Biz Xərabət əhliyik, meyxanələrdən çıxmışıq,***
***Badələr nuş etmişik, peymanələrdən çıxmışıq.***

XX əsrin azman xanəndələrindən olan Hacıbaba Hüseynov baharın gəlişi ilə yazdığıqəzəlinin bir beytində Allahdan ilahi mey istəyir:

***Şərabi- biğəşin camın mənə lütv eylə, ey saqi,***
***Bütün istəklərim səndən o camın içrə bir cəmdir.***

Bu fikrin davamçıları barədə uzun-uzadı danışmaq olar, lakin məqalənin həcmi və formatını nəzərə alıb Ömər Xəyyamın «içdiyi» meyə qayıdaq.

Ömər Xəyyamın rübailərində haqsızlığa vəədalətsizliyə barışmaz bir üsyan aşkar bilinir. Bəzən hətta, əməlpərvər şair o qədər asi olur ki, fələyin özünə beləüsyan edir:

***Ey fələk, halımı eyləmədin saz,***
***Bir gün eşitmədim səndən xoş avaz.***
***Nə deyim sənintək gəcrəftara mən,***
***Verdiyinbirsevincyüzdərdsizolmaz.***

Ömər Xəyyamın bir rübaisi ilə sözümü tamamlamaq istəyirəm:

***Bilməsəm dəəsla nədir ibadət,***
***Günahkar olmağı etsəm də adət,***

***Ümid kəsməmişəm kəramətindən,***
***Çünki doğruluğu etmişəm sənət –***

Bu rübaidən aydın olur ki, şair nəyə baxmayaraq vicdanı qarşısında sakit imiş. Allahın qarşısında günahından savabının daha çox olduğuna əminmiş.

Bəndə də bir ilahiyyatçı kimi Ömər Xəyyamın yaradıcılığında ilahi meyin qüdrətinə inanır və Allah-Təaladan bizə də bu vəhdət meyindən dadızdırmasını təmənna edir.[87]

## HAQQ AŞİQİ YUNİS İMRƏ

***Biz dünyadan gedər olduq,***
***Qalanlara salam olsun!***
***Bizim üçün xeyir-dua***
***Qılanlara salam olsun!***
***Tənim ortaya açıla,***
***Yaxasız köynək biçilə,***
***Bizi asan bir vəch ilə,***
***Yuyanlara salam olsun!***

***Dərviş Yunis söylər sözü,***
***Yaş doludur iki gözü,***
***Bilməyən nə bilsin bizi?***
***Bilənlərə salam olsun!***

Salam olsun insanları birliyə, haqq-ədalətə, sülhə, əmin-amanlığa, diriliyə, doğruluğa, barışa çağırana, yaşamağı sevən, amma ölümdən heç vaxt qorxmayan Haqq aşiqi Yunis İmrəyə!

[87] Bu məqalədə Ramiz Fasehin «Füzuli şeirində təsəvvüfi qaynaqlar» kitabının və Mir Cəlal Zəkinin «Xəyyam şərabı» məqaləsinin materiallarına istinad edilmişdir (H.H).

Yunis İmrə 1240-cı ildə anadan olmuş,1320-ci ildə 80 yaşında vəfat etmişdir. Onun harada doğulub boya-başa çatdığı, şəxsi həyatı, nə işlə məşğul olduğu haqda əldə tutarlı məlumat yoxdur. Şeirlərindən və ilahinamələrindən məlum olur ki, Yunis İmrə uzun müddət öz doğma vətənindən uzaq düşmüş və qürbətdə yaşamışdır.

Yunis İmrə azad fikirli, sərbəst düşüncəli, zahirə deyil, batinə, şəklə yox, mənaya qiymət verən, vəhdəti-vücud inamını və ilahi eşqi tərənnüm edən bir sufi şairdir. Dərviş Yunis bütün bəşəriyyəti tək olan Allahın yolunda birləşməyə çağırır. Könüllərə dərman yalnız Allaha olan eşqdir:

***Bir saqidən içdim şərab,***
***Ərşdən uca meyxanəsi.***
***O saqinin məstləriyik,***
***Canlar onun peymanəsi.***

***İmdad uman gecə-gündüz,***
***Bağrı yanıq üryanıq biz.***
***Bir çıraqdır məclisimiz,***
***Günəş onun pərvanəsi.***

***Eşq oduna varmı əvəz?***
***Ona yandım-yandım deməz.***
***O od bu oda bənzəməz,***
***Heç bilinməz zəbanəsi.***

***Onun şəmi həqq şəmidir,***
***Dəmi ən-əlhəq dəmidir.***
***Həllaci Mənsur kimidir,***
***Ən kəminə divanəsi.***

*Yunis, sənin sözün dərin,*
*Cahil görməz sahillərin!*
*Bilməzmisən cahillərin*
*Necə keçir zəmanəsi?!*

Bu şeirdən bir daha aydın olur ki, Yunis İmrənin mübarizəsi və istəyi bəşəriyyətin bütün çirkinliklərini eşq atəşiylə təmizləməkdir. Yunis İmrə şeirinin axını zahiri dünyaya doğru deyil, ruhlara, insanın iç dünyasına doğru səsləyir. Yunis könüllər fəthinə məmurdur:

*Mən gəlmədim dəva üçün,*
*Mənim işim sevda üçün.*
*Dostun evi könüllərdir,*
*Könüllər yapmağa gəldim!*

Yunis İmrə fateh bir millətin ruh memarıdır. O, fateh bir mədəniyyət cəbhəsini təmsil edir:

*Necə sən bəsləyəsən,*
*Bu qədd ilə qaməti?!*
*Düşdün dünya zövqünə.*
*Unutdun qiyaməti.*

*Çalış qazan, ye, yedir,*
*Bir könül ələ gətir.*
*Yüz Kəbədən yeyrəkdir,*
*Bir könül ziyarəti.*

*Saraylar quran olur,*
*Dövranlar sürən olur,*
*Aqibət viran olur,*
*Cümlənin imarəti.*

***Yunis gerçək ər imiş,***
***Gerçək simu-zər imiş,***
***Gerçək ərənlər imiş,***
***Hamının ibadəti.***

Yunis İmrə insanı Allah-Təalanın ən mükəmməl əsəri sayır. Bu səbəbdən ən əziz varlıq bildiyi üçün daim insanları Allah, din yolunda görmək istəyir. Dərviş Yunisin əsas istəyi insanı haqqa qədər ucaltmaqdır. Nə özündən əvvəl, nə də özündən sonra insana Yunis İmrə qədər yaxın və doğma olan, onun dərdləriylə dərdlənən, qayğıları ilə qayğılanan başqa bir şair düşünmək olmur.

Yerdən haqqın dərgahına qədər uzanan bu nurlu dərvişin gül kimi açılmış dodaqlarından çıxan haqq nidaları əsrlərlə ulu Türkiyənin əlyetməz yaylalarında səslənmiş, insanı böyüklüyə, ülviliyə, ululuğa çağırmışdır.

Yunis İmrə haqq aşığıdır. Haqq durduqca gömülməz, Yunis İmrənin də torpaqlarda məzarını tapmaq olmaz! O, dostun dostudur! «Dostun yeri könüllərdir» – deyən Yunis İmrənin də yeri könüllərdir. Çünki onu dostlardan ayrı təsəvvür etmək, Haqqdan cüda bilmək mümkün deyil. Ağlamayıb ağladan, sevinməyib sevindirən, öyünməyib öyündürəndir Yunis İmrə!

İnsanın saçlarından dırnağınadək dərdini daşıyan «əcəl sənə səndən yaxın» – deyib həmişə insanı əbədi rahatlığa hazırlayan bir miskinlər miskini, bir dərvişlər dərvişi, bir şairlər şairidir Yunis İmrə![88]

***Dərvişlik dedikləri,***
***Əba ilə daş deyil.***
***Könlün dərviş eyləyən,***
***Əbaya möhtac deyil.***

---

[88] «Haqq aşığı – haqq işığı», Müzəffər Şükür Məchul.

*Rəyincə keçir gərdiş,*
*Bir meyvədən dərilmiş,*
*Ər var, ölüb-dirilmiş,*
*Yalın ayaq, ac deyil.*

*Yunis xoş xəyaldadır,*
*Sözü şəkər, bal dadır.*
*Yol ər ilə yoldadır,*
*Yolsuza yoldaş deyil.*

İslam dininin bütün incəliklərinə dərindən bələd olan dərviş Yunis İmrə göründüyü kimi, insanları daim saflığa, paklığa, doğruluğa çağırır.

*O cənnətin irmaqları,*
*Axar Allah deyə-deyə!*
*Çıxıb İslam bülbülləri,*
*Oxar Allah deyə-deyə!*

*Nə dilərsən Haqdan dilə,*
*Bələdçi ol doğru yola.*
*Bülbül aşiq olub gülə,*
*Ötər Allah deyə-deyə!*

*Miskin Yunis, var get daha,*
*Bu günü qoyma sabaha,*
*Sübh də üz tutub dərgaha,*
*Gedər Allah deyə-deyə!*

Yunis İmrə haqq aşiqidir. Haqq aşiqi olan şəxs hər şeylə danışmağı bacarmalıdır. Yunis İmrə bu cəhətdən xoşbəxt bir haqq aşiqiydi. Yunis dağlarla, daşlarla, quşlarla, ümumiyyətlə bütün

varlıq Aləmi ilə Mövla Əlini (ə) səsləyər və bilirdi ki, «Mövla Əlinin (ə) məhəbbəti olmadan insan heç bir məqama çata bilməz».

«Çağırıram, Mövlam səni» münacatında deyir:

***Dağlar ilə, daşlar ilə,***
***Çağırıram, Mövlam səni!***
***Səhərlər də quşlar ilə,***
***Çağırıram, Mövlam səni!***

***Dəryalarda mahu ilə,***
***Səhralarda ahu ilə,***
***Abdal olub «Ya hu» ilə,***
***Çağırıram, Mövlam səni!***

***Göy üzündə İsa ilə,***
***Tur dağında Musa ilə,***
***Əlindəki əsa ilə***
***Çağırıram, Mövlam səni!***

***Dərya dərdli Əyyub ilə,***
***Gözü yaşlı Yəqub ilə,***
***O Muhəmməd məhbub ilə***
***Çağırıram, Mövlam səni!***

***Şükr etdiyim Allah ilə,***
***Dildə «Qulhuvallah» ilə,***
***Daima zikrullah ilə***
***Çağırıram, Mövlam səni!***

***Gördüm bu dünyanın halın,***
***Tərk eylədim qeylü-qalın.***
***Başı açıq, ayaqyalın***
***Çağırıram, Mövlam səni!***

*Yunis oxur dillər ilə,*
*O şeyda-bülbüllər ilə,*
*Haqqı sevən qullar ilə*
*Çağırıram, Mövlam səni!*

İlahiyə qovuşduqca insana yaxınlaşan, insan qəlbinə enən Yunis İmrə böyüklüyü onun İlahinamələrində bir biçimdədir. Hər çiçəyi bir rəngə çalan bu gülüstandan insan doya bilmir. Həsrətli bülbüllər, Dərviş Yunis kimi oxuyan, dərdli könüllərə məlhəm olmaq istəyənlər Yunis İmrənin «Güldəstə»sinə nəzər salsınlar. Bu kitab başdan-başa insanları mənəvi saflığa, birliyə, insanlarla və digər yaranmışlarla necə rəftar etməyə yol göstərən «İlahinamələr» toplusudur.

*Müsəlmanam deyən adam,*
*Şərti nədir, bilsin gərək.*
*Tanrı buyruğunu tutub,*
*Beş vaxt namaz qılsın gərək.*

Yunis İmrə könül yıxmağı Allaha şərik qoşmaqdan sonra ən böyük günah hesab edir və «Bir yol könül yıxdın isə» rədifli şeirində yazır:

*Bir yol könül yıxdın isə,*
*O qıldığın namaz deyil!*
*Yetmiş iki millət gələ,*
*Əlin-üzün yumaz deyil!*

*Yol odur ki, doğru vara,*
*Göz odur ki, haqqı görə,*
*Ər odur alçaqda dura,*
*Ucadan baxan göz deyil.*

Dərviş və Haqq aşiqi Yunis İmrə barədə çox yazmaq və danışmaq olar. Lakin biz Yunis İmrənin ilahinamələrindən olan "Pir dərgahında" rədifli gəraylısı ilə sözümüzü yekunlaşdırırıq:

***Edəlim cövlan,***
***Qılalım seyran.***
***Məst olub heyran***
***Pir dərgahında.***

***...Buraxdım arı,***
***İstədim yarı.***
***Kəsdim zünnarı***
***Pir dərgahında.***
***Aldım himməti,***
***Keçdim zülməti,***
***Tapdım dövləti***
***Pir dərgahında.***

***Yunusam əlhəq,***
***Didara müştaq,***
***Qovuşduğum eşq***
***Pir dərgahında.***

## YUNUS İMRƏ VƏ AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA DƏRVİŞLİK

Dərviş sözünün lüğəti mənası fəqir və möhtac, ürfi mənası məmləkətləri gəzib dini rəvayətlər danışandır. Dərvişlər əsasən sufi təriqətlərinə mənsub olurlar. Yunis İmrə də sufiliyə mənsub bir şair olduğundan dərvişlik haqqında bəzi məlumatları oxucuların diqqətinə çatdırırıq.

***Dərviş Yunis, gəl indi,***
***Ümmanlara dal indi.***
***Ümmana dalmayınca,***
***Sən dərviş olammazsan!***

1. Dərviş olan – Allaha iman, sevgi və məhəbbət bəsləməli, bütün məxluqata şəfqət və mərhəmət göstərməlidir.

2. Nuri-nübüvvət – Həzrət Muhəmmədi (s) hər şeydən artıq sevməli, onun ailəsinə, övladına, ənsarına məhəbbət bəsləməlidir, bu vacibdir. Çünki həqiqi din olan İslam dininin, şəriətinin banisi Peyğəmbərdir (s). Necə ki, Xəqani Şirvani bir qəsidəsində Peyğəmbəri (s) dərvişlərin şahı adlandırır:

***Bütün dərvişlərin şahı olubdur Əhmədi-Mürsəl,***
***Ki, «nun-vəl-qələm» Quran da səbt etmiş bu fərmanı.***

Əhmədi-Mürsəl (seçilmiş Əhməd) Həzrət Muhəmmədin (s) adlarından biridir. «Nun-vəl-qələm» Quranın 68-ci surəsidir. Məzmunu varlıların fəqirlərə, kasıblara kömək etməli olduğu haqqında təbliğatdan ibarətdir. Xəqani bu beytdə dərvişlərə demək istəyir ki, sizin şahınız olan Peyğəmbər (s) həmişə fəqirlərin, kasıbların tərəfdarı olmuşdur.

3. Zikr edən olmalı, Allahın bütün əmrlərini sevərək icra eləməlidir.

4. Allahın qadağalarından son dərəcə çəkinməlidir.

5. Halaldan qazanmalı, halal tikə yeməli, halal geyinməli və halal yerdə oturmalıdır.

6. Yalandan qaçmalı, hər zaman, hər yerdə doğru olmalı, daim doğruluğu tövsiyə etməlidir.

7. Səxavətli olmalıdır.

8. Son dərəcə səbrli olmalıdır.

9. Namazı vaxtında qılmalıdır.

10. Vacib namazı yerinə yetirdiyi kimi, nafilə və müstəhəb namazları da tərk etməməlidir. Ələlxüsus gecə namazlarını mütləq qılmalıdır.

11. Vacib oruclar kimi müstəhəbləri də tutmalıdır.

12. Bacardığı və əlindən gəldiyi qədər şəriətin hər bir göstərişini yerinə yetirməlidir.

13. Ömründə bir dəfə Həccə getməli, ümrəni də tərk etməməlidir.

14. Zəngindirsə, zəkat əhlinə zəkatını sevə-sevə verməlidir.

15. Təmiz olmalı və təmiz geyinməlidir.

16. Məkruhatı haram qismində bilməlidir.

17. Mürşidinin hüzurunda lüzumundan artıq oturmamalı və artıq söz söyləməməlidir.

18. Lüzumsuz sözlərdən, çirkin hərəkətdən qaçmalıdır.

19. Hər cür sevinc və müsibəti Allahdan bilməlidir.

20. Mürşidin əmrlərini sevə-sevə yerinə yetirməlidir.

21. Vasvası olmamalıdır.

22. Mürşidində nöqsan tutmamalıdır.

23. Təriqətinin namus və şərəfini hər şeyin fövqündə saxlamalıdır.

24. Alimlərə hörmət etməlidir.

25. Zülm etməkdən qaçmalıdır.

26. Allah, Rəsulu və müqəddəslər uğrunda canını, malını, övladını və hər şeyini fəda etməyə daim hazır olmalıdır.

27. Ondan bütün məxluqat razı qalmalıdır.

28. Bir əlində Allah kitabı – Quran, bir əlində məhəbbət itrəti Rəsul, başında iman tacı, əynində şəriət libası, gözündə ibrət, dilində zikr, belində bəşəriyyətə xidmət kəməri, qəlbində məxluqata şəfqət və mərhəmət olmalıdır.

29. Hər zaman dəstəmazlı olmalıdır.

30. Kiçik günahları böyük bilib istiğfar etməlidir.

31. Namazını qəzaya buraxmamalıdır.

32. Nəfsinə uymamalıdır.

33. Artıq yemək yeməməlidir.

34. Valideyninə qarşı itaətkar olmalıdır. Unutmamalıdır ki, valideyninə hörmət Allah-Təalaya hörmət kimidir.

35. Çoxlu zikr etməlidir.

36. Fürsət və imkan tapdıqca qəbirlərin ziyarətinə getməlidir.

37. Xəstələri ziyarət etməlidir.

38. Müsibətlərə mətanətlə sinə gərməlidir. «Dərvişin ayağı itdən, başı yeziddən xilas olmaz» deyiblər.

39. Varlıqda-yoxluqda, gecə-gündüz, səhər-axşam Allah-təalanı təsbeh etməlidir.

40. Heç kəsə yük olmamalıdır.

41. Vaxtını boş keçirməməlidir.

42. Dilini və qulağını qeybətdən qorumalıdır.

Dərvişdə gərək bu sadalanan sifətlər olsun. Onların imanı xasul-xasların imanıdır. Onların könlü pak olmuş və bəsirət gözləri açılmışdır. Xas iman əhlindən çox üstündürlər. Bu, dərvişlərin məqamıdır. Təəssüf ki, dövrümüzdə «dərviş» sözünün haqqını tapdalamışıq. İndi hər qəsidə oxuyana dərviş deyilir ki, bu da səhvdir. Qəsidə oxuyanlar məddahlardır, dərviş deyillər.

Bütün bu deyilənləri Dərviş Yunis qəlb süzgəcindən keçirib, «Sən dərviş olammazsan» şeirində deyir:

***Dərvişlik der ki, mənə***
***Sən dərviş olammazsan!***
***Qulaq as deyim sənə,***
***Sən dərviş olammazsan!***

***Dərviş bağrı daş gərək,***
***Gözü dolu yaş gərək,***
***Qoyundan yavaş gərək,***
***Sən dərviş olammazsan!***

***Döyənə əlsiz gərək,***
***Söyənə dilsiz gərək,***
***Dərviş könülsüz gərək,***
***Sən dərviş olammazsan!***

***Dilin ilə çaxarsan,***
***Çox mahnılar oxursan,***
***Vara-yoxa baxarsan,***
***Sən dərviş olammazsan!***

***Dərviş Yunis, gəl indi,***
***Ümmanlara dal indi.***
***Ümmana dalmayınca,***
***Sən dərviş olammazsan!***

"Dərviş" sözüfarscadan"qapıqulu", "qapıdaoturan" mənalarını verir. Bu"qapı" mürşid ətəyi, pirməqamı, Haqq qapısıdır. Bununlaəlaqədarbir məsələyə də toxunmaq istərdikki, xüsusilə əskiSovetlərBirliyinin ideoloji qalıqlarıolan təfəkkürtərzlərində,yəni o dövrün yadigarı olan məmləkətlərdə məlum təbliğat nəticəsində dərvişlik anlamı sanki birnövdilənçilik, bəzəndəfırıldaqçılıq mənalarındayozulmuşdur. Bucürtərbiyə və təbli-ğatların izivə təsiri heyfki, asanlıqlasilinib gedənə bənzəmir.

Azərbaycanda son 100 ilə yaxın bir müddətdə dərviş adı ən çoxAbşeronzonasında, Bakıkəndlərində məşhurolaraqqalmışdır.

Fəqət bu, gerçək anlamdakı dərvişlik deyildir. Abşeron dərvişləri sadəcə qəsidəxan, mərsiyəxan, məclisadamlarıdır. Ənbaşlıcasıisə, Bakı dərvişləri ürfan əhli, təsəvvüf ərbabı deyillər. Onlar şiəməddahlarından heçnə ilə fərqlənmirlər. Şiəlikisə ruhanitəkamülcədvəlinin "şəriət" mərtəbəsində qərartutmuşdur.

Təsəvvüf isə, adından da göründüyü kimi, təriqət və mərifət qatlarının zahiritəcəllasını ifadə edən biranlayışdır.

Azərbaycanxalq yaradıcılığının müxtəlif nümunələrində isə biztəriqətdərvişliyinin aydınizlərinə rastgəlirik. Məsələn,Ağbabatırınqılarının birində deyilir:

***Göy-göy dolanıram, gəzirəm düzü,***
***Eldə seçiləni, bədir ay üzü...***
***Əlimdə bərəkət, bolluq, ruzu,***
***Abdalam, dərvişəm, sofuyam, buyam!***

Bax elə əsil sufi dərvişlik budur. Dediyimiz kimi, digərlərirövzəxan və şiəliyin bədii təbliğatçılarıdır.Belə ki, Yaxınvə OrtaŞərqdə yalnız sufitəriqətlərininnümayəndələrinə dərviş deyilib. Şiəlik isə heç bir vəchlə sufilikdeyil. Şiəlik də, sünnilik də məzhəbdir. Sufilik isə məzhəb yox,təriqətdir. Məzhəb, qeydolunduğukimi, şəriət mərhələsininelementidir. Bəzəntarixçilər tərəfindən yaqəsdən, yadabilgisizlik ucbatından,məsələn,"sufi-şiə cərəyanı" kimi yanlışifadələrdənistifadə olunmuşdur. Bufikirhəmfəlsəfi, həmməntiqi, həm də tarixi-siyasi baxımdan belə kobud səhvdir."Dərviş"sözünün, yuxarıda qeydetdiyimizhərfi mənasıyalnızonunzahiri anlamını ifadə edir. Əslində isə ürfanibirtermin olaraq "dərviş" sözü daha çox batini mənaları əks etdirir.

Belə ki, D-dünya, R-riya, V-varlıq, İ-yalan, Ş-şəhvət forma-sındakı kodlaşdırma (burada ikinci hərf olan "ə", ərəb əlifbasında qısa saitolduğuüçün yazılmır. "İ" hərfiisə ərəbqrafikasıilə "ye"hərfidir ki, bu da yalan sözünün baş hərfidir) məhz bu qavramınbatiniqatını kodlaşdırır. Səlcuq Universitetinin(Konya) müəllimi Dr. M.Çıpan Mövləvi dərvişləri barəsindəki məqaləsindəyazır:"Dərviş" sözü ibarətolduğu dal, ra, vav, yevə sinhərflərinin simvolik olaraq ifadə etdiyi dünya, riya, varlıq, yalanvə şəhvətdən özünü uzaq tutaninsanmənasındadır.

SadəcəAllahın fəqiri olan və Ondan başqasına ehtiyac duymayan, dünyanın minnəti altına girməyən və qənaətcil insanlar olan Mövlə-vilər ruhi kamillikləri, fikri incəlik və təkamülləri, sənət qabiliyyətləri ilə birlikdə təmizlikvə mənəvizənginlikləriilə də diqqətləriüzərlərinə çəkmişvə sosialhəyatı yönləndirmişlər".

Bütün bu fikirlər təsəvvüfün həqiqətən də bir yaşam tərzi, eşqilə ağılın,ruhlabədənin, təfəkkürlə şəxsihəyatın, halilə qalın bir arada, vəhdətdə və münaqişəsiz olduğu qənaətinə gətirib çıxarır. Elə məşhur"kamilinsan" formuluda əslində budeyilənlərə əsaslanır. Kamil insan təkamülə yiyələnmiş bir varlıqdır, hər zaman mücadilə verən bir insandır. Bu mücadilənin feyzi və mahiyyəti nəfs riyazəti, batini və zahiri paklıq, hünər və elmlərə yiyələnmə, dünyanı və Allahı ağılla, məntiqlə deyil, eşq və halla dərk etməkdir. Təsəvvvüfdə halın mənbəyi və əsas səbəblərindən biriolansufizikrləribarədə Türkiyəli ilahiyyatçı Yazıçıoğlu Əhməd Bican "Ənvarul-Aşiqin" – "Haqq aşiqlərinin nurları" adlı əsərində bu qeydləri verir: "Allahı zikr etmək yeddi qisimdir:

Bir: Göz zikridir, ağlamaqla olur
İki: Qulaq zikridir, Haqqın hökmlərini eşitməklə olur
Üç: Dil zikridir, həmd və səna ilə olur
Dörd: Əl zikridir, verməklə və comərdliklə olur
Beş: Ayaq zikridir, qeyrət və çalışma ilə olur
Altı: Könül zikridir, qorxu və ümidlə olur
Yeddi: Can zikridir, təslim və rica ilə olur.

Bəzilərinə görə zikr dörd cürdür:

Bir: Dil zikridir
İki: Könül zikridir
Üç: Ruh zikridir
Dörd: Sirr zikridir".[89]

Dərvişlərə layiq bütün sifətlərin Yunis İmrədə olduğunu

---

[89] F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 51-52; 72-75

görənlər ona Dərviş Yunis deyərək müraciət etdikdə belə, «Ey mənə dərviş deyən», – şeirində təvazökarlıqla yazır:

***Ey mənə dərviş deyən,***
***Nəyim var dərviş mənim?!***
***Dərvişlik yaylasında***
***Qismətimdir qış mənim.***

***Dərvişlik nədir andım,***
***Öz-özümlə dayandım,***
***Yola baxdım utandım;***
***Hər işim yanlış mənim.***

***Hirkam-tacım gözlərəm,***
***Yönsüz işlər düzlərəm.***
***Hər yanımdan gizlərəm,***
***Buludum dolmuş mənim.***

***Məni dərviş tanırlar,***
***Alovuma yanırlar.***
***Qəlbimi saf sanırlar,***
***Vay, nə düşvar iş mənim!***

Dərvişliyin necə yüksək bir mərtəbə olduğunu Yunis İmrə bizə yuxarıda verilən beytlərdə çatdırır və bu yolun ağır və məsuliyyətli olduğunu qeyd edir. Özündən sonrakı xələfi Aşıq Ələsgər də dərvişliyi ümmana bənzədir və bu məqama layiq olmaq üçün dərinlərə baş vurmağı tövsiyə edir:

***Dərviş olan gedər gəzər dərində,***

*Yelkən açar dayazlarda, dərində.*
*Mən aşiqəm dərində,*
*Dayazlarda dərində.*
*Quş olasan qalasan*
*Nazlı yarın dərində.*
*Əl açasan ərənlərin dərində*
*Calayasan sınıq könlü üz ha üz...*

Bu cığalı təcnis həm bədii sənət nümunəsi kimi, həm də təsəvvüfimənalarbaxımından çoxqiymətlidir. Birincimisradakı“dərviş” sözü ilə “dər” sözünün işlənməsi təsadüfi deyildir. Dərviş Haqq qapısında, pir ətəyində oturandır (fars dilində “dər” eləqapı deməkdir). Bunu bilmək üçün insana ən azından orta savadlazımdır. Aşıq Ələsgərinmühitinivə zamanınınəzərə alsaq,onunhaqqındadeyilən “savadsızolmuşdur” kəlməsihəqiqətəndə bir az şübhə doğurur. Tək elə bircə, “dərində” sözünün buradacinas olaraq bir neçə mənada işlənməsi güclü istedad və zövqlə bərabər, eyni zamanda, sənətkardan intellektual səviyyə də tələb edir.

Əvvəldə qeydetmişdik ki, ƏbülqasimNəbatixalqşeirinə,aşıqüslubunadaxilolan çoxlusaydamütəsəvvüfanə şeirləryaratmışdır. Bu fikir bir daha onu təsdiqləyir ki, ustad sənətkarhəm də bir türk xalq mütəsəvvüfü kimi anılmalıdır. Çünki Azərbaycan türkcəsində möhtəşəm, dərin, eyni zamanda da, sadə vəsondərəcə şirinmənzuməlıəryazan Xançobanı millitəsəvvüfənənələrinə və ürfaniçevrələrə çoxböyükbirruhani xəzinəqoyub getmişdir:

*Məcnunlar adını çəkən təhrirə,*
*Nola sərdəftərə o yaza məni.*
*Deyirlər bu idi zikri Məhmudun:*
*“Durun qurban edin Ayaza məni”.*

***Genə sağ qalmışam belə yarə, mən?!***
***Kəlbintək kuyində yatam yerə mən,***
***Gizlin sirrim gedim deyim yarə mən,***
***Bir ağac götürə, ay əzə məni...***

Bu təcnisin bənzərinə biz Aşıq Ələsgərdə rast gəlirik:

***Arif olan, bir od düşüb canıma,***
***Əridib döndərir a yağa məni.***
***Aşıq deyər, ay ağa,***
***Yetiş dada, ay ağa!***
***İllər xəstəsi canım,***
***Yar gəldi, qalx ayağa!***
***Ağa olan qulun salmaz nəzərdən,***
***Salma nəzərindən aya ağa məni!***

Göründüyükimi, buradada həriki təcnisin rədifləribirbirinə çox yaxındır. Lakin buradakı əsas paralellər yenə də bədiideyil,ürfanidir. Hərikişeirdə ünvanbirdir. Həriki aşiq özyarına, pirinə, şahına, ağasına müraciət edir. Bu müraciət ənənəvidir, dərvişanədir. Zikrin, duanın, həmdin, sənanın arifanə təbiriəksər hallarda rəmzlərlə, rindanəliklə, üstüörtülü deyilir. Bu gizliliyin iki əsas səbəbi vardır. Bunlardan biri ruhani mətləbləri naməhrəmlərdən, sufilərdemişkən,"yad"lardangizlətməkdir.Ürfandanaməh-rəmanlayışı əsasənşəriət əhlinə şamiledilir.Şəriət əhliisə,dünya əhli sayılır. Ədəbiyyatdakı rəmzliliyin,gizliliyin, rindliyin ikinci əsas səbəbi isə sırf estetik dünyagörüşləbağlıdır.Mütəsəvvüfşairlər bəzənsirli mətləbləri məcazlarlagizlətmək məcburiyyətində qalsalar da çox zaman bu mətləbləribilərəkdən, çılpaqlıqdan çıxarmaq üçün onu simvolikaya, bədiyyata bürümüşlər. Məsələn, Əbülqasim Nəbati "Yaradıb" adlı birgəraylısında

həmsadə,həmbədii,həmdə açıq birtərzdə öz mətləbini ifadə edir:

*O dəm ki, Rəbbiyəl-əla*
*Aləmi etdi hüveyda,*
*Səni bir şahi-lafəta,*
*Məni bir Qəmbər yaradıb...*

*Nəbati, çək Əli, Əli,*
*Könlün olsun cəli, cəli,*
*Onu Allah bəli, bəli,*
*Bu dildə əzbər yaradıb.*

Burada söhbət yenə Ələst aləmiylə bağlı təsəvvüf nəzəriyyələrindəki məsələlərdən gedir. Bu mətləblərə biz Aşıq Ələsgərdə də rast gəlirik:

*Yüz iyirmi dörd min nəbi gəlibdi,*
*Cəmi ənbiyanın əbədi sənsən.*
*Sidq ilə hər kim ki, çağırsa səni,*
*Zahirdə, batində mədədi sənsən...*

*Ələsgər çağırır Əliyyül-əla,*
*Qeyzə gəldi, zərbət vurdu Salsala.*
*Zərbindən titrədi Xeybər tək qala,*
*Münkirin dünyada cəlladı sənsən.*

Bu qoşmanın əvvəlindəki mətləb, yəni Həzrət Əlinin bütün Peyğəmbərlərin "əbədi yol göstərəni" olması qətiyyən dini mətləb deyil. Buradakı "dini" sözü əlbəttə ki, İslam şəriətini özündə ehtiva edir. Yəni, söhbət yenə də "təriqət"də, "mərifət"də, "həqiqət"də zikr olunan gerçəklərdən gedir.

*Ələstü birəbbiküm qalu bəladan*

*Mərdin Mövlasına nökər olmuşam.*
*Sürtmüşəm üzümü xaki-payına,*
*Elm tapıb, sinədəftəf olmuşam...* [90]

## ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİNİN “TƏZKİRƏTÜL- ÖVLİYA” ƏSƏRİNDƏ İLAHİ EŞQ

Son dövrlər qiymətli ədəbi nümunələri yenidən dilimizə və mədəniyyətimizə daxil etməyə başlamışıq. Eləəsərlər var ki, onlar hər zaman aktualdır. Ədəbi dəyərini heç vaxt itirməyib. 2011-ci ildə nəfis şəkildə ilk dəfə nəşr olunmuş «Təzkirətül - Övliya» bu qəbildən olan əsərlərdəndir. Əsərin müəllifi Fəridəddin Əttar Nişapuri XIII əsr müəlliflərindədir.

ƏsərinAzərbaycan dilinə tərcüməsinin və transfonoliterasiyasının, həmçininön sözün və izahlarınmüəllifi isə Milli Elmlər Akademiyasının elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nəzakət xanım Məmmədlidir. Nəzakət xanım xeyli zəhmətlərə qatlaşıb bu əzəmətdəəsəri doğma ana dilimizə tərcümə edib. Bu da xanımın fars dilini mükəmməl bilməsindən və klassik ədəbiyyata olan sevgisindən qaynaqlanır. İzahlı tərcüməəsərin keyfiyyətinə böyük təsir göstərib.

Qeyd etmək istəyirəm ki, bütün orta şərq və müsəlman dünyası, o cümlədən müsəlman intibahının ən dəyərli fəlsəfi cərəyanlarından biri sufizmdir. Bu cərəyana daxil olan filosofların əksəriyyəti müsəlman intibahının unudulmayan dahiləri sırasındadır. O sıraya daxil olmayanların əsərlərində belə sufizmin, dərvişədəbiyyatının ruhu duyulmaqdadır. Hətta, XXI əsrin əvvəllərində –yəni günümüzün aşkar reallıqlarından biri yenidən dərvişədəbiyyatına marağın yeni gündəm kəsb etməsidir.

---

[90] F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 229-231

Hazırda Bakıda «dərviş toyu» da, dərviş musiqisi vəşeir formalarıda işlənməkdədir.

Maraqlısı odur ki, əsərin öz mahiyyətindən daha artıq bir maraq onun müəllifinin adı və həyatı ilə bağlıdır. Yada salmaq yerinə düşər ki, 13-cüəsrin əvvəlləri İran və Azərbaycan əraziləri Monqol istilasına məruz qaldı. Monqol əsarəti iki əsr davam edərək çiçəklənmiş müsəlman intibahının bütün sahələrini məhv etdi. Təsadüfi deyil ki,110 yaşlı Fəridəddin Əttar onların işğalı nəticəsində vəfat etmişdir. Əslində rəvayətlər içindəəfsanəyə dönən FəridəddinƏttar ömrü, həyat və yaradıcılığı barədəçoxlu maraqlı fikirlər mövcuddur. Fəridəddin Əttarın həyatı barədə maraqlı rəvayətlərdən biri elə onun ölümü haqqındadır. Deyirlər ki, Monqollar tanınmış sənətkarlarıöldürməyib aparmaq istəyirmişlər. Əttarı tanıyan birisi onu 1000 dinara satın almaq istəyəndəƏttar sahibinə deyir ki, «Satma, mən ondan artığına dəyərəm», bir qədər sonra onu saman çuvalına dəyişmək istəyən üçün Əttar deyir ki, «Sat, çünki, heç ona da dəymərəm». Bu sözdən hiddətlənən monqol Əttarı qətlə yetirir.

Bu rəvayət Əttarın dəyərini ifadə etmək üçün əsl sufi düşüncəsidir. Birinci dəfə «satma» deyərkən o, filosofcasına demək istəmişdir ki, insan ruhu və mənəviyyatı qiymətsizdir. 1000 dinar onun qiyməti deyil. İkinci dəfə sat dedikdə yenə də hürufi şairi Şeyx Fəzlullah Nəimi kimi sufistcəsinə bildirmək istəmişdir ki, insan ruhu üçün cism sadəcə bir qabdır. Əgər insan öz ruhunu zamanında davamçılarına köçürə bilibsə gedən quru cismdir, onun üçün narahat olmağa dəyməz, o, heç bir çuval samanın dəyərində deyil.

XIII əsrin əvvəllərində monqol imperiyasının baş kəndi Qaraqorumda bir qurultay çağırıldı. Orada Çingiz xan İrana iki səfir göndərməyi tapşırır. İki aydan sonra həmin səfirlərdən biri o birisinin başını torbada gətirib Çingiz xana təhvil verir. Missiya yerinə yetirilməmişdi. Lakin bu bütün İranın və Rusiya da daxil

olmaqla şimalın böyük fəlakətinə səbəb oldu. Monqol istilası beləbaşlandı. Fəridəddin Əttar Nişapuri o zaman qocalıq günlərini, İran isə islam intibahının çiçəklənmə dövrünü keçirirdi.

Fəridəddinin Nişapurda böyük bir ətir dükanı varmış. Birdərvişgəlibonasualedir:

- Sənnecəöləcəksən?

Əttardərvişinsualımüqabilindədeyir:Sənölənkimi.

Dərvişdeyir: Sənmənimkimiöləbilərsən?

Əttarsükutedir, buzamandərviştorbasındantaxtaqabıçıxarıbbaşınınaltınaqoyurvə «YaAllah!» deyibcanınıtapşırır. BuhadisədənsonraƏttarınhalıçoxdəyişdi. ŞeyxƏvhədiKirmanidemişkən: «Məşğuliyyətdükanımıqeyrilərinüzünəbağladımki, onuneşqiqəlbimərahatgirəbilsin». Dükanıvəiş-gücüburaxdıvəfəqryolununyolçusuoldu. SankiPeyğəmbərin(s) buyurduğu «Fəqirlikmənimzinətimdir» hədisiniözünəşüarseçdi. «Mənəviye – Məsnəvi»ninsahibiMövlanaCəlaləddinRumiBəlxşəhərindənNişapuragedərkənŞeyxFəridəddininsöhbətlərindəiştiraketdivəhəmingörüşdəŞeyx «Əsrarnamə» kitabınıonabağışladı. Mövlanabukitabıdaimözüiləgəzdirərvəonuməhəbbətləoxuyardı. Beytlərininbirindədeyir:

***Gerde- ƏttargəştMövlanə,***
***Şərbətəzdəste- əmsbudəşnuş.***

**Anlamı:***MövlanaƏttarınətrafındadolanır, Şəmsinəlindənşərbətalıbiçmişdir.*

BuFəridəddininsonrakıhəyatını, asketdünyagörüşününformalaşmasınıtəminedir.

KitabdaXIIIəsrböyüksufişairiŞeyxFəridəddinƏttarın

«Təzkiratül-Övliya» əsərinintürkcəyətərcüməsinintransfonoliterasiyasıvəəsərhaqqındat ədqiqatverilmişdir. ƏsərdəAllahdostlarınınhəyatyolundan, pakəxlaqvəkəramətlərindənbəhsedilir. Ortaəsrtərcüməsənətimizinəngözəlörnəklərindənolanbutəzkirəilkd əfənəşrolunur.

Əttarözsələflərinəistinadedir, şeiryazmağındanvəəczaçıolmağındanrazıolduğunudiləgətirirdi:

***Bemən qoft, ey bemani aləməfuz,***
***Çenin məşğule-tebb gəşti şəbe-ruz?***
***Tebbəzbəhre-tene-hərnatəvanəst,***
***Vəlikənşerohekmətqute-canəst.***

**Anlamı:***Mənədedi, eymənadadünyanıişaqlandıran; Nəqədərgecəgündüztibbləməşğulolacaqsan? Tibbhərcürxəstənincisminimüalicəedir, lakinşeirvəhikmətinsanınruhunuqüvvətləndirir.*

MövlanaCəlaləddinRumiəsərləindədəfələrləƏttarınadınıçək miş, özünüonunşagirdihesabetmişdir:

***Həft şəhre-eşq ra Əttar gəşt,***
***Ma hənuzəndər xəmə-yek kuçeim.***

**Anlamı:***Əttar eşqin yeddi şəhərini gəzdi, biz hələ bir küçənin döngəsindəyik.*

Başqa bir şeirində:

***Əttar ruh bud və Sənai do çeşme-u,***
***Ma əz peyi Sənai vəƏttar amədim.***

**Anlamı:***Əttar ruh idi və Sənai onun iki gözü, biz Sənai vəƏttarın arxasınca gəldik.Başqa bir şeirində Rumi Əttarın söz söyləmək məharətini tərifləyərək «Söz söyləməkdəƏttarın nökəriyəm» deməyəçəkinməmişdi.*

Bu əsəri Sizlərə gözəl ərməğan bilirəm. Onu alıb oxumağınızı və evlərinizdə saxlamağınızı tövsiyə edirəm, çünki, istəyirəm ki, Sizdən sonra da övladlarınız onu oxusun. Yazımı isəƏttarın qəbrinin üstündəki şeirin bir parçasının tərcüməsi ilə tamamlamaq istəyirəm (şeir farsca olduğundan qısa tərcümə ilə kifayətlənməyi lazım bilirəm).Bu şeir o müqəddəs insanınəsl qiymətini və onun mövqeyini düzgün müəyyən edir: "Bura dünyanın bəzəyi, ağıllıların cənnəti Əttarın ətri, ali məkan Əttarın qəbridir, O ali məkanın ki, ayağının tozu uca göylərin gözüdür. Aləmin şeyxi Fərid Əttarın qəbridir. O Əttar ki, övliyalar onun müridi olmuşdur. Elə qəribə bir Əttar ki, nəfəslərindən Qafdan Qafa kimi aləmi müşk ətirli etmişdir".

## EŞQ GÜNƏŞİ ŞƏMS TƏBRİZİ

Şəms Təbrizi Haqq aşiqi idi. Bir yerdə dayanmayıb çox yerlər gəzdiyi üçün ona Şəmsi-pərəndə, yəni "uçan Şəms" deyirdilər.

Öz dövrünün ən nüfuzlu sufilərindən biri sayılan Şəms əd-din Muhəmməd ibn Əli ibn Məlikdad Təbrizi Təbrizdə doğulub. Onun həyatı barədə məlumat olduqca azdır. Məlum olanlar da müəmmalıdır. Bəzi salnaməçilər hətta onun şahzadə oluduğuna da israr etmişlər. Hər halda əsərlərindən və sufilik fəaliyyətindən belə bir nəticə çıxarmaq olar ki, o, kamil ilahiyyat təhsili görmüşdür.

Yüksək erudisiyasına, hazırcavablığına və müəllimlik bacarığına görə Şəms hələ gənc yaşlarından "mürşidi-kamil" adını almışdır. O, qeyri-adi fiziki gözəlliyi və mənəvi təmizliyi ilə seçilmişdir. İran alimi Muhəmmədəli Tərbiyət onun haqqında yazır ki, Şəmsəddin Təbrizi ruh qədər incə idi. O, dinin və həqiqətin günəşi idi.

Şəmsin müridləri çox olub. Onların arasında Əbu Bəkr Sələbaf

Təbrizi, Rüknəddin Səcasi və başqaları da vardı. O, həmişə qara rəngli keçə libas geyərmiş. Çoxlu səyahətlərə çıxmış, əsasən, karvansaralarda yaşamışdır. 1244-cü il 26 noyabrda Türkiyənin Konya şəhərində düyüsatanların karvansarasında Şəms sonralar ən məşhur şairlərdən olan Cəlaləddin Rumi ilə görüşür və bu tanışlıq möhkəm dostluğa çevrilir. Onların bu görüşünü müasirləri iki dənizin qovuşması kimi qiymətləndirir, bu görüşü "Mərəc əl bəhreyn" adlandırırlar. Şəmsin yüksək insani keyfiyyətləri, sufi ideyalarına dərindən sədaqəti Rumini özünə cəlb edir. Rumi onu özünün mürşidi elan edərək, elmi fəaliyyətini dayandırır, mədrəsədəki işini buraxır. Onlar vaxtlarını Şəmsin digər müridləri ilə birlikdə sufi məclislərində keçirirlər.

Bu məclislərin əsasını musiqi və xüsusi dərviş rəqsləri tuturdu. Şəmsin varlığı Rumiyə Allaha qovuşmaqda bir yardımçı olur. Rumi Şəmsə sevgilərini izhar edən şerlər də həsr edir:

***Mən Merkuri təki kitablara əyilirdim,***
***Katiblər qarşısında otururdum.***
***Lakin sənin üzünü görüb məst oldum***
***Və qamış qələmləri sındırdım.***
***Sənə istəkdən doğan göz yaşlarımla dəstamaz alıb***
***Namaz vaxtı sənin üzünü qibləyə çevirdim.***
***Əgər sənsiz diri qalsam***
***Məni axıra qədər yandır.***
***Mənim başımı əlimdən al***
***Əgər ondakı ağıl sənin olmayacaqsa!***
***Kəbədə, kilsədə, məsciddə sənə dua edirəm***
***Sən mənim məqsədimsən, həm yerdə, həm göydə!***
***Mən sənin çörəyini yeyib büsbütün doymuşam***
***Mən sənin suyundan bir qurtum içmişəm, mənə su lazım deyil.***
***Kimə pərəstiş edirsənsə, sənin qiymətin də o həddədir***

***Sənə pərəstiş etməklə mən necə də xoşbəxtəm!***

Ruminin doğmaları və xüsusilə də müridləri onun bu halından təşvişə düşüb, bu ruh qardaşlarını hər vəchlə ayırmaq istəyirlər. Şəmsəddin 1246-cı ildə Rumidən xəbərsiz Konyanı tərk etməli olur. O, Dəməşqə köçərək, özü barədə Rumiyə heç bir xəbər vermir. Lakin Şəmsin bu gedişi vəziyyəti düzəltmir. Rumi ayrılığı çox ağır keçirir. O, cəmiyyətdən üz çevirib, özünə qapılır. Hicran dərdi onun şeirlərinə xüsusi bir qüvvə bəxş edir. Nəhayət, Rumi Şəmsin harada olduğunu öyrənir və sanki bu xəbər onu yenidən həyata qaytarır. Bunu görən dostları Ruminin oğlu Sultan Vələddən Şəmsəddin Təbrizinin ardınca Dəməşqə yola düşməsini rica edirlər. Rumi oğlu vasitəsilə ona bu şeri göndərir:

***Ah, tezliklə gedin və tapın***
***Sevimli dostu evə gətirin.***
***Şirin sözlər və xoş nəğmələrlə***
***O Ay üzlünü bizim yanımıza çəkin.***
***Onun sözü qüdrətli və bütövdür***
***O, çayları geriyə döndərə bilər.***
***Onun vədlərinə və möhlət istəməsinə***
***İnanıb, özünüzü aldatmağa qoymayın.***
***Bircə o xoşluqla və sağ-salamat***
***Qayıdıb qapımızı döyəydi.***
***Onda siz elə bir şey görəcəksiniz ki,***
***Heç Tanrının özü də elə şey görməyib...***

Şeiri oxuyan Şəms Konyaya qayıdır. Burada onu böyük şərəflə qarşılayır və onun şəninə təntənəli ziyafətlər verirlər. Şəmslə Ruminin dostluq münasibətləri əvvəlki qaydasına düşür. Rumi yenə də bütün vaxtını Şəmslə keçirərək, ondan bir an belə ayrılmır. Şəmsəddin Təbrizi Ruminin bacısı Kimiya ilə ailə qurur. Bütün bunlara baxmayaraq, bədxahları yenə də Şəmsi rahat buraxmırlar.

Və o, yenidən, bu dəfə isə həmişəlik, Konyanı tərk edir. Onun birdən-birə yoxa çıxması indiyə qədər də müəmmalıdır. Ola bilər ki, Şəmsi Ruminin müridləri aradan götürmüş, ya quyuya tullamış, ya da öldürüb, atasının yanında basdırmışlar.

Səhər tezdən mədrəsəyə gələn Rumi orada heç kəsi tapmır. Uzun zaman inadla onu axtarır. Hüznü ölçüyəgəlməzdir, Günəşi (farsca Şəms) biryolluq batmışdır. Şairin ruhi sarsıntıları hüdudsuz olsa da, birdən-birə möcüzə baş verir. Rumi Şəmsi özündə yenidən yaratmaq üçün güc və qüvvə tapır. O, dünya məhəbbət lirikasının ən heyrətamiz nümunələrindən birini yaradır və "Şəms Təbrizinin divanı" adlanan bu toplunu öz mürşidinin adına bağlayır.

Gənc alim sufi axtarışlarını biryolluq tullayaraq, özünü tamamilə Şəmsəddin Təbrizi adlı bir şairə çevirir. M. İ. Zənd yazır ki, "Divan"ın və bura daxil olan hər bir şeirin Şəmsəddin Təbrizinin adından yaradılması heç vəchlə Cəlaləddin Rumi üçün poetik fənd, yaxud itkin düşmüş dostunun xatirəsinə hörmət kimi qəbul edilə bilməz: Şəmsi gerçək dünyanın makrokosmunda itirmiş mütəfəkkir onu öz qəlbinin mikrokosmunda tapmış olur. Və şairin özündə, könlündə duyduğu bu mürşid həmin nəğmələri ona diqtə edir, Rumi isə bu məqamda onları qələmə alandan (katib), oxuyandan, rəvayət edəndən (ravi) başqa heç bir rol oynamır. Ancaq eyni zamanda bu nəğmələr həm də onun öz şeirləridir. Çünki bunlar onun qəlbində yaranmışdır. Beləliklə, Cəlaləddini onun dili ilə danışan Şəmsəddinlə həm eyniləşdirmək olar, həm də olmaz. Buna görə də bu divanın subyekti, müəllifi, lirik qəhrəmanı kimi çıxış edən Şəms eyni zamanda bunların intim-lirik anlamda obyekti də sayıla bilər. Ancaq bu "obyekt"in yalnız mürəkkəb rəmzi qavrayış planında anlaşılması mümkündür. Şəmsəddin Təbrizi ilə ünsiyyəti Rumiyə mistik idrakın yeni bir yolunu tapmaqda kömək etmişdi. Buna baxmayaraq, onun təriqəti yalnız Rumi öldükdən sonra Mövləvilik adı ilə formalaşır. Mövlana ("bizim müəllim") onun titullarından biri idi. Rumi yaradıcılığı və

mövləvilik təriqəti Şərq xalqlarının dini-fəlsəfi və poetik düşüncə tərzinin inkişafına böyük təkan vermişdir. Bu deyilənlərdən başqa, həmin təriqət həm də hələ Şəmsəddinin yaratdığı dərviş rəqsləri ilə məşhurdur. Avropalılar bu təriqətin dərviş rəqslərinə böyük maraq göstərmişlər.

Şəms Təbrizinin şagird və müridləri onun söhbətlərini yazıya alıb "Məqalat" adlı kitab halına salmışlar.

Sinan Yağmurun "Eşqin göz yaşları" kitabında Şəms Təbrizinin dərvişlərlə olan maraqlı bir hekayətini oxucuların diqqətinə çatdırırıq. Ş.Təbrizi deyir:

"Bir dəfə dərvişlərimdən biri məndən dərvişlərin mürşidlərinə qarşı duyduğu sevginin dünyavi sevgiyə bir misal sayılıb-sayılmayacağını soruşmuşdu. Bir dərviş ilə mürşidi arasındakı əlaqəni anlaya bilmək üçün sadəcə bu dünyaya baxmaq yetməz, o biri dünyanı da nəzərə almaq lazımdır.

Züleyxa Yusifə olan eşqi üçün hər şeyini – pulunu, şan-şöhrətini və cəmiyyətdəki mövqeyini fəda etdi. Onun eşqindən özünü elə itirmişdi ki, onu gördüyünü və ya nə etdiyini xəbər verənlərə ən bahalı cəvahiratını verirdi. Bu hadisə Misir aristokratiyasının ən böyük qalmaqalı olmuş, hər kəs ondan - ərinin quluna heç utanmadan aşiq olmuş bir qadından danışırdı.

Burada böyük bir həqiqət vardır. Bu heç də ali eşqlərdən deyildi. İçində bir sıra gizli şeyləri saxlayırdı. Belə eşqlər sizə kim olduğunuzu unutdura bilər. Sizi içində yaşadığınız cəmiyyətin ənənələrindən və qınamalarından qoruyar.

İllər sonra Yusif və Züleyxanın mövqeləri tamamilə tərsinə döndü. Yusif fironun dostu və məsləhətçisi, yəni ölkədə ən güclü ikinci adam olmuşdu, Züleyxa isə dilənərək və ən ağır işləri görərək özünü dolandırırdı.

Yusif bir gün ipək paltarını geyinib, gözəl madyanına minərək müşavirləri və əsgərləri ilə yol gedərkən küçədəZüleyxanı gördü. Züleyxa acınacaqlı halda idi. Aradan keçən illər gözəlliyini

əlindən almışdı. Yusif: "Züleyxa, mənimlə evlənməyi istədiyin zaman səni ala bilməzdim, çünki ağamın arvadı idin. Artıq azadsan, mən də qul deyiləm. Əgər istəsən səninlə evlənə bilərəm" – dedi. Züleyxa ona baxdı və gözləri fərqli bir işıqla parıldadı. "Xeyr, Yusif, sənə olan eşqim mənimlə əsl Məhbub arasında olan bir pərdə imiş. O pərdəni əlhəmdulillah cırdım.Həqiqi eşqi tapmağıma görə artıq sənin eşqinə ehtiyacım yoxdu" – dedi.

Yusifə olan o böyük eşqi vasitəsilə Züleyxa hamımızın axtardığı həqiqi eşqə sahib oldu".[91]

## MÜRİDLƏRİN ŞƏMS TƏBRİZİYƏ VERDİKLƏRİ SUALLAR

Ş.Təbrizinin müridləri belə bir sual etdilər: – Pirim, qəlbləri çürüdən hallar nədir? Bəzən biz aramızda mübahisə edirik. Amma bu məsələdə anlaşa bilmirik. Sizin fikirlərinizi öyrənsək şad olarıq.

- On pis xislət ucbatından qəlbləriniz ölüb. "Allah qəlbləri ölmüş olanların duasını qəbul etməz". Bu on pis xislət bunlardır:

1. Allahı tanıdığınızı deyir, lakin Ona olan borcunuzu vermirsiniz. Bu borcu kasıb və möhtaclara ehsan verərak ödəyin.

2. Qurani-Kərimi oxuyursunuz, lakin hökm və qaydalarından xəbəriniz yoxdur. Oxuduqlarınıza əməl edin.

3. Şeytanın düşməniniz olduğunu deyir, amma ona itaət edirsiniz. Onun təkliflərini radd edin.

4. Ozünüzü Muhamməd ümmətindan sayır, amma sünnəyə əməl olmaya çalışmırsınız.

5. Cənnətə girmək istədiyinizi söyləyir, amma ora girmək lazım olan əməllərin heç birini etmirsiniz.

6. Oddan qorunmaq istəyir, amma günahlarınız və pis

---

[91]Sinan Yağmur. "Eşqin göz yaşları" səh., 154-155

əməllərinizlə özünüzü müntəzəm olaraq ona tərəf sürükləyirsiniz.

7. Ölümün hər kəsə gəldiyini bilir, lakin ona heç bir hazırlıq görmürsünüz.

8. Bütün din qardaşlarınızın xətalarını görür, lakin öz xətalarınızı görmürsünüz.

9. Allahdan gələn bütün nemətləri şükür etmədən yeyir və istifadə edir, amma ona olan minnətdarlığınızı sizə verdiyi nemətlərdən möhtaclara sədəqə verərək göstərmirsiniz.

10. Ölülərinizi eyni sonluğun sizin də başınıza gələcəyini bilə-bilə, ibrət almadan basdırırsınız.

Peyğəmbərlər və vəlilər güzgü kimidirlər; necə ki güzgü bizə üzümüzdəki kiri göstərir, övliyaullah da sizə xətalarınızı göstərirlər.

- Eşitdiyimizə görə, Şəms adını Şəms surəsindən təsirlənərək götürmüsünüz. Ayədə deyilir: "Nəfsinin boyunduruğundan qurtulanlar, məhz onlar nicat tapanlardır”. Bu ayədəki hikməti açıqlaya bilərsinizmi?

- Ruh bu dünyaya aid deyil, Haqq qatından gəlmişdir. Ruh bədənə girəndə qəfəsə girmiş kimi olur. Orada məhbus kimi yaşayır. Bədənimizdə müxtəlif şeyləri edə bilməyimizə imkan yaradan orqanlar vardır; məsələn, qəlbimiz. Amma bədəndə bu fiziki istəkləri gerçəkləşdirməyə güc olmadığı üçün ruhdan dəstək alır. Güc ruhdadır, lakin vasitələr bədəndədir.

Ruh bu vasitələrlə arzuolunmaz hərəkətlər etdikdə ruhun vəsflərindən danışılır. Allah çirkin və pis olan heç bir şey yaratmamışdır. Pis və çirkin olan bizim öz cüzi iradəmizlə etdiyimiz sui-istifadələrdir.

İndi bu vəziyyətdə pis hərəkətlərimizə görə kim cavabdehdir, ruh yoxsa bədən? Qiyamət günündə bədən ruhu "pislik etməyə gücüm yox idi" deyərək, ruh da bədəni "pislik etməyə vasitəm yox idi" deyib günahlandıracaq. Bir-birilərini günahlandırmalarına bu cavab veriləcəkdir: Siz pislikdə bir-birilərinə kömək etmiş olan

fəaliyyətsiz və kor kimisiniz. Fəaliyyətsiz görür va qərarları verirdi, lakin korda pisliyi edəcək bədən və güc vardı. İkisi də günahkar idilər.

Nəfs öz-özlüyündə pis bir şey deyil, nəfsinizi günahlandırmayın. Təsəvvüf təliminin ən vacib qayəsi də nəfsin mərtəbəsini yüksəltməkdir. Nəfsin ən aşağı mərtəbəsində ətrafınız tamamən bədəni və şəhvani arzularla əhatə olunmuşdur. İkinci mərtəbədə etdiyiniz hər pisliyi görüb əsəbiləşir və hər şeyi Allahın rizasına uyğun etməyə çalışırsınız. Sonraki səviyyədə isə xeyir və ya şər olmasına baxmadan Allahdan gələn hər şeyə razı olursunuz.

Allah "Biz Adama ruhumuzdan üfürdük... " deyə buyurmuşdur. Bax ölüm anındakı "Dön Rəbbinə" əmrinə qədər bədəndə həbsdə olan ruh bu ruhdur. Ruhun ən aşağı səviyyələri bədəni tərk etmək istəmir. Artıq bir növ bədənin bir parçasına çevrildikləri oranı tərk etmamak üçün üsyan edirlər.

- Bəs, peyğəmbərlərin və vəlilərin ruhları necədir?

- Onların ruhları bizimkilərdən tamamilə fərqlidlr. Daha təmizdir. Bu kamil insanların bədənindəki dünyəvi maddələr dünyanın ən mübarək və təmiz yerlərindən alınmışdır. Badanlari pislik etmədiyi və tamamilə təmiz olduğu üçün ruh belə bədənlərə girəndə heç bir şəkildə çirklənməz. "Nəfsini bilən Rəbbini bilər!" sözünü demək olar ki, hər kəs bilir. Bunun iki mənası vardır.

İlk mənası budur: öz ehtiyac, arzu və zəifliklərimizi bilir, bununla bərabər sonsuz qüdrət sahibi olan Allaha iman edirik. Daha sonra da bizi bu dünyada bəsləyən, geyindirən və sığınacaq verən bir qoruyucuya ehtiyacımız olduğunu bilirik. İkincisi daha sirli bir açıqlamadır. Allah: "Sizə şah damarınızdan daha yaxınam" - deyə buyurmuşdur. Ozümüzü tanıma müddətində Allahla olan bu dərin əlaqəni kəşf etməyə başlayırıq. Bu əlaqədən istifadə edərək Haqqa vasil oluruq. Bu dünyada ikən Allaha dönə bilmək, yəni ölmədən əvvəl sadəcə və sadəcə Onun əmrlərinə tabe olmaqla mümkündür. Allahın iziylə getməyib şeytana uyanlar ayrılacaqlar.

Bir salxım təsəvvürünüzə gətirin. Salxımdan qopan hər dənə dərhal çürüyür, amma qoparılmayanların ömrü uzun olur. Üzüm dənəsi salxımda qaldığı müddətcə bəslənir. Hər şey eynidir və zatı etibarı ilə gözəldir. Çirkin olan sadəcə zahiri sifətlərdir.

- Yuxularımız ruhumuzun səyahətindəki görüntülərdənmi təşəkkül tapır?

- Qəndildən ətrafa yayılan işığa bənzəyən ruh yuxudaykən bədənlə olan əlaqəsini qoparmadan onu tərk edir. Bu işıq lövhi-mehfuza (gizli lövhə) qədər uzanır və özü ilə əlaqəli olan hissələri "oxuyur". Oyandıqda əl fənərinin söndürülməsi kimi ruh da bədənə geri qayıdır. Ruhun bu tərzdə uzaqlara gedə bilməsi nəticəsində adi halda öyrənilməsi imkansız olan bəzi şeyləri öyrənə bilirik. Lakin bu öyrəndiklərimiz hər zaman ilahi elmin cüzi hissəsidir.

Yuxuda gördüyümüz əşya və simvolların hansı mənaya gəldiyini sadəcə həqiqətən elmli olanlar bilirlər; lakin bu simvollardan çıxarılan nəticə səviyyədən səviyyəyə, insandan insana və ruhdan ruha dəyişə bilir.

- Ruhlar da bizim kimi növbənövdür?

- Hər kəsdə yeddi dnə ruh vardır. Ruh-u mədəni, ruh-u nəbati, ruh-u heyvani, ruh-u insani, ruh-u mələki, ruh-u sirr və ruh-u sirri-us sirr. Yuxudakı simvollar bağlı olduqları ruh səviyyəsinə, onları qavrayan ruha və görən adama görə fərqli olur. Sultan nökər ilə eyni yuxunu görə bilər, amma mənaları fərqlidir.

Yuxunu hansı səviyyəli ruhun gördüyü çox vacibdir. Ruh-u heyvani və nəbatinin gördüyü yuxular insanın istəklərini və nəfsani arzularını əks etdirir. Məsələn, ac yatsanız yuxuda böyük ehtimalla yemək görəcəksiniz. Məsələn, ilan mal anlamına gələ bilər, amma dərviş tərəfindən görüləndə aşağı dərəcədəki ruha işarə oluna bilər.

- Övliya olmaq yaxşıdır, yoxsa ilahiyyatçı?

- Əgər mənəviyyat (lədün elmi) bəhs və təhsil yolu ilə

öyrənilsəydi, onda Fəxrəddin Razinin hüzurunda Bəyazid və Cüneydin dərd-qəmin ucbatından başlarına dünya boyda torpaq tökmələri və ən az yüz il ona şəyirdlik etmələri lazım idi. Deyilənlərə görə, Fəxrəddin Razi Quranın təfsiri ilə bağlı minə yaxın səhifədən ibarət kitab yazmışdır. Amma heyif ki, yüz min Razi kimisi Bəyazidin küçəsinin tozu belə olmaz. O, çöl qapısının toxmağını döyən adamdır. İçəridəki qapı toxmağına çata bilməz. Belə ki, o qapı xalis dostlara açılır. Bayırdakılar ora ayaq basa bilməzlər.

Bəzi ərənlərin kəraməti gizlidir. Gizli olduqları üçün hər kəsə sirlərini açıqlamazlar. Sizə bu haqda bir neçə əhvalat danışım:

Bəyazid həmişə Həccə piyada gedərdi. Yetmiş dəfə Həccə getmişdi. Bir gün yolda insanların susuzluğa görə acınacaqlı vəziyyətə düşdüklərini gördü. Quyunun yanında bir dənə də it var idi. Hacılar quyunu əhatələdikləri üçün it suya yaxınlaşa bilmirdi. İt ona baxar-baxmaz ona bu ilham gəldi:"Get iti su ilə təmin et". Dərhal qışqıraraq elan etdi: "Bir tas suyun əvəzində tərtəmiz və məqbul bir həcci bağışlayıram, istəyən varmı?" Heç kəs fikir vermədi. Bəyazid artırmağa davam etdi: "Altı, yeddi piyada gedilən Həccə qarşılıq". Amma yenə kimsədən səs çıxmadıqda əlacı kəsilib dedi: "Onda yetmiş dəfə edilən həccin hamısını bağışlayıram". Bu dəfə bir nəfər irəli çıxıb bu təklifi qəbul etdi. Həmin vaxt Bəyazidin ağlından bu fikir keçdi: "Nə yaxşı adamam. Bir itə görə həclərimi satdım". Suyu bir tasa töküb itə uzatdı, it üzünü başqa tərəfə çevirdi. Bundan sonra Bəyazid səcdəyə gedib tövbə etdi və ona bu ilham gəldi: "Nə vaxta qədər lovğalanaraq "mən Allah üçün bunu etdim, onu etdim" deyəcəksən. Gördün ki, it belə suyunu qəbul etmədi". Ağlayaraq dedi: "Tövbə etdim, artıq belə düşünməyəcəyəm". Bu sözdən sonra it başını suya tərəf çevirib suyu içməyə başladı.

- İçimizdə bəzən ölüm qorxusu peyda olur. Bunu dərvişliyimizə yaraşdırmır və özümüzdən utanırıq. Olüm

qorxusuna necə qalib gələ bilərik?

- Peyğəmbərimizin bir hədisi var: "Möminlər ölmürlər, amma köçürlər". Yəni, ölüm ayrı şeydir, köçmək ayrı. Məsələn, sən dar və qaranlıq evdəsən, orada gəzə, ayaqlarını uzada bilmirsən, lakin oradan geniş bağçalı bir imarətə köçsən buna ölüm deyilərmi? Bu sözlərim ayna kimi açıq-aydındır. Əgər səndə aydınlıq və zövq varsa ölümü arzu et (qorxma). Allah sənin köməyin olsun! Təbrik edərik, məni də dualarından ayırma. Əgər belə bir maraq və arzu səndə yoxdursa, onda belə bir marağı yarat, axtar və cəhd et; çünki Quranda bunu necə edəcəyin haqda bu məlumat vardır: “Əgər Allah yanında axirət evi başqa insanlara deyil, yalnız sizə məxsusdursa və əgər siz doğru deyirsinizsə, onda ölüm istəyin!" Kişilər və qadınlar arasında mütləq belə səmimi imana sahib insanlar vardır. Bu sözlər sizə ayna olsun və özünüzü bu aynada görün. Ölümə nifrət etmədikcə hansı halda və işdəsinizsə yaxşı sayılır. Əgər bir işdə və halda çəkingənlik oldusa, bu aynaya bax və qərar ver. Parlaq bir işıqda oturub ölümə hazırlaş və gözlə, yaxud çalışıb-əlləşənlər kimi sən də çalışıb bu halı əldə et.

İgid adam pis günündə yaxşı və kədərli ikən xoşbəxt olmağı bacaran insandır; belə ki, muradlar muradsızlıq içində gizlidir. Ümidsizlikdə nə qədər ümid vardır, amma dərhal qayğılanıb narahat olmaq əsl ümidsizlikdir. Mən qızdırmalı və xəstə ikən sevinc içində idim; çünki bilirdim ki, sabah səhhətə qovuşacağam və səhhətli ikən sabah xəstə ola biləcəyim barədə narahatçılığım vardı. Bəzən deyirlər: "O yeməyi yeməsəydim, bu gün xəstə olmazdım". Bu sözlərlə təsəlli axtarırlar. İgid isə hər cür çətinliyə dözə bilən insandır. Onun ucalığı budur. O, bu cür kamil insan olmuşdur.

- Haqqı tanımaq xalqı tanımaqdan daha asandır?

- Bu insanları anlamaq Allahı anlamaqdan daha çətindir. Allahı dəlilləri ilə tapa bilərsən. Məsələn, üzərində gözəl işləmələr olan taxta parçasını görəndə o işi görəni təsəvvüründə canlandıra

bilirsən. Çünki taxta öz-özünə o vəziyyətə gələ bilməz. İnsanlara baxanda zahirdə onlar sənə bənzəyə bilərlər, amma daxili aləmlərini bilə bilməzsən. Sənin düşüncə və xəyallarından çox uzaq ola bilərlər. İşlənmiş taxta parçasına baxaraq sənətkarın ustalığını dərk edə bilərsən, amma o sənətin genişliyini yalnız övliyalar anlaya bilərlər.

Bəli, dərvişlər, mənə çoxlu suallar verdiniz. Bir sual da mən sizə verimmi?

- Buyurun, soruşmağına soruşun, amma sizin suallarınızın qiyamətin şeypurundan betər olduğunu eşitməyən yoxdu.

- Nəyə ağlayırsırıız?

- ……

- Cavabmı mən sizlərə bir dərviş hekayəsi ilə verim. Bir sufi illərdən bəri İlahi sirri axtarırdı və bunun üçün çox çabalayıb-əlləşirdi. Harda bir şeyx və ya övliya görsə ona qulluq edirdi, amma hələ zamanı gəlmədiyi üçün muradına çata bilmirdi və məna qapısı heç cürə açılmırdı.

***Vaxtı gəlməyincə nə işin olursa olsun,***
***Sənə yararı olmaz, dostun kim olursa olsun.***

Bir gün qəbiristanlığa getdi. Yadına axtarışı düşdü. Çox ağladı və başını bir kərpicin üstünə qoyub yuxuya getdi. Yuxuda bütün istəyi yerinə yetdi. Qalxıb kərpici qoltuğunun altına qoydu. Hara gedirsə-getsin - hamama, məscidə, ayaqyoluna, bazara, əlqərəz hər yerə onu da özüylə aparırdı. Kərpici öpər, üzünə sürtər və bəzən başına qoyardı. Bir nəfər soruşdu: "Niyə bu kərpici bir kənara qoymursan?" "Məzara qədər aparıb bunu özümə yastıq edəcəyəm. Uzun müddətdən bəri məndə olan bir xüsusiyyəti itirmişdim; ümidlənər, sonra ümidimi itirərdim. Axırda bu kərpicə başımı qoyanda muradıma çatdım". Peyğəmbər (s.ə.s) in bir hədisi var: "Əgər kimsə bir şey vasitəsilə Allah lütfünü əldə edərsə, ona

çox möhkəm bağlanmalıdır".

Bir kişi ölmüşdü. Ağıçını çağırdılar. O, yaxınlarından soruşdu: "Bu adamın nə kimi hünəri vardı? Elmi var idi? Cavab verdilər: "Xeyr", "Bəs ibadətə meyilli idimi?" Dedilər: "Xeyr". Ağıçı qibləyə çevrilib yenidən soruşdu: "Fəqir-füqəraya kömək edərdimi?" Dedilər: "Xeyr".

Xülasə, nə soruşdusa, mənfi cavab aldı. Ağıçı ağlamağa başlayıb dedi: "Ey çaşqın gəlib çaşqın qurtulan, çaşqın doğulub çaşqın ölən insan!"

İndi, ay dərvişlər, kərpicdən öyüd alan dərvişsiniz, yoxsa ağıçının ağladığı çaşqınsınız? (S.Yağmur "Eşqin göz yaşları". Səh., 155-162).

## ŞƏMS TƏBRİZİ VƏ SUFİLİYİN QIRX QIZIL QAYDASI

Sufiliyin bir cərəyan olaraq meydana çıxdığı ilk çağlardan bir çox ünlü sufi şeyxləri "sufi necə olmalıdır?","sufi necə düşünməli, necə davranmalıdır?", "sufi hansı özəlliklərə sahib olmalıdır?" və digər bu kimi suallara cavab verməyə çalışmışlar. Ayrı-ayrı sufi mürşidlər öz çıxışlarında bu sualların cavabını ümumi və ya bəndlər şəklində cavablamışlar.Lakin bunların heç biri bu sualları bütünlüklə əhatə etməmiş, yalnız bəlli bir qismini qapsamışdır. İlk dəfə olaraq sufilik tarixinin ən ünlü şeyxlərindən olan Şəms Təbrizi uzun düşüncələr sonucu bu suallara dolğun cavabları özündə əks etdirən,sufiliyi bu gün belə yaşam tərzi olaraq seçənlər üçün keçərli ola biləcək "Sufiliyin qırx qızıl qaydası"nı hazırlamışdır. Tam adı **Şəms əd-Din Muhəmməd ibn Əli ibn Məlikdad Təbrizi** olan bu ünlü mürşid 1185-ci ildə əski Azərbaycan şəhəriTəbrizdə doğulub. Milliyətcə Azərbaycan türkü olan Şəms Təbrizi gənc yaşlarında "mürşidi-kamil" məqamına ucalan nadir

sufilərdəndir. Qaynaqların yazdığınagörə Şəms Təbrizihazırcavab, bilikli və yetkin bir mürşid olmasıyla bərabər həm də görünüşcə çox gözəl simaya malik olub. Öz yüksək yetənəkləri və üstün özəllikləri ilə çoxlarını heyran edən Şəms Təbrizi digər ünlü sufi şeyxi Mövlanə Cəlaləddin Ruminin hədsiz dərəcədə sevdiyi və sayğı bəslədiyi bir dostu və ustadı olmuşdur. Cəlaləddin Rumi Şəms Təbriziyə olan münasibətini şeirlərinin birində belə açıqlayır:

***Sənə istəkdən doğan göz yaşlarımla dəstamaz alıb***
***Namaz vaxtı sənin üzünü qibləyə çevirdim.***
***Əgər sənsiz diri qalsam***
***Məni axıra qədər yandır.***
***Mənim başımı əlimdən al***
***Əgər ondakı ağıl sənin olmayacaqsa!***
***Kəbədə, kilsədə, məsciddə sənə dua edirəm***
***Sən mənim məqsədimsən, həm yerdə, həm göydə!***
***Mən sənin çörəyini yeyib büsbütün doymuşam***
***Mən sənin suyundan bir qurtum içmişəm, mənə su lazım deyil.***
***Kimə pərəstiş edirsənsə, sənin qiymətin də o həddədir,***
***Sənə pərəstiş etməklə mən necə də xoşbəxtəm!***

Lakin Şəms Təbrizinin yüksək özəllikləri heç də ona hər yerdə sevgi və sayğı qazandırmırdı. Bu həm də onu sevməyən, varlığını görmək istəməyən insanların oluşmasına meydan açırdı. Bu üzdən Şəms Təbrizinin ölümü müəmmalıdır. Nədən və hansı şəraitdə öldüyü haqda dəqiq bilgi yoxdur. Bəzi araşdırmaçıların dediyinə görə qısqanclıq sonucunda 1248-ci ildə Konyada təriqət mənsubları olan sufilər tərəfindən öldürülmüşdür.Şəms Təbrizinin çıxışları və söhbətləri ölümündən sonra üç bölmədə “Məqalət” adıyla kitab şəklinə salınmışdır. Araşdırmaçı M. N. Gençosman Şəms Təbrizinin Türkiyə türkcəsinə çevirdiyi “Makalat” əsərinə yazdığı ön sözdə onun ömrünün sonlarında Konyadan Şama

qayıtdığını, oradan Təbrizə getddiyini və Təbrizdə vəfat etdiyini yazır.

Necə və hansı şəraitdə öldüyü müəmmalı olsa da onunaydın və dərin anlam daşıyan **hikmətli sözləri**yüz illərdi çıxışların və yazıların bəzəyi, düşüncələrin yön vericisidir. Onun hikmət dolu sözləri "Seyri-süluk" olanlar üçün bu gün də dəyərini və əhəmiyyətini itirməyən mənəvi xəzinədir;

*-Qadın bilənə "nəfəs", bilməyənə "nəfs"dir,*

*-İnsanda olan bütün özəlliklər şeytanda da var. Şeytanda olmayan tək insani özəllik Eşqdir. Şeytanın insanı çəkə bilməməsinin nədəni eşqsizliyidir.*

*-Tanrı bir insanı sənin əlinlə ayağa qaldıracaqsa, sən əlini necə uzatmazsan? Tanrı səni insanlara sevdirmək istəyir. Tanrı sənin dağılmış parçalarını toplayır. Eşqə dönüklük etmə.*

*-Eşq odur ki, Tanrıdan aldığı eşq əmanətini Tanrıya verir. Eşq məzhəbində hər şey uca Eşqə qurbandır.*

*-İnsan məşuq aramır, məncil duyğularına kölə arayır. Köləni tapır, amma eşqi tapa bilmir.*

*-Ey Könül! İndi səndən soruram: Hansı Eşq daha böyükdür? Anladılaraq dilə düşənmi, anladılmayıb ürək deşənmi?*

*-Öncə sevgini anlayaq.*

*-Tanrı sənin qapından eşq sarayına bir insan qəbul edəcəksə, o insana necə "mən səni sevmirəm" deyirsən?*

*-Bütün aləm şərab içib sərxoş olur, biz eşq əhliyik, içmədən sərxoş oluruq.*

*-Qapımıza deyil, qəlbimizə vuran buyursun...*

Şəms Təbriziyə görə insanı şeytandan fərqləndirən tək şey Eşqdir. Eşqi olmayan insan şeytanın tərəfindədir.Düşüncə və görüşlərində daha çox Eşqə - Tanrı Eşqinə, yaradılış eşqinə önəm verən, "Sevməyənə qarışqa yükdür, sevənə fillər qarışqa, Dağı belə daşıyar insan, aşiq olub inanınca" – deyən Şəms Təbrizi "Sufiliyin

qırx qızıl qaydası"nı yazmışdır. Sufilər üçün bu gün də "qızıl qayda" olaraq qalan və əhəmiyyətini itirməyən həmin qırx qızıl qayda bunlardır:

**1.**Tanrını hansı sözlərlə və necə tanıtmağımız, özümüzü necə gördüyümüzə güzgü tutar. Tanrı deyiləndə öncə ağlına qorxulacaq və utanılacaq bir varlıq gəlirsə, demək sən də qorxu və utanc içindəsən. Lakin Tanrı deyiləndə öncə eşq, mərhəmət və şəfqəti düşünürsənsə, sən bu gözəlliklərlə dolusan-deməkdir.

**2.**Haqq yolunda irəliləmək ürək işidir, ağıl işi deyil. Səni nişan verən daim ürəyin olsun, çiynin üzərindəki başın deyil. Nəfsini bilənlərdən ol, silənlərdən deyil.

**3.**Qutsal kitab dörd səviyyədə oxuna bilir. İlk səviyyə zahiri anlamıdır. Sonrakı batini anlamdır. Üçünücü batininin batinidir. Dördüncü səviyyə o qədər dərindir ki, bu səviyyəni açıqlamağa kəlmələr bəs etmir.

**4.**Kainatdakı hər zərrədə Tanrının sifətlərini tapa bilərsən. Çünki, o, məsciddə, kilsədə, hər hansı məbəddə deyil, hər an hər yerdədir. Tanrını görüb yaşayan olmadığı kimi, Onu görüb ölən də yoxdur. Kim Tanrını tapa bilərsə, sonsuzadək Onda qalar.

**5.**Ağlın kimyası ilə eşqin kimyası başqadır. Ağıl təmkinlidir. Addımlarını qorxa-qorxa atar, "özünü qoru"- deyə tənbeh edər. Ancaq, eşq elədirmi? Eşqin tək dediyi: "Özünü burax, qoy getsin". Ağıl asanlıqla yıxılmaz. Eşq isə özünü yıpradar. Halbuki, xəzinələr və dəfinələr yıxıntılar arasında olur. Nə varsa xaraba bir qəlbdə var.

**6.**Bu dünyadakı qarşıdurma, mühakimə və çəkişmələrin çoxu dildən qaynaqlanır. Sən, sən ol, sözlər üzərində həddən artıq dayanma. Eşq diyarında dil zatən öz hökmünü itirir, aşiq dilsiz olur.

**7.**Bu həyatda təkliyə çəkilərək, sadəcə öz səsinin yanğısını duyaraq həyatı kəşf edə bilməzsən. Özünü ancaq başqa bir insanın güzgüsündə aydın görə bilərsən.

**8.**Başına nə gəlirsə gəlsin, bədbinliyə qapılma. Bütün qapılar qapansa belə, sonunda O, kimsənin bilmədiyi gizli bir cığır açar. Bu an sən görməsən də, dar keçidlər arxasında neçə cənnət bağçaları var. Şükür et! İstədiyini əldə edincə şükür etmək asandır. Sufi, dilədiyi gerçəkləşməyəndə də şükür edə biləndir.

**9.**Səbr etmək eləcə durub gözləmək deyil, irəli görüşlü olmaq deməkdir. Səbr nədir? Səbr, tikana baxıb gülü, gecəyə baxıb gündüzü düşünə bilməkdir. Tanrı aşiqləri səbri şirin bişmələr kimi dadlı-dadlı yeyər və həzm edər. Onlar bilirlər ki, göydəki ayın dolunaya dönməsi üçün zaman gərəkdir.

**10.** Hansı yönə gedərsən get – Doğu, Batı, Quzey ya da Güney – çıxdığın hər yolçuluğu öz içinə doğru bir səyahət olaraq düşün. Öz içinə yolçuluq edən insan sonda bütün varlığı gəzib dolaşır.

**11.**Şəfqət bacısı bilir ki, sancı çəkmədən doğum olmaz, ana bətnindən körpəyə yol açılmaz. Səndən yepyeni bir "sən" doğması, zühur edə bilməsi üçün çətinliklərə, sancılara hazır olman gərəkdir.

**12.**Eşq bir səfərdir. Bu səfərə çıxan hər yolçu istəsə də, istəməsə də təpədən dırnağa qədər dəyişir. Bu yolu gedib də dəyişməyən yoxdur.

**13.**Bu dünyada səmadakı ulduzlardan daha artıq sayda saxta hacı, xoca, şeyx var. Həqiqi mürşid səni öz içinə baxmağa və nəfsini aşıb özündəki gözəllikləri bir-bir kəşf etməyə yönləndirir, ona heyran olmağa deyil.

**14.** Haqqın, qarşına çıxardığı dəyişimlərə dirənmə, təslim ol. Qoy həyat sənə qarşı deyil, səninlə bərabər davam etsin. "Düzənim pozulur, həyatım alt-üst olur"- deyə əndişələnmə. Hardan bilirsən həyatın altının üstündən daha gözəl olmayacağını?

**15.**Tanrı hər zaman hər birimizi içdə və zahirdə tamama yetişdirmək - kamilləşdirməklə məşğuldur. Tək-tək hər birimiz tamamlanmamış bir sənət əsəriyik. Yaşadığımız hər hadisə,

adladığımız hər çətinlik əskiklərimizi aradan qaldırmaq üçün uyğulanmışdır. Tanrı nöqsanlarımızla ayrı-ayrı məşğuldur, çünki, bəşəriyyət deyilən əsər qüsursuzluğu hədəf seçmişdir.

**16.**Tanrı qüsursuzdur. Bu üzdən Onu sevmək asandır. Çətin olan nöqsanı və savabı ilə insanları sevməkdir. Unutma ki, insan bir şeyi ancaq sevdiyi ölçüdə bilə bilir. Demək ki, qucaqdakından irəlini, Yaradandan ötrü yaradılanı sevmədən nə layiqincə bilə bilərsən, nə də layiqincə sevə bilərsən.

**17.** Əsas çirkinlik çöldə deyil, içdə, ürəkdə olur. Onun xaricində hər ləkə nə qədər pis görünürsə görünsün, yaxalananda təmizlənər, su ilə arınar. Yaxalamaqla təmizlənməyən tək pislik ürəklərdə yağ bağlamış həsəd və pis niyyətlərdir.

**18.** Bütün kainat nizamlı təbəqələri və qarmaşıqlığı ilə insanın içində gizlənmişdir. Şeytan, çölümüzdə bizi yönəltməyi gözləyən qorxunc bir məxluq deyil, şəxsən içimizdə olan bir səsdir. Şeytanı özündə ara, çölündə və başqalarında deyil. Bir də unutma ki, nəfsini bilən Rəbbini bilir. Başqalarıyla deyil, sadəcə özü ilə uğraşan insan sonunda mükafat olaraq Yaradanı tanıyır.

**19.** Başqalarından sayğı, ilgi və ya sevgi gözləyirsənsə, öncə sırası ilə özünə borclusan bunları. Özünü sevməyən birinin sevilməsi mümkün deyil. Sən özünü sevdiyin halda dünya sənə tikan yolladımı, sevin. Yaxında gül yollayacaq deməkdir.

**20.** Yolun sonunun haraya varacağını düşünmək əbəs yerə çabalamaqdır. Sən sadəcə atdığın ilk addımı düşünməyə məsulsan. Gerisi zatən özlüyündən gəlir.

**21.** Hamımız fərqli sifətlərlə var olduq. Əyər Tanrı hər kəsin eyni olmasını istəsəydi, heç şübhəsiz elə yaradardı. Fərqliliklərə sayğı göstərmək, öz doğrularını başqalarına yeritməyə çalışmaq, Haqqın qutsal nizamına sayğısızlıq etməkdir.

**22.**Həqiqi Tanrı aşiqi bir meyxanaya girdimi, ora ona ibadətgah olur. Ancaq əyyaş ibadətgaha girərsə, ora onun üçün meyxana olur. Bu həyatda nə edirsək edək, bizi fərqli edən

niyyətimizdir, görünüş və geyimimiz deyil.

**23.** Yaşadığımız həyat əlimizdə tutulmuş rəngarəng və əmanət bir oyuncaqdır. Kimisi oyuncağı o qədər ciddiyə alır ki, ağlayar, qəmgin olar onun üçün. Kimisi əlinə alar-almaz oyuncağı qurcalar və qırıb yerə atar. Ya aşırı (həddən artıq) qiymət verir, ya da dəyərini bilmərik. Aşırı olmaqdan uzaq dur. Sufi nə ifratdadır, nə də təfritdə. Sufi daim orta məqamdadır.

**24.** Bir halda ki, insan məxluqatın əşrəfidir, yəni varlıqların ən şərəflisidir, deməli atdığı hər addımda Tanrının yer üzündəki xəlifəsi olduğunu xatırlayaraq ona yaraşanşəkildə hərəkət etməlidir. İnsan yoxsullaşarsa, iftiraya uğrayarsa, həbsə girərsə, hətta əsir olarsa belə, yenə başı dik, gözü tox, könlü əmin bir xəlifə kimi davranmaqdan vaz keçməməlidir.

**25.** Cənnəti və cəhənnəmi əsla gələcəkdə arama. İkisi də bu an mövcuddur. Nə zaman bir insanı təmmənnasız, qarşılıqsız və bazarlıq etmədən sevməyi bacarsaq o zaman cənnətdəyik əslində. Nə zaman biriylə qovğa etsək, nifrətə, həsədə və kinə bulaşsaq kəlləmayallaq cəhənnəmə düşmüş oluruq.

**26.** Kainat tək vücud, tək varlıqdır. Hər şey və hər kəs görünməz iplərlə bir-birinə bağlıdır. Əsla kimsənin ahını alma,bir başqasının, özəlliklə səndən zəif olanın canını yandırma. Unutma ki, dünyanın o başındakı bir insanın kədəri bütün insanlığı qəmgin edə bilər. Və bir insanın səadəti hər kəsin üzünü güldürə bilər.

**27.** Bu dünya bir dağ kimidir, ona necə səslənsən, o da sənə eyni səsləri əks etdirər. Ağzından xeyirli söz çıxarsa xeyirli söz əks olunar, şər söz çıxarsa sənə şər əks olunacaq. Eləsə kim ki, sənin haqqında pis danışır, sən o insan haqqında qırx gün qırx gecə sadəcə gözəl sözlər danış. Qırx günün sonunda görəcəksən hər şey dəyişmiş olacaq. Sənin könlün dəyişərsə dünya dəyişər.

**28.** Keçmiş, zehinlərimizi qapayan dumandan, buluddan ibarətdir. Gələcək isə başlı başına bir xəyal pərdəsidir. Nə gələcəyimizi bilə bilir, nə də keçmişimizi dəyişdirə bilirik. Sufi

daima bu anın həqiqətini yaşar.

**29.** Qədər, tale həyatımızın öncədən yazılmış olması deməkdir. Bu səbəbdən "nə edək, həyatımız belədir" –deyib boyun bükmək cəhalətin göstəricisidir. Qədər yolun tamamını deyil, sadəcə yol ayrımlarını verir. Keçilən yollar bəllidir, amma bütün döngə və yolun ayrımları yolçuya aiddir. Eləsə, nə həyatının hakimisən, nə də həyat qarşısında çarəsizsən.

**30.** Həqiqi sufi elə biridir ki, başqaları tərəfindən qınansa, ayıblansa, dedi-qodusu edilsə, hətta iftiraya uğrasa belə, ağzını açıb kimsə haqqında tək bircə kəlmə pis söz danışmaz. Sufi qüsur görməz, qüsur örtər.

**31.** Haqqa yaxınlaşa bilmək üçün ipək kimi bir qəlbə sahib olmalısan. Hər bir insan bu və ya digər şəkildə yumşalmağı öyrənir. Kimisi qəza keçirir, kimisi ölümcül xəstəlik, kimi ayrılıq acısı çəkir, kimi də maddi sıxıntı... Hamımız qəlbdəki qatılıqları çözməyə fürsət verən təhlükəli durumlardan keçirik. Amma kimimiz bundakı hikməti anlar və yumşalar, kimimiz isə nə yazıq ki, daha da sərtləşərək çıxar.

**32.** Aranızdakı bütün pərdələri tək-tək qaldır ki, Tanrıya saf bir eşqlə bağlana biləsən. Qaydaların (kuralların) olsun, ancaq qaydalarını başqalarını uzaqlaşdırmaq, yaxud mühakimə etmək üçün istifadə etmə. Özəlliklə bütlərdən uzaq dur, dost... Və əsla doğrularını bütləşdirmə. İnancın böyük olsun, amma inancını böyük görmə!

**33.** Bu dünyada hər kəs bir şey olmağa çalışırkən sən HEÇ ol. Mənzilin yoxluq olsun. İnsanın saxsı qabdan fərqi olmamalı. Necə ki, saxsı qabı tutan çölündəki biçimi deyil, içindəki boşluqdusa, insanı da ayaqda tutan mənlik zənni deyil, heçlik bilincidir.

**34.** Haqqa təslim olmaq nə zəiflik, nə də süstlükdür. Tam tərsinə, belə bir təslimiyyət son dərəcə güclü olmağı tələb edir. Təslim olan insan çalxantılı və burulğan sularda çırpınmağı buraxır, əmin bir məqamda yaşayır.

**35.**Bu həyatda yalnız təzadlarla irəliləyə bilirik. Mömin içindəki münkirlə tanış olmalı, Tanrıya inanan insan isə içindəki inananla tanış olmalıdır. Kamil insan qatına yetişənə qədər insan addım-addım irəliləyər. İnsan yalnız təzadları qucaqlaya bildiyi qədər olqunlaşar, kamilləşər.

**36.** Hiylədən və fırıldaqdan əndişə etmə. Əgər biriləri sənə tələ qurur, zərər vermək istəyirsə, Tanrı da onlara zərər vurur. Çuxur qazanlar o çuxura özləri düşər. Bu sistem qarşılıqlar əsasında işlər. Nə bir qətrə xeyir qarşılıqsız qalır, nə bir qətrə şər. Onun bilgisi xaricində yarpaq belə əsməz. Sən sadəcə buna inan!

**37.** Tanrı qılı qırx yararaq dəqiqliklə çalışan saat ustasıdır. O qədər dəqiqdir ki, sayəsində hər şey tam zamanında olur. Nə bir saniyə tez, nə bir saniyə gec. Hər insan üçün bir aşiq olma zamanı vardır, bir də ölmək zamanı.

**38.** "Yaşadığım həyatı dəyişdirməyə, özümü dönüşdürməyə hazırammı?"- deyə sormaq üçün heç bir zaman gec deyil. Hansı yaşda olursaq olaq, başımızdan nə keçmiş olursa olsun, tamamən yenilənmək mümkündür. Tək bircə gün öncəki günün tam təkrarını yaşayırıqsa yazıq olur. Hər an, hər nəfəsdə yenilənməli. Yepyeni bir yaşama doğmaq üçün ölmədən öncə ölməli.

**39.** Nöqtələr sürəkli deyilsə də bütünlüklə eynidir. Bu dünyadan gedən hər oğru üçün bir oğru doğular. Ölən hər dürüst insanın yerini bir dürüst insan alır. Bütün, heç bir zaman pozulmaz, hər şey yerli yerində qalır, mərkəzində... Həm də bir gündən digər bir günə heç bir şey eyni olmaz. Ölən hər sufi üçün bir sufi doğular.

**40.** Eşqsiz keçən bir ömür hədər yaşanmışdır. "Əcaba, ilahi eşq ardınca getməliyəmmi, məcazimi, dünyəvimi, yoxsa səmavimi, cismanimi?" – deyə sorma. Ayrımlar ayrımları doğurur. Eşqin isə heç bir əlavə özəlliyə və tamlamaya, bütünləşməyə ehtiyacı yoxdur. Başlı başına bir dünyadır eşq.

# MÖVLANA CƏLALƏDDİN RUMİ

Əslən Cənubi Azərbaycandan olan bir çox müridlərin mürşidi (həmçinin bəndənin də mürşidi), Mövla Əlinin (ə) əqidə və məslək davamçısı olan Ağayi İsmətəli Həbibi (r) yazdığı Əhli-haqq kəlamlarının birində Mövlana Cəlaləddin Rumini belə vəsf edib:

***Allahu Movlana toi,***
***Movlaye mən, Movlaye mən.***
***Dər hər məkan peyda toi,***
***Movlaye mən, Movlaye mən.***

**Anlamı:***Ey Allah sən Mövlananın bizə sevdirdiyi Allahsan. Ey mənim mövlam, ey mənim ağam. Hər məkanda hazır və nazirsən, Ey mənim mövlam, ey mənim ağam.*

Şərqin iki ulu dühası: Mövlanə Şəmsəddin Təbrizi və Mövlanə Cəlaləddin Rumi. Bu iki dahinin yolları bir zaman keçidində kəsişdi. Birləşib insanlığa böyük töhvə verdilər. Biz onların yaşam yolunu, yaradıcılıqlarını qısaca izləmək qərarına gəldik.

Öncə Cəlaləddin Rumi haqqında. Mövlanə Cəlaləddin Rumi 1207-ci ildə Bəlx şəhərində dünyaya pənah gətirmişdir. Atası sultan ul-uləma Hüseyn Xatibi Bahəddin Vələddir. Aydın, alim bir ailədə təlim-tərbiyə görən Mövlanə Cəlaləddin özünü tanıyandan sonra Şərqi gəzib dolanmışdır. Sonda, 1228-ci ildə Konya şəhərində butalanıb, səlcuqlulara pənahlanmışdır.

İndi isə Şəmsəddin Təbrizi haqında. Mövlanə Şəmsəddin Muhəmməd Təbrizi təxminən 1194-cü ildə Təbriz şəhərində dünyaya təşrif gətirmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Dövrünün səsli alimlərindən dərs almışdı. Ədəbiyyatşünas Muhəmmədəli Tərbiyyət öz ünlü «Danişməndani-Azərbaycan»

adlı əsərində yazır: «Izzətli mövla, xeyir işə çağıran, ruh kimi lətif, çıraq kimi parlaq, şüşə kimi duru, və dinin günəşi Muhəmməd ibn Əli ibn Məlikdad Təbrizi şeyx Əbu Bəkir Sələbaf Təbrizinin müridi olmuşdur. Bəzilərinin fikrinə görə o, Şeyx Rüknəddin Səcasinin müridi olmuş, Əvhəddin Kirmani də Səcasinin müridi olmuşdur.Bəzilərinin fikrincə Muhəmməd Baba Kamal Cündinin müridi imiş.Ola bilər ki, Muhəmməd bunların hamısı ilə dost olub, onlardan mənəvi zövq almışdır.O, ömrünün sonlarında çoxlu səfər edər və qara keçə paltar geyərdi.Nağıl edirlər ki, o, Bağdadda Şeyx Əvhədəddin Kirmaninin yanına gedib, ondan soruşur: «Nə iş görürsən?» O, cavab verir: «Teştdə aya baxıram». Mövlana Şəmsəddin deyir:

«Boynunda çiban yoxdursa, nə üçün ayı göydə görmürsən?» Aşağıdakı şeir bu haqda deyilmişdir:

***Gördü Şəmsi-Təbriz dostu Əvhədəddini,***
***Şam bütlərinə o, pərəstiş etdiyini.»***

Mövlanə Şəmsəddin Təbrizi şərqin böyük şəhərlərini gəzmişdi. Çox gəzdiyi üçün Şəmsi-Parəndə ləqəbi almışdı. Doğma yurdu Təbrizdə isə Kamili-Təbrizi kimi tanınırdı.

Mövlanə Şəmsəddin Təbrizi Mövlanə Cəlaləddin Ruminin sorağını eşidib Ruma üz tutur. Mövlana Cəlaləddinin xüsusi müridlərindən olan Sipəhsalar Firidun öz risaləsində yazır:«Övliyaların sultanı, ariflərin tacı və onların qibləsi, dindarların iftixarı, müasirlərin keçmişlərə üstünlüyünü sübut edən, möminlər üçün Allah tərəfindən göndərilmişi, peyğəmbərlərin varisi bizim mövlamız və ağamız, həqiqət, din və millətin günəşi, (Allah onun cəlalını və şənini artırsın) ən yüksək kamal dərəcəsinə çatmış padşah, zövq və nitq sahibi, qeybi aləmə alim olan, Allah dərgahı məşuqlarının qibləsi əbədi astanənin ən yaxın şəxsiyyətlərindən olan… bu yüksək rütbəli cənab

(Cəlaləddin Rumi) zamanınadək heç kim onun əhvalından xəbərdar olmamışdır. İndi də heç kim onda olan sirlərin mahiyyətini dərk edə bilməyəcəkdir.O həmişə xalqın gözünə görünməkdən və şöhrətdən qaçır, tacir ziyində dolanardı.Hansı şəhərə gedərsə, karvansarada qalardı… Şəmsəddin Mövlana Cəlaləddin Rumi ilə görüşmək üçün Osmanlı ölkəsinə getmiş, şəhər-şəhər onu axtarmış, nəhayət Konya şəhərinə çatmışdır.Şəmsəddin bu şəhərə gecə vaxtı çatmış və düyü satanların kərvansarasına getmişdir… Sabahı günü Mövlana Cəlaləddinlə görüşüb, söhbət etmiş və altı ay şeyx Səlahəddin Zərkubun hücrəsində onunla həmdəm olmuşdur. Sonra oradan çıxıb, Cəlaləddini musiqi eşitməyə təhrik etmiş və musiqi məclisində ona bir sıra həqiqətləri izah etmişdir».1244-cü ildə iki böyük düha görüşür. Mövlanə Şəmsəddin Təbrizi Mövlanə Cəlaləddin Ruminin müəllim və ilhamvericisinə çevrilir.

Mövlana Sultan Vələd öz məsnəvisində (əsərin adı «Vələdnamədir» ki, hicri qəməri 690 (1291)-ci ildə yazmışdır) deyir:

***Qəfildən Şəms onun didarına çatdı,***
***Güclu nuru içrə o əriyib batdı.***

Mövlana Cəlaləddin Rumi Şəmsəddin Təbrizi ilə görüşdükdən və onun təlqinlərinə tutulduqdan sonra əhvalı o qədər dəyişmişdir ki, Şəmsin adını özünə təxəlüs edib, bütün qəzəllərini onun adına qoşmuşdur. Şəmsəddin Təbrizi Mövlananın təriqət dərəcəsini yoxlayandan sonra demişdi: «Sənin «Əli», «Əli» deməyinə hələ çox var, sən «Şəms», «Şəms» söyləməlisən». Mövlanə Cəlaləddin Rumi Şəms adını özünə ünvan seçmişdi. Şəmsəddin Təbrizini isə «Şeyxlər şeyxi, müdriklər müdriyi, tanrının yerdəki işığı» adlandırdı.

Muhəmmədəli Tərbiyyət yazır: «Mövlanın fikri-zikri Şəmsdə

olub, həmişə onun müsahibi olduğuna görə yaxın adamları Mövlanadan məhrum olaraq Şəmsin dalınca yaramaz sözlər deməyə başlamışlar. Buna görə də Şəms qəfildən Dəməşqə getmişdir. Şəms getdikdən sonra Mövlana guşənişin olmuşdur. Bir müddət sonra Mövlana Şəmsdən bir məktub alaraq, sevinir. O, yenə musiqi ilə məşğul olmağa başlayır.Mövlananın ətrafındakı adamlar Sultan Vələdin yanına gedib,ondan xahiş edirlər ki,gedib Mövlana Şəmsəddini gətirsin. Mövlana Cəlaləddin məktubun cavabını yazıb öz oğlu və adamlarından biri ilə göndərir.Məktubun cavabında yazılmış qəzəl aşağıdakıdır:

***And olsun əzəli, o ölməz Allaha,***
***Biliyi, qüdrəti tükənməz Allaha…***

Elçilər Konyadan Dəməşqə, Şəmsin yanına gedib, onu hörmətlə Konyaya gətirdilər və onun üçün ziyafətlər verdilər.Mövlana Şəms Cəlaləddinin qızlığı Kimiya ilə evləndi.Bu dəfə Mövlananın ortancıl oğlu Əlaəddin Mövlana Şəmsin Sultan Vələdə göstərdiyi məhəbbətə görə ona həsəd etmiş və bir sıra adamlarla əlbir olaraq, Şəmsi təhqir etməyə başlamışdır.Şəms bu haqda Sultan Vələdə danışmış və əlavə etmişdir ki, bu adamların rəftarından görünür ki, bu dəfə mən elə yox olmalıyam ki heç kim məni tapa bilməsin. Elə bu günlərdə də Şəms itmiş heç kim olmadığını görür.

Mövlana Cəlaləddin öz şeirində bu haqda deyir:

***Heç kim vermədi ondan bir kiçik xəbər,***
***Ondan heç tapılmadı nə iz, nə əsər.***

Mövlanə Şəmsəddin Təbrizinin itgisi Cəlaləddin Rumini acıdırdı. Yol üstündə əyləşib yollara baxırdı.Bir dəfə Konyadan harayasa ötüb keçmədə olan bir yolçunu «bəlkə bir soraq verər»

ümidi ilə evinə çağırır.Şəmsəddindən söz açır.Yolçu «bu nişanda, bu cüssədə bir adam gördüm» deyə yalan söyləyir.

Mövlana yolçunu sürəkli alqışlayır. Samur dərisindən, çox bahalı kürkünü əynindən çıxarıb ona bağışlayır.

Yolçunun arxasınca məclisdəkiləri od götürür:

Əfəndimiz,duymadınmı, hərif yalan danışırdı.

Mövlana çox rahatlıqla:

Duydum,-deyir.

-Onda kürkünü nə üçün bu yalançıya bağışlayırdın? Mövlana əlacsız-əlacsız əllərini göylərə açır.

-Bu böyük adam dostumun yalanını mənə danışdı.Mən də öz sevimli kürkümü ona qıydım.Əgər həqiqəti danışmış olsaydı, şübhəsiz ki, canımı verərdim.

Tədqiqatçılar yazırlar ki, Şəmsəddin Təbrizinin unudulmaz xatirəsi Mövlananın bir çox ölməz şeirlərinin mayası olmuşdu. Mövlana mürşidindən yana ağrı, dostundan yana acı çəkiridi. Sultan Vələd atasının Şəmsəddin Təbrizidən sonrakı acınacaqlı halını bütün ayrıntıları ilə, bütün yanğısı ilə qələmə almışdır: «Atam onun ayrıldığından düz-əməlli, dəli-divanə oldu.Gecə-gündüz səma edirdi. Göy kimi yer ətrafında dönürdü.Fəryadı, fəğanı ərşə dirənmişdi. Əlinə keçən pul-paranı tezcə ətrafındakılara dağıdırdı.Olan-olmazını bağışlamaqla nəsə bir təsəlli tapırdı.Bir an istirahətə dalmağa vaxt ayırmırdı. Elə qərarsız bir şəkildə səma edirdi.Onun bu halından sanki şəhərə bir vəlvələ düşmüşdü.Təkcə şəhərəmi? Bütün aləmə. Hər kəs deyirdi ki, bu qədər mükəmməl bir islam şeyxi necə ola bilər dəlilər kimi belə çılğınlıqlar göstərsin? Hafizlər (Quranı əzbər bilənlər) Qurandan daha çox onun səmalarını oxumağa;cavanlı-qocalı bütün ətrafı səma etməyə üz qoymuşdur…»

Bütün bunlar səbəbsiz deyildi. Şəmsəddin onun xəyalını büllurlaşdırmış, ilhamını daha yüksəkliklərə qanadlandırmışdı. Şəmsəddindən sonra Mövlana Cəlaləddin daha paklaşmış, daha

saflaşmışdı. Böyük filasof deyirdi: «İstəyirsən ona bax, istəyirsən mənə, biz ayrı-ayrı adamlar deyilik, o məndədir, mən onda». Maraqlıdır ki, Mövlanə Cəlaləddin ilə çağdaş dönəmdə, bir şəhərdə yaşayan və yaradan alim-aydın, şeyxlər Nəcməddin Dayə, Muhiddin Ərəbi (1165-1240), Sədrəddin Konyəvi, Şəmsəddin Mardini, Qazı Siracəddin Mahmud Əbubəkr oğlu Urmavi (1198-1283), Qütbəddin Şirazi, Fəxrəddin Sivasi, Seyid Bürhanəddin Tirmizi ilə bu qədər yaxın, yavıq, canbir, qəlbbir olmamışdır. Şeyxüddin ləqəbli Muhiddin Ərəbi nə qədər çalışsa da Mövlanənin dost dərgahına qədəm qoya bilməmişdir.

Mövlanə Cəlaləddin Rumi 21 divandan ibarət olan «Divani-kəbir» yaratmışdı. Qəzəllərindən ibarət divanı «Divani-Şəmsəddin Təbrizi» adlandırmışdı. Bu da onun dostuna sonsuz hörmətdən, izzətdən irəli gəlirdi.

Bildirdik ki, Mövlanə Cəlaləddin Ruminin dünyagörüşünə Şəmsəddin Təbrizinin təsiri güclüdür. Rumi əxlaqi-etik məsələləri aydınlaşdırarkən qaynağı ilkin növbədə Təbrizi olurdu.

Mövlanə Cəlaləddin Ruminin ədəbi irsi Türkiyədə sistemli biçimdə öyrənilmişdir. Bilginlər çox zaman Mövlanə Şəmsəddin Təbrizinin Mövlanə Cəlaləddin Rumiyə çıxılmaz təsirindən geniş və ətraflı söhbət açmırlar. Mövlananın ədəbi təsir dairəsi yan-yörəlidir. Onun xələflərindən yığcam şəkildə, sələflərindən isə boydan-boya danışılır.

Mövlanə Cəlaləddin Ruminin və Mövlanə Şəmsəddin Təbrizinin ədəbi əlaqələri, dostluq ilişkiləri deyilənlərlə bitmir. Bu ilişkilər daha böyük, kompleks tədqiqat tələb edir. Bu da daha iri həcmli yazıların mövzusudur.

Qeyd edək ki, Mövlanə Cəlaləddin Ruminin Azərbaycanlı dostları çox idi. Onlardan Təbib Əkmələddin Naxçıvani və Qəzənfər Naxçıvaninin adları tarixin yadında qalıb.

"Mənəviye-məsnəvi"nin (Mənəviyyat məsnəviləri) müəllifi Mövlana Cəlaləddin Bəlxeyi Rumi İslam dörd qapının olduğunu

qəbul edir və yazır: «Qurana gözünlə baxarsan yazını görərsən – bu şəriət əhli üçün, ağlınla baxarsan elmi görərsən – bu təriqət əhli üçün, qəlbinlə baxarsan eşqi görərsən – bu mərifət əhli üçün, bütün ruhunla baxarsan Rəbbini görərsən – bu həqiqət əhli üçün olan məqamlardır».

***Çatdı aşiq Turunda, özünün dildarına,***
***Tur sevincdən məst oldu, Musa çatdı yarına.***
***Çox sirlər gizlənmişdir, neyin zilü-bəmində,***
***Əgər açsam sirri mən, dünya itər qəmində.***
***Ləblərimlə yar ləbin, əgər bir eyləsəm mən,***
***Ney kimi mən də daim qəmli dastan söylərəm.***

Bu səbəbdən də biz C.Ruminin "Eşq pərvanəsi" kitabında "Dua" başlığı altında Mövlanənin övladına və gənc nəslə etdiyi vəsiyyət ibrətamiz olduğundan və Həzrəti Əlinin (ə) "Nə çoxdur ibrət dərsləri, təəssüflər, nə azdır ibrət götürənlər" hədisinə söykənərək Mövlanənin etdiyi duanı olduğu kimi oxucuların nəzərinə çatdırırıq:

**"Ey Rəbbim! Bizimlə halımıza görə davranma. Öz ikram və ehsanına görə davran!**

**Ey Rəbbim! Kərəm və lütfünlə hidayət etdiyin qəlbi yenidən zəlalətə, azğınlığa meyl etdirmə. Bəlaları bizdən uzaqlaşdır və dəyişdir. Ey əfvi çox olan, günahları örtən Rəbbim! O günahlara görə bizdən intiqam alma. Bizə əzab etmə!**

**Ey Rəbbim! Biz nəfs ilə şeytana it kimi tabe olduqsa da, Sən əzab aslanını bizim üstümüzə salma!**

**Ey Həyy, əbədi diri olan Rəbbim! Sən kərəm sahibisən. Ey yaradılmışların ehtiyacını ödəyən Rəbbim! Sən varkən başqa bir şəxsi xatırlamaq və ondan bir şey ummaq doğru deyildir.**

**Ey Rəbbim! Ruhumda bir elm qətrəsi var.**

Allahım! Onu həva və həvəslə tən torpağından qoru!

Ey ehsanı çox olan Rəbbim! Cəfa içində keçib-gedən ömrə mərhəmət et!

Ey əfv etməyi sevən Rəbbim! Bizi əfv et. Üsyan dərdimizə çarə qıl.

Ey yardım istəyənlərin yardımçısı! Bizi hidayət et.

Ey Rəbbim! Dua və yalvarışlarımızla Sənə layiq olmayan sözləri bilməyərək söyləyib xəta etdiksə, o kəlmələri Sən düzəlt və duamızı qəbul et. Çünki sözlərin hakimi və sultanı ancaq Sənsən.

Ey aləmləri yaradan! Qaralmış, qatılaşmış və sanki daş olmuş qəlbimizi mum kimi yumşalt. Bizdən kölə kimi istifadə edən nəfsimizdən bizi satın al.

Ey Rəbbim! Sənə nə ərz edim, çünki Sən gizli və aşkar hər şeyi bilirsən."

***

"Ey ortağı, bənzəri olmayan, hər şeydən münəzzəh, pak olan Rəbbimiz! Bizə yardım et və günahlarımızı bağışla.

Bizə incə, dərin mənalı, təsirli gözəl sözlər ilham et ki, onlarla dua edərək sənin mərhəmətini qazanaq.

Ey Rəbbim! Duanı etdirən, Bizi sənə yalvardan da Sənsən, duanı qəbul edən də Sənsən. Ümid də, qorxu da Səndəndir.

Ey söz Sultanı! Biz yanlış söylədiksə, Sən düzəlt. Hər şeyin düzəldəni Sənsən."

***

"Ey misli, bənzəri olmayan Allah! Madam ki, ayə və hədis kimi gözəl və hikmət dolu sözləri qulağımıza sırğa etdin, onda bu sözləri bol-bol saç.

Qulağımızı tutub, eşq və məhəbbətinin şərabı ilə məst olanların olduğu məclislərə apar.

**Madam ki bizə dinin təriqətlərindən bir ətir duydurdun, tamamilə nəşələndirməzdən əvvəl şərab küpünün ağzını bağlama!**

**Ey fəzilət və kərəm istənilən Allah! İstər kişi, istər qadın – hamısı mənəvi qidalarını sənin lütfünlə tapır.**

**Ey dualarımızı edilməzdən əvvəl duyan, istəkləri istəməzdən əvvəl verən Allah! Qəlbə hər an yüzlərcə pəncərə açırsan."**

***

**"Ey torpağı qızıla çevirən, başqa bir torpağı da insanların atası edən Allah!**

**Allahım! Sənin işin hər şeyi dəyişdirmək, yenidən yaratmaq, ehsan və lütflər etmək, mənim işim isə xəta etmək, unutmaq, günah etməkdir.Mənim unutmağımı, səhv və xətalarımı bilgiyə, elmə çevir. Mən başdan-ayağa kin və qəzəbəm, məni səbrdən, elmdən ibarət et."**

***

Həzrət Mövlna ölüm yatağında olarkən dostu Siracəddin Tatarini yanına çağıraraq ona bu duanı öyrətmiş və sıxıntılı anlarında oxumağı tövsiyə etmişdir:

**"Ey Rəbbim! Mənə nə Sənin zikrini unutduracaq, Sənə olan şövqümü söndürəcək, Səni zikr edərkən duyduğum ləzzəti kəsəcək bir xəstəlik, nə də məni azdıracaq, şər və pis işlərimi artıracaq bir sağlamlıq ver.**

**Ey mərhəmətlilərin mərhəmətlisi! Mərhəmətinlə duamı qəbul et!"**

***

**"Allahım! Məni bu çirkin nəfsin əlində qoyma!**
**Səndən başqa nə varsa, onları mənə xoş göstərmə!**
**Allahım! Mən dünyadakı fitnələrdən sənə sığınıram.**

**Mən sənin qulunam, məni yenidən nəfsimə qul etmə!"**

***

Mövlana sübh namazından sonra daima Allah Rəsulundan (s) nəql olunan bu duanı oxuyardı:

**"Allahım, qəlbimi nurlandır, qulağımı nurlandır, gözümü nurlandır, saçımı nurlandır, dərimi nurlandır, ətimi nurlandır, qanımı nurlandır, önümü nurlandır, arxamı nurlandır, altımı nurlandır, üstümü nurlandır, sağımı nurlandır, solumu nurlandır.**

**Allahım! Nurumu artır, mənə nur ver.**

**Ey nurun nuru! Ey mərhəmətlilərin mərhəmətlisi!**

**Allahım, mərhəmətinlə məni nur et."**

## ŞEYX FƏZLULLAH NƏİMİ

Azərbaycan xalqı öz qədim və zəngin mədəniyyəti ilə öyünməyə layiqdir. Bu xalqın fəxr edə biləcəyi şəxslərdən biri də Azərbaycanda hürufilik elminin banisi hesab olunan Şeyx Fəzlullah Nəimidir.

Hürufilik elminin banisi Azərbaycanın məhşur mütəfəkkiri, alimi və şairi Şeyx Fəzlullah Nəimi 1339-cu ildə Təbrizdə anadan olmuş, dövrünə uyğun mükəmməl təhsil almışdır. O, əsasən fəlsəfə, filologiya, fiqh, astronomiya, məntiq, təbiət elmlərini öyrənmişdir. 15 yaşından papaqçılıqla məşğul olmuş və nəticədə həmişə əsnaf və peşəkarların mühitində yaşamışdır.

Şeyx Fəzlullah Nəimi tərəqqipərvər sufi təriqətlərinə də çox yaxın olmuş, yaxın şərq ölkələrinə səyahət edərək, zəngin məlumat toplamışdır. O, görkəmli alim və şairlərlə tanış olmuş, «Məhəbbətnamə», «Novnamə» (Yuxu haqqında kitab), «Ərşnamə» və «Cavidannamə» əsərlərini yazmışdır. Həmin əsərlərdə hürufiz-

min elmi-nəzəri prinsiplərini ətraflı şərh etmişdir.

Şeyx Fəzlullah Nəiminin yazdığı «Cavidannamə» əsəri hürufi təliminin ensiklopediyası sayılır.

Sufizmdə olduğu kimi, hürufizmin də fəlsəfi əsası panteizmdir. Bu cəhətdən hürufilik sufizmin tərəqqipərvər təriqətləri ilə, birinci növbədə Həllac Hüseyn Mənsur, Fəridəddin Əttar, Cəlaləddin Rumi, Şeyx Mahmud Şəbüstəri kimi görkəmli şəxsiyyətlərin təlimi ilə son dərəcə əlaqədardır. Lakin hürufi panteizmi xeyli fərqlidir. Hürufilikdə Allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssümü əsasdır. Buna görə də hürufilər Allahın Fəzlullahda təcəssüm etdiyinə inanırdılar. Təlimə əsasən, insan öz varlığında olan ilahi ünsürü əxlaqi-mənəvi təkamül yolu ilə inkişaf etdirir. Həmin nəzəriyyənin dərin ictimai kökü var. Hürufilər deyirdilər ki, hökmdarlar və din xadimləri (şəriətdə olan alimlər) ədalətsiz, riyakardırlar. Onlar öz şəxsi mənafeləri, şöhrətləri üçün xalqları qırğına verir, qətl-qarətlə varlanır və özbaşınalıq törədirlər. İnsanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Fəzlullahdır.

Şeyx Fəzlullah Nəimi özünün dünyagörüşü, fəlsəfi təlimi və bədii yaradıcılığı ilə Azərbaycanın ictimai-fəlsəfi və bədii fikri zəminində yetişmişdir. Onun hürufizmi XIV əsrin ictimai-siyasi vəziyyətindən doğmaqla bərabər, Azərbaycanın fəlsəfi fikir tarixində mühüm yer tutan məzdəkizm, xürrəmilik və əxilik hərəkatı ilə üzvü surətdə bağlıdır.

Hürufilikdə Allah eyni zamanda söz-kəlam şəklində təcəlli edir, sözlər isə hərflər vasitəsiylə ifadə olunur. Hürufilərin fikrinə görə, Allah sözlərdə təcəssüm etdiyi üçün zaman da hərflərdə əyandır, hərflər isə insanın üzündə (kamil insanın) əks olunmuşdur.

Həzrət Muhəmmədin (s) gətirdiyi İslam dininin əsaslarını çatdıran 28 hərfdə (ərəb əlifbasındakı hərflərin sayı) öz əksini tapmışdır. Şeyx Fəzlullah Nəimi isə «Cavidannamə» əsərini fars

əlifbasındakı 32 hərflə yazmışdır. Hürufilərin əqidəsinə əsasən, insanın üzündə anadangəlmə yeddi xətt vardır: 2 qaş, 4 kirpik, 1 saç. Bunlar 4 ünsürdən, yəni su, od, torpaq və havadan (ab, atəş, xak, bad) əmələ gəldiyi üçün hər biri 4 hesab edilir, hamısının sayı isə 28 olur. Saç ortadan ikiyə ayrıldıqda 7 xətt 8 olur, 8-i də 4 ünsürə vurduqda 32 alınır. İnsanda gənclikdən çıxan 7 ata xətt vardır: 2 saqqal, 2 bığ, 2 burun tükləri, 1 alt dodaq tükü. Bunların yekunu 28 və 32 edər. Hürufilər bundan başqa da bir çox digər rəqəmlərlə hərflərdən ibarət rəmzlər yaradırdılar ki, hamısının nəticəsi ilahi ruhun insanda və Fəzlullahda təcəssüm etdiyinin sübutu üçündür.

Hürufiliyə görə, bütün varlıq səsdən yaranmışdır. Səs və hərf sözlərdə əksini tapmışdır. Bu da ancaq insana məxsus xüsusiyyətdir. Söz də hərflər üzərində qurulur. Kainatın yaranması hərflərlə bağlıdır.

Allah-Təala «Kun» («Ol») əmri ilə varlığı yaratmışdır "İnnəmə əmruhu izə ərada şəyən ənyəqulə ləhu kun-fəyəkun". – "Həqiqətən bizim əmrimiz bir şeyə çatdıqda ona "Ol" deyərik, o da "Olar"[92]. Bu əmr sözdən, söz isə hərflərdən ibarətdir. Həmçinin həyatın bütün sirləri hərflərlə birləşir. Hərflərin daxili rəmz və mənalarını öyrənmək aləmin sirlərini bilmək deməkdir.

Hürufilik təriqəti qısa müddət içərisində inkişaf edərək geniş yayılır, dini pərdəyə bürünmüş ictimai hərəkat şəklini alır və Türkiyədə, İranda, ərəb ölkələrində də özünə çoxlu tərəfdarlar qazanır. 1386-cı ildə Fəzlullah Nəimi hürufiliyi təbliğ etmək üçün Şimali Azərbaycana gəlir, burada ölkənin görkəmli alim və şairləri ilə görüşür. Onların içindəSeyid İmadəddin Nəsimi də var idi. Beləliklə Şirvan hürufilik təbliğatının mərkəzinə çevrilir. Şeyx Fəzlullah həmin bölgədə hürufiliyin məqsəd və mahiyyətini yaxşı başa düşən və ona tərəfdar çıxan tərəqqipərvər ziyalı qüvvələri

---

[92] «Yasin», 82

tapır. Bunların içərisində Seyid İmadəddin Nəsimi və Əbülhəsən Əliyül-Əla xüsusilə fərqlənirdilər. Şeyx Nəiminin xeyli vaxt Bakıda olması Əliyül-Əlanın «Qiyamətnamə» əsərindən də aydın görünür.

***Aməd çu nida ze rahe Baku,***
***Bərxiz, botovu dəste-paku.***
***An say neşəste delbəre məst,***
***Ba an ke, berəft, caş bə cast.***

Anlamı:

***Bakı tərəfdən bir səs gəldi ki,***
***Ey gözəl, qalx, əl-ayağın yığışdır.***
***Ora bizim sevgilimizin sakin olduğu yerdir,***
***Özü getmişdisə də, yeri qalmışdır.***

Hürufilik elminə bələd olduqdan sonra Seyid İmadəddin Nəsimi də hərf və rəqəmlər nəzəriyyəsini yeni baxımdan şərh edirdi. Şair 28 və 32 hərflə yazılmış Quran və «Cavidannamə» əsərlərini şərh edərək, hərflərin müqəddəsliyini göstərir. İnsanın üzündə 1 saç, 2 qaş, 4 kirpik olmaqla 7 tük cizgisi vardır. Bu xətlər annadangəlmədir. Xətt cizgilərinin özü və yeri 14-ə bərabərdir. Kişilərdə sonradan 7 xətt cizgisi də yaranır. Bunlar da yerləri ilə 14 edər və 2-yə vuranda 28 alınar. Quran da 28 hərflə yazılıb. Saçlarla çənə altındakı xətlərin istiva cizgisi ilə iki yerə bölünməsi, özü və yeri ilə cəminin hasili 32-yə çatır ki, bu da «Cavidannamə» əsərindəki hərflərin toplumudur.

«Fatihə» surəsi 7 ayədən ibarətdir və 4 adı var. 7 ayəni 4 ada vurduqda 28 edər. Quran da 28 hərflə yazılıb. Həmçinin «Fatihə»də ərəb hərflərinin 7-si yoxdur. Cəhənnəmin adları olan hərflər bu surədə qeyd edilməyib. Digər baxımdan nəzər yetirildikdə aydınlaşır ki, qadın üzünün kişilərə məxsus 7 xətt

cizgisi yoxdur. Buna görə də «Fatihə» surəsinə «Ümmül-kitab» (kitabların anası) da deyilir.

Quranın 29 surəsinin əvvəlinci ayələri və «Şura» surəsinin 1-ci və 2-ci ayələri müqəttəhə hərflərlə başladığından Quranın sirri hesab olunur. 29 surənin hər birində 1 ayə, «Şura» surəsində isə 2 ayə «hürufi-müqəttəhə» – yəni söz halına gəlmədən kəsilmiş hərflərdən təşkil olunub ki, bunların da sayı 30 edər. Quran da 30 cüzdür. Bu, 14 hərfdir. Müqəttəhə hərflər ancaq təkrar olunaraq 29 surədə işlənib. 14 hərfin özləri və yerləri 28 rəqəminin cəmidir. Qurani-Kərim məhz ərəb əlifbasında olan 28 hərflə yazılmış ilahi qanunlar toplusudur.

Gündəlik vacib namazların sayı 17-dir. Cümə günü isə 15 rükət namaz qılmaq lazımdır. 17+15=32. Fəzlullah Nəiminin yazdığı «Cavidannamə» əsəri də 32 hərflə yazılıb. Yolçular 11 rükət namaz qılır. 11 rükət misafir namazını gündəlik 17 rükətin üzərinə əlavə etsək 28 alınacaq. Quran da 28 hərfin iştirakı ilə nazil olub.

İnsan üzündəki xətt cizgilərinin, Quran ayələrinin və namaz rükətlərinin hürufilik təlimində rəmzi mənalar daşıması heç də təsadüfi deyil. Hürufilərə görə bu əlaqə ilahi vəhdətlə bağlıdır. Hərf və rəqəmlər nəzəriyyəsini təbiətə, kainata belə tətbiq edərək onların arasında da uyğunluq arayıb tapırdılar.

Hürufilər hətta insan üzünü «Allah güzgüsü sanırdılar». Buna görə insana – Fəzlullaha səcdə edilməlidir. İnsan üzündə şəkil və rəsmlər də bunu göstərməkdədir. Daşa, torpağa gövhər deyən insan nə üçün özündəki gözəllik və lətafəti görmür.

***Ey daşəvü türabə deyən qiymətli gövhər,***
***İnsan bu hüsnü lütf ilə gövhər deyilmidir?***

Şeyx Nəimi Teymurləngin əmriylə onun oğlu Miranşah tərəfindən həbsə alınıb, Naxçıvandakı Əlincə qalasına aparılır və sonda dəhşətli surətdə edam edilir. O, həbsdə olduğu müddətdə

məşhur «Vəsiyyətnamə»sini yazaraq gizli surətdə Bakıya, öz yaxın adamlarına göndərir. Çox əhəmiyyətli tarixi sənəd olan «Vəsiyyət-namə»də Şeyx Fəzlullah Nəimi hürufilik hərəkatının istedadlı, müdrik rəhbəri kimi canlanır. O, hürufilərin başının üstünü alan təhlükəni anlayır və müridlərinin, məsləkdaşlarının və ailə üzvlərinin taleyi haqqında düşünür. Zindanda yazılan «Vəsiyyətnamə» insana qayğı və məhəbbətlə doludur: «Bütün dərvişlərə salam söyləyin… Rəis və Keya, eləcə də Xacə Fəxrəddin əgər oradadırlarsa, tədbir görüb uşaqları bir guşəyə aparsınlar. Əgər qoymasalar, kişiləri qadınlar vasitəsiylə xəbərdar etsinlər. Ola bilər ki, təşkil olunmuş dəstədən adam gələr, bütün müridlər tələf olar, hamıya qəsd edilər. Harada olsalar elə etsinlər ki, mənim müridim olmalarını bir kimsə bilməsin. Bacarsalar Gilana, Mazandarana getsinlər. Heydər Keyanın oğlu və digər müridlər əlbəttə, xəbər çatdıra bilərlər. Tələf etmək üçün arxalarınca adam gələ bilər. «Vəsiyyətnamə»dəki məlumat və məsələlərdən nəbadə başqa bir adama danışalar. Özlərini son dərəcə gizli, yenə də gizli saxlamalıdırlar».

Bu sətirlərdə həyat uğrunda çalışmaq əzmi, böyük qayğı, mübarizə ruhu aydın şəkildə duyulmaqdadır. Burada əzm və iradə sahibi olan insanın nəcib ürək döyüntüləri diqqəti cəlb edir. Həmin parçada hürufiliyin mütəşəkkil bir qüvvəyə malikliyi, siyasəti, mübarizə pafosu çox aydın hiss olunur.

Şeyx Fəzlullah daha sonra yazır: «Geyiminizi və xarici görünüşünüzü dəyişin, özünüzü şirvanlı və dağlı camaatının şəklinə salın. Möhkəm və əlçatmaz ucqarlara gedin. Bu işi olduqca tez edin ki, hələ ordudan arxanızca heç kim gəlməmiş və tələfata uğramamış getmiş olasınız. Əlbəttə, əlbəttə, əlbəttə, getməkdə tələsin. Uzaq dağlıq yerlərə çəkilin, adlarınızı dəyişin. Dərvişlik mərasimini üzərinizdən götürün. Hər dəm, hər dəm namaz qılıb

bir peşəyə bağlanmağınızı da məsləhət görürəm»[93] (səh.196).

Ş.F.Nəimi eyni zamanda Allahın nurdan ibarət olduğunu və bədən üzvlərini əlifba hərflərinə oxşar hesab etmişdir. Məsələn, əlifbanın ilk hərfi «əlif» onun ayağı, «əyn» gözü və sair. Belilklə, o, bütün hərfləri müqəddəs sayırdı. Hürufilər belə bir əqidədədirlər ki, hərflər gözəl simalarda təcəlli olunurlar. Bu səbəbdən də gözəl görünüşə malik olanlar müqəddəsdir və başqalarından daha çox sevilməyə layiqdir. Onların əqidəsinə görə, Allah-Təala «Ərş» və «Sidrətul-muntəhanı» insanın surətində gizlətmişdir və Peyğəmbərin (s) meracı öz surətinin cizgilərini başa düşmək və həmin xətlərdə ilahi fəzli müşahidə etməklə baş vermişdir.

Ş.F.Nəimi həm də gözəl şairdir, onun şeirləri fəlsəfi lirikanın gözəl nümunələrindəndir. Şairin yazdığı qəzəllərdən birini burada qeyd edirik:

***Əgər məşhər günü mən görməsəm həqqü-təalanı,***
***İnan ki, yandırar ahim behişt adlı o üqbanı.***

***O məstanə gözünlə kafərə dönmüş saçın billah,***
***Çıxardar başdan axır ki, həvayi-dilü dünyanı.***

***Əgər atsan üzündən sən inamın pərdəsin bir gün,***
***İnan ki, yandırar vəhdət dolu dünyada hər yanı.***

***Qiyamət başlayar ol dəm ki, sərvi-qamətin nagah,***
***Qədəm qoysa, xəcil etsə behiştə qəddi zibanı.***

***Nə vaxt ki, pərdələr qalxıb bütün batin əyan oldu,***
***Pərişan zülfünə bənzər behiştin hürü, qılmanı.***

***Qapında sail olmuşlar bir ali hümmətə çatmış,***
***Bəyənmirlər təkəbbürdən o təxti-taci Kəsrani.***

---

[93] Ş.F.Nəimi "Vəsiyyətnamə", səh.196

*Gözüm olmaz gözəllərdə, mənə bir an nəzər qılsa,*
*Əgər bir mülkü-mənanın pəri üzlü o sultanı.*

*Münəvvər qəlbi insanın gözündə tar olur dünya,*
*Salanda yada Məcnun tək xəyali-zülfi Leylanı.*

*Nəimi, qüdrətinlə sən bu nəfsin tilsimin sındır,*
*O Musada nə möcüz var, salə heyrətə insanı.*

## SEYİD İMADƏDDİN NƏSİMİ

*Şah Xətai didara bax,*
*Mənsur ipin boynuna tax,*
*Nəsimi oldu haqla haq,*
*O üzülən dərisidir.*

Seyid İmadəddin Nəsimi Azərbaycan klassik ədəbiyyatının görkəmli simalarından biridir. 1369-cu ildə Şirvan torpağında dünyaya göz açmış, Seyid Əli adı ilə uzun illər tanınmış və mübarək nəsildən olduğuna görə «Seyid» təxəllüsü ilə qəzəllər yazmışdır. Sonralar IX əsrdə Bağdadda «Ənəl-həqq» dediyinə görə dara çəkilmiş Həllac Mənsur Hüseynin yolunu tutmuş və əsərlərində «Hüseyni» təxəllüsündən də istifadə etmişdir.

1934-cü ildə Bakıya gəlmiş, mürşüdü Şeyx Fəzlullah Nəimi Astrabadinin yolunu izləyərək hürufilik elmini Şirvanda, Bakıda, Naxçıvanda yaymış, vətənində olduğu kimi, Yaxın Şərqdə də yüzlərlə tələbələr yetişdirmişdir. Ustadı Nəiminin təxəllüsü ilə səsləşən Nəsimi təxəllüsünü qəbul etmiş və bu təxəllüslə də ömrünün sonuna qədər yazıb yaratmışdır.

Hürufiliyə o dövrdə (elə indinin özündə də) bir təriqət kimi

baxmışlar ki, bu da yalnış fikirdir. Hürufilik bir elmdir ki, banisi Həzrət Əlidir (ə). Məşhur Quran təfsirçisi olan İbn Əbbas yazır: "Bir gecə Həzrət Əli (ə) mənə «Fətihə» surəsinin təfsirini verib, buyurdu ki, Quran 114 surədir, hamısı «Fətihə»də cəm olub. «Fətihə» surəsi «Bismilləhir-rahmənir-rahim»də cəm olub, «Bismilləhir-rahmənir-rahim» isə «Bismilləh»da cəm olub, «Bismilləh» isə «Bə» hərfində cəm olub, «Bə» hərfinin altındakı nöqtə mənə işarədir. Mən «Bə» hərfinin altındakı nöqtəyəm».

Arif şairlərdən biri bu elmin bəşərə yox, Allaha aid olduğunu yazmışdır:

***Bağlama bir kimsənin adilə hərf icadını,***
***Nəqş edib nəqqaş hərfi-büsti həşt əzadədir[94].***

Yəni, hürufiliyi bir kimsənin adına bağlama. Nəqqaş, yəni Allah 28 hərfi insan əzasında nəqş etmişdir. Hürufilik elminə görə, 14 hərf insanın üzündə, 14 hərf isə qeyri əzalarda nəqş olunmuşdur.

Peyğəmbər (s) buyurub: ***«Elm bir nöqtəydir, cahillər onu genişləndirmişlər».***

***Nə qədər elm ki, var nazil olubdur bəşərə,***
***Cəm edib bircə nöqtə daxilində «Bə»də verir[95].***

S.İ.Nəsiminin dövründən əvvəl də, sonra da bəzi irfani şairlər hürufilik elminə müraciət etmişlər. Nəsrəddin Şah Qacar Həzrət Əlinin (ə) mədhində belə bir qəzəl yazmışdır ki, onun bir beytini veririk:

***"Rətbi-yabis" hər nə var təfsirinin fərdindədir,***
***Təhti-Bismilləhidə ol nöqteyi «Bə»dır Əli.***

---

[94] Fəxrəddin Cəfakeş.
[95] V.Nakam

"Ənam" surəsinin 59-cu ayəsində Allah-təala buyurur: ***"Qeybin açarları Allahın yanındadır. Onları yalnız Allah bilir.Allah suda və quruda hər nə varsa hamısını bilir.Elə bir düşən yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, elə bir şey yoxdur ki, məhz açıq-aydın kitabda (lövhi-məhfuzda) olmasın".***

"Ratbi yabis" – çöldə bitən xurma növüdür, lakin bu misrada gələn "ratbi yabis" (elə bir toxum, elə bir şey) Qurani-Kərimin "Ənam" surəsindəki 59-cu ayənin sonuna işarədir. Qalan misralardan çıxan nəticə budur ki, səmadan bu dörd kitab ki, nazil olmuşdur, bu kitablardan məqsəd imaməti tanımaq olmuşdur. Vəhyi peyğəmbərlərə gətirən zahirdə vəhy mələyi Cəbrail də olsa, o da Həzrət Əlinin (ə) izni olmadan enib-qalxmır.

***Nöqteyi-«ba» əvvələ, son «sin»ə ünvan Ya Əli,***
***Başlamır bir surəni sənsiz bu Quran, Ya Əli.***

Mürtəce ruhanilər isə çürük əqidələrinə müxalif olan belə azad fikir sahiblərinə hər zaman divan tutmuşlar. S.İ.Nəsimi də həmin cəzadan kənarda qalmamışdır.

Məşhur səyyah Övliya Çələbi özünün «Səyahətnamə» əsərində yazır ki, S.İ.Nəsimi Hələb ruhanilərinin fətvası ilə həbs olunur. Şəhərin məliki ruhanilərdən şairin qətlinə fətva istəyir, lakin heç bir ruhani, eyni zamanda şəhərin baş qazisi bu fətvaya qol qoymurlar. Şairi dinsiz adlandıranlar ölüm hökmünün ağır məsuliyətini anlayıb geri çəkilirlər. **Şəriət hakiminin** fətvası olmadan, şəhərin məliki şairin qətlinə fərman verir. Özü də necə hökm: "Diri-diri dərisi soyulsun!"

Bu cür hökm islam dini ilə tam müxalifdir. İslamın əziz Peyğəmbəri Həzrət Muhəmməd (s) buyurub: ***«Öldürəcəyiniz köpək də olsa, ona əzab verməyin».***

1417-ci ildə böyük filosof şair S.İ.Nəsimi Hələb şəhərində faciəli və islama zidd olan bir vasitə ilə, dərisi soyulmaqla qətlə yetirilir.

Ruhun şad olsun, ulu ustad!

***Mən qulami-xanədanəm, padişahımdır Əli,***
***Ehtiyacım onadır, püştu-pənahımdır Əli.***
***Könlümü qıldı münəvvər, mehri-mahımdır Əli,***
***Qibləgahımdır Muhəmməd, səcdəgahımdır Əli.***

Yaxud,

***Bu Nəsimi binəvadır vəsfinizdə neyləsin,***
***Sübhü-şami sözləri siz ya Muhəmməd, ya Əli.***

Və ya:

***Kim Muhəmmədi Əlidən ayırır lənət ona,***
***Ləhməki-ləhmi deyilmi, ya Əli, səndən mədəd.***

Bu cür dini şeirlər S.İ.Nəsimi yaradıcılığında çoxdur. Təəccüb doğuran isə dini elmləri dərindən bilən filosof şairi dinsiz adlandıran yalançı təəssübkeşlərin hansı məqsədə qulluq etmələridir. Ölümündən altı əsrə yaxın vaxt keçməsinə baxmayaraq, S.İ.Nəsiminin şeirləri yenə də mübahisələrə səbəb olur. Onu, əsasən bu beytinə görə günahlandırıblar:

***Məndə sığar iki cahan, mən bu cahana sığmazam,***
***Gövhəri-laməkan mənəm, kovnü-məkana sığmazam.***

Sağlığında olduğu kimi, hal-hazırda da şairə irad tuturlar ki, bu beytdə özünü «laməkan», yəni məkansız adlandırır. Məkansızlıq isə yalnız Allaha aiddir. İndi baxaq görək bu belədirmi?

İnsan, hələ dünyaya gəlməmişdən, hətta dünya yaranmamışdan qabaq mövcud olub. Böyük sərkərdə, görkəmli dövlət və elm xadimi, ozan-aşıq sənətinin dərin bilicisi, Əhli-beyt (ə) aşiqi, qılınc və məntiq meydanının yeganə müzəffəri, 6 yaşında şeyx, 13 yaşında şahlığa çatan şair-hökmdar Şah İsmayıl Xətai bunu belə ifadə edir:

***Yer yoxikən, göy yoxikən, ta əzəldən var idim,***
***Gövhərin yekdanəsindən illəri pərgar idim.***

İnsan o aləmdə ki, mövcud idi, o aləmə "zərr" aləmi ("Ələst" aləmi), poetik dillə Vəhdət aləmi deyilir. "Zərr" aləmi ona görə deyilir ki, bu aləmdə insan zərrələrdən ibarət bir məxluq idi. Allah-Təala "Əraf" surəsinin 172-ci ayəsində belə buyurur: ***«Ələstu birrəbikum» – Mən sizin Rəbbiniz deyiləmmi? «Qalu: bələ» – Dedilər, bəli! «Şəhidnə» – Şəhadət veririk.*** Həmin aləmə Lahut, ya Cəbərut aləmi də deyirlər. Ümumiyyətlə, 4 əsas aləm var ki, bunlardır: **Cəbərut; Mələkut; Lahut; Nasut.**

Aşıq Ələsgər də bir «Divani»sində «Ələst» aləminə işarə edib deyir:

***Ələstidən bəli dedim nə xoş iqbaldı yüküm,***
***Beş gözəlin aşiqiyəm vəsfi kəmaldı yüküm.***
***Mətahım mətah olunca, bazarım bazar olsun,***
***Nə alınmır, nə satılmır xeyli zəvaldı yüküm.***

Mövlanə Füzuli də məşhur qəzəllərindən birinin qıfılbəndində bu 4 aləmə işarə edir və onları özünə vətən bilir:

***Edəməm tərki Füzuli səri-kuyi-yarın,***
***Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim.***

XIX yüzillikdə yaşayıb yaradan görkəmli Azərbaycan şairlərindən olan Hacı Əbülhəsən Raci də Kərbəla çölündə İmam Hüseynin (ə) bacısı Həzrət Zeynəbə (ə) verdiyi nəsihətləri belə nəzmə çəkmiş və "zərr" aləmini təsvir etmişdir:

***Belə əhd eyləmişəm, ey bacı, cananım ilən,***
***Ərzeyi Kərbübəlada boyanam qanım ilən.***

Səbəb nədir?

***Çünki bu cami-əcəldə şəkəri-şəhdim var,***
***Bu səbəbdən susuz ölməkliyə çox cəhdim var.***
***Aləmi-zərrədə canan ilə bir əhdim var,***
***Varam öz eylədiyim əhd ilə, peymanım ilən.***

Vəhdət aləmi ona görə deyilib ki, həmin aləmdə ilk yaranışdan son yaranışa qədər hər kəs vəhdət halında olub. Və bu aləmdə məxluq xaliqinə ilk şəhadətini verib. S.İ.Nəsimi bir rübaisində vəhdət aləmini belə vəsf edir:

***Vəhdətin şəhrində seyran eylərəm,***
***Mən səni cismimdə heyran eylərəm.***
***Sirrimi aləmdə pünhan eylərəm,***
***Adəmi həm həqq, həm insan eylərəm.***

Qayıdaq S.İ.Nəsiminin həmin beytinin üstünə. Birinci misradakı «Məndə sığar iki cahan» ifadəsi də ədəbiyyatçılar arasında xeyli mübahisələrə səbəb olmuşdur. Bir qism ədəbiyyatşünaslar bu iddiadadırlar ki, ifadə belə olmalıdır: «Məndə sığar ikən cahan» nəinki, «iki cahan». Və öz iddialarına da sübut olaraq bunu gətirirlər ki, ərəb əlifbasında iki və ikən oxşar sözlərdir. Belə ki, «ikən» sözündəki nöqtəni götürsək iki alınar. Bu

katiblərin səhvidir ki, əlyazmanı köçürəndə "nun" hərfindəki nöqtə səhvən yazılmayıb və nəticədə "ikən" "iki"yə dönmüşdür.

Əlbəttə, üzdəniraq katiblər olub. Həmçinin, ədəbiyyatımızın fəxri incisi sayılan Mövlanə Muhəmməd Füzuli də belə katiblərin əlindən cana doymuş və belə bir qitə yazmışdır:

***Qələm olsun əli ol katibi-bədtəhririn,***
***Ki, fəsadi-rəqəmi sözümüzü şur eylər.***

***Gah bir hərf süqut ilə qılar nadiri nar,***
***Gah bir nöqtə qüsuru ilə gözü kur eylər.***

Şair buyurur ki, o katibin əli qurusun ki, bir hərfi yazmamaqla «nadiri» «nar», bir nöqtəni qoymamaqla «gözü» «kor» edər. «Nadir» sözündən «d» hərfini götürsək «nar», «göz» sözündəki «zeyn» hərfinin üstündən nöqtəni götürsək, "re" hərfi yaranar və həmin kəlmə«göz» kimi yox, «kor» kimi oxunar.

S.İ.Nəsimidə də belə olub deyənlər var, ancaq bu fikir yanlışdır. Çünki şairin bir çox şeirlərində iki dünya ifadəsinə rast gəlirik.

***İki aləmdə dildarindən özgə,***
***Mənə, ey surəti-rəhman görəkməz.***

O cümlədən həqiqət budur ki, Nəsimi deyib:

***Məndə sığar iki cahan, mən bu cahana sığmazam***

İki cahanın dünya və axirət, ruh ilə cism olduğunu söyləyənlər də var.

S.İ.Nəsiminin ən çox dillər əzbəri olan beytlərindən biri də,

***Ey bülbülü-qüdsi, nə giriftari-qəfəssən?***
***Sındır qəfəsi, tazə gülüstan tələb eylə! dir***

Bu beytin izahı belədir: bülbülü-qüdsi müqəddəs bülbül deməkdir ki, bu da ruha işarədir. Qəfəs bədənə deyilir. Beytin rəmzi mənası budur: «Ey ruh, niyə əsir olub bədənində qalmısan. Artıq bu bədəni tərk elə və özünə təzə gülüstan tələb eylə!»

## ŞAH İSMAYIL XƏTAİ

Görkəmli dövlət xadimi, ana dilində yaranan şeirin inkişafına xüsusi qayğı ilə yanaşan, özü bu dildə ölməz sənət inciləri yaradan Şah İsmayıl Xətai Azərbaycan xalqının ictimai-siyasi və mədəni yüksəlişində müstəsna xidmətəri olan şəxsiyyətlərdəndir. Ş.İ.Xətai 1487-ci ildə iyulun 23-də Ərdəbil şəhərində nüfuzlu bir Azərbaycan ailəsində anadan olmuşdur.

Ş.İ.Xətai az yaşamasına, vaxtının çoxunu dövlət işlərinə sərf etməsinə baxmayaraq, zəngin və çoxcəhətli bir irs yaratmışdır. O, həm əruzda, həm də heca vəznində, həm epik, həm də lirik janrlarda yazıb-yaratmış, yaddaqalan, nümunə, örnək ola bilən əsərləri ilə ədəbiyyatımızı zənginləşdirmişdir. Ş.İ.Xətai 515 ildən artıqdır ki, enməz ucalığı, sönməz işığı ilə bütün dünyaya nur səpir. Böyük Füzulimiz Şah İsmayıl Xətaiyə həsr etdiyi "Bəngü-badə" əsərində Xətainin haqqında yüksək fikirlər söyləyərək yazırdı: "Şah İsmayılın sayəsində varlı da, kasıb da asudə keçinir, qoy onun hökmranlığı əbədi olsun. Onun feyz camından naib şadlanmayanlar qoy şərab xıltı kimi çöküb həmişəlik puç olsunlar". Füzulidən bir neçə əsr sonra yaşamış türk alimi Əbdülbaqi Kölpünarlı Ş.İ.Xətaini heyrətlə xatırlayır və yazırdı: "Xətai təxəllüslü hər hansı bir şeir oxunarkən məclisdə qadınlar ayağa qalxar, kişilər diz çökərdilər".

Məqsədimiz Şah İsmayıl Xətainin yaradıcılığı haqqında geniş məlumat vermək olmadığından, Xətai yaradıcılığında həqiqət

axtarışı mövzusu və İslam dininə olan münasibətdən söhbət açacağıq:

***Qaibdən dəlil göründün,***
***Dədəm, xoş gəldin, xoş gəldin!***
***Bizi sevib sevindirdin,***
***Dədəm, xoş gəldin, xoş gəldin!***

**Anlamı:** *Keçmiş zamanlarda «Dədə» ismi ictihad sahiblərinə, əksər hallarda naibi-Mövlaya (İmamın naibi) deyərdilər. Dövrümüzdə bu söz molla, axund və s. sözlər kimi nüfuzdan düşüb, öz ilkin anlamından kənarda qalmışdır. Təəssüf ki, Xətai öz zamanında yaşamış dədənin (imam naibinin) adını çəkmir. Bəlkə də başqa əsərlərində şair bu şəxsin adını çəkib. Mənzum parçanın birinci misrasında agah olunur ki, bu şəxs İmam-Zamanın (ə.f.) naibidir. Xətai o şəxsə xitab edərək söyləyir ki, sən qaibdən (qeybdə olan şəxsdən, yəni Sahib-əzzamandan) bir dəlil, sübut (höccət) kimi göründün və bizi sevərək sevindirdin.*

Ş.İ.Xətainin Azərbaycan Xalqına vəsiyyəti:«Əziz nəslim, Allah tərəfindən mənim üçün edilmiş qısa ömürdə Sizin üçün əlimdən gələni etdim. Öz qılıncımın gücüilə tikə-tikəbölünmüş Vətənimizi birləşdirməyə çalışdım. Mənim bütün döyüşlərimin əsas qayəsi bu idi».

## Ş.İ.XƏTAİ VƏ ŞAİR NƏBİ BORÇALI YARADICILIĞINDA "İLAHİNAMƏ"LƏR

Şah İsmayıl Xətainin həyat və yaradıcılığı haqqında qısa məlumat verdikdən sonrabu bölümümüzdə Əhli-beyt (ə) aşiqi olan görkəmli şəxsiyyətin yaradıcılığında yer alan "İlahi-namə"lərdən birini şərhi ilə təqdim edirik:

***Ey ki, yoxdan bu cahanı var edən Pərvərdigar,***
***Yeri qaim, göyləri dəvvar edən Pərvərdigar.***

Şair beytdə yeri qaim, göyü isə dəvvar adlandırır. Qaim, ərəbi kəlməsi olub ayaq üstə hazır duran mənasını verir. Müqayisə üçün bir misal: Biz Həzrəti Höccətə (ə.f) "Qaimi-biəmrullah" (Allahın əmriylə hazır duran) deyirik. Bəs nəyə görə beytdə dünya qaim adlandırılır? Keçmişdə belə bir fikir var idi ki, dünya öz yerində durub (qaim) fələklər (göylər) isə dövr edirlər (dəvvar). Yuxarıdakı beyt də burdan qaynaqlanmışdır.

***«Küntü kənz»in ayəti vəsfində olmuşdur nüzul,***
***Varlığına kün fəkan iqrar edən Pərvərdigar.***

**Şərh:** «Küntü kənz» "gizli xəzinə" hədisinə işarədir. Hədisi-qüdsi belədir: «Mən bir gizli xəzinəydim, aləmləri yaratdım ki, tanınam». Bəzi yerlərdə hədisdəki aləmləri sözünü insanları və cinləri sözü əvəz edir. Bu da, Quranın "Zariyət" surəsindəki 56-cı ayəyə əsaslanır. Ayə belədir: «**Va mə xaləqtul cinnə val insə liyəbudun"** - "Mən cinləri və insanları Mənə ibadət etmək üçün yaratmadım".

"Kun fəkan" sözü isə "Yə-sin" surəsinin 82-ci ayəsindən götürülüb. Ayə belədir: "**İnnəmə əmruhu izə əradə şeyən ən yəqulə ləhu kun-fəyəkun"** – "Onun iradəsi hər nə istəsə, "ol" desə, olasıdır".

***Cümleyi-aləmdə Sən gündən dəxi zahir, vəli,***
***Dildə daim adını Səttar edən Pərvərdigar.***

**Şərh:** Beytdə deyilir ki, İlahi, Sən gün təki zahirsən, fəqət dillərdə adın Səttardır. Səttar ərəbi kəlmə olan sətr sözündəndir ki, anlamı gizləmə deməkdir. Allah zahirdir sözünün 2 cür yozumu var:

1. Yerdə və göydə olanlara ibrət gözü ilə baxdıqda bütün bu mövcudatın bir Xaliqi olduğu qənaətinə gəlirik. Bütün bu mövcudat bizə Allahı xatırladır. Beləcə, Allahın zahirdə olması sübuta yetir.

2. İmam Əlidən (ə) soruşdular: – Rəbbini görmüsənmi? İmam Əli (ə) buyurdu: «**Görmədiyim Rəbbə ibadət etmərəm. Fəqət, Onu bəsirət gözüylə görmək olar».**

*Mömినə məskən qalıbdır baği-cənnətü nəim,*
*Kafəri-münkir məqamin nar edən Pərvərdigar.*

**Şərh:** Bu beyti ətraflı şərh etməyə ehtiyac yoxdur. Sadəcə olaraq beytin söykəndiyi Quran ayələrinə nəzər salaq. Qurani-Kərimdə, "Duxan" surəsinin 51-ci ayəsində oxuyuruq. "**İnnəl muttəqinə fi məqamin əmin. Fi cənnətin va uyun"** – "Müttəqilər əmin olan məqamdadırlar. Cənnət bağlarındadırlar".

"Zuxruf" surəsinin 74-cü ayəsində isə belə deyilir: "**İnnəl mucriminə fi əzəbi cəhənnəmə xalidun. Lə yufəttəru ənhum vahum fihi mublisun"-** "Günahkarlar cəhənnəm əzabında əbədi qalacaqlar. Əzabları yumşaldılmaz, ümidsiz olaraq sükut içindədirlər".

*Cümlə əşyalər gözün dər xab edəndir gecələr,*
*Göydə kövkəblər gözün bidar edən Pərvərdigar.*

**Şərh:** Gecə olduqda hər şey yuxuya gedir, göyün üzünüsə ulduzlar (kövkəblər) bürüyür. Bərq vuran hər ulduz, sanki gözünü açmış vəziyyətdədirlər, oyaqdırlar (bidar).

*Bir qulunu oda yaxub qıldı fi-nari-səqər,*
*Bir qulunu məhrəm-əsrar edən Pərvərdigar.*

**Şərh:** Səqər (əsli, Səqar) cəhənnəm qatlarından birinin adıdır. Bir bəndəsini (qulunu) Səqar odunda yandırıb deyəndə, kafir nəzərdə tutulur.

İkinci misrada sirlərə məhrəm olan (Məhrəmi-əsrar) bəndə isə mömindir.

***Misr içində Yusifi bir qul ikən Sultan edən,***
***Dərd ilə Yəqubini bimar edən Pərvərdigar.***

**Şərh:***Həzrəti Yusif (ə) Misirdə xidmətçi idi. Nahaqdan günahlandırılaraq zindana atılır. Sonra bir hadisə nəticəsində zindandan azad olur, nəhayət məmləkətin hakimiyyətinə sahib olur. Atası Həzrəti Yəqub (ə) oğlunun ayrılığından xəstələnib gözlərinin nurunu itirmişdi.*

***"Va kəzəlikə məkkənnə li Yusifə fil ərzi yətəbəvvəy minhə heysu yəşəu nusibu birəhmətinə mən-nəşəu va lə nuziu əcral muhsinin".***[96] – "Yusifə yer üzündə məkan verdik beləcə, istədiyi yeri verdik ona. Rəhmətimizi istədiyimiz kimsəyə nəsib edərik, yaxşıların əcrini zay etmərik".

***"Vabyəzzəm eynəhu minəl huzni fəhubə kəzim. Qalu məazllahu təftəvu təzkuru Yusifə həttə məkunə hərazan əu təkunə minəl həlikin".*** – "Ağ düşdü gözlərinə dərd çəkib ağlamaqdan. Dedilər: Allaha and olsun ki, Yusifi xatırlayaraq əldən gedəcəksən, axır həlak olacaqsan"[97].

***Yunisi dərya içində yudduran bir balığa,***
***Atəşi İbrahimə gülzar edən Pərvərdigar.***

**Şərh:***Yunis peyğəmbər(ə) qövmünün rəzalətinə dözə bilməyərək, Allah-təalanın rizaəti olmadan qövmünü tərk edir. Allah-təala onu cəzalandıraraq balığın qarnında həbs edir. Allah-təala bu haqda Quranda*

[96] "Yusif" surəsi 56-cı ayə
[97] Yusif surəsi, 84-85-ci ayələr

*belə buyurur:* ***"Fəltəqaməhul hutu va huva mulim.Fələaulə ənnəhu kənə minəl musəbbihin. Lələbisə fi bətnihu ilə yavmi yubəsun"*** – *"İzinsiz iş gördüyünə görə balıq onu uddu. Təsbih (öyən) edən kəslərdən olmasaydı, diriləcəyi günə qədər bətndə qalacaqdı"[98].*

Ənbiyalar səfində piri-tövhid (tövhidin atası) sayılan Həzrəti Xəlilullah İbrahimə (ə) qövmünün tapındığı bütləri zəbun etdiyi üçün bütpərəstlər onu əsir edib odda yandırmağı qərara alırlar. Amma Allahın əmriylə atəş gülzara dönür. Ayəyə nəzər salaq: ***"Qalu harriquhu vansuru əlihəməkum in kuntum fəilin. Qulnə yə nəru kuni bərdən va sələmən alə İbrahim. Va əradu bihi keydən fəcəəlnəhumul əxsərin"*** – Dedilər: «Yandırın onu, yardım edin Allahlarınıza. İş ancaq budur». Dedik: "Ey atəş, sərin ol və zərərsiz ol İbrahimə!" Bir iş görmək istədilər. Biz də elə etdik, uduzan özləri oldu"[99].

***Yağdıran dəryayə göydən əbri-neysan yağmurun,***
***Qətrəsindən lölöyi-şəhvar edən Pərvərdigar.***

**Şərh:***Belə bir fikir var ki, neysan yağışı yağan vaxt (yaz aylarında) dəryadan balıqqulağına oxşar bir canlı su üzərinə çıxır və ağzını geniş açır. Neysan yağmurundan bir qətrə ağzına düşəndə ağzını bağlayır və dəryanın dibinə enir. O yağmur qətrəsi xeyli müddətdən sonra mirvari (lölö) olur.*

***Ənbiyalər bəxşinə yazduran əla mərtəbə,***
***Mustafanı cümlədən muxtar edən Pərvərdigar.***

**Şərh:***Xətainin əsərlərində (bir çox nəşrlərdə) bu beytdəki "əla" sözü "əlan" kimi verilmişdir. Bu iki ərəbi söz tərcümədə müxtəlif mənalar verir. Əlan indi, bu dəqiqə deməkdir. Belə olduqda beytin mənası heç bir*

---

[98] Səffat – 142-143-144

[99] Ənbiyə surəsi, 68-70

*şey demir. Əla isə ali, ən uca, daha, yüksək mənasını verir. Şübhəsiz ki, beytdə elə bu söz verilmişdir. Çap səhvi isə əlanı əlan kimi vermişdir.*

Allah-təala peyğəmbərləri ümmətlərinin içindən seçib onlara ali məqam bəxş etmişdir. Sonuncu peyğəmbər Həzrəti Mühəmməd Mustafanı (s) isə cümlə peyğəmbərlərin əşrəfi qərar vermişdir.

Allah-təala onun haqqında "Ənbiyə" surəsi 107-ci ayədə belə buyurmuşdur: ***"Vamə ərsəlnəkə illə rahmətəl-lil ələmin"*** – "Biz Səni aləmlərə rəhmət olaraq göndəririk".

***On iki məsumi – paki-piş edən ümmətlərə,***
***Murtəzani Heydəri-Kərrar edən Pərvərdigar.***

**Şərh:** *Pak, məsum olan on iki imam ümmətlərə öncüldür (piş). İmam sözü ərəbi kəlmə olub, rəhbər deməkdir. Əvvəlinci İmamımız Həzrəti Əlidir (ə). Beytdə o üç künyə ilə xatırlanır.*

1. **Murtəza.** Həmişə ibadətdə olan mənasını verir.

2. **Heydər.** Aslan deməkdir. Peyğəmbər (s) merac gecəsində Həzrəti Əlini (ə) aslan surətində görmüşdür. Sünni mənbələrdə Həzrəti Əli (ə) elə beləcə də təqdim olunur: "Allahın aslanı".

3. **Kərrar.** Qayıtdıqdan sonra təkrar hücum edən anlamını verir. Həzrəti Əli (ə) keçirdiyi hər bir müharibədə dəfələrlə düşmən səfinə hücum etmişdir.

***Lütf ilə əhvalinə qılgil Xətainin nəzər,***
***Eşq içində valehi-didar edən Pərvərdigar.***

**Şərh:***Valehi-didar – görüşdən valeh olan deməkdir. Eşq ən uca məqamdır. Muhəmməd Füzuli (r) eşqi aşiqlər üçün hidayət yolu adlandırmışdır. Eşq aləminə daxil olan aşiq məşuqu ilə görüşdən valeh olur.*

Ş.İ.Xətainin "Pərvərdigar" rədifli ilahinaməsi ilə səsləşən şair

Nəbinin "Pərvərdigar" ilahinaməsinə nəzər saldıqda görürük ki, hər iki şair bu "İlahinamə"lərində insanlığı haqq və ədalətə dəvət edirlər.

***Yapışmışam dərgahına yazıq mən, Pərvərdigar.***
***İlahisən, irəbbimsən, kərəmsən sən, Pərvərdigar,***
***Cəlalına əhtacım var, ya Xudam, nəsib eylə,***
***Bizə xoş gün əta eylə, adilsən sən, Pərvərdigar.***

***Oxuyuban gecə-gündüz tamam etdim qaramı,***
***Əlim yetmədi loğmana, kim bağlasın yaramı,***
***Həm əmrin, həm nəhyin, bilməz halal-haramı,***
***Yəqin ki, səndən qalıb, din, iman Pərvərdigar.***

***Şair Nəbi yaxşı bilir, ədəbində əyilməz,***
***Bu qəlbimdə qara nöqtə, paxır qəlbim silinməz,***
***Şainində agah olmaz, məlul qalib bilinməz,***
***Məşhərdə kimdi qalan, məlul xan Pərvərdigar?***

"**Yapışmışam"** - Pərvərdigar sözü fars sözü olub, mənası "Yaradan" deməkdir. "Dərgah" sözü isə "məkan" deməkdir. Şair bu misrada özünün acizliyindən və Yaradanın qüdrətindən bəhs edərək, Haqq dərgahına sığınmağını bəyan edir.

**"İlahisən, irəbbimsən, kərəmsən sən, Pərvərdigar**"- "İlah" kəlməsi ərəb sözü olub, "Məbud" (sitayişə layiq) deməkdir. "Rəbbi" sözü ərəb sözü olub, mənası "yol göstərən" deməkdir. "Kərəm" sözü ərəb sözü olub, "kəramətli" deməkdir. Şair bu misrada Yaradanın 3 sifətinə istinad (söykənir) edir.

**"Cəlalına əhtacım var, ya Xudam, nəsib eylə" – "Cəlal və Cəmal"** ərəb sözləri olub, mənaları **"lütfi mərhəmət və qəhri – qəzəb"**dir. **"Əhtac" sözü ərəb sözü olub, mənası "ehtiyaclı olmaq"** deməkdir. **"Xuda"** fars sözü olub, **"Allah"** deməkdir. Bu

misrada şair deyir:

“Ey mənim Allahım! Sənin lütf və mərhəmətinə ehtiyacım var. Öz lütf və mərhəmətini mənə nəsib eylə!”

Qəzəl janrının görkəmli nümayəndələrindən olan Peyğəmbər (s) şairi M.Füzulinin “Mana” rədifli qəzəlini şair Nəbi təsdiq edir. Füzuli deyir:

***Ya Rəbb həmişə lütfünü et rahnüma mana***

***Göstərmə ol təriqi ki, getməz sana mana*** – yəni “Ey mənim Rəbbim həmişə öz lütfünü mənə yol göstərən qərar ver. O yol ki Sənin dərgahına getmir, o yolu mənim üzümə bağla”.

**“Bizə xoş gün əta eylə, adilsən sən, Pərvərdigar”** – Əta ərəb sözü olub, “Bəxşiş” deməkdir. “Adil” isə “Ədalətli” deməkdir.“Bu misra da şair “Əta və adil” sözlərindən istifadə edərək, Yaradanından xoş gün istəyir.

***Oxuyuban gecə-gündüz tamam etdim qaramı,***
***Əlim yetmədi loğmana, kim bağlasın yaramı,***

Bu misralarda bəzi gizli məqamlar yatır. Birinci misradakı “qara” ifadəsi çoxmənalıdır. Belə ki, zahiri baxımından burada iki mətləb var. Birincisi, “qaranı tamam etmək”, yəni Qurani – Kərimin yazılarını, mətnini oxuyub başa çıxmaqdır. “Qara”, yəni yazı, qara mürəkkəb deməkdir. Bu sözün ikinci zahiri mənası ərəb dilindəki “qare” sözüdür. “Qare” oxuyan deməkdir. Zatən “Quran” sözü elə ərəbcədəki “qaraə” – “oxunan” felindəndir. Fəqət bu misranın bir də batini mənası vardır. Məşhur Əhli – həqq təriqətindəki nəzəri əsaslara söykənən “qara və ağ yazılar” fikri dediyimiz mətləblərə işıq tutur. Həmin fəlsəfə bundan ibarətdir:

Deyirlər ki, Qurani – Kərimin iki yazısı, iki xətti vardır. Bunlardan birincisi qara yazılardır ki, bunu xalq, yəni hər kəs oxuya bilir. Ikinci mətləb isə batinidir. Xalqın oxuya bilmədiyi ağ yazıları ariflər, eşq əhli oxuyur. Onları oxuya bilənlər Nəsimi

demişkən, Xaliqin sirrindən agah olanlardır.

Divaninin bu iki misrasını "Sığındım Mövlaya" kitabının redaktoru Fəxrəddin Salim açıqladığından biz bu misraların üzərində dayanmağı lazım bilmədik. Sözün həqiqi mənasında Fəxrəddin müəllim bu 2 misranı çox gözəl şəkildə şərh edib.Yalnızbunu deyə bilərik ki, Füzuli demiş:

***Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən,***

***Ki, açsın hikmət əhli əql üzündən bu müəmmanı***- yəni əqli olan insanlar ancaq hikmət kəsb edə bilərlər. Həqiqət sirrini bilmək üçün insana eşq lazımdır. Məhz bu səbəbdən Nizami deyib:

***Eşqidir mehrabı uca göylərin,***
***Eşqsiz ey dünya nədir dəyərin.***

Mövlana isə deyib:

***Hər nə desəm aləmdə eşqidir,***
***Eşq Heydəri Əmirəlmömininindir.***

**Həm əmrin, həm nəhyin, bilməz halal-haramı,** – bu misrada şair İslamın əməli bölümündə olan Firiuddinin 6 və 7 – ci maddələrindən və "Əhkam"ın (şəriət hökmləri) 5 bölümünün 2-sindən "Halal və Haram"dan söhbət açır. "Əmr be məruf" ərəb sözü olub, mənası "yaxşı işlərə dəvət", "nəhy əz munkər" isə "pis işlərdən çəkindirmək" deməkdir. Şair bu misrada deyir ki, "Ey insan! Allahın sənə buyurduğu əmrlərə tabe ol, pis işlərdən çəkin və yaxşı işlərlə məşğul ol! Allahın sənə buyurduqlarını - halalları halal, haramları isə haram bil"

**Yəqin ki, səndən qalıb din, iman Pərvərdigar–** bu misrada şair bildirir ki yəqin bil ki, səni Yaradan bir gün səndən (hesab günü) din və iman barədə sual edəcək. Din və iman barədə olan məsələləri bu dünyada öyrən ki axirətdə gərəyin olsun. Necə ki Dəmirçi Abbas deyib:

*Quru ağaca calaq vursan alarmı?*
*Oxunmayan bir dərs yadda qalarmı?*
*Tapşırıqla bilik başa dolarmı?*
*Çox da müəllim 3 yerinə 5 atsın.*

Hər bir insan qəbrə qoyularkən Nəkir və Munkər deyilən iki mələk nazil olub, sorğu – suala başlayar. O suallardan mühüm olanları əqidə barəsində olan suallardır:
**1.Rəbbin kimdir? – Rəbbim Allah – Təaladır.**
**2.Peyğəmbərin kimdir? – Peyğəmbərim Həzrət Muhəmməddir (s).**
**3.Dinin nədir? – Dinim İslamdır.**
**4.Kitabın nədir? – Kitabım Qurani – Kərimdir.**
**5.Qiblən haradır? – Qibləm Kəbə evidir.**
**6.İmamların kimdir? – Rəhbərlərim 12 imamdır.**

**"Şair Nəbi yaxşı bilir, ədəbində əyilməz,"** – bu misrada şair insanları ədəbli olmağa çağırır. Ədəb əxlaqın müqəddiməsidir. Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurur:

"Oğlum Həsən! Ədəbini hifz elə. Əgər ədəbli olsan, səni ədəbinə görə məclislərin yuxarı başında əyləşdirərlər. Əgər desələr ki, ömründən 2 gün qalıb, 1-ci günü ədəb - ərkan öyrən ki, 2-ci gün dadına yetsin".

"**Bu qəlbimdə qara nöqtə, paxır qəlbim silinməz" –** bu misrada qəlbdə olan qara nöqtədən məqsəd insanın qəlb xəstəliyidir. İnsan, nə qədər ki bu xəstəlikdən nicat tapmayıb, qəlbi paklanmaz. Qurani – Kərimin "ər-Rədd" surəsinin 28-ci ayəsində Allah –Təala buyurub:

"O kəslər ki iman gətirmişlər, qəlbləri Allahı zikr (yada salmaq) etməklə aram tapar. İnsanların qəlbi yalnız Allahın zikrləriylə aram tapar".M.Füzuli deyir:

*Tövbə qıldı bir günah etmişdisə qəlbim mənim,*
*Bilmiş öz səhvi xətasın əfv qıl bu müztəri.*

Şair başqa bir beytində isə:

*"Şainində agah olmaz, məlul qalib bilinməz,*
*Məşhərdə kimdi qalan, məlul xan Pərvərdigar?"–*

– deyərkən şair bildirir ki, məşhər günü kimin nicat tapıb, kimin cəzaya düçar olmağını Allahdan başqa kimsə bilməz.

## FƏZİLƏTLƏR SAHİBİ FÜZULİ

*Vadiyi-vəhdət-həqiqətdə məqami-eşqdir*
*Kim, müşəxxəs olmaz ol vadidə sultandan gəda.*

*Elə gizlənməmişdir ki, həqiqət sirri gözlərdən,*
*Ki açsın, hikmət əhli əql üzündən bu müəmmanı.*

*Məgər peyğəmbərin pak ruhu lütfən dadına çatsın,*
*İki dünyada tapsın hər çətinlik rahi-asani.*

*Nəbidir, Haşimidir, Əbtəhi, Ümmi və Məkkidir*
*Əli din xəznəsinə açardır, mərhəmət kanı[100].*

M.Füzuli 1494-cü ildə İraqın Bağdad şəhəri yaxınlığında olan Kərbəla məntəqəsində anadan olmuşdur. Atası Süleyman kişi zəmanəsinin tanınmış şəxsiyyətlərindən biri idi. Kiçik yaşlarından Füzuli mükəmməl təlim-tərbiyə görmüş və müəllimləri Xacə

---

[100]M.Fizuli "Ənisul-Qəlb"

Rəhmətullah və ya Həbibidən elm alması ehtimal olunub.

M.Füzuli qələmini Azərbaycan klassik şeirinin bütün janrlarında sınamış və doğma Azərbaycan dilinə üstünlük vermişdir. Eyni zamanda Füzuli ərəb və fars dillərində də gözəl, mənalı əsərlər yaratmışdır. Füzuli yaradıcılığına nəzər saldıqda görürük ki, şairin azərbaycanca və farsca şeirlər divanı, «Leyli - Məcnun» poeması, «Bəngü-Badə», «Yeddi cam», «Söhbətül-əsmar» poemaları, «Şikayətnamə» və məktubları, «Səhhət və Mərəz», «Rindü-Zahid» adlı farsca əsərləri, «Hədisi-ərbəin», «Hədiqətüs-süəda» tərcümə əsərləri və «Mətləül-etiqad» kimi ərəbcə elmi fəlsəfi əsərlərin müəllifidir.

Şairin yaradıcılığında Nizami, Nəsimi, Həbibi, Xətai və Nəvainin təsiri böyükdür. Bunlara baxmayaraq ədəbiyyatımızda Füzulinin də öz dəsti-xətti olmuşdur. Füzuli öz yaradıcılığında qəzəl və qəsidə janrına daha çox yer vermişdir. Bu iki poetik janr ideya və məzmun baxımından bir-birindən fərqlənir. Bildiyimiz kimi, qəzəl ən çox duyğuların, qəsidə isə düşüncələrin ifadəsi kimi başa düşülür. Şairin özü qəzəli «səfa bağışlayan» və «hünər bağının» gülü olan şeir növü kimi qiymətləndirir. Şairə görə qəzəl ceyranının ovlamaq asan deyil. Qəzəl şairin qüdrətini üzə çıxarır və şairə şöhrət gətirir. Qəzəl məclislərinin zinəti, ağıl və hikmət sahiblərinin sənətidir. Ancaq elə qəzəl yaratmaq lazımdır ki, şair özü demişkən: «Ey ürək, çox şeir rəsmi var, ancaq qəzəli onların hamısından üstün tut». Füzuli qəzəllərində insanın daxili dünyasını, mənəvi aləmini, dərdini, kədərini və göz yaşını qələmə alaraq yazırdı:

***Məni candan usandırdı, cəfadan yar usanmazmı?***
***Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?***
***Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,***
***Oyadar xalqı əfqanım, qara baxtım oyanmazmı?***

Deyildiyi kimi, Füzulinin ədəbi irsində qəsidə janrı da müstəsna yer tutur. Azərbaycanca, farsca və ərəbcə qəsidələr yazan şair onları ayrıca bir divan şəklinə salmış və ona çox mənalı bir dibaçə yazmışdır. Şair: «təkcə qəsidə hər xeyir işdə cilvələr saçaraq əsl sənət sayılır» – deməklə qəsidəyə xüsusi əhəmiyyət verir. Füzuli bir çox qəsidələr yazmış və bu qəsidələrdən bir neçəsini İslam Peyğəmbərinin (s), Əhli-Beytin (ə) şəninə qələmə almışdır. Peyğəmbərin (s) şəninə yazdığı qəsidələrə misal olaraq «Su», «Gül», «Qələm», «Xəncər» və s. qəsidələrini misal göstərmək olar. Əhli-Beytin (ə) şəninə yazdığı qəsidələrdən isə «Olsun» rədifli qəsidəsini misal göstərmək olar:

***Gəda tək ummaram pay süfrəsindən bir kəsin, amma,***
***Könül istər Əlinin asitanında gəda olsun.***

***Dilim varmaz Əlidən qeyri bir sultanı mədh etsin,***
***Budur arzum ki, məmduhim Əliyyən-Murtəza olsun.***

Şair öz qələmini lirik şeirin digər janrlarında daqitə, rübai, müxəmməs, müsəddəs, tərkibənd, tərcibənd və s. kimi sınamışdır. Qitələrində şair ən çox içtimai münasibətlərdən söhbət açaraq, var-dövlət toplamağı, acgözlüyü pisləyir, cahil və hiyləgər adamlara elm öyrətməyi lazım bilmir və deyir:

***Ey müəllim, aləti-təzvirdir əşrarə elm,***
***Qılma əhli-məkrə təlimi-maarif, zinhar.***

Mənası:

***Ey müəllim, elm şər adamların əlində bir hiyləgərlik alətidir.***
***Odur ki, hiyləgər adamlara elm öyrətməkdən çəkin.***

Digər bir qəsidəsində şair var-dövlət toplamağın əzab-əziyyətindən danışaraq var-dövləti ağır bir yük sayır və deyir:

*Mal çox etmə, həzər eylə əzabından kim,*
*Rənci artar ağır olduqca yükü həmmalın.*

Füzuli eyni zamanda yalnız yeyib-içib həyat sürən insanları məzəmmət edir və onların halına acıyaraq bu nəticəyə gəlir ki, insan yeyib-içmək üçün dünyaya gəlməmişdir. İnsan kamala çatmaq üçün bu dünyaya gəlmişdir. Kamalın mərhələlərini də şairin yaradıcılığında görmək mümkündür. Belə ki, kamalın və həqiqi məna kəsb etməyin dörd mərhələsi olan hikmət, iffət, şücaət və ədalətə şairin yaradıcılığında çox rast gəlinir və şair bir rübaisində Allah-Təaladan ona kamal almağa istedad verməyi rica edir:

*Ey Xuda, sən məni eylədin icad,*
*Kamal almağa da sən ver istedad.*
*Ya özün hər işdə ustad ol mənə,*
*Ya da ki, yol göstər tapım bir ustad.*

«Padşahı-mülk» adlı qitəsində şair hər sözü bir pəhləvan şeirlərini padşahların hakimiyyətinə, cah-cəlalına qarşı qoyaraq, sözün-sənətin hakimiyyətini daha üstün və əbədi sayır. Şairin fikirincə, bədii söz, şeir qalmaqal salmadan, xərc çəkmədən ölkələr alır:

*Padşahi-mülk dinarü-dirhəm rüşvət verib,*
*Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.*

*Yüz fəsadü, fitnə təhrikiylə keşvər alır,*
*Ol dəxi asari-əmnü istiqamətdən bəri.*

***Göstərən saatdə dövranü-fələk bir inqilab,***
***Həm özü fani olur, həm ləşkəri, həm kişvəri.***
***Gör nə sultanam məni-dərviş kim, feyzi-suxən,***
***Eyləmiş iqbalimi asari-nüsrət məzhəri.***

***Hər sözün bir pəhləvandır kim, bulub təyyidi-həqq,***
***Əzm qıldıqda tutar təcrid ilə bəhrü-bəri.***

M.Füzulinin irihəcmli əsərlərindən biri olan «Bəngü-Badə» poemasının süjet xəttini Çaldıran müharibəsi təşkil edir. Şair bu əsərini 1515-1524-cü illər arasında qələmə almışdır və bu poemanın Şah İsmayıl Xətai və Sultan Səlimə həsr etmişdir. Akademik Həmid Araslı yazır ki, Səfəvi hökmdarı Şah İsmayıl və türk hömdarı Soltan Səlim arasındakı yazışmaları Bəng və Badənin yazışmaları arasında bir oxşarlıq duyulur. Şairin digər irihəcmli əsəri olan «Yeddi cam» poemasında insanın özünü və dünyanı dərk etməsindən bəhs edilir. «Meyvələrin bəhsi»ndə isə şöhrətpərəstlik və lovğalıq insanın xarakterində olan ən ciddi qüsurlar kimi göstərilir. Füzulinin istedadı «Leyli Məcnun» poemasında bütün əzəmət və gözəlliyi ilə aşkara çıxmışdır.

1537-ci ildə Rum zəriflərinin xahişi ilə qələmə alınan «Leyli - Məcnun» poemasında şair bədii nəsrin, qəsidənin, qəzəlin, mürəbbinin, rübainin, məsnəvinin bədii imkanlarını nəzərə alaraq gözəl bir əsər yaratmışdır:

***«Leyli-Məcnun» əcəmdə çoxdur,***
***Ətrakda ol fəsanə yoxdur.***
***Təqrirə gətir bu dastanı,***
***Qıl tazə bu əski-bustanı.***

Hələ 1566-cı ildə Aşıq Çələbi yazırdı ki, «Leyli - Məcnun»

poeması «Hər sözü işıqlı bir şam, hər nöqtəsi qığılcımlar saçan bir oddur».

Füzulinin farsca yazdığı «Səhhət və Mərəz», «Rindü-Zahid» əsərləri də təqdirəlayiqdir. Eyni zamanda Füzulinin «Hədisi-ərbəin» (40 hədis), «Hədiqətüs-süəda» (Xoşbəxtlər bağçası) kimi tərcümə əsərləri də mövcuddur.

Altı əsrə yaxındır ki, Füzuli yaradıcılığı füzulisevərlər tərəfindən sevilir və xalqa çatdırılır.

## Muhəmməd Füzülinin təxəllüsü

«Füzul» sözünün lüğəvi mənası[101]:

**1. Artıq, lazımsız söz və ya şey;**

**2. Həddi aşma;**

**3. Haqsız iş və ya hərəkət;**

**4.Yersiz danışma, danışığının yerini bilməmə.**

«Füzuli» sözünün mənası isə:

**1. Həddini bilməyən, həddini aşan, özünə aid olmayan işlərə qarışan;**

**2. Yersiz danışan;**

**3. Uzunçu, naqqal.**

Füzuli fars dibaçəsində götürdüyü təxəllüs barədə belə deyir: «Təsadüfən məndən əvvəl gələn şairlərin hamısı yüksək anlayışlı, dərin düşüncəli insanlar imiş. Qəzəl üslubuna yarayan hər gözəl ibarəni, incə məzmunu elə işlətmişlər ki, orta bir şey qalmamışdır. İnsan onların bütün yazdıqlarını bilməlidir ki, çalışıb vücuda gətirdiyi əsərlərdə özündən əvvəl söylənən mənalar olmasın. Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb yazdığımı pozmuşam. Ona

[101] Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı – Bakı, 1966. Nizami adına Ədəbiyyat və Dil İnstitutu

sahib çıxmamışam və şeirlərimin sırasına salmamışam. Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz alması ilə məna gövhərini deşmişəm. Bunu görənlər bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir, – deyər-deməz o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm. Qəribə bir haldır, söylənmiş bir sözü söylənildiyinə görə, söylənməmiş bir sözü isə əvvəlcə söylənilmədiyinə görə işlətmək olmur.

***Dostlar gəlib etdi bizdən əvvəl,***
***Mənanı,sözü o qədri qarət,***
***Təng oldu bizə fəzası nəzmin,***
***Fəryad, nəyə bais oldu sibqət!***

Doğrusu budur ki, bu çəkinmə indiki təxəllüsü götürməyimə səbəb oldu. Necə ki, şeirə başladığım zamanlar hər gün təxəllüs bəyənir, bir müddət sonra eyni təxəllüsü dəyişdirirdim. Sonra anlaşıldı ki, məndən əvvəl gələn dostlar ibarələrdən çox təxəllüsləri götürmüşdülər. Düşündüm, əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürərsəm, müvəffəq olmadığım təqdirdə mənə zülm olar, müvəffəq olarsam ortağıma zülm etmiş olaram. Bu bənzərliyi ortadan qaldırmaq üçün Füzuli təxəllüsünü aldım və ortaqlarımın mənə zülm edib, məni iztirab içində qoymalarından qurtarmaq üçün təxəllüsümün himayəsinə sığındım.

Bildim ki, bu ləqəb heç kimin xoşuna gəlməyəcək. Odur ki, bir başqası mənə ortaq çıxaraq məni rahatsız etməyəcəkdir. Həqiqətən də, bu ləqəbi almaqla ortaqlıqdan mənə gələ biləcək əzabların qapısını bağladım və şeirlərimin qarışıq düşməsi əndişəsindən qurtardım:

***Məni bədnamlığım xəlq ixtilatından uzaq saldı.***
***Hünər kəsbi üçün tənhalığım verdi mənə imkan.***

***Mənim pis sandığım şey, şükr kim, yaxşı səmər verdi,***
***Daşım ləl oldu, torpağım qızıl, gül bitdi xarımdan.***

Həqiqətən, bu təxəllüs bir çox cəhətdən tamam mənim istədiyim kimi oldu, mənim arzuma çox uyğun gələn ləqəb oldu. Əvvəla, mən özümü ruzigarın yeganəsi görmək istəyirəm. Bunu təxəllüsüm təmin etdi. Fərdiyyətimin ətəyi ortaqlıq əlindən qurtardı. İkincisi, mən bütün ülum və fününu özündə toplamış bir insan olmaq üçün çalışırdım. Bunu ifadə edən bir təxəllüs tapdım. Çünki füzul lüğətdə ***ülum***[102] və ***fünun***[103] kimi ***fəzlin*** cəmidir. Füzulinin xalq arasında başqa mənası ədəbə müxalif deməkdir. Bundan da ədəbə müxalif nə hərəkət ola bilər ki, yüksək qədirli alimlərlə çox az görüşmüşəm, mərhəmətli padşahlara və sultanlara yaxın olmamışam. Səyahət etmədiyim halda həmişə əqli mübahisələrdə həkimlərin (filosofların) müxtəlif hökmlərinə etiraz, nəql məsələlərdə fəqihlərlə[104] müxalifət edirəm və söz fənninin hər şöbəsinin ustadı ilə ibarələrin gözəlliyi, ifadənin lətafəti xüsusunda münaqişəyə girirəm. Bu hərəkət nə qədər Füzulinin kamalına əlamətdirsə, o qədər də füzulluğun son dərəcəsinə işarətdir.

***Hümmətü iqdamımı, səyü təlaşü cəhdimi,***
***Elmü ürfanü hünər kəsbilə gördü ruzigar.***
***Əhli-aləm, əksinə, məndə böyük hümmət görüb,***
***Adımı qoydu Füzuli, fəzlim oldu aşikar.***

Allaha şükr ki, ömrümün bu bərəkətli adı daşıyaraq şeir uğrunda çalışmaqla keçən zamanı həmişə mənim üçün xeyirli olmuş və bu övliya torpağının şüyümlüyündən (uğurlu) və bərəkətindən qələmə aldığım hər əsəri asanlıqla tamamlamışam.

[102] Ülum – elmlər
[103] Fünun – fənlər
[104] Fəqih – şəriət hüquqşünası

Yalnız farsca şeirlərimin tamamlanması gecikmiş və bundan əvvəl söylədiyim maniələr səbəbilə bu işə başlamaq asan olmamışdı…»

Şairin fars dibaçəsində etiraf etdiyi kimi şairin təxəllüsünün mənası heç də uzunçu, naqqal demək deyil. Ancaq Füzuli gözəl bilirdi ki, öz dövründə olduğu kimi özündən sonra gələn bir sıra dırnaqarası qələm sahibləri də Füzulinin təxəllüsünü düzgün başa düşə bilmədiklərindən, onların da Füzuli təxəllüsünə olan mənfi münasibətlərinə vaxtında və layiqli cavab vermişdir:

***Mənə pis söylədisə bir pis adam, incimədim,***
***Məni, Allaha şükür, yaxşı bu dünya tanıyır.***
***Mənim haqqımda onun fikri nə təsir edəcək?***
***Elə bir qövmə ki, ondan məni əla tanıyır.***

Füzuli bir sıra qəzəllərində də adının ədəbə müxalif olduğunu etiraf etmişdir. Füzuli Allahın və Allahın sevimli bəndələrinin, yəni peyğəmbər və imamların şəninə yazdığı qəzəllərdə, qəsidələrdə onları tərif etməyi özünə layiq bilməmiş və etiraf etmişdir ki, məsum (yəni günahdan pak olan) şəxsləri ancaq məsumlar vəsf edə bilər. Füzuli «Bəngü-Badə» əsərində yazır:

***Çün Füzuli dürür mənim ləqəbim,***
***Əcəb olmaz gər olmasa ədəbim.***

«Edər» rədifli qəzəlində isə İmam Zaman Ağaya (ə.c.) müraciətlə belə deyir və cavabını da özü verir:

***Dedim: Füzuli, düşüb eşqivə gözəl, O dedi:***
***Ədəbsiz olduğuna öz adı dəlalət edər.***

Və «Küstah[105]» rədifli qəzəlində belə deyir:

[105] «Küstah» sözünün mənası lüğətdə ədəbsiz deməkdir.

***Bənzədirsən özünü itlərinə hər saət,***
***Ey Füzuli, ola bilməz sənə bənzər küstah.***

Bu açıqlamalardan da aydın görünür ki, Füzulini "uzunçu", "naqqal"" adlandıran insanlar Füzuli yaradıcılığından bixəbər olan insanlardır. Hər hansı bir şəxsiyyətin haqqında dolğun məlumat almaq üçün ilk növbədə həmin şəxsin, əgər şairdirsə onun külliyatını nəzərdən keçrib sonra fikir söyləmək lazımdır. Təəssüf ki, Füzuli yaradıcılığından bixəbər insanlar cəmiyyətdə müxtəlif adlarla kitablar yazır və öz kitablarında Füzulinin beytlərini düzgün olmayan formada şərh edirlər. Bu cür şəxslərə üz tutub demək istəyirik ki, Füzulinin ruhundan utanıb bu cür lazımsız açıqlamalarla Füzulini şəxsiyyətinə hörmətsizlik etməsinlər. Füzulinin Allah yanında məqamı ucadır. Belə ki, sağlığında şair peyğəmbərin əziz nəvəsi İmam Hüseynin (ə) məqbərəsinin xidmətində durmuş və vəsiyyət etmişdir ki, mən öləndə məni İmam Hüsenynin (ə) ayaqları altında dəfn edərsiz.

***Ucaldın qəbrimi, ey bidərdlər, səngi-məlamətdən,***
***Ki, qəbrim məlum ola bidərdlərə ol əlamətdən.***

***Məzarım üstə qoymun mil, əgər kuyində can versəm,***
***Qoyun bir sayə düşsün qəbrimə ol sərvi-qamətdən.***

Bu beytlərdə Füzuli özünün kiçikliyindən deyil, İmam Hüseynin (ə) yüksək məqamda olduğundan söhbət açır və peyğəmbərimizin (s) İmam Hüseyn (ə) haqqında buyurduğu bu hədisi bizə xatırladır: «Hüseyn hidayət yolunun çırağı və nicat gəmisidir». Füzuli bu hədisə qəlbən bağlı olduğundan vəsiyyət edir ki, mənim ölümümdən sonra da cənazəm bu nicat gəmisində olsun. Şairin bu vəsiyyəti yerinə yetirilir, bu gün də Kərbəla ziyarətinə gedən zəvvarlar (ziyarətçilər) əvvəlcə Füzulinin qəbrini,

sonra isə İmam Hüseynin (ə) mübarək mərqədini (qəbrini) ziyarət edirlər.Füzuli sözün qüdrətinə ürəkdən inanmışdır.

Şairin: «Artıran söz qədrini, sidq ilə qədrin artırar» misralarında sənətkar üçün sözün nə qədər əhəmiyyətli olduğu ifadə edilmişdir. «Ver sözə ehya ki, tutduqda səni xabi-əcəl, edə hər saat səni ol uyğudan bidar söz» bu misralardan da aydın görünür ki, şair həm özünə, həm də digər söz sahiblərinə tövsiyə edərək deyir ki, sən sözə həyat ver, dirilik libası geyindir ki, sən öldükdən sonra səni sözlərinlə yad etsinlər və diri saxlasınlar. Füzulinin söz üzərində çəkdiyi zəhmətə, sözə nə qədər əhəmiyyət verməsinə əsərlərində xüsusilə, divanının «Dibaçə»sində, «Leyli - Məcnun» poemasının əvvəlində qəzəl və qitələrində də tez-tez təsadüf olunur.

***Mən şairi Museyi-kəlaməm,***
***Sahirlərə möcüzü-tamaməm.***

İrfani məqamları dərindən bilən M.Füzuli Qurani-Kərimin qanunlarına uyğun olaraq yazdığı "Divan"ın ilk beytini Ərəb dilində yazmışdır ki, buna da müləmmə deyərlər. «Müləmmə» - sözünün lüğətdəki mənası; ala-bula, rəngbərəng deməkdir. Ədəbiyyatda isə şeirin hər misrası başqa dildə olan şeir nümunəsinə müləmmə deyilir. Misal:

***Qed enarel-eşqə-lil-üşşaqi minhacəl hüda,***
***Saliki-rahi-həqiqət, eşqə eylər iqtida.***

Ərəb dilində olan birinci misranı Mir Cəlal, tərtib etdiyi Füzuli divanında bu cür tərcümə etmişdir: «Eşq aşiqlər üçün hidayət yolunu işıqlandırdı». Sonrakı misrada isə deyilir: Həqiqət yolunun yolçusu eşqə iqtida edər. «İqtida etmək» sözü bir neçə məna verir; Yamsılamaq, təqlid etmək, kiminsə qoyduğu yol ilə

getmək. Beytdə deyilir ki, eşq aşiqlər üçün hidayət yolunu işıqlandırdı. Həqiqət yolunun yolçuları həmin bu nur mənasında işlənən işığa iqtida edər. Yəni, həqiqət axtaranlar məhz həmin bu nurun, bu eşqin göstərdiyi yol ilə getməlidirlər. İslam şəriətində ən birinci məsələ təqlid etməkdir. İbadət etmək istəyən, yəni şəriətin göstərdiyi yol ilə getmək istəyən şəxs gərək özünə bir müctəhid (şəriət başçısı) qərar versin. Çünki getmək istədiyi yolu ona göstərən bir bilici, aqil lazımdır. Ali məqsəd naminə gedilən yollarda özbaşınalıan hədəfə yetişmək olmaz. Beytdəki məna budur ki, həqiqət yolunun yolçusu məqsədinə nail olmaq istəyirsə, gedəcəyi yolda ancaq eşqi rəhbər tutmalıdır. O yolun istiqamətini yalnız eşq tanıyır. Ariflərin nəzərində aşiqi ağıl yox, yalnız eşq idarə edər. Başqa bir misal:

***Xələfı-mötəbəri-Adəmü Həvva sənsən,***
***Cəələllahü fədaən ləkə ümmi və əbi.***

Birinci misra aydındır ki, Adəm ilə Həvvanın ən mötəbər övladı sənsən deməkdir. İkinci misranın mənası isə belədir: Allah ata-anamı sənə qurban etsin. Bir məsələni qeyd etmək istərdim ki, misraları başqa-başqa dillərdə yazılan hər şeirə mülammə deməzlər. Müxtəlif dillərdə yazılmasına baxmayaraq, əgər misralar bir-birini məntiqi baxımdan tamamlayırsa müləmmə, tamamlamırsa, mülammə deyil, sadəcə olaraq iki dildə yazılmış adicə şeirdir. Yuxarıda göstədiyimiz misalların hər ikisində misralar arasındakı dil fərqinin olmasına baxmayaraq bir-birini elə tamamlayırlar ki, bir daha bu ustad şairin sənətinin heyranı olursan.[106]

MuhəmmədFüzuli məşhur“Mətləül-etiqad” əsərində buprosesi müxtəlif yönlərdən belə səciyyələndirir:

**“Batinilərinimaməthaqqında başqafikirlərivardır.Onlar**

[106] H.Ə.Mahir. “Mənim tanıdığım Füzuli”, Bakı, Nurlan-2009. Səh. 41

**deyirlər ki, iki aləm vardır: ruhani və cismani. Bu ikialəm mənşədən birlikdə nəşət etmişdir və kəmaldan nöqsanadoğrutənəzzüledir. Sonramənşəyə mənsubolanaqədərnöqsandankəmaladoğruqayıdır. Cismani aləmzahir aləmidir. Bualəminidarəedicisi peyğəmbərdən ibarətdirki,şəriətinzahiriehkamı əsasındahökmedir. Ruhani aləm isəbatin aləmidir. Bu aləmin idarəedicisi isə imamdan ibarətdirki, məqul(əqli) və mənəviehkam əsasındahökmedir. Eləbunagörə də bunlar(batinilər) peyğəmbərindeyil, imamıngizliolmasını (gözə görünməməsini) düzgünhesabedirlər.Necə ki, bədən (peyğəmbər kimi) gizlin deyil, ruh isə (imamkimi) gizlidir.Bəziqüluvvedənlər (ifratçılar) demişlərki,Tanrıbəzivaxtlar insan şəklində gözə görünür. Onu (insanlar) peyğəmbər və imam adlandırırlar. Bunlar insanları həqiqi dinəvə düz yola çağırırlar"** (Tərcümə H.Zərinəzadənindir).

Bu əsərdən nümunə gətirməklə bəyanetməkistəyirikki,klassik və xalq ədəbiyyatında dini ehkamlara sığmayan və elmi metodlarla izaholunabilməyən sufiyanə mətləblərin kökündəbatinielmləryatır. Nümunədəngöründüyükimi, Füzulibatinilərin fikirlərinə istinad edərək, deyir ki, şəriət zahiri, təriqətisə batinidir. Onun adını çəkdiyi "imam" kəlməsi əslində 12 şiəimamının isna-əşərilikdəki formatı deyil. Belə olsaydı, sünni vəşiə məzhəbləri onları"batini"adlandırmazdı. Buradakı"imam"dan məqsəd gizlin mürşid, zamanın qütbü olan rəhbər və təbdiliruh(ruhlarınkeçidi) vasitəsilə hər dövrdə İlahieşqivə hüccətitamamlayan şəxsdir. Belə ki, mətndən də anlaşıldığı kimi, həminşəxs hər zaman mövcuddur və "hülul"un əsasıdır. Halbuki, şiəlikdoktrinasına əsasən, sonuncu,12-ciimam qeybə çəkilmişdir.Deməli, bu ideoloji xətt şiəlik ola bilməz. Bu, məhz təsəvvüfdürki, onu Şah Xətainin, Füzulinin, elə Aşıq Ələsgərin öz simasındadaşəriətlə-şiəliklə qarışdırmışlar. Elə bunagörə də bizAşıqƏləsgərin ürfanişeirlərini təhliledərkən,

klassik ədəbinümunələrə müraciət etməyi məqbul saydıq. Əks təqdirdə, ustadaşığın fəlsəfi dünyagürüşü birilhamvə təxəyyül əsəri olaraqanlaşılacaq. Bu anlayış isə yanlışdır və Aşıq Ələsgərin simasındabütünAzərbaycan-Türk təsəvvüfşairvə mütəfəkkirlərinin ucaməqamına xələl gətirir.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 238-241; 244-245)

## Ş.İ.XƏTAİ VƏ M.FÜZULİNİN MƏRİFƏT DÜNYASI

***Xətalı qulunam, rəhm eylə, ey yar!***
***Xətaini buraxmagil xətayə.***

Təriqətlər və firqələr arasında əməl, qurum, zahiri qanun-qaydalar, seyr və süluk baxımından təzad və ixtilaflar olsa da onların son hədəf və mənzili həqiqət olduğundan burada həmin təzadların arxasında gizlənən dini-ruhi vəəqli-mənəvi bir birlik, yaxınlıq olmuşdur. Bu birliyin mənəvi-əqli əsası vəhdəti-vücud təlimində və irfanda öz ifadəsini tapır.həqiqi ariflər məhz zahiri cəhətdən daha çox batini anlamlara arxalanmışlar. Yunis İmrə demişkən:

***Şəriət, təriqət yoludur gedənə***
***Həqiqət, mərifət ondan içəri.***

Təsəvvüfdə diqqəti cəlb edən cəhətlərdən biri elm-əməl qarşılaşmasıdır. Həqiqətə yetişmək üçün salikin keçdiyi hal və məramlar, sey rvə süluk bir növ əxlaqi mənəvi kamillik vəəqli-ruhi yüksəlişüçün əməl və sınaq mərhələləri sayılır. Xəlvətə və mistik düşüncələrə dalmaq onun düşüncə və diqqətini tənzimləyir, gücləndirir. Beləliklə, irfanda dərketməüsulu təkcəməntiqi dəlillərlə məhdudlaşmır, burada kəşf və müşahidəyə (mistik

intuitiv duyum və batini işıqlanma) üstünlük verilir. Təriqətə qoşulmayan şairləri də təsəvvüfün zahiri əməl yolları deyil, batini anlam və məzmunları daha çox maraqlandırır, çünki, həmin tərəflər bədii təxəyyül üçün münasib bir qaynaqdır. Dünyəvi və irfani anlamların qarşılaşması, rəmzi yozumlar baxımından bədii düşüncə tərzi ilə irfan arasında o qədər uyarlıq və yaxınlıq vardır ki, İbn Ərəbi və Qəzali öz düşüncələrini anlatmaq üçün bədii üslubdan faydalanmışlar. Təsadüfi deyildir ki, E.Fon Qryune-bamun nəzərincə burada zahiri bədii ifadə və ilə dərin məzmun incəliyi arasında elə bir ahəngdarlıq vardır ki,belə bir vəhdət müsəlman mədəniyyətindən kənarda tapıla bilməz.

Məşhur bir hədisdə deyilir ki, Allaha tərəf gedən yollar insanların sayı qədər çoxdur. Ona görə də təriqətlər arasında fərq təbiidir, lakin, onların hədəfi birdir. Bu hədəfə yetişmək üç mərhələdə gerçəkləşir:Şəriət, Təriqət, Həqiqət.

Buna uyğun olaraq yəqinliyin üç mərhələsi vardır:Elmül-yəqin, Eynül-yəqin, Həqqül-yəqin.

Fəridəddin Əttar öz «Təzkirə»sindəŞibliyə isnad edərək göstərir ki, elmül-yəqin Peyğəmbərin (s) bizə verdiyi bilgidir, eynül-yəqin Tanrının bəxş etdiyi hidayət nurudur, həqqül-yəqin isə arifin öz «mən»ini fəna etməsi və bəqaya qovuşmasıdır. Həcviri bu üçlüyə sadə dil ilə izah etməyəçalışır: şəriətyol göstərəndir, buradakıəxlaq qanunlarını yerinə yetirmək insanı düz yola yönəldir, onda ruhi və batini hazırlıq yaradır. Təriqət –kamilliyə aparan yoldur, həqiqət isə son mənzildir. Şəriət-tibb kitabı, təriqət-dava-dərman, həqiqət isə dərddən nicat tapmaqdır. Həqiqət hər ikisindən yüksəkdə dayanır, hər kim Peyğəmbərin (s) görə bildiyini görürsə həqiqət əhlidir.

İbn Bəzzaz həmin üçlüyü belə izah edir:«**Şəriət**Muhəmməd(s) qanunu, **təriqət**-hərəkət vəəməl, **həqiqət** isə haldır. Təriqət haqqa doğru aparan düzgün yoldur. Süluk əhliyüksəliş(merac) halındadır. Həqiqət haqqın müşahidəsi

və mərifətidir. Təriqət şəriətsiz, həqiqət isə təriqətsiz gerçəkləşmir. Şəriət meyvənin qabığıdır, onu qoruyub saxlayır, təriqət meyvənin içi və kütləsidir, həqiqət isə onun məgzi və mahiyyətidir».

Bu üç mərhələyə uyğun elmül-yəqin kəsb və təlim iləəldə edilir, burada insan nəfsi aza bilər. Eynül-yəqin saleh(düzgün)əmələ yiyələnməkdir, burada insan nəfsi aza bilməz. Həqqül-yəqin həqiqət anlamıdır. Elmül-yəqin bəsirət gözüdür, həqqül-yəqin isə məna gözü ilə görür.

Qeyd etmək lazımdır ki, fərih və mütəkəllimlər tərəfindən ariflərə edilən əsas iradlardan biri onların Tanrı ilə vasitəsiz və birbaşa qəlb ünsiyyəti saxlamaq cəhdinə görə olmuşdur. Çünki, Peyğəmbər (s) özü də Tanrı ilə vəhy mələyi Cəbrailin (ə) vasitəsi iləünsiyyət saxlamışdır. Ümumiyyətlə, islam ictimai-mədəni mühitində kəlam ilə fəlsəfə (və ya məntiq), təsəvvüf ilə kəlam, fəlsəfə ilə təsəvvüf arasında həm qarşılıqlı faydalanma, həm dəözünəməxsus bir təzad vəçarpışma olmuşdur; bir sıra hallarda isə bəzi ariflər bunların hər üçünə etiraz etmişlər. Əbu Hamid Qəzali həm fəlsəfəni, həm də kəlamınaqislikdə günahlandırır, lakin, o, öz təlimini əsaslandırarkən fəlsəfənin üsulundan, kəlamın isə məzmunundan faydalanır. Başqa bir tərəfdən ariflər bir sıra sufilərin özlərinə irad tutmuş, onları riya və zahirpərəstlikdə günahlandırmışlar. Bu baxımdan sonralar bəhs edəcəyimiz məlaməti məktəbi xüsusilə seçilmişdir.

Həqiqətə gedən yolda ilkin qədəm müridlikdir (tələbdir), insan öz naqisliyinianlayaraq kamilliyə ehtiyac duyur və onda belə bir tələb və ya istək yaranır, seyr və sülukun başlanğıcı həmin istəyin yaranmasıdır. Talib – yəniistək sahibi kamilliyə gedən yolu tapmaq üçün mürşidin köməyi ilə təriqətə yola düşür və salik adlanır. O, həqiqətə yetişmək müəyyən mərhələ və mənzillərdən keçməli olur. Şəriət və təriqətin zahirindən keçərək mərifət və həqiqətin batininə nüfuz edən, nəfsi paklıq və kamillik tapan salik artıq arif adlanır. Onun keçdiyi seyr və süluku hasili kamillik və

mərifətdir.

Təriqət əməl yoludur, salik düşüncəyə dalma, nəfsi paklaşma, pəhriz və xəlvətdən tutmuş ruhi-mənəvi işıqlanmaya (kəşf vəşühud) doğru yüksəlir. Təsəvvüfün əməl baxımından hədəfi nəfsi paklıq və kamillik ilə fənaya nail olmaqdırsa, elm baxımından məqsədi qəlb yolu ilə mərifət əda etməkdir.

Şəriəti öz ruhani seyri üçün başlanğıc və zəruri hesab edən arif haqq ilə qəlb ünsiyyəti yaratmağa, dünyanı batini işıqlanma yolu ilə tanımağa çalışır. Ariflər öz seyr və süluk mənzillərini Quranın batini yozumu ilə uyğunlaşdıraraq fəqih və mütəkəllimlərin hücumlarına qarşı sipər çəkmişdir.

Ariflərin şəriətə münasibətinin özünəməxsus qayəsi olmuşdur. Əgər ariflər namaz əhlinə tənə etmişlərsə bu heç də o deməkdeyildir ki, onlar şəriəti inkar etmişlər. Arif hətta, ibadətin zahirini də inkar etmir, lakin zahirlə məhdudlaşmağınaqislik sayaraq düzgün hesab etmir. Şəriət əhlinin yerinə yetirdiyi ilk əməl namazdır. Namaz özü tanrıya yaxınlaşmağın müqəddiməsidir. Əgər bu namaz qiyam, sücut və zikrlə məhdudlaşarsa – yəni insanın batininə yol tapmazsa cansız bir qəlibdir. Necə ki, ariflərdən olan Mövlana Cəlaləddin Rumi zahirən oruc tutanları zahidin pişiyinə bənzədir. O, özünü yuxuya vurur ki, sadəlövh ovunu tutsun. Quranda «Kəhf» surəsinin 24-cü ayəsində buyurulur ki, masivanı unudandan sonra məni zikr et. Məşhur bir hədisdə də belə deyilir: "Allah sizin surət və malınıza deyil, ürək vəəməlinizə baxır".

Şəriətin zahiri cəhətləri, Təriqət sınaqları, bütün başqa təzad və ixtilaflar, şübhəli və qaranlıq məsələlər Mərifət çırağında aydınlaşır, durulur və billurlaşır.

***Şəriətdir, Təriqətdir, Həqiqət,***
***Mərifət bir gözüdür can içində.*** (Ş.İ.Xətai)

Mərifətin giriş yolu vəhdəti vücuddur ki, bunu ariflərin fəlsəfi

düşüncə tərzi kimi tanımışlar. Bu təlimin banisi məşhur islam filosovu İbn Ərəbidir.İbn Ərəbi islam və Qurana əsaslanır, təşbih və tənzih məsələsini izah edir.

**Təşbih və Tənzih nədir?**

**Təşbih** - İnsana və təbiətə xas xüsusiyyətlərin Allaha aid edilməsi və Allahın başqa varlıqla müqayisəsidir.

**Tənzih** isə Tanrının mütləq mənada bənzərsiz və ideal olması, hər bir sifət və xüsusiyyətdən pak vəüstün olmasıdır. İbn Ərəbi vəhdət ilə kəsrət, tənzih ilə təşbih arasındakı münasibəti incə və arifanəüsulla izah edir. Məşhur bir ayənin (Şura 9) birinci hissəsi «Tanrının misli yoxdur» - tənzih, ikinci hissəsi isə – «O, eşidən və görəndir» - təşbihdir.

Sufilərə qarşı yönələn ittihamların əsas amillərindən biri vəhdət anlamını izahı ilə bağlı olmuşdur.

Hülul, ittihad və tənasux anlamlarının qısa da olsa şərhini verək. Hülul bir xüsusiyyətin bir şeydən başqasına enməsi, keçməsi və sirayət etməsidir. Məsələnİsəvilikdə Allahın İsa peyğəmbərdə hülul etməsi kimi. İttihad bir şeyin başqa şeylə eyni və bir olmasıdır. Bu kimi anlam (hülul və ittihad) İsəvilikdən gəlməşeydir. Şeyxlər həmin bu fikri rədd etmişlər. Bu sayaq düşüncələrin əlamətləri Bəyaziddə olmuş, Mənsur ibn Həllac hülul məsələsində ifrata vardığına görə ittiham edilmişdir. Ancaq əsl həqiqət budur ki, Mənsurda bu anlamlar dərin bir məzmunda işlənib. Çünki, o, Tohidə sadiq qalaraq haqqın vücudunu yeganə varlıq kimi tanıyırdı. Nəsirəddin Tusi «Övsafül - əşraf» əsərinin V fəslində göstərir ki, Həllac öz mənini inkar və fəna edir və yalnız haqqın varlığı qalır. «Ənəlhəq» bu mənada anlaşılır. Necə ki, Nəsimi deyib:

***Mənsur oldum çün bu gün aləmdə faş oldum sizə,***
***Mən ənəlhəqq söylərəm, ürfana xoşdur, yaxşıdır.***

Tənasüx ruhun bir ünsürdən başqasına keçməsidir ki, bunun

da kökü hind və Pifaqor təlimindən gəlir.

Vəhdəti –vücudun banisi İbn Ərəbi bu cür incəliklərə işarə edib bildirirdi ki, xaliq ilə xəlq, haqq ilə məxluq arasında fərq vardır. Təəsüflər olsun ki, dünya qurumunun təbəqələri arasında əlaqə və vəhdətin dərin və incə məqamlarını anlamayan şəriət alimlərindən olan fəqihlər (müctehidlər) Mənsur ibn Həllacı küfr vəşirkdə, ibn Ərəbini isə mülhidlikdə günahlandırmışlar. İbn Ərəbi bu vəhdəti izah etməkdən ötrü pafosdan istifadə edir: «Əzəl çağında tanrı substansiyasından başqa heç nə olmayıb. O, öz nəfsinə işıq saçdı, təcəlli etdi. Zatın təcəllisi pak və ilahi eşqdir. Həmin eşq dünyanın yaranmasına səbəb oldu. Tanrıöz əzəli eşqini xarici aləmdə müşahidə etmək istədi. Zahiri varlığı yaratdı. İnsan bu varlığın kamil surəti oldu. Tanrı yaratmaqla özünü bizə tanıtdı. Hər bir varlıqda və o cümlədən insanda tanrı feyzindən bir nişanə vardır. Onun hökm vəəhatəsindən kənarda heç nə yoxdur».

Sirlərlə dolu bu qəzəldən də aydın görünür ki, Tanrı kainatı və sonda insanı yaratmaqlaözünü tanıtmaq istəmişdir. «Gizli xəzinə» hədisində deyilir: «Mən gizli xəzinə idim, sevdim ki, tanınım. İnsanları və ruhları yaratdım ki, məni tanısınlar».

Bu hədisin barəsində Füzulinin bu beytləri maraqlıdır:

***Eygənci-əta, tilsimi-ismin,***
***Səngənci-nihan, cahantilsimi.***

***Əşya əcəb olmaz olsa zahir,***
***Çün var sənin kimi məzahir.***(Leyli-Məcnun)

Bir sözlə, mərifət Mələkut aləmindən insan qəlbinə nazil olan lütf və nurdur və ona görə də irfanda qəlb anlamı xüsusi yer tutur(88). Ağıl zahiri dünyanıöyrənmək və ondan faydalanmaq üçün vasitə və alətdir. Ərəbcəəqil (ağıl) sözünün mənası dəvənin ayağını bağlamaq üçün işlənən ipdir.Müəyyən edilmiş yerdən

kənara çıxmasın. Buna bənzər hissi ağıl da elə bir qüvvədir ki, insanı müəyyən bir çərçivədə davranmağa vadar edir(89). Şəms Təbrizi bu mövzuya işarə elərək yazırdı ki, ağıl insanları bağlayan bənddir, eşq isə həmin bəndləri açandır. (90). Cəlaləddin Rumi sonralar bu fikri şeirlə ifadə etmişdir(91). Füzuli də "Leyli - Məcnun" poemasında əql ilə eşqi müqaisə edir və nəticədə eşqin fəzasın əqldən üstün bilir:

***Fəzai-eşqi çün gördüm səlahi-əqldən durəm,***
***Məni rüsva görüb, eyb etmə, ey naseh ki, məzurəm!***

**Anlamı:** *Eşq fəzasını gördüyüm üçün əqlin mənə göstərdiyi səlahiyyətlərdən uzağam. Ey nəsihət verən, məni rüsvay görüb bunu mənə eyb tutma, çünki mən üzrlüyəm.*[107]

Arifin inamı və bilgisi Allahın qəhri və axirət qorxusu altında onun mərhəmət və qayğısına ümid bəsləyənlərin psixoloji vəsvəsələrinə deyil, Tanrı ilə mənəvi ünsiyyətə və vicdani bağlılığa söykənir. Haqq ilə vasitə (peyğəmbər, mələk, imam, övliya, mürşid və s.) yalnız və yalnız yol göstərmək və təlim üçündür. Quranın Fatihə surəsinin 5-ci ayəsində açıq-aşkar vasitəsiz birbaşa ünsiyyətə işarə edilir: «Pərvərdigara! Yalnız Sənə ibadət edir və yalnız səndən yardım diləyirik! Məşhur sufilərdən olan Şibli Tanrı ilə birbaşa ünsiyyətə işarə edərək demişdir: «Ey Tanrı! Behişt və cəhənnəmi gizlət ki, Sənə vasitəsiz pərəstiş etsinlər».

Səfiəddin Ərdəbili vəŞəms Təbrizinin təlmində isə ruhi yüksəliş və eşq anlamı hər şeydən yüksəkdə dayanır(107).

Sufilər və ariflər əsasən üç mərhələyə diqqət yetirirlər:

**1 - Elm öyrənmək** və öyrəndikləri elmə əməl etmək. Buna missal olaraq çobanla alimin dialoqunu göstərmək olar:

---

[107] N.Rza. Muhəmməd Füzulinin "Leyli-Məcnun" əsərinin bədii nəşrlə şərhi. Bakı Azərnəşr. 1999. Səh. 69

Bir alim çobanla rastlaşdı və dedi: «Nə üçün elm öyrənmirsən?»

Dedi: «Elmlərin xülasəsi beşşeydir ki, mən onlarıöyrənmişəm. Onlarbunlardır:

1. Yalandanışmamaq.
2. Haramyeməmək.
3. Başqalarınıneybiniaxtarmamaq;
4. Allahdaruziolduğuhaldabəndəqapısınagetməmək;
5. Şeytanaaldanmamaq, yoxsa, cənnətdənuzaqdüşərik».

**2 - Nəfsin təzkiyəsi –** Şəms surəsinin 9 və 10-cu ayələrində Allah-təala buyurur: Nəfsini (etiqad və əxlaq kamallarında) təkamülə çatdıran və (fikir və nəfs pisliklərindən) onu təmizləyən kəs şübhəsiz, nicat tapmışdır! (9).Və (nəfsini) pisliklərə bulaşdırıb cəhalət, küfr və pozğunluq pərdəsi altında gizlədən kəs, şübhəsiz, ziyana uğramışdır! (10)

**3 - Eşq –** Aşiqlər vəAriflər dünyanın və həyatın mahiyyətini eşqdə görürlər. İnsanı bütün canlılardan, hətta, mələklərdən üstün edən eşq və mərifətdir (Bəqərə surəsi 33).Bilmək və tanımaq fəzilətdir ki, bu fəzilət yalnız insana bağışlanır. Bu fəzilətə işarə edən M.Füzuli deyir:

***Torpaq idim eylədin bir insan,***
***Müstövcibü – əqliqabilican,***
***Gərcanisəxaki- dərgəhindir,***
***Vərəqlisəsaliki-rahindir.*** (LeyliMəcnun)

Vəya

***Olgünki, yoxidiməndəqüdrət,***
***Qıldınmənəqeybətimdərəğbət.***
***Canverdinü, sahibi- diletdin,***

***İdraki-umurəqabiletdin.***[108] (LeyliMəcnun)

## SEYİD ƏZİM ŞİRVANİ

Seyid Əzim Şirvani Füzuli ədəbi məktəbinin istedadlı nümayəndəsi və XIX əsr Azərbaycan ədəbiyyatı xəzinəsinin ən görkəmli simalıarından biri olmuşdur. Müasirləri tərəfindən "səramədi-dövran" adlandırılmış bu şairin xalqımız arasındakı şöhrət və nüfuzu bu gün də böyükdür. Qüdrətli şairin lirik şeirləri insan qəlbinin incəliklərini ifadə etdiyi kimi köhnə həyatı sarsıdan güclü satiraları da xalqın haqsevər səsinə çevrilməkdədir.

Seyid Əzim Şirvani satirik şair Mirzə Ələkbər Sabirin müəllimi və sələfi olmuşdur. O, 1835-ci ildə iyulun 9-da Şamaxıda tanınmış ruhani ailəsində anadan olmuşdur. Yeddi yaşında ikən atası vəfat etmiş, atasının vəfatından sonra o, Dağıstanın Yəqsay kəndində yaşayan babası Molla Hüseynin himayəsində yaşayaraq ondan ibtidai ruhani təhsili almışdır. Sonradan təhsilini Nəcəf və Bağdad şəhərlərində bir neçə il davam etdirdikdən sonra, Şam şəhərinə gedib orada ruhani mədərsəni bitirmişdir.

Həssas şair qəlbinə malik olan Seyid ruhanilər içərisində gördüyü riyakarlıq, həqiqətsizlik və başqa mənfi əməllərə nifrət edərək, bu aləmdən uzaqlaşmaq qərarına gəlmiş və Şamaxıya qayıdaraq bütün ömrünü müəllimlik və şairlik sənətinə həsr etmiş, nəticədə gözəl qəzəllər sahibi olmuşdur.

***Qəd təcəlla min şüail-kəsi-ənvarül-bəha,***
***Tilkə fəzlullahi bəl yəhdi linuri mən yəşa.***

**Anlamı:***"Badənin şüasında parlaq nurlar təcəlla (təzahür) etdi, Bu*

---

[108] Nəsib Cümşüdoğlu «Füzulinin sənət və mərifət dünyası» Bakı-Tehran 1997. Səh.21-43

*Allahın mərhəmətidir ki, istədiyi adamı öz nuruna hidayət edər".*[109]

Seyid Əzim Şirvani müəllimlikdən daha artıq şeir yaradıcılığı ilə məşğul olur, "Beytüs-səfa" şeir məclisinə rəhbərlik edir, məclis üzvləri ilə yaxşı şeir yazmaq uğrunda yarışa çıxır və çox vaxt birincilik qazanırdı. Yalnız "Beytüs-səfa"nın üzvləri ilə deyil, Qarabağda "Məclisi-üns", "Məclisi-Fəramüşən", Bakıda "Məcməüş-şüəara" şairləri ilə, Gəncədə Mirzə Mehdi Naci, Nuxada İsmayıl bəy Nakam, Qubada Nalan, Dərbənddə Qumri, Lənkəranda Mirzə İsmayıl Qasir və başqaları ilə şeirləşir, öz xeyirxah məsləhət və göstərişləri ilə onlara kömək edirdi. Seyid Əzimi şəxsən görən və onunla həmməclis olan Bakı şairlərindən Ağadadaş Muniri şairin çox hazırcavab, iti zehinli, rəvan təbli olduğunu, şirin söhbətləri ilə məclisdə iştirak edənləri həmişə özünə cəlb və valeh etdiyini qeyd etmişdir. Seyid Əzim Şirvani Bakıda yalnız "Məcməüş-şüəranın" üzvləri ilə deyil, Həsən bəy Məlikov Zərdabi ilə də əlaqə saxlayaraq, onunla yazışırdı. Maarifpərvər şair 1888-ci il may ayının 20-də 53 yaşında vəfat etmiş, Şamaxıda Şah Xəndan adlı qəbristanlıqda dəfn edilmişdir. Şairin qəbir daşında özünün bir beyti qeyd olunmuşdur.

***Mövti-cismani ilə sanma mənim ölməyimi,***
***Seyida, ölmərəm, aləmdə səsim var mənim.***

Seyid Əzimin həyat və yaradıcılığı haqqında bundan artıq bu bölümdə danışmaq istəmirik, çünki mövzu şairin yaradıcılığında irfana münasibət olduğundan şairin bir neçə irfani beytini şərhi ilə oxucuların diqqətinə çatdırırıq:

***Bir vücudu-kamilin olmuş tüfeyli kainat,***
***Xəlqi-aləmdən nə Musavü nə İsadır qərəz.***

---

[109] S.Ə.Şirvani əsərləri 3 cild. Bakı AzSSR, EA nəşriyyatı – 1967, səh.37

***Pənctənlər adına zikr et ki, Seyid, bilmişəm***
***Adəmə təlimi-əsmadən bu mənadır qərəz.***

**Anlamı:***Birinci beytdə «vücudi-kamil» Həzrəti Rəsuli-Əkrəmə (s) işarədir. «Sən olmasaydın kainatı yaratmazdım» hədisinin anlamıdır.*

İkinci beytdə «Pənctənlər» Həzrəti Rəsuli-Əkrəm (s), xanım Fatimeyi-Zəhra (ə.s.), Həzrət Əli (ə), İmam Həsən (ə) və İmam Hüseyndirlər (ə). Sonuncu misra Quran ayəsinə işarədir. Orada deyilir ki, biz Adəmə (ə) əşyaların adlarını öyrətdik (təlimi-əsma). Seyid yazır ki, həmin adlar yuxarıda zikri keçən beş nəfərin adı olub.

***Bülbüli-gülzari-qüdsidin əzəldən, Seyida,***
***Heyf kim, indi məqamın aləmi-nasutdur[110].***

**Açıqlama:***Zati xilqətin sifati xilqətə çevrilməsi dörd məkan daxilində baş verir ki, bunlardır: Cəbərut, Mələkut, Lahut və Nasut. Qurani-kərimdə bildirilən məşhur Ələst meydanı ilk məkan daxilində qurulmuşdur və orada zati xilqətdə olan hər kəs Allah ilə aralarında əhd bağlamışdır.*

Seyid Əzim Şirvani "Gülzari-qüds" (müqəddəs gülzar) dedikdə Cəbərut aləmini nəzərdə tutmuş və özünü o gülzarın bülbülü adlandırmışdır.

***Əhli-eşqi məscidə dəvət nə lazım, zahida,***
***Biz sevən yarın yeri məscid, kəlisalər deyil[111].***

Seyid Əzim Şirvani Azərbaycan təsəvvüf ədəbiyyatının ənazman nümayəndələrindən biridir. Cəsarətlə demək olar ki, onundivanında ürfanvə təsəvvüfelminincilvələrini özündə

---

[110] Hacı Seyid Əzim Şirvani
[111] Fəxrəddin Cəfakeş

barizşəkildə əks etdirməyən bir dənə də olsun qəzəl yoxdur. Bu prizmadan yanaşdıqda Seyid Əzim fəlsəfəsini dahaasandərkvəqəbuletməkmümkündür. Seyid Əzim özündən əvvəlki həmelmi, həm də bədii təsəvvüf ədəbiyyatının əsl mahiyyətini daşıyan nadir şairlərimizdən biridir. Onun təhsili islami və ürfani idi.

Uzun illər İraqda – Nəcəfül-Əşrəfdə oxuyan bu böyük mütəsəvvüf "NəcəfŞahı"nın – Həzrət Əlinin əndərinaşiqlərindən, ən atəşlitaliblərindənbiriidi.O,bueşqin,butələbin sayəsindəçoxlu saydaməxfibilgilərə yiyələnmişdir. Həminbilgilərinməxfiliyi onlarınzahirimətiqdən, elmi-şəriətdənvə rasionalelmlərdən uzaq təsəvvüfi-ürfani informasiyaların mövcudluğundadır. Başqalarındaolduğukimi, Seyid Əzimin fikirlərindəkihəmin məxfi informasiyalar anlaşılmazlıq ucbatından çox zamantəxəyyülvə xurafatelementləri hesabolunmuşdur. Lakin,həqiqət orasındadır ki, həminməxfibilgilər birbaşaPeyğəmbərxanədanından və ənümdəsi Qurani-Kərimin öz bətnindən gəlir. Seyid Əzim vəhdətfəlsəfəsini daşıyan ariflərin ənüstünlərindənolmuşdur. Buvəhdət – cövhərdir. Yəni, parçalanmayan, əzəli və əbədi olandır.Vəhdətdənayrılankəsrətisə ərəzdir. Ərəz parçalanır, ixtilafasəbəbolurvə gerçəkləripərdələyir. Bufikirləri Seyid Əziminkamil bir qəzəli daha aydın ifadə edir:

***...Hüsnü eşqü aşiqü məşuq birdir, ey könül,***
***Seyida, hərgiz deyil aləmdə əşya müxtəlif.***

Bu beytin mahiyyətində başdan-ayağa vəhdətanlayışınıdaşıyan təsəvvüf fəlsəfəsi yatır.

S.Ə.Şirvaninin ən çox sevilən irfani qəzəllərindən biri də bu qəzəlidir ki, şair bu qəzəlində şəriət və təriqət əhlinin yollarını nişan verir:

***Göstərir məscidi zahid ki, bu iman yoludur,***

*Bunu da bil ki, könül, meykədə ürfan yoludur...*

*Tut könül ali-Əli damənini, eyləmə qəm,*
*Getbuyoldanki,buyolBuzərüSəlman yoludur...*

Burada birbaşayoldan – təriqətdənbəhsedilir. Seyid Əzim açıqşəkildə məscidiniman, meyxanəninisə ürfanyoluolduğunu bildirməklə, şəriətlə təriqəti birbirindən ayırır. Buradakı“meykədə”təkyədir, xanəgahdır. Onunməsciddənayrılığıeşqin elmdən, arifin zahiddən, halın qaldan ayrılığıdır.

Seyid Əzim Şirvanini elmi-nəzəri baxımdan “mütəsəvvüf” adlandırmaqolar. Çünki, onun yaradıcılığı məqsədlişəkildətəsəvvüfə xidmətetmişdir. Sadəcə olaraq, onunyaşadığı mühitvə zaman onun birövliya,qütb, mürşidkimi digərruhanifəaliyyətlərlə sistemli şəkildə məşğul olmasına imkan verməmiş-dir. Buna baxmayaraq, cəsarətlə söyləyə bilərik ki, Seyid ƏzimŞirvani gerçək bir Azərbaycan-Türk mütəsəvvüfüdür.

Aşıq Ələsgər yazır:

*İnsan payız ölə, yazda dirilə,*
*Zimistanda boranqarı çəkməyə.*

Buradakı “insanpayız ölə,yazdadirilə” ifadəsi çoxdiqqətimizi çəkdi. Gəldiyimiz qənaətə görə bu, İslamda və təsəvvüfün özündə ziddiyyətli şəkildə qəbul edilən tənasüxə işarədir. Tənasüx ruhların bədəndən-bədənə təbdili,keçidianlamındadır. Buməsələyə Seyid Əzim Şirvanidə dahaaydınşəkildə rast gəlirik:

*Seyid, neçə yol gəlmiş idim mülki-cahanə,*
*Səd şükr tapıb surəti-insan genə gəldim (90, 366).*

Bu qəzəl tamamilə təbdili-ruh və hülul nəzəriyyəsinin bədiiinikasıdır. Seyid Əzimin divanında bəlkə bu, yeganə qəzəldir ki,heç bir təfsir və yozumla ondakı fikirlərə şəriət və ehkam baxımından haqq qazandırmaq mümkün deyil. Yaxud da

*Ol qaşı Zülfüqar vuran zəxmi-mühlikin,*
*Cibril tək hənuz əsəri şəhpərimdədir...*

Seyid Əzim də eynilə Aşıq Ələsgər kimi, hülul fəlsəfəsinədayanaraq, özünün"Ələst"aləmində Cənabi-Cəbrayıl,budünyada isə insan şəklində olduğunu bəyan edir.

İstərAşıq Ələsgərdə,istərsə də Seyid Əzim Şirvanidətədqiqetdiyimiz təsəvvüfdünyagörüşü İslamiyyətdənkənarbirhadisə deyil. Sufiləriaraşdırmaqüçün birincinövbədə İslamıntarixinə və fəlsəfəsinə dərindənbələdolmaqlazımdır. Onudaqeyd edək ki, bu məsələdə fəlsəfə tarixdən daha əhəmiyyətlidir.

Tarixdə yanlışlıqlar,həqiqi mahiyyəti təhrifolunmuş mənbələrola bilər və bu təbiidir. Lakin fəlsəfə, ilk növbədə, məntiq elminəsöykəndiyi üçün insan düşüncəsini, fərdi təfəkkür keyfiyyətləriniaktiv halagətirir. Lakin,özəlliklə təsəvvüflə bağlı İslamtarixində elə mənbələrvardırki, onlarçoxzaman gizlədilmişməsələləri, tarixihadisələri əksetdirir. Məsələn,təsəvvüftarixinin tanınmış nümayəndələrindən olan (haqqında bir az əvvəl dəbəhsetdiyimiz) SərracTusi "Əl-Lümə" əsərinin 1cibabında yazır:

**"1. "Biz əvvəllər bu adı eşitməmişik, bu, yeni addır", – deyənlərə cavab. Biri soruşur: "Biz Peyğəmbərimizin əshabə-lərinə sufideyildiyinieşitməmişik. Bizancaq abid,zahid,səyyah, fəqir adlarını bilirik. Peyğəmbər əshabələrindən heçbirinə sufi deməyiblər."**

**Allah bilən yaxşıdır. Biz deyirik: Peyğəmbərlə söhbət etmək və onunsöhbətlərində iştiraketmək**

**xüsusihörmətdir.Onlarüçün dostadından dahaşərəfliadyoxdur. Bu,peyğəmbərə də şərəfvə hörmətdir. Görmürsənmi, zahid, abid, mütəvəkkil, fəqir, razılar, sabirlər və sairdirlər? Onlarnail olduqlarının hamısınaPeyğəmbərlə söhbətinbərəkətisayəsində çatıblar. Onlar halların ənucasıolan söhbətə aidedilirlər, çünki halların ən şərəflisi olan söhbətdən başqa birfəzilətlə fərqləndirilə bilməzlər.Bəziləri: "Bu, bağdadlılarınuydurduğuaddır," –deyirlər. Budamümkündeyil,çünki,HəsənBəsrininzamanında bu ad artıq tanınırdı. Həsən əshabələrdən bəziləriilə görüşmüşdür. Onunbelə dediyirəvayət edilir: "Kəbənitavafedən birsufigördüm, onabirşeyverməkistədim,almadı. Dedi:"Mənim dörddirhəmim (Bunu dördsəmavikitabkimi yozanlarda var) var,məndəkimənə bəsdir."Sufiyan Sərvinin isə belə dediyi nəql edilir: "Əbu Həşim Sufiolmasaydı, mənriyanıdəqiqliklə tanımazdım." "Məkkəxəbərləri"kitabında Muhəmməd b. İshaqb. Yəsardanvəbaşqalarından belə birrəvayətedilir: "İslamdanqabaqMəkkə boşidi. HəttaBeyti(Kəbəni) dolanacaq adambeləyox idi. Uzaq ölkədən bir sufi gələr, Beyti dolanar, gedərdi."Əgər bu, düzdürsə, bu onu göstərir ki, İslamdan qabaq bu adtanınırdı və o, fəzilətli, saleh şəxsə verilirdi".**

Bu deyilənlərdə çoxlu, maraqlı cəhətlər var. Ən diqqətçəkən məqam isə İslamdan qabaq da sufilərin, sufi anlayışının mövcud olmasıdır. TəsəvvüftarixibaxımındanSərracTusinin əsəri etibarlı mənbədir. Üstəlik burada Tusi təsəvvüfə İslamdan kənar, hətta küfr elementi kimi baxanlara cavab verir.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 259-272)

## QUMRİ DƏRBƏNDİ YARADICILIĞINDA İLAHİ NUR

***Elə mey ver ki, ola hər nəfəsim mədhi-Əli,***
***O Əliyyibni-əmi Əhmədi-Muxtar olsun.***
***Hani Qumridə o qüdrət, ola məddahi-Əli,***
***Mülhəmi-ğeybi məgərinki mədədkar olsun.***

Axund Hacı Kərbəlayi Muhəmməd Təqi Qumri Dərbəndi XIX əsrin görkəmli şairlərindən biridir. Qumri mərsiyyə ədəbiyyatına məxsus olan qəsidələr, mərsiyələr, növhələr, mənzumələr yazmışdır. Şairin müasirləri onu "kəlamın imamı" adlandırırmışlar. Onun haqqında Feyzi Dərbəndi bir rübaisində yazır:

***Əcəb nəzmi-dilkeş, əcəb xoş kəlam,***
***Kəlimi-zaman ver məsihə pəyam.***
***Deyin Qumriyyə bəzmi firdovs ara,***
***Kəlamül-imami, imamül-kəlam.***

Qumri haqqında məlumat çox azdır. Muhəmmədəlixan Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində onun haqqında bir neçə cümlə, S.Ə.Şirvani Divanının təzkirəsində beş-altı cümlə yazmış, onu bir mərsiyə şairi, "şəbeh" tamaşalarının iştirakçısı kimi səciyyələndirmişdir. O, Dərbənddə ədəbi məclisə rəhbərlik etmidir. Firudin bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabında da Qumri haqqında az məlumat verilmişdir. İslam ensiklopediyasında Qumri haqqında bir qədər geniş məlumat verilmişdir.

Axund Hacı Kərbəlayi Mirzə Məmmədtağı İbrahim oğlu (Qumri Dərbəndi) 1819-cu ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Dərbənddə ruhani və tacir ailəsində anadan olmuş, gənclik illərində "Quran"ı, İslamı dərindən öyrənmişdi. Ticarətdə atasına kömək etmiş, sonralar özü də nüfuzlu tacir olmuşdu. Dərbənddə Məhərrəm ayında "şəbeh" tamaşaları təşkil edər, rövzəxanlıq edərdi.

Təqribən 50-ci illərdə Məkkəni, Kərbəlanı ziyarət etmiş,

ticarətdən əl çəkmiş, Dərbəndin axundu kimi fəaliyyət göstərmişdir. Əvvəlcə lirik şeirlər, sonralar isə Kərbəla müsibətinə aid əsərlər yazmışdır. Müqəddəs yerləri ziyarət etməzdən əvvəl Qumri Dərbənddə ədəbi məclis təşkil etmiş və şairləri həmin məclisdə birləşdirmişdi. Şüai Dərbəndi, Süpehri Dərbəndi, Buzovnalı Asi həmin ədəbi məclisdə yaxından iştirak etmişlər.

Azərbaycan klassik ədəbiyyatında Qumri Dərbəndinin "Divan"ı və oradakı ən dəyərli əsərləri – "Kənzül-məsaib", "Gülzari-Hüseyni", "Kənzül-maarif" mənzumələri, mərsiyyələri, növhələri, qəzəlləri dəfələrlə ərəb əlifbası ilə çap olunmuşdur. Qumri Dərbəndinin "Divan"ı külliyyatına daxil olan dəyərli əsərləri 1882, 1890, 1893, 1894, 1905, 1910, 1913, 1915 və sair illərdə Təbrizdə çap olunmuşdur.

Qumrinin oğlu Mirzə Əliabbas Rizayi də şair olmuşdur. Atasının əsərlərini çap etdirmək istəmiş, ancaq buna nail ola bilməmişdi. Qumri Dərbəndinin əsərlərini ilk dəfə kiril əlifbası ilə 1999-cu ildə Buzovnalı Rəhimağa Naşir İmaməliyev nəşr etdirmişdir. Həmin kitaba şairin aşağıdakı əsərləri daxil edilmişdir. "Kənzül-məsaib", "Gülzari-Hüseyni", beytlər, dübeytlər, növhələr. "Kənzül-məsaib" əsəri çox vaxt "Müsibətlər xəzinəsi" də adlanır. "Kənzül-məsaib" əsərini şair Allahın adı ilə – "Bismilləhir-rahmənir-rahim" kəlamı ilə başlayır. Əsərin müqəddiməsində əqllə təbin mükaliməsi verilib. Müxtəlif saqinamələrdən sonra, Allah-təalanın tərifi haqqında münacatlar, Xatəmi-Ənbiya (s) haqqında nətlər, Əli ibn Əbu Talibin (ə) tərifi barədə mədhiyyələr yazmış, onun qəhrəmanlığından, şücaətlərindən söz açmışdır.

Həzrət Muhəmməd peyğəmbərin (s) İslam dövlətinin yaranmasında Həzrəti Əli (ə) ilə çiyin-çiyinə verib apardığı müharibələrdən, peyğımbərin meracı, Məkkədən Mədinəyə köçüb, Mədinədə mövqe qazanaraq, islam düşmənlərini məğlub edib, yenidən Məkkəyə qayıdıb Allahın buyurduğu kimi dini möhkəmləndirməsindən şair ürək dolusu bəhs edir.

Xatəmi-Ənbiya (s) vəfat mərasimi yaxınlaşanda yeganə qızına belə vəsiyyət edir:

***Edib vəsiyyətimi Mürtəzaya ol salar,***
***Buyurdu Fatiməyə, ey qəribi-biqəmxar.***
***Vəsiyyətim budur: "Ey binəva, fəğan etmə,***
***İkincisi, əmim oğlu Əlini incitmə.***
***Çox ağlama demənəm, ey yetimi-dilxəstə,***
***Evində yalqız olan dəmdə ağla ahəstə.***
***Nə qədri istəyəsən eylə göz yaşın cari,***
***Əli gələndə evə ağlama, səni tari.***
***Hüseynilən Həsənə çox da dərdi-qəm vermə,***
***Ürəklərin bu müsibətdə qana döndərmə.***
***Həmişə nalə qılıb qüssəvü-qəmə batma..."***

Həzrət Muhəmməd peyğəmbərin (s) vəfatından sonra, xilafətdə baş verən çəkişmələr, Həzrəti Fatimeyi-Zəhranın (ə) vəfatı, Həzrəti Əlinin (ə) hakimiyyətə gəlməsi, İslamın qüdrətlənməsi uğrundakı apardığı mübarizələri şair özünəməxsus bir tərzdə təsvir etmişdir.

***Ey məzhəri-cəlali-sifati-xuda Əli,***
***Həm qüdrətli Xuda, nə xudadən cüda Əli.***
***Olmaz ğələt əgər sənə ləfzi-xuda desəm,***
***Səndən təmam aləmə nəhlül-hüda Əli...***

Əsərdə Həzrəti Əli (ə) haqqında çoxlu qəsidələr və mədhiyyələr verilmişdir. On ikinci qəsidədə şair Əlinin (ə) şəninə deyir:

***Mustafa səndən, Əli səndən, Həsən səndən, Hüseyn,***
***Doqquz hüccət səndən, ey darayi-millət, ya Əli.***
***Atəşi niranə yanmaz heç, fəvəllahül-əzim,***
***Bir səri suran olan, səndən məhəbbət, ya Əli.***

*Hansı əşrəfə müəssərdir fərayu-kovnaza,*
*Bətni-beytullahda qalsın viladət, ya Əli.*
*Bəndəsən Əllahə,əmma külli-xəlqə rəbbsən,*
*Əl vuran damənüvə çəkməz nədamət, ya Əli.*
*Var ümidim mərifət əhli məni dutsun müaf,*
*Bir həqiri-kəm mətaət bi biraət, ya Əli.*
*Qumriyi-gülzarı mədhəm kuyi-vəslündən cüda,*
*Var başımda şuri-sevdayi-ziyarət, ya Əli.*
*Dağı hicranilə payan oldu ömrüm, qıl kərəm,*
*Qəbrüvə axır nəfəsdə qoyma həsrət, ya Əli.*

Əsərdə Müaviyə tərəfindən göndərilən qatil ibn Mülcəm namaz üstündə Həzrəti Əlini (ə) qətlə yetirməklə İslamın varlığı xeyli zəifləyir, düşmən qüvvələri peyğəmbərimizin (s) yaratdığı müqəddəs dinə sarsıdıcı zərbələr vururlar.

Qumri Dərbəndi ikinci əsərdə - "Gülzari-Hüseyni" də bu mübarizələrin davamını təsvir edir. Dinin düşmənləri Həzrət Əlinin (ə) böyük oğlu İmam Həsəni (ə) zəhərləyib öldürürlər. İmam Hüseyn (ə) dini xilas etmək üçün təbdirlər görür. Əmisi oğlu Müslim ibni Əqili Kufəyə göndərir ki, İslamı, onun müqəddəsliyini bütün xalqa bəyan etsin, İslam dininin düşmənlərin əlindən xilas olmasında ona köməklik etsin.

Müslim ibni Əqil çox işlər görür, İslamın tərəfdarlarının sayını artırır, hətta məktub yazıb İmam Hüseyni (ə) Kufəyə dəvət edir. Sonra Müslim ibni Əqil Yezid və onun tərəfdarları tərəfindən təqib olunur, Kufə əhalisi də verdikləri vədə əməl etmirlər. ŞairMüslim ibni Əqilin Kufə və Şamdakı Yezid ləşgərləri (ordu) ilə apardığı müharibələri, cəsarətlə vuruşmağını, satqınların əli ilə Kufənin Cəfa qapısı yanında şəhid olmasını, oğlanlarının əzab-əziyyətlə qətlə yetirilmələrini odlu misralarla, ürək ağrısı ilə təsvir etmişdir.

İmam Hüseyn (ə) tərəfdarlarının Kərbəla çölündə qeyri-bərabər döyüşlərdə şəhid olmalarını; İmam Həsənin (ə) cavan oğlu Qasımın (ə), İmam Hüseynin (ə) körpə oğlu Əli Əkbərin (ə), Həz-

rət Abbasın (ə) düşmənlərlə cəsarətli döyüş səhnələrini Muhəmməd Təqi Qumri Dərbəndi özünəməxsus bir tərzdə təsvir etmişdir. Xüsusən, Həzrət Abbasın (ə) müharibə məqsədilə deyil, Əhli-beytə (ə) su gətirmək istəyərkən oxla vurulub şəhid olunmasını, tifil Əli Əsgərin (ə)öldürülməsi səhnələrini çox təsirli vermişdir.

Əsərdə İmam Hüseyn (ə) "Şühədalar seyidi" – "SEYİDüş-Şühəda", "cənab Sultani-Kərbəla" – "Kərbəla sultanı" adlandırılır, bədənində çoxlu ox yaraları olmasına baxmayaraq, düşmənlə təkbaşına vuruşur, yaralı olmasına baxmayaraq, zamanının İmamı kimi hindistanlı Sultan Qeysi şirin əlindən xilas edir. Bu səhnəni şair, xüsusilə, təsirləndirici təsvirlərlə vermişdir.

***Görmədik heç aşiqi səntək cəfadə, ya Hüseyn,***
***Para-para doğrana küyi vəfadə, ya Hüseyn.***
***Hansı aşiq sinəsində qan açıb fəvvarələr,***
***Sən kimi Qurban olub kuhi-Minada, ya Hüseyn!..***

Axırda yaralarından qan axa-axa düşmənlə vuruşan, taqətdən düşən Şahi-Kərbəlaya imam Həsənin (ə) az yaşlı oğlu Əbdullah (ə) kömək etmək istəyir: "Mən də əmimin yolunda şəhid olmaq istəyirəm" – deyib, cəng (döyüş) meydanına atılır və lənətə gəlmiş düşmənlər ona da aman verməyib şəhid edirlər. Qumri Dərbəndi aşağıdakı mərsiyyə-sinəzəndə yazır:

***Bir nəfərəm, teşnəkəm, çoxdu bədənimdə yaram,***
***Yalqızam, ey əhli-Şam, ahü-qəribəm, qərib.***
***Yara dəgib canıma, sineyi-süzanimə,***
***Batmışam al qanıma, ahü-qəribəm, qərib...***
***Var nə gələn yanima, rəhm eyləyən canimə,***
***Batmışam al qanıma, ahü-qəribəm, qərib...***

Seyidüş-şühəda öz tərəfdarları – 72 şühəda ilə Kərbəla çölündə

din yolunda, İslamın qorunub saxlanması uğrunda şəhid olurlar. Bu şəhidlik zirvəsi müsəlman aləminə bir daha sübut etdi ki, Xatəmi-Əbniyanın (s) Allahın rizası ilə yaratdığı müqəddəs İslam dinini, "Qurani-Kərim"i heç bir qüvvə sarsıda bilməz. Qumri göstərir ki, İmam Hüseynin (ə) şəhidlik nümunəsi İslam dininin taleyinin həllində çox mühüm rol oynamışdır.

Kitabdakı Kərbəla şəhidlərinə Qumrinin həsr etdiyi mərsiyyələri, mərsiyyə ədəbiyyatının kamil nümunələri kimi oxunur, rəğbətlə qarşılanır. Qumri Dərbəndinin 1999-cu ildə kiril əlifbası ilə dərc olunmuş kitabının sonunda İslam dini və müsəlman dünyasının on dörd müqəddəs məsumları haqqında verilən məlumatlar çox diqqətəlayiqdir.

Ümumiyyətlə, Qumri Dərbəndinin əsərləri, xüsusilə, mərsiyyələri son dərəcə dolğun, mükəmməl və ürəkaçan kamil klassik şeir nümunələridir. İmam Həsənin (ə) dilindən bacısına müraciətlə deyilir:

***Mən öləndən sonra əfqanilə açma başuvi,***
***Tökmə rüsxarüvə fəryadə gəlib göz yaşüvi.***
***Can verir, indi həlal eylə Həsən qardaşüvi,***
***Bircə saət qalacaqdır sənə mehman, Zeynəb.***

Müslim ibni Əqilin (ə) dilindən Həzrəti Abbasa (ə) deyilən mərsiyyədən:

***Can verəndə babamın olmadı bir ağlayanı,***
***Baş açıb nəşinin üstündə cigər dağlayanı,***
***Vardı Qumri kimi aləmdə əza saxlayanı,***
***Göz yaşiylə salacaq aləmə tufan, Əbbas...***

Başqa bir mərsiyyədə İmam Rzanın (ə) anasının dilindən:

***Ey verən canini min şövqiylə canənə Rza,***

*Müşki-qürbətdə qalan xaru-zəlilanə Rza,*
*Möhnəti-cövri-səfadən yetişən canə Rza,*
*Bəstəri-xaki ciyəh mənzilə viranə Rza...*
*... Tutmuşam Kufədə al qana batan Heydərə yas,*
*Düşmüşəm çöllərə, əynimə geyib qara libas,*
*Gah "Hüseyn vay" deyərəm, gah deyib, "ya Abbas",*
*Ağlaram Qasimilən Əkbəri-əfşanə Rza...*

Ömrünün 30 ildən çoxunu "Kənzül-məsail" əsərinə sərf edən M.T.Qumri Dərbəndi bu əsərində ilk "Saqinamə"də bir çox tanınmış şərq şairlərini meydana dəvət edir və onlardan vəsf etdikləri qəhrəmanların onun qəhrəmanı olan Hüseyn ibn Əli (ə) ilə müqaisədə kiçik və cılız olduğunu onlara birbaşa çatdırır. İlk "Saqinqmə"yə diqqət yetirdikdə bu deyilənlərin şahidi oluruq:

**Birinci saqinamə**

*Saqiya, eylə kərəm, dur meyi-minani gətir,*
*Qoy gözüm üstə qədəm, sağəri-səhbani gətir.*
*Laləzar oldu çəmən yüz verüb əyyami-bahar,*
*Cami-zərrin ələ tut, badeyi-həmrani gətir.*
*Qıl əta həsrimi külfami-fərəh-bəxşi-zülal,*
*Ləligun abi-tərəb, rahi-müsəffani gətir.*
*Qədəhi eylə ləbaləb, ver içim məstanə,*
*Badeyi-eşqi-Cənabi-Şəhi-Mərdani gətir.*
*Tutiyi-nitqi-göhərbarim açıb, dürci-dəhan,*
*Bəzmi-şəhanə qurub, məclisi-ürfani gətir.*
*Badibantək çəkib övci-fələkə, fülki-xəyal,*
*Ləngər atmaqlığa amadədü, dəryani gətir.*
*Rayəti-fikrim olub hər tərəfə şəqqə-guşa,*
*Bir dəm ey təbi-rəvan, başimə sevdanı gətir.*
*Bali-zərrin götürüb, uçmağa şahini-məqal,*

***Dövrə qalxmaqlıq üçün aləmi-balani gətir.***
***Sədəfi-nəzmi təmamən yetirib dürri-yetim,***
***Qiymətin bilməgə sərrafi-süxəndani gətir.***
***Bircə bu məclisə ey saqeyi-fərxəndə-cəmal,***
***Şüərayi-Əcəmü Türkü-Buxarani gətir.***
***Əvvəla eylə güzər məmləkəti-Şirvanə,***
***Nəzmidə firqeyi-şairlərə, Xaqani gətir.***
***Söylə Xaqaniyə, ey çini-süxən Xaqani,***
***Ərməğan əldə tutub, nəzmi-dürəfşani gətir.***
***Ünsiri, aləmi-zülmati, ənasirdə göz aç,***
***Vadiyi-eymənə gəl, nuri-təcəllani gətir.***
***Qıl xəbərdar Nəvayi kimi sahibhünəri,***
***De təmaşayə təmam, əfsəhi-Turani gətir.***
***Ənvəri, nəyyiri-əzəm kimi nəzmindü münir,***
***Dür nisar eyləməgə, Üqdi-Sürəyyanı gətir.***
***Cami-vəhdətdən içən, cami-cəmi-camə deyin,***
***Açuban dürci-fəsahət, düri-mərcani gətir.***
***Sədiya, ismi sənün, taleyi-məsud mənim,***
***Bərgi bibarüdü, bustanü-gülüstani gətir.***
***Ey olan Hafizi-kənzi-düri-şəhvari-ğəzəl,***
***Yarü məşuqə nədür, huriyi-qılmani gətir.***
***Ey Nizami, demə çox Xosrov ilə Şirindən,***
***İstəsən təxtü-büsat üstə, Süleymani gətir.***
***Ar ola qüvveyi-idraküvə ey Qaani,***
***Sən də gəl ki, dedigün Hərzəvü-hədyani gətir.***
***Çox da fəxr eyləmə öz nəzmüvə ey Firdövsi,***
***Sevəsən söz yerinə, ləli-Bədəxşani gətir.***
***Gəl şücaətlə girək hər ikimiz cəngahə,***
***Mərəzi-cəngə qədəm qoymağa, meydani gətir.***
***Dörd ağac xari-müğilan bitirən büqə mənim,***
***Sən müqabildə durub, sahəti-ğəbrani gətir.***
***Qabiliyyət hani ğəbradə müqabil tutasan,***

*Gər qələt eyləməsəm, ərşi-müəllani gətir.*
*Mən açub rəzmidə bir qanlı ələm şüqəssini,*
*Ələmi-Gavə nədür, mehri-dürəxşani gətir.*
*Vardu bir mişg mənim, saf suyum abi-Fərat,*
*Rudi-Ceyhun demə keç, Qulzimi-ümmani gətir.*
*Mən Üqab adlı Səmənd üstə qoyum zivərü-zin,*
*Sən də öz Rəxşinilən ərsədə cövlani gətir.*
*Məndə bir sinəsi dört min yaralı köynək var,*
*Sən Təhəmtən geyinən cövşəni-xəftani gətir.*
*Bəsdü bir qanilən əlvan olan əmmamə mənə,*
*Sən gedib məğvəri-füladi-mütəllani gətir.*
*Leşgərim yetmiş iki təşnə dilavərdü mənim,*
*Sən özün cəmi qılıb, leşgəri İrani gətir.*
*Arizu eyləmə hər beytüvə dinari-tila,*
*Mən kimi beytüvə bir cənnəti-rizvani gətir.*
*Heyf, zəhmət çəkibən bağlamısan Şahnamə,*
*Onda vəsf eylədigün Rüstəmi-dastani gətir.*
*Kimdü Rüstəm, nə Fəramərz, nə Söhrabi, nə Giv,*
*Bəlkə İsgəndərilən Bəhməni-Darani gətir.*
*Nədür İsgəndərü-Dara, nə səlatini-Kəyan,*
*Turi-Sinayə gedib, Həzrəti Musani gətir.*
*Ya yapış Nuh ətəgindən, o degil fülki-nicat,*
*Ya çıxıb tarimi-Şarumdaki İsani gətir.*
*Ya gəzib səfheyi-dünyani dolan, eylə soraq,*
*Misridən təxti ilə Yusifi-Kənani gətir.*
*Harda var səndə mənimtək şərəfi-cahü-cəlal,*
*Şiveyi-nəzmidə girəm, yədi-beyzani gətir.*
*Eyni fahiş gətirib, eyləmisən sərfi-kəlam,*
*Özün insaf elə əql üstə bu divani gətir.*
*Rəhbərimdü iki dünyadə Hüseyn ibni Əli,*
*Gər varun olsa, sənin də, belə Mövlani gətir.*
*Həşridə cami-bilur əldə tutub şiri-Xuda,*

***Buyurur təşnədü çox, Qumriyi-nalani gətir.***

Azərbaycanın bir çox bölgələrində, o cümlədən Bakı kəndlərində ruhanilərdən soruşulan suallardan biri də "Qumri Dərbəndini tanıyırsanmı?" sualıdır. Əgər ruhani bu əzəmətli və şirin dilli şairi tanımırsa onun cavabında belə deyərlər: "Səndən ruhani olmaz". Sual verənlər bu məsələdə haqlıdırlar, çünki, islam tarixini Qurani-kərimin ayələri işığında və Peyğəmbərin (s) gətirdiyi şəriətin çərçivəsində islam tarixini nəzm (şeir) şəklində müsəlman aləminə çatdıran barmaqla sayılan qələm sahiblərindən biri də Q.Dərbəndidir. Xatirimdədir ki, Zəngilan məclislərinin birində mənim özümə də Ağalı kəndinin ağsaqqallarından olan mərhum Muhəmməd əmi:"Qumrini bilirsənmi?" – deyə sual etdi. Həmd olsun Allaha həmin vaxtlar Qumrini tanıdığım üçün onun "Birinci Saqinamə" sindən bir neçə beyt söylədim. Muhəmməd əminin bu sözlər çox xoşuna gəldi və mənə məsləhət etdi ki, onun barəsində məclislərdə camaata söhbət edim. Böyük məmnuniyyətlə onun sözlərini qəbul etdim və bacısı mərhumə Məhluqə xalanın qırx məclisində Qumrinin Kərbala şəhidlərinə yazdığı mərsiyələrdən birini şərhi ilə məclis əhlinə çatdırdım. Doğrudan da belə bir şirin-zəban şair sevilməyə layiqdir, çünki, müqəddəs kimsənələri sevənlər sonda özləri də sevilirlər. Qumrinin aşiqlərindən biri də Buzovnalı Rəhimağa Nazirdir. O, Qumriyə müraciətlə deyir:

***Qumriya, şövqiylə sevdim səni, aşrüvün heyraniyəm,***
***Əşari-gülzarüvün bir bülbülü-nalaniyəm.***
***Naşirəm, vardır məhəbbət məndə faxir Qumriyə,***
***Rəhimağayam, naşirlərin sultaniyəm, xaqaniyəm.***

## SEYİD MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYAR

## YARADICILIĞINDA HƏZRƏT ƏLİ (Ə) SEVGİSİ

S.M. Şəhriyar barmaq ilə göstərilən şairlərimizdəndir. Şəhriyar o taylı, bu taylı Azərbaycanımızın fəxridir. S.M. Şəhriyar əsasən "Heydər babaya salam" poeması ilə məhşurlaşsada Həzrət Əlini (ə) vəsf etdiyi bir qəzəllə dindarların hüsn-rəğbətini qazanmışdır. İslam dünyasının görkəmli alimlərindən biri Ayətullah Mərəşi Nəcəfinin gördüyü yuxunu oxucuların nəzərinə çatdırırıq.

İranın Təhsil Nazirinin müavini Ağayi doktor Qulaməli Həddad Adilin atası Hacı Rza Həddad Adil məşhur vaiz və yuxu təbirçisi kimi tanınmış höccətül-islam Ağayi Seyid Qasım Şücaidən eşitdiyi bir əhvalatı mənə nəql etmişdi. Həmin mətləbi təfsilatı ilə öyrənmək üçün mən şəxsən Ağayi Şücaiyə müraciət etdim. Ağayi Şücai belə nəql etdi:

Mərhum Ayətullah Mərəşi Nəcəfi rəhmətə getməzdən bir neçə il əvvəl iki-üç nəfər tanışımla onun yanına getmişdim. Mərhum Ayətullah o vaxt demişdi:

"Bir gecə Allaha təvəssül etmişdim ki, İmamlardan (ə) birini yuxuda görüm. Yatdım və yuxuda gördüm ki, Kufə məscidində bir küncdə oturmuşam və Əlidə (ə) camaat arasındadır. Həzrət Əli (ə) buyurdu:"Bizim Əhli-beyt (ə) şairlərini çağırın gəlsinlər!".

Gördüm ki, bir neçə ərəb şairin gətirdilər.

Həzrət (ə) yenə buyurdu:"Türk dilli şairləri gətirin!".

Elə bu vaxt bir neçə nəfər fars və türk dilli şairlər gəldi.

Həzrət Əli (ə) onları görcək buyurdu:"Şəhriyarı gətirin!". Şəhriyar gəldi.

Əli (ə) Şəhriyara xitabən buyurdu:"Şerini oxu! Şəhriyar bu şeiri oxudu":

***Əli, ey humayi-rəhmət, to çe ayəti Xodara?***
***Ke be maseva fekəndi, həme sayeye Homara!***

***Del, əfər xoda şenasi, həme dər roxe Əli bin,***
***Be Əli şenaxtəm mən, bexoda qəsəm, Xodara!***

Tərcüməsi:

***Əli, ey Humayi rəhmət, nə dəlilsən Xudaya***
***Ki, Xudadən özgə sayən nə ki, var edər himayə!***
***Əgər aşinayi həqsən Əli ilə aşina ol,***
***Əli ilə olmuşam mən, könül aşina Xudayə!***

Bu şeir uzundur. Bu məqalədə ilk beytlərin verdik. Şeiri bütövlükdə oxumaq istəyənlər Axund Hacı Soltan Hüseynqulu oğlunun "Həzrət Əli və dünya ədəbiyyatı" və məqalə müəllifinin "Parlaq ulduz"kitablarından əldə edə bilərlər.

Bəs, yuxunun davamı necə olur? Həzrət Ayətullah Mərəşi dedi ki, Şəhriyar şeiri deyib qurtarandan sonra yuxudan ayıldım. Şəhriyarı o vaxtadək görmədiyimdən soruşdum ki, Şəhriyar kimdir?

Dedilər ki, şairdir. Təbrizdə yaşayır.

Dedim ki, mənim adımdan dəvət edin, qoy gəlsin Qumda mənim yanıma. Bir neçə gündən sonra Şəhriyar gəlib çıxdı. Baxdım ki, yuxuda Həzrət Əlinin (ə) hüzurunda gördüyüm adamdır.

Ondan soruşdum:

***"Əli(ə) ey humaye rəhmət, to çe Ayəti Xodara?"***-Şeirini nə vaxt qoşmusan?

Şəhriyar təəcüblə soruşdu:"Siz hardan bildiniz ki, onu mən yazmışam? Axı indiyədək bu barədə heç bir adama danışmamışam. Özümdən başqa heç kim onun yazıldığından hali deyil".

Mərhum Ayətullah Mərəşi Şəhriyara deyib ki, neçə gecə əvvəl yuxuda gördüm ki, Kufə məscidindəyəm. Həzrətdə (ə) oradadır.

Həzrət Əli (ə) Əhli-beyt (ə) şairlərini hüzuruna çağırtdırdı. Əvvəlcə Ərəb şairləri gəldilər.

Sonra buyurdu ki: "Deyin türk dilli şairlər gəlsinlər. Onlar da gəldilər. lakin Həzrət Əli (ə) səni istədi və dedi Şəhriyar gəlsin. Sizdə gəldiniz. Görən kimi buyurdu ki, "Şəhriyar, şeirini oxu!". Sizdə başladınız mətlə bəndi yadımda qalan şeirinizioxumağa".

S.M. Şəhriyar Ayətullanın dediklərindən son dərəcə heyrətlənir və deyir:

***"Bu şeiri filan gecə yazmışam və indiyədək heç kimə onu yazdığımı deməmişəm".***

Ağayi Şücai daha sonra dedi:Mərhum Ayətullah Mərəşi buyurub ki, Şəhriyar şerin yazdığı tarixi və vaxtı deyən kimi məlum oldu ki, mən öz yuxumu düz Şəhriyar şeirin son misrasını yazıb, qurtaran saatda görmüşəm.

Ağayi Şücai dediklərinə təkiyyə vermək fikrinə buyurdu ki, mərhum Ayətullah Mərəşi həmin yuxu məsələsini məndən savayı Ağayi Vaiz Rəhmaniyə də nəqledib və təsdiq üçün bunu ondan da soruşa bilərsiniz. Biz belə də etdik və Ağayi Rəhmani həmin mətləbi bir daha təsdiqlədi.

Mərhum Ayətullah-Üzma Mərəşi Nəcəfinin, Allah ona rəhmət eləsin,yuxusu deyilən yuxu bu idi. Və məlum olur ki, Şəhriyar həmin şeiri onunla görüşdükdən sonra çapa vermişdir.

1978-ci ildən bəri Nəcəfi-Əşrəfə getmək şərəfinə nail olanlar Həzrət Əlinin (ə) məzarına çəkilən müqəddəs gümüşü məhəccərin üstündəki çərçivəyə həmin şeirin xoş və nəfis xətlə yazılıb salındığını müşahidə etməmiş deyillər. Mən özüm də onu görmüşəm. Lakin şeirin ortaya kim tərəfindən gətirildiyini və məhəccərin üstünə kim tərəfindən sancıldığını bilmirəm.

Şəhriyara və bütün Əhli-beyt (ə) şairlərinə Allah rəhmət eləsin! Şəhriyar Əhli-beytə (ə) dərindən bağlı olmuş, onların vəsfinə bir sıra şeirlər yazmışdır. Bu səbəbdən də Şəhriyarı Əhli-beyt (ə) şairi, məxsusən Həzrət Əlinin (ə) şairi adlandırsaq səhv etmərik.

Şəhriyar Əlinin (ə) haqqında həm fars dilində, həm də Azərbaycan dilində şeirlər yazmışdır.

***Binəvayəm, məskənin zənciri zindan, ya Əli,***
***Tut əlimdən, binəvayə əl tutansan, ya Əli!***

***Mənzilimdir tülkülər zindanı, ey Şiri-Xuda,***
***Dişlərimlə çeynərəm zənciri hər an, ya Əli!***
***Heyf, sən yoxsan, bizim alçaq, gödəkdir qəddimiz,***
***Şərmsarıq boy buxunlu lovğalardan, ya Əli!***

Ustadın yazdığı bu qəzəl bu beytlərlə yekunlaşır.

***Bir günahkar dərdliyəm, var ehtiyacım lütfünə,***
***Şəhriyar dərman rica eylər qapından ya Əli!***

Şəhriyar Əlinin (ə) şairi, İmam Hüseynin (ə) aşiqidir. Şəh-riyar Əlinin (ə) diliycə bir şeir qələmə almış və o şeirdə Əlinin(ə) öz xanımı, Peyğəmbərin (s) qızı, İmamlar anası, iki dünyanın xanımı olan Fatimeyi-Zəhra (s.ə) ilə necə fəxr etdiyini çatdırır.

***Başımın tacı, canım məbədi Zəhrayə ərəm,***
***Böyük haqq bəxşişi mən onu can tək sevərəm.***

***Allahın elçisinə bağlı ona can-ciyərəm,***
***Az yaşımdan onun əhkamını əzbər bilərəm.***

***İki oğlumdakı Zəhradan olub fəxr edərəm,***
***Atası söylədi damadi mənə bəxtəvərəm.***

Ustad – şair bu qəzəlini Əlinin (ə) mübarək adı ilə yekunlaşdırır.

***Əliyəm şahi-vilayət iki aləm ağası,***
***Elmi şəhridi peyğəmbər, mən onun darvazası.***

Ustad Şəhriyar da Hafiz Şirazi və Şah Nemətulla Vəli kimi böyük şairlərdən olub, gələcəkdə baş verə biləcək hadisələri öncədən söyləmişdi. "Səhəndiyyə" mənzuməsində və "Zaman səsi" qəsidəsində, o cümlədən bir sıra şeirlərində İslam İnqilabının baş verə biləcəyini söyləmişdir. O cümlədən Azərbaycanın Rus əsarətindən xilas olacağını da demişdir. Bu deyilən fikirlərin "Zaman səsi" qəsidəsində şahidi oluruq:

***Sübh oldu, hər tərəfdən ucaldı azan səsi,***
***Guya gəlir mələikələrdən Quran səsi.***

***Bir səs tapammıram ona bənzər, qoyun deyim:***
***Bənzər buna əgər eşidilsəydi can səsi.***

***Sanki uşaqlığım kimi nənnimdə yatmışam,***
***Lay-lay deyir mənə anamın mehruban səsi.***

***Sanki səfərdəyəm, oyadırlar ki, dur çataq,***
***"Zəngi-şütür"[112] çalır, keçərək karvan səsi.***
***Sanki çoban yayıb quzunu dağda ney çalır,***
***Röya doğur quzu qulağında çoban səsi.***

***Cismim qocalsa da, hələ eşqim qocalmayıb,***
***Cingildəyir hələ qulağımda cavan səsi.***

***Sanki zaman güləşdi, məni küpsədi yerə,***
***Şeirim, yazım olub yıxılan pəhləvan səsi.***

[112] Dəvə zınqırovu, eyni zamanda İran musiqisinin guşəsinin adıdır.

*Axir zamandı, bir qulaq as, ərşi titrədir*
*Millətlərin haray mədədi, əl-aman səsi.*

*İnsan xəzanıdır, tökülür can xəzəl kimi,*
*Saz tək xəzəl yağanda sızıldar xəzan səsi.*

*Qırx ildi dustağam, qala bilməz o yağlı səs,*
*Yağsızsada, qəbul elə məndən yavan səsi.*

*Mən də səsim ucalsa gərəkdir, yaman deyəm,*
*Millət acıqlıdır, ucalıbdır yaman səsi.*

*Doldur nəvarə qoy qala bir gün bu körpələr,*
*Alqışlasınla zövq ilə bizdən qalan səsi.*

*Miğnatis olsa səsdə çəkər, inqilabda bax,*
*Azdlıq oldu Sərdarımın qəhrəman səsi.*

*İnsan qocalmış olsa, qulaqlar ağırlaşar,*
*Sanki yazıq qulaqda guruldar zaman səsi.*

*Bax bir bu dərin sükutə səhər, hansı bir nəvar*
*Zəbt eyləyə bilər belə bir cavidan səsi?*

*Sancır məni bu fışqa çalanlar da, Şəhriyar,*
*Mən neyləyim ki, fışqaya bənzər ilan səsi.*

# VI fəsil

*Yer yox ikən, göy yox ikən ta əzəldən var idim,*
*Gövhərin yekdanəsindən illəri pərgar idim.*

*Gövhəri ab eylədim tutdu cahanı sərbəsər,*
*Yeri-göyü, ərşi-kürsü yaradan Səttar idim.*

*Gah Hüseynilən bilən pustumu soydu qazilər,*
*Gah o mənsur donuna girdim ənəlhəqq dar idim.*

*Girdim Adəm cisminə kimsənə bilməz sirrimi,*
*Mən bu beytullah içində ta əzəldən var idim.*

*On səkkiz min aləmə mən gərdiş ilə gəlmişəm,*
*Ol səbəbdən həqq ilə Sərdar idim, sirdar idim.*

*Dünyasından mən anın sirrin bilirdim ol yəqin,*
*Dəryanın altındakı sac qızdıran ənnar idim.*

*Mən Xətaiyəm, həqqi Həqq tanımışam bigüman,*
*Anın üçün ol yaratdı mən ana dərkar idim.*

# ŞAİR NƏBİ YARADICILIĞINDA QURANİ-KƏRİMƏ VƏ ƏHLİ-BEYTƏ (Ə) MÜNASİBƏT

## "Əlif - Ləmlər" barədə məlumat

Şair Nəbi Borçalı yaradıcılığında "Əlif - Ləmlər" barədə məlumat olduqca çoxdur və mənalıdır. Şübhəsiz ki, aşıq ədəbiyyatından və klassik ədəbiyyatdan məlumatı olan, eyni zamanda İslam dininin incəliklərini dərindən bilən şəxs belə, hər hansı bir haqq aşiqinin qəlbinin məhsulu olan beytlərin şərhini verməkdə öz acizliyini etiraf etməlidir. Çünki, şair və yaxud da haqq aşiqi olan şəxsin sinəsi aşıq Ələsgər demiş, haqq bazarıdır. Şair Nəbi Borçalı da səmavi kitabların mənasını ilham yolu ilə və Allah – Təalanın ona verdiyi fitri istedadla mənimsəyə bilmiş və özünü mənəviyyat aləminin ustadlarından saymışdır. Buna haqq şairinin haqqı çatır,çünki şairin yaradıcılığına nəzər saldıqda, onun yaradıcılığında olan sirri misralar və şərhə ehtiyacı olan beytlər şairin barəsində deməyə haqq verir. Misal üçün "Əlif – ləmləra" nəzər yetirdikdə bunun bir daha şahidi oluruq.

***Əlif - əvvəl yarı tərif eylərəm,***
***Bey bağı – behiştdə gülşənə bənzər.***

Və yaxud

***Əlif – əvvəldə daimi qədim,***
***Aləmə Xaliqsən sirlər əyandı.***
***Bey – binnət etdiyin çarxı – cahandı.***
***Necə qeydi, sey – sahibi- Sübhandı?***

Qurani-Kərimin 29 surəsinin əvvəlindəki ayələr bir və ya bir neçə müqəddəs hərfdən ibarətdir. Bu hərflərə "Hurufi - muqattaa" – yəni nurani hərflər deyilir. Onların gizli mənası olduğundan,

bunu yalnız Peyğəmbər (s) və İmamlar (ə) bilmiş və qeybi elmlərdən xəbərdar olan haqq aşiqləri mənalandırmışlar. Şair Nəbi Borçalının yaradıcılığında biz nurani hərflərin nə məna kəsb etdiyinin şahidi oluruq. Belə ki, ustad aşıq ən çox yaradıcılığında "əlif – ləm"dən istifadə etmiş və onların mənasını açıqlamışdır. Əlif - ləmdən ibarət olan nurani hərflər Qurani-Kərimin 29 surəsindən 12 surədə gəlmişdir. "Əl-Bəqərə", "Ali-İmran", "Ər-Rum", "Əl-Ənkəbut", "Loğman", "Səcdə" surələrinin 1-ci ayələrində əlif - ləm - mim müqəddə hərfləri gəlir. "Yunus", "Hud", "Yusif", "İbrahim", "Əl-Hicr" surələrinin 1-ci ayələrində əlif - ləm - ra, "Ər-Rəd" surəsinin 1-ci ayəsində isə əlif - lam - mim - ra müqəttaa hərfləri gəlir.

Əgər 29 surənin əvvəlində gələn muqattaa hərflərdən təkrar olunanları çıxsaq yerdə 14 hərf qalır. Bu 14 hərf nurani hərf adlanır. Həmin 14 hərf bunlardan ibarətdir. əlif, hə, ra, sin, sad, ta, əyn, qaf, kaf, lam, mim, nun, ha, yə.

Hər iki məzhəbin alimləri (şiə və sünni) ayrı – ayrılıqda bu 14 nurani hərfdən biri digərini tamamlayan gözəl bir cümlə tərtib etmişlər. Sünnə alimlərinin bu nurani hərflərdən tərtib etdiyi cümlə belədir: "Nəssu həkimin qatiun ləhu sirru". Yəni – "Həkimin aydın qəti sözüdür, onda bir sirri var". Şiə alimləri sanki bu sirri açaraq, Quran ayələrinə və Peyğəmbərin (s) xüsusən Həzrət Əli (ə) haqqında söylədiyi hədislərə uyğun olan belə bir cümlə tərtib etmişlər.

"Sıratun Aliyyin haqqun numsikuhu", yəni – "Əlinin (ə) yolu haqqdır, biz onun yolunu gedirik". Bu söz Həzrəti Peyğəmbərin (s) Əlinin (ə) haqqında buyurduğu bu hədisə daha uyğundur:

"Aliyyun məal haqqi val haqqu məaAliyyin", yəni – "Əli (ə) haqq ilə, və haqq da Əli (ə) ilədir". Başqa bir hədisdə Peyğəmbər (s) buyurur: "HəzəAliyyun (ə) məal – Qurən val Qurənu məaAliyyin (ə)" – "Bu Əli Quran ilədir və Quran Əli (ə) ilədir". Bu iki hədisə sübut olaraq Qurani-Kərimin "ər-Rədd" surəsinin 43-cü

ayəsini göstərə bilərik. “Qul kəfə billəhi şəhidə beyni va beynəkum va mən indəhu ilmul - kitəbi” – Allahın şahidliyi və kitab elmi yanında olan şəxsin şahid olması mənlə sizin aranızda mənim Peyğəmbərliyimə ən gözəl sübutdur.

Şair Nəbi yaradıcılığından bizə məlum olur ki, bu haqq şairi gizli elmlərə bələd olmuş, Qurani – Kərimi və hədisləri mükəmməl bilmiş və öz yaradıcılığını bu mənəviyyat xəzinələri ilə zənginləşdirmişdir. Şairin “İstərəm” rədifli ustadnaməsində bunun bir daha şahidi oluruq.

***Xaliqi -xatəmsən kərəmin kanı,***
***İlahi, hökmündən fərman istərəm,***
***Dilərəm müştağın Xaliqi – Əzəm,***
***Cananın canını cavan istərəm.***

Bu bəndin əvvəlcə lüğəti mənasına diqqət yetirək. **Xaliq** sözü ərəb sözü olub, mənası **xəlq edən** deməkdir. Peyğəmbərə (s) nazil olan “**Ələq**” surəsinin 2-ci ayəsində Allah-Təala bu sifətindən, yəni xaliq sifətindən söhbət açır və buyurur: **“Xaləqəl insənə min ələq” – “İnsanı laxtalanmış qandan yaratdı”.**

**Xatəm** - kəlməsi ərəb sözü olub, son deməkdir. Peyğəmbərin (s) adlarından biri də **“Xatəmul – Ənbiya”**dır,yəni peyğəmbərlərin sonuncusudur.

Kərəmin kanı – kərəm sahibi deməkdir. Allah – Təala kərəm sahibi olduğundan şair deyir ki, “Ey Allah!Sən sonuncu Peyğəmbərin (s) xaliqi olmaqla yanaşı həm də Kərəm sahibisən”.

“İlahi hökmündən fərman istərəm” – deyərkən, şair Allahı özünə məbud (sitayişə layiq) bilir və onunəmrlərinə tabe olmağı səmimi qəlbdən qəbul edir və bunun müqabilində deyir: “Dilərəm müştağın xaliqi - əzəm”, yəni “Ey əzəmətli Xaliq sənin camalının görüşün istərəm” – yəni mənə liqaullah (Allahla görüş) məqamı bəxş et.

“**Cananın canını cavan istərəm”.** Bu da Peyğəmbərin (s) buyurduğu aşağıdakı hədisə işarə oluna bilər. “Behiştdə qoca olmayacaq, bütün insanlar məşhərə cavan şəkildə gedəcək”.

Ustadın “**Talib oldum”** rədifli ustadnaməsi də başdan – başa irfani rəmzlərlə zəngindir. Ustad şair mərifət dünyasına baş vuraraq, deyir: **“Talib oldum, mən pirimdən dərs aldım”.**

**Talib** ərəb sözü olub, **tələbənin cəmi** deməkdir.

**Pir** sözü isə iki məna kəsb edir. Fars dilində lüğəti mənası qoca deməkdir. İrfani mənası isə mürşid deməkdir.

**“Talib oldum, mən pirimdən dərs aldım**” – bu misrada şair deyir ki, mərifət məktəbində Mürşiddən dərs alan tələbələrdən biri də mən idim.

**“Cəm etdim sərimdə çəkmərəm bir “ax”.**

**Sər** fars sözü olub, **baş** deməkdir.

Bu misrada da şair deyir ki, mürşidimdən aldığım dərsləri başımda cəm etdiyimdən, heç vaxt peşmançılıq çəkmərəm.

“**Ustad çəkisində, doğru məsnətdə**”- deyərkən, **məsnət** sözü ərəb sözü olub, **taxt üstdə əyləşən** deməkdir. Ustad mürşidinin doğru taxt üstdə əyləşdiyindən söz salıb, deyir ki, “Kim yetər sirrimə durmasın irax”. Yəni - Mənim öyrəndiyim və bildiyim sirlərimə bələd olmaq istəyən məndən uzaq olmasın.

“Sığınmışam bu təbimi verənə”- deyərkən şair bildirir ki, mənə bu ilhamı və təbi verən elm qapısı Həzrət Əlidir (ə) və mən Mövlama sığınmışam,necə ki, haqq aşiqlərindən olan Aşıq Ələsgər demişdir:

***“İbtida ustaddan dərsim almışam,***
***Ələst aləmində demişəm bəli,***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Muhəmməd, birisi Əli***

*Əlidən dərs aldım eylədim əzbər,*
*Ərşin sütunudur göylərə ləngər,*
*Fatimeyi- Zəhra şafeyi – məşhər,*
*Onu seçdim gözəllərin gözəli".*

**"Talibəm sidqinə zikri Qurana**" – mən Quranın tələbəsiyəm və ancaq Quran oxumaqla məşğulam.

**"Cavab verrəm cavabını sorana**" – hər kəs məndən Quran və İslam dini haqqında hər nə soruşsa, onun cavabını soruşana verərəm.

**"Oxuram dərsimi eylərəm bir ax**" – dərslərimi oxuyub Yaradanıma şükür edərəm.

"**Qul odur ki, qulluq etsin Sübhana". "Sübhan"** kəlməsi ərəb sözü olub**, "pak və müqəddəs"** deməkdir. Eyni zamanda Allah – Təalanın sifətlərindənbiridir ki, **"Təsbihati - ərbəə"**də və "**Təsbihati – Zəhra**"da onu möminlər oxuyurlar. **"Sübhanallah**" – yəni **"Pak və müqəddəsdir Allah"** . Şair bu misrada bildirir ki, **"Qulun"-** yəni bəndənin vəzifəsi pak olan Allaha qulluq etməkdir.

**"Qulluq, yoxsa axirət gedər tufana"** - əgər bir insan Allaha bəndəçilik etməsə və Allahın əmrlərinə riayət etməsə axirətini məhv etmiş olar. Şair bu misralarda bildirir ki,ey insan, Yaradanını tanı və ona itaət et!

**"Mən Nəbiyəm mərd çıxaram meydana**" – "**Nəbi"** - ərəb sözü olub, mənası "**xəbər gətirən"**deməkdir. Şair bu misrada bildirir ki, mən də insanlara Peyğəmbərlərin (ə) çatdırdığını çatdırdığım üçün haqq meydanında üzü ağam.

**"Sığınnam Mövlaya hazır əl yarax"** – bu misrayla şair demək istəyir ki, mən əlimdə silah zəmanə İmamının (əc.f)zühurunu gözləyirəm və ümidvaram ki, **"Rəcət"** (qayıdış) zamanı yenidən dirilib, İmam Zamanın (əc.f) haqq ordusunda əlimdə silah Allah düşmənləri ilə mübarizə aparacğam. Yaxşı olar ki, bu beytdə biz "**Mövla"** kəlməsinin şərhini verək.

Qeyd etmək lazımdır ki, ***"Mövla"*** kəlməsi müxtəlif mənalara malik olduğundan bəzi sünni alimləri hədisdə onu «dost» kimi mənalandırmışdır. Onlar ***"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"***kəlməsini ***"Mən kimin dostuyamsa, Əli də onun dostudur"***mənasında qəbul edirlər. Bu mənanı İbn Səb-bat Maliki də öz ***"Füsulul mühimmə"*** kitabında bəyan etmişdir. Təəssüf üzündən həqiqəti görə bilməyənlərə ***"mövla"*** kəlməsinin mənalarını izah edəcəyik. Bu sözün müxtəlif mənaları vardır.

***"Mövla"*** – ixtiyar sahibi, bəndə, azad olmuş, azad edən, qonşu, həmpeyman, həmand, şərik, yeznə, nemət yetirən, dost, yardımçı və sair deməkdir.

Bu mənalardan bəziləri Qurani-Kərimdə işlədilmişdir. ***"Duxan"*** surəsində ***"mövla"***sözü ***"qohum", "Muhəmməd"*** surəsində ***"dost", "Nisa"*** surəsində ***"həmpeyman", "Əhzab"*** surəsində ***"azad etmiş"*** mənalarını bildirir. Bu mənalardan bəzilərini Peyğəmbərə (s) aid etmək olmaz. Çünki Peyğəmbər (s) kimsənin qulu və həmandı olmamışdır. Əhəmiyyətli olmayan bir mövzuya görə Həzrət Peyğəmbərin (s) insanları qaynar səhrada toplayıb saxlaması inandırıcı deyil. İnanmaq olmur ki, hacılar Həzrət Əli (ə) ilə dostluq haqqında məlumat verilmək üçün səhrada saxlanmışlar. Ayədə Peyğəmbərə (s) buyurulur:

***"Əgər bunu etməsən, Allah risalətini yerinə yetirməmiş olarsan".***

Məgər sadəcə dostluğu bəyan etmək bu qədər ciddi dəyərləndirilə bilərmi? Əslində Peyğəmbərin bu bəyanatı daha dərin mahiyyətə malikdir. Allah-Təala ayənin davamında buyurur:

***"Allah səni insanların şərindən qoruyacaq".***

Dostluq nəticəsində hansı nəticələr yarana bilərdi ki, Allah uyğun vədlə be-lə bir təhlükəni aradan qaldıracağını bəyan etsin. Digər tərəfdən ***"mövla"*** kəlməsinin dostluq mənasında təbir olunması dəlil tələb edir. Əks təqdirdə, belə bir mənalandırma üsul

elminə zidd olar. Bu baxımdan yalnız *"ixtiyar sahibi"* mənasının dəlilləri vardır. Həmin dəlilləri nəzərdən keçirək.

– Allah-Təalanın Peyğəmbərin (s) bir işi görməsini onun risaləti üçün şərt bilməsi məsələnin ciddiliyindən xəbər verir. **"Mövla"** kəlməsinin yalnız **"ixtiyar sahibi"** mənası ciddi mahiyyət daşıyır. Əgər uyğun kəlməni **«ixtiyar sahibi»** kimi təbir etsək, söhbətin Peyğəmbərdən (s) sonra kimin canişin olacağından getməsi aydınlaşar. Ayə ***Cövhə*** yaxınlığındakı Qədir-Xumda nazil olmuşdur. Hacılar adətən ***Cövhə***yə çatdıqda bir-birlərindən ayrılaraq öz vətənlərinə yola düşürlər. Artıq onların bir yerə toplanması mümkünsüz olur. Əlbəttə ki, bu göstəriş Peyğəmbərə (s) bir neçə gün əvvəl nazil olmuşdu. Amma onun dəqiq vaxtını təyin etmək çətindir. Peyğəmbər (s) yaxşı bilirdi ki, Əli (ə) döyüşlərdə bir çox düşmənlərin həyatına son qoyduğu üçün həmin qətlə yetirilənlərin qohum-əqrabası o Həzrətə (ə) qarşı kinlidir.

***"Allah səni insanların şərindən qoruyacaq"*** vədi də Əliyə(ə)qarşı kinin mövcudluğundan danışır.

– Həzrət Peyğəmbər(s)***"mövla"***lıq məsələsinə toxunduqdan sonra göstəriş verir ki, Əliyə (ə) əmir ünvanında salam verilsin. Əgər məqsəd dost olsaydı, Peyğəmbər (s) buyurardı ki, ona bir dost olaraq salam verin. Ömər İbn Xəttabın ***"Mənim mövlam hər bir kişi və qadının mövlasıdır"***- deməsi də Əlinin (ə) vilayətini təsdiqləyir.

– Ən məşhur sünni kitablarında da yazılmışdır ki, ilahi fərmanının bəyanından sonra bu ayə nazil olmuşdur. Peyğəmbər (s)həmin ayə nazil olduqdan sonra buyurdu: ***"Dinin kamilləşməsi, nemətlərin tamamlanması, mənim risalətimə və məndən sonra Əlinin (ə) vilayətinə Allahın razılığına təkbir! Allahu-Əkbər!"***[113]

*Şair Nəbi Borçalı da öz yaradıcılığında dəfələrlə "mövla"kəlməsinin*

[113] "Maidə", 3

*Peyğəmbərə (s) və Peyğəmbərdən sonra Həzrət Əliyə(ə) və İmamlara (ə) şamil olduğunu oxucuların diqqətinə çatdırır. "Yoxdu" rədifli gəraylısının son bəndində şair deyib:*

***Nəbinin ğəni – Mövlası,***
***Artırıb zövqi – səfasın.***
***Heç bulunmaz xarabası,***
***Nə ölüm, nə məzar yoxdur.***

Bu bənd də sirrlərlə doludur. Qısa da olsa bəndin şərhin verməyi lazım bildik. **"Ğəni"-** kəlməsi ərəb sözü olub,**"ehtiyatsız"** deməkdir. Şair deyir mənim ağalarım olan 14 Məsum ehtiyacsızdır, yalnız insanların səadət və xoşbəxtliyi üçün öz canlarından belə keçməyi bacardılar.

Şair deyir ki 14 Məsumu sevənin dünya və axirət də heç bir qorxusu yoxdur. Üçüncü misrada gələn **"xəraba**" sözünün mənası irfanda imamların məskun olduğu yerin adına deyilir. Necə ki, məşhur rübai ustadı Ömər Xəyyam deyib:

***Qurban xərabata əhli əhlidir,***
***Onların səhv işi belə səhlidir.***
***Hələ mədrəsədən çıxmayıb arif,***
***Çünki bu xaraba darul- cəhlidir.***

Yəni – xərabət və meyxanə əhlini (meyxanə mim və yey sözlərindən təşkil olunub**. "Mim"** hərfinin **əbcəd hesabı** 10, "**Yey"** hərfinin əbcəd hesabı isə 4-dür. Cəmi 14 deməkdir. Meyxanə dedikdə 14 Məsumun məskunlaşdığı məkan nəzərdə tutulur). Ömər Xəyyam deyir ki, Meyxanə əhlinin səhv işi də səhihdir (düzdür) amma mədrəsədən hələ mərifət əhli çıxmayıb, çünki mədrəsə darul-cəhlidir, yəni cəhalət evidir.

Şair Nəbi Borçalı da:

***"Heç bulunmaz xarabası,***
***Nə ölüm, nə məzar yoxdur"–***

– deyərkən Qurani – Kərimin "**ər-Rəhman**" surəsinin 26,27 ayələrinə istinad edir. Bu ayələrdə Allah – Təala buyurur: "**Kullu mən əleyhə fən va yəbqa vachu rabbikə zul cəlali val ikram"-** yəni bütün yaranmışlar (yer üzündə olan hərkəs) fanidir. "Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir". Başqa bir ayədə deyilir: "**Hər kim uca və əzəmətli Rəbbinin razılığını qazansa, dünya və axirətdə əbədi qalar".** Əgər biz **"Vəch"**kəlməsini izah etsək, əbcəddə görərik ki, onun sayı 14 – dür. Məhz bu ayədən də məlum olur ki, Allahın razılığını qazanmaq üçün mütləq 14 Məsuma (Peyğəmbər (s) qızı Fatiməyə (ə) və 12 İmama (ə)) məhəbbət bəsləmək lazımdır. Şair Nəbi Borçalı da 14 Məsuma sığındığı üçün deyir ki, mənim üçün nə ölüm nə də məzar yoxdur. Mərifət əhli fani dünyanı tərk edib getsədə, onlar həmişə sözləri və əməlləri ilə diridirlər. Necə ki, S.Ə.Şirvani deyib:

***Mövti- cismani ilə sanma mənim ölməyimi,***
***Seyida ölmərəm aləmdə səsim var mənim.***

İndi də şairin "Bax" rədifli qoşmasına nəzər yetirək.

**Bax**

***Səhər günəş doğdu, ay aydın oldu.***
***Əcəb şölə salır bu dağa, bir bax.***
***Seyraqub tənəsi sərim incidir,***
***Çəkdiyi sinəmə bu dağa bir bax.***

***Göydən Tövrat endi, Musaya gəldi,***
***Dəryalar yol verdi, Musaya gəldi,***
***Həqq vədə vermişdi, Musaya gəldi,***
***Nura bülənd oldu, bu dağa bir bax.***

***Nəbiyəm, dərdimə naçaram gərək,***
***Sorsalar hərfini açaram gərək,***
***Qıfılsız xəznədi açaram gərək,***
***Nə gözəl əlvandı, otağa bir bax.***

Bu qoşmanın ilk bəndində şair "Səhər günəş doğdu, ay aydın oldu" deyərkən, İslam peyğəmbərini Günəşin doğmasına bənzədir və Həsrət Əlini (ə) aya bənzədir. Bu iki şəxsiyyət Peyğəmbər (s) və Həzrət Əli (ə) İslam ümmətinin mənəvi ataları olmaqla bərabər, həm elm şəhəri, həm də elm qapısıdırlar. Necə ki, Peyğəmbər (s) buyurur:

"Mən elmin şəhəriyəm, Əli (ə) isə onun qapısıdır. Elm öyrənən qapıya gəlsin". Peyğəmbərin (s) və Həzrət Əlinin (ə) elmi Allah elmi olduğundan şair Nəbi Borçalı da elm qapısına üz tutur və elm qapısı Həzrət Əlini (ə) aya bənzədir. Elm şəhəri Peyğəmbəri (s)isə Günəşə bənzədir. Bu fikrimizə sübut olaraq, könüllər sultanı Ş.İ.Xətainin bir beytinə nəzər yetirək.

Ay Əlidir (ə) gün Muhəmməd deyərkən Ş.İ.Xətai də aydan məqsəd Həzrət Əli (ə), Günəşdən məqsəd isə Muhəmməd (s) olduğunu vurğulayır. Başqa bir nəzəriyyə bu ola bilər ki, Qurani – Kərimdə olan surələrdən biri "Şəms"surəsidir. Bu surədə Allah – Təala 11 dəfə and içir. İlk ayədə Allah – Təala buyurur:

"And olsun Günəşə və onun nuruna", ikinci ayədə isə: "And olsun aya ki, onun ardınca gəlir".

Təfsir alimlərinin nəzərinə görə bu surədə Günəşdən məqsəd Peyğəmbər (s), Aydan məqsəd isə Həzrət Əlidir (ə).

"Əcəb şölə salır, bu dağa bir bax" – deyərkən dağın

müqəddəsliyindən söhbət açan şair Qurani – Kərimə istinad edərək, dağın müqəddəsliyindən və ucalığından bəhs edir. Belə ki, müqəddəs kitabımız olan Qurani – Kərimdəbir neçə dağın adına rast gəlirik. Məsələn:

"Cəbəlun - nur" (nur dağı), Turi – sina (Tur dağı) və s.

Bildiyimizə görə, əksər Peyğəmbərlərə (ə) vəhy müqəddəs dağlarda nazil olub. Həzrəti Musa (ə) Tur dağında, Allahla danışardı Həzrət Peyğəmbərə (s) isə Müqəddəs "Nur" dağında ilk ayələr nazil oldu. Şair bu misrasında dağın paklığından söhbət salır və insanları dağlar kimi uca və pak olmağa səsləyir.

"Seyrəqub tənəsi sərim incidir" deyərkən, napak insanların tənəsindən başı ağrıyan şair bu cür insanlardan uzaq olmağı məsləhət bilir və bildirir ki, napak insanın hər kəlməsi onu dinləyənin baş ağrısına səbəb olar. Beytin sonunda "Çəkdiyi sinəmə bu dağa bir bax"deyərkən şair özü bunu bir daha təsdiq edir. Möminlər ağası Həzrət Əli (ə) buyurur ki:

"Nə çoxdur ibrət dərsləri, nə azdır ibrət alanlar". Şair Nəbi də bu hədisə istinadən bildirir ki, insanlar gərək həyat dərslərini öyrənə və onlardan ibrət alalar. Necə ki, şair Şücaət Kəlbəcərli demişdir:

***Kitablar bir yalan yuxudur yuxu,***
***Həyatı həyatın özündən oxu,***
***Saxta yaşamağı neynirəm axı,***
***Bunların əlindən qaçıram daha.***

**"Göydən Tövrat endi, Musaya gəldi"** deyərkən Müqəddəs kitab olan **"Tövrat**"dan və **"Ülül – Əzm"** (birinci dərəcəli şəriət sahibi) Peyğəmbərlərdən biri olan Həzrəti Musadan (ə) söhbət açır. Belə ki, "**Tövrat**" kitabı 4 səmavi kitabdan biri olub və Ramazan ayının 6-da Həzrəti Musaya (ə) nazil olub. **"Tövrat"** kitabı da Qurani – Kərim kimi "ilahi qanunlar" toplusudur. Göydən yerə

nazil **olan 4 kitabdan 2-si "Qanunlar toplusu"(Tövrat və Quran) "İncil" (Dualar toplusu), "Zəbur"** isə (nəğmələr toplusudur). Ramazan ayı Allah ayı olmaqla bərabər, həm də **"Peyğəmbərlər təqviminin"** başlanğıc ayıdır. Yeganə aydır ki, Qurani – Kərimin "**Bəqərə"** surəsinin 185-ci ayəsində adı çəkilib. İmam Cəfəri Sadiq (ə) buyurur:

Səmavi kitabların dördü də Ramazan ayında nazil olub. Ramazan ayının 6-da **"Tövrat**" Həzrəti Musaya (ə) nazil olub, 12-də **"Zəbur"** Həzrəti Davuda (ə) nazil olub, Ramazan ayının 18-də **"İncil"** Həzrəti İsaya (ə) nazil olub və Ramazan ayının Qədr gecəsində **"Quran"** İslam Peyğəmbərinin mübarək qəlbinə nazil olub.

**"Dəryalar yol verdi, Musaya gəldi"-** deyərkən Həzrəti Musanın (ə) Nil çayından salamat keçməsinə işarə edir. Belə ki, Həzrəti Musa (ə) Fironu Allahın əmri ilə haqqa tərəf dəvət edərkən, Firon onu qəbul etmədi və Musa (ə) Allaha dua etdi ki, Fironu məhv etsin. Təxminən 35 ildən sonra Musanın (ə) duası həyata keçdi, Musa (ə) Nil çayını keçərkən əsasını çaya vurdu, çay yarıldı, Musa (ə) və qövmü nicat tapdılar, Firon və adamları Nil dəryasında suya qərq oldular.

**"Həqq vədə vermişdi, Musaya gəldi"-** deyərkən Musaya (ə) verilən 9 möcüzədən söhbət açılır. Musaya (ə) verilən ilk möcüzələr "əsa və yədibəyza" (işıqlı əl) oldu. Bu möcüzələr Musaya (ə) cümə axşamı verildi.

**"Nura bülənd oldu, bu dağa bir bax"-**deyərkən Musanın (ə) Allahdan istəyindən söhbət gedir. Belə ki, Musa (ə) "Tur" dağında Allah-Təalaya belə müraciət etdi:

"Ey Rəbbim, özünü mənə göstər". Allah –Təala buyurdu: "Ey Musa sən məni görə bilməzsən, amma "Tur" dağına bax". O vaxt ki, Musa (ə) "Tur" dağına tamaşa etdi, gördü ki, bir nur dağa nazil oldu və dağ tikə - tikə oldu. Musa (ə) qəşş edərək özündən getdi və Allah –Təala buyurdu:

"Sən mənim dağa nazil etdiyim nurumdan qəşş edirsən."

***Gah deyir - "Ləntərani"[114]- aşiqi min dərdə salır,***
***Gahi bir cilvə ilə nurunu Sinada verir.***

Allah –Təalanın buyurduğundan belə məlum olur ki, insan yalnız Həzrət Əlinin (ə) dediyi kimi, Allahı ancaq "qəlb gözü" (bəsirət gözü ilə) görmək olar. Necə ki, S.Ə.Şirvani demişdir:

***"Ey nuri - səmavati - zəmin gərçi nihansan,***
***Amma nəzəri arifi danada əyansan.***
***Batin gözünün yox səni görməkdə qüsuri,***
***Zahir gözü görməz səni, əlbətdə nihansan.***

***Nəbiyəm, dərdimə naçaram gərək,***
***Sorsalar hərfini açaram gərək,***
***Qıfılsız xəznədi açaram gərək,***
***Nə gözəl əlvandı, otağa bir bax.***

Son bənddə şair ustadı Həzrət Əli (ə) kimi onun elminə dəyər verməyənlərdən giley – güzar edir və bildirir ki, "Mən bir qıfılsız xəzinəyə açaram". Bəs hər kəs bu mənəviyyat xəzinəsindən bəhrələnmək istəsə, Qurani-Kərimin "Hucurat" (otaqlar) surəsini oxusunlar. Bu surə əxlaqi bir surədir əgər İslam dinini bir ağaca bənzətsək, "Usuliddin" onun kökü, "Firiuddin" onun budaqları, "Əxlaq" isə meyvələridir. Şair də özünü bu ağacın meyvələrindən hesab edir.

**İstərəm**

**Xilqəti-aləmdə xəlq olan gündən -** Bu misrada ustad aşıq

[114] Məni heç vaxt görə bilməzsən

bildirir ki, insan iki hissədən – cisim və ruhdan təşkil olub. Cisim dedikdə, insanı dünyaya gətirən valideynlər nəzərdə tutulur. Müqəddəs kitabımız Qurani- Kərimdə 2 yerdə "Yusif" və "Loğman"surələrində Allah-Təala buyurur ki, valideynləriniz sizin ucbatınızdan "uf" belə deməsin. İnsanın həyatının formalaşmasında ata və ananın müstəsna xidmətləri var. Peyğəmbərimiz (s) buyurur: "Behişt anaların ayaqları altındadır". Dünya dahilərindən biri demişdir: "Çayın mənbəyi bulaq olduğu kimi, ailənin də mənbəyi anadır". Ruhdan məqsəd isə insanın canıdır. Allah-Təala insanı xəlq etmək istədikdə, ona "kun" deyər, yəni "ol", oda "olar". "Yasin" surəsinin 82-ci ayəsində Allah-Təala buyurub:

**"İnnəmə əmrihu izə əradə şeyun ənyəqulu ləhu kun fə yəkun"** - yəni bizim əmrimiz bir şeyə sabit olanda, ona "ol" deyərik oda "olar". Böyük klassiklərdən N. Gəncəvi, S.İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, S.Ə.Şirvani, S.Ə.Nəbati və s. bir çox şairlərdə öz yaradıcılıqlarında insanın yaradılışının "kun" kəlməsi ilə yarandığını təsdiq ediblər. Şeyx Nizami "**Xəmsə"**sində deyir:

***Bir dağ çapmadısa bu "Kaf" ilə "Nun"***
***Amma göy adlı bir Büsutun qurdu.***

**"Şirə qulam, mən ananı istərəm"** – "Şir" fars sözü olub mənası "Süd" deməkdir. Şair südə qulam deməklə, ananın övlada olan məhəbbətindən bəhs edir. Qurani – Kərimdə ananın övlada 2 il və 2 ildən 6 ay artıq süd verməsi barədə Allah – Təala göstəriş verib. "**Bəqərə"** və **"Loğman"** surələrində anaların övlada süd verməsindən söhbət açılır. Əgər ana öz övladına ana südü verirsə, ananın haqqıdır ki, həyat yoldaşından uşağa verdiyi südün haqqın alsın. Çox təəsüf ki, indiki analar körpələrinə ana südü əvəzinə süni qidalar verir. Şair Ələddin Qənbər demiş:

*Körpələr süd görmür əmir butulka,*
*Layla çalan yoxdur moddadır soska.*
*Etibar qalmayıb qohuma, dosta,*
*Onun üçündə çörək küt gedir, dədə.*

Böyük klassiklərdən olan Qazi Bürhanəddin deyir ki:

"Ananın südü ananın ciyərinin qanıdır. Əgər ana öz ciyər qanın övlada köçürsə, o övladda həm anaya həm də cəmiyyətə hörmət olar".

**"Tanımam heç kəsi, qohum-qardaşı" –** deyərkən, dünyaya gəlişindən söhbət açır və bilir ki, o, paklıq aləminə qayıdanda, yəni ruhlar aləminə qayıdanda onun halına özündən yaxşı ağlayan tapılmayacaq. Necə ki, ulu M. Füzuli "Leyli - Məcnun" poemasında insanın dünyaya gələrkən keçirdiyi hissləri qələmə alır və deyir:

*Ol dəm ki bu xakidanə düşdü*
*Halını bilib fəağanə düşdü,*
*Axır günün əvvəl eylədi yad,*
*Axıtdı sirişki qıldı fəryad.*
*Yəni ki vücudi dəmi ğəmdir,*
*Azadələrin yeri ədəmdir.*

**"Çox ağlaram, çeşmim qanı istərəm"-** deyərkənşəriətin qanunlarınaəməl edib, məsrəfin halal olduğunu, israfın haram olduğunu bildirir və göz yaşının belə israf olmaması üçün Füzuli kimi şair Nəbi də ciyər qanından imdad istəyir. Füzuli deyir:

*Göz yaşım qılmaz vəfa giryan gözüm israfinə,*
*Bunca kim hər dəm ciyər qanımdan imdad istərəm.*

**"Göründü gözümə dünyanın malı"-** deyərkən dünyaya bel bağlamamağı məsləhət bilir və deyir ki, dünya malı dünyada

qalacaq. Həzrət Əli (ə) buyurur: İnsanın 3 dostu var. Var - dövləti, Qohum-əqrəbası, Əməlləri.

Bu 3 dostdan 2-si var-dövlət və qohum-əqrəba vəfasız, əməllər isə vəfalı dostdur. Şairdə bildirir ki, 3-cü dostdan bərk yapışmaq lazımdır.

2-ci misrada gələn **"Rüsxət mələyi dindirdi lalı"-** deyərkən, ölüm mələyi Əzrayıldan (ə) bəhs edir.

**"Talib olub mən tapanda kamalı"** – "talib"sözü ərəb sözü olub, "tələbənin cəmi" deməkdir. İnsan kamala çatmaq üçün gərək Nəsimi demiş: "Əqli mənəvi yüksəliş mərhələlərini keçə". Bu mərhələlər şəriət, təriqət, mərifət və həqiqətdən ibarətdir. Şəriətdə müqəllid və müctehid var. Təriqətdə mürid və mürşid var. Mərifətdə aşiq və məşuq var. Həqiqətdə əbd (bəndə) və Rəbb var. Həzrəti Peyğəmbər (s) buyurub:

"İslam mənim dinim,şəriət mənim məsləkim,təriqət mənim yolum, mərifət mənim kamalım, həqiqət isə məqsədimdir". Bu səbəbdən də Peyğəmbər (s) "Vida" həccində buyurdu:

"Əli həqq ilədir həqqdə Əli ilədir". Füzuli kamala çatmaq üçün Allaha üz tutaraq deyib:

***Ey Xuda, məni sən eylədin icad***
***Kamal almağa da sən ver istedad.***
***Ya özün hər işdə ustad ol mənə,***
***Ya da ki, yol göstər tapım bir ustad.***

Şair Nəbi də bir mürid olaraq, özünə mürşid Həzrəti Sahibəzamanı (ə) bilir,çünki bir insan kamal mərhələlərini ələ gətirmək üçün şəriətdə Həzrəti Mühəmməd (s) gətirdiyi şəriətin qanunlarına riayət etməli, təriqət də Həzrət Əlinin (ə) göstərişlərinə əməl etməli, mərifət və həqiqətdə isə Soltani-Aləmin yer üzündə olan nümayəndəsi Həzrəti Məhdinin (əc.f) intizarında olmalı və o, qeybdə olarkən günəş bulud arxasında olan zaman

necə yer günəşdən faydalanırsa, o cür də mürid gərək zəmanə imamından faydalana.

**"Təklif oldu, həm atanı istərəm"-** deyərkən, ola bilsin ki, şair onun cisminə səbəb olan atanı həm də mənəvi ata sayılan Peyğəmbəri (s) və Əlini (ə) nəzərdə tutsun,çünki, Peyğəmbər (s) buyurub:"Ya Əli, mən və sən bu ümmətin mənəvi atalarıyıq".

**"Vacib ata yol göstərdi aləmə"-** deyərkən də şair yuxarıdakı deyilən hədisə söykənir və bildirir ki, şəriət yolunu açan və insanlara haqqın yolunu göstərən Həzrəti Peyğəmbər (s) və onun 12 canişinidir.

"**Talib oldum, həm yetişdim elimə"-** deyərkən öz tələbəliyindən və elm şəhərindən və elm qapısından bəhrələndiyinə işarə edir. Belə ki, Peyğəmbər (s) buyurub: "Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır. Elm öyrənən qapıya gəlsin".

**"Hökm təvarixdən gəldi əlimə"-** deyərkən tarixi bilməyi tövsiyyə edir. Hər bir millətin iki tarixi var. Bir mənsub olduğu dinin tarixi, bir də doğulduğu vətənin tarixini. Tarix bir körpüdür, keçmişdən gələcəyə. Həzrət Əli (ə) oğlu İmam Həsənə (ə) buyurdu:

Oğlum Həsən! Mən keçmiş insanların zamanında olmamışam. Amma onların tarixini oxudum və onların tarixdə etdiyi səhvləri mən etmədim.

**"Əfsəl olan ol Fürqanı istərəm"-** Fürqan sözü ərəb sözü olub, haqqı batildən ayıran deməkdir. Qurani-Kərimin bir surəsi də "Fürqan" adlanır. Eyni zamanda Həzrət Əlinin (ə) adlarından biri də Fürqandır. Necə Quran haqqı batildən ayırır, Əlidə (ə) haqqı batildən ayırır. Biz bunun Həzrət Əlinin (ə) xəlifəliyi dövründə müsəlmanlar arasında baş verən 3 müharibədə (Cəməl, Siffeyn, Nəhrivan) şahidi oluruq. Əgər Həzrət Əli (ə) haqqa riayət etməsəydi heç bu müharibələr də baş verməzdi. Şair Nəbi də əfsəl olan ol fürqanı istərəm -deyərkən hədisi - səqəleynə (iki ağır əmanət Quran və Əhli-beyt)söykənir.

*Mən Nəbiyəm, cismim oda qalandı,*
*Qan ağladım, ahım ərşə dayandı.*
*Ömür kütah oldu, zehnim talandı,*
*Nə neməti, nə dünyanı istərəm.*

"Ərş" ərəb sözü olub, "yüksəklik" deməkdir. "Kütah" fars sözü olub, "qısa" deməkdir.

Peyğəmbər buyurub: "Dünya möminin zindanıdır"

Sonuncu bənddə şair dünyanı zindana bənzədir və bu zindan da daim əzab-əziyyətindən söhbət açır. Ömrünün gödək olmasından şikayətlənir. Zehninin talan (aradan getməsindən) şikayət edərək, deyir ki, nə dünyanın nemətin, nə də dünyanın özünü istəyirəm. Allah bizə mənəvi nemətlər bəxş eləsin. Necə ki, şair Nəbi Borçalıya Allah- Təala bu mənəvi nemətləri bəxş etmişdir.

*Gül, ondan ağla*
*Başına döndüyüm xubların şahı,*
*Məlul etmə könül, gül, ondan ağla.*
*Yandırdın cismimi döndərdin közə,*
*Dərdi - əhvalımı bil, ondan ağla.*

*Hilal qaşın ox kamanı quralı,*
*Səni grən gündən günə saralı.*
*Həsrətindən cümlə əzam yaralı,*
*Bağlayıb sinəmdə xal, ondan ağla,*

*Səhər şikarıda cığalı tərlan,*
*Bir kəlmə danışsan, lüğəti-imran,*
*Şair Nəbi olub hüsnünə heyran,*
*Mən dalan sevdaya dal, ondan ağla.*

***"Başına döndüyüm xubların şahı***
***Məlul etmə könül, gül, ondan ağla".–***

– *"Xub" fars sözü olub mənası "yaxşı", "gözəl" deməkdir. Şah kəlməsi İrfan ədəbiyyatında Peyğəmbərə (s) və İmamlara (ə) şamildir. Şair bu misralarda zəmanə İmamından (əc.f) söhbət açır və deyir: Ey gözəllər şahı! Mənim könlümü pərişan etmə. Mənim üzümə gül, sonra məni ağlat.*

Şair bilir ki, mərifət yolunda addımlayan insanlar əzab-əziyyətlərə qatlaşmalıdır. Necə ki, Füzuli deyir:

***Nə qədər sən kimi bir qönçə dəhanım yox idi,***
***Ey Pəri heç bu qədər ahu-fəğanım yox idi.***
***"Yandırdın cismimi döndərdin közə,***
***Dərdi - əhvalımı bil, ondan ağla".***

Bu misralardan da göründüyü kimi şair kabab kimi közdə bişməsindən söhbət açır və öz əhvalını İmama (əc.f) ağlayaraq bildirir. Eşq məktəbində oxuyanlar gərək eşq atəşində yanmağı da bacarmalıdırlar. Necə ki, Yunis İmrə deyib:

***Yüyürürəm yana – yana,***
***Eşq boyadı məni qana.***
***Nə aqiləm, nə divanə,***
***Gəl gör mənə eşq neylədi.***
***Ya əlim al qaldır məni,***
***Ya vəslinə daldır məni,***
***Çox ağlatdın güldür məni,***
***Gəl, gör mənə eşq neylədi.***

***"Hilal qaşın ox kamanı quralı,***
***Səni görən gündən günə saralı".***

Hilal" ərəb sözü olub "ayın bir günlük şəkli" deməkdir. "Qaş" İrfan ədəbiyyatında kamana, ox isə kipriyə işarədir.

Haqq aşiqləri öz mürşidlərinin hilal qaşını kamana,kipriklərini isə oxa bənzədir və öz sinələrini o oxa və kamana təslim edirlər. Necə ki, M.Ə.Sabir deyib:

***Leyliyə Qeys olur aşiq sənə min-min Leyli,***
***Axtarırsan yenə bir aşiq əcəb qanın var.***

Şair Nəbi də İmam Zamanla görüşündən söhbət açır və deyir ki, Səni görən gündən rəngim də saralıb.

***"Həsrətindən cümlə əzam yaralı,***
***Bağlayıb sinəmdə xal, ondan ağla".***

Bu misralarda da yuxarıda deyilənlər öz təsdiqini tapır. "Xal" irfan ədəbiyyatında imamətə işarədir. Şair deyir ki, sənin ayrılığından bütün bədən üzvlərim yaralı haldadır. Sən mənim yaralarıma məlhəm ol, çünki mən sənin aşiqinəm.

***"Səhər şikarında cığalı tərlan,***
***Bir kəlmə danışsan, lüğəti-imran".***

"Şikar" fars sözü olub, "ov" deməkdir. Səhərin açılışı irfanda İmam Zamanın (əc.f.) zühuruna işarədir. Şair İmama üz tutaraq deyir ki, bir halda ki, ova çıxmısan, əvvəlcə mən tərlanı ovla. Sənin bir kəlmə sözün bizim üçün İmran nəslinin (İmran nəslindən məqsəd pənci-təni-ali-əbadır) dilindən çıxan söz qədər əzizdir.

***"Şair Nəbi olub hüsnünə heyran,***
***Mən dalan sevdaya dal, ondan ağla".***

"Hüsn" ərəb sözü olub "gözəl" deməkdir. Bu misralarda şair

deyir ki, ey mənim ağam, mən sənin gözəl camalına heyran (aşiq) olmuşam. Əgər sən də mən düşən sevdaya düşsən, mənim halımdan xəbərdar olub, sən də mənim kimi ağlayarsan.

## AŞIQ XINDI MƏMMƏD YARADICILIĞINDA HƏQİQƏT AXTARIŞI

***Arif məclisində söylə həqiqət,***
***Həqiqət, təriqət, mərdi-nəsihət,***
***Dillərdə deyilsin, ay Xındı Məmməd,***
***Həm özünə, ustadına irəhmət.***

Ustad sənətkarın ömrü onun daşıyıcısı olduğu sənətin ömrü qədər olur. Aşıq sənəti sələfdən – xələfə, ustaddan – şagirdə keçə-keçə zəncirin həlqələri kimi uzaq əyyamların sirrini-sorağını telli sazda əks sədaya çevirən sənət məbədi olmuşdur. Azəraycan aşıq yaradıcılığı o qədər zəngindir ki, bu yaradıcılığıöz ədəbi irsi ilə zənginləşdirən el sənətkarları nə qədər öyrənilsə də, nə qədər araşdırılsa da yenə də ayrı-ayrı aşığın, el şairinin tədqiqata ciddi eytiyacı olduğu bəlli olur. Azərbaycanda aşıq yaradıcılığı demək olar ki, ayrı-ayrı regional aşıq mühitləri kontekstindəöyrənilib tədqiq olunmuşdur. Olumla ölüm arasındakıömür adlı nəsnəni hərə bir cür yaşayır. Həyatın lələsi olmağa üstünlük verirlər.

Aqillərin bir keçib gəldikləri yola birdəçənə-çisəyə bürünən gədiklərə aşırımlara boylanaraq köks ötürür, eyhamla «ey gidi dünya»deyirlər. Bilmirsən yamanlayırlar dünyanı, yoxsa sevib əzizləyirlər…

Aşiqlər məhəbbətlə nifrət arasındakı yolda yorğun düşmüş, tənlərinin yox, sevdaya mübtəla ruhlarının nişan verdikləri yerə tələsirlər. Aşıqlarsa -göylərdən yerə enmiş söz işığında nurlana-nurlana, ruh, iman, irfan elçisi olduqlarını bütün dünyaya sübut

etmək üçün telli sazı sinələrinə basıb əsrlər öncə ellərə, obalara , ədəb-ərkan, nizam-intizam, səliqə-sahman, ləyaqət, mərifət, inayət toxumları səpməyəçalışırlır…

El şənliklərində, xeyir məclislərində yerləri həmişə yuxarı başda olan, hər yerdəçalğıları, oxumaları sevgi ilə qarşılanıb, hörmət-izzətlə uğurlanan sənət fədailəri ömürlərini elə bu sevginin içində keçirmələri ilə xoşbəxtdirlər… mənim aləmimdəəsl istedadlar bir pərvanəömrü yaşayırlar. Hər dəfə qanadlarını oda çırpıb yansalar da, yenə kökslərini bu atəşəçarpmaqdan çəkinmirlər. Aşıq mühitləri içərisində Borçalı aşıq mühiti xüsusilə fərqlənir.

Aşıq Xındı Məmməd də bu qəbil aşıqlardan və aşiqlərdən idi. Sənətinin aşiqi, sazın və sözün aşiqi. Min təəssüf ki, həyat bu məhəbbəti doya-doya yaşamaq səadətini qıymadı ona, bağban kimizəhmətini çəkdiyi söz və musiqi gülüstanının barını doyunca dadmadı.

Bu mühit daim tədqiq olunmuş və araşdırılmışdır. Mühitin ayrı-ayrı sənətkarları haqqında məqalələr, monoqrafiyalar, kitablar yazılmış və yazılmaqdadır.

Həyat və yaradıcılığı haqqında araşdırma apardığımız Xındı Məmməd Borçalı aşıq mühitinin tanınmış nümayəndələrindəndir.

Məmməd Gülabı oğlu Qəniyev 1896-cı ildə Borçalıda – Marneulirayonunun Qaş Muğanlı (Böyük Muğanlı) kəndində anadan olmuşdur. Məmməd Gülabıçətin uşaqlıq dövrü keçirmişdir. Lap körpəlikdən çox məlahətli bir səsə malik olduğunu duyan dayısı Söyün Qoca oğlu onu 1914-cü ildən məşhur el şairi, gözəl söz xiridarışair Ağacanın yanına gətirib ona şagird vermişdi. Gənc Məmməd bir müddət Ağacanınyanında qalır, şeir-sənət dünyasının sirlərinə dərindən bələd olur, aşıq yaradıcılığını mənimsəyir. Tale daha sonra Məmməd Gülabı oğlunu o zamanlar Borçalıda məşhur aşıq kimi tanınan Bəyazidli Məsimləqoşalaşdırır və bu da onun nadir ifaçı kimi

püxtələşməsindəəvəzsiz rol oynayır. Qeyri-adizil, məlahətli səsə malik olan Məmməd aşıq sənətinə dərindən yiyələnib, Borçalının ustad aşığı kimi formalaşır və sonralar «Xındı Məmməd» təxəllüsü ilə gözəl aşıq şeirləri yazmağa başlayır, sazı, sözü iləböyük şöhrət qazanır.

Xındı Məmməd çox gözəl dastan danışan, ifaçı sənətkar, hazırcavab, bağlama və qaravəllilərin gözəl bilicisi kimi əvəzsiz aşıq olmuşdur.

Ustadlardan dərs ala-ala Xındı Məmməd özü sonralar geniş yaradıcılıq yoluna qədəm qoymuş, divani, təcnis, gəraylı, müxəmməs kimi aşıq şeir üslubunda xeyli əsər yazmışdır. O, bir çox ustad aşıqların şeirlərinə qabaq qaytarmalar yazmış, neçə-neçə ustadlarla deyişmişdir. Dövrünün mükəmməl, tanınmış el şairləri və aşıqlarışair Ağacan, şair Nəbi, Bəyazidli Məsim, Təhləli Novruz və bir çox başqaları iləşeirləşmişdir.

Hələ 1930-cu illərdə bu Borçalı bülbülünə də qara yaxaraq pantürkist damğası vurmuşlar. Buna görə də o,bir müddət TiflisdəkiMetex qalasında yatmışdır.

Böyük Vətən Müharibəsi (1941-1945) başlayandan Xındı Məmməd də cəbhəyə getmişdir. O, müharibəyə yola düşməzdən əvvəl canından artıq sevdiyi sədəfli sazını kökləyib divardan asmışdı.

İkinci Cahan Savaşından evə sağ-salamat dönən Xındı Məmməd öz gözəl sənətini davam etdirmişdir. Bu sənətdə ustadlıq zirvəsinəçatan aşığın Borçalıda xeyli ünlüşagirdi vardır. Onlardan aşıq Muhəmməd Sadaxlı, aşıq Allahyar, aşıq Ziyəddin, aşıq Seyfi və başqaları bu gün Borçalının ən ünlü sənətçilərindəndir. Bu şagirdlərin arasında ustadın oğlu Gülabı Xındı Məmmədə layiq əvəz olmuşdur. Ustad aşığın yazdığışeirlər rayon və respublika mətbuatında çap olunmuşdur. Onun şeirlərinin tam külliyyatı Bakıda «Meydanda mərdi-mərdanə» adı adı altında çap olunmuşdur. Qədir bilən Borçalı camaatı və saz sevərləri

XındıMəmmədin 1986-cı ildə 90, 1996-cı il də 100 illiyini böyük bayram şənliyinəçevirdilər.

Xındı Məmməd 1968-ci il avqustun 28-də vəfat etmişdir. Qəbri doğma yurdu Qaş Muğanlıdadır. Biz hamımız bu əbədi dünyanın müvəqqəti sakinləriyik. Ömrümüzün olumla ölüm adlı sərhəddində qazandıqlarımızın heç birini özümüzlə apara bilmədiyimizdən Tanrı yaratdığı bəndəsini bir təsəlli ilə ovudur. Səndən sonra budüynada yaşayan sənin əməllərindir. İnsanın yaxşıəməlləri toxunulmaz bir mənəviyyat xəzinəsidir ki, ilər sonra nəslin davamçıları bu xəzinədən bəhrələnə bilir, yaxşılıq bumeranq kimi günlərin bir günü sənin övladlarının üstünə qayıda bilir. Necə ki, Xındı Məmməd adlı bir sənət və söz təəssübkeşinin ehtiram və hörmətlə anılan adı, əməlləri, sənət sevgisi onun balalarının yolunda işıq tutur.

***Xındı Məmməd həqiqətdən söyləyə,***
***Oxuyub mənasın bəyan eyləyə,***
***Qadir Allah bəlkə qismət eyləyə,***
***Öləndə bir aşir qurana dünya.***

***Özüm sığınmışam o min bir ada,***
***Şahların şahına canımdan fəda,***
***Sıtqınan çağıran yetər murada,***
***Ol Kəbei-Beytullaha qulam mən.***

***Xındı Məmməd oxu sözlərin xası,***
***Dilim əzbəridi, Qənbər ağası.***
***Qüdrətindən Cəbrayılın ustası,***
***Murtuzayi-Seyfullaha qualm mən.***

# VII fəsil

***Ülgülü söz könül açar, bacardıqca sazda de,***
***Şeirbirnazlıməlləkdi, hərkəlməninazda, de.***
***Sadiqdostdangileylənmə, eşidər, bilər, küsər,***
***Hərkəsəninözeybiniçalışginənüzdəde.***

***Bumillətinömüryolu, Kərəmömründənkeçib,***
***Başınanələrgəlməyib, vərəmömründənkeçib.***
***Şərbətiniyadaverib, özüzəhrimariçib,***
***Danışmaqnanbitəndeyil, istəyirsənyüzdəde.***

***Elxan, səndəgirmeydana, sazlaüzbə-üzdayan,***
***Məclisindəsərraflarvar, sənəbaxırgöz, dayan.***
***İlhamınduruşgətirsin, hələbirazdöz, dayan,***
***XanƏmrahsazdadediyin, oğulsansasözdəde.***

## İRFANDA SAZIN ECAZI

Dədə Qorqud qopuzundan bəhrələnən saz neçə-neçə əsrlər əvvəl Oğuz yurdunun qan yaddaşını oyatdı. Bu oyanış bəşər dühası kimi dünyaya bəyan oldu. Özünü, sözünü eşidib bilənindən qeyrət, qüdrət qaynaqlandı. Havalanıb düşmən üstünə yeridi. Koroğlu nərəsində bütövləşdi və haqq kimi dilləndi. Sazlı-sözlü dünyamız insan duyğuları ilə zaman-zaman nəsillərə örnək oldu və ölkəmizi dünyaya tanıtdı. Ustad aşıqlardan olan Haqq aşiqi Tikmədaşlı Xəstə Qasım sazı belə tərənnüm edir:

***Usta, məni gözlərinə fəda qıl,***
***Səndən saz istərəm, amma saz ola!***
***Dindirəndə imran dillə danışa,***
***Şeyda bülbüllər tək xoşavaz ola!***

***Yamanı yamana, yaxşını mərdə,***
***Tərifini edim hər düşən yerdə.***
***Dolaşmaya simlər, vurmaya pərdə,***
***Gözəllər tək onda işvə, naz ola.***

***Xəstə Qasım sözüm söylərəm əyan,***
***Elə car eylərəm bəyanbəbəyan.***
***Qiymətin soruşsan, tamam on tümən,***
***Nə ondan çox ola, nə də az ola.***

Simli çalğı alətlərinin yaranmasına dair bir çox əfsanələr vardır. Bir rəvayətə görə, qartalın parçaladığı heyvanın bağırsaqları ağacın budaqlarına dolaşır, quruyub tarıma çəkilmiş bağırsaq külək əsdikcə titrəyərək müxtəlif səslər çıxarmağa başlayır və bu səsləri eşidən qədim insanlar ilk simli çalğı alətini yaradırlar. Burada müəyyən qədər həqiqətə uyğunluq var. Belə ki,

tarixən simli çalğı alətlərinin gövdəsi, qolu və kəlləsi müxtəlif ağac növlərindən, simləri və qoluna bağlanmış pərdələri isə müəyyən üsullarla heyvan bağırsağından hazırlanıb.

Saz təzənə (mizrab) ilə çalınan simli musiqi alətidir. Ozan-aşıq sənətinin dərin bilicisi, könüllər sultanı Ş.İ.Xətai qoşmalarının birində sazı insan həyatı üçün lazım olan dörd müqəddəs şərtdən biri bilir:

***Bir gün ələ almaz olsam mən sazım,***
***Ərşə dirək-dirək çıxar mənim avazım.***
***Dörd iş vardır hər qarındaşa lazım,***
***Birelm, birkəlam, birnəfəs, birsaz.***

Aşıqsənətinin ənmühümatributuolansaz, sözdəndə,nəfəsdən də, səsdən də artıq ürfani duyğuları əks etdirə bilən birincəsənətünsürüdür. Bunun əsas səbəbisazınsələfləriolanqopuzun,çoğurun,tənburun hal,vəcdkeyfiyyətlərini ənümdəamilkimi özündə daşımasıvə bukeyfiyyətlərinsonradan sazaötürülməsidir. Bu, həmin məfhumu qüvvətləndirən xüsusiyyətləridir.

Şah Xətai dövrü və ondan sonrakıCənubiAzərbaycanvə Anadoludakı təsəvvüffəlsəfəsinin aşıqsənətiilə qırılmaz əlaqəsi məhzsazınbirürfanialətolduğufikrini qətiləşdirməyə kifayətedir. Lakinonudaqeydetmək yerinə düşərki, sazınhərhansıbirruhanikeyfiyyəti onunifaçısınınmənəvidünyasındançox asılıdır. Belə ki, aşıqürfanəhlidirsə, oxuduğu şeirlər ruhani mətləbləri özündə ehtiva edirsə,deməli,həmin sazdaokeyfiyyətləri daşıyır. XX əsrAnadoluşairlərindənArdanuçlu Aşıq Əfkarininbirbəndidiqqətimiziçəkdi:

***Efkariyim göz yaşlarım silerim***

***Şimdi saz yerinde def de çalarım***
***Yaratan Mevlamdan huzur dilerim***
***Belki bir kusur var hicap eyledim.***

Bumisralar əqidə sahibi aşığınsənətkardançox hal əhli,arif olduğunu göstərir.Elə bu səbəbdən də çağdaş Azərbaycan aşıqlarının çoxəsrlikürfani ənənədən bixəbərliyi, onların sənətinə də, yazdığı şeirlərədə, şəxsiyyətlərinə də, çaldıqlarısazadagüclütəsirgöstərir.Bunagörə də bugünAzərbaycansazı onunbətnində axtardığımız mətləbləri özündə əks etdirə bilmir.Azərbaycansazında ifaolunan havaların(xüsusilə qədimhavaların) gerçəkkimliyiməhzhəminruhaniqatlardayatır.Təsadüfideyilki, sazdaifaolunan musiqilərə "mahnı"yox,məhz "hava" deyilir. "Hava" sözü bizim fikrimizcə, səmavi vəcdvə hal mənalarınıifadə edir. Bir zamanlarsemahrəqslərinimüşaiyət etmək üçün çalınan sazda sənət, musiqi, nümayiş amilləri deyil, məhz hal, trans, zikr xüsusiyyətləri mövcud olmuşdur.Bizimdüşüncələrimizə görə, "hava"sözühəmdə birnöv"havalanmaq" mənasına uyğun gəlir. Belə "havalanmaq" təsəvvüfdə vəcd, övc,şiddətlihal pillələrini təşkiledənsəmavirəqslərinkeyfiyyətlərindənbiridir. Tədricən astasəsdən, yavaş tempdən get-gedə yüksələntemperamentli dinamikinkişafsemah ayinlərinin əsas görüntülərindən biridir. Əlbəttə, çox uzunzamandırki, bizAzərbaycansazının buxüsusiyyətləridaşıyanformavə ifatərzinin şahidiolmuruq. Lakinyuxarıdadaqeydetdiyimizkimi, sazınsələfləriolançoğur, tənburkimimusiqialətlərinin məhz təkyə, hal, trans təyinatlı alətlər olduğunu bilirik.

Bualətlərdənsazakeçidməsələsidə araşdırmaçılartərəfindənkifayət qədər tədqiq olunmuş mövzudur. Nəzərə alsaq ki, tənburmusiqialəti müxtəlifŞərqölkələrində bugündə məhz təriqətünsürü kimi, fəaliyyətdədir, o zaman Azərbaycan sazının, məna,məzmunvə təyinatbaxımından nə

qədərtəhrifə uğrasada, altqatında məhz İlahi-ruhani dəyərlərin gizləndiyini anlamış oluruq.

Buməsələyə qüvvətverən əngüclüamil isə bugünAnadoluərazisindəki Cəm evlərində zikr, ekstaz musiqisinin öncülü olanbağlama – Anadolusazıdır. Özüdə bumusiqialəti saztiplialətlər içərisində istər forma, istər tembr, istərsə də digər müxtəlifcəhətlərdən Azərbaycansazına ənyaxınolan musiqialətidir.

Halbuki,Azərbaycansazıöz coşqulutembriilə bualətlərinhamısındanimkanlıdır. Öztexnikipriyomlarının, çoxsəslilikprinsiplərinin köməyi ilə bu saz əsl ürfan tərənnümçüsüdür. Budeyilənlərə əsaslanaraq, belə bir fikir yürütmək olar ki, tənbur daAnadolubağlamasıda "təriqətin",Azərbaycansazıisə"həqiqətin" təmsilçisidir.

Musiqialətlərinininkişafını, fərqliictimaitəbəqə vəzümrələri dolaşdığını, məzmun və forma etibarilə şəkildən-şəklədüşdüyünü inkaretməkolmaz. Sazınməhzhəmin ilahi keyfiyyətlərinin özünə qaytarılmasıyəqinki, tamolaraqmümkün olabilənbirprosesdeyil. Onuntəyinatınıdəyişməkdə mümkün deyil. Bu,qarşısıalınmazbirprosesdir. Lakin, ənazındanmüxtəliffərdlərintimsalında, elmi-nəzərişəkildə, hərtərəflidüşünülərək, Azərbaycansazının bir zamanlar ŞahXətainin,Qurbaninin, Tufarqanlı Abbasın, Aşıq Ələsgərin qucağında olduğunu praktiki şəkildə xatırlatmaq olar. Çünki, məlum məsələdirki, Aşıq Ələsgərin əlindəki saz indiki saz deyil. Quruluş, tembretibarilə busazelə osazdır. Sadəcə, Ələsgər ağlı,Abbas nuru,Qurbani sevgisi indi yoxdur. Bu əzəməti heç olmasa xatırlatmaqüçün aşıqsənətininözəyiolan sazhavalarınınbətninə girib,onlara tamam başqa rakursdan baxmaq lazımdır.

Yuxarıda "hava" kəlməsi barədə bir neçə söz dedik. "Hava"həm də ruhani məstliyintəcəssümüolabilər. Məstliyinzatında"mey" dayanır. Lakin bu mey bu günün

anlayışları çərçivəsindəki meydeyil. Ürfanilüğətlərdə meyinöztərifivardır. Ürfanimənbələrdə tez-tezrastgəlinən "Ələstmeyi"ifadəsi diqqətçəkəndir. Bildiyimizkimi,"Ələst"kəlməsi Qurani-Kərimdəngələrək, "ilkgün", "yaradılışaniyyətolunangün", "Allahınözmələkləriniimtahanaçəkdiyigün"kimi anlamlaragəlir. Ariflərin işlətdiyi "Ələst günündə içilənmey" ifadəsi vəhdəti-vücüdun məstlik fazasını əks etdirir. Belə ki,əfsanəyə görə, Həzrəti Adəmə (ə) Axirəzzəman Peyğəmbərin (s) Əhli-Beyti (ə) haqqındabugündə gizliqalan bilgilərverilmişdir. Bubilgilərmeylə təşbeh edilərək, HəzrətiAdəmiməstetdiyi nəqlolunur. "Mey"kəlməsiisə, ərəb əlifbasında"mim"və "yey"hərflərinin əbcədhesabıilə 14 rəqəminigöstərdiyişəklindəmənalandırılır. Bu isə on dörd məsum (Peyğəmbərin Əhli-Beyti və məsumimamlar) haqqındakıgizlinbilgilərə işarədir. Bumənada həm klassik ədəbiyyatda həm də aşıq poeziyasında tez-tezrastgəlinən "mey","şərab","badə","saqi"sözləri əksərhallarda ürfani mənada, təsəvvüf terminləri olaraq işlədilmişdir.Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, saz musiqilərininməhz"hava"adlandırılması təsəvvüflə,ürfanlasıxbağlıdır.

***Piri-meyxanə Əlidir, odur ənvari-cəli,***
***Aşinani tanı, seyr eyləmə biganə üçün.***

Elə sazhavalarıvarki,onlarınadları, üzərindətədqiqatapardığımızmövzubaxımından müəyyənmülahizələryürütməyə imkanverir. Belə sazhavalarından biriməşhur"Ruhani" havasıdır. Bu möhtəşəm incəsənət abidəsi əsrlərdir ki,öz ağır, ləngərli və məhz ruhani ab-havasını qoruyub saxlayır. Busaz havası bütün aşıqların (Azərbaycanın Qərb zonası və CənubiAzərbaycan aşıqları daxil olmaqla) repertuarına daxil olsa da, həraşıq bu havanı layiqincə ifa edə bilmir. Daha çox yaşlı aşıqlarınvə solosaz ifasıolaraq dahagənc və mahirsazifaçılarının

təqdimetdikləri"Ruhani"də fəlsəfitəbəddülatdan, yəniaşıqsənətində baş vermiş ürfani tənəzzüldən öz nəsibini almışdır. Busaz havası da, bizim fikrimizcə, öz əsl mahiyyətini, əsl hədəfinivə qayəsini itirmişdir. Zənnimizə görə, haqqında sadəcə "qəmlivə hikmətli hava" deyilən "Ruhani" əslində qəmdən və hikmətdən çox, təsəvvüf və ürfan daşıyıcısıdır. Buradakı "qəm" anlayışıyəqin ki, əsl mahiyyətdən xəbərsiz olmaqdan doğur, "hikmət" isəbuhavadangələn ağır,təmkinliduyğulara şamiledilə bilər.Lakin xüsusilə vurğulamaq lazımdır ki, hikmətlə ürfan ayrı-ayrışeylərdir. Hikmət əxlaqı,ağlınnəfsdənüstünlüyünü, qarşılıqlıehtiramı və saysız-hesabsızbucür insanikeyfiyyətləriöyrədənbirelmdir. Ürfanisə ilahieşqin insanlardavə nəsnələrdətəcəllasını göstərən, bu gerçəklərin dindən sonra gələn, din içindədin kimitəsbitedilən mərifətelmidir. Bunlarçoxfərqlianlayışlardır.Elmiateizminuzunbirmüddəthakim olduğuməkanvə məfkurələrdə dini-mistik, xüsusilə də ürfanidəyərlərdiqqətdən kənarda qalmışdı. Bu səbəbdən də istər klassik yazılıədəbiyyatda, istərsə də şıfahi xalq yaradıcılığındatərənnümedilən təsəvvüflə,ürfanla əlaqəli fikirlərin məhzhikmətolaraqqəbul edilməsi təbii bir haldır. Nümunə olaraq qeyd etmək olar ki,məsələn,Şərqklassikasının dahilərindən olanSədi Şirazininfəlsəfəsi hikmət elminə, Hafizin şeirləri isə ürfan elminə aiddir.YaxuddaustadAşıq Ələsgərin dini, əxlaqimövzudakışeirlərihikmət,təsəvvüf,İlahieşq, həttadinifundamentalistlərtərəfindənqətiyyətlə rəddedilən mədhiyyə və vəsfi-hallarıisə ürfanidəyərlər kateqoriyasına daxildir.

Yuxarıdaadından bəhsetdiyimiz "Ruhani"sazhavası buanlamda daha qədimdə "Ürfani" adını daşıya bilərdi. Belə olduğu təqdirdə buhavanın çalğı üslubuda buhavaüstündə oxunanşeirlərinməzmunu da fərqli mahiyyətə yönəlir. Üstəliknəzərəalsaqki, sazdanbirzamanlartəkyə və

xanəgahlardaistifadəolunmuşdur, ozaman uzunkəlamların,zikrlərin pillə-pillə vədinamik şəkildə inkişaf edən semahların mövcudluğu bu cür sazhavalarının daha uzun çalınıb oxunmasından xəbər verir. Ritualxarakterli bukeyfiyyətlərin tarixi dahaqədimlərə – mifikdüşüncə tərzininmövcudolduğu zamanlaragedibçıxır. Bubarədə A.İslamzadə yazır: "Mifritualhadisə olaraqavazın(musiqinin), sözün(bədii-epikifadənin)və yaxudsözsüzlüyün(mimika və pantomimika) və rəqsin sinkretik əlamətlərini özündəcəmləyirki, buradamifinancmənbəyikimi əsas səbəbrolunuoynayır, ritual ifadələnmə isə janr spesifikasını ortaya çıxarır.

Yuxarıdaqeydetdiyimizkimi,buvəziyyət, yəni sazlakəlamoxuyub, semahlaretməkbugün əksəriyyəti xətaiçidərvişlərolan AnadolununCəmevlərində müşahidə edilməkdədir. Buanalogiyanıaparmaqdaməqsədimiz odurki, sazınvəsazhavalarının ürfanla,təsəvvüflə bağlılığı tarixdə qalmış,zamanı keçmiş bir şey deyil. Əksinə, biz bu dəyərlərə çox təəssüfki, hələ də sahib çıxmamaqla milli mənəviyyatımızın çox mühümbir atributunu get-gedə əldən veririk. Bu dəyərləri bərpa etməyinyeganə yolu bu məsələnin elmi-nəzəri konsepsiyasını hazırlayıb,xüsusi tədris formasında onu aşıq və sənətkarlarla paylaşmaqdır.Bu proses folklorçularla, sənətşünaslarla birlikdə reallaşmalıdır.Yuxarıdaqeydetdiyimiz uzunhavaların yoxluğunun ənümdə səbəblərindən biri də sazın, aşıqlığın məkan dəyişdirməsi,yəniruhanidairələrdən qopub, məclislərə,toylara, konsert salonlarına düşməsidir. Bizim qənaətimizə görə, buhal inki-şafdan çox, mənəvi, məfkurəvi geriləmədir.

Sazhavaları içərisində qədimliyivə dərinliyi ilə seçilənhavalardan biridə elarasında"Mansırı" adıilə məşhurolanhavadır. Bəri başdan söyləmək istərdik ki, bizim fikrimizcə, buhavanın əsl adı "Mənsuri"dir. Yəni, "Ənəlhəq" kəlməsiylə daraçəkilib, tarixə düşən Hüseyn ibn Mənsur Həllacın

adı ilə bağlıdır.Əlbəttə, bufikirsubyektivkimigörünə bilər. Lakin üzərindətədqiqatapardığımız mövzununkontekstindənbaxdıqda buqədimmusiqinümunəsinindaxilidinamikası,heçdə hərkəsətanışolmayan və hamınınzövqünü oxşamayan intonasiyavəmelodikquruluşamalikolması "Mənsuri"sazhavası haqqındaürfani duyğulardan çıxış edərək, fərqli fikirlər söyləməyə imkanverir. Burada başqa bir faktor isə, "Mənsuri"nin bənzəri olan vəbugündə müxtəlifsufitəkyələrində tənburvə sazilə çalınıboxunan zikrvə kəlamhavalarıdır. Bunlarıniçərisində xüsusiləNemətullahivə Qadiritəkyələrində,eynizamanda Əhli-Həqqcəmlərində türkcə, goranca və Ərəb dilinin Cənubi İran (Bistam,Şüştər,və s.bölgələrdə işlənən) ləhcəsində oxunan "BabaTahiri", "Cilovşahi" havalarıdır. Bu musiqilər ümumşərq mədə-niyyətinin cizgilərinə daxil olduqları üçün əsasən iki simli tənburalətində çalınır. Məhzbuhavalarınquruluş,tembrvə məzmunbaxımından Azərbaycan saz havası olan "Mənsuri"yə həddindənartıq yaxın olması bu saz havasının qədim köklərindən və tarixifəlsəfi əlaqələrindən xəbər verir.

***Namazı saz ilə qılsın, duanı ah ilə aşiq,***
***Axan hər damla göz yaşı onun həmdü səna olsun.***

Xanəgahdazikrlərürəkdöyüntüsükimiçırpınır.Bəlkə də ürkələrdurub,çırpınanzərbi-zikrdir.Çünki,dərvişlərinvücudu zahirəntəkyədədir. Əslində isə,oradabulunanşeyvəhdətin zərrələridir.Çöldəkihəyatıöldürüb,içəridəkihəyatıdiriltmək üçünfeiliyyətvə onunqədəmlərinieşqadınavücudagətirmək şərtdir.

Halnizamdadır.Zərbi-zikrahəngdarolmasa,halgəlməz. Əruzun bəhrləri ilə oynayan misralar məna və həqiqətləri nizam edir.MövlanaRumiyapdığısemahları,yaşadığıhallarıqələmə alıb:

***Yari-məra, bari-məra,***
***Eşqi-cigərxari-məra...***

İnsanbumisralardamənaaxtarmır,çünkibunazamanıqalmır.Ah əngvə nizamvücudubiraniçində semahagötürür.Üstəlik, dəflərin və əllərin zərbi zikrə ahəng, ahəngə hal qatır.Zikr nə şeirdir, nə də musiqi. Zikr nə formadır, nə də məzmun. Zikrdə məna axtarmağın özü belə halı pozan ilk şeydir.Ağılla zikrə oturmaq olmaz. Ağlı, məntiqi, mənliyi, varlığı ayaqqabıkimiqapıdasoyunub,sonraxanəgahagirməkşərtdir.Əks halda pərtöv və hal o məkandan yan keçər. Bu, başqalarını da hüsrana uğradar.Əgəreşq əhlininhalımüştərəkdirsə,deməliqalıda müştərəkdir.Qalıçöldə halıiçəridə paylaşmaq ərkandırvə lillahdır.

Təkyə,ictimaiməsələlərinçözülə bildiyiməkandeyildir.Bunun üçün "came" (ictimai yer) adlanan məscid var.Təkyəninçölüdərki-dünyalıqdır,içərisitərki-dünyalıq.Təkyəyə çöldən heç nə girmir. Amma içəridən çölə dünyalar axır.Məsciddə insanlariçləriniboşaldıbyüngülləşir,ammatəkyədə dolub ağırlaşırlar.

Mey saqinin əlindədir. Saqi mürşiddir.Nəzirxalqın əlindədir.Gedəcəkyeriisə şeyxinciblərididir.Buna görə də xalq məscidə dolu gəlib, boş gedir.Aşiqlərin sərvəti isə əlində deyil, könlündədir. Həmin könül meyxanəyə hərzamanboşgəlir.Onudolduranisə mürşidin bərəkətli nəfəsidir.Necə ki, Əhli-beyt (ə) şairi Ələmdar Mahir "aşiq" rədifli müxəmməsində Haqq aşiqlərini belə vəsf edir:

***Haqq aşiqinin dövlət ilə ülfəti olmaz,***
***Aşiq uya dünyaya onun şöhrəti olmaz,***
***Aşiqlərin imanı olar, sərvəti olmaz,***
***Dünyaya və dünya malına rəğbəti olmaz,***
***Ölsə qəbul etməz bu səbəbdən kəfən aşiq.***[115]

---

[115] Hacı Ələmdar Mahir, "Külliyat" Bakı, Adiloğlu-2009. səh. 291

Pirin nəfəsi saqinin sürahisi kimidir. Haradan dolduğu bəlli olmaz.Ammaqədəhləri,yəniaşiqkönüllərini heçzamanboş buraxmaz.

Əgəraşiqinkönlümeyxanədənboşçıxırsa,qədəhidolu deyilsə, illəti özündə aramalıdır. Şərab süfrədəydi.

Mürşidin nəfəsi rəhməti-İlahidir – bitib tükənməz. Üstəlik, müridlərbəndə olmadığıüçün onlara ədalətvə hökmdeyil, rəhmət və lütf müqabil olur. Bəndəlik halın eşiyindədir.

***Eşq ilə gəlin talibi-quyəndə olalım,***
***Zövq ilə səfalar sürəlim, zində olalım,***
***HəzrətiMövlanaya gəlin bəndə olalım,***
***Semah səfa, canə şəfa, ruha qidadır.***[116]

Haqq-Təalaxanəgahdaniçərimürşidinvücudundatəcəlla etdiyi üçün bəndəlik müridlikdir. Müridin isə, təmənna və istəyi dünyəviolmadığıüçünorada ədalətvə sorğu–sual yoxdur. Talibin tək təmənnası xidmətə layiq görülməkdir. Aşiq varlığını bitirməklə, bəndəliyinə də son verib.

Təklikdə varlıq var, vəhdətdə yoxluq.Məsciddə hər kəs şeyxin əlini öpür.Meyxanədə isə pirbaşdaolmaqlahərkəsbir-birinin əliniöpür.Ortadahərhansıbirvarlıqqalmır,mənlik,özəllikyoxaçıxır. Yox olan bir şeydən nəyi sorğu-sual edəsən?

***Bəndə cənnət təmənnasındadır. Buna isə layiq olmalıdır.***
***Mürid isə qulluq eşqindədir. O da buna layiq olmalıdır.***

Zikrin sədası könüldən gəlmir, könülə gəlir. Peyğəmbərlikbitdtyiüçünvəhydə bitdi.AllahMövladır. Mövla övliyaya təbdil olur. Hüccət şərt olduğu üçün övliya hər bir zaman

[116] Mövləvi ilahilərdən

diridir.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 117-127)

## MİSKİN ABDAL VƏ AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA İLAHİ EŞQ

***İqlimin şahıydı Həzrət Süleyman,***
***Ədalətə pənah idi Nuşrəvan.***
***Şıx oğlu İsmayıl, o cənnətməkan,***
***Düşməz ələ, bir yadigardı getdi.***

HəzrətiSüleymandan, Ənuşirəvanpadşahdanbəhsedənböyükarif sondaŞeyxoğluİsmayılınadınıçəkir. OnaeyniləAşıq Qurbani kimi “cənnətməkan” adını verir. Üzərində dayanmaq istədiyimiz mətləb sonuncu misradakı “yadigar” kəlməsi iləbağlıdır. Əvvəlcədən onu qeyd etmək istərdik ki, istər Aşıq Ələsgərin, istərsə də Miskin Abdalın şeirlərindəki ürfani məqamlara bizhədəfolaraq, yaxudda yerigəldi-gəlmədítoxunmuruq. Bütün bunlar üçün əlimizdə əsaslarımız var. Daha öncə də qeydetdiyimizkimi, bunlaradişeirnümunələrideyil. Onlar sənətkarlıqüçünvə yaşeirolaraqyazılmayıb. Əkstəqdirdə onları bu qədər incələməyə ehtiyac olmazdı və bu heç mümkün də olmazdı. Fəqət,mütəsəvvüflərinşeirdənbirvasitə kimi istifadə etdikləri inkarolunmazbirfaktdır. MiskinAbdalda belələrindən idi. Yuxarıdakı mənzum parçada onun Şah Xətaini “yadigar”adlandırması sırf“həqiqət”terminlərinə istinadedir:

***Mən Hüseyni məzhəbəm, Şahın qulu,***
***Yəni kim mənidir Allahın qulu.***
***Ey Xətai, padişah olmaz kişi,***
***Olmayınca uş bu dərgahın qulu.***

Bu tuyğuda Ş.İ.Xətai özünü İmam Hüseynin (ə) davamçısı və Həzrət Əlinin (ə) xadimi olmasını qeyd etməklə yanaşı Haqq dərgahının qulu olduğunu vurğulayır və islamın dörd qapısından bəhs edir:

***Anadan pur kamal olub,***
***Şəriətə tapınmışam.***
***Din yolunda Abdal olub,***
***Təriqətə tapınmışam.***

***Miskin günüm gəlməz saya,***
***Qismətimdi ismət, həya.***
***Qulluq edib tək Xudaya,***
***Mərifətə tapınmışam.***

***Miskin Abdal Tanrı qulu,***
***Qəlbindədir Haqqın yolu.***
***Ululardan daha ulu,***
***Həqiqətə tapınmışam[117].***

Miskin Abdal da Ş.İ.Xətainin əslində İmam Hüseynlə (ə) eyniruhun daşıyıcısıolduğunu bəyanedir. Onu da xatırladaqki, təsəvvüfdə İmamHüseynin (ə) birkünyəsidə "Hüseyni-Yadigar"dır. ŞahXətainin özünün **"AnamdırFatimə, atamdır Əli"** kimitanınanməşhurbir misrasını hərhansı şiə fanatizminin nişanəsi olaraq deyil, məhz yuxarıdakı sistemlə izah etmək daha doğru olardı.

Bizimməqsədimiz Azərbaycan xalqyaradıcılığında özünəmühüm yer tutan təsəvvüf və ürfan qaynaqlarını mümkün qədərüzə çıxarıb, təhlil etməkdirki, bunadamisalgətirdiyimizmənzumələrin köməyi ilə nail olmaq

117 Misgin Abdal

mümkündür.

***Aşiq olub tərki-Vətən olanın,***
***Əzəl başda pür kamalı gərəkdir.***
***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmindən halı gərəkdir.***

Bu formatdakı "aşiq", bəzilərinin ifadə etdiyi kimi, "aşıq" – sənətkardeyildir. Tərki-Vətənliyi aşıqlığa,sənətkarlığabağlayanlar yanlışayolverirlər. Buyanlışlığınsəbəbi isə, AşıqƏləsgərpoeziyasının əksərtədqiqatçılarının beynində əskiSovetlərdönəmindənqalma bayağı "xəlqilik"və "realizm"idi.Bu "xəlqilik" də, "realizm" də əslində elmi ateizmə söykənirdi.Elmiateizminkökündə isə təkamül nəzəriyyəsivə paradoksalmaterializm dayanırdı. Bu keyfiyyət, təbii olaraq, bütün klassiklərimizkimi, Aşıq Ələsgərpoeziyasının araşdırılmasındada öz"xidmətlərini" göstərmişdir. Bugününözündə də bizbudə-yərlərə qeyri-materialist və yalançı xəlqilikdən (sinfilikdən) uzaqbirtərzdə yanaşdığımızda kəskintənqidvə anlaşılmazlıqla üz-üzə gəlirik. Bununhələ uzunbirmüddətdavamedəcəyiqənaətindəyik.

Aşıq Ələsgərin"aşiq" deyə təbiretdiyibədiiqəhrəmanonunözüdür. O,özüdə bumənada Aşıq Ələsgəryox,Aşiq Ələsgərdir. Onunbu"aşiqliyi"də materialisttədqiqatçılar tərəfindənyanlışanlaşılıb. UzunmüddətAşıq Ələsgəröz böyüksələfləri kimi, "el-oba gözəllərinin aşiqi" olaraq təqdim olunub.

Qadıngözəlliyinin davamlı məddahıkimitəbliğolunan əksərklassiklərimiz bu mənada öz "nəsibini" almışdır.Fəqət,bu əyriliyidüzəltmək, buməntiqsizliyiyolunaqoymaq bir o qədər də asan məsələ deyil. Artıq şüurlara hopmuşbu mənzərəni silib atmaq müəyyən zaman və israrlı araşdırmalartələb edir.

Aşıq Ələsgər "aşiq"liyiməhztərki-Vətənliyə bağlayır. Bu aşiqlik heç şübhəsiz ki, dərvişlikdir. "Tərki-Vətən"lik isə bir növ tərki-dünyalıqdır. Əgər biz bu misranı **"dərviş olub tərki-dünya olanın"** kimi təbir etsək, sanki mənanın qabığı sınır və içindəki cövhərortayaçıxır. Əlbəttə, ustadaşıqbumisranıhəmin formada da təqdim edə bilərdi. Ələsgər kimi cürətli bir arif üçün burada gizlədiləsi heç nə yox idi. Lakin, "aşiq olub tərki-Vətən olanın"deməklə,Aşıq Ələsgərdahagenişmənalarıifadə edir.

Zənnimizcə,buradakı"Vətən"sözü birneçə anlamdadüşünülə bilər. "Vətən"buradaaşiqinmənsubolduğudaxili,mənəvi dünyadır. Buradao,doğma, özdüşüncələrində haqlıolanbir Adəmövladıdır. Fəqət,təsəvvüfdə "özündənimtina" deyilənşeyin içində sıralanan şərtlərarasında özünə doğmalıqdan,dünyəvi hüzur və səadətdən, keçici rahatlıqdan qoparaq, bir aşiqmisalı haqqınvə haqlıolmağınhərzaman məşuquntərəfindəolduğunaetiqad kimi nəsnələrsərgilənir. "Tərki-Vətənlik"bumənada özündən imtinadır.

Misradakı "Vətən" kəlməsinin ürfani mətləblərlə bağlı dahagenişvə inandırıcıizahı Vətənanlayışının Haqq dərgahı olmasındadır. Haqq dərgahışəriətelmində ədalətinvə mizanınkürsüsü, məşhərayağındabəşərövladının öz əməlləriiləüzləşəcəyi bir yerdir. Bunlar həmin mənada, yəni mərhələ olaraq,şəriət prinsiplərinə uyğun şəkildə doğru və məntiqlidir.Fəqət, təsəvvüfdəki Haqq dərgahı məhz vəhdətin məkanıdır.Vəhdət anlayışı, əvvəldə də qeyd etdiyimiz kimi, dində-şəriətdətovhid, yəniAllahıntəkliyi, vəhdaniyyətiüzərində qurulanbirməfhumdur. Təriqətdə isə vəhdət, insanla Allahın tək vücuddanibarətolduğunuinikasetdirən birməqamdır. Buməqamisəadətən xilqətöncəsinə,budünyadaisə, mərifətvə kamalzirvələrinifəthedən eşq əhlininmənənvə cismən yaşadığıvəhdəti-vücudaşamiledilir. Birmənada, dünyadakıvəhdət,xilqətdən öncəki vəhdətin aynasıdır, inikasıdır.

Ariflərin məqamındakıtərki-Vətənlik

dərgahdanqopub,dünyayagəlmək, anabətninə düşməkdir. Bu,ürfanilüğətlərdə"hicran"adlanır. Dünyaya gələn körpəninağlayışıda təsəvvüfiəsaslaragörə, həminhicranın əlamətlərindənbiridir. BütünbumənalardannəşətedənmisralarAşıq Ələsgərin dilində çoxarifanə səslənir.

Vətən anlayışının təsəvvüf ədəbiyyatında başqa bir deyimidə vardır. Budadivanmənzumələrində tez-tezrastgəlinən"kuyi-yar","kuyi-nigar","kuyi-dilbər"və başqa istilahlardır."Kuy" fars dilində "sinə", "qucaq" mənasındadır. "Yarın sinəsi","dilbərinqucağı" ifadələritəsəvvüflüğətlərində məhzHaqqdərgahı, Tanrıvəhdəti, Ələstbəzmi,dahasonratərkedilən,xatırlanıb yaşanan və dönülən yer anlamlarını ifadə edir. "Yar"burada şübhəsiz ki, Allahdır. Aşıq Ələsgərin Haqq dərgahına, vəhdət məkanına "Vətən"deməsi Muhəmməd Füzulinin məşhur misraları ilə səsləşir:

***Edəməm tərk Füzuli, səri-kuyin yarın,***
***Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim.***

Ammabəzitədqiqatçılar Aşıq Ələsgərinişlətdiyi "tərkiVətən" sözünün əslində "diyar-diyar" olduğunubəyanedirlər.Guya, Aşıq Ələsgər "Aşıq olub diyar-diyar gəzənin" deyib. Yəni,ustad aşıq diyar-diyar gəzən aşıqlardan (sənətkarlardan) bəhs edir.Buradan çıxan məna odur ki, diyar-diyar gəzən, toy-düyün quranaşığın "əzəl başda pür kamalı gərəkdir". Bu, tamamilə səviyyəsizvə böhtanxarakterliyanaşma tərzidir. Onlardeməkistəyirki,Vətənini,elini buqədərsevən Ələsgər nəyə görə "tərki-Vətən"olsun? Ozamanbizdə soruşuruq: "Toy-düyünqurmaq, xalqıəyləndirməküçün"pürkamal"olmağa nə ehtiyacvar?" Eləməntiqsizlikdə buradanyaranır. Bizə görə buməntiqsizlik,bilgisizlik və ideoloji boşluqdan törəyir.

***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdir.***

Buradakı"ədəb"ifadəsidə bizə görə,termindir. Çünkisonrakı misrada buna uyğun olaraq, "mərifət elmi" ifadəsi işlənir."Ədəb" sadəcə, ədəbli,tərbiyəliolmaqdeyil. Bunlarürfandabəsit mənalardır. Ürfani ədəb, ilk növbədə, Haqqın hüzurundakıədəbdir. Arifüçünisə hərtərəf Allahınzühuru,Haqqıntəcəllasıdırki, zatən"mərifət"elə xalqdaHaqqıgörməkdir.Xalqın önü Haqqın önüdür. Allah hər zaman xalqın içində təcəlliedə bilər. BumənadamömininqibləsiMəkkə,aşiqinqibləsikönüllərdir. Əslində Allah xofu deyilən şey iman əhli üçün qeyrimüəyyən,göylərdəngələ biləcəkhansısa bəla anlamınagəlir. Təriqətdəkixofisə, məhz qeybaləmindəkisirrlərin xalqın,insanların içində gizləndiyinə olan inamdır. Yəni hər kəs Allahınməzhəridir. Birisinə zülmetsəndə onaxidmətetsəndə hərikihaldaAllahlaüzbəüzsən, hərikihaldaonunqəlbində gizlənənAllahı görəcəksən.

***Mərifət elmindən dolu gərəkdir.***Mərifətelmindəndoluolmaq, ürfanıbaşavurmaq,"həqiqət"məqamınayetişməkdir. Yəniburadakı"dolmaq"kamilliyə işarədir. Aşıq Ələsgərsətiraltımənalarla təkamülpillələrini çox gözəl və incə şəkildə izah edir. Elə buna görə dəsonrakı bəndlərdə deyilir:

***Xalqa həqiqətdən mətləb qandıra,***
***Şeytanı öldürə, nəfsin yandıra,***
***El içində pak otura, pak dura,***
***Dalısınca xoş sədalı gərəkdir.***

Diqqətetsəkgörərikki, "mərifətelmi" sözündənsonra"həqiqət"kəlməsigəlir. Bizcə,məsələ aydındır. "Xalqa həqiqətdənmətləb"qandırmaq elə haqq əhli, Əhli-

Həqolmaqdır.Ustad aşıq bəlkə də bu sıralamanı xüsusi olaraq, məqsədli şəkildədüşünməmişdir. Çünki,bəlağətindəndə görünürki, buşeirböyük ilhamın məhsuludur, bəlkə də bədahətən deyilmişdir. Bumənada düşünməkolarki, Aşıq Ələsgərburada təsəvvüfmərhələlərini sıralayaraq, bu qədər incə və dəqiq şəkildə təqdimetməmişdir. Lakinbütünbunlartəsadüfdə olabilməzdi. Onagörə ki, buradaməntiqikeçidlər oqədərgüclüvə səlisdirki,bunutəsadüf əsərihesabetmək ağılsızlıqolardı. Buməntiqvənizam ustadaşığın özdaxilipotensialındandoğanbəhrələrdir.Hərşeyiağılla, idrakla düşünmək elə təsəvvüfün özünə yaddır.Ağılın da idrakın da fövqündə qəlb, hal və həvalə dayanır. QəlbAllahınməkanı, halXaliqinseyri,həvalə isə buseyringəlməşəklidir. Bucürmürəkkəbbirsıralamanı əlbəttə ki, təsəvvüfalimi olmayan Aşıq Ələsgər ağıl və idrakla fəhm edə bilməzdi.Əslində eşqinidrakı aşağımərtəbədir. Eşqiyaşamaqisə dahaüstünməqamdır. Əksərhallardavəcdinvə halınnə olduğunudərk edənlər onu yaşamayanlardır. Aşıq Ələsgər isə bu eşqi, buhalı yaşayanbirisiolmuşdur. Əkstəqdirdə bucür qüvvətlivəsərrastnəticəyə varmaqqeyri-mümkündür. Hərçəndki,ustad"mərifət elmi" ifadəsini işlətməklə bu mətləblərin həm də elminə,quruluşuna varidolduğunaişarə vururki, bununözüdə çoxmaraqlıvə müəmmalıdır. Birdahaqeydedəkki, təsəvvüfmətləbləri ilə bağlı həmin dövrdə Göyçədə nələrin baş verdiyini biz bilmirik.

***Danışdığı sözün qiymətin bilə,***
***Kəlməsindən ləlü gövhər süzülə,***
***Məcazi danışa, məcazi gülə,***
***Tamam sözü müəmmalı gərəkdir.***

Aşıq Ələsgər burada mətləbi daha da dərinləşdirir. Belə ki,budəfə söhbətməcaz elmindəngedir. Məlumdurki, bütünmətləblərməcazvə həqiqətüzərində qurulur. Məcazhəqiqətigizlədir. Bəzənisə həqiqətinzahirinə, şəklinə çevrilir. AşıqƏləsgərinişlətdiyi "məcazidanışa, məcazigülə"ifadəsi isəbirbaşa"rindlik" deyiləntəsəvvüf termininə işarədir. "Rind"sözü ürfanilüğətlərdə (mənalarda) həqiqətieyhamla,işarə iləbildirmək, davranışvə baxışlarıilə bəzəncəlbedici, bəzəndəitələyici olabilməkvə digərkeyfiyyətlərdir. "Rindanə"olmaqməhzbu nəsnələrə sahib olmaqdır. Klassik ədəbiyyatda işlənən "rindi-xərabat"ifadəsi məhzməcazelmini daşıyabilənlərəişarədir. Daxilində həqiqətgəzdirməyənin məcaz elminidaşımağa ehtiyacı yoxdur. O, zatən məcazidir. Ürfandakı məcazisə aldanışdeyil, müəmmavə rindlikdir. "Rindi-Xərabat"sözü"xərabat"ın, yənizahirdə təkyə və xanəgahın, batində isə mənavə həqiqətin məkanının"rind"i, təmsilçisi mənalarındadır.Buradakı "xərabat" xarab olmaq, dağılmaq anlamında işlənir. Budeyim tərzi başqa bir formada "viranə"dir. Viranə də xərabat daiçində gizlətdikləri mənəvi xəzinələrin qoruyucularıdır. Nağıl vəəfsanələrdə rast gəlinən uçuq-sökük,dağınıqyerlərdə olanxəzinələr əslində, öz həqiqi mənasında sınıq ürəklərdə, qırılmış,parçalanmışkönüllərdə yatanxəzinələrdir. Məcazelminin, bukeyfiyyətlərbaxımından təsəvvüf ərbabıüçün vacibolmasınıAşıq Ələsgər xüsusiolaraqvurğulayır. Hətta bunuşərtolaraqdəyərləndirir. Ümumiyyətlə, ürfani poeziyadaşərtilik mühümamildir. Ədəbin, ərkanın, yolun şərtləri bu yolun apardığı hədəfəyetişməkdə əvəzedilməz nəsnədir.

***Arif ola, eyham ilə söz qana,***
***Naməhrəmdən şərm eyləyə, utana,***
***Saat kimi meyli haqqa dolana,***
***Doğru qəlbi, doğru yolu gərəkdi.***

Arifineyhamıhəminrindlikdirki, ustadaşıqonu məcaziyolla bildirməyi və anlamağı tövsiyə edir.Eyhamişarədir. İşarə isə məcazınbirelementidir. Məcazidanışmaq elə eyhamla söz qanmağın başqa bir üzüdür. Eyham daşərtdir, çünki, dərvişlərin dili ilə desək, "ətraf aləm naməhrəmlə,yadla doludur". Aşıq Ələsgərin

***Naməhrəmdən şərm eyləyə, utana –***

– misrası bubaxımdandəyərləndirilməlidir. Buradakı"naməhrəm" həqiqətin və ürfanınsirlərinə bələdolmayanlardır.Onlardançəkinmək,utanmaq özüdə birnövrindlik,birnövməcazdır.Fəqət bu misradakı "naməhrəm" sözünü adət olunduğu üzrəməhrəm olmayan qadınlar, qızlar kimi başa düşmək yersiz olardı.Təbiiki,Aşıq Ələsgər paknamusvə iffətdaşıyıcısıidi. Lakin"naməhrəm"sözünü bumənada,özüdə buyerdə işlətməkağlasığandeyil. Ənazındanonagörə ki, buradamisralarvəbəndlər bir-birilə əlaqəli, biridigərini tamamlayıcışəkildədir.Dərinürfani mətləblərdənbəhsedərkən, birdən-birə hərkəsəaydınolan əxlaqməsələsini şeiriniçinə salmaq birqədərinandırıcı görünmür. Bir cəhəti də vurğulayaq ki, birinci misradaariflikdən, ehyamdan, gizlilikdən danışılır. İkinci misrada bunundavamıolaraq naməhrəmifadəsininişlədilməsi məhzhəmingizliliyə, məcaza, arifliyə yetişmək üçün naməhrəm olanlardançəkinmək kimi tövsiyə olunur.

***Saat kimi meyli haqqa dolana...***

Bu misra da özlüyündə çox maraqlı və orijinaldır. Bir sualortayaçıxır: Saatınmeylinə səbəbə haqqadoğrudur? AşıqƏləsgər burada elə bir nöqtəyə təmas etmişdir ki, insan heyrətədüşməyə bilmir. Saatzamanın əlamətidir. Zamanıngedişiisəhəyatınbitişidir. Həyatınsonuölüm,ölümün

sonrası Haqqaqovuşmaqdır. Beləliklə, zaman keçdikcə biz Haqqa yaxınlaşırıq– bununfərqinə varsaqdavarmasaqda.Ammasaatözüözəqrəblərini sonadoğru,intəhaya,fənaya,dolayısıilə Haqqadoğru çəkməklə, bunun fərqindədir. Bu mənada Aşıq Ələsgərin ifadəsi ədəbi-fəlsəfitapıntıdır. Elə sonrakı "doğruqəlbi,doğru yolu gərəkdir" misrası da həmin Haqq yolunu, Haqqa gedən yolu göstərir:

***Ələsgər, haqq sözün isbatın verə,***
***Əməlin mələklər yaza dəftərə.***
***Hər yana istəsə baxanda görə,***
***Təriqətdə bu sevdalı gərəkdi.***

Son bəndin yükü çox ağırdır. Birinci və ikinci misralar bir az ənənəvi və xüsusiizahaehtiyacıolmayan misralardır. Lakin üçüncümisradakı "həryanaistəsə baxandagörə" ifadəsi sırfmənəvi ucalıq və kamilliyin bəhrəsi olan qeybi görmək, başqalarının varidolabilmədiyi sirlərə sahibolmaqqavramındadır.

Qeybi görmək zahiri gözlə mümkün deyil. Çünki başda olan gözün funksiyaları məhduddur. Qeybi, görünməyəni görmək isə könül gözü ilə mümkündür. Şəriətdə,Təriqətdə,Mərifətdə,Həqiqətdə batiniseyrlər edən ustadaşığınsevdası onun yolu – təriqətidir. BunuAşıq Ələsgər çox ustalıqla mənalandırmışdır.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 78; 83; 176-180)

## AŞIQ QURBANİ YARADICILIĞINDA İRFANİ MƏQAMLAR

Haqq Aşiqi, el şairiDirili Aşıq Qurbani XVI əsrdə yaşamış, haqq aşiqlərindən biri olmuşdur. Aşıq Qurbani el sənətini xalqa daha yaxın etmiş, eyni zamanda xalqın arasında yaşamış, saz-

sözməclislərindəşairlərlə birlikdə olmuşdur.Bu səbəbdən də Aşıq Qurbanini «Dədə Qorqud zərrəsi» hesab edirdilər.Əgər Dədə Qorqud bir çox cəhətdən Homerin yaşıdıdırsa, Aşıq Qurbani, Muhəmməd Füzuli vəŞ.İ.Xətaininmüasiri hesab olunur.

Haqq Aşiqi Qurbani Ş.İ.Xətaidən bir qədər əvvəl dünyaya gəlmiş və mürşidi-kamili hesab etdiyi könüllər sultani Ş.İ.Xətaidən çox yaşamışdır. Əgər Ş.İ.Xətainin qısa ömrü ilə bağlı bir sıra izlər olmasaydı demək olar ki, Qurbani yaradıcılığı qaranlıq qalar, bu günə qədər gəlib çatmazdı.

***Mürşidi-kamilim, Şeyx oğlu Şahım,***
***Bir ərzim var qulluğuna, Şah, mənim!***
***Əziz başın üçün oxu, yazğumu,***
***Agaholhalımdangahbagahmənim!*** (Qurbani.səh.113)

HəmidAraslı «Azərbaycanədəbiyyatıtarixi»ninilknəşrində (1943) AşıqQurbanininbu «Ustadnamə»sindəndanışarkənonunhaqqındabeləməlumatverir: «BuqoşmadaQurbaniözşikayətlərinisəmimiolaraqŞ.İ.Xətaiyəsöyləy ir».

HaqqAşiqiQurbaniŞ.İ.Xətainiözününsultanıvəmürşidihesab edirvə «Gəldim» rədifliustadnaməsindəşahaolansəmimiməhəbbətiniizharedir:

***Mən haqq aşiqiyəm, haqq yola mail,***
***Kitabım Qurandır, olmuşam qail.***
***Ey mənim Sultanim, Şah İsmail,***
***Dərdimin əlindən fəryada gəldim.*** (səh. 4).

Aşıq Qurbaninin yaradıcılığına nəzər saldıqda görürükki, o, həqiqətən haqq aşiqi olmaqla yanaşı səmavi kitabımız olan Qurani-Kərimə sadiq olmuş və Quran ayələrindən bəhrələnərək

gözəl ustadnamələr yaratmışdır. Bu ustadnamələrdən birini şərhi iləəziz oxucuların diqqətinəçatdırırıq:

***Haqqım əmr eylədi, gəldim dünyaya,***
***Gözümaçdım, mailoldumobürcə.***
***Arifoldum, həqqkəlamınoxudum,***
***Əlifqəddimdalyazılmışobürcə.***

***İsminxəbəraldım, dediVəlidi,***
***GöydəgəzənCəbraildi, Pəridi.***
***QapıçısıŞahi-MərdanƏlidi,***
***MuhəmmədMeracagedərobürcə.***

***Qurbanider: «Arayıbantapmışam,***
***Qırxlarməclisindənbirpayqapmışam,***
***Kəbədisə, məndəbirinyapmışam,***
***Minkönüldənbiryolgedərobürcə».*** (səh.136).

Birinci bənddə Haqq Aşiqi Qurani-Kərimin «Ya-Sin» surəsinin 82-ci ayəsinə istinad edir. Ayədə buyurulur: «Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: «Ol!» deməkdir. O da dərhal olar». Bu ayədən belə aydın olur ki, Allah – taala əgər bir şeyi yaratmağa iradə etsə, bircə kəlmə «Ol»deməsi kifayətdir. Əşrəfi-məxluqat hesab olunan insandan tutmuş kiçik həşəratlara qədər Allah- taalanın bir «Ol» ifadəsi kifayətdir. Bu qəbildən olan ayələr Qurani-Kərimdə bir neçə yerdə gəlmişdir.Məsələn «Bəqərə» surəsinin 117-ci ayəsində belə buyurulur: «Bir işin yaranmasını istədiyi zaman(o işə) yalnız «Ol» deyər, o da (dərhal) olar». «Nəhl» surəsinin 40-cı ayəsində Allah-taala belə buyurur: «Biz hər hansı bir şeyi(yaratmaq) istədikdə sözümüz «Ol» deməkdir. O da dərhal olar».

Həzrət Əli(ə) xütbələrəinin birində bu sözü bir neçə cümlə ilə

beləşərh etmişdir: «Olmasını istədiyi hər bir şeyə «Ol» deyir və o, mövcud olur. Bu söz nə qulaqlara daxil olan səs vasitəsi ilədir, nə də eşidilən harayla. Pak və münəzzəh olan Allahın kəlamı, Onun yaratdığı işindən başqa bir şey şeyil. Onun bənzəri bundan qabaq mövcud olmayıb.

Bu məsələyə dair olan incə mətləblərdən biri budur ki, əgər tələffüzə ehtiyac varsa onda iki irad və müşkülləüzləşərik. Birincisi budur ki, bu tələffüzün özü də bir məxluqdur və o kəlməni xəlq etmək üçün də yeni bir «Ol» sözü lazımdır. Eləcə də sonrakı «Ol» sözüüçün bu söz lazımdır. Bu da sonsuzluğa gedib çıxır. Buna fəlsəfədə «təsəlsül» deyilir ki, bütün alimlər yekdilliklə «təsəlsül»ün batil olduğunu demişlər. İkincisi isə budur ki, hər bir xitab üçün bir müraciət olunan olmalıdır. Heç bir şey xəlq olmamışdan qabaq necə ola bilər Allah «Ol» kəlməsini xitab edə? Məgər vücudu olmayan şeyə xitab etmək mümkündürmü? Deməli, yaratmaq üçün tələffüzdən istifadə olunmamışdır» (Təfsiri-nümunə 18 cild.səh.472; S.Ə.Ocaq Nejad «Ya-Sin» surəsinin təfsiri.səh.549-551).

Görkəmli Əhli-Beyt(ə) şairlərindən olan Hacı Yusif Qulam-mirzə oğlu bir qəzəlində bu ayələrə istinad edərək yazır:

***Rəbbində olan möcüzəyə-qüdrətə bir bax,***
***Bir «Ol» deməyilə o yaratdı belə xilqət.***[118]

İkinci misrada **«Gözüm açdım, mail oldum o bürcə»**-deyərkənHaqq Aşiqi «Büruc» (Bürclər) surəsinin birinci ayəsinə istinad edir: Ayə belədir: «And olsun səmayə və bürclərə». Bu ayənin təfsirində böyük müfəssir İbn Əbbas nəql edir ki, mən peyğəmbərdən eşitdim ki, peyğəmbər (s) buyurdu: «Mən asimanam, Əhli-beytimdən olan imamlar isə onun bürcləridir,

[118] «İlahidən gələn sevgi» səh-67, Bakı 2010, «Adiloğlu» nəşriyyatı

onlar 12 nəfərdir»[119]

Üçüncü misrada «**Arif oldum, Həqq kəlamın oxudum»-** deyərkən çox güman ki, Həzrət Əlinin(ə) bir hədisinə istinad olunur: «Mən ərəfə nəfsəhu, fəqət ərəfə rəbbəhu»- «Hər kim özünü tanıdı, Rəbbini də tanıdı». Seyid İmadəddin Nəsimi də bir «müxəmməs»ində bu hədisə istinadən deyir ki «Arifi nəfs olmayanbulmaz həqi, dedi Əli».[120]

AşıqQurbaninin "haqqkəlamı" deyərkən həm Quran ayələrini, həm də Əhli-Həqq kəlamlarını qovuşuq, vəhdət halında görübtəsviretməsi mümkündür.

Birinci bəndin dördüncü misrasında **«Əlif qəddim dal yazılmış o bürcə»** deyərkən insanın quruluşunun ərəb hərflərindən təşkil tapdığına işarə edir. İlk bəşər-Həzrəti Adəmin(ə) quruluşu «Əlif», «dal» və «mim» hərflərindən ibarət oldu. Bu da ona işarədir ki, namaz əsnasında insanın ayaq üstü duruşu «əlif»ə, rukusu «dal» hərfinə, səcdəsi isə «mim» hərfinə bənzəyir. Deməli Adəm sözünün bir mənasıyerin üst qatına işarədirsə, digər bir mənası da «namaz» qılmağa işarədir.

Məlumolduğukimi, Qurani-Kəriminbəziayələri (kiçiksurələri) namazqılınarkənistifadə olunur. Namazdanbəhsetməyimizinsəbəbi "Əlifqəddimdaleylədimoburca" misrasıdır. Məlumdurki,namazda ayaqdadurmaq("qiyam"), əyilmək("rükü"), səcdəyə getmək("səcdə") kimi məqamlar vardır. "Əlif" hərfi düz xəttə bənzədiyiüçün onu "qiyam"a, "dal hərfi isə əyri olaraq "rükü"yə bənzədiyiüçün Aşıq Qurbani burada həm də namaza işarə etmişdir. Klassikürfanestetikasında buhərflərə "mim" hərfidə əlavə olunaraq,"qiyam", "rükü" və "səcdə" olaraq, "Adəm" sözünə təşbeh olunmuşdur. Yəni "Adəm" sözü ərəb əlifbası ilə namaz qılan adamın sıra ilə hərəkətlərinə bənzəyir.

Ümumiyyətlə, bunabənzər

---

[119] Yənabiul-Məvəddət.cild 3, səh.253.hədis 59

[120] Ramiz Faseh, «Füzuli şeirində təsəvvüfü qaynaqlar» səh.202. Bakı, Elm nəşr.-2000

keyfiyyətlərşifahixalqyaradıcılığının ənmühümqollarındanolan aşıqyaradıcılığınaklassikürfanvə hikmətfəlsəfəsinin danılmaz təsiriolaraqkeçmişdir.Bu baxımdanAşıq QurbanidənAşıq Ələsgərə qədər gələn bir dövr ərzində (tarixin bütün keşməkeşlərinə, təbəddülatlarına rəğmən) ürfanvə təsəvvüf xəttiqırılmamışdır. Bu, əqidə və məslək olaraq, ustad-şagird ardıcıllığından daha çox, bir inam və yəqinlik məsələsiidi. İnancsistemiisə, "təriqət"və "mərifət"də, (eləcə də "həqiqət"də) eşqvə aşiqlikolaraq dəyərləndirilir. Bu mənada mütəsəvvüflərin dünyagörüşündəki qəliblər vəəlamətlər çox zaman şəriət və din ehkamları ilə üst-üstə düşmür.

Onagörə də ürfan əhlinin istifadə etdikləri qaynaqlarıdini vəşəriət məntiqini daşıyan ölçülərlə izah etmək yox, məhz ürfan vətəsəvvüfnümunələriilə müqayisə və təfsiretmək doğruolardı.

***İsmin xəbər aldım, dedi Vəlidi,***
***Göydə gəzən Cəbraildi, Pəridi.***
***QapıçısıŞahi-Mərdan Əlidi,***
***Muhəmməd Meraca gedər o bürcə.***

Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Cabbar Cəlil «Məhəbbət dastanlarında Sufiliyin izləri» sərlövhəli məqaləsində bu bəndin birinci misrasının «Bəktaşilik» təriqətinəşamil olduğunu qeyd edir və bildirir ki, «İsmin xəbər aldım, dedi Vəlidir» ifadəsində «Bektaşi» təriqətinin banisi Hacı Bektaş Vəli nəzərdə tutulur.(Dədə Qorqud 2013/3.səh.77)

## HACI BEKTAŞ VƏLİ KİMDİR?

Hacı Bektaş Vəli böyük övliyalardan biri olub, mürşüdlik

məqamına sahib olan və bir çox mürüdlər yetişdirən Allah dostlarındandır. Cənubi Azərbaycanın Həmədan vilayətində yaşamış Ağayi Həbibi İsmətəli müridlərindən biri olan Ağayi Novruza danışarmış ki, Bektaşi əslən cənubi Azərbaycandan olub, sonralar müəyyən səbəblərə görə Türkiyəyə getmiş və orada bir bəyə nökər olmuşdur. Bektaşi qısa bir müddətdə bəyin xüsusi hörmət və ehtiramını qazanmışdır. Bəyin övladı olmadığıüçün Bektaşini özünəövladlığa qəbul etmişdir. Bektaşi bəyin bütün işlərini ədalətlə icra edərmiş, hətta, bəyin saxladığı mal-davarın altını təmizlədikdən sonra çala-çökük yerləri doldurar, sonra isəçuxaya bürünüb həmən çökük yerləri hamarlayarmış. Bəy bunları görəndə ondan sual edərmiş ki, niyəözünə bu qədər əziyyət edirsən, Bektaşi deyərmiş: «Biz onların ətindən, südündən qidalanırıq, bəs onların yeri gərək rahat ola». Bektaşinin heyvanata olan bu məhəbbətinə bəy qibtə edir. Bir müddət keçir, bəy Həcc ziyarətinə yola düşür. Getməzdən əvvəl ailəsini kimə tapşıracağını düşünən bəy onu nəöz qohumlarına, nə də xanımının qohumlarınna etibar edə bilməyib nökəriBektaşiyəəmanət edir. Onun qüsursuz xidməti və etibarına bələd olduğundan inanır ki, Bektaşi heç vaxt onun xanımına xəyanət etməz.

Xanım bəyin Həcc ziyarətinə gedişindən bir neçə müddət sonra südlü aş bişirib Bektaşi ilə birlikdə nahar edir. Elə ilk qaşığı ağzına aparanda xanım dərin bir «ah!» çəkir. Bektaşi soruşur: «Bu ahın səbəbi nədir?» Xanım bildirir ki, bəy bu xörəyi çox sevirmiş, indi yollarda görəsən istədiyini tapırmı? Bunu xatırladım ah çəkdim. Bektaşi deyir ki, bir qab çək, ona aparım, sən də rahat ye. Xanım xəyal edir ki, yəqin nökər yemək istəməyə utanıb, bunu fürsət bilib, ağasının adı ilə yemək istəyir. Amma, üzünə vurmayıb. İri bir mis camı yeməklə doldurub Bektaşiyə verir. Bektaşi onu götürüb yola düşür, gedərkən soruşur ki, ağasına başqa sözü varmı? Xanım yenə də bunu sadəlövhlük hesab edib təbəssüm edir. Təxminənon beş dəqiqəərzində Məkkəyəçatan

Bektaşi camı bəyəçatdırır və xörəyi ona verib bildirir ki, xanım bu xörəyi sevdiyini bildiyindən sənin payını göndərib. Bəy Bektaşiyə bildirir ki, barı qabı geri aparsın. Bektaşi deyir ki, gələndəözünlə gətir. Bir qədər sonra əliboş qayıdan Bektaşini görən xanım güman edir ki, Bektaşi qabı ona qaytarmağa utandığıüçün haradasa gizlədib. Düşünür ki, bir yerdən çıxar, üzünə vurmayım.

Vədə tamam olur, hacılar Həcc ziyarətindən qayıdır. Bəyi qarşılayan xanım heybədən çıxan mis camı görüb heyrətə gəlir. Onda bəy bütün ətrafa elan edərək bildirir ki, hacı o adam deyil ki, Həccə gedir, müqəddəsləri ziyarət edir. Hacı o adamdır ki, yolu göz qırpımında qət edərək istənilən anda hüzurda ola bilir. Sonra da Bektaşini bu fəzilətinə görə Hacı və Allahın dostu adlandıraraq Hacı Bektaşi Vəli (yəni Allahın dostu) deyir. Sonra onu öz yerinəözünü isə onun yerində qoyub bildirir ki, hər kəsin öz yeri var. Allahın dostunun qulu olmaq özü də böyük fəzilətdir və bu mənə yetər.

Bəli, bəy başa düşür ki, Hacı Bektaş Vəlinin məqamı ucadır vəəhli-həqqdir. Əhli-həqqin Kəbəyə yolu isəəhli- şəriətin Kəbəyə yolundan fərqlidir. Əgər, əhli-şəriət Kəbəyə zahiri yolla, maddiyyatla gedirsə, əhli-həqq batini yolla, qəlb, ürək yolu ilə və madiyyatsız gedir. Necə ki, əhli-həqq şairlərindən olan S.Ə.Şirvani bir qəzəlindəşəriət və həqiqət əhlinin bu dünyada getdiyi yolları və mənzilləri təyin edərək yazır:

***Göstərir məscidi zahid ki, bu iyman yoludur,***
***Bunu da bil ki, könül, meykədəürfan yoludur.***

***Kəbəyəəhli-həqqin batinidildəndi yolu,***
***Qeyriyolgetsənəgər, quli- biyabanyoludur.***[121]

[121] S.Ə.Şirvani.Qəzəllər, səh 203. Bakı, AND-1960

HacıBektaşVəlihəminvaxtdanmuridlərinəbeləbirnəsihətitöv siyəedir: «Yolumuzilim, irfanvəinsanlıksevgisiüzerinekurulmuştur. İlimdengedilmeyenyolunsonukaranlıktır».

**GöydəgəzənCəbraildi, Pəridi-** deyənhaqqaşiqivəhymələyiHəzrətiCəbraildən(ə) bəhsedərkənsevgilisiPərinidəvəhymələyinəbənzədir.

**QapıçısıŞahi-MərdanƏlidi-** deyərkənmömünlərağasıvəelmqapısıHəzrətiƏlidən(ə) bəhsedir. Haqqaşiqi, elm, mərifət, insaniyyət, səxavət, mərdlik, haqq-ədalətvəs. kimisifətlərəsahibolanmömünlərağası, islampeyğəmbərinin(s) haqqcanişiniolanHəzrətƏlini(ə) «mərdlərinşahı, ağası» adlandırır. Bubəndi «**MuhəmmədMeracagedərobürcə»** deməklətamamlayır**.**

Meracislampeyğəmbərinin(s) doqquzmözüzəsindənbiridir.BubarədəQurani-KərimdəAllah-təala «İsra» surəsininbirinciayəsindəvə «Nəcm» surəsinin 7,8,9,10-cuayələrindəmeracdanbəhsedib.

BizəzizislamPeyğəmbəriolanHəzrət Muhəmmədin(s) «meracı»nıqısadaolsaoxucularaçatdırmağılazımbildik:

«İsra» surəsi 1-ci ayə: «Pak və müəzzəhdir o Allah ki, gecə vaxtı bəndəsini (Peyğəmbəri) ona öz ayə və qüdrət nişanələrini göstərmək üçün Məscidül-həramdan Məscidül-əqsaya seyr etdirdi. O eşidən və görəndir».

«Ən-Nəcm» surəsində Peyğəmbərin (s) ikinci dəfəvəhy mələyini (Cəbrayılı (ə)) onun əsl surətində gördüyünü xatırlayandan sonra deyilir: «Peyğəmbərin (s) gözü səhvə uğramadı, o Allahın böyük nşianələrini gördü».

Bu iki ayə göstərir ki, həmin görünmə yuxuda deyil, ayıq halda olmuşdur. O ayələrin məzmununa diqqət etməklə aydınlaşır ki, bizim islami əqidəmiz «İsra» və «Ən-Nəcm» surələrinin ayələrinəəsasən budur. Peyğəmbər (s) bir gecədəöz cismi ilə

(maddi cismi) məscidül-Həramdan məscidül-Əqsaya və ordan da yuxarı aləmləri seyr etmiş, vəhy mələyini onun həqiqi surətində eynilə müşahidə edərək Allahın ayə və nişanələrinin əzəmətini yaxından görmüşdür. Merac barəsində xeyli hədislər mövcuddur. Həmin hədislərdən ikisini burada qeyd etməyi məqsədə uyğun sayırıq.

İmam Cəfəri Sadiq (ə) buyurub: «Dörd şeyi inkar edən şəxs bizim tərəfdarlarımızdan deyil.

1. Merachadisəsini;
2. Qəbirdəsorğu-sualı;
3. Behiştvəcəhənnəminmövcudolmasını;
4. Şəfaəti.

İmamRza (ə) buyurub: «HərkəsMeracıtəkzibetsə, Peyğəmbəri-Əkrəmi (s) təkzibedibdir».

ŞairlərinböyükustadıM.FüzuliyaradıcılığındadaPeyğəmbərin (s) meraca getməsinərastgəlinir. Şairqəzəllərininbirindəyazır:

***EyolubMeracbürhani-ülüvvü-şansana!***
***YerəenmişgöydənistiqbaledibFürqansana.***[122]

Beytinmənasıbelədir: «EyMeracməqamınınyüksəkliyinədəlilolanFürqan, (Quranınadlarındanbiridir, ərəbcəayıran, haqqıbatildənseçən) səniqarşılayıbgöydənyerəenmişdir».

M.Füzulininfikrincəməmduheləşərəflidirki, oyeroğluola-olasəmavikitabolanQuranonun (Muhəmmədi (s)) qarşılamaqüçünoucayerindən (Lövhi-Məhfuzdan) enmişdir.

«Fürqan» -QuraniKəriminadlarındanbiridir, həmçininHəzrətƏli(ə) dəhədislərdəFürqanadıilətanınır. Füzuliqəzəllərindəolduğukimibirçoxklassikşairlərinvəhaqqaşiqləri

[122]Əmin Sədiqi, «M.Füzuli Türkcə divanı»səh.6, Tehran 1996

ninyaradıcılığındabuifadəyərastgəlirik. Ş.İ.Xətainin «Məndədir» rədifliqəzəlində «Fürqan»danməqsədHəzrətƏlinin(ə) olduğunubildirir:

***Həqq-təala dörd kitabıgöydənendirdi yerə,***
***Mən anı istəməzəm, çün küllü- Fürqan məndədir.***

***Katiba, ağü-qəraya baxma, səni azdurur,***
***Aç qulaq, dinlə sözüm, avazi-Quran məndədir.*** [123]

Birinci beytdəşair dörd səmavi kitabın zahiri mənasından köməyi qəbul etməyərək, Quranın batinindən xəbərdar olan natiqi-Quran Həzrət Əlidən(ə) kömək istəyir və ikinci beytdəözünü də Həzrət Əlinin(ə) əqidə və məslək davamçısı olduğunu vurğulayır.

***İsmin xəbər aldım, dedi Vəlidi,***
***Göydə gəzən Cəbrayıldı, Pəridi –***

– misraları isə daha dərin mənalı mətləblərdən xəbər verir.Buradakı"Göydə gəzən Cəbrayıldı,Pəridi" misrası Meracəhvalatıilə bağlı dini rəvayətlərdəkibirməqamaistinadedir.Rəvayətdə deyilirki, RəsulallahAllahın əmri ilə MəkkədənQüdsə gəlir və oradan "Büraq" adlı bir məxluqla Meraca qalxır.("Büraq"haqqında Qurani-Kərimdə müfəssəlolaraqheçbir məlumat yoxdur. Yalnız onun adı çəkilir. Şəriət təfsirlərində isəBüraq başı adam, bədəni ata bənzər bir heyvan olaraq göstərilir.Bunlar əlbəttə ki, əfsanəvi rəvayətlərdir və gerçəyi əks etdirməyəbilər. "Büraq" haqqında həqiqətə daha yaxın fikir ondan ibarətdirki, busöz ərəbdilində "bərq", "bərraq" – işıqlı, işıq saçan(müasir ərəbcədə elektrik)

[123]Ş.İ.Xətai «Keçmə namərd körpüsündən», Şeirlər və poemalar, səh.52,Bakı «Yazıçı» 1988

anlamındadır. Bu da Büraqın bəlkə dəhansısa kosmik gəmiyə bənzər bir nəsnə olduğu işarətlərini verir.Qeydedəkki,bunlarbizimsubyektivfikirlərimizdirvəhəqiqətdə nuzaqolabilər). MeracdaAllahınRəsuluelə birməqama yetişirki, onu müşayiətedən əzəmmələkCəbrayılburadanotərəfə getməyə gücününyetməyəcəyini bəyanedir.AşıqQurbaniməhzbuməsələyə istinadedərək, Həzrət ƏliniMerac qapıçısıvə yaMeracınqapısı adlandırır. Yəni,onunməqamını mələklərdən də üstün görür.

***Qurbani der: «Arayıban tapmışam,***
***Qırxlarməclisindənbirpayqapmışam,***
***Kəbədisə, məndəbirinyapmışam,***
***Minkönüldənbiryolgedərobürcə».*** (səh.136).

Haqqaşiqi «Ustadnamə»ninsonuncubəndində «Qırxlarcəmi»ndənsöhbətaçırvəbildirirki, məndə «Qırxlarcəmi»ninbirüzvüyəm.

Göründüyü kimi, “Qırxlar” anlayışı bu mənzumədə kifayət qədəraçıqvə anlayışlıbirtərzdə ifadə olunmuşdur.Xüsusi olaraqvurğulamaqistərdikki,CənubiAzərbaycan ƏhliHəqlərində bu şeir **həqiqət** kəlamı kimi cəmxanalarda musiqinin müşaiyəti ilə zikr olunur. Yəni, “həqiqət” qatında Qurbaninin bir çoxşeirlərimərasimhavalarıolaraqistifadə edilir.Bu daonun bir Əhli-Həqolduğubarədəkifikirlərimizə müəyyənqədər qüvvət verir. Lakin, bir məsələyə də aydınlıq gətirmək istərdik ki,bizimfikrimizcə,Qurbaninintəsəvvüf ərbabıolması,yaxuddaƏhli-Həqliyivə ümumiyyətlə dərvişliyiŞahXətaidənayrıdüşünülə və təhlil oluna bilməz. İstər dastanda, istərsə də tarixivə məntiqimənbə və nəticələrdə Qurbaninin əhli-mərifətkimimövcudiyyətibirbaşaözmürşidi-kamiliŞahXətaidənbaşlayır.Buradaelmitəhlillərdən,tarixifaktlardan çox,ürfaniməntiqəhəmiyyətkəsbedir.Belə ki,istərfəlsəfi,istərsə də

tarixivəədəbi qaynaqlarda mahiyyəti sona qədər açıqlanmamış sufiyanəustad-şagirdardıcıllığıŞahXətaivə AşıqQurbanimünasibətlərində də öz əksinitapmışdır.

**Qırxlar cəmi barədə əvvəlki fəsillərdə geniş məlumat verildiyi üçün bu bölümdə həmin cəmin barədə qısa məlumatla kifayətlənəcəyik.)**

Əziz Peyğəmbərimiz Muhəmməd Mustafa (s) Meraca gedərkən yatıb yolu kəsmiş bir aslanla rastlaşdı. O an "əmim oğlu Həzrət Əli (ə) indi burada olasaydı, bunun öhdəsindən gələrdi"- deyə düşündü. Bu anda səs eşitdi: "Üzüyünü aslana ver".

***Mustafa gördü səni aslansifətli bir mələk,***
***Sahibi-meraci, həm tacı-livasan, ya Əli.***[124]

Peyğəmbər (s) üzüyünü çıxardı və aslanın ixtiyarında qoydu. Artıq nişan qaldı aslan sakitləşdi.

***Aslan olub merac yolunda yatan,***
***Əbu-Cəhlin daşın havaya atan,***
***Xurma lifəsiynən barmağın çatan,***
***Ağ divi zindana salan, ya Əli.***[125]

Peyğəmbər (s) Sidrətül-Müntəhaya çatdı. Dost dosta qovuşdu. Doxsan min kəlam deyildi, otuz mini şəriət, otuz mini təriqət, otuz mini isə həqiqət haqqında.

***Çıxdı meraca Muhəmməd, qıldı doğsan min kəlam,***
***Sirri-Həqq, həm məhrəmi-əsrar sənsən, ya Əli.***

***Bu Xətai xəstənin, sənsən muradı, məqsədi,***

---

[124]Mirzə Rəsul İsmayılzadə «Ş.İ.Səfəvi(Xətai) Külliyyatı» səh.251,Bakı Beynəlxalq Əlhudə nəşr.2004

[125]Aşıq Ələsgər, «Gözüm bir alagöz xanıma düşdü» səh.100, Bakı –Yazıçı 1993

***Xanda baxsam görünən didar sənsən, ya Əli.***[126]

Haqq aşiqi Ustad Dirili Aşıq Qurbani bu deyilənləri aləmi-röyada görmüş və bir ustadnaməsində təsdiq etmişdir.

***Yatmışdım üstümə gəldi ərənlər,***
***Səfil, nə yatmısan, oyan, - dedilər.***
***Oyanıb qəflətdən açdım gözümü,***
***Doxsan min kəlməyə bəyan dedilər.***

Meracdan döndükdən sonra Rəsulullah (s), əshabi-süffənin qapısına gəldi.

"Qırxlar" orada söhbət edirdilər. Rəsulullah (s) qapını döydü. İçəridən: "Kimsən, nədir istəyin? Rəsulullah (s): "Peyğəmbərəm, açın qapını, içəri girim, siz cəm əhlinin cəmalını görüm"-dedi. İçəridəkilər: "Bizim aramıza Peyğəmbər sığmaz. Yaxşı olar, peyğəmbərliyini ümmətinə elan edəsən" dedilər. Allah Elçisi bunu eşidib dərhal geri döndü. Haqq-Təaladan nida gəldi ki,: "Ya Muhəmməd, o qapıya qayıt". Rəsulullah (s) İlahi səsi eşidib dərhal geri döndü və yenidən həmin qapını döydü.Yenə soruşdular ki, kimsən? Rəsulullah (s) dedi: "Sirrul Qəyyum, hadimül fıkarayam:" (Yoxsulların xidmətçisi olduğunu söyləyən Peyğəmbərin o əsnada "ənə biatihim, ənə miskin, ənə füqara" dediyi də rəvayət olunur. Yəni, yoxsulam, sizlərdən biriyəm və sizlərə qoşulanam.

Qırxlar: "Salam! Əhlən və səhlən!" Yəni, xoş gəldin, qədəm gətirdin, gəlişin mübarək olsun," - dedilər. Rəsulullah (s)"Bismilləh" deyib, qapıdan içəri girdi. Baxıb gördü ki, otuz doqquz səhabə oturublar. Onlardan biri bazara çıxıb yemək almağa getmişdi. Yemək dalınca gedən Səlman Farsi idi. Səlman Farsinin Mərdlərin şahı Həzrət Əliyə (ə) məhəbbəti vardı.

[126]Ş.İ.Səfəvi (Xətai) Külliyyatı» səh.252,Bakı Beynəlxalq Əlhudə nəşr.2004

İçəridəkilər ayağa qalxıb Peyğəmbərə(s) yer göstərdilər. SEYİD keçib Murtəza Əlinin (ə) yanında oturdu. Lakin Əli (ə) olduğunu bilmədi. Rəsulullah (s) baxıb gördü ki, oturanların 22-si kişi, 17-si qadındır. Xanım Fatimə Ana da oradadır. Rəsulullah (s)soruşdu: "Sizlər kimlərsiniz? Cavab verdilər ki,"bizə qırxlar" deyərlər. Muhəmməd Mustafa (s) dedi: "Mənə qaranlıq qaldı, sizin kiçiyiniz və böyüyünüz kimdir? Həm də ki, 40-dan biriniz əskikdir, o hardadır?". "Ya SEYİDullah, o biri Səlmandır,yemək ardınca getdi"- deyə buyurdular. Həmçinin dedilər ki, nə üçün soruşdunuz? Səlman da burada hazırdır. Rəsulullah (s)onlardan bunun üçün bir nişan istədi. Bu vaxt Şahı-Mərdan Əli (ə) mübarək qolunu uzatdı və digəri "destur" deyə, ona neştər və bıçaq vurdu. Bir damla qan rəvan oldu, o vaxt cümləsinin biləyindən də qan axdı. Bir damla qan da pəncərədən gəlib meydana töküldü. Həmin bir damla eşikdə olan Səlman Farsinin qanı idi. Əliyyəl-Mürtəzanın (ə) qolunu bağladılar, cümləsinin qanı dayandı.

İrfan ədəbiyyatının gözəl simalarından olan Əhli-beyt (ə) məddahı Fəxrəddin Salim bir rübaisində 40-lar cəmini belə nəzmə çəkib:

***Qırxlar cəminə vardıaziz Peyğəmbər,***
***Gördü vurulub qırxınada bir neştər.***
***Pişvaza çıxan cümlə məlaik hazır,***
***Naz ilə gəlir şahım Əliylə, Qəmbər!***

Səlman Farsi gəldi. Bir üzüm dənəsi gətirib Həzrət SEYİDin önünə qoydular. Birlikdə "Ey fəqirlərin xadimi, xadimilik edib, bu üzüm dənəsini qırxlarapayla!" -dedilər. Həzrət Seyid (s) bir az düşündükdən sonra: "Bunlar qırx kimsənədir, bir üzüm giləsini kimə verim?" - dedi.

***Bir gilə göndərdi qırxlar cəminə,***
***Hökm olundu ərşi-kürsi-zəminə,***

***İşarə eylədi göydəki günə,***
***Günü günortadan qaytaran Əli.***

Dərhal uca Tanrıdan Cəbrayıla (ə) əmr olundu ki, "Ey Cəbrayıl, Həbibim müşkül işə düşüb,tez yetiş, cənnətdəki nurdan bir qab al, Muhəmmədə (s) çatdır. Bu üzümü həmin qabın içində əzib şərbət etsin. Qırxlar içsinlər" - dedi. Cəbrayıl(ə) cənnətdən nur götürüb Rəsulullahın (s) hüzuruna gəldi. Haqq-Təalanın salamını Peyğəmbərə (s) çatdırdı. Cənnətdən gətirdiyi qabı Onun önünə qoydu: "Şərbət et, ya Muhəmməd!" - dedi. Qırxlar baxıb gördülər ki, SEYİDin qarşısında nurdan bir qab zahir oldu. Qab gün kimi şölə saçırdı. SEYİD o qabın içində üzümü şərbət edib qırxlara payladı. Bu işdə Haqq-Təalanın hikməti var idi. Gərək bu qüdrət zahir olaydı. Qırxlar o şərbətdən içdilər. Cümləsi **məsti-ələst** oldular, bir dəfə "Ya Allah" deyib dəst verdilər,sidqi-candan meydana girdilər, yəni özlərindən keçdilər. SEYİDin mübarək başından yerə düşən əmmaməsi qırx yerə bölündü, qırxlar hərəsi birini götürüb bellərinə bağlayıb, Haqq üçün səma etdilər. Daha sonra Rəsulullahın (s) ətrafına toplanıb Meracı soruşdular. Onlar dedilər:" YaRəsulullah, Allah xatirinə, Haqq-Təalanın sizlərə bəyan etdiyi sirlərdən nə isə bəyan et ki, bizlərdə bəhrələnək. O sırada Şahi-Mərdan Əli(ə) də yerindən qalxıb Peyğəmbərin (s) yanına gəldi. Peyğəmbər (s) gördü ki, Merac yolunda önünə çıxanaslana verdiyi üzük onun barmağındadır. O zaman həqiqəti fəhm etdi. Səhabələrinə dedi ki: "Gəlin həqiqətə talib olun ki, Haqqın sirrinə yaxın olasınız".

Sonra səhabələr soruşdular:"Həqiqət nədir, bəyan eylə, görək!". Peyğəmbər (s)buyurdu:"Həqiqət odur ki, özünüzü Haqqa təslim edəsiniz və Onun əmrlərini yerinə yetirəsiniz". Səhabələr Rəsulullaha (s) dedilər ki, «Biz belə bir beyətə razıyıq». İqrar verib talib oldular. Rəsulullah (s) buyurdu ki: "Ey səhabələr, həqiqət Əli (ə) ilədir, Həzrətə iman gətirin". Səhabələr gəlib Əliyə (ə) beyət

etdilər, talib olub and içdilər. (Rəsulullah (s) buyurdu) O cəmdə əvvəl iki adamı müsahib eylədilər, ən son Peyğəmbər (s), Əli (ə) ilə müsahib və qardaş oldu. Birlik mənasını göstərdilər. Peyğəmbər (s) öz mübarək əliylə qurşağını açdı, Əlini (ə) bağrına basdı. İkisi bir köynəyə girdilər iki baş, bir gövdə olduğu göründü. Peyğəmbər (s) Əli (ə)haqqında bu hədisi oxudu: "Ləhmukə ləhmi, dəmukə dəmi, ruhukə ruhi, cismukə cismi". Yəni, Əlinin (ə) əti mənim ətim, qanı mənim qanım, ruhu mənim ruhum,cismi də mənim cismimdir».

Adəmdən Xatəmul-ənbiyaya gələnə qədər yol, ərkan yox idi. Muhəmməd Mustafa (s) və Əliyyəl Mürtəza (ə) cümlə-aləmə rəhmət üçün gəldilər, dini zahir etdilər. Ərkan qoydular. Şəriət zahir oldu. Təriqət gizli, həqiqət sirr olaraq qaldı. Şəriət -Muhəmmədin (s) gətirdiyi hökmlərdən ibarət idi. Təriqət -Həzrət Əlinin (ə) xas insanlara öyrətdiyi elmi-nur idi. Həqiqət isə sirr olaraq qaldı. (Bu rəvayətin mənbəyi İmam Cəfəri Sadiqin (ə) buyurduğu hədisə əsaslanır və yeddi ulu ozanın dilindən qələmə alınıb).

**Yeddi ulu ozan bunlardır: Xə**tai, Nəsimi, Füzuli, Qul Himmət, Virani, Yəmini və Pir Sultan Abdal.

Şah İsmayıl Xətai yaradıcılığında da 40-lar pirindən söhbət açılır və Xətai də Qırxlar pirinin yüksək məqam sahibi olduğunu qeyd edir. Bu qırx nəfərin 23-ü kişi, 17-si isə qadındır. Rəvayətlərə görə onların məzarı Dağıstan ərazisindədir. Şah İsmayıl Xətai 40-lardan danışarkən onların əzəmətini qəlb süzgəcindən keçirərək insanların qırxlara oxşamasını tövsiyə edir və deyir:

***40-lar meydanına vardım,***
***Gəl bəri, ey can, dedilər.***
***İzzət ilə salam verdim,***
***Gəl uş da meydan, dedilər.***

***Qırxlar bir yerdə durdular,***
***Otur, deyə yer verdilər.***

***Önümə surba sərdilər,***
***Əl loxmayasun, dedilər.***

***40-ların qəlbi durudur,***
***Gələnin qəlbin arıdır.***
***Gəlişin hardan bəridir,***
***Söylə, sən kimsən? - dedilər.***

***Gir simayə, belə oyna,***
***Silinsin, açılsın ayna,***
***Qırx il qazanda dur, qayna,***
***Daha çiy bu tən, dedilər.***

***Gördüyünü gözün ilə,***
***Söyləmə sən sözün ilə,***
***Ondan sonra bizim ilə,***
***Olasan mehman, dedilər.***

***Düşmə dünya möhnətinə,***
***Talib ol Haqq Həzrətinə,***
***Abi-Zəm-zəm şərbətinə,***
***Barmağını bən dedilər.***

***Şah Xətai, nədir halın?***
***Haqqa şükr et, qaldır əlin,***
***Qeybətdən kəsə gör dilin,***
***Hər qula yeysən, dedilər.***

Ş.İ.Xətai özü də müqəddəs övliyalardan və qırxlar məclisinin üzvlərindən biri olub. Bu övliyada tarix boyu bir çox şair və aşıqlar tərəfindən vəsf olunub:

***Gözlərimə can göründü,***
***Şah Xətai, Şah Xətai.***

***Qırxlara meydan göründü,***
***Şah Xətai, Şah Xətai.***

***Göydən yerə endi Heydər,***
***"Hu, hu!" deyib olduq əsgər,***
***O şah kimdi? Qulu Qəmbər,***
***Şah Xətai, Şah Xətai.***

***Önündədir yeddi mələk,***
***Əlindədir çərxi-fələk,***
***Min bir adın bilmək gərək,***
***Şah Xətai, Şah Xətai.***

Mərhum Əzizə Cəfərzadənin "Bakı 1501" adlı romanında da "üçlər", "yeddilər" və "qırxlar" pirindən söhbət açılır. Həmin romandan bir hissəyə diqqət yetirək: "Sonra pir demişdi: "Əsl aşiqdən əhval istərlər. Kallaşlıqla, yalançılıqla bu yola qədəm qoyma! Təsdiq əhli səndən kar istər, batindən isbat tələb edərlər! Nə cavab verərsən?

Məndən kar istəyənə karımla, işimlə cavab verərəm, pirim! Sən ölmədən – mən ölərəm! İndi də budur, "Hu" çağırana hay verdim. Dünyamız üçün elə bir şairi xilas etdim ki, nə insanlıqda, nə nəfəsdə, nə iqrarda tayı-bərabəri yoxdur. "Qırxlar"ın əlindən badə içib, "üçlər, yeddilər" dayağı olsun, bu ağır gündə! Böyük Yaradan özü nəfəsini uzatsın. İlahi, ümidimi üzmə! Bəlkə qorxudan ürəyi partlayıb, təhlükədən, əzabdan özündən gedib. Ayılar, inşallah! Heç nə olmaz.

Səlim dostunun ağırlığını hiss eləmirdi, bədən çiynində getdikcə yumşalır, süstləşir, ağırlığı artırdı. Təlaş içərisində irəliləyən gənclər bunu duymurdular. Gecənin qaranlığına daldıqca hava sərinləşir, yüngül meh gündüzün bürküsünü əridirdi. Yolları məlum kahalara tərəf idi. Şəhərdən çıxa-çıxda at-adam qaraltısı

seçdilər. Kim isə:

– Şah!.. – dedi.

Şah!.. cavabını alınca o tərəf - bu tərəfin cavanları əllərini mizraq, qəmə və yatağanlardan çəkib birləşdilər. Bu, onları atlı gözləyən dostları idi. Həm də əməliyyatı yerinə yetirənləri qara-baqara izləyib, əlavə gələ bilən yeniçərilərdən qorunmalı idilər.

Səlim atlandı, dostunu qucağına almaq istəyəndə kiminsə təklifi ilə huşunu itirmiş şairi onun tərkinə qoyub sarıdılar. İndi İbrahimin başı onun çiyinlərindəydi. Arabir ona elə gəlirdi ki, İbrahimin zəif nəfəsini duyur, üzünün istisini boynunun ardında hiss edir. Bunu duyduqca daha da qanadlandı və şövqlə İbrahimin qırxların ölüm xəbəri gələndə yazdığı nəfəsi oxumağa başladı:

***Üç kimsə tanıram fani dünyada,***
***Yeddilər çatdırar məni murada.***
***Qırxların əlindən içmişəm badə,***
***Qırx min dostun qanı axan günüdü,***
***Aman, hümmət eylə, aman günüdü!***

***Xətai quludu Abdal İbrahim,***
***Göylərə dirənib ah ilə vahim.***
***Mədədkarımız ol, mürvətli şahim!***
***Dərvişlər, yığılın, aman günüdü,***
***Şaha deyin: axır-zaman günüdü."***

Ş.İ.Xətainin həməsri olan Dərviş İbrahim özünü Müqəddəs Kimsənələrin(14 məsum) və Xətainin qulu hesab edirdi.

**"40-lar piri"**ndən bir çox insanlar imdad istəyib. Ən çox aşıq ədəbiyyatının nümayəndələrindən olan Miskin Abdal 40-lar pirinə üz tutub. Haqq Aşiqi Qurbani yaradıcılığından fərqli olaraq Miskin Abdal yaradıcılığında "40-lar piri" sözünə dahaçox rast gəlinir:

***"40-lar piri" özü verib dərsimi ümman mənim,***
***Çətin girə ürəyimə ləini-şeytan mənim.***
***Miskin Abdal mənəm, söz mənim, meydan mənim,***
***Qoruyanım, özün qoru xain dostlardan məni.***[127]

Və y*axud:*

***Ey dost, sənin bağın cənnət, narın üzə bilmərəm,***
***Ha silkinsəm, dəryan dərin, narın üzə bilmərəm.***
***"40-lar piri" özü düzüb ayağıma atəşi,***
***Alışaram Səməndər tək, narın üzə bilmərəm.***[128]

Cığalı təcnisin banisi hesab olunan Aşıq Abbas Tufarqanlı da öz yaradıcılığında «qırxlar pirindən» imdad istəyir. Aşığın bir ustadnaməsinə diqqət yetirək:

***"Qırxlar piri" özün yetiş dadıma,***
***Bir də yetir məni yar ayağına.***
***Üzüngörüm, könülalsıntəsəlli,***
***Xınatəkyaxılıməlayağına.***[129]

Türk ədəbiyyatına nəzər saldıqda qardaşlarımızın əsərlərində də "Üçlər", "Beşlər", "Yeddilər", "On iki İmam" və"Qırxlar" haqqında kifayət qədər məlumatın şahidi oluruq. Misal olaraq İbrahim Muratın "Hacı Bektaş Vəli haqqında" yazdığı məqaləyə nəzər salaq.

Türk ədəbiyyatının ünlü yazarlarından olan İbrahim Murat "Hacı Bektaş Vəli haqqında" yazdığı kitabda Allah dərgahına

---

[127]*Miskin Abdal «Divani» səh 48, Bakı –Səda 2001*
[128]*Miskin Abdal «Divani» səh 49, Bakı –Səda 2001*
[129]*«Ustad Aşıqlar» Abbas Tufarqanlı 72 şeir. Səh 47, Bakı Gənclik 1973*

gedən qulların yollarını bu ardıcıllıqla göstərir və yazır: "Hacı Bektaş Vəliyə görə, Allahın qullarına yardımçı, mürşid, yol göstərən olaraq göndərdiyi xeyirli insanlar vardır. Bunlar insanlığa Tanrının hədiyyəsidir.

Bu insanlar haqqında danışarkən"Üçlər", "Beşlər", "Yeddilər", "On iki İmam", 14 məsum və "Qırxlar" deyəişarə edilir.

**Üçlər:**Allah-Təala (c.c), Həzrət Muhəmməd (s) və Həzrət Əli (ə).

**Beşlər:**Həzrət Muhəmməd (s), Həzrət Əli (ə), Xanım Fatimə (ə), Həzrət Həsən (ə) və Həzrət Hüseyin (ə).

**Yeddilər: X**ətai, Nəsimi, Füzuli, Qul Himmət, Virani, Yəmini və Pir Sultan Abdal.

**Cəfərilikdə Qırxlar:**Əhli-beyt (ə)davamçılarının inancına görəqırxlar -Allahın(c.c) ruhları yaratdığında yaradılan, hər dövr və zamanlarda yer üzündə olduqlarına inanılan kimsələrdir. Bu qırx kimsənə dünyanın çeşidli zamanlarında insan surətində yer üzünə gəlişi, ölümlərindən sonra da dəyişik donlarda (başqa-başqa surətlərdə) yaşadıqları və dünya durduqca da yaşayacaqları qəbul edilənlərdir.

Qırxların 23-ü kişi, 17-si qadındır. Qırxların isimləri heç bir qaynaqda görülməmişdir.Bu mövzunu irfan şairlərindən olan Fəxrəddin Salimin «Qırxlar piri»nə həsr etdiyi iki "Dodaqdəyməz"i ilə tamamlayırıq:

*Nazlıəlləriylə can qədəhini,*
*İçirtdi aşiqəşahi qırxların.*
*Ya Həqq sədasından yer də yarıldı,*
*Ərşi də titrətdi ahı qırxların.*

*Qırxların əsrarı eldən nihandır,*
*Yarın xəzinəsi sirri-dəhandır,*
*Cahanın içində ayrı cahandır,*

*Dərindən dərindir cahı qırxların.*

*Həqq seyrindən kənar seyr yalandır,*
*Kəlisa yalandır, Deyri yalandır,*
*Eşqin nəşəsindən qeyri yalandır,*
*Həqiqət rahıdır rahı qırxların.*

*Eşq içrəƏlidir aşiqin karı,*
*Şahların şahıdır, yarların yarı,*
*Çəkər aşiqləri cənnətə sarı,*
*Nəəzizdir seyrəngahı qırxların.*

***

*Zahidlərin kələyindən çəkinin,*
*Ləkəlidir şəriətin aynası,*
*Gizli-gizli tərki-cahan yaşayır,*
*Eşq əhlidir təriqətin aynası.*

*Neçə illər həqiqətdən qaçıldı,*
*Həqq deyənə acı dillər saçıldı,*
*Şah Xətai kəştəçıxdı, açıldı,*
*Gizli qalan həqiqətin aynası.*

*Lənət deynən hər cindara, sahirə,*
*Gərdiş eylə Rəşt, Giran, Qahirə,*
*Haqq anında şah çıxacaq zahirə,*
*Açılacaq hər illətin aynası.*

**AŞIQ QURBANİ YARADICILIĞINDA**

## ABİ-KÖVSƏR MƏFHUMU

*Yatmışdım, üstümə gəldi ərənlər,*
*Səfil, nə yatmısan, oyan dedilər.*
*Oyandım qəflətdən açdım gözümü,*
*Al, abi-kövsərdən iç, qan dedilər.*

*Oyandım qəflətdən, açdım gözümü,*
*Ərənlər payinə sürtdüm üzümü,*
*Dindirdilər, haq söylədim sözümü,*
*Doxsan min kəlm əmə bəyan dedilər.*

*Qurbani, batıbsan qəm dəryasına,*
*Ovçunun məskəni dağ arxasına,*
*Bir seyqəl versənə könül pasına,*
*Aşiqi məşuqa qurban dedilər.*[130]

Şerinməzmunuvə formasıkifayətqədərsufiyanədir.Ərənlərin gəlişi ürfani qaynaqlarda üçlər, beşlər, yeddilər, qırxlarkimizikrolunankimsənələrineşq əhlinə,taliblərə gətirdiyihəvalədir.Qurbaniyə də həvalə gəlir.Şeirdə ayrı-ayrımaraqlıməqamlarmövcuddur.Bunlardanbiri"abi-kövsər"ifadəsidir.

İslamelminə görə,"abi-kövsər"Cənnətdə olansudur,bulaqdırvə yaxud da hovuzdur. **"Qurani-Kərim"**in ən kiçik surəsi olan**"Kövsər"** surəsində Rəsulallahamüraciətlə **"BizSənə Kövsərsuyubəxşetdik"** deyə buyurulur.Bumüqəddəsayəninçoxlusayda,müxtəlifşəkillərdə təfsirlərimövcuddur.Butəfsirlərdənən mötəbəri və ən çox yayılanı bu ayənin İslam Peyğəmbərininqızı, Əhli-

[130] Azərbaycan dastanları, Beş cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.43-44

BeytinanasıHəzrətiFatimənin(s.ə.)şəninə enməsibarəsində olanlardır. Çünki, 3 ayədən ibarət bu surənin mahiyyətində Rəsulallahın oğlanövladı olmaması (doğulanoğlan uşaqlarının isə çox kiçik yaşda tələf olması) barədə müşriklərin o mübarəkzatatənələrinə Haqq-Təalatərəfindənveriləncavabdayanır.Bumənada **“Kövsər”** surəsininPeyğəmbərqızınınşənində nazil olması xeyli dərəcədə inandırıcıdır.

Başqabirməsələ şeirdəki“abi-kövsər” ifadəsininHəzrətƏli ilə bağlı dini rəvayətlərə istinad edilməsidir. Belə ki, həminrəvayətlərdə Həzrət ƏliCənnətdəkiKövsərhovuzununbaşındaoturanvə oradaxilolacaqmöminlərə həminsudanikramedən şəxsdir.Lakinürfanimənbələrdə kövsərhovuzuanlayışıtamamilə fərqlidir.Elə kövsərsuyununməkanısayılanCənnətdə təsəvvüfdə başqa mənalardadır. Biz bu haqda əvvəlki bəhslərdəmüəyyənqədərməlumatvermişdik.Qeydetmişdikki,Cənnətanlayışıeşq əhliüçünaxirətdənçoxyarın,mürşidincamalınıziyarət, eyni zamanda batini bilgilərə vaqif olmaqdır. Bu bilgilərin mənbəyi isə, ürfani inanclara, təsəvvüf əqidə sisteminə əsasən,Həzrət Əlidir. Biz bu barədə də əvvəlki bəhslərimizdə geniş izahlar vermişdik. **“Al, abi-kövsərdən iç, qan dedilər”** misrası, bütün bu deyilənlərə əsasən, Həzrət Əlinin ərənlər, pirlər vasitəsi iləaşiqlərə verdiyi məxvi, rihani bilgiləri əhatə edir. Kövsər badəsinin nəticəsi olaraq, qəflətdən ayılma anlayışı sırf təsəvvüf fəlsəfəsini ehtiva edir. Belə ki, burada səslənən

***... Dindirdilər, haq söylədim sözümü,***
***Doxsan min kəlməmə bəyan dedilər -***

- misralarıhəminabi-kövsərinverdiyiürfaniməstliyinbəhrəsi olaraq görünür. “Doxsan min kəlmə” ifadəsi diqqətçəkənolduğu qədər də müəmmalıdır. Bu ifadə əsasən ruhani təkamülünhəqiqət

mərhələsində özünə yeralmış birmətləbdir.Həqiqətinmənbələrində üçlər, beşlər, yeddilər, qırx kimsənə, yetmiş iki pir,üç yüz on üç əsgərlə yanaşı, doxsan min qulamın da adı cəkilir.Doxsanminqulamanlayışıdadigərlərikimi,nasut (insanliq)aləminin deyil, lahut (ruhlar və məna) aləminin atributları olub,bu dünyada yalnız aşiq və ariflərin gözünə görünən, bəlli saydamüqəddəslərinvücudlarındatəcəlliedənvarlıqlarkimiqəbulol unur.Deyilirki,onlardahülüledir, ərşi-əladakıgerçəkliyinYer üstündəki mənzərəsini yaradırlar. Onlarin **elmi-həqiqətdəki** konkret vəzifələri barədə nələrisə yazmaq araşdırmamızın hədəfi xaricində olduğu üçün biz bu barədə təfərrüata varmaq istəmirik.

Qeyd etdik ki, "abi-kövsər"lə müşaiyət olunan şeirin mayasında Həzrət Əliyə bağlı mətləblər dayanır. Son bənddəki

***Bir seyqəl versənə könül pasına,***
***Aşiqi məşuqa qurban dedilər –***

- misralarıdamənabaxımındanürfanigerçəklərə söykənir.Buradakı"könülpasınaseyqəlvermək"kirlənmiş,həqiqətlər igörməkdən məhrum olan könül aynasınamüraciətlə deyilmişdir.Bu, həmin könül aynasıdır ki, insan övladı onu "Ələst" aləmindən bu dünyaya gətirmişdir. Nəzəri sistemə əsasən, insan yaddaşı,bu dünyaya gəidikdən sonra xeyli dərəcədə silinmiş, Haqqın, həqiqətin üzünü əks elətdirən həmin ayna kirlənmiş, paslanmışdır.

Elə bu fikrin bənzərinə biz məşhur Əhli-Həqq quyəndəsi BeyrəkQuşçuoğlunun ilk söylədiyi kəlamda da rast gəlirik. Şikəst ikənatası Quşçu Yaqub tərəfindən cəmxananın önünə atılaraq, sonradanpirlərtərəfindənnəfəsverilərəkayağaqalxanBeyrək bu sözləri deyir:

***Mən bir leyli-səttar idim,***

*Məni qatara çəkdilər,*
*Sildilər güzgümün pasın,*
*Aydın didara çəkdilər...*

Budünyadaogüzgünütəmizləyənlərhəminabi-kövsəriiçib, ruhani məstliyə yetişənlər, dolayısı ilə, əzəli yaddaşı özünəqaytaranlardır. Bu eşq badəsini aşiqlərə içirən isə, Həzrət Əlidir. Eynilə buməsələ barəsində bizustadAşıq Ələsgərlə bağlı bölümlərdə geniş bəhs etmişdik.Qurbaniyə məhzHəzrət Əlitərəfindənbutaverilməsidastanın əvvəlindəki növbəti şeirdə daha aydın və kəskin şəkildəgöstərilmişdir:

*Bir kimsənə gəldi m ənim üstümə,*
*Yazılı şəninə ya minəl-əta,*
*İmam ola, damad-Əhmədi-Muxtar,*
*Doldurub camını eylədi əta.*
*Tərəhhüm eylədi abi-kövsərdən,*
*Onunçün keçmişəm can ilə sərdən,*
*İstədim mətləbim payi-Qəmbərdən,*
*Kəramət eylədi mənə bir buta.*
*Eşq əlindən namus arım qalmadı,*
*Nə bir səbrim, nə qərarım qalmadı,*
*Qurbaniyəm, ixtiyarım qalmadı,*
*Dönmüşəm kamana, qəddimdi duta.*[131]

Birinci bənddəki "Doldurub camını eylədi əta" misrasıyuxaridakıfikirlərimizinbirbaşatəsdiqidir.Həzrət Əlinin şəriətprizmasındakı obrazı bu izahlardakı mənzərədən tamamilə fərqlidir.Şəriətdə ümumiyyətlə badə,meyanlayışlarımövcuddeyil. "Abi-Kövsər" kimi dini terminin ürfani istilahlarla şəraba, saqiyə və digər qavramlara təbdil olunması, bilindiyi uzrə fundamental dinvə ehkamdaqəbulolunmazdır. Üstəlik, bu məsələlərin bir-başa

[131] Azərbaycan dastanları, Beş cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.44

Həzrət Əliilə əlaqələndirilməsihardasaküfrməqamına qədər gedib çıxır. Bu da təbii ki, ruhani təkamülün daha üstün və dərin qatlarında qəbuluvə idrakımümkün olan nəsnələrdir.Bu qatlarisə bu günə qədərşərtidə olsamüəyyənləşən **təriqət, mərifət və həqiqət** qatlarıdır. Məhz elə fərqli təfəkkür tərzlərinin açdığıimkanlarlaortaçağmütəsəvvüflərininnəzəribilgilərini dərk etmək mümkündür. Onu da əlavə etmək istərdik ki, ürfan və təsəvvüfhəmelmi,həm ədəbi,həmfəlsəfi,həmdə praktik baxımdan mükəmməl bir kompleksə malik olub, ayrıca və geniş şəkildə tədqiq və təhlil olunmalıdır.(F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 198-202)

## AŞIQ ALI YARADICILIĞINDA ƏHLİ-BEYT (Ə) SEVGİSİ

İmamın (ə) bu hədisinə haqq aşiqi olan Aşıq Alı bir müəmmalı təcnisində vacib və nafilə namazların neçə rükətdən ibarət olduğunu İranlı aşıq Aşıq Zəkidən sual etmiş, lakin Aşıq Zəki bu suallara cavab verə bilmədiyindən Aşıq Alı özü bu sualların cavabını verərək Aşıq Zəkini bağlamışdır. Bu qıfılbənd-təcnisi şərhi ilə nəzərinizə çatdırırıq:

***Nə məqamda zuhr olundu ayinə?***
***Nafileyi rəkət neçə ayinə?***
***Hansı gündə üç səadət ayı nə?***
***Alı itaətdə sə dalə tək-tək.***

Təcnis qıfılbəndin bu bəndində Aşıq Alı vacibi namazların nafiləsindən (əlavəsindən) söhbət açır. Nafilə namazlar 34 rükətdən ibarətdir. 8 rükət zöhr namazının (zöhr namazından

qabaq), 8 rükət əsr namazının (əsr namazından qabaq), 4 rükət şam namazının (şam namazından sonra), 2 rükət xiftən namazının (xiftən namazından sonra - əslində bu bir rükət sayılır, çünkü oturaq vəziyyətdə qılınan iki rükət ayaq üstə bir rükət hesab olunur), 2 rükət sübh namazının (sübh namazından qabaq), 11 rükət gecə namazının (gecə yarısı qılınır) nafiləsidir.

«Üç səadət ayı» - Şəban ayının 15, və ya Rəcəb ayının 27-i İslam Peyğəmbəri Həzrət Mühəmmədə (s) peyğəmbərlik verilən gündür.

Şəban ayının 15-i Fatimeyi-Zəhra (ə) ilə Həzrət Əlinin (ə) toy günüdür.

Şəban ayının 15-i sonuncu İmam Həzrəti Mehdi Sahibəz-Zamanın (ə.c) mübarək mövlud günüdür.

«Alı itaətdə sə dala tək-tək» misrasında Aşıq Alı demək istəyir ki, dünyanın ən ulu 3 sakini vardır:

1. Həzrət Adəm (ə);
2. Həzrət Nuh (ə);
3. Həzrət Əli (ə).

Aşıq Alı bu təcnis-qıfılbəndlə iranlı Aşıq Zəkini bağlamışdır.

## HAQQ AŞİQİ DƏDƏ ƏLƏSGƏR KİMDİR?

***On səkkiz min aləm, yetmiş iki dil,***
***Ülfət qılır bir bazarın içində.***
***Kimi atlaz geyir, tirmə qurşayır,***
***Kimi üryan gəzir qarın içində.***

Göyçə Aşıq məktəbinin banisi haqq aşiqi Aşıq Ələsgər hesab

olunur.Bu məktəbin şagirdləri hər şeydən əvvəl, özlərinə ustad bildikləri Aşıq Ələsgər kimi gərək islam dininin bütün qanunlarını əsl mənbələrdən öyrənməklə yanaşı həm də Qurani-Kərimi və təsəvvüf ədəbiyyatında sufilərin qeyd etdikləri kimi dörd qapıdan (şəriət, təriqət, mərifət həqiqət)və qırx məkandan, həmçinin yetmiş iki qatdan xəbərdar olmalıdır. Necə ki, Haqq AşiqiDədə Ələsgər bu deyilənlərdən xəbərdar olub və bir bənddə bu mətləbləri belə izah edir:

***Dörd qapı, qırx məkan, yetmiş iki qat,***
***Ülfət qılır bir bazarın içində.***
***Kimiatlasgeyib, tirməqurşayır,***
***Kimiüryangəzirqarıniçində.***

Bu bəndin qısa şərhini verib sonra əsl mətləbə keçəcəyik. İlk olaraq dörd qapıdan söhbət gedir- onlar hansılardır:

1. Şəriət – seyrun minəl xəlqi iləl həqq. Xalq və təbiətdən Allaha doğru yönəlmək;

2. Təriqət – seyrunbil həqqi iləl xəlq-. Allahda seyr eləmək; yəni ilahi mərifət qazanmaq;

3. Mərifət – seyrun minəl həqqi iləl xəlq. Allahdan bəndələrə doğru seyr etmək, camaatı tərbiyələndirmək üçün gəlmək;

4. Həqiqət – seyrun bil həqqi fil xəlq. Həqiqətdə xalq arasında seyr etmək.

Bu dörd qapıda əqidə,yəni üsuliddin-dinin əsasları beş bölümdən ibarətdir vəbunlardır: tovhid, ədl, nübuvvət, imamət, məad.

Qırx məkan hər dörd qapıda olan on əməli bölümdən ibarətdir. Şəriətdə olan on bölüm firuddin adlanır və bunlardan ibarətdir: namaz, oruc, xüms, zəkat, həcc, əmr be-məruf, nəhy-əz-munkər, cihad, təbərra və təvəlla. Bu on şərtə əməl edən şəriət əhli Peyğəmbərin(s)zamanında ilahi göstərişlərə olduğu kimi əməl

edirdilər. Təəssüflər olsun ki, peyğəmbərin (s) vəfatından sonra əmr sahibi olan Həzrət Əlinin(ə)imamət haqqını mənimsəyənlər üsuliddindən iki maddəni (ədl və imaməti) qəbul etmədilər,Firuiddinin tələblərinə isə bildikləri kimi əməl etdilər və həqiqət yolunu təhrif etmiş oldular.Bütün bunlara baxmayaraq bir dəstəimanlı şəxslər Həzrət Əlinin(ə) imamət məqamını qəbul etdilər və üsuliddinin və firuddinin bütün şərtlərinə əməl etmiş oldular. Bu həqq əqidənin sahibləri şəriətin – yəni firuddinin on şərtinə əməl etmək üçün müqqəllid olub müctehidə (ictihad sahibi) təqlid etdilər və əhkamın beş bölümünə riaət etdilər.Beş bölüm bunlardır: vacib, haram, müstəhəb, məkruh və mubah.Şəriətin on hökmünün hamısı vacibdir.Hər bir müsəlman olan şəxs bu deyilən şərtlərə öz qüdrəti müqabilində əməl etməlidir. Necə ki, könüllər sultanı Ş.İ.Xətai deyib:

***Şəriət yolunu Mühəmməd açdı,***
***Təriqət yolunu Şah Əli seçdi.***
***Bu dünyadan neçə yüz min ər köçdü,***
***Onlar ittifaqda, Mehdi yoldadır!***

Bu bir bəndə nəzər saldıqda görürük ki, haqq aşiqi Dədə Əlsgər şəriəti- Həzrət Muhəmmədin(s) gətirdiyi qanunlarla, təriqəti və mərifəti-Həzrəti Əlinin (ə)ustadlığı ilə,həqiqət mərhələsini isə İmam Mehdi Sahib-əl-Zamandan (əc.f.)təlim almaqla haqqdərgahına xidmət etməyi tövsiyə edir. Çünki, haqq aşiqi özü bir divanisində deyir:

***Ölməyincə bu sevdadan çətin dönəm, usanam,***
***Həqiqətdən dərs almışam, Mərifətdən söz qanam.***
***Şahi-Mərdan sayəsində elm içində ümmanam,***
***Dəryaların qaydasıdır-ümmana baş endirər.***

Çox güman ki, bu divaninin son misrasında haqq aşiqi özünü dəryaya bənzətməklə zəmanə sahibi Həzrəti Mehdini (əc.f.) ümman bilir, həmçinin onunvəmöminlər ağası Həzrət Əlinin(ə) sayəsində batini elmlərə vaqif olduğunu xəbər verir.

## AŞIQ ALI VƏ AŞIQ ƏLƏSGƏR MƏFKURƏSİNDƏ ƏHLİ-HƏQQ NƏZƏRİ FİKRİNİN İZLƏRİ

Aşıq Alının yaradıcılığına nəzər saldıqda Onun ürfani şeirlərinin şahidi oluruq. Nümunə olaraq həmin irfani mətləblərlə bağlı olan bir şeirinə diqqət yetirək:

***Mərifətdən kamil olan ay aşıq,***
***Şəriəti nəylə edərsən aşkar?***
***Bey altından o nöqtəni bəyan et,***
***O nöqtədən eylə məni xəbərdar*** (5, 90) –

– misraları Aşıq Alının təsəvvüf qatlarını necə sadaladığınıgöstərir. Üstəlik "bey" altındakı nöqtə məsələsi də Həzrət Əlinintəriqətdəki batini məqamı ilə bağlıdır.Məlumdurki,şeir,musiqi, ümumiyyətlə, incəsənətamilihər zaman konkretlik ifadə etmir. Yəni bir mənada, hər şair, hərincəsənətadamımüəyyənolunmuşbirmissiyadaşıyıcısıdeyil.Bumənadamütəsəvvüfşairvə aşıqlaristisnadır. Əvvəldə dəqeydetdiyimizkimi, Aşıq Ələsgəri tam birmütəsəvvüfşairadlandırmaq düzgünolmazdı. Onunşeirləritəsəvvüfi,ürfaniqaynaqlarladoluolabilər. Lakin,təsəvvüf ərbabıolmaq,sənətkarlıqdanvə şairlikdənibarətdeyil. Həmdə (yuxarıdadavurğuladığımızkimi) Aşıq Ələsgərinzamanında,təbiricaizsə,mütəsəvvüfolmaqmümkündeyildi. Ustadaşıqgüclüilham,həvalə və cazibə altında olan nadir bir

şəxsiyyət idi. Lakin onunbirövliya,mütəsəvvüfolmasıüçünbunlarbelə yetərlideyildi.BəsondaAşıq Ələsgərbumətləbləriharadan,kimlərdən əxzetmişdi? Axınə ilhamıngücü ilə,nə də xalqiçindəngələnrəvayətlərlə bu nəsnələri anlayıb, qəbul etmək mümkün deyildi.Bunlar, bu mətləblər konkret məktəb və təlim ünsürləri idi. Yənibunlarıbilməkdənötrü pirə,mürşidə möhtacolmaqlazım idi.Aşıq Ələsgər, şeirlərindən də göründüyü kimi, həmin mətləbləribilməklə kifayətlənməmiş, həm də onları candan, könüldən qəbuletmişdir. Məhz bu qəbullanmaq duyğusu məhəbbətin, sədaqətinnişanələridir. Bu sədaqət, bu məhəbbət isə, ustada, pirə yönəlmiş müqəddəs duyğulardanibarətdir. Ustadaşıqməşhurbir divanisində deyir:

***Biçarə Aşiq Ələsgər,***
***Sığın Şahi-Heydərə,***
***Onun damənindən tutan***
***Məşhərdə yanmaz nara,***
***Pirim mənə nüsrət verib***
***Girdim bu gün bazara,***
***Sən sərrafsan, aç, xird elə,***
***Bax gör, nə maldı yüküm...*** (10, 204).

Bu bənddəki Şahi-Heydər Həzrət Əlidir (“Heydər” kəlməsiərəbdilində “aslan”deməkdir. Buizafəttamolaraq“Heydəri-Kərrar”dır ki, buda ərəbcə “təkrarhücumedənaslan” mənasındadır). Ən diqqətçəkən məqam isə, buradakı “pir” kəlməsidir.

Məlum olduğukimi“pir”(farsdilində yaşlı,qocaadammənasındaolaraq) ürfaniterminkimi,ustad,mürşidanlamındadır. Özüdə “pir”kəlməsiİslamiyyətdənçoxöncələr qədimİran ərazisindəki “muğlar”, “muğların piri”, klassik ədəbiyyatdabugündə çoxişlənən “piri-muğan”kəlməsiolaraq,

ruhanibiranlayışkimimövcudolmuşdur. ***"Pirimmənə nüsrətverib"***ifadəsi ilə Aşıq Ələsgərsankibirdəqiqləşdirmə aparır,azqalakonkret ünvan göstərmək istəyir. Buradakı "nüsrət" kəlməsi ərəbdilində "qələbə", "uğur" anlamındadır. Yəni ustad aşıq deyir ki,piriminmənə verdiyiqələbə müjdəsi mənihər"bazarda",yənihərmeydanda qalib edər. Bu,çoxmühümbirməqamdır. AşıqƏləsgər "pirim" deməklə, çox güman ki, heç kimi və heç bir fikritəkrarlamır, yamsılamır. Bu, ən azından misranın məna gücündən,poetik sərrastlığından hiss olunur. Yəni, təsəvvüf dünyagörüşü və hətta ürfani terminologiya baxımından Aşıq Ələsgərin bu misrasıolduqcaorijinaldır. Bütünbunlar istər-istəməz belə düşünməyəəsasverirvə səbəbolurki, Aşıq Ələsgərzamanının ürfaniçevrələri və hansısatəsəvvüfzümrələriilə müəyyənqədərəlaqədə olmuşdur.Özəlolaraq, əlavə məlumatüçün birmətləbə də aydınlıqgətirməkistərdik.

Budayuxarıdamüəyyənqədərtəhliliniverdiyimiz "Ya Əli" qoşmasındakı "ya" ifadəsidir. "Ya" məlumolduğukimi, ərəbcədə müraciətforması,türkdillərindəki "ey"sözüdür. "Ya Əli",yəni,"Ey Əli"anlamındadır. Bunaheçbirşəkk-şübhə yoxdur. Fəqət, ürfani və hətta dini qaynaqlarda "Ya"ifadəsi xüsusi məna daşıyır. Əvvəlcə, İslam Peyğəmbəri ilə bağlıbir hədisi xatırlatmaq istərdik. Hədisdə nəql olunur ki, Peyğəmbərliyinin ilkin dövrlərində (din tarixində Həzrət Muhəmmədin (s) həyatı dörd əsas dövrəbölünür: Bisət (yəni ona peyğəmbərliyingəlişi), Dəvət(yənixalqıdinə çağırışı), Hicrət(MəkkədənMədinəyə köçetməsi)və Hüsrət(İslampeyğəmbərininqələbəsi-Məkkənin fəthi) yəhudi alimləri Rəsullahın yanına gəlir,ona peyğəmbərliyini sübüt etmək üçün bəzi suallar verirlər. Busuallardan biri, məşhur "Əshabi-Kəhf" əhvalatı, digəri isə, "Ya"məsələsi ilə bağlı olur. Bir daha vurğulamaq istərdik ki, bu hədisməhzelə şəriətalimləritərəfindəntəsdiqlənir.

Lakinşəriətruhanilərihəmin“Ya” məsələsininnə ilə bağlıolduğunu vəPeyğəmbərin bu suala necə cavab verdiyini açıqlamırlar. Həqiqətəndə şəriətelmində və ümumiyyətlə, dintarixində bu məsələbarədə konkret heç bir məlumata rast gəlinmir.

“Ya”haqqındakıyeganə açıqqaynaq yenə də Əhli-Həqq mənbələrində mövcudolaninformasiyalardır. Əhli-Həqlərin ehkam və nəzəri baza halına çevrilmiş qaynaqlarında bu məsələ belə açıqlanır:

Həqq-Təalanın pak zatı hələ kainat xəlq olunmamışdan 1000 il qabaq mərhələli olaraq, 2 adda mövcud idi:

1. ***Ya***
2. ***Cəlili-Cabbar – Uca və əzəmətli Allah***

Haqq-Təala özünü aşkar etmək üçün kainatı yaratdı və məxluqatı xəlq etdi. Şəriət anlamında “Pərvərdigar”, Həqiqət anlamında isə “Xavəndigar” (Xudavəndigar) camiəsində özünü aşkar etdi. Əhli-Həqqlər bu sirlərə bələd olsalar da bu cərəyan (sirri-məqu) olduğu üçün əhli- şəriətdən gizlin saxlanılıb. Qeyd etmək istərdim ki, bir sıra şəriət əhlindən olan müdrik insanlar da “Həqiqət” sirlərinə bələd olub və “Əhli-Həqlər” kimi Uca Tanrıya pərəstiş edirlər.

3. ***Xavəndigar – Yaradan***
4. ***Əliyul-Əla – Ucalar ucası***
5. ***Şahxoşin***
6. ***Sultan Sahak***
7. ***Şah Qırmızı (Şah Visiqulu)***

Tanrının bu adları mərhələli şəkildə, yəni bir növ donbadon mərhələsi şəklində dəyişilmişdir. “Ya”Onunilkadıdır. İkinci adı ***Cəlili-Cabbar – yəni qüvvət, qüdrət, əzəmət sahibi olan uca Allah,***

“Xavəndigar” və “Şahxoşin” isə, Əhli-Həqlərdə məxfi mənbələrolaraq,mənalarıgenişşəkildə açıqlanmayan, Zati-İlahiyə isnadedilən adlardır. Bu qısa məlumatla kifayətlənərək, onu

söyləməkistərdikki, Allah-Təalanın ənilkinadlarındanolan "Ya" ismiəksərhallardamütəsəvvüflərtərəfindən Xudanınməzhəri,zatı,təcəllası hesab olunan şəxslərin adlarının önünə əlavə olunmuşdur. "Ya Əli" burada, məhz ürfani bucaq altında baxdıqda, müraciətdən başqa Əlinin bir adı kimi görünür. Yəni, məna etibariləbu, "Ey Əli" yox, məhz "Ya Əli" dir. Bu da həmin hülul və zatitəcəlladırki, Əhli-Həqlərdə və digərtəsəvvüf cərəyanlarındagizlivə yaaçıq şəkildə özünə genişyertutmuşdur. TanınmışTürk alimi Bahəddin Ögəlin "Türk Mifologiyası" əsərinin birincicildində oxuyuruq: "Quranagörə də tanrıinsanı özsurətindəyaratmışdır. İnsanoğlu ənsondayaradıldığıüçün bütünvarlıqların ən kamili, eyni zamanda, kainatın da bir xülasəsi kimiidi. Təbii olaraq, mütəsəvvüflərbunu dahada inkişafetdirmişdilər. Onlaragörə, insanxaricigörünüşüetibarıilətanrının özüdeyil,onun yaratdığıbirxilqətidi. Əslində isə oyalnızca bir xilqət deyil, tanrının özü idi".

Bütünbudeyilənlərdən çıxışedərək, cəsarətlə söyləməkolarki, Aşıq Ələsgərinbumətləblərdənmüəyyənqədərxəbəriolmuşdur. Çünki,məsələn, "Ələstdən"bəli"dedim"ifadəsi eləməqamlardan xəbərverirki, Aşıq Ələsgərhəminmətləblərdənbixəbər olsaydı, belə birsözü,belə birfikrisadəcə,ağlınagətirməzdi.

Buradakı əndiqqətçəkənməqamisə, Ələstgünündəki"bəli"kəlməsinin başqaqaynaqlarda, ocümlədən, QuraniKərimə əsasən,mələklərindeyil, Aşıq Ələsgərinöztəbiriilədesək,onunözağzındançıxmasıdır. Yəniqısası, Aşıq ƏləsgərƏləstcəmində Həqq-Təalanın "sizinRəbbinizmənəmmi?"sualına özü"bəli"cavabınıverdiyiniiddiaedir. Böyükustadməhz belə bir etirafı xüsusi olaraq vurğulayır.Bəs,bunecə müəmmadırki, Dədə Ələsgərözününbirzaman Ələst aləmində olduğunu söyləyir? Üstəlik nəzərə alsaq ki,Aşıq Ələsgərin bu məfhuma baxışı ürfanidir, o

zaman bu suala(əvvəlkiabzaslarda izahını verdiyimizkimi) cənabiCəbrayılcavab vermişdir. Həmin Cəbrayıl ki, bu suala birinci dəfə cavabverə bilməyəndə qanadına Həzrəti Mövlanın Zülfüqarı enmişdi.Sonraisə,Həzrət Əlinintəlimivə ustadlığıilə busualacavabverə bilmişdi.

Buradaisə,Aşıq Ələsgər deyirki,həmin"bəli"cavabınıƏləst günü mən vermişəm. Bu müdhiş və müəmmalı iddia eləbelə,üstündənxəlvətcə keçiləcəkbirməsələ deyil. Busirricəsarətlə açmağın vaxtı çoxdan gəlib çatmışdır. Həqiqətən də busirrinçözümü müəyyənqədərcəsarəttələbedir. Çünkiuzunzaman elmi ateizmin, indi isə yarımçıq dini doktrinanın mövcudolması səbəbindən belə məsələlərin izahıvə təhlilimümkün olmamışdır. Məsələ orasındadırki,Aşıq Ələsgərinqəbuletdiklərini bizimdə qəbuletməmiz, ənazındandərketməmizüçün təsəvvüfünnəzərisisteminə səthiolsadabələdolmamızgərəkdir. Bu isə çox çətin bir prosesdir.Bu məsələdə yeganə mənbə Əhli-Həq dərvişlərinin daşıdığıəqidə sistemindəki mövcudprinsiplərdir. Busistemə əsasən,hülul və təbdil deyilən anlayışlar vardır. Təbdil anlayışı xüsusiləgeniş əhatə dairəsinə malikdir. "Təbdil" sözü ərəbcədə"yerdəyişmə", "əvəzləmə" anlamındadır. Dilimizdə işlənən "bə-dəl" sözü də həmin kökdəndir. Təbdil də hülul kimi, əvvəllərdədə izahınıverdiyimiz ənənəvi"donbadon" anlayışıdır. "Donbadon"yəni,"dondəyişmə", "bədəndəyişmə","vücuddanvücudakeçmə" deməkdir. Buanlayışbirçoxsufitəriqətlərindəmövcudolsada birazrəmzi,qeyri-konkret və bir az dacəsarətlidir. Yəni, təriqət sufiləri təbdili-ruh məsələsini qəbul edir,ancaq ona çox ehtiyatla yanaşırlar. Məsələn, onlar astaca, gizlicədeyirlərki, "bizimpirimizfilankəsdir" – yəni,bizimmürşidimizin vücudunda filan övliyanın ruhu təbdil olaraq, hülul edərək,yaşayır. Fəqət, yenə də təkrar edirik ki, bu məsələ təriqətdə çoxda açıq və cəsarətli şəkildə təzahür olunmur.Aşıq Ələsgərin Əhli-Həqlərlə əlaqəliolduğunun

üstündəonagörə israrladayanırıqki, həmməfkurəvi, həmdə praktiktərəfdən *"mənAllahın əzəmmələyiCəbrayılam"* deməsi iləustad aşıq müəyyən bir çevrəyə sahib olmuşdur. Belə ki, yenə də"həqiqət"nəzəriyyəsinə əsasən, əgərAllahınmələkləri insanvücudunatəbdilolaraq, dünyaüzərində mövcuddursa, deməli,ürfani məntiqə əsasən, Allah-Təalanın özü də təcəlla və ya hüluledir və onun yer üzündə məzhəri, "zati-mehmanı", "zati-qürs"ü də mövcuddur. Bubaxımdanustadaşığınşeirlərində işlətdiyi"pirim", "şahlar şahı" və başqa bu kimi ifadələr həmin silsiləyəvə ruhani çevrəyə şamiledilə bilər. Araşdırmaçıalim İsrafilBabacanın Əhli-Həqlərhaqqındakı yazısındaoxuyuruq: "Bufirqənin inancı, ruhun geridönüşüvə tənasüxdür. İnsanınəməlləriməqbulolursa və sidqin başlanğıcından ricaedərlərsə,bukimsələrin ruhlarının dünyayagöndəriləcəyi inancınasahibdirlər. Əhli-Həqqin inanc üsulunun ağırlıq mərkəzi, Haqqıntam və tamam olan sifət və fellərdə yeddi təcəllasına dayanır. Butəcəllilərə "donbadon" deyərlər. "Don" kəlməsi; əlbisə, məzhər,zahir, köynək, cəsəd, qəfəsbununkimi anlamlaragələn türkcəbir kəlmədir".

## Ş.İ.XƏTAİ VƏ AŞIQ ƏLƏSGƏR POEZİYASINDA HƏZRƏT ƏLİ (Ə) SEVGİSİ VƏ "ZÜLFÜQAR"IN ANLAMI

*Şahi-Mərdanın, Əlinin aliyəm, övladiyəm,*
*Zülfüqari-taci-Düldül üç bu nişan məndədir.*

*Açarım dini-Muhəmməd, məzhəbim Cəfər yəqin,*
*"La fəta illa Əli" bu sirri-pünhan məndədir.*

Həzrət Əlinin (ə) əqidə və məsləkdavamçısı olan, ömrünü

dini-Muhəmməd Mustafa (ə) yoluna həsr edən və İmam Cəfəri-Sadiqin (ə) məktəbini dünyaya tanıtdıran, Əhli-beyt (ə) aşiqiŞ.İ.Xətai başqa bir qəzəlində isə Həzrət əlini (ə) və ikihaçalı qılıncı "Zülfüqarı" belə vəsf edir:

***Xanda varsan ey Xətai, sən bu ləfzi söyləgil,***
***"La fəta illa Əli, la seyfə illa Zülfüqar".***

Məlumdur ki, dini qaynaqlarda adı keçən məşhur "Zülfüqar"Əliibn ƏbuTalibə (s.ə.) məxsusolanikihaçalıqılıncınadıdır.Lakinustadaşıq zühurgünündə buqılıncınİmamMehdiSahibəzzamanın əlində olacağından sözedir("Muhəmmədümmətiçıxmazzindandan,Ta ki, ağamZülfüqarıçəkməyə").Dini rəvayətlərə görə, Həzrət Əlinin Zülfüqarı özündən sonra onbirİmamın əlində olmuş, sonuncu,onikinciİmamla bərabərqeybə çəkilmişdir. Gözlənilən zühur günündə də İmam Mehdi iləbirlikdə qayıdacaq. Bu,məsələnindini,yənişıə şəriətininyozumladığıtərəfidir. Fəqət,Aşıq Ələsgər burada"Ağam"kəlməsi ilə hər zamankı kimi, məhz Həzrət Əlidən bəhs edir. HəzrətƏlinin təsəvvüf qaynaqlarındakı "dondan-dona" – bədəndənbədənə hülul etməsi, eyni zamanda, onun Xudanın məzhəri hesab olunması buməsələyə başqabirşəkildə aydınlıqgətirir.

Təsəvvüf ənənələrinə əsasən, AllahıntəcəllasıYerüzündəmüəyyənzatlarınvücudundavarolmuşdur (birazsonra ƏhliHəq dünyagörüşündəki "donbadon" fəlsəfəsinin Azərbaycan aşıqədəbiyyatındakı təcəssümünə dair genişizahlarverəcəyik). Buzatlardan biri də Həzrəti Mehdidir. Bir daha təkrar edirik ki, bufikir təsəvvüfideologiyasının birçoxcərəyanvə nümayəndələrinə məxsusdur. Dinifundamentalizmtərəfindənqətiyyənqəbuledilməyən və "küfr"damğasıvurulanbufəlsəfiməntiqəəsasən, Həzrət Əlivə HəzrətiMehdi eyniruhun,eynizatındaşıyıcılarıdır.

BumənadaSahibəzzamanın əlindəkiZülfüqarməhz Aşıq Ələsgər tərəfindən təsəvvüf və ürfan qəlibində təqdimolunmuşdur. Elə yuxarıda adını çəkdiyimiz “mətləb” də bununlabağlıdır. UstadAşıq Ələsgərqeybdəki İmamdanmətləbistəməklə, həmin sirlərin açılmasının intizarında olduğunu bəyanedir. Ümumiyyətlə zühur, əksər dini təlimlərdə özünə geniş yertutmuşdur. Belə ki,xristianlıqdakı Həzrəti İsanın zühuru,buddizmdəkiBuddanın qayıdışı kimiinanc faktorları bugünəqədərçoxlusaydainsanların mənəviümidyeriolaraq qalmaqdadır. Həttabəziislamitəlimlərdə qeydolunurki, zühurgünüHəzrətiMehditəkgəlməyəcək. Onunbirtərəfində Həzrətiİsa,digərtərəfində HəzrətiMusaolacaq. Bucürinancfəlsəfəsiəsasən “isna əşəri” (on iki imamın bərhəq olduğuna etiqad təlimi)məzhəbində genişyayılmışdır. Bəzisünni, ocümlədənHənəfi,Şafeiməzhəblərində isə HəzrətiMehdinin elə Məsiholduğunainamlar mövcuddur. “Məsih” isə həm Həzrəti İsanın bir adı, həmdə ümumiyyətlə,xilaskaranlamındadır. Bumənadabəzi əhlisünnət qiyamətgününə birazqalmış Həzrətiİsanın(Məsihin) axirəzzaman Peyğəmbər Həzrət Muhəmmədin(s.ə.v.) rəhbərliyində zühur edəcəyinə inanır. Qeyd edək ki, bütün bu inanclaristərİslamın,istərsə də başqadinlərin ehkam,yəniilkin şəriətqatlarına isnad edilir.

Təsəvvüfdə isə məsələ tamamilə başqacürdür. BuradakıMehdi hər zaman diri, yəni seçilmiş zatların vücudunda ariflərəgörünən birməqamdadır. Təbiiki,burada Əhli-Həqlərin nəzəri“donbadon”(hülulvə tənasüx) məsələsiortayaçıxır. Əhli-Həqq nəzəri sisteminə əsasən, iki cür “zat” mövcuddur. Bunlardan biri“zati-mehman”, digəri “zati-qürs”dür. Bu zatların ikiliyi mərhə-ləlik prinsipinə əsaslanırvə haqqındadahaöncə də bəhsetdiyimizikizühurla,“zühuri-xas”və “zühuri-amm”la müəyyənqədər əlaqəlidir. Adınıçəkdiyimiz “zat”terminləriməhz“donbadon”labağlıdır. Birincizat, “zati-mehman”, qonaqolanruh,gəlib-gedən vücudi-mütləq

mənasındadır. Yəni, qeybdəki İmam,yaxuddaHəzrətiMəsih (çünkitəsəvvüfdə buməsələ bir dinəmənsubluqdan çıxaraq, dahagenişanlamdaşıyır)müəyyənşəxslərin vücudunda mehman olur. Bu fikri, əqidəsi üstündə daraçəkilən MənsurHəllacvə İmadəddinNəsiminin tez-tezişlətdikləri "Ənəlhəq"kəlamıilə də təhliletməkolar. Belə ki,həminşəxslərin (və birçoxbaşqaariflərin,ocümlədən, ŞahFəzlullahNəiminin, ŞahNemətullahVəlinin və başqalarının)iddiasına görə, Həzrəti Mehdi – yuxarıda izah etdiyimiz kimi –Cənabi-Haqq onlarınvücudunda"mehman"olaraq, onlarınsurətində görünürmüş. Elə buməqamdada onlar"Ənəlhəq" – "MənAllaham"demişlər. ŞahXətain beytinə diqqəti çəkməkistərdik:

***Girdim Adəm cisminə, bir kimsə bilməz sirrimi,***
***Mən bu beytullah içində ta əzəldən var idim...***

Diqqətlə nəzərsalsaqgörərikki, Xətaiburada Allahındilindən bəyan edir və özünün dolayısı ilə "zati-mehman" olaraq,HəzrətiAdəmin cisminə girdiyini və bucismində "beytullah",yəni Allahıneviolduğunu iddiaedir. Göründüyükimi, hülulnəzəriyyəsiburada açıq-aşkar ifadə olunur. Bizbunun rəmzlişəkildə təzahürünə İ. Nəsimidə də tez-tez rast gəlirik:

***Surətindən ey sənəm, ta görmüşəm həqqi əyan,***
***Səcdə qıldı üzünə bu aşiqi-qəllaşımız.***

Lakin Əhli-Həq, Ələvi-Bektaşı və digər təsəvvüfcərəyanlarının iddiasına görə, ŞahXətaiməhz"zati-mehman" məzhəriolmuşdur. Yəni Həqq-Təala onun vücudunda "qonaq" olmuşdur.

Bəs,digərzat,yəni"zati-qürs" nəyiifadə edir? "Zati-qürs" birşəxsinvücudundadoğulandan rehlətedənə qədər (ürfan

əhlidünyadan gedən böyük zatlar haqqında "öldü" yox, "rehlət etdi"və yaxud da "pərdə çəkdi" ifadələrini işlədirlər) var olan Həqq-Təaladır. "Zati-qürs"ünməqamı"zati-mehman"ın məqamındanqat-qat üstündür.

Bu fikirlərə əsasən söyləmək olar ki, Aşıq Ələsgərin HəzrətƏli (ə) və Həzrət Mehdi (ə) haqqında düşüncələri tamamilə ürfanidir vəadi dinçiliklə heç bir rabitəsi yoxdur.

Ümumiyyətlə,Aşıq Ələsgərinyaradıcılığındakı Həzrət Əli (ə) obrazi dini ehkamçılıqdan çox uzaq, birbaşa könül sirlərinə bağlı,eynizamanda, mürşid,piröncüllüyündə əxzedilənbilikvəinanclarlaizaholunmalıdır. Ustadaşığın yaradıcılığında rastgəlinən mollaların, şəriətçilərin tənqidi, çoxlarının izah etdiyi kimi, onun dinə üsyanından, əski Sovet alimlərinin də dediyi kimi, onunateistdünyagörüşündən irəligəlmir. Aşıq Ələsgərdindar,təqvalı, dərinetiqadamalikbirelağsaqqalı olmuşdur. Onunmollalara və məzhəbçilərə üsyanı da məhz elə təriqət məsələləriilə bağlıdır. Aşığınürfani dünyagörüşü,şəriəttərəfindən küfrdamğasıvurulan fikirləri şübhəsizki,zamanının ruhaniləritərəfindən təqibolunmuşdur. Bufikirlərheçdə maddialəmlə,zahirigözəlliklərinvəsfi və məddahlığlıilə bağlıdeyil, məhztəsəvvüf dünyagörüşü ilə əlaqədardır.Aşıq Ələsgərin Həzrət Əli haqqındakı bir qoşmasına diqqətedək:

*Sidqinən tutmuşam, çağırram səni,*
*Xeybərin qalasın alan, ya Əli,*

*Hər kim ayırırsa yarı yarından,*
*Eylə tətxü tacın talan, ya Əli.*

*Aslan olub Merac yolunda yatan,*
*Əbu Cəhlin daşın havaya atan,*

*Xurma lifəsiynən barmağın çatan,*
*Ağ devi zindana salan, ya Əli.*

*Ələsgərə nişan verən almanı,*
*İslam edən Qəmbərini, Salmanı,*

*Musaya öyrədən Turda kəlm əni,*
*Cəbrayıla ustad olan, ya Əli.*

Elə bircə buşeirbəsidiki, Aşıq Ələsgərşəriətruhaniləritərəfindən təqib olunsun. Çünki bu qoşmadakı fikirlər Əlipərəstürfani dünyagörüşün davam etdiyi min ilə yaxın (bəlkə də artıq)birmüddətdə çoxaz sayda müəlliftərəfindən bu qədər açıq və cəsarətli şəkildə deyilmişdi. Həzrət Əlinin vəsfivə mədhi istərŞəriət, istər Təriqət, istər Mərifət, istərsə də Həqiqət məqamlarında seyr edən şair, kəlamxan, quyəndə və qəzəlxanlar tərəfindənmüxtəlifzamanlarda bol-bolyazılmışdır. Məsələn,Anadolu ozanlarından olan Aşıq Zakiri yazır:

***Zakiri, bilmem nideyim?***
***Hangi diyara gideyim,***
***Ağular verin yudayım***
***Ol Aliye deyin gelsin.***

Ürfanşairləri(əhli-mərifət), ocümlədən, Hafiz, Şirazi,MövlanaCəlaləddinRumikimiariflər Həzrət Əlimövzusunuməhzarifanə şəkildə işıqlandırmışlar. Lakin“həqiqət” mərhələsində, yəni Əhli-Həq zümrəsindəki Əli obrazı artıqəsasbaşlanğıckimi mövcuddur. Yuxarıdadaqeydetdiyimizkimi, Həqiqətinbirzümrə olaraqyaranışı məhzHəzrət Əlininhülul vasitəsilə Sultan Sahaka (Sultan İshaqa) təbdil etdiyi ruhimütləq ilə başlayır (Əvvəlki fəsildə buna geniş izahat vermişdik).

Bu mənada Əhli-Həqlər tərəfindən söylənilən təməl fikirlər gizlitutulur. Çünki o fikirlərin məxluqat arasında yayılması gerçəklərdən və Əhli-Həqlərin dediyi kimi, "gerçək ərənlər"dən xəbərsizolankütlə arasında fəsadavə nifaqasəbəbolabilər. Elə busəbəbdən də əksər təsəvvüf ərbabı həqiqətin zühurunu gözləyir.Belə birmənzərə fonunda Aşıq Ələsgərin buqədər(yuxarıdatəqdimetdiyimiz şeirdəkikimi) açıqfikirlərbəyanetməsiinsanda təəccüb doğurur. Bu təəccübün bir səbəbi də ondadır ki,həmin qoşma daşıdığı məna yükü və sirli mətləblər baxımındantamamilə Əhli-Həq kəlamlarına uyğun gəlir. Sanki Aşıq Ələsgərbir"quyəndə"kimi Əhli-Həqlərdənbatinisifarişalaraq, bukəlamıyazmışdır. Birməsələ də varki,buqoşmadakıfikirlərdiniehkamçılıqdanuzaqolduğuqədərdə xalqdeyimindənfolklornümunələrindəndə uzaqdır. Yənibufikirlər, dahadoğrusu busirlər xalqarasındadamövcudola bilməzdi. Lakinhəmin qoşmadakı iki misra, yəni,

*Hər kim ayırırsa yarı yarından*
*Eylə təxtü tacın talan ya Əli –*

– misraları dastan ənənələrindəngəlir. Belə ki,buradaHəzrət Əli ənənəvi olaraq, sevgililərə buta verən Mövla, AğalarAğası kimi təqdim olunur. Həzrət Əlinin sevənlərə buta verməsi birçoxdastanlardanbizə məlumdur. Şeirdəki"yarıyardanayıranların"cəzasınınməhzHəzrət Əlidənistənməsi bizimfikrimizcə, folklor məfhumudur. Ümumiyyətlə, xalq məfkurəsindən, el ağzından qidalanan Aşıq Ələsgər şeirləri hər zaman onunbir xalq adamı, el atası olduğunu gözlər önünə sərir. Həm də bufaktorun, yəni Həzrət Əlinin sevgililərə buta vermə məsələsininkökü əskiTürk təsəvvüfqaynaqlarınasöykənir. Həzrət Əlininhətta öz zamanından çox-çox əvvəl də yaşadığı, mövcud olduğufikirləri müxtəlif

təriqətlərdə, təlimlərdə özünə yer tapmışdır. Bubaxımdandastanyaradıcılığındakı Həzrət Əli obrazıdinideyil,mistikvə ürfanidir(“Koroğlu” dastanının“Ağcaquzu”boyundakıHəzrət Əliilə qarşılaşma budeyilənlərə misalolabilər.Buradavə ümumiyyətlə, birçoxdastanlarda Həzrət ƏliXızrPeyğəmbərlə eyniləşdirilir. Xatırlatmaqyerinə düşərdiki,təsəvvüfdəki bəziqaynaqlara əsasən, XızrİlyasdaHəqqTəalanın zati-məzhəri sayılır və onun Həzrət Əli ilə eyni vücuddaolması bu baxımdan mənalandırılır).Təqdimolunan qoşmadakı mənamərtəbələri müxtəlifqatlarda təzahür edir. Buradakı şəriət rəvayətləri də gerçək tarixihadisələr də mistik-əfsanəvi elementlər də, qatı təsəvvüfi fikirlərdə mövcuddur. Məsələn, ikinci misrada ifadə olunan “Xeybərinqalasın alan ya Əli” fikri real tarixi hadisəni təsvir edir. Söhbətİslamiyyətə qarşı vuruşan yəhudilərinsığındığıXeybər qalasından və bu qalanı fəth edən Həzrət Əli ibn Əbu Talibdən gedir. Bufəth zamanı Həzrət Əlinin, Aşıq Ələsgərin başqa bir mənzumədəifadə etdiyi kimi, “yetmiş min batmanlıq dəri-Xeybəri” qoparıbatması məşhurdur. Bu rəvayət bütün İslam tarixçiləri tərəfindən təsdiq olunmuşdur.İkinci bənddəki

*Aslan olub Merac yolunda yatan –*

– misrası Həzrət Muhəmmədin (s) Meracı haqqındakıqatıtəşəyyö(şiə) hədislərinə istinadedir. Buhədislərə əsasən,Meracdaikən,Rəsullahınyolununüstünə biraslançıxır.Peyğəmbər Meracdan qayıtdıqdan sonra bu əhvalatı Həzrət Əliyədanışır. Həzrət Əli isə “həmin aslan mən idim” deyə ərz edir.

Qoşmanınmöhürbəndindəki sonikimisraşeirinkulminasiya nöqtəsidir:

***Musaya öyrədən Turda kəlm əni,***
***Cəbrayıla ustad olan ya Əli.***

Həqiqətən də bu misralar qeyri-adi kəramət yükünə sahibdir.Məlumdur ki, HəzrətiMusaHəzrət Əlidən çox-çox qabaq,minilləröncə yaşamışdır. Yəni,Həzrət Əlionanecə kəlamöyrədəbilərdi? Belə mətləblər təsəvvüf və ürfan çərçivələrini də çoxdanaşmış həqiqətlərdir. Bəli, məhz "həqiqət"! Termin olaraq (ümumihaldaişlətdiyimizə baxmayaraq, "təsəvvüf" əslində birsufitermini, yəni təriqət anlayışına daxil olan bir şeydir) "təsəvvüf"təriqət, "ürfan" isə (ərəbcədə "mərifət", "arif", "ürfan" sözləririninbirtörəməsiolaraq) mərifətməktəbinə şamildir. Bu mənadatəsəvvüfvə ürfanqəliblərinisındırmaq məhz "həqiqət"ə daxilolan nəsnələrə xasdır.Burada türk şairi Mehmet Demirerin çox gözəl bir şeirindənkiçik bir sitat gətirmək yerinə düşərdi:

***Leyla çiçeklere şöyle bir baktı***
***Baktı ki, çiçekler Ali diyordu,***
***Aliye ulaşmak aşk ister kardeş***
***Aşka gelen güller Ali diyordu.***

***Şemsini aradı yıllarca belki***
***Mevlana dönerken Ali diyordu.***
***Nemrutun yaktığı alevli ateş***
***Birden söner iken Ali diyordu.***

Yuxarıdakıfikir,yəni Həzrət ƏlininMusapeyğəmbərəkəlam,danışıqöyrətməsi sırf Əhli-Həq rəvayətlərinə aiddir.Dinlərintarixindəndə məlumdurki, HəzrətiMusanınnitqiqüsurluolub. O,danışandakəkələyərmiş. TurdağındaAllahTəalanın mübarəksəsinieşitdikdə isə vəcdvə

həyəcandanPeyğəmbərin dili demək olar ki, tamamilə tutulur (maraqlı olanbaşqabirşey odurki, Peyğəmbərlərininhərəsiilə birşəkildəünsiyyətsaxlayanAllah, nitqiqüsurluolan peyğəmbərini"kəlamullah" ("Allahla danışan" etdi). Aşıq Ələsgər deyir ki, buzamanHəzrət Əlionayardımetdi – onaməhzkəlmə,yənidanışmaqöyrətdi. Burada daha maraqlıbirfaktmövcuddur.

Tarixdən də bəllidir ki, Həzrəti Musa hər dəfə Fironun sarayınagedəndə qardaşı (özü də zamanının bir Peyğəmbəri olan) Harunuda özü ilə aparırdı. Harun həm peyğəmbər, həm Musanın qardaşı,həm yaxın köməkçisi və həm də (ən əsası) Musanın danışan diliidi. Qeyd etdiyimiz kimi, Həzrəti Musanın nitqi qüsurlu olduğuüçün çox zaman Misir fironu ilə Harun danışırdı.

Lakin, Tur dağına Həzrəti Musa tək gedirdi. Həmin dağdaonavəhygəlirdi. Yuxarıdaqeydetdiyimizkimi,vəhyanındaHəzrətiMusanınnitqidaha daçətinləşirdi. Aşıq Ələsgəriniddiasına görə, HəzrətiMusayabuzamanHəzrət Əliköməkedirdi.

İzahlardanda göründüyükimi, Aşıq Ələsgərin buqoş-masındakı son iki misranın məna yükü çox ağırdır. Son misrada isə, ustad aşıq elə bir məsələyə təmas etmişdir ki, bu məsələ dinimistikrəvayətlərçərçivəsindənçıxaraq, dərinfəlsəfiməzmundaşıyır. ***"Cəbrayılaustadolanya Əli"*** misrası, ümumiyyətlə,dinimotivlərlə əlaqəlideyil. Dinanlayışıçərçivəli, ehkamlarlaidarə olunanbirinancsistemidir. Buməsələ isə sırf eşqin,cazibənin,məzhərinvə təcəllanın elementlərinidaşıyır. Bunabənzər fikirlərə biz Göyçəli Aşıq Nəcəfin bir divanisində də rastgəlirik:

***Gecə-gündüz zikr eyləyib,***
***Səni salan yadına,***
***Mətləb alar, mətəl qalmaz,***

***Tez yetər muradına.***
***Cəmi darda qalanların***
***Yetişənsən dadına;***
***İbrahimə sən eylədin***
***Narı gülüstan, Əli***!

Bu və buna bənzər fikirlər ənənədən gəlməklə bərabər, həm də mövzuboyuyerigəldikcə toxunduğumuz"Ələst"aləmi haqqındakı fəlsəfənin əsasından törəmişdir.

Birhaşiyə çıxaraq, söyləməkistərdikki, butip ənənəyə müasirelşairlərinin şeirlərində də rastgəlirik. Onlardövr və məkan etibarilə yazdırları misraların fəlsəfi yükünə çox da varid olmayabilərlər.Bu,mümkündür. Ancaqdedyimizkimi,bubir ənənədir.Məsələn, məşhurel şairi BorsunluMəzahir Daşqının bir şeirində oxuyuruq:

***Ələmlə dağıtdın bürciXeybəri,***
***"Ya mənhu" deyəndə böldün Əntəri.***
***İşarət eylədin gün döndü geri,***
***Ərrəhman eylədi sənə ziyarət.***

Bufikirlərinbənzərinə biz AşıqQurbanidə rastgəlirik. Ənənə məsələsinə dair nümunələr içərisində tanınmış el sənətkarı ustad Aşıq İskəndər Ağbabalının misraları da diqqətimizi çəkdi:

***Mən ürfan adamıyam,***
***Aşıq kimi aldım nam.***
***Sözlə şenlənir xanam,***
***Ya Rəsul, səndən mədəd.***

## AŞIQ NÖVRƏS İMAN YARADICILIĞINDA ƏHLİ-BEYT (Ə) SEVGİSİ

*İbtida dilimdə olub «Bismilləh»*
*Sığınmışam ol Xudayə, gəlmişəm.*
*Mənim əzbərimdir «lə-fətə-illə»,*
*Əxz eyləyib yüz min ayə, gəlmişəm.*

Bu misralardangöründüyü kimi gözəl təbə malik olan istedadlı qələm sahibi Aşıq Növrəs İman Aşıq Ələsgər ocağının layiqli nümayəndələrindən biri olub. Tez parlayıb tez də sönən Növrəs İman çoxlarının qəlbində özünə məxsus yer tutmuşdur.

Növrəs İman 1903-cü ildə Göyçə mahalının Ağkilsə kəndindəAşıq Ələsgərin qardaşı Məşədi Salah kişinin evində dünyaya göz açmışdır.Növrəs İman Məşədi Salahın ortancıl övladı idi. Kiçik yaşlarından İmanın dinə olan etiqadını görən atası onu Hüseynqulağalı (indiki Nərimanlı) kəndində Bala Molla adlı çox savadlı bir din xadiminin mədrəsəsində təhsil almağa qoyur. Mədrəsə uşaqları içində istedadı və qabiliyyəti ilə seçilən Növrəs İman müəlliminin və tələbələrin diqqətini tez bir zamanda özünə cəlb edə bilir. İmanla bir yerdə təhsil alanlardan biri- Nərimanlı kənd sakini aşıq-şair Bəhman deyirdi: «İman gündəlik dərsdən əlavə bir neçə dərs sonranı da öyrənirdi ki, bu da bizi və mollanın özünü çox heyrətləndirirdi». Məktəbi bitirdikdən sonra bu yeniyetmə cavan kitablardan ayrıla bilmir. Yaxın qohumlarının verdikləri məlumata görə, Növrəs İman əlinə düşən dini ədəbiyyatları, bədii və tarixi kitabların hamısını oxuyardı. Deyilənlərə görə Quranı əzbər bilirmiş. BizNövrəs İmanın yaradıcılığına baş vurduqda bu deyilənlərin həqiqiliyinin bir daha şahidi oluruq:

*Dərs alanda mən dil açdım ol Qurana, bismilləh,*
*Şəriətdə şərtdi bizə- müsəlmana «bismilləh»*
*Aç yükünü, göstər görüm, nədir mətahın sənin,*

***Söylə görüm, bələdsənmi yol ərkana, bismilləh.***

***İbtidadan dərs alanda oxumuşam yeddi «sin»,***
***İki «ləm»dı, səkkiz «cim»di, bir «əlif»di, yeddi «sin»***
***Arif olan, hesab eylə bu ayənin yeddisin,***
***Sərrafsansa ləl seçməyə, gir meydana, bismilləh.***

Aşıq Ələsgərin oğlu Aşıq Talıb Növrəs İman barədə xatirələrindən birində deyirdi: «Bədbəxt İmanın (Aşıq Talıb Növrəs İman haqqında danışarkən «Bədbəxt İman», ya da «İman bədbəxt» deyib qəhərlənərdi-İslam Ələsgər) təzə söz yazan vaxtları idi. Dədəm (Aşıq Ələsgər) Nəcəfin əlində İmanın sözü yazılmış vərəqi görəndə soruşdu:

-A bala, o nə kağızdır?

Nəcəf dedi:-İmanın sözüdü.

-Oxu, görüm.

Nəcəf sözü oxudu, Aşıq Ələsgər qulaq asdı. Sonra dedi:-İmanı buraya çağırın. Deyin ki, söz dəftərini də gətirsin.

Biz İmanı çağırdıq. İman gəldi və yazdığı şeirləri oxumağa başladı. Dədəm diqqətlə İmanın sözlərinə qulaq asırdı. Bir də gördük ki, gözlərindən yaş tökülür. İman təəccüblə soruşdu:-Ay dədə, niyə ağlayırsan?Aşıq Ələsgər dedi:-A bala,sənin halına ağlayıram.İman dedi: -Niyə, mənə nə olub ki?!Aşıq Ələsgər dedi:-Bala, bu təb axırda səni puç edəcək.İman heç söz götürən deyildi. Dədəmin belə deməsi hamımıza qəribə göründü. Elə bil İmanın da xətrinə dəydi. O, dədəmə boz-boz cavab verdi:

-Səndə olan təb heç kimdə yoxdu, bəs səni niyə puç eləmədi?!

Aşıq Ələsgər dedi: - Zəmanə bəd gəlir, sənin xasiyyətin zəmanə ilə tutmayacaq. Bədbəxt olacaqsan, ona görə ağlayıram-deyib gözünün yaşını sildi.

Günlər, aylar keçdi, illər bir-birini əvəz etdi, bu fani

dünyada çox şeylər dəyişdi. Çar hakimiyyəti yıxıldı. Daşnaklar Göyçəni viran etdilər. Sonra sovetlər gəldi. Sovet hakimiyyətinin qurulması ilə sanki, dövran öz axarına düşdü. Göyçədən didərgin düşmüş göyçəlilər yenidən sovet dövlətinə bel bağlayıb doğma yurd-yuvalarına qayıtdılar. Yazı-pozu bilənlər kənd yerlərindəki idarələrdəişə cəlb edildi.Növrəs İman Kəlbəcər rayonunun Seyidlər kəndində Kənd Şurasının katibi vəzifəsində işləməyə başladı. Növrəs İman həmin illərdə yazdığı şeirlərdə Sovet hakimiyyətini alqışlayır, tez-tez Leninin, Nərimanovun adlarını çəkir, onlara xalqın məhəbbətini ifadə edən sözlər danışırdı. Lakin hadisələrin sonrakı gedişi Növrəs İmanın bu quruluşa olan münasibətini dəyişdi. Odur ki, Kənd Şurası vəzifəsindən uzaqlaşdı. Sovet hakimiyyətinin dinə, imana, Qurana, məscidlərə, axundlara, hacılara, kərbəlayılara, məşədilərə, seyidlərə- bir sözlə mənəvi zənginliyə malik olan insanlara laqeyd münasibətini görən İman saz götürüb aşıqlıq etməyi daha üstün tutdu.

1920-ci ilərin acı və mürəkkəb tarixi hadisələri Növrəs İmanın qəlbini sıxırdı. 1930-cu ildə 27 yaşın içində olarkən şair-aşıq Göyçəni tərk etdi və bir daha geri qayıtmadı. Aşıq Ələsgər onun başına gələcək bu hadisələri əvvəlcədən xəbər vermişdi.

***Növrəstə İmanam, dilimdə dilək,***
***Qulların imdadı Mövladan gərək.***
***Vahidi ləmyəzəl, özün ol kömək,***
***Səndən qeyri ümidvarı bilmədim.***

Növrəs İmanın ailə həyatındakı xoşagəlməz hadisələr onun doğma yurdunu tərk etməsində az rol oynamamışdı.Belə ki, Növrəs İman gənc yaşlarında qonşuluqda olanbir qıza nişanlanmışdı. Aradan bir müddət keçəndən sonra atası Məşədi Salah nişanı geri qaytardı və böyük oğlunun vəfatından sonra dul qalmış gəlini Gülnisə xanımı (Aşıq Ələsgərin qızı) məcburi şəkildə

İmana nigahladı. Məşədi Salah bu işi əvvəlcə məsləhətləşmiş, lakin Aşıq Ələsgər buna razılıq verməmişdi. Etirazın müqabilində Məşədi Salah deyir:

- Oğlum Qurban öldu, evim yıxıldı, sən də razı olma ki, Cülnisə evdən çıxa, bir də evim yıxıla.

Növrəs İman da əmisi kimi düşünürdü. Lakin qohum-qonşunun öyüd- nəsihəti, atasının göz yaşları ona öz təsirini göstərdi.Bir müddət keçəndən sonra isə bu işin əskikliyini bilir və qardaşının arvadı ilə evlənməyi böyük qəbahət hesab edərək, vicdan əzabı çəkməyə başladı. Beləcə dərd üstünə dərd gəldi. Bu dərd mənəvi cəhətdən İmanı çox sarsıtdı. Mənəvi əzaba dözə bilməyənNövrəs İman Göyçəni tərk edib getdi. Bir qədər sonra atası Məşədi Salah böyük səhvə yol verdiyini anladı və dedi:

- Öz evimi özüm yıxdım. Beləcə Məşədi Salah 1933-cü ilədək, yəni ömrünün sonuna qədər mənəvi əzab çəkdi.

Növrəs İman «Doyunca» rədifli qoşmasında Göyçəni tərk etməsinin səbəblərini göstərir və oradaatasına müraciət edərək deyir:

***Əziz ata, itkin düşən fərzəndin,***  
***Ağla hey düşəndə yada, doyunca.***  
***Mənim gərdənimdə çarxın kəməndi,***  
***Dolandırar bu dünyada, doyunca.***

***Məndən dost-qohumaazca gileylə,***  
***Dalımca nə qarğa, nə hədyan söylə.***  
***Əl götür duaya, münacat eylə,***  
***Bəlkə yetəm bir murada, doyunca.***

***Halal qıl İmanı, qohumqardaşım,***  
***Çeşmim ağlar, qaranlıqdır günəşim.***  
***Əgər bir ilahi düzəltsə işim,***

***Şad olaram, Kərbalada, doyunca.***

Görəsən Növrəs İman muradına yetdimi? Kərbalada doyunca şad oldumu? Onu bir Allah bilir, birdə İmanın özü.

Növrəs İmanın«Gəlmişəm» rədifli qoşmasından görünür ki, o, istədiyinə çatıb:

***Çəkilib məddimiz doğru ərkana,***
***Əbəs düşməmişəm mən bu cahana.***
***Xidmət eyləmişəm Şahi-Mərdana,***
***Bel bağlayıb Mürtəzaya, gəlmişəm.***

***Peyğəmbər nə lazım, gətirmə dilə,***
***Sən onun əmrinə gəl, düzəl hələ.***
***Növrəstə İmanam, olmuşam belə,***
***Yön çevirib Kərbəlaya gəlmişəm.***

Kiçik yaşlarından dini ruhda tərbiyə və təhsil alan Növrəs İman bütün varlığı ilə haqq olan Cəfəri məzhəbinə bağlanmış və demək olar ki, yaradıcılığını Əhli-beytə (ə) məhəbbətlə bəzəmişdir. Aşığın yaradıcılığına baş vurduqda deyilənlərin şahidi oluruq. Belə ki, aşığın yaradıcılığı boyu Qurani-Kərimin ayələrindən, Peyğəmbərimizin (s) buyurduğu hədislərdən, «Üsuliddin»dən, «Firuiddin»dən, şəriət qanunlarından yerli-yerində istifadə edilmişdir.

Bildiyimiz kimi, İslamdinin maarifi üç prinsip üzərində qurulub: «Üsuliddin», «Firuiddin» və Əxlaq. «Üsuliddin»- dinin kökүdür, «Firuidddin»- dinin budaqlarıdır. Əxlaq isə dinin meyvələridir. Aşıq Növrəs İman «Eyləyər» rədifli qoşmasında «Üsuliddin»in maddələrini bir-bir sadalayır və izah edir. Üsuliddin beşdir: Tövhid, Ədl, Nübuvvət, İmamət, Məad.

***«Üsuliddin» demək, dinin köküdür,***
***Tövhidi -bir Allah aşkar eyləyir.***
***Qul-hu vəllahidə dəlildi əhəd,***
***Dildə təkliyini iqrar eyləyir.***

Bu beytdə haqqaşiqi olan Növrəs İman çatdırır ki, Üsuliddin dinin köküdür,bu kökü Allaha etiqad təşkil edir. Yəni, Tövhid kəlməsinin mənasını «İxlas» surəsinin birinci ayəsində olduğu kimi bizə çatdırır. «İxlas» surəsi dörd ayədən ibarətdirAllah-Təalabuyurur: «De: O Allah yeganədir. Allah ehtiyacsızdır. Doğmayıb və doğulmayıb. Heç bir bənzəri yoxdur və heç kimsənə ona tay ola bilməz».

***İkinci Ədldir, Ədalət bir ad,***
***Vaməllah yuridən zulmən lil ibad.***
***Yəni zülm eyləməz, eyləyər imdad,***
***Dolandırıb hərdən ehzar eyləyir.***

Bu bənddən də göründüyü kimişair Yaradanın ədalət sifətini vəsf edir və bildirir ki, Allah zülm edən deyil. Çünki zülm eyləmək qüdrətsizliyin və acizliyin nişanəsidir. Allah isə hər şeyə qadirdir. Əgər insan Allaha etiqad göstərsə və ədalətli olsa, heç zaman əzab çəkməz.

***Üçüncü kəlmədə nübuvvətdi həm,***
***Yüz iyirmi dörd min peyğəmbərdi cəm.***
***Əvvəli Adəmdir, axırı Xatəm,***
***Dəlili–əhvalıniqrar eyləyir.***

Allah tərəfindən bəşərin hidayəti üçün yüz iyirmi dörd min peyğəmbər gəlib. Bu peyğəmbərlərin əvvəlincisi Adəm(ə), sonuncusu Həzrəti Mühəmməddir (s).Şair bu beytdə Allah

elçilərinin sayını,əvvəlinci və axırıncı peyğəmbərlərin adını deyib.

***Məkana Muhəmmədxəlq olub əzəl,***
***Əba –Əhəd vardı o nuri- gözəl.***
***Vəlahu kan Rəsulullahdır əzəl,***
***Kulli-şeyyin əlimə huşyar eyləyir.***

Bu bənddə şair çatdırır ki, Allah ilk olaraq Mühəmmədin(s) nurunu yaradıb. Hədisi-Qüdsdə buyurulub: «Ya Mühəmməd(s), əgər sən olmasaydın, fələkləri yaratmazdım.Həzrət Əli(ə) olmasaydı, səni yaratmazdım. Fatimeyi-Zəhra(s.ə) olmasaydı, heç birinizi yaratmazdım». Müasir dövrümüzün şairlərindən olan Mirzə Dahi Almaslı da bir qəzəlində bu hədisi nəzmə çəkib:

***Xəlqi-aləm səbəbi Həzrəti- Zəhrada imiş,***
***İki dünya evinin zinəti Zəhrada imiş.***

Bəndin digər misralarında şair Qurani-Kərimin «Əhzab» surəsinin 40-cı ayəsinə işarə edir. Ayə belədir: « Mə kənə Muhəmmədun əbə-Əhədin min ricalikum va ləkin Rəsulullah va xatəmən-nəbiyyin. Va kənəllahu bikulli şeyin alimə» - «Mühəmməd (s) kişilərinizdən birinin atası deyildir, lakin Allahın Rəsuludur və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir».

***Ona təlim verib elmi-ilahi,***
***Göstəribdi bizə o doğru rahi,***
***Məşhərdə məxluqat çəkəndə ahi,***
***Şəfaət o şahi-əbrar eyləyir.***

Bu bənddə də Peyğəmbərin(s) qiyamət günündə bizlərə şəfaət edəcəyini, Quran ayələri işığında və sünnət güzgüsündəçatdırır.

***İmamət Əlini haqq bil, inan,***
***On bir övladıynan ol Şahi-Mərdan.***
***«Valiyyikumullah» ayeyi-Quran,***
***Nisbəti-Əhmədi-Muxtar eyləyir.***

Bu bənddə şair Həzrət Əlinin (ə) və on bir imamın ümmət üzərində olan vilayət (rəhbərlik) haqqını peyğəmbərin(s) hədisi ilə bizlərə çatdırır. Belə ki, peyğəmbər (s) buyurub: «Əl-xüləfəi min-bədi isnə-əşəra kulluhum min- qureyş»- «Məndən sonra xəlifələr on iki nəfərdir və hamısı da qureyşdəndir».

Üçüncü misrada söhbət «Vilayət» ayəsindən gedir. «Vilayət» ayəsi «Maidə» surəsinin 55-ci ayəsidir.Ayədə Allah-Təala buyurub: «İnnəmə valiyyukumullahu varasuluhu valləzinə əmənu əlləzinə yuqımunəs-salatə va yutunəz-zəkətə vahum rakiun».- «Sizin rəhbəriniz ancaq Allah, onun peyğəmbəri və o iman gətirənlərdir ki, namaz qılır və ruku edərək zəkat verirlər».

Bu ayənin şəni-nüzulunda Qurani-Kərimə təfsir yazanİbnAbbas və Peyğəmbərin (s) sevimli səhabələrindən olan Əbazəri-Ğiffaridən nəql olunub ki, ayə Həzrət Əlinin (ə) namazda ruku halında üzüyünü fəqirə verməsinə işarədir. Klassik ədəbiyyatımızın bir çox nümayəndələri, o cümlədən M. Füzuli və S.M.Şəhriyar öz yaradıcılıqlarında bu ayənin Həzrət Əliyə aid olmasına işarə ediblər.

***Üzükbəxş eyləmişsə sailə ol şah namaz üstə,***
***Əlində əhli-həqqin hər nə varsa nəzri-saildir.***

S.M.Şəhriyar isə deyib:

***Yeri döy Əli qapısın, odur ey gədayi-miskin,***
***Kərəmiylə padişahlıq üzüyün verən gədayə.***

Növrəs İman da bu bənddə «Vilayət» ayəsinə və «Mənzilət» hədisinə işarə edib. «Mənzilət» hədisində Peyğəmbərimiz (s) buyurub: «Ya Əli, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Bir şərtlə ki, məndən sonra peyğəmbər olmayacaq. Sən imam və imamlar atasısan».

***Mim, yey ölərsən, həm dirilərsən,***
***Ayin adil qiyaməti görərsən.***
***Dal qurar divanın onda bilərsən,***
***Haqq divan bir qəni səttar eyləyir.***

Bu bənddə isə şair Qiyamət ayələrindən olan «Bəqərə» surəsinin 28-ci ayəsinə istinad edir. Ayə belədir : «Keyfə təkfurunə billəhi va kuntum ənvatən fə əhyəkum summə yumitukum summə yuhyiykum summə ileyhi turcəun»-«Allahı necə inkar edirsiniz, ölü idiniz, o sizi diriltdi. Sizi yenə öldürəcək, sonra sizi dirildəcək, sonra da onun hüzuruna qaytarılacaqsınız».

***«İnna-nəhnu nəhyəl mövt»kəlamı,***
***Mənada müxtəsər öləcək hamı.***
***Tapmasam axırda dərdə əncamı,***
***İstəsə Heydəri-Kərrar eyləyir.***

Bu bənddə şair «Yasin» surəsinin 12-ci ayəsinə istinad edir. Ayə belədir: «İnnə nəhnu nuhyil mautə va nəktubu mə qaddəmu va əsərəhum va kullə şeyin əhseynəhu fi iməmim mubin» - «Həqiqətən biz ölüləri dirildərik. Etdiklərini və qoyub getdiklərini də yazırıq. Hər şeyi açıq aydın kitabda (lövhi-məhvuzda) qeydə almışıq».Bu ayənin şəni nüzulunda qeyd olunur ki,səhabələrdən bəzisi peyğəmbərin(s) yanına gəlib «iməmim mubin»dənməqsəd nə olduğunu sual etdilər. Peyğəmbər (s) buyurdu: «imami-mubin»dən məqsəd nə Tövrat, nə İncil,nə Zəbur, nə də Quran

deyil, məqsəd Həzrət Əlidir(ə). Şair də qeyd edir ki, Qiyamət günündə günahkarlara ancaq Həzrət Əli (ə) kömək edə bilər:

*Əlinin məqamın anlasa hər kim,*
*Ol kəs də kəsilər nəfsinə hakim.*
*Əlidir Quranda «Ta-ha»vu «Ya-sin»,*
*Həm «Ya-sin»də olan«İmamin-mubin»*

Növrəs İman «Usuliddin» barədə yazdığı «Ustadnamə»sini bu misralarla tamamlayır:

*Aldanıbsan əgər cifəyə hərdəm,*
*Çəkilər hesabı o gündə möhkəm.*

*Dilində vaynövsə, könlün alar qəm,*
*Növrəs İman sizə izah eyləyir.*

Bu son bənddən bir daha aydın olur ki, Növrəs İman İslam dininin əsası olan «Üsuliddin»i mükəmməl bilmiş və onun maddələrini çox gözəl şəkildə şərh edərək nəzmə çəkmişdir.

İslam dininin maarifinin ikinci bölümünü əməllər təşkil edir. Bu barədə də Növrəs İman öz qələmini sınamış və «Eylə» rədifli ustadnaməsində «Firuiddin»in maddələrini açıqlamışdır:

*Dinin yarpaqları «Firuiddin»dir,*
*Oruc tut, namaz qıl, ibadət eylə.*
*Beşdən bir «xüms» ver, ondan bir «zəkat».*
*Zəlilə, müztərə inayət eylə,*

Bu bənddə şair «Firuiddin»in dörd maddəsini şərh edir və deyir:

Hər bir müsəlman gündəlik on yeddi rükət namazını qılmalı, ildə bir ay Ramazan ayında orucunu tutmalı, ildə bir dəfə

qazancının beşdə birini xüms və ondan birini zəkat verməlidir. Eyni zamanda imkansız insanlara da kömək etməlidir.

Şair ikinci bənddə deyir:

***Şərə fitva verib, saxlama dildə,***
***Qəlbdə möhkəm ol, bu doğru yolda.***
***Məişətdən artıq var olsa əldə,***
***Həcc qıl, nəfsinəəmanət eylə.***

Bu bənddə aşıq əməllərdən beşincisi olan «Həcc» dən söhbət açır və bildirir ki, insan gərək ömründə bir dəfə Allah evi Kəbəni ziyarət edə. Növrəs İmanın bu şeirinə uyğun əmisi Aşıq Ələsgərin də bir bəndini qeyd etməyi lazım bildik:

***Əl çəkmə dünyada sövmü, salatdan,***
***Təmiz ver, qalmasın xümsü-zəkatdan.***
***Ələsgər, xofv etmə puli-siratdan,***
***İrəhbərdi cənab Əli qabaqda.***

İstər Növrəs İman, istərsə də əmisi Aşıq Ələsgər islam dinin incəliklərinə dərindən bələd olmuş və İmam Muhəmməd Baqirin (ə)buyurduğu bir hədisi nəzmə çəkmişlər. Hədis belədir: «İslam dini beş təməl üzrə qurulub: namaz, oruc, zəkat, həcc və vilayət. Vilayət bu dörd şərtin açarıdır, əgər bir kəsin vilayətə etiqadı olmasa, Allah onun heç bir əməlini qəbul eyləməz. Vilayət 12 İmamın rəhbərliyini qəbul etmək deməkdir».

***İsmi-vəsiyyinən vəliyyi-Xuda,***
***Şiri-pərvərdigar Əlidir,Əli.***
***Edən bədənləri sərindən cüda,***
***Sahibi-ZülfüqarƏlidir, Əli.***

Və yaxud:

***Görmüşəm camalın o kərəmkanın,***
***Nuri-təcəllanın, yədi-beyzanın.***
***Demədi mətləbin Növrəs İmanın,***
***Eşqə salan yazıq canım Əlidir.***

Üçüncü bənddə «əmr be məruf və nəhyəz-munkər»dən söhbət açılır:

***Haqqa tərəfdar ol, nahaqdan kənar,***
***Şər işə qarışan axır olar xar.***
***Haqq səni yaradıb faili-muxtar,***
***Nə kin saxla, nə də xəyanət eylə.***

İslam dinində kin saxlamaq və xəyanət etmək ən böyük günahlardan sayılır. Şair də son misrada çatdırır ki, müsəlman olan şəxs bu iyrənc sifətlərdən uzaq durmalıdır.

***Təvəlli-Əlinin dostunu tanı,***
***Təbərri-seçgilən küfrü-düşmanı.***
***Qəsb olan yerlərdən dolan pünhanı,***
***Təmiz tut libasın, xoş adət eylə.***

Bu bənddə Həzrət Əlinin (ə) dostunu Allahın dostu, düşmənini isə Allahın düşməni hesab edir. Şair bu bənddə Qurani Kərimin «Bəqərə» surəsinin 257-ci ayəsinə və peyğəmbərin (s) «Qədir-Xum» xütbəsinə istinad edib. Ayə belədir: «Allah möminlərin dostudur». Həzrət-Əli (ə) də mömünlərin ağasıdır. Peyğəmbər (s) buyurub: «Əli həqq ilədir və həqq də Əli ilədir. Əlinin dostu Allahın dostu, Əlinin düşməni isə Allahın düşmənidir».

***Növrəs İman, sözün eylə müxtəsər,***

***Hər işin haqq bilir, olma mükəddər.***
***Dəşti-Kərbəlayə eylə bir səfər,***
***Öp qədəmgahını, ziyarət eylə.***

Bu bənddə də şair müqəddəsKərbəla ziyarətindən söz açır və hər kəsə bu ziyarətin nəsib olmasını arzulayır.

İrfan sahibi olan Haqq aşiqi Növrəs İmanın yaradıcılığının ana xəttini Qurani-Kəriməehtiram göstərmək, Allahın qanunlarına itaət etmək, peyğəmbərin (s) buyurduğu hədislərə söykənmək və Əhli-Beyti (ə) sevmək təşkil edir. «Başa-baş» rədifli divanisinin ikinci və üçüncü bəndlərinə diqqət yetirərkən bu deyilənlərin bariz şahidi oluruq:

***Yüz iyirmi dörd min nəbi tən pənci –ali-əba,***
***Yeddii əfzəl, beş ulul-əzm yazılmışdır kitaba,***
***On iki imam, çaharidəh məsumin gəlir hesaba,***
***Onları əşrəf yaradıb, bir hökmran başa-baş.***

Bu bənddə söhbət yüz iyirmi dörd min peyğəmbərdən, pənci- təni ali əba (Muhəmməd (s), Həzrət Əli (ə), Fatimeyi-Zəhra (s.ə), İmam Həsən (ə) və İmam Hüseyn(ə)); yeddi əfzəl peyğəmbərdən məqsəd Adəm (ə), Nuh (ə), İbrahim (ə), Yusif (ə), Musa (ə), İsa (ə) və Muhəmməd (s); ulul-əzm -yəni birinci dərəcəli şəriət sahibi olan peyğəmbərlər isə beş nəfərdən ibarətdir: Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Muhəmməd(s); on iki imam və on dörd məsumdan bəhs olunur ki, on dörd məsum da ibarətdir-sonuncu peyğəmbərdən, qızı Fatimeyi-Zəhradan və on iki imamdan. Həmin bənddə şair göstərir ki, bu şəxslər Yaradan tərəfindən məxluqatın ən şərəflisi hesab olunur.

***On səkkiz min aləm ki, var, alimlərin dilidir,***
***Ustadlığı izhar edən Şahi-Mərdan Əlidir.***
***Yetmiş iki millət ki, var həqq-islamın yoludur,***

***Mənada bir əlif ğain olub Quran başa-baş.***

Bənddə on səkkiz min aləmin yaradılışından söhbət açılır və göstərilir ki, o on səkkiz min aləminən böyük ustadı ilahi sirrləri zahir edən ustadlar ustadı Həzrət Əlidir(ə). Bu yaranmış yetmiş iki millət islam dininin qanunlarına tabe olmalı və Qurana ehtiram etməlidirlər. Qurani-Kərimdə Allah-Təala«Ali-İmran» surəsinin on doqquzuncu ayəsində buyurub: «Allah yanında din yalnız islamdır».

Bu əzəmətli irfan sahibi və haqq aşiqi olan insan haqqında yazmaq və danışmaq bir məqalənin materialı deyil. Lakin, Mövlana həzrətləri demiş: "Dəryanın suyunu içməklə qurtarmaz, amma, susuzluğun bitənə qədər içə bilərsən". Biz Növrəs İman çeşməsindən doyunca içə bilməsək də çalışdıq ki, susuzluğumuzu bir qədər azaldaq. Allah –Təaladan bu ulu şəxsiyyətə rəhmət diləyib, məqaləni böyük islam alimi olan İmam Xomeyninin (r.ə) oğlu Əhmədə etdiyi vəsiyyətnaməsindən bir neçə cümlə ilə tamamlayırıq:

«Oğlum, ilk növbədə sənə edəcəyim vəsiyyət budur ki, mərifət əhlinin məqamlarını inkar etmə, bu, cahillərin işidir. Övliyaların məqamlarını inkar edənlərlə oturub durmaqdan uzaq ol.Çünki onlarla əlaqə yaratmaq nəhayətdə insanı haqq yoldan saxlayır. Oğlum, mənəmlikdən, xudbinlikdən yaxanı qurtar. Çünki bu, şeytanın irsidir.Şeytan xudbinlik və mənəmlik vasitəsilə Allah-Təalanın əmrinə tabe olmaqdan boyun qaçırıb. Onun vəlisi və səfisinə –Adəmə(ə) səcdə etmədi. Bil ki, bəni-Adəmin bütün problemlərinin kökü əsli fitnə olan şeytanın irsinə gedib çıxır. Bəlkə də şərif olan bu ayə «Bəqərə» 193 - «Fitnə (müşriklərin fitnəsi) aradan qalxana qədər və din (ibadət) ancaq Allaha məxsus edilənədək onlarla vuruşun»- özünün bəzi məqamlarında fitnənin kökləri-insanların qəlblərinin dərinliklərində kök salıb budaq atmış böyük şeytan və şeytan ordusu ilə Cihadi-əkbərə (nəfslə

mübarizə) döyüşə qalxmağa bir işarədir.Bunagörə də hər kəs öz daxilindən və xaricindən fitnənin götürülməsi üçün səy etməli və mübarizəyə qalxmalıdır. Bu elə bir cihaddır ki, əgər qələbəyə yetişsə, hər şey və hər kəs islah olunur.

Oğlum,namaz qıl, çünki namaz ariflərin meracı, aşiqlərin səfəri və bu məqsədə çatmağın yoludur.

Necə ki,Sədi Şirazi deyib:

***Namaz qılmayana borc vermə aman,***
***Aclıqdan şikayət etsə də haman.***
***O Allah borcunu vermirsə əgər,***
***Bəndənin borcunu de, necə verər?***

# VIII fəsil

*Dodağın xalına ey yar giriftar oldum,*
*O xumar gözləri seyr etmədə bimar oldum.*

*Getdi əldən qərar, çaldım "ənəl-həqq" təbili,*
*Mən də Mənsur kimi dara xiridar oldum.*

*Saldı bir od canıma dilbəri-canana qəmi,*
*Ki, şirin cana doyub, şöhreyi-bazar oldum.*

*Gecə-gündüz üzümə meykədə qapların açın,*
*Məscidi, mədrəsədən mən dəxi bizar oldum.*

*Soyunub zərqü-riya caməsin axır geydim,*
*Qoca arif geyinən xirqəni, hüşyar oldum.*

*Yaman incitdi məni vaizi-şəhrin öyüdü*
*Rindi-sərməstəm, axırda mədətkar oldum.*

*Əl çəkin, eşqilə bütxanəni bir yad eləyim,*
*Mən ki, meyxanə bütün görməyə bidar oldum.*

*Ayətullah Seyyid Ruhulla Musəvi Xomeyni*

# "DƏDƏ QORQUD" DASTANINDA DİNƏ VƏ ƏHLİ-BEYTƏ (Ə) MÜNASİBƏT[132]

**Biz dünyadan gedər olduq**
**Qalanlara salam olsun!..**[133]

**Rəsul əliyhissalam zəmanına yaqın Bayat boyından, Qurqut Ata diyərlər, bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbərlər söylərdi. Həq Təala anın könlinə ilham edərdi."**[134]

Bu dastanda nəzəri cəlb edən ilk amil dastanın eynilə "Qurani-Kərim" kimi "bismilləh"la başlamasıdır. Bu tip başlanğıc" İslam dini"nin zühurundan sonra əksər yazılı mənbələrin əsas atributlarından biri olmuşdur.

VII-IX əsrin yazılı qaynaqlarından olan "Kitabi Dədə Qorqud" dastanı oğuz soyumuzun tarixi keçmişini əks etdirən qəhrəmanlıq səlnaməsi, olduqca zəngin və möhtəşəm mədəniyyət abidəsidir.

Azərbaycan şifahi və yazılı ədəbiyyatının əvəzsiz nümunəsi kimi, dastan azəri-türk qəhrəmanlıq məfkurəsini təqdim etməklə yanaşı boydan-boya milli və bəşəri dəyərləri də özünə məxsusluğu ilə seçilən orijinal bir üslubda tərənnüm etməkdədir.

Dastan qəhrəmanlarının milli və dini özünüdərki sujet üzrə mifdən reyallığa doğru tarixi inkişaf xətti cızır, konkret zaman kəsiyində maddi və mənəvi sintez təşkil edərək xəlitələşir.

"Kitabi Dədə Qorqud"un mənəviyyatı onun poetik ruhu, iç dünyasıdır. Dastanın dış dünyası-maddeyi tarixi isə zamanla bağlı

---

132 R.Fətişoğlunun "Kitabi Dədə Qorqud" eposunda dini dünyagörüşü" məqaləsinin tam mətni əsasında

133 Yunis İmrə

134 Kitabi-Dədəm Qorqut, Bakı, Yeni Nəşrlər Evi, 1999, 704 səh., səh. 30).

olduğundan daha konkretdir. Bu tarix eramızın VII əsridir. Eramızın IX əsrinə qədər davam edən bu dövr Azərbaycanda islam dini məfkurəsinin yazılıb möhkəmlənməsi və hakim rəsmi ideologiyaya çevrilməsi ilə xarakterikdir.

"Dədə Qorqud" dastanı qəhrəmanlarının dini görünüşlərinin formalaşması prosesini izləyərkən dövrün hadisələrinə, islam dininin yayılma mexanizminə nəzər salmaq həmdə ona görə vacibdir ki, dastanın islam dininin mütərəqqi ideyalarının təsirinə məruz qalması və onun cazibə məkanına daxil olması anlaşılsın.

Elə bu məqsədlə də VII-IX əsrlərdə "Ərəb orduları 642-ci ildə Sasani ordularını darma-dağın etdikdən sonra, şahlarının əfsanəvi sərvətlərindən başqa, Sasanilər İranının bütün əraziləri də onların əlinə keçdi."(1)

Nəhəng imperiyanın tərkib hissəsi olan Azərbaycan ərazilərindəərəblərin gətirdikləri yeni dinə münasibət müxtəlif idi.

Şimali Azəribaycanın və Arran əhalisinin rəsmi dini xristianlıq, cənub ərazilərində məskunlaşan əhali isə atəşpərəst idi.

B.B.Bartold qeyd edirdi ki, islam dini zorakılıqla yayılmırdı, nə xristianlar, nə də zərdüştilər təqib olunmurdular.

Bələzuri yazır ki, xəlifələr ərəblərdən «təqaüd alan vədivanın hesabından olan şəxsləri»Azərbaycan torpaqlarında yerləşdirir və onlara əmr edirdilər ki, «əhalini islama dəvət etsinlər».

Bütün islam tədqiqatçılarıqeyd edirlər ki, ərəblərin itaət altına aldığıölkələrin xalqları yeni dini kütləvi şəkildə qəbul etdirdilər. Çünki, B.Rozenin dediyinə görə «ərəblər öz sadəliyi və bəsitliyi iləəzəmətli, yeni bir din gətirmişdilər və dini təqib və didişmələrin təzyiqi altında haldan düşüb əzilən kütlələrin zövqünə bu yeni din xüsusən ona görə uyğun gəlmişdi ki, demək olar hər yerdə yadellilərin ağır iqtisadi zülmündən kütlələri azad edən xilaskar kimi göstərirdi». VIII əsrin əvvəllərinə doğru islam dini Azərbaycanda hakim bir din olur.

Azərbaycanda islam dinini yuxarı silk adamları birinci

növbədəvə tamamilədanışıqsız qəbul etdilər, çünki belə hərəkət etməkləöz imtiyazlımövqelərini itirmədilər.

İslam dininin «Kitabi Dədə Qorqud» qəhrəmanlarının yaşayıb – gerçək yaratdıqları tarixi dövrdə xalq kütlələrinə, eləcəı təbəqəyə belə asanlıqla yiyələnməsinin elmi, tarixi mənzərəsi artıq göz qabağındadır.

Digər tərəfdən islama qədərki dövrdə oğuzlar tək Allaha-Göy Tanrıya tapınırdılar. Bu kimi amillər şübəhəsiz ki, onların (oğuz türklərinin R.F)islam dininə asanlıqla yiyələnmələrinə təsir göstərməyə bilməzdi.

Tarixi təəssübkeşlik, islam dininə hörmət və sədaqət bu gün də davam etməkdədir.

İslamın dəyərlər sistemi – tarixi, fəlsəfi, elmi dünyagörüşü vəəxlaq prinsipləri zamanımızda da mili və bəşəri inadkarlıq kontekstindəöyrənilirvə təbliğ edilir.

«Kitabi Dədə Qorqud»un dini dünyagörüşünün formalaşıb mədəniyyətimizin çox önəmli sivill dəyərlərinəçevrilib püxtələşməsində islam dininin və müsəlman mədəniyyətinin təsiri şübhəsizdir, gerçək danılmaz faktdır.

VII-XII əsrlər Azərbaycan şifahi və yazılıədəbiyyatında dini mövzuların hakim mövqe tutduğu dövrdür.

Bu nöqteyi-nəzərdən «Dədə Qorqud»da islam mədəniyyəti dəyərlərinin əhatə dairəsində olmuş, ondan yetərincə qida-lanmışdır.

«Kitab» ın müqəddimə hissəsi islama bağlılığın ilk aşkar təzahürlərindəndir ki, rəvayət edir: «Rəsulun(ə) (Muhəmməd peyğəmbərin) zamanına yaxın Boyat boyunda Qorqud ata deyilən bir kişi vardı. O kişi oğuzların kamil bilicisi idi; nə deyirdisə olurdu. Gələcəkdən qəribə xəbərlər söyləyirdi. Allah onun könlünə ilham verirdi».

Qeyd olunan parçalarda Qorqud Atanın peyğəmbər (Muhəmməd(s) zamanında yaşadığı vurğulanır və o, haqq

aşığı(ozan), sinədəftər şair adlandırılır. Dədə Qorqud müşrik şair deyildi, mömin şair idi. O səbəbdən də «Allah onun könlünə ilham verirdi».

Oğuz qəbilələrinin onun nəsihətlərinəqeybdən verdiyi xəbərlərə böyük ehtiyacı var idi.

Dədə Qorqud Quranı, islam peyğəmbərlərinin sünnəsinin vəƏhli-Beyt imamlarının irsini dərindən mənimsəmişdi. Biliyinin, düyagörüşünün əhatə dairəsi qeyd olunan sahələrdən məhrum olan bir şəxsin «gələcəkdən qəribə xəbərlər söyləməsi» qeyri-mümkün idi.

Təsadüfi deyildir ki, bəzi tədqiqatçılar Dədə Qorqudu Rəsulullahın müasiri, böyük din alimi, şeyx adlandırırdılar.

«Qorqud ata dedi: «Axırda xanlıq geriyə- Qayıyı (Oğuz tayfalarından birinin adıdır) dönər, heç kim əllərindən almaz…«Qorqud atanın bu dediyi Osman nəslidir»

Maraqlıdır, kitab görəsən hansı Osman nəslini nəzərdə tutur? Dədə Qorqud kimə istinadən bu fikri irəli sürür?

Osman nəslində məqsəd türklərdir.

«Oğuznamələr»dəümumiyyətlə, haqqında söz açılan toplum 24 türk tayfalarından ibarətdir.

Fikrimiz bir az da aydın olsun deyə peyğəmbərin(ə) hədislərinə nəzər salaq.

Mahmud Kaşğari «Divani Lüğətit türk» əsərində islam peyğəmbərinin: «Qiyamət qopacaq və ortaya oğuz türkləri çıxacaq. Türk dilini öyrənin, çünki, onların hakimiyyəti uzun sürəcək;», «…bir millətə hüsn rəğbətin varsa o da türklərdir…» hədislərini qeyd etməkləHəzrət Muhəmmədin(s) Oğuz türklərinə (ümumiyyətlə, türk qövminə –R.F) yüksək etimadını və inamınıörnək olsun deyə bütün müsəlman millətinin nəzərinəçatdırır. Peyğəmbər(s) əfəndimiz hətta, «onlara (türklərə) öz ordum» dedim ifadəsini işlətməklə, yaxud da: «onlar (türklər) sizə toxunmayınca siz onlara toxunmayın. Mənim ümmətimin

gələcəyi onların əlindədir» hədisini buyurmuş vəümmətin gələcəyini belə onlara (türklərə-R,F) həvale etmişdir.

Bu tipli xəbərlər dastanın islam dini ilə bağlılığına, Dədə Qorqudun qeybi bəyan edərkən hansı qaynaqlardan bəhrələndiyinə aydınlıq gətirir.

Yuxarıda dedik ki, Dədə Qorqud mömindir, ozandır, haqq aşiqidir.

Müqəddəs kəlam atributu olan Qurani-şərifdə də mömin şairlər təqdir, müşrik şairlər isə tənqid edilir, pislənilir.

«Şairlərə gəlincə, onlara yalnız azğınlar uyar! Məgər görmürsən ki, onlar hər bir vadidə sərgərdan gəzib dalaşırlar?(Hər tərəfə meyl edir, birini yalandan mədh, digərini isəəbəs yerə həcv edirlər!) Və onlar etmədikləri şeyi deyirlər! (Onların dediklərinin əksəriyyəti yalandır!). Ancaq iman gətirib yaxşı işlər görən, Allahıçox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan (onları həcv edən müşrik, kafir şairlərəöz mənzumələri ilə qələbəçalan mömin şairlərdən)başqa!» Əş-şüəra surəsi, ayə224-227.

Dastandan da göründüyü kimi Qorqud ata Allahıçox zikr edir. Sankionunqəlbi «Allahızikretməkləaramtapır»(8). Allah,onunrəsulu(ə), Əhli- Beyt(ə) vəsəhabələrdastanboyumədhedilir.

Məsələninmaraqlıcəhətlərindənbiridəondadırki, dastansöyləmələrinböyükəksəriyyətininparalellərinibizistərQurani-Kərimdə, istərsədəpeyğəmbər(ə)hədislərindəgörəbilirik.

«Kitab»ınmüqəddiməhissəsindəDədəQorquddeyir: Allah – allahdeməyincəişlərdüzəlməz. «Birişigörməzdənəvvəl «İnşallah(əgərAllahistəsə, Allahqoysa) edəcəyəm!»-de (Əl-Kəhfsurəsi, ayə 24)

Qadirtanrıverməyincəkişivarlanmaz. «Allahistəməsə, sizistəyəbilməzsiniz!»(«Dəhr», ayə 30).

Əzəldənyazılmasaqulbaşınaqəzagəlməz.

Əcəlvaxtıçatmayıncakimsəölməz. «Allahınizniolmayıncaheçkəsəölümyoxdur. O,(Lövhi-məvhuzda) vaxtımüəyyənedilmişbiryazıdır». (Ali-İmran,145).

Ölənadamdirilməz, çıxancangerigəlməz. «Məhvetdiyimizhərhansıbirməmləkətəhlinin (qiyamətqopanaqədərtövbəetməküçünbirdədünyaya, yadahaqqdinə) qayıtmasımümkündeyildir»(Əl-Ənbiya, 95).

Fəlsəfiməzmunlusöyləmələrdəbeləislamdinininintəsirdairəsiaçıq-aşkarözünügöstərməkdədir. «Fitrətənolanvəfitriolandəyişilməzdir» dini-fəlsəfidüşüncəsi «Kitab»daözizləriniapaydınsaxlamaqdadır. Allahınqoyduğuəcəliqanunlardəyişilməzdir, yazıyapozuyoxdur.

***Kül təpəcik olmaz(Kürəkən oğul olmaz),***
***…Qaravaşadongeydirsəndəqadınolmaz.***
***Lopa-lopaqarlaryağsayazaqalmaz.***
***Gül-çiçəkligöycəçəmənpayızaqalmaz.***

Qurani-Kərim bu fəlsəfəni klassik dildə, həm dəçox yığcam şəkildə təqdim edir. «Allahın əzəli hökmünü dəyişdirmək olmaz»(Əl-Əhzab,16).

Əksliklərin mübarizəsi varlığın mahiyyət təzahürü kimi ilahi qanunlar çərçivəsindədir. Bu tip qanunları dəyişdirmək qeyri-mümkündür.

Mərhəmət, ləyaqət, xeyirxahlıq, comərdlik, səxavət, halallıq kimi xüsusiyyətlər şərə qarşı mübarizədə qalib olmalıdır.

Oğuz qəhrəmanları bu kimi əzəli-əbədi mübarizənin canfədailəridirlər.Onlar sədəqə verir, acları doyuzdurur, Dədə Qorqudun nəsihəti ilədualar edir, müşküllərini çözürlər.

EposQurani-Kərimin hikmət dəryasından dəyərincə faydalanmış, islamın əxlaq kodeksi və davranış qaydalarınıəxz etmişdir.

Elin müdrik ağsaqqalı Qorqud ata dastanın müqəddimə-

sindəcə poetik dillə uca yaradanı mədh edir, Quranı tərifləyir.

Ağız açıb tərifləsəm, üstümüzdə tanrıya əhsən!

Yazılıb-düzülüb göydən enən tanrı elmi Qurana əhsən!

Dastanda peyğəmbər (ə) vəƏhli-Beyt yad edilir, Kərbəla müsibəti xatırlanmaqla, Yezid lənətlənir.

***Tanrı dostu, din başçısıMuhəmmədəəhsən!***
***Əlinin oğulları, peyğəmbərin nəvələri***
***Kərbəla çölündə Yəzid əlindəöldürülən iki***
***qardaşa Həsənlə Hüseynəəhsən!***

Kərbəla hadisəsinin, məsum imamların xatırlanmasıötəri hal deyil, dastanın ruhi qidası, məzmun gözəlliyidir.

Əshabələrin tərifi, ələlxüsus da əmirəlmöminin Əlinin(ə) vəsfi «Kitab» ınpoetik yaddaşına hopmuş, əbədiləşmişdir.

***Qılınc çaldı, din açdı mərdlər şahıƏli, - əhsən!***

Dastan dilinin Əhli-Beyti(ə) «zikr etməklə daim yaş olması»təsadüfi deyildir. Həzrəti Əli(ə) Peyğəmbərdən(s) sonra həm kəlamı, həm də qılıncı ilə dinimizi qüvvətləndirən vəşöhrətləndirən, şücaəti, səbri və təqvası ilə onu yaşadan ikinci böyük şəxsiyyət idi.

Mühəddislər peyğəmbərin(s) «Xəndək döyüşündəƏlinin(ə) Əmirə (islamın qatı düşmənlərindən biri) vurduğu qılıncın mükafatı cin və insin ibadət mükafatından üstündür» dediyini qeyd edirlər.

Dastanda Qurani-Kərimin məxsusi vəzifələrə malik «Ən-nəba» (Böyük xəbər) və «Yəsin» surələrinin zikr olunması daha maraqlı hadisələrdəndir.

***Quranın son fəslində «Əmmə» surəsi gözəldir!***

*Höccələnib düz oxunsa «Yə-sin» surəsi gözəldir!*

Hər iki surənin qiraət üstünlüklərinin vurğulanması təsadüfi deyildir. Təfsir alimlərinin fikrincə «Əmmə» («Ən-nəbə») surəsində məqsəd məad-qiyamət günü olsa da, Peyğəmbər(s) surənin əvvəlinci iki ayəsinin –«Onlar (müşriklər) bir-birindən nə haqda soruşurlar? Böyük bir xəbər (qiyamət günü haqqında! təfsirində belə buyurmuşdur: Böyük xəbər Əlinin(ə) vilayəti məsələsidir ki, bu barədə onlardan qəbr evində də soruşacaqdır».

«Yə-sin»dən məqsəd isə Peyğəmbərdir(s). Surənin ayələri dəPeyğəmbərə(s) müraciətlə başlayır. Hədislərdə bu surə Quranın qəlbi adlandırılmışdır. Qiraət üstünlüklərinə gəlincəisə Peyğəmbər (s) buyurmuşdur: «Hər şeyin bir qəlbi vardır. Quranın qəlbi də «Yə-sin» surəsidir. Onu bir dəfə qiraət etmək Allah kitabını on dəfə oxumağa bərabərdir».

Quranın məşhur surələrinə bağlılıq dastanın seçim özəlliyi və dinimizə hörmət kimi təqdirəlayiqdir. İslamla bağlı ayinlərin, dinlərin, müqəddəs yerlərin, ziyarətgahların, zəvvarların, bir sözlə dini dəyərlərimizlə bağlı nə varsa hamısı dastan boyu etiqadi məsələ kimi tərənnüm edilir.

Allah evinin-Məkkənin gözəlliyi, hacıların sədaqəti, günlərin gözəli, diniayin və mərasimlər, cümə günlərində Allahın adına oxunan xütbələr, namaz vaxtı azançının məlahətli səsi, Tanrınınbənzərsiz sifətləri, Dədə-QorqudunTanrıdan dilək diləməsi və s. kimi hadisələrə dastanın giriş hissəsindəcə rast gəlirik.

*Alçaq yerdə tikilibdir,*
*Tanrı evi Məkkə gözəldir.*
*O Məkkəyə sağ-salamat gedib-gəlsə,*
*Sidqi bütöv hacıya əhsən!*
*Sayılan günlərdən cümə gözəldir,*

***Cümə günü oxunanda xütbə gözəldir.***
***Qulaq asıb dinləyəndəümmətəəhsən!***
***Minarədən azan verən azançıya əhsən!***
***…Heç kimə bənzəməyən, bütün aləmləri yaradan tanrıya-Allaha əhsən!***

Qeyd olunan şeir parçasında qoyulan məsələlərvə onların tərbiyəvi əhəmiyyəti göz qabağındadır. «Dədə-Qorqud»ınauditoriyası təkcə türk-müsəlman dünyasıçərçivəsi daxilində məhdudlaşmayıb, ümumbəşəri xarakter daşıyır.

Dastanın müqəddiməsi, məzmunundan, forma və xarakterindən də göründüyü kimibütün insanlığa müraciət məramnaməsidir.

***Yalan söz bu dünyada olunca, olmasa yaxşıdır,***
***Doğrucul adamlar yüz yaşasa yaxşıdır.***

«Kitabi Dədə-Qorqud» təkcə giriş hissəsində deyil, ümumiyyətlə, bütün boylarda didaktik məsələlər qoyur, tərbiyədəşəriətin fəlsəfəsini, dini-milli-bəşəri dəyərləri ön plana çəkir, nəsihətnamələrsöyləyir və praktikstatistikanın da təsdiqlədiyi elmi-tərbiyəvi məsələlrin qoyuluşunda yanılmır.

***Qız anadan görməyincəöyüd almaz!***
***Oğul atadan bilməyincə süfrə açmaz!***

«Dədə-Qorqud» Allahı ona məxsus sifətlərləöyməyi vəöyrənməyi tövsiyə edir.

Aşiq sənətinin azman ustadlarından olan, Haqq aşiqi mərhum Aşıq Kamandar Əfəndiyev Dədə-Qorqudun etdiyi bu nəsəhəti alqışlayır və bu beytlərlə səsləşən“Gələr” rədifli baş divanisində deyib:

*Mərd oğulun xanəsinə hər vədə mehman gələr,*
*Zərrə qədər of da deməz, sübh açılar dan gələr.*
*Minbir ismin sahibini dilində car eyləyər,*
*Ruzisi göydən tökülər, qismətinə nan gələr.*

*Mərd o kəsdir damarında təmiz gülgəz qanı var,*
*Millətinin qeyrətinə qurban gedən canı var,*
*Yaranandan xali deyil,dünyanın sultanı var,*
*Haraylasan, harayına ol Şahi-mərdan gələr.*

*Əhli-irfan məclisində şeytan şərin amma sən,*
*Mərd ilə ülfəti kəsib, naməedə aldanma sən.*
*Ay Kamandar, o gördüyün eylikləri danma sən,*
*Eyliyi danan kəslərin gözlərinə qan gələr.*

Bu nöqteyi-nəzərdən «Qazılıq qoca oğlu Yeynəyin boyu» heyrətamizdir. Məsələ burasındadır ki, Yeynəyin döyüş qabağıəhədiyyət dərgahına sığınması, şəni uca Allahın mədhinə söylədiyi şeir parçası Qurani-Kərimin «Əl-ixlas» (Yalnız Allaha məxsus olan sifətlər) surəsi ilə eyniyyət təşkil edir.

Surədə deyilir ki, De: O Allah yeganədir, Allah (heç kəsə, heç nəyə) möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur,Onun heç bir tayı-bərabəri, bənzəri dəyoxdur! Yeynəyin dilindən deyilir:

*Ucalardan ucasan,*
*Kimsə bilməz necəsən, əziz Tanrı!*
*Anadan doğulmadın,*
*Sən atadan olmadın*
*Heç kimin malını yemədin,*
*Kimsəyə güc etmədin,*
*Hər yerdəƏhədsən,*
*Allahu Samədsən!*

***...Böyüklükdə həddin yox,***
***Sənin boyun-qəddin yox***
***Ya bədənin, səddin yox!***

Təkcə bu analogiyaya görə boyun üstünlükləri müqayisə edilməzdir.İslam Peyğəmbərinin(s) hədislərindən məlumdur ki, «Əl-ixlas» surəsi Quranın üçdə birinə bərabərdir. Muhəmməd ibn-Təbatəbainin fikrincəüçdə bir nisbəti üç – Tövhid, Nübüvvət və Məad prinsipləri əsasında tövhidi özündə ehtiva edir.(2)

İslam Peyğəmbəri(s) buyurur ki, hər bir şeyin nuru olduğu kimi Quranın da nuru «qul-huva-l-lahu əhəd»dir.Hədis və təfsirlərdə «Əl-ixlas» surəsinin fəzilətləri, qiraət savabları haqqında çoxlu fikirlər söylənilmişdir. Peyğəmbər(s) hər axşam «Əl-ixlas» surəsini və muəvvizəteynləri(Fələq, Nas) oxuyub yatarmış.

Allah amanında olub şər qüvvələrdən qorunmaq üçün ilahi kəlam ən iti və təsirli silahdır.

Yeynəyin döyüş qabağı Allah kəlamına sığınıb Tanrıdan kömək diləməsi də bu qəbil hadisələrdəndir. Bu o anda baş verir ki, artıq onun silahdaşları Dəli Dondaz, Dönəbilməz, Tüləkvuran və 24 vilayətin bəyi din düşmənlərindən olan Arşın oğlu Dirək Təkura məğlub olurlar. Növbə Qazılıq qoca oğlu Yeynəyəçatanda o, Allaha dua edir:

***...Birliyinə sığındım qadir Tanrı!***
***Qara donlu kafirə qarşı at sürürəm.***
***İşimi sən başa vur, sən kömək et!***

Oğuz igidlərinin çətin vəziyyətlərdə uca məqama sığınmaları onların nə dərəcədə möhkəm dini əqidəyə malik olmaları iləizah olunur.

Qurani –Kərimdəşəni uca Allah iman gətirənlərə «Siz mənə dua edin, mən də dualarınızı qəbul edim» deyərək nicat yolunu göstərir.

Peyğəmbər(ə) də həmin ayənin işığında«Qaranlıqlar(çətinliklər) sizəüz verən zaman Allaha və onun kitabına sığının» deyə buyurmuşdunr.

«Böyrənin oğlu Bamsı Beyrək» boyunda Dədə-Qorqud onu öldürmək istəyən Dəli Qacardan canını qurtarmaq üçün Tanrıya sığınıb ismi-əzəm oxuyur, düşməninə: «Vursan, əlin qurusun» deyə qarğış edir.

İsmi-əzəm Allahın müqəddəs adlarına işarədir. Qurani-Kərimin «Əl-Bəqərə» surəsinin 255,256,257-ci ayələri «Ayət-əl-kürsü» adlanır. Şərəf və fəzilət cəhətindən böyük üstünlüklərə malik olan bu ayələrdə Allah şəni-ucanın 12 ən gözəl adı vəsf olunur.

Dədə-Qorqudun oxuduğu və nicat tapdığı ismi-əzəmin məhz, «ayət əl-kürsü»olduğu ehtimal olunur. Belə ki, İmam Muhəmməd Baqirdən (ə) nəql olunan bir hədisdə buyrulur: «Hər kim Ayət əl-kürsünü bir dəfə oxusa Allah Təala onun min dünya və min də axirətçətinliyini aradan qaldırar…»

«Kitabi Dədə-Qorqud» dastanındakı faktlar-qəhrəmanların möhkəm, hər tərəfli dini inanc vəəqidələri, müsəlmançılığa rəğbətləri, dinə sədaqətləri, çətin sınaq qarşısında möhkəm iman nümayiş etdirmələri, yalnız uca tanrı sevgisinə bel bağlamaları, təmiz niyyətli əməl sahibləri kimi özlərini təsdiq və təqdim etmələri, Vətəni, ailəni imandan bilib sevmələri, adı gözəl Muhəmməd Mustafanın üzü suyuna salavat çevirmələri, isməti, həyanı Fatimədən(s.ə), mərdliyi, kişiliyi, səbri mərdlər şahıİmam Əli(ə) və oğullarından öyrənmələri, Oğuz elinin düşmənlərinə qarşı barışmazlıqları və s. və ilaxır kimi yiyələndikləri keyfiyyətlər yuxarıda qeyd olunan fikrin əksinə-dastan qəhrəmanlarının həmin dövrdə islama əhəmiyyətli dərəcədə yiyələndiklərindən, sabit əqidə sahibi olduqlarından xəbər verir.

Digər tərəfdən Müqəddəs Kitabda «Yəsin», «Ən-Nəba» kimi Quran surələrinin tərifi, ismi-əzəm«Ayət əl-kürsü»yə işarə, ilkin

yaradılışın sudan törəməsi, Əhli-beytin(ə) tərifi(aşağıda bu məsələ barədə danışılacaqdır) və s. kimi elmi-dini və fəlsəfi məsələlər vardır ki, tarix, fəlsəfə, elm mütəxəssisləri və təfsir alimləri tərəfindən bu gün dəöyrənilməkdədir.

Müasitr dövr islam mədəniyyətinin dəyərlər, sistemini təşkil edən bəzi problemlər, məsələn, qadına münasibət, insan-təbiət, insan-cəmiyyət, ekologiya, estetik ideal, etik-mənəvi ülgülər və s. məsələlərin dastan poetikasında özünə yer alması, təması olduqca maraqlıdır və VII-IX əsrlərdə yaşayan insanların dini şüurunu tam xarakterizə edir.

«Dirsə xan oğlu Buğac xan boyu»nu çıxmaq şərtilə qalan bütün boylarda adı gözəl Muhəmməd Mustafa(s) xatırlanır, üzü suyuna salavat çevrilərək yad edilir.

Oğuz qəhrəmanlarının vaxtaşırı olaraq Muhəmməd Peyğəmbəri(s) və onun Əhli-Beytini(ə) yad edib onlara salam göndərmələrinin hikməti nədədir? Bildiyimiz kimi salavat islam dinində Allah tərəfindən ən tez qəbul edilən duadır. «Həqiqətən, Allah və mələkləri Peyğəmbərə(s) salavat göndərirlər (xeyir-dua verirlər). Ey iman gətirənlər!Siz də ona salavat göndərib layiqincə salamlayın!(Allahummə salli əla Muhəmmədin və ali Mühəmməd; əssələmu aleykəəyyuhənnəbi və rəhmətullahi və bərəkatuhu- deyin!)».(Əl-əhzab surəi, ayə 56) Quranın əmr və tövsiyələri «Dədə-Qorqud» qəhrəmanlarıüçün qanundur. Onlar əqidə saflığı, əhdə sədaqət nümayəş etdirərək qələbədən-qələbəyə gedirlər.

Dastanda Allah, Peyğəmbər(s) vəƏhli Beyt(ə) imamları Qurani-şərifdə olduğu kimi onlara məxsus ali sifətlərlə təriflənir.

Quranın «Təthir» ayəsinə görə (Əhzab surəsi, ayə33)Peyğəmbərin(s) Əhli-Beyti(ə)pak və toxunulmazdır. «Evlərinizdə qərar tutun. İlkin cahiliyyət dövründəki kimi açıq-saçıq olmayın. Namazqılın, zəkatverin, Allahavəonunrəsulunaitaətedin. Siz, eyevəhli! Allahsizdənçirkinliyiyoxetməkvəsizipaketməkistəyir».

«Məvəddət» ayəsidə (Şurasurəsi, ayə.23 )Peyğəmbərin (s) şərəflisoyu-Əhli-Beyt(ə) haqqındadır.

«…YaPeyğəmbər(s), deki, mənsizdənrisalətimmüqabilindəƏhli-Beytimə(ə)məhəbbətdənbaşqabirşeyistəmirəm».

TəfsiralimlərindənolanCərullaZəməxşəri, GənciŞafeivəbaşqalarıqeydedirlərki, ayənazilolanvaxtPeyğəmbərdən(s)Əhli-Beyt(ə) haqqındasoruşdular. HəzrətiPeyğəmbər (s) buyurdu: «HəzrətƏli(ə), Fatimə(s.ə) vəonlarınikiövladı(HəsənvəHüseyn) mənimƏhli-beytimdir(ə)».

«SalurQazanınevininyağmalanması» boyundaQazanınsuyamüraciətənonu:

***Həsən ilə Hüseynin həsrəti su!***
***Bağ ilə bostanın zinəti su!***
***Aişə ilə Fatimənin baxışı su! –***

**–** kimiöyməsi, suyu müqəddəsləşdirməsi olduqca maraqlıdır. İslami təsəvvürə görə bütün varlıqların əsasını su təşkil edir, daha doğrusu canlı aləm sudan yaradılmışdır.

«İnsanları sudan yaradan, onlarıəsl qohum və sonradan qohum edən Odur. Rəbbin (hər şeyə) qadirdir.(Fürqan surəsi.ayə54)»

Qazan xanın «su tanrının üzünü görmüşdür.Mən bu su ilə soraqlaşım» -deməsi də xilqətin sudan(nütfədən) yaradılmasına olan inancla bağlıdır. Təbiətşünaslığa görə canlı orqanizmlərin 50-90 faizi sudur. Heyvan hüceyrələrinin sitoplazması 80 faiz sudan ibarətdir. «Aişə və Fatimənin baxışı su!» dedikdə isə həya, ismət, vəfa, sədaqət, abır kimi zərif əxlaqi keyfiyyətlər nəzərdə tutulur. Abır farsca «ab» və «ru» kəlmələrindən ibarət olub «üzün suyu»-həya, yaxud, «baxışın suyu»- ismət, namus kimi də mənalandırılır.

(ardı var)

Qazanın «Qurd üzü uğurludur, qurdla bir soraqlaşım» - deməsi, qara köpəklə soraqlaşması, oğlu Uruzun ağacla danışıb onu «Məkkə ilə mədinənin qapısı», «Museyi-kəlimin əsası», Əlinin(ə) Düldülünün yəhəri, qılıncının dəstəyi, «İmam Həsən vəİmam Hüseynin beşiyi»adlandırması və onlara and içməsi, sonsuz və canlı təbiəti müqəddəsləşdirməkislamla bağlı hədislərdəndir və buradan da «Dədə-Qorqud» a öz təsirini göstərmişdir.

Qurani-Kərimin «Əl-tin» surəsindədeyilir:

1. **«Andolsunəncirəvəzeytuna!»**
2. **«AndolsunTurdağına!»**
3. **«Andolsunbutəhlükəsiz, qorxusuz-xətərsizşəhərə(Məkkəyə) ki,»**
4. **«Bizinsanıəngözəlbiçimdəyaratdıq!»**

İnsan naminə meyvələrə, dağlara, şəhərlərə and içilir! Surədə dörd mühüm və mənalı andla qarşılaşırıq. Bunlar əhəmiyyətli məsələlərdir vəöz növbəsində insanın nicat tapmasına, qalib gəlməsinə xidmət edir. «Dədə-Qorqud»qəhrəmanları da dar ağızda niyyət edir, andlaşır, ümidlərini Allahdan üzmür və qalib gəlirlər.

Oxşar məzmunlu andlaşmalar Qurani-Kərimdə kifayət qədərdir. Bu da öz növbəsindəşifahi xalq ədəbiyyatı nümunələrinə təsir etmiş, eyni zamanda «Dədə-Qorqud» dan da yan keçməmişdir.

«Kitab»da din düşmənlərinə «qara donlu» kafirlərə qarşı mübarizə, yurd sevgisi dini düşüncə ilə bağlıdır.Müqəddəs kitabımız «Ey möminlər, Sizinlə vuruşanlarla siz də vuruşun!(Əl-Bəqərə,190)», «Allah yolunda vuruşunvə bilin ki, allah eşidən və görəndir!(Əl-Bəqərə,244), Onlarla «Lə ilahə illəllah» deyənə qədər vuruşun!» göstərişini verir.

Allahın elçisi də «Vətəni sevmək imandandır»-deyə buyurur.

«Dədə Qorqud»qəhrəmanlarıöz dinlərində sadiq, şüurlu mübarizələrindəşəhid və fədaidirlər. Qalın oğuz igidləridüşmənlə döyüşəgirməzdən qabaq arı suda yuyunurlar, ağ alınlarını yerəqoyub iki rükət namaz qılır, adıəziz Muhəmmədə(s0salavat gətirir, sakitcə kafirlərin üstünə at salır, qılınc çalıb Allahın köməyi ilə qələbə qazanırlar.

«Bəkil oğlu İmranın boyunda»özünün 72 bütü iləöyünən kafirə qarşı vuruşan «Ey lənətə gəlmiş azğın, sən bütlərinə yalvarırsan, mən varlıqları yoxdan var edən Allahıma sığınıram».

İmranın sözləri Allaha xoş gəlir və mələk Cəbrailə buyurur ki, «Ey Cəbrail, get, o quluma qırx kişi qüvvəsi verdim». Bəkil oğlu İmrana məğlub olan kafir aman istəyir, oğlanın dinini soruşur, «Lə ilahə, illəllah» deyib islamı qəbul edir-müsəlman olur.

Bəkil oğlu İmran mömin müsəlmandır. Quranın «onlarla (din düşmənləri ilə) «lə iləhə illəllah» deyənə qədər vuruşun» ayəsinə itaət edir, düşməni basaraq dinimizə sədaqətli olduğunu göstərir. Öz söyləmələrindəİmran Allahın ucalığından, bənzərsizliyindən danışır, ilk insan olan Adəmin xəlifə məqamını yada salır, şeytana lənət oxuyur, hənif dininin başçısıİbrahimi(ə), Nəmrudun İbrahimi(ə) oda atdırmasını, Allahın əmri ilə odun güllüçiçəkli bağçaya çevrilməsini xatırlayır.

«Bamsu Beyrək»in boyunda Beyrək 39 igidlə kafirin kilsəsini yıxıb yerində məsçid tikirlər. Əziz tanrı adına xütbə oxutdurub azan verdirirlər.

«Salur Qazan» boyunda da belə olur. Döyüşəhazırlaşan oğuz bəyləri «Təmiz suda yuyundular. Ağalınlarını yerə qoydular. İki rükət namaz qıldılar. Adıəziz Muhəmmədə(s) salavat gətirdilər. On iki min kafir qılıncdan keçdi. Oğuz igidlərindən beş yüzü həlak oldu».

Dastan boyu ardıcıl olaraq izlənilir ki, oğuzlara çətinliklər üz verdiyi zaman onlar Allaha sığınır, Qurani-Kərimə pənah aparır,

Peyğəmbər(s) cəmalına salavat çəkir, təmiz suda yuyunur, iki rükət namaz qılıb hərbə girir və qalib gəlirlər. Bu kimi faktlar «Dədə Qorqud» qəhrəmanlarının əsasən mömin, müsəlman təəssübkeşləri olduğunu söyləməyəəsas verir. Qanlı qoca oğlu Qanturalı Selcan xatuna qovuşmaq üçün buğaya, aslana, gözünü qan örtmüş dəvəyə Allahı və Rəsulunu yad etməklə qalib gəlir. Qanturalı Selcan xatunu at belində döyüşə hazır vəziyyətdə görəndə yeri öpür və Peyğəmbərdən(s): «Əmənnə və saddəqna»(inandıq və doğru hesab etdik)hədisini söyləyir. Qanturalı: «Allahın qapısında mətləbimiz yerinə yetdi»-deyir. Arı suda yuyunur, ağ alnını yerə qoyur, iki rükət namaz qılır, adı gözəl Muhəmmədə(s) salavat çevrir, «qara donlu» kafirin üstünə at sürür. Qazılıq qoca oğlu Yeynək Allaha çox dua edir, məsçid tikdirir, Tanrı adına xütbə oxutdurur. Dilini «Allah zikri ilə yad edir», anlayır ki, «Qəlblər yalnız Allahı zikr etməklə aram tapar».

DastandaölümmələyiƏzrailtəsvirolunur. DuxaqocaoğluDəliDomruligidliyinə, ərliyinəgüvənərəkƏzrailəqarşıçıxır, onunladöyüşməkistəyir, lakinonaqalibgələbilmir. SonradansəhvinibaşadüşərəkAllahdanamandiləyir:

***Ucalardanucasan,***
***Kimsəbilməznecəsən***
***Gözəltanrı,***
***Neçəcahillərsəni,***
***Göydəarar, yerdəistər.***
***Sənmöminlərkönlündəsən,***
***Sənböyüksən, qüdrətlisən,***
***Əbədisirrsahibisən,***
***Canımıalsan, özünal,***
***Qoyma, Əzrayılalsın!***

Dəli Domrul Allahın böyüklüyünü, zati biliklərə sahib olub bütün sirləri və qeyb aləmini yalnız özündə ehtiva etməsini etiraf edir. Bəndəsinin imanı Allahaxoş gəlir və onu bağışlayır.

İgid Domrul ömür gün yoldaşına görə Allah-Təalaya yalvarır, qadınının canını qurtarmağa çalışır.

***«Sən əbədi hökmransan,***
***Böyük yollar üzərində***
***İmarətlər yapım-qurum səninçin.***
***Harda görsəm ac doyurum səninçin.***
***Alırsansaikimizincanınıbirgəal!***
***Bağqoyursansaikimizədərəhmet!***
***Kərəmiçoxtanrı!»***

«DəliDomrulunsözüAllahaxoşgəldi. Əzrailəəmretdi: dəliDomrulunata-anasınıncanınıal! DəliDomrulavəarvadınayüzqırxilömürverdim- dedi».

DastanqəhrəmanlarıgöründüyükimiAllahrizasıüçünişıqlımə qsədlərnaminəxeyirxahişlərgörür, tikililəryapdırır, məsçidlərtikdirir, aclarıdoyuzdurur, çılpaqlarıgeyindirir, sədəqəverir, ehsanlaredirlər. Qəhrəmanlaraməxsusbukimiyüksəkfəzilətlərinideyaəsası, mənəvi-etikqaynağıQurani-KərimvəislamPeyğəmbərinin(s) sünnəsidir.

Quranİ-şərif «Allahsələmiməhvedər, sədəqələriisəartırar»(Əl-bəqərə,276)deyəbəyanedirsə, Peyğəmbər(s)isəhəminayətinişığındasəadətin, yaxşıişlərinüsütünlüklərinisadalayır: «Sədəqəazaldıqdaxəstəliklərçoxalar».

«BasatınTəpəgözüöldürdüyüboy»daBasathərdəfəhəyatıüçü nyaranantəhlükəlisituasiyalardançıxanda «Tanrımqurtardı», «qaranlıqgecədəyolaçsam, ümidimAllahdır»-deyir.

TəpəgözləsavaşdaBasat «Ləiləhəilləllah, Müəhəmmədə-r-

rəsulu-l-lah» deyir. Həminandamağaranıngünbəziyarılır, yeddiyerdənqapıaçılır. Basatqapılarınbirindənçıxır.

«KitabiDədəQorqud»daəxlaqla, halal-haram, cənnət-cəhənnəm, günahvəcəzailəbağlısondərəcəmaraqlıetikməsə-lələrqoyulurki, dinimənəviyyatımızlabağlılığıgözqabağındadır.

Boydan-boyabütünpisliklərcəzalandırılır, şərqüvvələrməğlubolur. Xainlik, satqınlıq, haramzadəlikkimimənfixüsusiyyətlərpislənilir.

QaracıqÇobanınəmmareyi-nəfsinəuyaraqpəriiləqeyri-şəriizdivacı, zinakarlığıoğuzelləriniçətinliyəsalır. Allah-TəalaTəpəgözünsimasındabəlanazilедir. Peyğəmbərin(s)sözlərilədesək «zinaçoxaldıqcamüşküllərartar, ölümlərinsayıçoxalar».

Dinimizdəəmrolunanla (yaxşılarla) nəhyedilənlərdə (pisliklərdə) məqsədbirdir – həqiqiəxlaqımənimsəmək, ilahidəyərlərləyaşamaq.

«DədəQorqud»datarixənmühümhesabolunanqadınproblemi məsələsidəqoyulur. «Anahaqqıtanrıhaqqı» hesabolunur. «Cənnətayaqlarıaltındaolananalar»ınmənəvidünyası, ailəidealı, «aslanınerkəyi, dişisiolmaz» idilliyası, ümumiyyətlə, bualəminşeiriyyətipoetikvüsətkəsbedir.

QadınınFatimə, Ayişəsimasındatəriflənməsiİslamınqadınaqarşımünasibətdəkimöv qeyiniüzəçıxarır.

«DədəQorqud» dakıqızlar,qadınlarhalalsoydanolduqlarıüçünolduqcasədaqətli, vəfalı, namusludurlar. DarayaqdaVətənsevgisiiləalışıb-yanır, oğuzərənləriiləçiyin-çiyinəvuruşurlar. OğuzqızlarıVətən, ailəsevgisiniimandanbilir, namusyolundacanlarındankeçməyibeləbacarırlar. İslamdini, Peyğəmbər(s) butipnümunəviəxlaqamalikqadınlarıbəyənirvə «cənnətihaqlıolaraqonlarınayaqlarıaltında» qərarverirlər.

Dastandaşəriizdivac –nigahməsələsi, evlənməbugündədinimizdəolduğukimi, «Tanrınınbuyurduğu, Peyğəmbərinşəriətiilə» olur.

Eposunözündəehtivaetdiyiməsələlərdənbiridəhəyatvəölümm əsələsidir. Özlüyündədini-fəlsəfimahiyyətdaşıyanbuməsələbütündastanboyudiqqəticəlbedir.

Dünyanınfaniliyi, həvəslərinötəriliyi, insanınbudünyadamüvəqqətiolması, məad (ölüm, qiyamət, cənnətvəcəhənnəm) dinimizdəolduğukimiişaqlandırılır.

DədəQorqudundünyayaverdiyiklassiktərifelegiyaxarakterida şıyır.

***Hanı dediyim bəy ərənlər,***
***Dünya mənimdir deyənlər?***
***Əcəl gəldi, yer gizlətdi,***
***Fani dünya kimə qaldı?***
***Gəlimli-gedimlidüyna,***
***Sonucuölümlüdünya!***
***Ənnəhayət, uzunyaşın,***
***Sonuölüm, axırıayrılıq.***

Qorqud atanın həkim kimi qoyduğu fəlsəfi suallar elegiya xarakterli olsa da, əslində nikbin əhvali-ruhiyyə doğurur. Əgər həyatın «sonu ölüm, axırı ayrılıqlarsa, bu, kədər doğurmaya bilməz. Lakin, buradakı kədər fəlsəfi məna daşıyır. Bu kədər pessimizmdən uzaq, düşündürücü, əməli fəaliyyətəçağıran, faydalıömür sürməyə, zamanın fövqünə yüksəlməklə zamansızlığa qovuşmağa, ölümləölümsüzlükqazanmağa səsləyən kədərdir. Bəs insanı hər nəfəs çəkəndə faniliyə, yoxluğa aparan vaxta necə, qalib gəlmək mümüköndürmü? Zamana qalib gəlmək insanın xəlq olunmuşşüurlu varlıq kimi öz Xaliqi tərəfindən onun üzərinə qoyulan fəlsəfi missiyanı yerinə yetirmək bacarığıdır.

Vaxta, zamana, vaxtın özüylə qalib gəlmək olar!

*«Uzadaq ömrünü hər bir anın da*
*Yel kimi keçməsin vaxt üstümüzdən !»-*

- deyənlərin fəlsəfəsi yeganə düzgün fəlsəfədir ki, vaxtı qabaqlayır, əsr adlanan bağın zirvəsindən nəsil adlanan dağın zirvəsinə qonmaqla yaddaşlarda əbədiləşirlər.

Lakin, daha çoz din fəlsəfəsinin səlahiyyətində olan mənəvi və ruhani ölümsüzlük vəəbədi səadət məsələsini Qurani-Kərim «Əl-əsr» surəsində dahiyanəşəkildəümumiləşdirir.

«And olsun zamana ki, insan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir! Yalnız iman gətirib yaxşıəməllər edən, bir-birinə haqqı və səbri tövsiyə edən kimsələrdən başqa! (Belələri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)(103;1,2,3)»

Dədə Qorqud da ölümü xatırlamaqla xeyirxahlığa, qəhrəmanlığa halallardan faydalanmağa, faydalı işlər görməyə, pisliklərdən qaçmağa çağırır, dediyimiz kimi,mənəvi diriliyi təbliğ edir. Kiçikşeir parçasında dünyanın tərifini vermək Dədə Qorqudun böyüklüyü, dastan poetikasının qələbəsi, triumfudur.

Allahın insanda görmək istədiyi cəhətlər çoxdur. Dinimizdə bu cəhətlər əmr be məruf və nəhy əz münkər adı altında açıqlanır

Yaradanın istədiyi kimi yaşamaq, istəmədiklərindən pəhriz etmək kamillik nişanəsi, insanın əbədi səadət yolu, ruhani ölümsüzlüyünün çarəsidir – dünyada və axirətdə!

Beləliklə, dastan yaradıcılığımızın əvəzedilməz incisi kimi şöhrəti bütün türk – müsəlman dünyasına yayılan «Kitabi Dədə Qorqud»a islam dini dəyərlərinin, müqəddəs kitabımız Qurani-Kərimin təsiri inkarolunmaz fakt kimi qeyd olundu.

«Kitabi Dədə Qorqud» dastanı tarixiyaddaş kitabı kimi XXI əsr tariximizin bu günkü dönəmi üçün də aktualdır.

Dastan Vətən torpaqlarının hər qarışıüçün canından keçməyə hazır olan yurddaşlarımızın əlindəən dəyərli, ideoloji silahdır.«Kitab»ın gənc nəslin vətənpərvərlik, qəhrəmanlıq, milli, dini və bəşəri dəyərlərə hörmət ruhunda tərbiyəedilməsindərolu əvəzsizdir.Yazının əvvəlini böyük türkün salamı ilə başladığımız kimi sonunu da türk-müsəlman ruhununəvəzolunmaz təmsilçisiQorqud atanın xeyir-duası ilə bitiririk:

***Ölüm gəldikdə sizi***
***Pak imandan ayırmasın!***
***Ağsaqqallıatanyeri,ağbirçəkliananyeri,***
***Cənnətolsun!***
***Allahsizinamərdəmöhtacetməsin!***
***Ağalnınönündəbeşkəlməduaetdik***
***Qəbulolunsun!***
***«Amin! Amin!» deyənlərinüzünügörəsən!***
***Yığışdırsın, saxlasınAllahgünahınızı,***
***MuhəmmədMustafayabağışlasın!***[135]

## «KOROĞLU» DASTANINDA İLAHİ EŞQ

***Pirim Şahi-Mərdan Əli əl-Baqir,***
***Mənzilə yetir mən tək düşkünü.***
***Muradlar verici, ya Ğəni-Sübhan,***
***Duman, mənim yolum alma qış günü.***

***Koroğlum der: Kəlam gəldi dilimə,***
***Çox gəzindim, çarə bulmam ölümə,***
***Versəm dünya malın, gəlməz əlimə,***

[135] Bu yazı pedaqoq, «Qızıl Qələm» mükafatı laureatı Rövşən Fətişoğlunun "Kitabi Dədə Qorqud" eposunda dini dünyagörüşü" məqaləsinin tam mətnini təşkil edir.

*İgidlikdə keçirdiyim xoş günü.*

"Koroğlu" dastanı Azərbaycan xalqının qəhrəmanlıq dastanlarından biridir. Xalq içərisində Koroğlu adıyla əlaqədar çox maraqlı bir rəvayət vardır. Həmin rəvayətdə deyilir ki, Azərbaycan Rusiya ilə birləşdiyi zaman buraya gəlmiş ilk general yerli əhalidən Koroğlu haqqında soruşur. Onun igidliyindən, at minib, qılınc oynatmasından danışmalarını xahiş edir. Ona Koroğludan çox danışırlar. General Koroğlunu görmək istəyir. Onun harada olduğunu soruşur.

Qoca, ağsaqqal bir kişi deyir: "Sən əmr elə uzun buynuzlu bir qoç gətirsinlər. Sonra mən sizə Koroğludan danışaram." Uzun buynuzlu qoçu gətirirlər. Qoca yer qazıb qoçu buynuzlarına qədər torpağa basdırır. Sonra atını minib cövlana gətirir. Çaparaq keçərək əyilib torpağa basdırılmış qoçun iki buynuzundan tutur, qaldırıb göyə tullayır. Atı bir qədər sürüb sonra döndərir, qılıncını çəkir, çaparaq gəlib qılıncı ilə qoçu göydə iki şaqqaya bölür. Sonra bir tərəzi gətirdib şaqqaları çəkdirir, hər iki şaqqa misqal-misqala bərabər gəlir. Qoca deyir: "Mən Koroğlunun ən cavan dəlisi Eyvazam. Koroğlu lazım olmayan yerə getməz. Əgər lazım olsa çağırılmamış da gələr."

Bu rəvayət Koroğlu eposunun əgər belə demək olarsa son sözüdür. Məlum olduğu kimi şiəlik 32 tayfa olub. Bu tayfadan biri də "Təkəli" tayfasıdır. Koroğlu da "Təkəli" tayfasından idi. Tarixdən bəlli olduğu kimi "Təkəli" tayfası XV əsrdə Azərbaycan dilində danışan, hətta dini görüşləri etibarilə Şiə-qızılbaş olan yerli Azərbaycan tayfalarına mənsub imişlər. Professor Petruşevski bu barədə yazır: "İspanlaşmış Azərbaycanlı Don Xuan Oruc bəy Bayat Qızılbaş tayfalarından 32-sini göstərir. Bunların içərisində biz Ustaclı, Şamlı, Əfşar, Türkmən, Bayat, Təkəli və başqalarını görürük". Petruşevski bu məlumatı vermiş olduğu əsərin başqa bir yerində isə deyir: "Qızılbaş tayfaları şiə idilər. Özləri də XV əsrdə

Azərbaycan dilində danışırdılar".

Tarixdən məlumdur ki, həmin Təkəlilər Şah İsmayıl Səfəvinin hakimiyyət başına keçməsində çox böyük rol oynamış, Xətainin 7 minlik ordusunun avanqard dəstəsinin təşkil etmişdilər.[136]

**«Koroğlu»** dastanıvə ondakıtəsəvvüfelementləribarədədanışarkən,ŞahXətaimövzusuhə mqəhrəmanlıq,həmmilli-əxlaqi,həmdə saz-aşıqfaktoruilə təzahüredəntəsəvvüfdünyagörüşübaxımındandiqqətiözünə çəkir.Yəni,birqədərşəxsitəxəyyülməhsuludaolsa,söyləməkistərdikk i,Koroğlununtimsalında xalq Şah Xətaini özünə daha da yaxınlaşdıraraq,onunsimasındaarzuetdiklərini,görməkistəyib,görə bilmədikləriniyaratmışdır.Birqədərqəribə də görünsə,adamaeləgəlirki,ÇaldıransavaşındazahirənməğlubolanŞah İsmayılXətainin intiqamını xalq Koroğlunun timsalında Osmanlı paşalarındanalır.Bucürdüşüncələrlə bizhansısatürkçülüyə,millizəmindəkibirliyə zərbə vurmuruq. Əksinə,ŞahXətaiilə,onunbədii-fəlsəfi obrazı ilə müqayisə olunan bir xalq qəhrəmanı dahamilli,dahaartıqtürkçüolaraqşərtləndirilir.Çünki,ŞahXətaiqurd uğu milli dövlətlə, 14-15-ci əsrlərdə heç bir Türk arealındakimisənin ağlına gəlməyən dövlət dilinə çevirdiyi türkcəyə olanbağlılığıilə təpədən-dırnağaqədərtürkçüdür.Belə birdövlətə,belə birşahamalikolanxalqözməfkurəsiilə yaratdığıistər yazılı, istər şifahi ədəbi-bədii nümunələrdə onun milli ideologi yasını yaradan dahilərin yolunu ləyaqətlə davam etdirmişdir. BubaxımdanAzərbaycanşifahixalqyaradıcılığınınincisiolan«Koroğl u» son dərəcə milli, eyni zamanda da bəşəridir.

Bukeyfiyyətlərigözönünə aralaqapardığımızparalellərbizimqənaətimizə görə,müəyyənqədərobyektivvə qəbulolunandır.Elə

[136] Azərbaycan dastanları, "Koroğlu dastanı", M.H.Təhmasib, Müqəddimə. Səh. 8, 11. Bakı ADN-1969

KoroğlunuŞahXətaiyə bağlayan əncəlbediciatributlardanbiridə sazdır. Əlbəttə,sazınvarlığıAzərbaycanşifahixalqdastanlarında əvəzedilməzvə yoxluğumümkünolmayanbirməsələdir.Lakinsazınvasitəsilə bədiisujetlərintəzahürolunmasınarəğmən,Koroğluhəmdə konkretolaraqaşıqdır, yəni, aşiqdir. Bu «aşiq»liyin məğzində nələrin yatdığı isəbizim ümumiyyətlə tədqiqatımızın baş mövzusudur. Artıq dəfələrlə bəyanetdiyimizvə izahınagenişyerverdiyimizfikirlərəəsasən,Koroğlununsazıonun«bo şvaxtlarında əlinə aldığı»,qılıncı yerə qoyandan sonra götürdüyü bir nəsnə deyil. Biz artıq«saz» deyərkən«aşıqlığı»,sənətkarlığıdeyil,«aşiqliyi»Haqqaşiqliyinidüşü nürük.Koroğlununsazıxalqınbeynində ŞahXətaininmürşidi-kamilliyinin,pirliyinin,mənəvişahlığınındavamıdır.Bubaxımdan, əslində faniolan,keçiciolanŞahXətainində,Koroğlunundazahiriqəhrəmanlığ ı,dünyəviqüdrəti,poladqılıncıidi. Əgərbelə olmasaydı,qılıncoynatmağı, pəhləvanlığıbirtərəfə atılaraq,Koroğludəlisiolmaqistəyən birisini sazla imtahana çəkməzdilər. Bu imtahan həmin «dəliliyə namizəd»in bir tərəfdən türkçülüyünün, digər tərəfdən isə ruhani təkamülün baş atriburlarından sayılan saza və beləliklə də ruhani ustadaolanməhəbbətvə sədaqətininimtahanaçəkilməsidir. Əgər onun qəlbində bu məhəbbət, bu sədaqət yoxdursa, «ondan Koroğludəlisiolmaz».Bucürşərtlənmələr«Koroğlu»dastanında,eləcə də şifahixalqyaradıcılığının əksərjanrlarında üstüörtülü,sətiraltışəkildə də olsa,mövcuddur.Beləliklə, gəldiyimizqənaətlərə görə,Azərbaycanxalqdastanlarındasaz müqəddəslik,halvə zikrsimvolu,eynizamandadaruhani informasiyadaşıyıcısıdır.Koroğlununsazı,belə deməkmümkünsə,ŞahXətainindövlətçiliyinin,savaşlarının,qarışıqç evrə-sinin kölgəsində «yarımçıq qalmış» sazının tam mənada,

«ürəklərdəntikançıxaracaqqədər»davamıdır. Bizə belə gəlirki,bu sazı xalq qüdsal bir rabitə olaraq görmüş, vəsf etdiyi qəhrəmanın onu heç vəchlə əlindən yerə qoymasına imkan verməmişdir.

«Koroğlu» dastanının çoxtərəfli keyfiyyətləri haqda kifayət qədərdeyilib,yazlıb.Bu dastanın əksərməziyyətlərimüxtəlif tədqiqatçılar tərəfindən araşdırılıb. Demək olar ki, «Koroğlu»da qaranlıq heç nə qalmayıb. Fəqət bu, ilk baxışda belədir. Çünki, məlum olduğu üzrə, digər dastanlar kimi, xalq yaradıcılığının digər janrları kimi, «Koroğlu» dastanı da Azərbaycanda əsas etibarilə son yüz il ərzində elm adamları tərəfindən araşdırılmışdır. Budövr isə ideoloji təbliğat maşınının birtərəfli nəzarəti altında idi.

Bufakttəbiiolaraq,xalqınbədiiestetiktəfəkkürünə elmiyanaşmanı istiqamətləndirirdi. Ən acınacaqlı hal ondan ibarətdirki,sinfiliyi,yalançıxəlqiliyitəbliğedənqırmızıimperiyanınsü qutundan20ilə yaxınbirzamankeçməsinə baxmayaraq,xüsusilə də humanitar elmlər sahəsində necə deyərlər, «əski hamamdır, əski tas». İdeoloji yanaşma tərzi baxımından demək olarki,heçnə dəyişməyib.Yenə də Koroğlusinfimübarizə qəhrə-manı,«məzlumkütlələrlə hakimfeodalsinfi»arasındagedən«mübarizənin»«öncəbhəsindədir».Düşüncə tərzinindəyiş-məməsinin əsassəbəblərindənbirisidə uzunmüddət ərzində aparılan təbliğat və təlim tərbiyədir. Bu tərbiyənin nəticəsidir ki,bugünfərqlidüşünənaraşdırmaçılarortavə yaşlınəslinnümayəndələritərəfindənkifayətqədəraqressivqarşılanır. Buisə ilknövbədə bizimişimizi – apardığımıztədqiqatlarışübhəaltına salır.Lakin,hərşeyə rəğmənyenidövrelmimetodologiyasıqarşısıalınmazbirprosesdir.Bu prosesə qoşulmaqüçün,xüsusilə də humanitarelmlərsahəsində ideolojibaxıştərzinidəyişmək vacibdir.İdeolojibaxıştərzinidəyişməyin ənmühümtərəflərindənbiri,konkretolaraqbədii-yazılıvə bədii-

folklormətnlərinəmaterialist-ateist düşüncə ilə yanaşmaya son qoymaqdır.«Koroğlu»dastanınınürfanitərəfləri əsasetibarilə onunşəxsiyyəti ətrafında nəzərə çarpır. Onun Alı kişinin oğlu olması,«Qoşa bulaq»dan su içməçi, Qıratla Düratın səmavi ata dönmə-ləriniqırxgüngözləməsi,bütünbunlar əslində mifiksüjetlər olmasınabaxmayaraq,batinianlamdaürfanidir.Bəllioldu ğuüzrə, «Koroğlu»nun Orta Asiya variantlarında bir adı «Qoroğlu»,digər adı «Goroğlu»dur. «Qoroğlu» heç şübhəsiz ki, «od oğlu»,«atəşoğlu»dur.Digəranlamdaisə bu,yəqinki,işıqoğlu,nuroğludur.Uzunzamanaparılantədqiqatlarda bukeyfiyyətlərmifolojisayılsadabizcə bunlardahaçoxilahiyyatla,ruhanirabitə ilə bağlıdır. Əlbəttə,mifdə də ilahi,ruhanikeyfiyyətlərmövcuddur.Lakin,mübahisəliolan,mifdə bukeyfiyyətlərinmövcud olub-olmaması deyil. Mübahisəli olan, müasir mifologiyadahəminkeyfiyyətlərə baxıştərzidir.Heçkəsə sirrdeyilki,mifologiyaelmisəmavidinlərə qədərkiinsantəfəkkürünüaraşdırdığıüçünruhani-mistik,dolayısıilə ürfanigörüşlərdənuzaqtutulmuşdur.Burada əlbəttə ki,materialistdünyagörüşün, xüsusilə də elmi ateizmin «xidməti» az olmamışdır. Yəni, dahadəqiqifadə etsək,çoxlusaydamətləblərmifolojimetodlarlailahiyyatprizmasında nkənardatədqiqedilmişdir.Bizimdüşüncələrimizə görə isə, istər səmavi dinlərə qədər olsun, istərsədə əksəriyyətirealşəxsiyyət olaraqmüasirtarix elmində təsdiqolunmayan peyğəmbərlərin gəlişindən sonra insan təfəkkürü ilahirabitədənkənardaqalmamışdır.Burabitə isə,çoxlarınındüşündüyükimi,təbiəthadisələri ətrafındayarananqorxuvəanlaşılmazlığınnəticəsideyil,insanoğlunu nöziçindəndoğanmənəvi-ruhi ehtiyacların göstəricisi olmuşdur. Bu mənada dastansüjetlərimüəyyənmənadamifolojiolsadaruhani-ilahivəxüsusilə ürfani keyfiyyətlərdən xali deyildir.

Budeyilənlərigözönünə alaraq,«Koroğlu»nun əksərtürkdilli xalqlarda mövcud olan müxtəlif variantlarında ürfan vətəsəvvüfelementləribarədə düşünməkfaydalıbirişolardı.Yuxarıdaqeydetdiyimizkimi,dastanındi gərbiradıda«Goroğlu»dur.Məlumdurki,«goroğlu»torpaqoğludur.Or taAsiyadaməşhurolanbuvariantdaqəhrəmanqəbirdə,torpağıniçində doğulur. Torpağın ürfani, sirli mahiyyəti təkcə təsəvvüfdəyox,eynizamandadiniqaynaqlardadamövcuddur.Məsələ n,Həzrət Əlinintarixə məlumolankunyələrindənbiridə «ƏbuTurab»dır. «Əbu Turab» ərəb dilində «torpağın atası» deməkdir.Bu adın ona verilməsinin kökündə yenə də ürfani mətləblər yatır.Belə ki,insanıntorpaqdanyaranışıbirbaşadinimotivolsadaəksərdünyaxalq larınınmistikvə mifolojidünyagörüşündəmövcuddur. Təsəvvüfün «mərifət», əsasən də «həqiqət» mərhələ-sində Həzrət Əlininmövqeyi, şəxsiyyətibuməsələyə yaşılişıq tutur. Belə ki, onun «Yaradanın məzhəri», «Xudanın zatı» olması torpaqdanyarananinsanınmürşidi,dolayısıilə atasıolduğu xəbərləriniverir.Təsəvvüfdəkibaşqabirməsələ HəzrətiFatimənin «torpağın anası», ümumiyyətlə, torpağın onun bir simvoluolmasıdır. Bu əfkarıniçərisində,yəni,HəzrətiFatimənin«torpaq»la əlaqəsininbətnində onundatorpaqkimi,dünyayagətirmək keyfiyyətinin mövcud olmasındadır. Bəlkə də dilimizdəməşhur olan«anatorpaq»ifadəsinin kökündə də elə bumətləbyatır.Beləliklə,görünürki,torpaqlabağlıürfanimətləblərin«K oroğlu» dastanındakı yeri təsadüfi deyildir. Buna bir sübut dadastandakı Alı kişi obrazıdır. Çox güman ki, «Alı» adı «Əli»ninAzərbaycan türkcəsindəki təhrif varitantıdır. Elə bəzi bölgələrdəvə müxtəlif aşıqların dilində «Alı kişi» sözü «Əli kişi» kimi ifadəolunur.«Koroğlu»nunməşhurolduğuAnadolubölgəsində isə«Əli» adı «Ali» olaraq tələffüz olunur. Bu da onu deməyə

əsasverir ki, Koroğlu Əlinin«Əbu Turab»ın«Torpaq Atası»nıntorpağınoğludur.Məhzürfanitəhlillərvasitəsilə «Koroğlu»nun«Goroğlü» ilə batini əlaqəsi meydana çıxır. Bu fikirlər müəyyənqədəqsubyektivgörünsə də hərhaldafərqlidüşünməyə vəməsələlərə fərqli metodlarla yanaşmağa əsas verir.Yuxarıdaqeydetmişdikki,ürfaniqaynaqlarda adıxüsusiməntiqlə «ƏbuTurab»kimikeçənHəzrət Əlininbirmənəvikeyfiyyətidə HəzrətiAdəmin,ümumiyyətlə insanoğlununustadı,piriolmasıdır.Koroğlununkamillikməqamınaqə dəryüksəlməsində atasının onamürşidliyi, ustadlıqetməsi dastanınəsastəməlprinsiplərindənbiridir.Təhlillərdəndə göründüyükimi, Alı kişinin təsəvvüfi anlamda Həzrət Əlini təmsil etməsi buməsələdə müəyyən uyğunluq və məntiq yaradır. Biz qeyd etdikki, Alı kişi obrazı həm də ustadlıq anlayışını özündə ehtiva edir. Alı atadır. Atanın həm də ruhani ustad olması faktoruna biz DədəQorqudunsimasındaaydınrastgəlirik.QorqudAtanınatalığı,dəd əliyionunməhzustadlığının,pirliyiningöstəriciləridir.Buparalel onu göstərir ki, Koroğlunun atası Alı kişi də onun cismaniatası olmaqdan daha çox, ruhani atasıdır, yəni, ustadı, mürşididir.

Buradanbelə birməntiqinəticə çıxırki,ustadruhaniolduqdaşagirddə ruhaniolur.Çünki,ruhaniustadruhibilgilərötürür. Dolayısı ilə irşadla məşğul olur və deməli, mürşiddir.Budüşüncələrintəməlində dayanan əsasmətləb odorki,

«Koroğlu»dastanınınvə ümumiyyətlə,AzərbaycanTürkxalqdastanlarınınmotivində zahiriqəhrəmanlıqdan,cismaniməhəbbətdən,materialməişət əhvalatlarındançox,batini,ruhi,ilahiinformasiyalar yatır.«Koroğlu» dastanının son nəşrində maraqlı bir məqama rastgəlirik.«Koroğlununiyirminciməclisi»ndə KoroğlununməhzHəzrət Əli ilə batini, ruhani ünsiyyəti nəql edilir. Koroğlu

onunlayuxudagörüşür.Lakinməlumdurki,bu,adiyuxudeyil,həvaləd ir,mürşidinmüridə ilqası,pirinöztalibinə ruhanimüjdəsidir. Koroğlu isə gördüyü «röyanı» belə nəql edir:

*Canım ata, necə türkü söylərəm,*
*Aç qulaqun, sözlərimi eşit bir.*
*Qadir Allah verdi mənim payımı,*
*Aç qulaqun, sözlərimi eşit bir.*

*Ağam Əli verdi, içdim badəni,*
*İtimişdim, yaxşı tapdım caddəni,*
*Həqq ucaltdı bu türkəman zadəni,*
*Aç qulaqun, sözlərimi eşit bir.*

*Ağam Əli qurşuyubdur belimi,*
*Uzun edib düşmən üstə dilimi,*
*Tərk edirəm Cəlali tək elimi,*
*Aç qulaqun, sözlərimi eşit bir.*

*Ağam Əli görünübdür gözümə,*
*Həqq qapusu açılubdur üzümə,*
*Koroğluyam, bir qulaq ver sözümə,*
*Aç qulaqun, sözlərimi eşit bir.*[137]

Biz bu mətni «Koroğlu»nun Təbriz variantından nümunəgətirdik. Bizim məhz bu varianta müraciət etməmiz heç də təsadüfi deyil. Əvvəla onu qeyd edək ki, dastanın Təbriz variantındaəvvəlki nəşrlərdən fərqli olaraq, dini mövhumatçılıq adı altındaunutdurulan mətn və süjetlər mövcuddur. İkincisi isə, bu variantümumiyyətlə,«Koroğlu» nun digər başqa variantlarından həmideya, həm də məzmun baxımından köklü şəkildə fərqlənir.Məhz bu fərqlilik bizə imkan yaradır ki, dastandakı ürfani, sufiyanə meylləri və elementləri üzə çıxarıb,

[137] Koroğlu, Bakı, Səda, 2005, 751 səh. s.457

təhlil edə bilək.

Dastanın bu variantında Koroğlunun atasının adı Alı kişideyil, Mirzə bəy olaraq keçir. Lakin bu heç də qəhrəmanın Həzrət Əli ilə bağlılığına dair yürütdüyümüz fikirlərə xələl gətirmir.

Əksinə, bu variantda həmin məsələ daha da qüvvətli şəkildə təzahür olunmuşdur. Onu da vurğulamaq istərdik ki, Koroğlunun atasının adı məsələsi dastanlardakı variantlılıq məsələsidir ki, bu dabizim araşdırma dairəmizə daxil deyildir.

Yuxarıda təqdim olunan mənzum nümunədə, qeyd etdiyimiz kimi, Koroğlu Həzrət Əli ilə batini əlaqəyə girir. Təbii ki, bu əlaqə ustad-şagird, pir-mürid əlaqəsidir. Bu mənzumədə maraqlıfikirlər yer almışdır. Məsələn, «**Ağam Əli verdi, içdim badəni**»misrasında ənənəvi ürfani meydən, batini sirrləri ortaya çıxaranruhani məstlikdən söhbət gedir. Bu meyin, bu məstliyinmahiyyətində məhz elə Həzrət Əliyə məxsus olan gizlin təriqətbilgiləri, təsəvvüf elmi yatır ki, biz bu mətləblər haqqında əvvəlki fəsillərimizdə geniş izahlar vermişdik. Daha sonra deyilən«**Ağam Əli qurşuyubdur belimi**» misrası özündə bir çox sirrləriehtiva edir. Burada söhbət müəyyən ürfani məqama yetişmişmüridin belinə bağlanan təriqət kəmərindən gedir. Bu kəmər birmənada da mürşidə bağlılıq rəmzi olan eşq kəməridir. Ümumiyyətlə, istər ürfanda, istərsə də xalq adət və ənənələrində bel bağlamaq xüsusi bir mərasimdir. Belin bağlanması, qurşanmasımüəyyən yerə, ocağa, müəyyən şəxslərə bağlanmağın, sədaqətinnişanəsidir. Tutaq ki, gəlinin belinin bağlanması onun qədəmqoyduğu ocağa bağlayır, ona bağlılıq və sadiqlik məsuliyyətiyükləyir. Ruhani çevrələrdə isə, bu, xüsusi bir ayindir. Əksərtəsəvvüf təriqətlərində həmin mərasim bu gün də icra olunur.

Bunun ən bariz örnəyi Əhli-Həq zümrəsindəki cəmxanalar-dadır.Əhli-Həqlər Cəm ayini zamanı mütləq şəkildə bellərini bağ-layırlar. Həmin qurşaq yalnız pirin, Cəm şahının çevrəsində otu-

ranlara, onların öz təbiri ilə desək, «çevrəyə girənlərə» şamil edilir.

Yəni, dolayısı ilə, bu bir məqamdır ki, hər kəsə bu məqam nəsibolmur.Bu amilləri nəzərə alaraq, söyləyə bilərik ki, Həzrət ƏlininKoroğluya badə verməsi, onun belini qurşaması ürfani fəlsəfənintərkib hissəsidir. Həmin mənzumənin son bəndində ürfanibaxımdan daha da irəliyə gedən fikirlər öz əksini tapmışdır:

*Ağam Əli görünübdür gözümə,*
*Həqq qapısı açılıbdır üzümə…*

Bu misralar Dədə Qorqud fəlsəfəsindəki təsəvvüfelementləri ilə bağlı toxunduğumuz «didar» görüş məsələsiniəks etdirir ki, bu məsələ ürfani çevrələrdə kifayət qədər cəsarətlivə batini məqam tələb edən bir şeydir. Koroğlunun gözünəHəzrət Əlinin görünməsi iki ayrı mətləbin ortaya çıxmasına şə-rait yaradır. Bunlardan biri, İslam Peyğəmbərinin Həzrət Əlininşənində buyurduğu **«Ənə mədinətü-lelm, Əliyyən babuha»«Elmin şəhəri mənəm, qapısı Əlidir»** kimitanınan məşhurhədisidir ki, bu hədis həmin misrada tam mənası ilə öz bədiiəksini tapmışdır. Belə ki, buradakı «Həqq qapısı» ifadəsini «elmqapısı»,«elm şəhərinin qapısı» kimi təvil etsək, zənnimizcə,yanılmarıq. Yəni, «Əlini görmək» onu tanımaq, onu tanımaq isəRəsulallahın mənsub olduğu elm şəhərinə varid olmaqdır. Bu,məsələnin zahiri, yəni, şəriət elmi tərəfindən qəbul olunanversiyasının şərhidir.Həmin misralarda əks olunan digər məsələ, sırf təsəvvüfdünyagörüşü ilə bağlıdır. Özü də həmin dünyagörüş ürfanizümrələr içərisində ən çox Əhli-Həqlərdə daha qabarıq və aydınşəkildə tərənnüm olunur. Belə ki, Həzrət Əlinin Xudanınməzhəri, Həqqin zati təcəllası olması haqdakı inanc sistemi məhzƏhli-Həqlərdə, ruhani təkamülün «həqiqət» adlanan pilləsindəmövcuddur. Biz bu barədə də əvvəlki bəhslərmizdə ətraflıməlumat vermişdik. Beləliklə, gəlilən nəticə budur ki, Həzrət Əlini görməklə, Koroğlu əslində Həqqin özünü görür.

Dastanda Koroğlu sanki bu sözlərlə kifayətlənməyib, ikinci

şeiri oxuyur. Həqiqətən də bu parçada həmin mətləblər daha da qabarıq, daha da kəskin şəkildə ifadə olunur:

*Ata, məni çox eyləmə məlam ət,*
*Başımda var Ağam Əli havası,*
*Qəni Mövlam badə verüb, içmişəm,*
*Gecə-gündüz zövq artırır səfası.*

*Namərdilən bir meydana girmənəm,*
*Nitq eyləsə, qulaqımı vermənəm,*
*Xudam qoysa, baş düşmənə vermənəm,*
*Başımda var Ağam Əli havası.*

*Ovçu kimi bu dağları gəzərəm,*
*Qəvvas olub dəryaları üzərəm,*
*Qərəquştək düşmən başın üzərəm,*
*Başımda var Ağam Əli havası.*

*Qoç Koroğlu sığınıbdır Xudayə,*
*Şahlar Şahı Əli kimi Mövlayə,*
*Düşmən başın keçirərəm cidayə,*
*Başımda var Ağam Əli havası.*[138]

Qeydetdiyimizkimi,buşeirdə ürfanimətləblərdahaqabarıq və cəsarətli şəkildə təcəssüm olunmuşdur. Koroğlu buradaeşqhavasındansözedərək,bunu **"başımdavarAğam Əlihavası"** deyə ifadə edir. Bu ifadə həddindən ziyadə məhrəm vəistidir.Belə ki,buradasırfdərvişanə və sufiyanə tərzdə "Əli eşqi"tərənnümedilir.ButərzistəristəməzböyükŞahXətaininmisraları nıxatırladır.(BizŞahXətaidənbəhsetdiyimizbölmələrdə onunHəzrət Əlinivəsfedənmənzumələrinə şərhvermişdik).Bizyuxarıdadaqeydetmişdikki,dastanınbuvariantın

[138] Koroğlu, Bakı, Səda, 2005, 751 səh. s.457-458

da ürfani, mistik ruhani məqamlar daha çox və müxtəjifsüjetlərbaxımındandahaöndədir.Ümumiyyətlə,bizbufikirdəyik ki, "Koroğlu" dastanının və özəlliklə də Koroğlu obrazınınözününmahiyyətində ruhanimübarizə,mənəvimücadiləgizlənmişdir. Əkstəqdirdə qılıncla,qanla,yaxuddazahirimə-həbbət, məlum məişət elementləri ilə hər hansı bir dastan və yaxalqyaradıcılığınındigərjanrları əsrlərboyuyaddaşlardaqalabilməzdi.Bütünbudeyilənlərdənbelə birnəticəyə gəlməkolarki,Azərbaycandastanlarıhəmzahiri,həmbatinişəkilləriöz ündəehtivaetməklə,cəmaviinformasiyalarınbədiiformatınauyğunolaraqməcazlıqvə simvolikakeyfiyyətlərinə sahibdir.Bukeyfiyyətləreynizamandaşifahixalq yaradıcılığınındigərjanrlarına, o cümlədən nağıllara, bayatılara, xalq mahnılarına dasirayət etmişdir. Zənnimizcə, həmin özəllik Azərbaycan türklərininvə Türkdünyasınınmənəvi-ruhitəkamülə,bəşərivə İlahisevgiyə olangüclümeylindənirəligəlir.Eynizamandaqeydetməkyerinə düşərdiki,bukeyfiyyət,yəni,həmhadisə vəsüjetlərdə, həm də konkret söz və ifadələrdə aparıcı ünsürlərdənolan məcaz və rəmzlilik klassik Şərq poeziyasının, ürfani divanədəbiyyatının əsas keyfiyyətidir. Hər iki cəbhənin, həm klassik,həmdə şifahixalqyaradıcılığınınhəminbədii-fəlsəfiaspektdəbirinindigərinə qarşılıqlıtəsiritamamilə mümkünolanbirşeydir. Bu məsələdə zaman və məkan fərqliliyi önəmli rol oynasada ürfan və təsəvvüf anlayışı o qədər geniş və əhatəlidir ki, hərhansıbirdastanındivan ədəbiyyatınümunəsinə və ya əksinətəsiri özünü kifayət qədər bariz şəkildə göstərmişdir. Biz bu halıdahaçoxməhəbbətdastanlarındamüşahidə edirik.Belə ki,budastanlarınbirçoxundasevgisimvolikxarakterdaşıyır.Yəni,sevilənşəxssevənşəxsüçünbirbəhanə,birvasitə olmuşdur.

Aşiq özhəqiqiməşuquna – həminhəqiqətingizlimənbəyinə –

İlahibaşlanğıcaqovuşmaqüçüninsanisevgidən,məcazi məhəbbətdənkeçməliolur.Buməqamdaistər-istəməzböyük Şah İsmayıl Xətainin məşhur misraları yada düşür:

***Batinimdə dedi mənə bir əziz,***
***Məhəbbətdən keçən həqdən də keçər.***
***Verməz nəsibini kəsin qəzasın,***
***Məhəbbətdən keçən həqdən də keçər...***

***Gerçək olan bir nəfəsə inana,***
***Canımız veririz qurban canana,***
***Lənət olsun iqrarından dönənə,***
***Məhəbbətdən keçən həqdən də keçər...***

***Dörd qapı, qırx məqam, yetmiş iki qat,***
***Məhəbbət dedilər təcəlliyi-zat,***
***Möminə, müslim ə xeyir, nəsihət,***
***Məhəbbətdən keçən həqdən də keçər...***

***Məhəbbət dediyin xaslar xasıdır,***
***Məhəbbət olmiyan həqqin nəsidir?***
***Dost Xətainin bu həq nəfəsidir,***
***Məhəbbətdən keçən həqdən də keçər.***

Bəhs etdiyimiz məsələ bu şeirdə kifayət qədər aydın şəkildəifadəolunmuşdur.Buradakı"Həq"Allahdır.Hər bənddətəkrarolunan sonuncu misrada Şah Xətai israrla bəyan edir ki, zahiri,dünyəviməhəbbətəslində İlahiməhəbbətdir. İnsanısevəbilməyən Allahı sevə bilməz! **"Məhəbbətdən keçən həqdən dəkeçər"** misralarındanhəmdəobəlliolurki,məhəbbətinsınağından keçən

haqqın da sınağından keçər. Zənnimizcə, bu misradanbaşqabirmənaçıxarmaqmümkündeyildir.Çünkiburada"məhəbbət"və"həq"sözləriayrılıqdagötürülərək,mənabaxımından qarşı-qarşıya qoyulur. Haq sevgisi ilə insani sevgi müqayisə edilir. Əvvəl ziddiyyət, sonra isə vəhdət yaranır. **"Məhəbbətdedilərtəcəlliyi-zat"** misrasibufikridaha aydınşəkildəisbatedir.Yəni,Xətaixüsusiolaraqbəyanedirki,zahirdəgörünənbütüngözəlliklər Zatın – Haqqıntəcəllasıdır. Əslindəinsan insanadeyil,insandakıtəcəllayaaşiqdir.Bumənadaməhəbbət dastanlarındakı sevgili obrazları ürfani rəmzliliyin bariz nümunəsidir.

Beləcə Ariflərin Haqqa Qovuşma Məqamı haqqında nələri deyib və nələri deyə bilmədiksə onu əziz oxucuların ixtiyarına buraxırıq. Son olaraq Türk şairlərindən Mehmet Demirerin aşiqlərin qibləsi və ariflərin əzəm ustadı Əsədullahi-qəvi Həzrət Əliyə (ə) yazdığı "Ali diyordu" rədifli bir gözəlləməsi ilə yekunlaşdırırıq:

***Leyla çiçeklere şöyle bir baktı***
***Baktı ki çiçekler Ali diyordu***
***Ali'ye ulaşmak aşk ister kardeş***
***Aşk'a gelen güller Ali diyordu***

***Şemsini aradı yıllarca belki***
***Mevlana dönerken Ali diyordu***
***Nemrut'un yaktığı alevli ateş***
***Birden söner iken Ali diyordu***

***Kuyuya varınca dertleşmek için***
***İnan ki kuyu da, Ali diyordu***
***İbni Mülcem, vurdu ama darbeyi***
***Vallahi kılıç da Ali diyordu***

*İlim kapısını gösterdi Resul*
*Kapı açıldıkça Ali diyordu*
*Başa geçen nice zorba insanlar*
*Başı sıkışınca Ali diyordu*

*Ali doğacaktı Kâbe açıldı*
*Açılırken Kâbe Ali diyordu*
*İçeri girdiler açılan yerden*
*Kâbe'de misafir Ali diyordu*

*Nuh Besmele çekti bindi gemiye*
*Halatı sökerken Ali diyordu*
*Yusuf'u kuyudan çıkaran insan*
*İpini çekerken Ali diyordu*

*Yakup Yusuf için gözyaşı döktü*
*Dökülen damlalar Ali diyordu*
*Musa Tur dağına gidip gelirken*
*Ne güzel insan bu Ali diyordu*

*Eşin hayırlısı kimdir deyince*
*Fatıma: ey baba, Ali diyordu*
*Miraçta ne gördün yüce Peygamber*

*Perde arkasında Ali diyordu*

*Ali peygamberi çok seviyordu*
*Peygamber her yerde Ali diyordu*
*Hazreti İbrahim Halil'di ama*
*Allah'a âşıktır Ali diyordu*

*Peygamber sözünden bir şey anlayın*
*Beni kefenlesin Ali diyordu*
*Veda haccında da onca Sahabe*
*Bize Mevla oldun Ali diyordu*

*Kerbela çölünde İmam Hüseyin*
*Dedem Resul, babam Ali diyordu*
*Yezit'e sordular ne istiyorsun*
*Bizim düşmanımız Ali diyordu*

*A yazılmış Ali' ninde başına*
*Bir gün sordum yüzüğümün kaşına*
*Bana dedi elini koy döşüne*
*Allah, Muhammed ve Ali diyordu*[139]

[139] F.Salim, Milli yaddaş sistemində Ürfan və təsəvvüf. Elm və Təhsil. Bakı-2010. Səh. 394-396

***Qeyd:***

***Kitablarından***
***istifadə etdiyim müəlliflərdən***
***dünyasını dəyişənlərin ruhlarına***
***Allah-Təaladan rəhmət diləyirəm,***
***yaşayan müəlliflərə isə uzun***
***ömür, can sağlığı***
***arzulayıram.***

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


1. Qurani-Kərim.
2. Nəhcül-Bəlağə.
3. İmam Səccadın duaları, "Səhifeyi-Səccadiyyə", Bakı-2000.
4. Ustad Əllamə Təbatəbai "İrfan yolu". Bakı, Nurlar-2014.
5. Ayətullah Möhsin Qəraəti. "Nur təfsiri" I cild. Bakı, 2000. (Tərc. H.Arzu)
6. Şeyx Abbas Qumi, "Rəsulullah", Əndişeyi-Hadi nəşr.-2004, (Tərc. Mirəyyub Haşımov)
7. Hacı Əbdürrəhman Yusifpur. "Qurani-kərimin otuzuncu cüzünün təfsiri", Baki-1999, II cild.
8. Ustad Əli Hicrani. "İmam Əlinin (ə) rəftarı". 2006.
9. Şahlar Şərifov, "İslam tarixi". Bakı. Nurlar-2013.
10. Axund Hacı Soltan Hüseynqulu oğlu, "Həzrət Əli (ə) və dünya ədəbiyyatı" Bakı, «Tural-Ə» NPM, 2001. «Məsumnamə», Bakı, «Ozan», 1999.
11. Axund Hacı Soltan Hüseynqulu oğlu. "Gizli xəzinələrdən incilər", Bakı. "Tural-Ə"N.P.M. – 2002.
12. Rza Berenckar. "İslamda məzhəblər və təriqətlər". Bakı. Nurlar-2015. (Tərc. İlqar İsmayılzadə)
13. S.Ə.Ocaq Nejad «Ya-Sin» surəsinin təfsiri, Bakı-2004.
14. Seyyid Kazım Pərpənci, "Üsuliddin", Bakı-MBM", mətbəəsi-2008.
15. Mürtəza Mütəhhəri. "İslam elmləri ilə tanışlıq", Bakı-2011.
16. Əllamə Kuleyni, "Usuli-Kafi"Bakı-2005
17. İmam Xomeyni"Eşq qibləsi".Tərcümə edəni:Mübariz Əlizadə. Bakı, "Səda"-nəşr.-1999.
18. Ustad Məhəmmədtəqi Cəfəri, "N.Gəncəvinin şeirlərində hikmət,irfan və etik mövzular.Bakı-1996.

19. Şah İsmayıl Xətai. «Keçmə namərd köpüsündən». Bakı, Yazıçı, 1998
20. Şah İsmayıl Xətai. «Sazım». Bakı, Gənclik, 1972
21. Mövlana Cəlaləddin Rumi, "Mənəviye-Məsnəvi», Bakı, Adiloğlu-2002. (Tərc. S.Şirinov)
22. Mirzə Vərağa Almaslı, "Həzrət Əli(ə) aşiqi Füzuli", Bakı-2010.
23. Baba Tahir Üryan. «Dübeytilər». Bakı, Yazıçı-1988.
24. Fəxrəddin Salim. "Milli yaddaş sistemində irfan və təsəvvüf", Bakı, "Elm və Təhsil", 2010.
25. Hacı Valeh Lənkərani. "Ziya", Bakı, 2008.
26. M.Füzuli "Seçilmiş əsərləri". Bakı, Maarif nəşr.-1983.
27. Samət Əlizadə, "Şah Beytlər", Bakı, ADN-1995.
28. Əmin Sədiqi, "Füzuli Türk divanı". Tehran-1996.
29. Ramiz Faseh. "Füzuli şeirində təsəvvüfi qaynaqlar". Bakı. - "Elm", 2000.
30. İbrahim Murat. «Hacı Bəktaşi Vəlinin 14 sirri». «İlgi yayınları», 2006.
31. Nəsib Cümşüdoğlu, «Füzulinin sənət və mərifət dünyası» Bakı-1997.
32. Hacı Ələmdar Mahir, "Külliyat" Bakı, Adiloğlu-2009.
33. Hacı Ələmdar Mahir, "Mənim tanıdığım Füzuli", Bakı, Nurlan-2009.
34. Hacı Yusif Qulammirzə oğlu, «Bu fani dünyadan məşhərə qədər», Bakı, Adiloğlu-2010
35. Hacı Yusif Qulammirzə oğlu, «İlahidən gələn sevgi», Bakı, Adiloğlu-2010
36. S.Ə.Şirvani, "Əsərləri"3 cild. Bakı Az SSR, EA nəşriyyatı – 1967
37. N.Rza. Muhəmməd Füzulinin "Leyli-Məcnun" əsərinin bədii nəşrlə şərhi. Bakı Azərnəşr-1999.
38. M.T.Qumri Dərbəndi, "Kənzül-məsaib", əski əlifbadan çevirən Rəhimağa Naşir İmaməliyev, Bakı-1999
39. S.M.Şəhriyar, "Divani-Türk", Bakı-1997.

40. Rövşən Fətişoğlu, "Kitabi Dədə Qorqud eposunda dini dünyagörüşü" məqaləsi.Bakı-2009, «Hikmət» jurnalı, №15, səh. 87-102.
41. Hafiz Şirazi, "Seçilmiş şeirlər", Bakı, ADN-1967.
42. F.Cəfakeş. «Qəzəllər». Bakı, «Zaman», 1998.
43. M.P.Vaqif, "Qəzəllər". Bakı, "Şərq-Qərb"-2004.
44. S.Ə.Şirvani. "Qəzəllər", Bakı, AND-1960
45. ƏminSədiqi, "M.FüzuliTürkcədivanı", Tehran-1996.
46. Yunis İmrə, "Güldəstə". Bakı,Yazıçı-1992.
47. Yunis İmrə, "Əsərləri", BakıŞərq-Qərb nəşr.-2009.
48. Sinan Yagmur, "Eşqin göz yaşları", Bakı,"Apostrof"Çap Evi-2012.
49. "Mənsur Həllacın sirli dünyası", Bakı,"Adiloglu"nəşr.-2006.
50. N.Gəncəvi, "Sirlər Xəzinəsi", Bakı,Yazıçı-1988.
51. Mirzə Rəsul İsmayılzadə"Ş.İ.Səfəvi(Xətai) Külliyyatı", Bakı Beynəlxalq Əlhudə nəşr.-2004
52. Kitabi-Dədəm Qorqut, Bakı, Yeni Nəşrlər Evi, 1999.
53. Azərbaycan dastanları, "Koroğlu dastanı", M.H.Təhmasib, Müqəddimə. Bakı ADN-1969
54. S.İ.Nəsimi "Seçilmiş əsərləri" Bakı, Azərnəşr-1973.
55. Hüseyn Cavid "Əsərləri" Bakı, Yazıçı-1984.
56. H.Ə.Raci "Seçilmiş əsərləri" Bakı, "Sabah" nəşr.-1992.
57. H.Ə.Mahir "Səadət intizarında" Bakı, Ağrıdağ" nəşr.-1998.
58. S.Nigari "Xaki-payın,taci-sərim" Bakı, Azərbaycan nəşr.-2004.
59. X.Şirvani "Seçilmiş əsərləri" Bakı, Yazıçı nəşr.-1987.
60. H.Mail "Divan" Bakı-2006.
61. M.Ə.Sabir "Hop-hopnamə" Bakı, Yazıçı-1980,1992.
62. S.Ə.Nəbati "Seçilmiş əsərləri" Bakı, Yazıçı-1985.
63. S.İ.Nəsimi "Mən bu cahana sıgmazam". Bakı, Gənclik-1991.
64. Şeyx Abbas Qummi "Beytul-Əhzan" Bakı, Ələm nəşriyyatı-2014.
65. Ə.Vahid "Qəzəllər" Bakı, Azərnəşr-1989.

66. Kürdəxanı Bakı, Qarabağ-2008.
67. Əvhədi Maleagayi "Cami-Cəm". Bakı-1970.
68. «Misgin Abdal». Bakı, Səda, 2001
69. Qurbani-Bakı Universiteti nəşr.-1990.
70. Xəstə Qasım, “46 şeir”, Bakı, Gənclik-1975.
71. Xəstə Qasım, “AMEA Folklor İnstitutu”, Bakı-2010.
72. Aşıq Alı"Şeirlər", Bakı-1975.
73. Aşıq Ələsgər. “Gözüm bir alagöz xanıma düşdü” Bakı. Yazıçı-1993.
74. Aşıq Ələsgər. “Əsərləri, dastan-rəvayətlər, xatirələr” Bakı, Şərq-Qərb-1999.
75. Növrəs İmam. «Seçilmiş əsərləri». Bakı, Səda-2004
76. Aşıq Xındı Məmməd", Meydanda mərdi-mərdanə", Bakı-2001.
77. Şair Nəbi Borçalı, "Sıgındım Mövlaya", Bakı-2013.
78. Aşıq Şəmşir (Kəlbəcərli), “Öyüdlər”, Bakı, “Ozan” nəşr.-1996.
79. Cəmilə Çiçək. “Kəlbəcərin saz qalası”. I kitab. “Sən dağlardan ayrılmadın”, III kitab, Bakı, “Azərnəşr”-2013.
80. Aşıq Əhməd Rüstəmov, "İtən sazım", Bakı, Şur nəşr.-1995.
81. Aşıq Kamandar Əfəndiyev, "Mən ellər aşıgı Xan Kamandaram", Bakı-2008.

## MÜNDƏRİCAT:

ÖN SÖZ ... 6

REDAKTORDAN ... 14

MÜƏLLİFDƏN ... 17

**I FƏSİL**

ALLAH YEGANƏDİR ... 26

ŞƏHİDALLAH AYƏSİ ... 29

SEYİD BƏHRUL-ULUM ... 33

İSLAMDA ÜÇLÜK ... 39

PƏNCİ-TƏNİ-ALİ-ƏBA" MƏCLİSİ – BEŞLƏR CƏMİ ... 43

ƏHLİ – BEYT (Ə) HAQDA HƏDİSLƏR ... 54

HƏDİSİ-KİSANIN TARİXİ SƏNƏDLƏR BAXIMINDAN SÜBUTU ... 56

HƏDİSİ-KİSA ... 59

"KİSA" HƏDİSİNİN TƏRCÜMƏSİ ... 61

HƏZRƏT ƏLİNİN (Ə) VİLAYƏTİ ALLAHIN VİLAYƏTİDİR ... 65

PEYĞƏMBƏRİN (S) SADİQ SƏHABƏSİ HƏZRƏTİ SALMAN (Ə) ... 78

YEDDİ ULU OZAN KİMDİR? ... 113

"YEDDİ" RƏQƏMİNİN SİRRİ ... 121

**II FƏSİL**

PEYĞƏMBƏRLƏRİN (Ə) VƏ İMAMLARIN (Ə)
İSMƏTİ BARƏSİNDƏKİ ƏQİDƏMİZ ............................................126
PEYĞƏMBƏRİ-ƏKRƏMİN(S) CANİŞİNİ .....................................130
HƏZRƏT ƏLİNİN (Ə) İMAMƏTİ ..................................................133
İMAM ƏLİ (Ə) BEŞİKDƏN BEHİŞTƏ (qəsidə).............................139
DR. ALİ YAMAN. HƏZRƏT ƏLİ, ƏHLİ-BEYT VƏ
ON İKİ İMAM SEVGİSİ ...................................................................145
ON YEDDİ KƏMƏRBƏND...............................................................148
KIRKLAR MECLİSİ .........................................................................155

**III FƏSİL**

İSLAMDA DÖRD QAPI VƏ YA DÖRD MƏRHƏLƏ ..................172
S.K.PƏRPƏNCİNİN "ŞƏRİƏT", "TƏRİQƏT" VƏ
"HƏQİQƏT" MƏRHƏLƏLƏRİ BARƏDƏ DEDİKLƏRİ..............176
TƏRİQƏTİN MƏRHƏLƏLƏRİ ........................................................181
AŞIQ ƏLƏSGƏR VƏ S.Ə.NƏBATİ
YARADICILIĞNDA TƏRİQƏT.......................................................184
BATİNİ ZİYARƏT ............................................................................190
MƏLƏKLƏRİN VƏZİFƏSİ ..............................................................195
"CAMİ-CƏM" MƏSNƏVİSİNDƏ İRFAN VƏ TƏSƏVVÜF ........200

YUNİS İMRƏ VƏ Ş.İ.XƏTAİ YARADICILIĞINDA "HƏQİQƏT" AXTARIŞI ........ 205

ŞAİR NƏBİNİN VƏ KLASSİK ŞAİRLƏRİN YARADICILIĞINDA "HƏQİQƏT" AXTARIŞI ........ 215

TÜRK ƏDƏBİYYATINDA HƏQİQƏT AXTARIŞI ........ 220

ALEVİLİKTE DÖRD KAPI VE KIRK MAKAM NE DEMEKDİR? ........ 221

MİSKİN RÜSTƏM NƏVAZİ VƏ XƏSTƏ QASIM YARADICILIĞINDA "HƏQİQƏT" ........ 226

EŞQ VƏ RİYAZƏT ........ 229

ƏHLİ-HƏQQ VƏ NÜSƏYRİYYƏ ........ 233

ƏHLİ-HƏQQ TƏRİQƏTİNİN AZƏRBAYCAN AŞIQ YARADICILIĞINA BƏZİ TƏSİRLƏRİ ........ 241

ƏHLİ-HƏQQ TƏRİQƏTİNİN QAYDA-QANUNLARI ........ 250

HACI BEKTAŞ VƏLİ ........ 257

**IV FƏSİL**

TƏSƏVVÜF NƏDİR? ........ 262

TƏSƏVVÜFÜN İLK ŞƏHİDİ HÜSEYN İBN MƏNSUR HƏLLAC ........ 271

MÖVLANƏ VƏ FÜZULİ YARADICILIĞINDA "NEY" VƏ ONUN ŞƏRHİ ........ 279

SEYİD NİGARİ YARADICILIĞINDA "HU" ZİKRİ ........ 299

**V FƏSİL**

QURANİ-KƏRİMDƏ VƏ HƏDİSLƏRDƏ
ŞAİRLƏRƏ MÜNASİBƏT ......................................................................305
BABA TAHİR ÜRYAN:
ONU BƏYƏNDİM Kİ, ALLAH BƏYƏNDİ ....................................307
ÖMƏR XƏYYAM YARADICILIĞINDA "MEY" ............................315
HAQQ AŞİQİ YUNİS İMRƏ ..............................................................323
YUNUS İMRƏ VƏ AŞIQ ƏLƏSGƏR
YARADICILIĞINDA DƏRVİŞLİK....................................................330
ŞEYX FƏRİDƏDDİN ƏTTAR NİŞAPURİNİN
"TƏZKİRƏTÜL- ÖVLİYA" ƏSƏRİNDƏ İLAHİ EŞQ ...................341
EŞQ GÜNƏŞİ ŞƏMS TƏBRİZİ..........................................................345
MÜRİDLƏRİN ŞƏMS TƏBRİZİYƏ VERDİKLƏRİ SUALLAR....350
ŞƏMS TƏBRİZİ VƏ SUFİLİYİN QIRX QIZIL QAYDASI .............357
MÖVLANA CƏLALƏDDİN RUMİ....................................................366
ŞEYX FƏZLULLAH NƏİMİ................................................................375
SEYİD İMADƏDDİN NƏSİMİ ..........................................................382
ŞAH İSMAYIL XƏTAİ ..........................................................................389
Ş.İ.XƏTAİ VƏ ŞAİR NƏBİ BORÇALI
YARADICILIĞINDA "İLAHİNAMƏ"LƏR ......................................390
FƏZİLƏTLƏR SAHİBİ FÜZULİ .........................................................400
Ş.İ.XƏTAİ VƏ M.FÜZULİNİN MƏRİFƏT DÜNYASI ..................413

SEYİD ƏZİM ŞİRVANİ ........................................................................ 421
QUMRİ DƏRBƏNDİ YARADICILIĞINDA İLAHİ NUR............ 427
S.M.ŞƏHRİYAR YARADICILIĞINDA
HƏZRƏT ƏLİ (Ə) SEVGİSİ ................................................................ 437

**VI FƏSİL**

ŞAİR NƏBİ YARADICILIĞINDA
QURANİ-KƏRİMƏ VƏ ƏHLİ-BEYTƏ (Ə) MÜNASİBƏT .......... 445
AŞIQ XINDI MƏMMƏD YARADICILIĞINDA
HƏQİQƏT AXTARIŞI ........................................................................ 465

**VII FƏSİL**

İRFANDA SAZIN ECAZI.................................................................... 470
MİSKİN ABDAL VƏ AŞIQ ƏLƏSGƏR
YARADICILIĞINDA İLAHİ EŞQ 480
AŞIQ QURBANİ YARADICILIĞINDA
İRFANİ MƏQAMLAR........................................................................ 489
HACI BEKTAŞ VƏLİ KİMDİR?........................................................ 494
AŞIQ QURBANİ YARADICILIĞINDA
"ABİ-KÖVSƏR" MƏFHUMU ............................................................ 511
AŞIQ ALI YARADICILIĞINDA ƏHLİ-BEYT (Ə) SEVGİSİ......... 515
AŞIQ ALI VƏ AŞIQ ƏLƏSGƏR MƏFKURƏSİNDƏ
ƏHLİ-HƏQQ NƏZƏRİ FİKRİNİN İZLƏRİ ................................... 517

Ş.İ.XƏTAİ VƏ AŞIQ ƏLƏSGƏR POEZİYASINDA
HƏZRƏT ƏLİ (Ə) SEVGİSİ VƏ "ZÜLFÜQAR"IN ANLAMI......525

AŞIQ NÖVRƏS İMAN YARADICILIĞINDA
ƏHLİ-BEYT (Ə) SEVGİSİ....................................................................535

**VIII FƏSİL**

"DƏDƏ QORQUD" DASTANINDA DİNƏ VƏ
ƏHLİ-BEYTƏ (Ə) MÜNASİBƏT ......................................................552

«KOROĞLU» DASTANINDA İLAHİ EŞQ.....................................572

**Həsən Hüseyni**

# ARİFLƏRİN HAQQA QUVUŞMA MƏQAMI
## Şəriət, Təriqət, Mərifət, Həqiqət

*Cildin dizaynı və səhifələmə: Azər Həsənov*
*Mətni yığdılar: Dilbər Ağayeva,*
*İlkin Ağayev*

*Çapa imzalanmışdır:13.04.2016*
*Nəşrin ölçüsü: 70x100 1/16*
*Sayı 400 nüsxə*